# HEYDƏR ƏLİYEV

MÜSTƏQİLLİYİMİZ
ƏBƏDİDİR

*q ı r x  ü ç ü n c ü  k i t a b*

***noyabr, 2002 - fevral, 2003***

**AZƏRNƏŞR**
**BAKI-2013**

**BBK 32**
**Ə–56**

Buraxılışına məsul
akademik

**RAMİZ MEHDİYEV**

**ƏLİYEV HEYDƏR**
**Ə–56 Müstəqilliyimiz əbədidir.** B., Azərnəşr, 2013, 464 səh.

Bu cilddə zəmanəmizin görkəmli şəxsiyyəti, ümummilli lider Heydər Əlirza oğlu Əliyevin 2002-ci ilin noyabrından 2003-cü ilin fevralınadək olan dövrdəki çıxışları, nitqləri, bəyanat və müsahibələri toplanmışdır.

Kitabda YAP-ın 10 illiyinə həsr olunmuş yubiley mərasimində söylədiyi dərin məzmunlu nitqi, ölkəmizə səfər etmiş ABŞ, Rusiya, Türkiyə, İran, Ukrayna dövlət və hökumət nümayəndələri ilə söhbətləri, həmçinin Kiyevdə MDB-nin üzvü olan ölkələrin zirvə toplantısında ATƏT-in Minsk qrupunun həmsədrləri və «Qafqaz dördlüyü» ölkələrinin prezidentləri ilə görüşlərinə, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə beynəlxalq hüquq normalarına uyğun nizama salınmasına dair materiallar verilmişdir.

$$\text{Я - 56}\,\frac{0801000000}{\text{M} - 651(07) - 2013}$$

**BBK-32**

© Azərnəşr, 2013

# YENİ AZƏRBAYCAN PARTİYASININ ON İLLİYİNƏ HƏSR OLUNMUŞ YUBİLEY MƏRASİMİNDƏ NİTQ

*Respublika sarayı*

*26 noyabr 2002-ci il*

Əziz dostlar!

Hörmətli xanımlar və cənablar!

Sizi, Yeni Azərbaycan Partiyasının bütün üzvlərini partiyanın yaranmasının 10 illik yubileyi münasibətilə ürəkdən təbrik edirəm və doğma partiyamıza yeni-yeni uğurlar arzulayıram.

Bu gün bu salondakı əhval-ruhiyyə, bu ruh yüksəkliyi məni çox həyəcanlandırır və məndə böyük hissiyyatlar doğurur. Burada oturub sizi dinləyərkən ötən on il istər-istəməz kinolent kimi göz önündən keçir. On il! Biz bu partiyanı yaradanda onun gələcəyinə böyük inamla işə başlamışdıq. Şəxsən mən bilirdim ki, bu gələcək o qədər də şirin olmayacaq, hamar, asan olmayacaqdır. Amma indi on il keçəndən sonra o vaxt düşündüklərimin hamısı təsdiq olunmaqla yanaşı, eyni zamanda düşünürəm – biz nə qədər qüdrətli insanlarıq ki, bu ağır, çətin yolu on ildə keçdik və bu gün güclü, yüksək intellektual səviyyəyə malik olan siyasi partiyamız vardır.

Bizim partiyanın yaranma tarixi haqqında keçən görüşlərimizdə mən də öz fikirlərimi demişəm, o vaxtkı təşəbbüskarlar da öz fikirlərini deyiblər. Hər şey aydındır. Amma bu gün heç

kəsə elə gəlməsin ki, hər şey aydın olduğu kimi, hər şey də çox asan idi. On il yaşamışıq, hər birimiz yaşımıza on il də artırmışıq. Gənclər daha da kamil yaşa çatıblar. Yaşlılar bir az da yaşlaşıblar. Daha yaşlılar qocalıblar. Bu, təbii prosesdir.

On il bundan öncə biz partiyanı yaradanda məktəbə yenicə gedən uşaqlar bu gün universitetlərdə dərs keçirlər, partiyada məsul işlər görürlər. On il nə azdır, nə də çoxdur. Az deyil ona görə ki, on il müddətində görülən işlər bəlkə də 20, 30, 40 il müddətində görülən işlərə bərabərdir. Çox da deyil ona görə ki, nə olsun on ildir. On il bir şey deyil, gəldi, getdi. Hələ qarşıda yeni bir on ilimiz var.

Baxmayaraq ki, hər şey məlumdur, mən partiyanın yaranması prosesini bir daha yada salmaq istəyirəm. Çünki bunsuz ola bilməz. O vaxt – Azərbaycanın ağır, çətin dövründə insanlar doğrudan da bir nicat, ümid yeri axtarırdılar. Çoxları bunu – mən orada yaşadığıma görə – Naxçıvanda gördülər. Gəldilər, getdilər, təkliflər etdilər. Ancaq 91-lərin məktubu birdən-birə yaranmadı. Ondan xeyli qabaq bir proses getdi. Sirus Təbrizli «Səs» qəzetində böyük məqalə ilə çıxış etdi ki, Heydər Əliyevi biz özümüz gətirməliyik. Məqalə yayıldı, mən də oxudum. Mənim yanıma gəldilər ki, məqalədə hər şey yazılıbdır, indi partiyanın yaranmasına razılıq verin. Ancaq mən o vaxt razılıq vermədim. Sonra ikinci mərhələ oldu. Həmin təşəbbüskarlar böyük bir qrup ziyalının imzası ilə yenə də «Səs» qəzetində Heydər Əliyevə müraciət dərc etdilər. Azərbaycanın 91 nəfər tanınmış insanları o müraciətə imza atdılar.

Mən sizdən gizlətmirəm. Dünən o məktubların hamısını oxumuşam. Baxmayaraq ki, xatirimdədir. Ancaq on il bundan öncə olmuşdu. Dünən həm Sirus Təbrizlinin birinci məqaləsini, həm də müraciəti oxudum. Müraciətin altında imzaları olan insanların

adlarını, familiyalarını bir daha oxudum. Sonra özümün cavab məktubumu oxudum. On ildən sonra bunları təhlil etməyə və düşünməyə başladım.

Bilirsiniz, bizim partiyanın əsası ona görə möhkəmdir, ona görə güclüdür ki, biz heç bir təsadüfi fikirlərlə yaşamamışıq. Mənə göndərilən o müraciətdə də, bir tərəfdən, Azərbaycandakı vəziyyətlə əlaqədar həyəcan təbili vurulurdu, ikinci tərəfdən, Azərbaycan haqqında qayğı, düşüncələr, Azərbaycanın gələcəyi haqqında narahatlıq və eyni zamanda, bu müraciətin həm siyasi, həm də məntiqi nöqteyi-nəzərdən lazımi səviyyədə əsaslandırılması vardı. Bəli, o sənədi bu gün də siyasi ekspertizaya vermək olar. Nəticə o olacaqdır ki, nə qədər ağıllı bir müraciət idi.

Mən öz məktubum haqqında demək istəmirəm. Hər halda, yəqin ki, siz bu illərdə bir şeyi müşahidə etmisiniz. Mən həmişə özümə qarşı çox tələbkar insanam. Bəli, çox tələbkar insanam! Bəzən mən özüm-özümü daxilən tənqid edirəm və çox da ciddi tənqid edirəm. Əgər məndə həyatım boyu özümə qarşı bu tələbkarlıq olmasaydı, siz qarşınızda bugünkü Heydər Əliyevi görə bilməzdiniz.

Ona görə də mən yazdığım, göndərdiyim cavabı həmin bu tələbkarlıq hissi ilə oxudum və düşündüm ki, bəli, on il bundan öncə də tamamilə doğru-düzgün fikirlər ifadə etmişəm və onlar indi artıq bu on il müddətində tamamilə öz təsdiqini tapıbdır.

91-lər – onlar artıq dillərdə əzbər olublar. Mən 91-lərin hamısına həmişə böyük hörmət və ehtiram bəsləmişəm. Bu gün də onların hamısına – dünyadan gedənlərə Allahdan rəhmət diləyirəm, indi bizimlə bərabər olanlara səmimi-qəlbdən təşəkkür edirəm. Ona görə yox ki, 91-lərin müraciəti – sizinlə açıq danışıram – mənim həyatımda böyük bir dönüş rolu oynadı.

Yox. Siz bilirsiniz ki, biz partiyanı yaradandan 7 ay sonra xalq, o cümlədən, o vaxt iqtidarda olanlar, artıq qaçıb dağılmaqda olan insanlar məni Azərbaycana dəvət etməyə məcbur oldular. Yəni 91-lərin müraciəti olsaydı da, olmasaydı da, mən 1993-cü ildə Azərbaycana gələcəkdim.

Ancaq o vaxt müraciətin altına imzasını qoyan insanların hər biri böyük cəsarət göstəribdir. Çünki o vaxtkı terrorist rejim və xüsusən, Heydər Əliyev ilə əlaqəsi olan adamların təqib edilməsi, bəzilərinin ədalətsiz olaraq cəzalandırılması, yaxud onlara qarşı müxtəlif təxribat halları, əlbəttə, insanları qorxudurdu. Bəzən mənə deyirlər ki, sizinlə uzun müddət işləmiş bəzi insanlar siz 1987-ci ildə hakimiyyətdən gedəndən sonra lazımi ləyaqət göstərə bilmədilər. Bu doğrudur, həqiqətdir. Bəziləri ona görə ki, – sən demə, mən bilməmişəm – ləyaqətsiz imişlər. Amma bəziləri də, sadəcə, öz canından, ailəsindən, başqa səbəblərdən qorxublar. Bunların hamısını mən anlayıram və heç kəsi də günahlandırmıram. İndi burada çıxış edən Elmar Qasımov çox düzgün ifadə etdi ki, o vaxtlar doğrudan da, mənim apardığım xəttə xəyanət oldu. Belədir.

Ancaq eyni zamanda, mən bilirəm ki, insanların hamısı bir cür deyildir. Biri cəsarətlidir, nə olur-olsun, qabağa gedir. O biri isə fikirləşir ki, bəlkə bir az özümü kənarda saxlayım. Müraciəti imzalayan 91-lər məlumdur. Ancaq bilirəm ki, o müraciəti oxuyub, bəyənib imzalamayanlar da var. Onların da bəziləri məlumdur. Ona görə müraciəti imzalayan 91 nəfər o vaxt böyük cəsarət göstəriblər. Təkcə mənə görə yox. Bəli, Azərbaycanın gələcəyinə görə böyük cəsarət göstəriblər, böyük qəhrəmanlıq göstəriblər. Ona görə də hesab edirəm ki, onlar daim təkcə mənim tərəfimdən yox, hamı tərəfindən hörmətlə

qarşılanmalıdırlar. Biz onları partiyamızın əsasını qoyan veteranlar kimi, öz sıralarımızda daim saxlayacağıq.

Beləliklə, o dövrü bu gün burada yadıma salanda, dünən o sənədləri oxuyanda düşündüm ki, həm bizim partiyanı yaratmağa təşəbbüs göstərənlərin, can atanların, həm də 1992-ci il noyabrın 21-də Naxçıvanda təsis konfransında iştirak edənlərin hamısı həqiqətən vətənpərvər olublar, uzaqgörən olublar. Azərbaycanın aqibəti haqqında düşünüblər, millət, Vətən, xalq haqqında düşünüblər. İndi biz xoşbəxtik ki, on il bundan qabaq yaratdığımız kiçik bir partiya böyüyüb, şaxələnib, bütün Azərbaycanı əhatə edib və sıralarında 280 min üzvü cəmləyibdir. Hələ nə qədər də tərəfdaşları, pərəstişkarları var. Beləliklə, on ildə bizim partiyamız, Yeni Azərbaycan Partiyası kiçik bir partiyadan, çətin şəraitdə doğulan bir partiyadan böyük siyasi partiyaya çevrilib və indi Azərbaycanın aparıcı siyasi qüvvəsidir.

Biz partiyamızın adına artıq öyrəşmişik. Bəzən düşünmürük ki, partiyanın adı niyə Yeni Azərbaycan Partiyasıdır? Bu heç də təsadüfi deyildir. Çünki bilirsiniz ki, o vaxtlar müxtəlif partiyalar yaranırdı, bu, müəyyən qədər dəbə çevrilmişdi. Adında gərək mütləq ya «demokratik» sözü olaydı, ya «istiqlal» sözü olaydı, yaxud da bu cür başqa bir söz olaydı. Amma heç bilmirsən ki, partiya niyə bu adı daşıyır. Partiya yarana bilər və ona abstrakt bir ad qoyarlar – bu başqadır. Partiyanın adı onun siyasi xəttini, siyasi prinsiplərini, siyasi strategiyasını, perspektivini əks etdirməli, buna münasib olmalıdır. Bax, buna görə də biz bu partiyanın adını Yeni Azərbaycan Partiyası qoyduq.

Yəni, yeni Azərbaycan qurulur, müstəqil Azərbaycan qurulur. Yeni Azərbaycanda da Yeni Azərbaycan Partiyası olmalıdır. Ona görə bizim partiyamız başqa siyasi partiyalardan – təbiidir, mən bizim partiyamızı onlarla müqayisə etmək istəmirəm, amma nə

edək, belə partiyalar var, biz bunu inkar edə bilmərik – ona görə fərqlənir ki, partiyanın adı da onun məqsədlərinə və bugünkü günə uyğundur. Müstəqil Azərbaycan yeni Azərbaycandır. Müstəqil Azərbaycanda yeni ictimai-siyasi quruluş yaranıbdır. Yeni iqtisadiyyat formaları yaranıb, demokratiya, siyasi plüralizm inkişaf edir. Belə bir yeni Azərbaycan keçmişdə yaşadığımız, keçmişdə olan Azərbaycandan fərqlidir. Ona görə partiyamızın adı da Yeni Azərbaycan Partiyasıdır. Məhz Yeni Azərbaycan Partiyası müstəqil Azərbaycanı müstəqillik yolunda inkişaf etdirməyə qadir bir partiyadır.

Partiyamız xüsusən son illərdə yaxşı təşkilatlandı, yaxşı inkişaf etdi. Mən partiyanın I qurultayında gördüyümüz təşkilati tədbirlərin özünü doğrultduğunu qeyd etmək istəyirəm. Xatirinizdədir, biz o vaxt, 1999-cu ildə partiyanın strukturunda dəyişiklik etdik və İcra Katibliyi yaratdıq. Daimi fəaliyyət göstərən, başqa heç bir dövlət işləri ilə məşğul olmayan, yalnız partiya işləri ilə məşğul olan İcra Katibliyi, onun aparatını yaratdıq. Yerlərdə partiya təşkilatlarını icra orqanlarından ayırdıq və sərbəst, müstəqil partiya təşkilatlarının yaranmasını təmin etdik. Bunlar hamısı partiyada yeni ab-hava yaratdı, partiyanın daha sürətlə təşkilatlanmasına gətirib çıxardı və bugünkü səviyyəyə gəlib çatmasına xidmət etdi. Mən hesab edirəm ki, biz bunu bu gün xüsusi qeyd etməliyik.

Bizim partiyamızın qəzetləri də son illər yaxşı fəaliyyət göstərirlər. Məlumdur ki, hər bir siyasi partiyanın əsas fəaliyyəti ideoloji iş, təbliğat işi olmalıdır. Bir halda ki, Yeni Azərbaycan Partiyası bu gün iqtidarda olan partiyadır, demək, partiyanın, iqtidarın fəaliyyətini təbliğ etmək və iqtidara qarşı, partiyaya qarşı olan antitəbliğatın qarşısını almaq – bunlar hamısı bizim mətbuatın əsas vəzifələridir. Bu ideoloji iş partiyamızın əsas

vəzifəsidir. Mən hesab edirəm, bizim qəzetlərin bu sahədəki xidmətini bu gün qeyd etmək lazımdır.

«Səs» qəzeti artıq tarixə düşmüş bir qəzetdir. «Səs» qəzeti mənim üçün çox əziz qəzetdir. 1990-cı ilin fevral ayında, Azərbaycanda kommunist hakimiyyəti dövründə mən Ali Sovetdə çıxış edəndən sonra mənim çıxışım – xatirinizdədir, o vaxt mənim çıxışımı hörmətdən salmağa çalışdılar, onu dərc etmək də istəmirdilər, amma mənə lazım idi ki, o, dərc olunsun – «Səs» qəzetində dərc edildi. Mən Naxçıvanda işləyərkən bizim bir neçə tədbirlərimiz barədə yazıları «Səs» qəzetində dərc edə bildik. Nəhayət, «Səs» qəzeti 91-lərin müraciətini dərc edib, mənim cavabımı dərc edibdir. Ona görə «Səs» qəzeti bizim partiyanın tarixində ən mötəbər yer qazanmış bir qəzetdir. Görürəm ki, son vaxtlar özünün xüsusiyyətini itirmədən modernləşir, yaxşılaşır. Arzu edirəm ki, daha da modernləşsin və yaxşılaşsın.

«İki sahil» qəzeti də bizim çoxdankı qəzetlərimizdəndir. Yenə də o dövrdə, biz Naxçıvanda blokada şəraitində yaşadığımız dövrdə bu qəzetin indiki redaktoru – «Səs» qəzetinin o vaxt da redaktoru Ağabəy Əsgərov idi – Vüqar Rəhimzadə tez-tez Naxçıvana gələrdi və hələ partiya yaranandan xeyli əvvəl Naxçıvanın işləri haqqında materiallarımızı dərc edərdi. İndi o bizim Yeni Azərbaycan Partiyasının qəzetidir. Çox inkişaf edib, böyüyüb, genişlənib və güman edirəm ki, bu yolla gedərsə, daha da güclü qəzet olacaqdır.

Mən «Yeni Azərbaycan» qəzetində yaranan böyük sıçrayışı qeyd etmək istəyirəm. Biz partiyanı yaradanda hesab edirdik ki, «Səs» qəzeti partiyanın qəzeti deyil, müstəqil qəzetdir. «İki sahil» qəzeti də müstəqil qəzetdir. Bizim partiyaya bir qəzet lazımdır. Dedilər adını da «Yeni Azərbaycan» qoyaq. Mən etiraz etmədim, yarandı. Amma bu gün hər şeyi düz demək lazımdır. O

qəzet uzun müddət, bir çox illər uğur qazana bilmədi. Mən də çox təəssüf edirdim. Çünki çox hallarda mən də maraqlanırdım, kömək etmək istəyirdim. Ancaq qəzet uğur qazana bilmirdi. Amma son illər qəzet birdən-birə müsbət mənada çox dəyişilibdir.

Düzdür, mən açıq danışmaq istəyirəm, qəzetlərin hamısını oxumaq imkanım yoxdur, amma qəzetlərə baxmaq imkanım var. Bəzən də təbiidir, hansısa məqalələr mənim diqqətimi cəlb edir və baxıram. Xüsusən bizim qəzetlərə baxıram. Hər səhər mən o qəzetləri vərəqləyirəm, baxıram. «Yeni Azərbaycan» qəzetinin belə sürətlə, sıçrayışla inkişaf etməsi çox sevindirici haldır. Yəni qəzetin həm məzmunu, həm xarakteri, həm də onun dərc etdiyi müxtəlif materiallar – bunların hamısı birlikdə bu qəzeti yüksək səviyyəyə qaldırıbdır.

Onun redaktoru da Alqış Həsənoğludur. Gənc bir şəxsdir və çox məmnunam ki,  qəzet redaktorlarının hamısı gənclərdir və bizim mətbuatda belə yaxşı fəaliyyət göstərirlər. Ancaq heç biriniz düşünməyin ki, mən bu gün sizin haqqınızda xoş sözlər deyərkən, nöqsanlarınızı görmürəm, yaxud onları sizə bağışlayıram. Yox. Mən arzu edirəm ki, öz bildiyiniz nöqsanları özünüz aradan qaldırasınız. Əgər hansını görməsəniz, onda mənə müraciət edərsiniz, sizə deyərəm.

Bizim partiyanın fəaliyyəti bugünkü iqtidarın fəaliyyəti ilə qarışıqdır. Çünki yenə də deyirəm, biz iqtidarda olan bir partiyayıq. Bu partiya da iqtidara birdən-birə gəlmədi, qeyri-adi bir tarix yaşadıq. O ağır dövrdə əvvəlcə xalq – partiya da orada iştirak edirdi – Heydər Əliyevi Azərbaycanı bu vəziyyətdən xilas etmək üçün iqtidara dəvət etdi. Heydər Əliyev də bu missiyanı üzərinə götürməyə məcbur oldu. Böyük riskə gedərək öz həyatı, öz yaşayışı, öz ailəsi üçün böyük riskə gedərək, bu missiyanı

üzərinə götürməyə məcbur oldu. Bütün bu risklər var idi, ancaq mən çox xoşbəxtəm ki, fəaliyyətim, apardığım işlər də məni bu risklərdən, bu xatalardan xilas etdi və bu missiyanı layiqincə yerinə yetirə bildim.

Ona görə də ilk illərdə – 1993-cü, 1994-cü illərdə, hətta 1995-ci ilin əvvəlinə qədər də mən bu partiyanın işləri ilə çox məşğul ola bilmirdim. Çünki istəyirdim ki, xalqın mənə göstərdiyi etimadı doğruldum. Yəni təkcə o mənada yox ki, doğruldum və xalqa deyim ki, mən etimadı doğrultdum. Yox, o mənada ki, mənim qarşımda olan ali vəzifələri yerinə yetirə bilim və ona da nail oldum. Sonra isə partiyamız inkişaf etməyə başladı. Burada deyildiyi kimi, 1995-ci ildə parlament seçkilərində çoxluğu əldə edərək, qanunvericilik orqanında da – icra orqanında prezident eyni zamanda partiyanın sədri idi – partiyamız çoxluğu əldə etdi. Beləliklə, Yeni Azərbaycan Partiyası iqtidar partiyasına çevrildi.

Siz bu gün burada həyəcanlı çıxışlarınızda mənim haqqımda çox xoş sözlər dediniz. Mən bunlara görə sizə təşəkkür edirəm. Mən sizi anlayıram. Çünki siz on il mənimlə bərabər olan insanlarsınız. Bu on ildə bizim nə qədər ağır, nə qədər çətin yol keçməyimizi və xalqımızı bu günə gətirib çıxarmağımızı başqalarına nisbətən daha da yaxşı görürsünüz. Siz bu prosesin iştirakçısısınız, siz mənimlə bir yerdəsiniz. Ona görə mənim hər addımımı görürsünüz. Hər addımımı deyəndə, bəlkə bir az düz olmaz, hər addımı görmək çətindir. Bu, məcazi mənada deyilən bir sözdür. Siz mənimlə bir yerdəsiniz, mənim yaxın silahdaşlarımsınız. Siz indi hakimiyyət orqanlarının çoxunda böyük-böyük vəzifələr daşıyırsınız. Dediyim kimi, qanunvericilik orqanında əksəriyyəti təşkil edirsiniz. Ona görə də Azərbaycanda gedən bu proseslərə, əldə olunan nailiyyətlərə və böyük çətinliklərin öhdəsindən necə gələ bilməyimizə qəlbən

sevinən insanlarsınız. Yenə də deyirəm, bunun iştirakçılarısınız. Ona görə də sizin hissiyyatlarınız səmimidir. Mən bunları anlayıram, qəbul edirəm və bunlara görə də sizin hamınıza təşəkkür edirəm.

Mən son görüşlərimdə, nitqlərimdə Azərbaycanın əldə etdiyi nailiyyətlər haqqında bir neçə dəfə demişəm. Əgər müxalifət qüvvələri, müxalifətdə olan partiyalar, ayrı-ayrı şəxslər Azərbaycanın bugünkü gününə, iqtidarın gördüyü işlərə bu qədər qara yaxmasaydılar, bu qədər böhtanlar yağdırmasaydılar, bizim partiyanın üzvlərini, iqtidarı, o cümlədən prezidenti  bu qədər təhqir etməsəydilər, bəlkə də bunları deməyə o  qədər də ehtiyac yox idi. Amma bunları görəndə, təbiidir, burada düz dediniz, onların sosial dayağı yoxdur, azdır. Qəzetləri də çox az oxucuları əhatə edir. Xalqın tam əksəriyyəti Azərbaycan iqtidarının gördüyü işləri, əldə etdiyi nəticələri və bugünkü səviyyəmizi yüksək qiymətləndirir və bizimlə bərabərdir. Ancaq eyni zamanda, bu qədər ədalətsizlik, bu qədər insafsızlıq təsəvvür etmək mümkün deyildir. Təbiidir, ağa qara demək çətin bir şey deyil, ancaq ağa qara deyən insan nə istəyir? Siz bunlara cavab verdiniz. Onların heç bir istəyi, heç bir arzusu heç vaxt yerinə yetməyəcəkdir.

Ötən on ildə biz gərgin işlə məşğul olmuşuq. Azərbaycanı böyük bəlalardan qurtarmışıq. Azərbaycanda güclü dövlət qurmuşuq. Azərbaycanın iqtisadiyyatını inkişaf etdirmişik. Azərbaycan xalqına bu gün rahat həyat şəraiti yaratmışıq, ictimai-siyasi sabitliyi təmin etmişik. İnsanlarımız tamamilə dəyişilibdir. Amma o adamlar, hansılar ki, on ildir eyni şeyi deyirlər, onlar nə ediblər, onların fəaliyyəti nədən ibarətdir? Yalan danışmaq, böhtan yağdırmaq, qəzetlərdə əsası olmayan müxtəlif şayiələr yaymaq və iqtidarı gözdən salmağa çalışmaq. Təbiidir, buna əsas da yoxdur.

İndi onlar mitinq keçirirlər. Orada nə deyirlər – çörək?! Burada Elmar Qasımov çox yaxşı dedi. Bəli, bəs 1992-ci ildə xalq çörək tapmayanda siz niyə unudurdunuz ki, çörək lazımdır! Amma indi Azərbaycanda o qədər çörək var ki, onu qoymağa yer yoxdur.

Biz iqtisadi islahatlar keçirdik. O cümlədən, aqrar sektorda, torpağı şəxsi mülkiyyətə verdik. İnsanlar mülk sahibi oldular. Bundan səmərəli istifadə etməyə başladılar. Nəhayət, bu il, 2002-ci ildə Azərbaycanda 2 milyon 200 min ton taxıl istehsal olunubdur. Mən sizə bildirmək istəyirəm ki, sovet hakimiyyəti dövründə, mənim rəhbərlik etdiyim illərdə – bu illər ən yüksək nəticələr əldə olunmuş illər idi – biz Azərbaycanda taxıl istehsalını 1 milyon 400 min, 1 milyon 500 min tona qaldıra bilmirdik. Amma onun keyfiyyəti də nə olurdu, məlum deyildi. Ona görə biz özümüzü taxıl məhsulları ilə təmin edə bilmirdik. Ancaq indi biz özümüzü taxılla təmin edirik. Bu, böyük nailiyyətdir.

Siz eşitdiniz, mən Şəkiyə gedəndə yolüstü İsmayıllıda, Qəbələdə insanlarla görüşdüm. Mənə dedilər ki, taxıl istehsal etmişik, sata bilmirik. Çünki kənardan Azərbaycana taxıl gəlir, biz sata bilmirik. Mən göstəriş verdim. İndi daxili bazarı qorumaq üçün idxal olunan taxıla böyük rüsum qoyublar. Bu nə vaxt olubdur ki, Azərbaycanda kəndli o qədər taxıl istehsal etsin ki, onu satmağa imkanı olmasın? Belə şey olmayıbdır! Amma təkcə taxıl deyil. Bu il Azərbaycanda 700 min ton kartof istehsal olunubdur. Kartof əkilən rayonlarda bilirlər, sovet hakimiyyəti illərində bizə 100 min ton kartof istehsal etmək planı verirdilər. Onu yerinə yetirə bilmirdik. 100 min ton kartof istehsal edə bilmirdik. İndi ondan 7 dəfə artıq kartof istehsal olunubdur.

Kartof ikinci çörəkdir. Rusiyada belə deyirlər, kartof ikinci çörəkdir.

İndi 2 milyon 200 min ton taxıl, 700 min ton kartof var, çorək də boldur. Sən də başlamısan ki, xalqa çörək ver! Çörəyi sən verə bilmirdin. Amma biz çörəyi çoxdan vermişik! Hələ 1995-ci ildə biz bütün çörək zavodlarını özəlləşdirəndən, insanlara sərbəstlik verəndən sonra Azərbaycanda çörək bolluğu yarandı. Oradan-buradan taxıl aldılar, gətirdilər, çörək bişirdilər. İndi Azərbaycanda müxtəlif çeşidli o qədər çörək bişirirlər ki, bilmirsən hansını alasan, yeyəsən. Bu cür cılız sözlərlə bugünkü iqtidarın əleyhinə çıxmaq olarmı?

Bəli, xalqın güzəranı, rifah halı, deyə bilərəm, necədir. Büdcədən maliyyələşdirilən təşkilatların işçilərinin əmək haqları 1996-cı ildən 2002-ci ilə qədər 3,6 dəfə artıbdır. Pensiyaların məbləği  3,4 dəfə artıbdır. Əhalinin pul gəliri 2,5 dəfə çoxalıbdır.

Təsəvvür edin, bu, kiçik məsələ deyildir. Biz gələn il üçün yeni büdcə qəbul etdik. İndiyə qədər olan büdcələrimiz kimi, bu büdcə də sosial yönümlüdür. Bu sosial yönümlü büdcə imkan verir ki, qarşıdakı ildə biz büdcədən maliyyələşdirilən bütün təşkilatların işçilərinin hamısının əmək haqlarını artıraq. Artıracağıq da. Bu gün elan edirəm, birinci növbədə, müəllimlərin maaşlarını artıracağıq. Səhiyyə, mədəniyyət işçilərinin maaşlarını artıracağıq. Bütün başqa sahələrdə çalışanların da əmək haqlarını artıracağıq.

Təsəvvür edin, 1996-cı ildən 2002-ci ilə qədər maaşlar 3,6 dəfə artdığı halda, indi mən nəzərdə tuturam ki, bəzi sahələrdə maaşları 50 faiz artıram. Bu, göydən tökülmür. Biz buna nə ilə nail olmuşuq? Azərbaycanda həyata keçirdiyimiz iqtisadi islahatlarla. Biz bu islahatları 1995-ci ildən həyata keçirməyə başladıq. Onları ardıcıl surətdə həyata keçirdik, bu gün də

aparırıq. Bunların nəticəsində biz ilbəil büdcənin gəlirlərini artırdıq. Bunların nəticəsində həmin bu nailiyyətlərlə xalqın rifah halını qaldıra bilirik. Biz özəlləşdirmə apardıq, özəl sektoru gücləndirdik. İndi bizdə sənayedə özəl sektorun payı 50 faiz təşkil edir. Bunu nəzərə alın.

Kənd təsərrüfatında istehsalın 99 faizi özəl sektora məxsusdur. Bu rəqəm ticarətdə 99 faiz, tikintidə 76 faizdir. Bizdə çox güclü inşaat işləri gedir. Özü də yaşayış binaları tikilir. Bu, Azərbaycanda çox gözəl prosesdir. Nəqliyyatda və rabitədə özəl sektorun payı 65 faizdir. Ümumi daxili məhsulun 70 faizi özəl sektora məxsusdur. Biz bununla Azərbaycan iqtisadiyyatını qaldırdıq. Bu bizim islahatların nəticəsidir.

Kiçik və orta sahibkarlığı inkişaf etdirmək haqqında mənim həyata keçirdiyim tədbirlər, verdiyim fərmanlar məlumdur. Onların həyata keçirilməsi ilə indi hesab edirəm ki, iqtisadiyyatı daha da inkişaf etdirəcək və xalqın rifah halını yaxşılaşdıracağıq.

Biz nəzərdə tutmuşuq ki, vergiləri azaldaq. Siz bilirsiniz. Vergilər Nazirliyində 40 faiz ixtisar gedibdir. Vergi dərəcələri azalacaqdır. Bu, büdcədə nəzərdə tutulubdur. Mən vergi siyasəti haqqında sizə deyə bilərəm ki, mənfəətdən vergi tutulması 27 faizdən 25 faizə endirilir. Bu faiz dərəcəsi yalnız Bakı şəhərində tətbiq ediləcəkdir. Təsəvvür edin, Gəncə, Sumqayıt, Mingəçevir və Əlibayramlı şəhərlərində bu verginin dərəcəsi 20 faiz olacaqdır. Yəni orada vergilər daha da çox azalacaqdır.

Naxçıvan Muxtar Respublikasında, dağ rayonlarında 10 faiz olacaqdır. Əgər Bakıda 25 faizdirsə, orada 10 faizdir. Digər şəhər və rayonlarda 15 faiz olacaqdır. 27 faiz olan vergiləri biz azaldırıq. Görün, sahibkarlar üçün nə qədər imkanlar yaradırıq ki, özəl sektor inkişaf etsin.

Təbiidir ki, iqtisadiyyatımızın bu cür sürətlə inkişaf etməsinin əsas səbəblərindən biri də xarici sərmayələrin Azərbaycana cəlb

olunmasıdır. Sizə məlum olduğu kimi – burada bu barədə də çox düzgün deyildi – neft strategiyasının həyata keçirilməsi Azərbaycana 6 milyard dollar sərmayə gətiribdir. Biz artıq bunun nəticələrini görürük. 1994-cü ildə bağladığımız ilk müqavilədən mənfəət nefti alırıq. Biz artıq Neft Fondu yaratmışıq, siz bunu bilirsiniz. Neft Fondunda təxminən – bunu mətbuatda elan etmişdilər, dəqiq deyə bilmərəm – 670 milyon dollar vəsait toplanıbdır. Bilirsiniz ki, mən oradan yalnız və yalnız qacqınlara, məcburi köçkünlərə evlər tikdirmək üçün 76 milyon dollar ayırdım. Qalan hissəsi isə  Azərbaycanın valyuta ehtiyatı kimi durur. İndi bizim valyuta ehtiyatımız 1 milyard 300 milyon dollardır. Bizim gələn il üçün büdcəmiz 1 milyard 200 milyon dollardır. Demək, bir illik büdcəmizdən artıq valyuta ehtiyatımız vardır.

Təsəvvür edin, bizim büdcəmiz də ilbəil böyük sürətlə artır. Bunların heç biri göydən tökülmür, kənardan gəlmir.

Biz sərmayələrin 30 faizini qeyri-neft sektoruna yönəldirik. Yəni 66–67 faizi neft sektoruna, qalan hissəsi isə qeyri-neft sektoruna sərf edilir. Ümumiyyətlə, neft sektoru ilə qeyri-neft sektoruna birlikdə Azərbaycana indiyə qədər 9 milyard dollar məbləğində sərmayə cəlb olunubdur. Bu il Azərbaycana – hələ il başa çatmayıbdır – 1milyard 200 milyon dollar sərmayə qoyulubdur. Həm xarici, həm də daxili sərmayə... Mən sərmayə deyəndə, daxili sərmayəni də nəzərdə tuturam. Artıq bizim öz sərmayəçilərimiz, sahibkarlarımız yaranıbdır, onlar sərmayə qoyurlar və bu da, təbiidir, iqtisadiyyatımızın inkişafını təmin edir. Beləliklə, Azərbaycanda bizim əsas vəzifəmiz – 1992-ci ildə ilk proqramımızda da yazılmışdı – islahatlar aparmaqla iqtisadiyyatı inkişaf etdirmək, bu yolla xalqın rihaf halını yaxşı-

laşdırmaqdır. Biz bu yolla gedərək nailiyyətlər əldə etmişik və bundan sonra da bu yolla gedəcəyik.

Qarşıdakı iki-üç ildə Azərbaycanın neft sektoruna və başqa sektorlara 10 milyard dollara qədər sərmayə gələcəkdir. Mən sizə deyə bilərəm ki, üç-dörd ildən sonra Azərbaycanın gəlirləri artıq milyard dollarlarla ölçüləcəkdir. Gördüyümüz işlər, həyata keçirdiyimiz layihələr, o cümlədən Bakı–Tbilisi–Ceyhan ixrac boru xəttinin tikilməsi və başqaları – bunların hamısı sabah üçün, gələcək üçündür. Azərbaycanın gələcəyi, Azərbaycan xalqının rifahı üçündür.

Ancaq bizim nailiyyətlərimiz təkcə iqtisadiyyatda deyildir, bütün sahələrdədir. Birincisi, biz Azərbaycanda güclü, demokratik, hüquqi, dünyəvi dövlət qurmuşuq. Bu dövlətin bütün təsisatlarını yaratmışıq. Dövlət quruculuğu prosesini təkmilləşdirmək üçün geniş islahatlar – hüquq islahatları, dövlət sektorunda islahatlar və başqa sahələrdə islahatlar keçirmiş, çox böyük nailiyyətlər əldə etmişik. Qarşıda hələ bir çox struktur dəyişiklikləri etmək üçün planlarımız var. Bunların hamısı Azərbaycanda müstəqil, güclü, demokratik dövlətin yaranması üçündür.

Azərbaycan parlamenti 1300 qanun qəbul etmişdir. Milli Məclis bütün sahələr üzrə qanunlar qəbul edib və Azərbaycanda hər şey qanunlar əsasında gedir. Qanunun aliliyi bizim əsas prinsipimizdir. Biz bunu hələ 1992-ci ildə Naxçıvanda partiyamızın proqramında yazmışdıq, bu gün də həyata keçiririk.

İndi Azərbaycanda tam mətbuat azadlığı yaratmışıq. Mətbuat azaddır. Kim olursa-olsun, heç kəsin mətbuata toxunmağa ixtiyarı yoxdur. Müxalifət mətbuatından ən çox zərbələr mənə dəyibdir. Mənə və mənim ailəmə dəyibdir. Çünki mən bu yaşıma qədər həyatın bütün mərhələlərindən keçmişəm, bütün dövrləri yaşamışam, hətta Moskvada bütün vəzifələrdən kənarlaşdırıldığım

zaman buradakı bədxahlar və ermənilər mənim əleyhimə müxtəlif kampaniyalar aparan zaman da mətbuatda heç vaxt mənə qarşı belə yalanlar, böhtanlar, iftiralar, təhqiramiz sözlər oxumamışdım. Amma indi mən bunları görürəm, oxuyuram. Harada? Azərbaycan mətbuatında, mənim doğma vətənimdə. Yaratdığım bu mətbuat azadlığının nəticəsindən istifadə edənlər minnətdarlıq etmək əvəzinə, mənə qarşı bu cür təxribatlar edirlər, bu cür təhqirlər yazırlar. Ancaq mən heç bir qəzetə toxunmamışam və toxunmayacağam. Heç kəsin də heç bir qəzetə toxunmasını məsləhət görmürəm. Mətbuat azadlığını biz vermişik. Bu bizim dövlətimizim əsas prinsiplərindən biridir və biz öz işimizlə, əxlaqi dəyərlərimizlə, öz fəaliyyətimizlə, xalqa xidmətimizlə sübut etmişik və edirik ki, biz Azərbaycanın dəyərli insanlarıyıq. Biz Azərbaycan xalqına xidmət edirik və edəcəyik. Ona görə o yalanların, böhtanların heç biri bizə yapışmayacaqdır. Mənim vicdanım həmişə təmiz olub və bu gün də təmizdir. Bu təmiz vicdanı indiyə qədər ləkələmək istəyənlər çox olubdur. Amma bu heç kəsə  müyəssər olmayıbdır. Bu gün də ola bilməyəcəklər, sabah da ola bilməyəcəklər.

İnsan haqlarının qorunması bizim əsas vəzifələrimizdəndir. Biz bunu təmin etmişik, bundan sonra da təmin edəcəyik. Buna heç kəsin şübhəsi olmasın. Bəzi adamlar bu mövzunu hallandıraraq, Azərbaycanı beynəlxalq təşkilatlarda ləkələməyə çalışırlar. Azərbaycanın əleyhinə cürbəcür işlər görürlər. Mən bunu onların vicdanına tapşırıram. Onlar gördükləri bu nadürüst işlərin cəzasını haradasa alacaqlar. Haqq öz yerini tutacaqdır. Amma biz insan haqlarını qorumuşuq və bundan sonra da qoruyacağıq. Bu məsələdə heç kəs bizə ləkə yaxa bilməz. Hansı böhtanlar atırlar-atsınlar, heç nəyə nail ola bilməzlər.

Azərbaycanda demokratiya hər yerdə bərqərar olunubdur. Azərbaycan demokratik ölkədir. Kim çalışırsa ki, sübut etsin Azərbaycanda demokratiya yoxdur, o buna nail ola bilməyəcəkdir. Düzdür, belələri Azərbaycanın əleyhinə olan bəzi havadarlar tapırlar, ancaq istədiklərinə nail ola bilməyəcəklər. Azərbaycan elə bir ölkədir ki, indi bir çox xarici dövlətlərin həm maraq dairəsinə çevrilibdir, həm də öz coğrafi-strateji vəziyyətinə, təbii sərvətlərlə zənginliyinə görə müxtəlif ölkələrin öz məqsədlərini həyata keçirməsi üçün onların diqqətini cəlb edir. Yaxud da ölkələrin yox, ayrı-ayrı siyasi qrupların, təşkilatların diqqətini cəlb edir. Ona görə, biz mürəkkəb bir şəraitdə yaşayırıq. Siz bunu bilin. Biz ictimai-siyasi sabitlik yaratmışıq, Allaha şükürlər olsun ki, burada terrorun qarşısını artıq almışıq, silahlı dəstələri ləğv etmişik, insanlar rahat yaşayırlar, parklarda, başqa əyləncə yerlərində yay vaxtı da, indi də onların istirahəti çox yaxşı təşkil olunur. Bunların hamısı var. Amma siz elə düşünməyin ki, biz bunlara asanlıqla nail olmuşuq. Bu birincisi. İkincisi, elə düşünməyin ki, bizdə başqa problemlər yoxdur. Problemlər var. Azərbaycana qarşı çox əllər uzanır, çox, çox, çox...

Biz Bakı–Tbilisi–Ceyhan layihəsini reallaşdırmaq üçün neçə ildir çalışırıq. 1999-cu ildə biz İstanbulda bu layihəni imzaladıq. Amma bu il 2002-ci ildir. Sentyabrın 18-də biz bu kəmərin təməlini qoyduq. Amma hələ indi də bəzi qüvvələr buna mane olmaq istəyirlər. Bu layihə ləngiyir. Əgər biz bu ayın sonuna qədər məsələləri həll etməsək və inşaat işinə başlanmasa, çox şeyi itirəcəyik. Sizin çoxunuz bunları bilmirsiniz. Bu işlər bizim üzərimizdədir. Bununla biz məşğul oluruq. Niyə belədir? Çünki o qüvvələr ki, indiyə qədər inanmırdılar Bakı–Tbilisi–Ceyhan kəməri olacaq, artıq görəndə ki, bu, reallığa çevrilibdir, başqa maneələr törətməyə çalışırlar. Biz isə indiyə qədər bunların

qarşısını almışıq, bu gün də alırıq və alacağıq. Ancaq yenə də deyirəm, təkcə bu deyildir. Başqa çox hallar da vardır. Əldə etdiyimiz nailiyyətlərə görə, buradakı iqtisadi inkişafa, demokratik dövlət olduğumuza, antiterror koalisiyasında fəal iştirak etdiyimizə görə Azərbaycanı sayırlar, bizə hörmət edirlər, bizimlə hesablaşırlar. Ancaq eyni zamanda, həmin ölkələrdə bizim əleyhimizə olan qüvvələr də var. Təəssüf ki, bizim içərimizdən olan adamlar həmin o qüvvələrlə birləşirlər. Təbiidir, o qüvvələrə bizim içərimizdən belə xəyanətkar insanlar lazımdır. Onlar bundan dərhal istifadə edirlər. Özü də Azərbaycan xalqına qarşı istifadə edirlər. Təkcə prezidentə qarşı yox, Azərbaycan xalqına, dövlətinə qarşı istifadə edirlər. Belə vəziyyətə baxmayaraq, biz Azərbaycanda demokratiyanın bütün tələblərini tətbiq etmişik və bundan sonra da edəcəyik. Siz burada mənim 2003-cü ildə prezident seçkilərində iştirak etməyim haqqında öz təkliflərinizi irəli sürdünüz. Mən buna görə sizə təşəkkür edirəm. Mən özüm də belə fikirdəyəm ki, 2003-cü ildə prezident seçkilərində iştirak etməliyəm. Narahat olmayın, iştirak edəcəyəm. Heç şübhə yoxdur ki, seçkilər tam demokratik prinsiplər əsasında keçiriləcəkdir və inanıram ki, bu seçkilərdə də xalq Heydər Əliyevə səs verəcəkdir.

Əziz dostlar, siz bilirsiniz, məni yaşadan, məni siyasi uzunömürlü edən ən əsas amil odur ki, mən həmişə xalqın dəstəyinə arxalanmışam. Bəli, əgər 1993-cü ildə, o ağır dövrdə xalqın dəstəyi olmasaydı, mən Naxçıvandan Bakıya gələ bilməzdim. Əgər o vaxt xalqın dəstəyi olmasaydı, mən silahsız, heç nəsiz onların – azğınlaşmış terrorçu qrupların, silahlı dəstələrin, separatçıların, Azərbaycanı dağıdanların öhdəsindən gələ bilməzdim. Siz 1994-cü ilin oktyabr ayının 4-nü xatırlayın. Bəli, artıq ayağa qalxmışdılar, bizim hakimiyyəti boğurdular. Televiziya ilə

mənim xalqa müraciətim gecə vaxtı iki saat içərisində yüz minlərlə insanı Prezident sarayının qarşısına topladı. Bax, o xalqın dəstəyi ilə mən çevriliş cəhdinin qarşısını aldım. O xalqın dəstəyi ilə 1995-ci ilin mart ayında mən o çevriliş cəhdinin qarşısını aldım. O xalqın dəstəyi ilə terroristlərin qarşısını ala bildim. Mən bu gün də xalqla bir yerdəyəm. Mənim həyatımın mənası xalqa xidmət etməkdir. Mən çox xoşbəxtəm ki, xalq da bunu qiymətləndirir, mənə lazımi qədər dəstək verir. Xalqın dəstəyi ilə, sizinlə birlikdə 2003-cü ilin oktyabr ayında prezident seçkilərini uğurla keçirəcəyik.

Əziz dostlar, mənim deyəçəyim sözlər çoxdur. Amma görürsünüz, orada mənim sözlərim yazılıbdır: «Yeni Azərbaycan Partiyası dünənin, bu günün və sabahın partiyasıdır». Bəli, bizim partiya bu günün partiyasıdır. Biz dünən öz işimizi gördük. Bizim partiya gələcəyin partiyasıdır. Bizim partiya gənclərin partiyasıdır. Gənclərin partiyaya gəlməsi və gənclərin bu partiyada fəal iştirak etməsi bizim partiyanı gəncləşdiribdir. Bizim partiyanın gələcək perspektivlərini daha da gücləndiribdir. Mən qadınlara təşəkkür edirəm. Burada dedilər ki, əhalinin 50 faizini qadınlar təşkil edirlər. Əlli, üstəgəl bir səs, elə qadınların səsi bəsdir ki, Heydər Əliyev prezident seçilsin. Mən gizlətmirəm, qadınları çox sevirəm. Amma bilirsiniz ki, qadınlar da məni çox sevirlər. Ona görə qadınlar da həmişə mənim dayağım olubdur. 1994-cü ildə həmin oktyabr gecəsi mən o qoca qadınları, qucağında südəmər uşaq olan qadınları görəndə... Ona görə xüsusi təşəkkür edirəm. Səslərinizi hazırlayın, amma elə edin ki, kişilərə də yer qalsın.

Bu gün gənclər haqqında çox gözəl sözlər deyildi. Bəli, bizim partiyanın gələcəyi gənclərə məxsusdur. Bizim partiyamızda çox layiqli gənclər var. Onlar gələcəkdə bizim işimizi davam

etdirəcəklər. Bu gün isə hamımız bir yerdə partiyanın işini irəli aparmalıyıq.

Yaşasın Yeni Azərbaycan Partiyası!

Yaşasın müstəqil Azərbaycan, Azərbaycan, Azərbaycan!

Sağ olun.

* * *

*Rəsmi hissədən sonra Azərbaycan incəsənət ustalarının iştirakı ilə bayram konserti oldu.*

*Azərbaycan prezidenti Heydər Əliyev konsertdən sonra səhnə arxasına gələrək gözəl çıxışlarına görə incəsənət ustalarına təşəkkür etdi və onlara uğurlar arzuladı.*

**H e y d ə r Ə l i y e v:** Nədənsə, bu gün azsınız. Bu səhnə həmişə dolu olur. İndi azsınız, amma bu gün çox yaxşı konsert verdiniz. Bunlar bizim partiyanı yaradanlardır, onları da səhnə arxasına gətirmişəm.

**Z e y n ə b X a n l a r o v a** *(Xalq artisti, Milli Məclisin deputatı)***:** Cənab Prezident, mən də yaratmışam.

**H e y d ə r Ə l i y e v:** Sən də yaradanlardansan. Bilirəm, 91-lərdənsən.

**Z e y n ə b X a n l a r o v a:** İnanın, Sirusla bir yerdə gecə saat 3-4-ə qədər işləyirdik.

**H e y d ə r Ə l i y e v:** Sizi təbrik edirəm. Çox yaxşı konsert verdiniz. Siz həmişə konsertlər verirsiniz, son vaxtlar həmişə gəlirəm. Nədənsə, bugünkü konsert mənə həmişəkindən daha çox xoş gəldi. Hamısından çox ləzzət verdi, çox gözəl oldu. Hamınız çox gözəl oxuyurdunuz. Musiqiçilər, orkestr də çox gözəl ifa etdi. «Neftçi» ansamblı çox gözəl çıxış etdi. Hamınız çox yaxşısınız. Zeynəb Xanlarovanın ansamblı da yaxşıdır.

Mən bu sarayı tikdirdim və burada birinci böyük mərasim 1972-ci ilin dekabr ayında olubdur. Yəni 30 il bundan öncə. Sən orada çıxış etmişdin.

**Z e y n ə b  X a n l a r o v a:** Bəli, birinci dəfə mən çıxış etdim.

**H e y d ə r  Ə l i y e v:** Bəli, 30 il bundan əvvəl. Bu sarayın 30 yaşı var. Əvvəllər biz opera teatrından istifadə edirdik. Amma Azərbaycana, Bakıya böyük bir saray lazım idi. Mən bu sarayı iki ilin içərisində tikdirdim və 1972-ci ilin dekabrında burada böyük bir mərasim keçdi, böyük bir konsert oldu. Zeynəb də oxuyurdu. O vaxt hamınız Zeynəblə idiniz. O vaxtdan Zeynəblə birlikdəsiniz? Sən çox yaxşı musiqiçisən.

**Z e y n ə b  X a n l a r o v a:** Cənab Prezident, Vəli Qədimov burada bir az çəkinir, xaricdə olanda çox gözəl çıxış edir.

**H e y d ə r  Ə l i y e v:** Bir də görürsən, ayağa durub çalır. Çox yaxşıdır. Hamınız yaxşısınız, gözəlsiniz, yaxşı oxudunuz, çıxış etdiniz. Bizim partiyanın adına, xalqımıza yaxşı sözlər dediniz. Amma əsas odur ki, bizim Azərbaycanın mədəniyyəti çox yüksəkdir. Mən buna çox sevinirəm. Bilirsiniz ki, mən millətin dərdi ilə yaşayan adamam. Mən 60 ildir siyasətdəyəm. Ona görə mənim bütün həyatım xalqa, millətə həsr olunubdur. Millətin əsas göstəricilərindən biri mədəniyyətdir, musiqidir, mahnıdır, digər incəsənət nümunələridir. Siz də bunları çox yaxşı göstərirsiniz.

Nəsillər dəyişir, o illərdəki bəzi adamlar artıq yoxdur, oxuya bilmirlər, səhnədə ola bilmirlər, yaxud dünyalarını dəyişiblər. Amma görürəm, cavan, gənc qızlar, oğlanlar yetişirlər və Azərbaycanın mədəniyyətini inkişaf etdirirlər. Hamınız çox sağ olun. Təşəkkür edirəm. Sizə can sağlığı arzulayıram.

Siz azsınız, çox deyilsiniz. Ona görə istəyirəm hamınızla səmimi görüşüm, sizə yaxından baxım. Çünki salondan yaxşı görmək olmur. Sən bir dəfə oxumuşdun, adın nədir?

**S a m i r C ə f ə r o v**(*gənc müğənni*)**:** Cənab Prezident, mən Naxçıvanda olanda göstəriş vermişdiniz.

**H e y d ə r Ə l i y e v:** Sən Naxçıvanda oxuyurdun?

**S a m i r C ə f ə r o v:** Bəli, sonra akademiyaya qəbul olundum.

**H e y d ə r Ə l i y e v:** Fatma xanım, mən o vaxt demişdim ki, gəlsin.

**F a t m a A b d u l l a z a d ə**(*Prezidentin İcra Aparatının şöbə müdiri*)**:** Bəli, magistraturanı qurtardı. İndi aspiranturanın birinci kursundadır. Bela Mixaylovna ilə danışmışam, bu gün onun razılığını aldım. Onun Moskvada opera studiyası var, 6 aylığa oraya göndərmək istəyirəm.

**H e y d ə r Ə l i y e v:** Yaxşı səsin var. Bilirəm, tapşırmışam, məşğul olacaqlar.

**K ö n ü l X a s ı y e v a**(*müğənni*)**:** Cənab Prezident, mən o vaxt, 1981-ci ildə Sizin təşəbbüsünüzlə gəlib oxuyan uşaqlardanam.

**H e y d ə r Ə l i y e v:** 1981-ci ildəki uşaqlardansız. Amma indi də uşaqsınız.

**F i k r ə t V e r d i y e v** (*tarzən, «Neftçi» ansamblının bədii rəhbəri*)**:** Cənab Prezident, Siz vaxtilə bir çox ansamblların təşkilinə gözəl şərait yaratmışdınız. Xan Şuşinskinin yubileyi ilə əlaqədar keçən il sərəncam verdiniz. Sizə çox böyük inam var.

**H e y d ə r Ə l i y e v:** Bilmirəm, indi Xan ailəsindən kim var. Onların hamısına salam söyləyin. Xan mənim dostum idi.

Sən də yaxşı oxuyursan. İlham yanımda idi, deyirdim ki, iki-üç il bundan əvvəl Ağayev belə deyildi. İndi sən inkişaf etmisən.

**F a i q  A ğ a y e v***(müğənni)***:** Cənab Prezident, bu imkandan istifadə edib Sizə dərin təşəkkürümü bildirmək istəyirəm. Siz iki il bundan əvvəl mənə Əməkdar artist adı verdiniz. Buna görə çox sağ olun.

**H e y d ə r  Ə l i y e v:** Maşallah, sən də gündən-günə inkişaf edirsən. Elə papaq qoymuşdun ki, tanımadım.

**N a z p ə r i  D o s t ə l i y e v a***(müğənni)***:** Cənab Prezident, çox sağ olun. Bu gün məni heç kim tanımayıbdır.

**H e y d ə r  Ə l i y e v:** Çox yaxşı oxuyursan. Muğam da ifa edirsən. Yaxşı edirsən, bu sahədə işlə, səsin çox yaxşıdır.

Qızım, sən bu gün çox yaxşı oxudun. Sənin adın nədir? Tanımırdım, çox yaxşı oxuyursan.

**A y g ü n  B a y r a m o v a** *(müğənni)***:** Cənab Prezident, çox sağ olun, minnətdaram.

**H e y d ə r  Ə l i y e v:** Sən necəsən, teatrda nə var, nə yox?

**M ə l e y k ə  Ə s ə d o v a***(Xalq artisti)***:** Cənab Prezident, təşəkkür edirəm, hər şey yaxşıdır.

**H e y d ə r  Ə l i y e v:** Həmişə olduğu kimi, yenə də çox yaxşı çıxış etdin.

Niyaməddin də mənim köhnə dostumdur.

**N i y a m ə d d i n  M u s a y e v***( Xalq artisti)***:** Cənab Prezident, Sizə ömrümüz boyu minnətdarıq. Hamımız Sizi çox sevirik. Allah Sizə can sağlığı, uzun ömür versin. Həmişə Sizi belə sağlam görək.

**H e y d ə r  Ə l i y e v:** Çox yaxşı oxuyursan. 20 il bundan əvvəl oxuduğun kimi, indi də oxuyursan.

**M ə l e y k ə  Ə s ə d o v a:** Cənab Prezident, biz Yeni Azərbaycan Partiyasının üzvləriyik. Teatrda da özəyini yaratmışıq, mən də sədrimiz Həsən Məmmədovun müaviniyəm.

**H e y d ə r  Ə l i y e v:** Çox yaxşı. Yaxşı vəzifəniz var.

Bilirsiniz, bu gün mənim keyfim çox yaxşıdır. Çünki bizim mərasimimiz yaxşı keçdi. Partiyamız yaxşıdır. Siz də çox gözəl konsert verdiniz. Ona görə keyfim yaxşıdır. Sizə təşəkkür edirəm, sağ olun.

# TÜRKİYƏNİN «ENKA» ŞİRKƏTİNİN FƏXRİ PREZİDENTİ ŞARIK TARANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*28 noyabr 2002-ci il*

**H e y d ə r  Ə l i y e v**: Hörmətli qonaqlar, sizi səmimi-qəlbdən salamlayıram. Vaxt tapıb ölkəmizə gəldiyinizə görə sizə təşəkkür edirəm. «ENKA» şirkəti tərəfindən Bakıda tikilmiş yeni aeroportun açılışında, cənab Şarık Tara, sizi görmədim. Sizə Azərbaycana sərmayə qoymağı məsləhət bilirəm.

**Ş a r ı k  T a r a:** Mən səmimi qəbula görə, cənab Prezident, Sizə dərin minnətdarlığımı bildirirəm. Aeroportun açılışı zamanı cərrahiyyə əməliyyatı keçirirdim. İcazənizlə rəhbərlik etdiyim şirkətin fəaliyyəti və gələcək planları haqqında məlumat verim. Biz Azərbaycanda bir çox işlər görmək istəyirik. Yaxın Şərqdə, Avropada, Orta Asiyada və digər bölgələrdə iş görürük, milyonlarla dollar sərmayə qoymuşuq. Dekabrın axırlarında Moskvada Avropanın ən böyük və gözəl konsert salonlarından birini təhvil verəcəyik və açılış mərasimində prezident Putin, Moskvanın meri Lujkov da iştirak edəcəklər.

Biz İqtisadi İnkişaf Nazirliyində keçirilən görüşdə bəzi məsələləri müzakirə etdik, Azərbaycanda sənayenin bir sıra sahələrində fəaliyyət göstərmək istəyirik.

Avropanın ən böyük elektrik stansiyaları «ENKA» tərəfindən inşa olunmuşdur. Türkiyədə Amerika şirkəti ilə birgə 3800 meqavat gücə malik stansiyanın tikintisinə 2,2 milyard dollar vəsait xərclənmişdir. Biz Azərbaycana sərmayə qoymağa hazırıq. Sumqayıtdakı 400 meqavatlıq istilik-elektrik stansiyasını yenidən qurmaq niyyətimiz var. Cənab Prezident, Azərbaycanda Siz varsınız. Ona görə hamımız düşünürük ki, bizim burada iş görməyimiz böyük şərəfdir.

Məlumat olaraq bildirim ki, Avropanın tikinti şirkətləri Türkiyədən 15 il geri qalır, texnoloji baxımdan Türkiyə çox irəliyə getmişdir. Indiyədək Türkiyədən xaricə 146 min işçi qüvvəsi göndərmişik. İndi isə icazə verin, mən öz şəxsi məktubumu Sizə təqdim edim.

**H e y d ə r Ə l i y e v:** Bunlar çox böyük işlərdir. Çox gözəl fikirlərin var, gördüyün işlər haqqında məlumat verdin. Mən əvvəl də bilirdim, indi də dedin ki, Rusiyada çox işlər görmüsən. Rusiyada hələ sovet dövləti vaxtından işləməyə başlamısan, Petrovski passajı sən bərpa etmisən. Mən onda Moskvada yaşayırdım. Onda Moskvada dedilər ki, türklər necə gözəl inşaatçıdırlar. Biz hamımız türkük, ona görə mən bunu açıq danışmalıyam. Keçmişdə belə hesab edirdilər ki, türk heç bir şey bacarmır, heç bir şey edə bilməz. Türkünkü, nə bilim, qoyun saxlamaqdır, filandır, filandır. Rusiyada türklər barədə belə fikirlər çox idi. Bəzən bir adam pis iş edəndə deyirdilər ki, sən türksən, nəsən. Yəni pis adam kimi hesab edirdilər. Amma o vaxt sən gəldin Petrovski passajı bərpa etdin, ondan sonra Türkiyə Moskvada ad çıxarmağa başladı. İndi də Moskvada çox binalar tikmisən. Ona görə mən çox məmnunam. Çünki mən hər dəfə Moskvada olanda eşidirəm ki, bunu «ENKA» şirkəti edib, bunu türk edibdir. Bu bir türk kimi, məni sevindirir.

Məktubu mütləq oxuyacağam və fikrimi deyəcəyəm. Sən böyük iş adamısan. Azərbaycan sənin öz vətənindir, Türkiyə ilə Azərbaycana fərq yoxdur. Ona görə burada iş görməlisən, yatırım qoymalısan. Rusiyada, digər yerlərdə yatırım qoyursan, onlara fayda verirsən. Bu yatırımı buraya qoy, həm özün fayda götür, həm də Azərbaycan, qardaşların fayda götürsün. Azərbaycanda görüləcək işlər nə qədər böyük olsa da, başqa ölkələrdə gördüyün işlərin yanında kiçik bir şeydir. Məsələn, 400 meqavatlıq stansiya bizim üçün işdir, amma «ENKA» üçün o qədər də böyük deyildir.

# MÜSLÜM MAQOMAYEV ADINA AZƏRBAYCAN DÖVLƏT FİLARMONİYASI BİNASININ BƏRPASI VƏ YENİDƏN QURULMASI HAQQINDA

## Azərbaycan Respublikası Prezidentinin sərəncamı

XIX əsrin sonu – XX əsrin əvvəli Azərbaycanda siyasi, iqtisadi və mədəni həyatın bir çox sahələrində böyük canlanma dövrü kimi səciyyələnir. Neftin sənaye üsulu ilə hasilatına başlanması Azərbaycanın, xüsusilə onun paytaxtı Bakı şəhərinin sosial-iqtisadi və mədəni mənzərəsini nəzərəçarpacaq dərəcədə dəyişdirdi. Azərbaycanda dünyəvi təhsil ocaqlarının, milli teatr və mətbuatın yaranması məhz həmin dövrlə bağlıdır. Qədim və zəngin tarixə malik olan musiqi ifaçılığı sənəti də həmin dövrdə məclis, toy və xalq şənlikləri çərçivəsindən çıxaraq, çoxlu tamaşaçısı olan teatr və konsert salonlarına yol tapırdı, filarmoniyada fəaliyyətin təməli qoyulurdu.

İlkin mərhələdə xanəndələr və çalğıçılar teatr tamaşalarının fasilələrində və musiqi səhnəciklərində çıxış edirdilər. Bu çıxışlar məşhur Şərq konsertlərinin meydana gəlməsi üçün şərait yaratdı. İlk Şərq konserti 1901-ci ilin yayında Şuşada təşkil edilmişdir. 1902-ci il yanvarın 11-də isə Bakıda Hacı Zeynalabdin Tağıyevin teatrında məşhur xanəndələr Cabbar Qaryağdıoğlu, Keçəçioğlu Məhəmməd, Şəkili Ələsgər, Seyid Mirbabayev və başqalarının iştirakı ilə Şərq konserti keçirildi. Görkəmli ədib Əbdürrəhim bəy Haqverdiyevin təşəbbüsü və rəhbərliyi ilə 1903-cü il yanvarın 27-də Bakıda təşkil edilmiş ən

böyük Şərq konserti isə Azərbaycanda filarmoniyada fəaliyyətin ilk tədbiri hesab oluna bilər. Şərq konsertlərinin coğrafiyası get-gedə genişlənərək, Azərbaycanın hüdudlarından kənara çıxdı.

XIX əsrin ortalarından başlayaraq, Azərbaycana klassik rus və Avropa musiqi əsərlərinin də yol açmasına şərait yarandı. Bakıda ilk simfonik konsertlər təşkil edildi, simli alətlər orkestrinin, hərbi nəfəs alətləri orkestrlərinin çıxışları oldu. Dünya musiqi mədəniyyətinin tanınmış xadimləri konsertlər vermək üçün Bakıya gəlməyə başladılar. İtaliya operasının görkəmli müğənnilərinin, Avstriya orkestrinin, böyük rus bəstəkarları Pyotr Çaykovskinin, Sergey Raxmaninovun, Mixail İppolitov-İvanovun, müğənni Fyodor Şalyapinin və başqalarının Bakıya səfərləri şəhərin mədəni həyatında mühüm hadisəyə çevrildi. Təhsil müəssisələrinin proqramına nəğmə dərsləri, fortepiano, simli alətlərdə və nəfəs alətlərində ifaçılıq üzrə məşğələlər daxil edildi, musiqi kursları və məktəbləri yaradılmağa başlandı. Azərbaycanda Avropa musiqi təhsilinin əsası qoyuldu.

Bakıda musiqi tədbirlərinin əksəriyyəti Musa Nağıyevin 1890-cı ildə inşa etdirdiyi ictimai toplantılar üçün qış binasında təşkil edilirdi. Bu tədbirlərin get-gedə daha intensiv xarakter almasını və Bakının iqlim şəraitini nəzərə alaraq, şəhər zadəganları 1907-ci ildə ictimai toplantılar üçün yay binasının da tikilməsi barədə müraciət etdilər. 1910-cu ildə icazə alındı və həmin binanın inşası başlandı. İtaliya memarlıq üslubu ilə Şərq memarlıq sənəti ənənələrinin üzvü vəhdəti əsasında tikilmiş bina 1912-ci ilin sonunda istifadəyə verildi. O elə ilk günlərdən müxtəlif musiqi məclislərinin, konsertlərin, musiqili-ədəbi gecələrin mərkəzinə çevrildi. 1920-ci ilin iyulunda yaradılmış Azərbaycan Dövlət Simfonik Orkestri öz məşqlərini və

konsertlərini həmin binada təşkil edirdi. Orada digər musiqi kollektivləri və solistləri də çıxış edirdilər.

Respublikada pərakəndə şəkildə fəaliyyət göstərən müxtəlif musiqi qurumları 1936-cı ilin mayında respublikanın ən mötəbər konsert təşkilatı kimi yaradılan Azərbaycan Dövlət Filarmoniyasında birləşdirildi. Filarmoniya elə həmin binada yerləşdirildi. 1937-ci ilin avqustunda filarmoniyaya böyük Azərbaycan bəstəkarı Müslüm Maqomayevin adı verildi. Filarmoniyanın konsert təşkilatı kimi təşəkkül tapmasında və inkişafında Azərbaycanın görkəmli sənətkarları Üzeyir Hacıbəyovun, Soltan Hacıbəyovun, Bülbülün, Cahangir Cahangirovun, Niyazinin, Qəmər Almaszadənin və başqalarının misilsiz xidmətləri olmuşdur. Hazırda ölkəmizin ən iri konsert təşkilatının nəzdində fəaliyyət göstərən Dövlət Simfonik Orkestri, Dövlət Kamera Orkestri, Dövlət Mahnı və Rəqs Ansamblı, Dövlət Rəqs Ansamblı, Dövlət Xor Kapellası, Dövlət Simli Kvarteti və digər musiqi kollektivlərinin təşəkkül tapıb ərsəyə gəlməsində onların böyük əməyi olmuşdur.

Filarmoniyanın binasında respublikamızın və xarici ölkələrin görkəmli orkestr və ansamblları, solistləri, müğənni və bədii qiraət ustaları uğurla çıxış etmiş, onun səhnəsində dünya şöhrətli bəstəkarların əsərləri və xalq musiqisi səslənmişdir. Burada Azərbaycanın Üzeyir Hacıbəyov, Qara Qarayev, Fikrət Əmirov, Niyazi, Bülbül, Rəşid Behbudov, Xan Şuşinski, Şövkət Ələkbərova kimi dahi musiqi xadimləri dəfələrlə çıxış etmişlər. Dünya musiqi sənətinin görkəmli nümayəndələri Dmitri Şostakoviç, Tixon Xrennikov, Svyatoslav Rixter, Van Klibern, Mstislav Rostropoviç, David Oystrax, Lev Oborin və başqalarının filarmoniya səhnəsindəki çıxışları simfonik musiqi həvəskarlarının yaddaşlarına həmişəlik həkk olunmuşdur. Simfonik musiqi konsertlərini

dinləmək üçün filarmoniyaya getmək 1970-ci illərdə artıq gözəl ənənəyə çevrilmişdi.

Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra milli-mədəni quruculuq prosesinin sürətlə aparılması üçün geniş imkanlar yarandı. Təəssüflə qeyd olunmalıdır ki, müstəqilliyin ilk illərində bu imkanlardan nəinki lazımınca istifadə edilmədi, hətta Azərbaycan mədəniyyət və incəsənət sahələrində uzun illər ərzində qazandığı nailiyyətləri itirməyə başladı. Mədəniyyətin dövlət qayğısından məhrum edilməsi, ona olan ögey münasibət, biganəlik şəraitində Azərbaycanın tanınmış musiqiçiləri xarici ölkələrə üz tutmağa başladılar. Böyük zəhmət hesabına yaradılmış musiqi kollektivləri dağılmaq təhlükəsi ilə üzləşdi. 1994–1995-ci illərdə mədəniyyət və incəsənət sahələrində yaranmış mürəkkəb vəziyyət araşdırılaraq, onun aradan qaldırılması üçün bəzi təkliflər hazırlandı. Azərbaycan Respublikası Prezidentinin «Azərbaycanda gənc istedadlara dövlət qayğısı haqqında» 22 iyun 1996-cı il, «Gənc istedadlar üçün xüsusi təqaüdlər təsis edilməsi haqqında» 13 sentyabr 1997-ci il, «Azərbaycan Respublikasının ədəbiyyat və incəsənət xadimlərinə dövlət qayğısının artırılması haqqında» 10 noyabr 1997-ci il, «Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Simfonik Orkestrinin fəaliyyətini yaxşılaşdırmaq tədbirləri haqqında» 2 dekabr 1997-ci il, «Azərbaycan Respublikasının fəxri adları haqqında» 22 may 1998-ci il, «Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının balet truppasının işçilərinin sosial təminatını yaxşılaşdırmaq haqqında» 6 dekabr 1999-cu il, «Azərbaycan Dövlət Xor Kapellasının sosial təminatını yaxşılaşdırmaq haqqında» 2 iyun 2000-ci il, «Azərbaycan Dövlət Rəqs Ansamblının işçilərinin sosial təminatının yaxşılaşdırılması haqqında» 15 oktyabr 2001-ci il, «İncəsənət xadimləri üçün

Azərbaycan Respublikası Prezidentinin mükafatlarının təsis edilməsi haqqında» 28 may 2002-ci il, «Azərbaycan Respublikasının Prezidentinin fərdi təqaüdünün təsis edilməsi haqqında» 11 iyun 2002-ci il tarixli fərman və sərəncamları müsiqi kollektivlərinin maddi-texniki bazasının möhkəmləndirilməsi, mədəniyyət və incəsənət xadimlərinin sosial vəziyyətinin yaxşılaşdırılması, onların yeni yaradıcılıq nailiyyətlərinə həvəslən-dirilməsi yolunda mühüm rol oynadı. Görülmüş tədbirlər nəticəsində Azərbaycanın musiqi kollektivlərində artıq əsl yaradıcılıq ab-havası yaranmışdır.

Bir çox musiqi kollektivlərini birləşdirən filarmoniyanın binasından da məqsədyönlü şəkildə istifadə edilməsi işində problemlər yaranmışdı. 1976–1977-ci illərdə filarmoniyanın binasında əsaslı təmir aparılsa da, yeraltı suların onun zirzəmisinə sızması nəticəsində bina get-gedə yararsız vəziyyətə düşmüşdü. 1995–2000-ci illərdə dövlət büdcəsindən ayrılmış vəsait hesabına yeraltı suların qarşısının alınması və binanın bünövrəsinin möhkəmləndirilməsi üçün müvafiq işlər həyata keçirilmişdir. Binanın konsert fəaliyyətinin müasir tələblərə cavab verməsi üçün orada əlavə tikinti işləri də aparılması qərara alınmışdır.

Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının binası xalqımızın milli sərvətidir. Paytaxtımızın nadir memarlıq incilərindən biri olan, unikal akustika imkanları ilə seçilən bu bina XX əsr ərzində Azərbaycan musiqi sənətinin misli görünməmiş inkişafının şahidi olmuş və bu prosesin gerçəkləşdirilməsində əvəzsiz rol oynamışdır. Azərbaycan Dövlət Filarmoniyası binasının xalqımızın tarixi və mədəniyyətinin dəyərli abidəsi olduğunu nəzərə alaraq, onun Azərbaycan mədəniyyəti və incəsənətinin inkişafında rolunun əhəmiyyətini qeyd etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının binasında aparılan bərpa-yenidənqurma işlərinin və binanın müasir tələblər səviyyəsində lazımi avadanlıqlarla təchizatının 2003-cü il aprelin sonuna qədər başa çatdırılmasını təmin etsin.

2. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi filarmoniya binasının təntənəli açılış mərasimini keçirsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *29 noyabr 2002-ci il*

## PAKİSTAN İSLAM RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB MİR ZƏFƏRULLAH XAN CƏMALİYƏ

Hörmətli cənab Baş nazir!

Pakistan İslam Respublikasının Baş naziri vəzifəsinə seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm. Ölkəmizin dost Pakistan ilə münasibətlərinə böyük əhəmiyyət verirəm. Ümidvaram ki, xalqlarımızın məna feyinə uyğun olaraq, bütün sahələrdə əməkdaşlığımızı genişləndirmək üçün bundan sonra da qarşılıqlı səylər göstərəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, qardaş Pakistan xalqının rifahı naminə fəaliyyətinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *29 noyabr 2002-ci il*

## AĞDAŞ RAYONUNDAKI 3 NÖMRƏLİ ORTA MƏKTƏBƏ

Hörmətli müəllimlər!

Əziz şagirdlər!

Azərbaycan təhsilinin inkişafında xidmətləri olan Ağdaş rayonu 3 nömrəli orta məktəbin 120 illik yubileyi münasibətilə sizi, məktəbin məzunlarını və ölkəmizin pedaqoji ictimaiyyətini səmimi-qəlbdən təbrik edirəm.

1882-ci ildə yaradılmış və fəaliyyəti üç əsrə təsadüf edən bu məktəb Azərbaycanda maarifçilik prinsiplərinin bərqərar olmasında görkəmli rol oynamışdır. Fərəhli haldır ki, Zaqafqaziya Müəllimlər Seminariyasının məzunu, məktəbin ilk rəhbərlərindən olan tanınmış maarifçi ziyalı Süleyman Qayıbov tərəfindən əsası qoyulmuş mütərəqqi təhsil ənənələri indi də yaşayır və ildən-ilə inkişaf edir. İlk təhsilini bu məktəbdə almış Azərbaycan və Özbəkistanın görkəmli yazıçısı Maqsud Şeyxzadə, M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin professoru Burhan Kərimov, akademik Bəkir Nəbiyev, respublikanın Xalq artisti Habil Əliyev kimi elm və mədəniyyət xadimləri ilə xalqımız haqlı olaraq fəxr edir.

Məktəbinizin pedaqoji kollektivi dövlətçiliyimizin möhkəmləndirilməsi, təhsil sistemində islahatların həyata keçirilməsi, müstəqil Azərbaycan üçün yüksək hazırlıqlı, dərin bilikli, vətənpərvər övladlar tərbiyə edilməsi sahəsində aparılan işlərdə əlindən gələni əsirgəmir.

Bu əlamətdar yubiley münasibətilə məktəbinizin müəllim və şagirdlərinə, məzunlarına, bütün təhsil işçilərinə cansağlığı, xoşbəxtlik və böyük uğurlar arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *29 noyabr 2002-ci il*

# RUSİYANIN ENERGETİKA NAZİRİ İQOR YUSUFOV İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*29 noyabr 2002-ci il*

*Prezident Heydər Əliyev qonağı salamlayaraq dedi ki, energetika sahəsi də daxil olmaqla, Azərbaycan ilə Rusiya arasında münasibətlər fəal surətdə inkişaf edir və Rusiya Federasiyasının Energetika nazirinin səfəri ikitərəfli iqtisadi əlaqələrin genişlənməsində mühüm rol oynayacaqdır.*

*Nazir Iqor Yusufov səmimi qəbula görə Azərbaycan prezidentinə təşəkkür edərək vurğuladı ki, iki ölkənin dövlət başçıları arasında fəal siyasi dialoq, onların müdrik mövqeləri sayəsində bir çox sahələrdə böyük uğurlar əldə olunmuş, Xəzərin statusu məsələsinin həlli yolu tapılmışdır. O dedi ki, imzalanmış ikitərəfli saziş Azərbaycan və Rusiya rəhbərlərinin gəldikləri razılaşmaların intensiv surətdə həyata keçirilməsini energetika nazirlərinin üzərinə bir vəzifə kimi qoyur.*

*İqor Yusufov Bakıda aparılmış danışıqlar barədə məlumat verərək bildirdi ki, qarşılıqlı maraq doğuran bir sıra məsələlər müzakirə edilmiş, Azərbaycan neftinin Bakı–Novorossiysk marşrutu ilə nəqli sahəsində səmərəli əməkdaşlığın bundan sonra da davam etdirilməsi haqqında razılaşma əldə olunmuşdur. Nazir dedi ki, Rusiya bu məsələdə çox maraqlıdır və arzu olarsa, keyfiyyət və tariflərə dair şərtlər razılaşdırılarsa, neftin həcmini artırmaq mümkündür. Bu isə öz neftinin ixracında Azərbaycan*

*üçün alternativ yoldur». Rusiya tərəfi Azərbaycan iqtisadiyyatının qaza olan tələbatını tam həcmdə ödəmək barədə öz öhdəliklərini təsdiqlədi. Danışıqlar nəticəsində müəyyən edildi ki, Azərbaycanın əlavə həcmdə qaza ehtiyacı var. Bundan ötrü yalnız müqavilənin müddətini, şərtlərini, qiymətqoymanı və bir sıra digər məqamları razılaşdırmaq lazımdır.*

*İqor Yusufov Xəzərin Azərbaycan sektorundakı karbohidrogen ehtiyatlarının işlənilməsində Rusiya şirkətlərinin yaxından iştirakına imkan verildiyinə görə dövlətimizin başçısına təşəkkür edərək dedi ki, Rusiyanın əməkdaşlıq etdiyi ölkələrin heç də hamısında belə səmimi mühit, əməkdaşlıq üçün belə şərait yoxdur və elə hallar da olur ki, Rusiya şirkətlərinə deyil, Qərb sərmayəçilərinə üstünlük verirlər. Azərbaycanda isə Rusiyanın neft və qaz şirkətləri üstün mövqeyə və imkanlara malikdirlər.*

*Elektroenergetika sahəsində əməkdaşlıq məsələləri ilə bağlı qeyd olundu ki, Rusiyadan elektrik enerjisinin Azərbaycana ixracının həcmini artırmaq imkanı var, bir şərtlə ki, Rusiya infrastrukturun inkişafında, o cümlədən Dərbənddən Azərbaycan istiqamətində 330 kilovoltluq elektrikötürmə xəttinin ikinci qolunun çəkilişində iştirak etsin. Bu, alınan elektrik enerjisinin həcmini artırmağa imkan verəcəkdir. Eyni zamanda Rusiya tərəfi onun həcmini 1 milyon kilovat-saatdan çox artıra və beləliklə, əlavə enerjini üçüncü ölkələrə, o cümlədən Türkiyəyə göndərə bilər. Bu isə əlavə gəlir gətirəcək və region ölkələri ilə münasibətləri inkişaf etdirməyə imkan verəcəkdir.*

*İqor Yusufov İranda, İraqda və həmin regionun başqa dövlətlərində ölkələrimizin uğurla həyata keçirə biləcəyi neft-qaz layihələrini nəzərdə tutaraq dedi ki, Rusiya ilə Azərbaycanın birlikdə üçüncü ölkələrdə daha fəal işləməsinin vaxtı gəlib çatmışdır. Nazir xatırlatdı ki, Rusiyanın Energetika Nazirliyi*

*İraq, Səudiyyə Ərəbistanı, Birləşmiş Ərəb Əmirlikləri və Fars körfəzinin digər ölkələri ilə energetika məsələləri üzrə bir sıra hökumətlərarası komissiyalara başçılıq edir. Müəyyən layihələrin həyata keçirilməsində Azərbaycan şirkətlərinin, xüsusən ARDNŞ-in potensialından istifadə etmək olardı.*

*Azərbaycanla Rusiya arasında neft sahəsində əməkdaşlıq 1993-cü ildən başlayaraq genişlənir. Prezident Heydər Əliyev bu barədə danışaraq dedi ki, Rusiyanın «LUKoyl» şirkəti Xəzərin Azərbaycan sektoruna dair bir çox müqavilələrdə iştirak edir, halbuki Rusiyanın digər şirkətləri də dəvət olunmuşdu. Bu sahədə Rusiya–Azərbaycan əməkdaşlığı davam etdiriləcəkdir. Bakı–Novorossiysk boru kəməri ölkəmiz üçün çox önəmlidir və Azərbaycan tərəfi onunla bağlı öz öhdəliklərini yerinə yetirir.*

*Azərbaycan, Rusiya və Qazaxıstan arasında Xəzər dənizinin dibinin bölünməsi haqqında ikitərəfli sazişlər imzalanmışdır. Dövlətimizin başçısı ümidvar olduğunu bildirdi ki, Xəzərin orta xətt prinsipi üzrə bölünməsinə dair mövcud beynəlxalq prinsipi Türkmənistan və İran da dəstəkləyəcəklər.*

*Prezident Heydər Əliyev ölkəmizə göndərilən elektrik enerjisinin həcminin artırılması təşəbbüsünü dəstəklədi. Dövlətimizin başçısı həmçinin bildirdi ki, biz Rusiya şirkətlərinin Xəzərin Azərbaycan sektorunda işləməsinə imkan yaratmağa hazırıq, çünki hələ istifadə edilməyən strukturlar vardır. Prezident Heydər Əliyev üçüncü ölkələrdə Rusiya–Azərbaycan əməkdaşlığından söz açaraq, bunu maraqlı təşəbbüs adlandırdı və dedi ki, Yanacaq və Energetika Nazirliyi, ARDNŞ bu məsələni hərtərəfli öyrənməlidirlər.*

*Dövlətimizin başçısı bəyan etdi ki, Azərbaycan ilə Rusiya arasında istər energetika sahəsində, istərsə də başqa sahələrdə daha geniş əməkdaşlıq üçün heç bir maneə və problem yoxdur.*

**BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN PREZİDENTİ ƏLAHƏZRƏT ŞEYX ZAİD BİN SULTAN ƏL NƏHƏYYANA**

Əlahəzrət!

Ölkənizin milli bayramı – Birləşmiş Ərəb Əmirlikləri dövlətinin yaradılması günü münasibətilə Sizi və xalqınızı səmi-mi-qəlbdən təbrik edirəm.

Ölkələrimiz arasındakı münasibətlərin bugünkü səviyyəsindən məmnunam. Əminəm ki, xalqlarımızın bir-birinə bəslədiyi dostluq hissləri ilə təməli qoyulmuş dövlətlərarası əlaqələrimiz və əməkdaşlığımız daim inkişaf edəcək və möhkəmlənəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, qardaş Birləşmiş Ərəb Əmirlikləri xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *29 noyabr 2002-ci il*

**RUMINİYANIN PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB İON İLİYESKUYA**

Hörmətli cənab Prezident!

Rumıniyanın milli bayramı münasibətilə Sizi və xalqınızı səmimi-qəlbdən təbrik edirəm.

Ölkələrimiz arasındakı dostluq və əməkdaşlığın inkişafından, qarşılıqlı əlaqələrimizin genişlənməsindən məmnunluq duyuram. Əminəm ki, mövcud imkanlardan tam istifadə olunması üçün bütün səylərimizi səfərbər etməklə xalqlarımızın rifahına yeni töhfələr verəcəyik.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, ölkənizə əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *29 noyabr 2002-ci il*

## LAOS XALQ DEMOKRATİK RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB KHAMTAY SİPHANDONA

Hörmətli cənab Prezident!

Laos Xalq Demokratik Respublikasının milli bayramı– Respublika elan edilməsi günü münasibətilə Sizi və xalqınızı ürəkdən təbrik edirəm.

Ümidvaram ki, ölkələrimiz arasında artan əlaqələr xalqlarımızın mənafeyinə xidmət edən qarşılıqlı surətdə faydalı əməkdaşlıq üçün geniş yollar açacaqdır.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, ölkənizə əmin-amanlıq və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *29 noyabr 2002-ci il*

# AZƏRBAYCAN RESPUBLİKASINDA ARXİV İŞİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ HAQQINDA

## Azərbaycan Respublikası Prezidentinin fərmanı

Azərbaycan Respublikasının arxiv xidməti təşkilatları xalqımızın çoxəsrlik tarixini öyrənmək üçün qiymətli sənədlərin toplandığı və mühafizə olunduğu elmi-tədqiqat mərkəzləridir. Müstəqil Azərbaycanın fəaliyyətinin əsas sahələrindən biri olan arxiv xidməti geniş şəbəkəyə malikdir. Bu gün ölkəmizdə 7 respublika dövlət arxivi, onların 15 filialı, habelə Naxçıvan Muxtar Respublikasının və 56 rayonun dövlət arxivi fəaliyyət göstərir. Elmin, mədəniyyətin və ictimai həyatın ən müxtəlif sahələrini özündə əks etdirən həmin arxivlərdə 18 min fond üzrə 3,5 milyon kağız əsaslı idarəçilik işləri, 800-dən yuxarı fond üzrə elm, mədəniyyət, ədəbiyyat və incəsənət xadimlərinin 100 minə qədər işdən ibarət sənədləri, 140 mindən artıq saxlama vahidindən ibarət elm və texnika sənədləri, 400 minə yaxın foto, 50 min kino və foto sənədləri mühafizə edilir.

Müstəqil Azərbaycan Respublikasında arxiv xidmətinin qanunvericilik bazasını «Milli arxiv fondu haqqında» Azərbaycan Respublikasının 1999-cu ilin iyununda qəbul edilmiş qanunu təşkil edir. Qanun ölkəmizdə arxiv fəaliyyətini tənzimləyir, onun idarə olunması prinsiplərini, arxiv işi sahəsində dövlətin vəzifələrini müəyyən edir.

Azərbaycan xalqının əvəzsiz mənəvi sərvəti olan arxiv sənədlərinə müntəzəm müraciət olunur. Dövlət hakimiyyəti orqanlarının,

idarə və müəssisələrin informasiyaya olan gündəlik tələbatı ödənilir, respublikanın və xarici ölkələrin yüzlərlə alimi öz elmi tədqiqatlarında, monoqrafiya və dərsliklərin yazılmasında arxivlərimizin sənədlərindən geniş istifadə edirlər. Arxivlər tərəfindən sənədlər külliyyatı nəşr olunur, radio və televiziya verilişləri hazırlanır, sənədlər dövri mətbuatda dərc edilir, respublikamızın və xarici ölkə vətəndaşlarının sosial-hüquqi xarakterli ərizə və sorğuları icra olunur.

Arxiv fondu yeni materiallarla daim zənginləşən mühüm bir mənbədir. Azərbaycan xalqının tarixinin müxtəlif mərhələlərinə aid yüz minlərlə iş və sənəd müntəzəm olaraq dövlət arxivlərinə qəbul edilir, ictimai elmlərin, xüsusilə tarix elminin tədqiqat bazasını daha da genişləndirir.

Bununla yanaşı, qeyd olunmalıdır ki, arxiv xidmətinin statusu və strukturu müstəqil Azərbaycan Respublikasında gedən dövlət quruculuğu işinin tələblərinə tam cavab vermir. Arxiv işi sahəsində indiyə qədər vahid informasiya bazasının yaradılmaması, elektron informasiya daşıyıcılarının imkanlarından lazımınca istifadə olunmaması, arxiv xidməti təşkilatlarının maddi-texniki təchizatının müasir standartlara uyğun gəlməməsi bu sahədə problemlər yaradır. Problemlərin bir qismi də arxiv binalarının çatışmazlığı və ya yararsız vəziyyətdə olması, arxiv işinin bəzi sahələrində pərakəndəlik hallarının meydana çıxması, yerlərdəki müəssisə, idarə və təşkilatlarda kargüzarlıq və arxiv işinin lazımi səviyyədə olmaması ilə bağlıdır.

Azərbaycan xalqının tarixinin ilk mənbələr əsasında öyrənilib yazılmasında, idarə və müəssisələrin, habelə vətəndaşların informasiyaya olan gündəlik tələbatının ödənilməsində arxiv fondunun böyük əhəmiyyətini nəzərə alaraq, Azərbaycan

Respublikasında arxiv işinin təkmilləşdirilməsi məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Baş Arxiv İdarəsinin bazasında Azərbaycan Respublikasının Milli Arxiv İdarəsi yaradılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

– Azərbaycan Respublikası Milli Arxiv İdarəsinin Əsasnaməsinin layihəsini bir ay müddətində hazırlayıb təsdiq olunmaq üçün Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

– Azərbaycan Respublikası Milli Arxiv İdarəsi Aparatının işçilərinin say həddini təsdiq etsin;

– arxiv xidməti təşkilatlarının maddi-texniki təchizatının təkmilləşdirilməsi, arxiv xidmətinin lazımi binalarla təmin olunması, mövcud arxiv binalarında təmir və bərpa işlərinin aparılması, arxiv işçilərinin sosial vəziyyətinin yaxşılaşdırılması üzrə iki ay müddətində müvafiq proqram tərtib edib Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

– bu fərmandan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi, şəhər və rayon icra hakimiyyəti başçıları dövlət arxivinin yerlərdəki filiallarının, şəhər və rayon dövlət arxivləri işinin yaxşılaşdırılması, sənədlərin saxlanılması üçün onların yararlı binalarla təmin edilməsi məqsədi ilə lazımi tədbirlər görsünlər.

4. Bu fərman imzalandığı gündən qüvvəyə minir.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *2 dekabr 2002-ci il*

**SLOVENİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB YANEZ DMOVŞEKƏ**

Hörmətli cənab Prezident!

Sloveniya Respublikasının prezidenti seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Əminəm ki, ölkələrimiz arasında təşəkkül tapmış dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafeyinə uyğun olaraq daim genişlənəcək və inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Sloveniya xalqının rifahı naminə fəaliyyətinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *3 dekabr 2002-ci il*

**TAİLANDIN KRALI**
**ƏLAHƏZRƏT**
**PUMİPON ABDULYADETƏ**

Əlahəzrət!

Ölkənizin milli bayramı – Kralın təvəllüd günü münasibətilə Sizi və xalqınızı səmimi-qəlbdən təbrik edirəm.

Ümidvaram ki, ölkələrimiz arasında dostluq münasibətlərinin inkişafı əlaqələrimizin bütün sahələrdə genişlənməsi üçün real imkanlar açacaqdır.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Tailand xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *3 dekabr 2002-ci il*

**FİNLANDİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ XANIM TARYA HALONENƏ**

Hörmətli xanım Prezident!

Ölkənizin milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və xalqınızı səmimi-qəlbdən təbrik edirəm.

Əminəm ki, ölkələrimiz arasındakı dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın rifahı naminə daim inkişaf edəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Finlandiya xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *3 dekabr 2002-ci il*

## QAZAXISTAN RESPUBLİKASININ ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ ANDAR ŞUKPUTOVUN ETİMADNAMƏSİNİ QƏBULETMƏ MƏRASİMİ

*Azərbaycan prezidentinin iqamətgahı*

*3 dekabr 2002-ci il*

**A n d a r  Ş u k p u t o v:** Hörmətli cənab Prezident!

Qazaxıstan Respublikasının Fövqəladə və Səlahiyyətli səfiri kimi, ölkənizə gəlmək mənim üçün böyük şərəf və məsuliyyətdir. Qazaxıstan müstəqil və suveren Azərbaycana, onun qardaş və mehriban xalqına çox dərin hörmət və rəğbət bəsləyir.

Möhtərəm Heydər Əlirza oğlu, Qazaxıstan Respublikasının prezidenti Nursultan Abışoviç Nazarbayevin xoşbəxtlik və firavanlıq arzularını şəxsən Sizə və bütün qardaş Azərbaycan xalqına yetirməkdən şərəf duyuram. Mən zəngin tarixə və mədəniyyətə malik Azərbaycan torpağında işləmək və yaşamaq imkanına görə şadam. Mənim bütün fəaliyyətim dövlətlərimiz arasındakı ikitərəfli münasibətlərin daha da inkişaf etdirilməsinə və dərinləşdirilməsinə yönəldiləcəkdir.

Hörmətli cənab Prezident, icazə verin, Qazaxıstan Respublikasının Azərbaycan Respublikasında Fövqəladə və Səlahiyyətli səfiri kimi akkreditə olunmağım barədə etimadnaməni Sizə təqdim edim.

**H e y d ə r Ə l i ye v:** Hörmətli cənab səfir!

Sizi Qazaxıstanın Azərbaycanda səfiri təyin olunmağınız münasibətilə təbrik edir, gələcək işinizdə sizə uğurlar arzulayıram.

Qazaxıstan və Azərbaycan dost ölkələrdir. Keçmişdən və xüsusən, Azərbaycanla Qazaxıstan müstəqillik əldə etdikdən sonra bizi çox tellər bağlayır.

Biz həyatımızın bir çox sahələrində fəal əməkdaşlıq edirik. Əminəm ki, Qazaxıstanın Azərbaycanda səfiri kimi fəaliyyətiniz Qazaxıstan–Azərbaycan dostluq münasibətlərinin və əməkdaşlığımızın daha da inkişaf etməsinə və dərinləşməsinə kömək edəcəkdir. Bundan ötrü böyük imkanlar var və siz onları bilirsiniz. Hesab edirəm ki, burada işlədikcə bu imkanlar barədə daha çox məlumatınız olacaqdır.

Azərbaycanda səmərəli fəaliyyətiniz üçün sizə bütün lazımi şərait yaradılacaqdır. Burada siz xalqın, insanların, dostların diqqəti, dostcasına qayğısı ilə əhatə ediləcəksiniz. Ümidvaram ki, fəaliyyətiniz uğurlu olacaqdır.

Qazaxıstanın Azərbaycanda səfiri təyin olunmağınız münasibətilə sizi bir daha təbrik edirəm. Mənim salamımı və ən xoş arzularımı dostum Nursultan Nazarbayevə yetirməyinizi xahiş edirəm.

* * *

*Sonra Azərbaycan prezidenti Heydər Əliyev ilə Qazaxıstan səfiri Andar Şukputov arasında səmimi, mehribancasına söhbət oldu.*

**H e y d ə r Ə l i y e v:** Dövlətlərimiz arasında yaxşı münasibətlər var, lakin Xəzərlə bağlı məsələdə əməkdaşlığımız xüsusilə böyük əhəmiyyət kəsb edir. Bilirsiniz ki, Xəzərin mine-

ral ehtiyatlarından istifadə imkanlarını müəyyənləşdirmək prosesi illərlə davam etmişdir. Biz bu prosesə 1994-cü ildə başladıq. Qazaxıstan bizi həmişə fəal dəstəklədi, sonra da orta xətt üzrə mövqeyini müəyyənləşdirdi. Şadam ki, Qazaxıstanla Rusiya arasında danışıqlar aparıldı və bu danışıqlar yaxşı nəticəyə – qəti sazişin imzalanmasına gətirib çıxardı. Biz Rusiya ilə qəti saziş imzaladıq, Azərbaycanla Qazaxıstan arasında da saziş var. Bir sözlə, bu məsələdə üç Xəzəryanı dövlət eyni fikirdədir.

Biz artıq neçə illərdir ki, Qazaxıstan neftini tankerlərlə gətirib buradan nəql edirik, bu, ildə təxminən 4–5 milyon ton miqdarındadır.

Biz artıq müəyyənləşdirmişik ki, Azərbaycan bütün hallarda öz nefti ilə kəmərin səmərəli işini təmin edəcəkdir. Sentyabrın 18-də biz, üç prezident – Azərbaycan, Gürcüstan və Türkiyə prezidentləri Amerika Birləşmiş Ştatlarının Energetika nazirinin iştirakı ilə burada bu neft kəmərinin təməlini qoyduq. Yaxın günlərdə tikinti proqramının əməli surətdə həyata keçirilməsinə başlanacaqdır. Son vaxtlar ləngimə Gürcüstanla bağlı idi, çünki orada onların qeyri-hökumət təşkilatlarının, ekoloqlarının bəzi təklifləri, sualları yaranmışdı. Bununla əlaqədar iş bir qədər çətin gedirdi, onlar əvvəlcə bir marşrut təklif etdilər, lakin bu marşrut bizim üçün məqbul olmadı. Marşrut dəyişdirildi, yenisi müəyyən edildi. Həmin marşrutu da öyrənmək üçün böyük iş görüldü. Bütün bunlar edildikdən və biz kəmərin təmələni qoyduqdan sonra ortaya bəzi məsələlər çıxdı. *bp* şirkətinin Azərbaycandakı prezidenti Devid Vudvord öz nümayəndə heyəti ilə Gürcüstanda – Ekologiya Nazirliyində və digər təşkilatlarda bir neçə gün danışıqlar apardı, prezident Eduard Şevardnadze onlarla görüşdü. Mən prezident Şevardnadzeyə zəng etdim, onunla bu məsələ barədə danışdım. Nəhayət, onlar srağagün axşamdan xeyli keçmiş

bu məsələni həll etdilər. Devid Vudvord dünən Bakıya döndü, bu gün mən onu qəbul edəcəyəm, o, nəticələr haqqında məruzə edəcək, ancaq ən başlıcası budur ki, məsələ artıq həll olunmuşdur və tikinti başlanacaqdır.

**Andar Şukputov:** Cənab Prezident, göstərilən mehribanlığa və qonaqpərvərliyə görə təşəkkürümü bildirirəm. Ölkələrimiz arasında heç bir ziddiyyət və fikir ayrılığı yoxdur. Asiyada etimad və qarşılıqlı fəaliyyət tədbirlərinə dair müşavirə keçirmək barədə Qazaxıstanın təşəbbüsünü dəstəklədiyinizə görə Sizə təşəkkür edirəm. Məlumat verim ki, Qazaxıstan parlamenti Xəzərə dair ikitərəfli Qazaxıstan–Azərbaycan sazişini yaxın vaxtlarda təsdiqləyəcəkdir.

Qazaxıstanın da marağı olan əsrin layihəsinin – Bakı–Tbilisi–Ceyhan neft kəməri layihəsinin həyata keçirilməsinə başlanması münasibətilə Azərbaycan prezidentini təbrik edirəm. Ölkələrimizin iqtisadi potensialından qarşılıqlı surətdə faydalı əməkdaşlığın inkişafı üçün tam istifadə edilmir, halbuki böyük imkanlar vardır. Mən Azərbaycan prezidentini əmin edirəm ki, gələcək fəaliyyətimdə bu məsələlərin həllini sürətləndirməyə çalışacağam.

## XALQ YAZIÇISI ƏKRƏM ƏYLİSLİYƏ

Hörmətli Əkrəm Əylisli!

Sizi – Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsini 65 illik yubileyiniz münasibətilə ürəkdən təbrik edirəm.

Siz 60-cı illərdə ədəbi mühitimizə yeni nəfəs gətirən sənətkarlardansınız. Zəngin ədəbi irsimizdən və Azərbaycan dilinin tükənməz imkanlarından ustalıqla bəhrələnərək qələmə aldığınız əsərlər sizə oxucuların dərin rəğbətini qazandırmışdır. Başlıca mövzusunu insan və təbiət, milli və ümumbəşəri dəyərlər təşkil edən bu əsərlər dərin lirik-psixoloji ovqatı ilə seçilir.

Siz Azərbaycanda altmışıncı illər nəsrinin təşəkkülündə bilavasitə iştirak edərək milli nəsrdə yenilik axtarışlarını özünəməxsus tərzdə təmsil etməklə müstəqillik fikrinin ideya-bədii cəhətdən hazırlanması işinə mühüm xidmət göstərmisiniz. Müxtəlif illərdə qələmə aldığınız esse və məqalələr müasir Azərbaycan ədəbi-bədii fikrində yazıçı tənqidinin gözəl nümunələridir. Siz dünya xalqları ədəbiyyatından Azərbaycan dilinə çevirdiyiniz bir çox qiymətli əsərlərlə müasir bədii tərcümə sənətimizə öz töhfənizi vermisiniz.

Sizin yaradıcılığınızın ən yetkin dövrü respublikamızın müstəqilliyinin möhkəmlənməkdə olduğu illərə təsadüf edir. İnanıram ki, siz Azərbaycanın müstəqillik dövrünün ədəbiyyatını yeni əsərlərinizlə bundan sonra da zənginləşdirəcəksiniz.

Sizə uzun ömür, cansağlığı və yeni yaradıcılıq uğurları arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *4 dekabr 2002-ci il*

## RAMAZAN BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

Əziz bacı və qardaşlar!

Sizi dünya müsəlmanlarının mübarək Ramazan bayramı münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Müqəddəs kitabımız Qurani-Kərimin nazil edildiyi ramazan ayı islam dininin mənəviyyatı möhkəmləndirmək, müsəlmanlar arasında dini-mənəvi birlik duyğusunu gücləndirmək, ilahi hikmətlərdən daha da faydalanmaq işinə xidmət edən mübarək aylarından biridir. Ramazan ayının sınaqlarından ləyaqətlə çıxmış hər bir müsəlman bu gün böyük qürur və fərəh hissi ilə bayram edir.

Öz milli və dini dəyərlərinə, tarixi ənənələrinə həmişə sadiq qalmış Azərbaycan xalqı da bütün dünya müsəlmanları ilə həmrəylik göstərərək müqəddəs Ramazan bayramını böyük təntənə ilə qeyd edir. İnanıram ki, müsəlman bacı və qardaşlarımız sülh, əmin-amanlıq, bərabərlik rəmzi olan Ramazan bayramı günlərində cəmiyyətdə mehribanlıq və qardaşlıq tellərinin möhkəmləndirilməsi yolunda daha böyük əzmkarlıq nümayiş etdirəcəklər.

Azərbaycanın azadlığı, müstəqilliyi və ərazi bütövlüyünün müdafiəsi uğrunda şəhid olmuş qəhrəman oğul və qızlarımızın xatirəsini bu əziz bayram günündə yad edərək, hamısına rəhmət, onların yaxınlarına, bütün xalqımıza səbr diləyirəm.

Ölkəmizdən kənarda yaşayan bütün soydaşlarımıza salamlarımı və bayram təbriklərimi yetirirəm. Azərbaycanın müstə-

qilliyinin möhkəmləndirilməsi, demokratik cəmiyyət quruculuğu və xalqımızın firavan həyata qovuşması yolunda apardığınız işlərdə hamınıza uğurlar arzulayıram!

Bu əziz bayram günündə hər birinizə cansağlığı və xoşbəxtlik diləyirəm.

Ramazan bayramınız mübarək olsun.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *4 dekabr 2002-ci il*

## RAMAZAN BAYRAMI MÜNASİBƏTİLƏ MÜSƏLMAN ÖLKƏLƏRİNİN ÖLKƏMİZDƏKİ SƏFİRLƏRİ İLƏ GÖRÜŞ*

*Prezident sarayı*

*4 dekabr 2002-ci il*

**H e y d ə r  Ə l i y e v**: Hörmətli səfirlər!

Mən sizi müsəlmanların müqəddəs bayramı – Ramazan bayramı münasibətilə ürəkdən təbrik edirəm. Sizə, təmsil etdiyiniz ölkələrin hökumətinə və xalqlarına sülh, əmin-amanlıq, rifah arzu edirəm.

Ramazan bayramı müsəlmanların müqəddəs bayramlarından biridir. Bu bayram həmişə müsəlmanlara xeyir-bərəkət gətirib, sülh, əmin-amanlıq gətirib, dostluq-mehribanlıq gətiribdir. Təəssüflər olsun ki, biz Azərbaycanda bu bayramı yalnız son illər ümummilli bayram, xalq bayramı kimi qeyd edirik. Yəni son illərə qədər belə bayram etməmişik, indi edirik. Keçmiş illərdə Sovet İttifaqının hər yerində olduğu kimi, Azərbaycanda da dini bayramlar yasaq edildiyinə görə, bu bayramlar qadağan

---

* Эюрцшдя Nasir Əbdüssəmini (Liviya), Əbdüqafur Əbdürrəhmanov (Özbəkistan), Qalib əl-Təmimi (İraq), xanım Cihan Əmin Məhəmməd Əli (Misir), Əhəd Qəzai (İran), Əli Həsən Əhməd Cəfər (Səudiyyə Ərəbistanı), Faiz Məhəmməd Xoso (Pakistan), Əhməd Ünal Çeviköz (Türkiyə), Andar Şukputov (Qazaxıstan) иштирак едирдиляр.

olunduğuna görə insanlar bunları öz ailəsində, evində, qəlbində bayram ediblər.

Xatirimdədir, mən uşaq idim, valideynlərim oruc tuturdular, bu bayramı da qeyd edirdilər. Biz uşaq kimi, bu bayramdan öz bəhrəmizi götürürdük. İndi isə müstəqil Azərbaycanda, müsəlman ölkəsində bu bizim milli bayramımızdır, dövlət bayramımızdır, xalqın bayramıdır. Biz bunu geniş qeyd edirik.

Biz Azərbaycanda bu bayramı qeyd edərkən, bütün dünyada yaşayan müsəlmanların hamısını təbrik edirik. Bu bayram münasibətilə dünya müsəlmanlarina yaxşı-yaxşı günlər arzulayırıq. Sizi bir daha təbrik edirəm, hər birinizə cansağlığı arzu edirəm.

**Əbdüqafur Əbdürrəhmanov** (*Özbəkistanın Bakıdakı səfiri*): Möhtərəm cənab Prezident!

Əvvəla, artıq dərəcədə məşğul olmağınıza baxmayaraq, bu gün bizi qəbul etməyə imkan tapdığınıza görə Sizə böyük minnətdarlığımı bildirirəm.

Bu gün mənim üzərimə böyük və şərəfli missiya düşübdür. Müsəlman ölkələrinin səfirləri adından zati-alinizi və Sizin simanızda Azərbaycan xalqını müqəddəs Ramazan bayramı münasibətilə təbrik edirəm.

Bu bayram bütün müsəlman aləmi ilə birlikdə Azərbaycanda da geniş qeyd olunur. Bu günlər hər bir müsəlmanın müqəddəs borcu öz yaxınlarına, yaşlı nəslə və ətrafındakı insanlara dərin hörmətlə yanaşmaqdır. Bu bayram zamanı dünyasını dəyişənlərə, yaxın qohumlara və dostlara ehtiram və hörmət bildirilir, məzarlar ziyarət olunur, xeyriyyə tədbirləri keçirilir və hər bir müsəlman kasıblara, kimsəsizlərə və yetim uşaqlara yardım edir.

Qətl və zorakılığı tam inkar edən, xeyirxahlığı və səbri təbliğ edən islam dininin insansevərliyi, demokratikliyi bu bayramda

özünü tam mahiyyəti ilə göstərir. Təəssüf ki, yüz minlərlə günahsız insanların ölümünə bais olan ayrı-ayrı qüvvələr öz cinayətlərini ört-basdır etmək üçün islam dinindən istifadə edirlər.

Keçən ilin 11 sentyabrında Amerika Birləşmiş Ştatlarında, habelə başqa ölkələrdə baş vermiş dəhşətli terror aktları ekstremistlər tərəfindən guya islam bayrağı adı altında törədilmişdir. Əslində isə bu əməllər dünya ictimaiyyətinin gözündə islam dininə zərbə vurmuşdur. Məhz buna görə, indi islam dininin heç vaxt olmayan ciddi müdafiəyə ehtiyacı var. Birinci növbədə, öz siyasi ambisiyalarını həyata keçirmək məqsədi güdən terrorçulardan müdafiəyə ehtiyacı var. Digər tərəfdən, dinimizin haqsız iddialardan da qorunmağa, siyasətdən və ekstremizmdən uzaq olan Qurani-Kərimin qanunlarının da düzgün təhlil edilməsinə ehtiyacı var.

Burada iştirak edən həmkarlarımın fikirlərini ifadə edərək, bildirmək istəyirəm ki, biz Azərbaycanda siyasi və iqtisadi islahatların həyata keçirilməsində böyük nailiyyətlərlə yanaşı, dini sahədə də müsbət meylləri müşahidə edirik. Sizin ölkədə müxtəlif konfessiyaların nümayəndələri üçün tolerantlıq mühiti və qanuni vicdan azadlığı yaradılmışdır. Bütün bu nailiyyətlər Sizin böyük həyat təcrübəniz, beynəlxalq aləmdəki nüfuzunuz, öz vətəninizə və xalqınıza böyük məhəbbətiniz nəticəsində mümkün olmuşdur.

Hörmətli cənab Prezident!

İcazə verin, bu görüşdə iştirak edən həmkarlarım adından Sizi Ramazan bayramı münasibətilə bir daha təbrik edim. Sizə cansağlığı, uzun ömür, ölkənizdə inkişaf və əmin-amanlıq yolunda apardığınız fəaliyyətdə böyük uğurlar diləyirəm. Sizin

simanızda bütün Azərbaycan xalqına xoşbəxtlik, sülh və firavanlıq arzu edirəm.

**H e y d ə r  Ə l i y e v:** Cənab səfir, çox dəyərli sözlərinizə, fikirlərinizə görə sağ olun, mən sizə təşəkkür edirəm. Bayram etmək lazımdır. Düzdür, mən burada sizə bayram süfrəsi açmamışam. Mən sizi sözlə təbrik edirəm. Amma bilirəm ki, hər biriniz böyük bayram süfrəsi açmısınız, açacaqsınız, həm özünüz, həm də yaxınlarınızla birlikdə bu bayramı keçirəcəksiniz. Mən də belə edəcəyəm. Sağ olun.

* * *

*Azərbaycan prezidenti Heydər Əliyev səfirlərlə xatirə şəkli çəkdirdi, onların hər biri ilə səmimi görüşdü, bir daha təbrik etdi, təmsil etdikləri ölkələrin dövlət başçılarına onun salamını çatdırmağı xahiş etdi.*

*Müsəlman ölkələrin səfirləri prezident Heydər Əliyevi Ramazan bayramı münasibətilə ayrı-ayrılıqda səmimi-qəlbdən təbrik etdilər, öz ölkələrinin dövlət və hökumət rəhbərlərinin təbriklərini və məktublarını yetirdilər.*

## DÜNYA ŞÖHRƏTLİ DİRİJOR VƏ GÖRKƏMLİ BƏSTƏKAR NİYAZİNİN ANADAN OLMASININ 90 İLLİYİNƏ HƏSR OLUNMUŞ YUBİLEY GECƏSİNDƏ NİTQ

*Respublika sarayı*

*6 dekabr 2002-ci il*

Hörmətli xanımlar və cənablar!

Əziz dostlar!

Niyazinin 90 illik yubileyini təntənəli qeyd edərək, biz Azərbaycan xalqının mədəniyyətimizə, musiqimizə olan hörmətini və məhəbbətini ifadə edirik. Görkəmli mədəniyyət xadimlərimizin, musiqi ustalarımızın, yazıçılarımızın, şairlərimizin, elm xadimlərimizin, ictimai xadimlərin yubileylərini Azərbaycanda yüksək səviyyədə qeyd etmək bizim, Azərbaycan hökumətinin xalqımızın elminə, mədəniyyətinə, ədəbiyyatına olan diqqətini və qayğısını göstərir.

Bəzən kimsə elə düşünür ki, belə təntənəli yubileylər bəlkə də lazım deyildir. Biz belə səsləri eşitmişik. Ancaq bunları nəzərə alaraq, mən bu gün bir daha deyirəm ki, belə yubiley gecələri bizi daha da zənginləşdirir, bizə ruh verir, bizi daha da nikbin edir.

Mən bu gün bu salonda Niyazi haqqında deyilən sözləri dinləyərək, onun musiqisini dinləyərək, dirijorluq sənətinin nümunələrini yenidən xatırlayaraq, böyük hissiyyatlar keçirirəm.

Bu hissiyyatlar xalqımıza olan sevgidən gəlir. Mədəniyyət, musiqi xalqımızın ən dəyərli sərvətlərindən biridir. Mədəniyyət hər bir xalqı dünyada daha da çox tanıdan, onu təbliğ edən vasitələrdən biridir. Biz isə xoşbəxtik ki, xalqımızın belə zəngin mədəniyyəti, musiqisi, incəsənəti var və bunlar həm xalqımızın özünə mənəvi qida verir, həm də onu dünya xalqları içərisində fərqləndirir, tanıdır, başını ucaldır. Niyazi məhz Azərbaycan xalqının başını ucaldan ən böyük şəxsiyyətlərdən biridir.

Bu gün Niyazi haqqında çox gözəl, xoş, dərin mənalı sözlər, fikirlər deyildi. Hamısı düzdür. Mən də hamısını təsdiq edirəm. Çünki Niyazini bəlkə də bu salonda oturanların hamısından daha çox tanıyanlardan biri mənəm. Mənim Niyazi ilə əlaqəli, dostluğumuzla bağlı çox xatirələrim var. Hamısı da xoş xatirələrdir, sevindirici xatirələrdir.

Mən 1950-ci illərdən Niyazi ilə yaxın dostluq əlaqəsində olmuşam. Bizim ailələrimiz çox yaxın olubdur. Ailəvi dost olmuşuq. Sonrakı dövrdə, Azərbaycana rəhbərlik etdiyim zaman da bu dostluğum davam edib və təkcə onunla dost olduğuma görə yox, o, həqiqətən nadir insan olduğuna görə, nadir musiqiçi, dirijor olduğuna görə həmişə mən ona böyük məhəbbətlə, sevgiylə yanaşmışam. Təbiidir ki, lazım olan qayğılarımı da göstərmişəm.

Azərbaycanda professional musiqinin, yəni simfonik musiqinin təbliğində, Azərbaycan bəstəkarlarının simfonik musiqi əsərləri yaratmasında və bu əsərlərin ifa edilməsində Niyazinin əvəzsiz rolu olubdur. Burada Qara Qarayevin sözlərini səsləndirdilər ki, onun əsərlərinin səslənməsində o, Niyaziyə borcludur. Bu həqiqətdir. Çünki mən Qara Qarayevlə də çox yaxın dostluq əlaqəsində olmuşam. Qara Qarayev bu sözləri düzgün deyibdir. Mən çox sevinirəm ki, səmimi deyibdir. Amma

təkcə Qara Qarayevin yox, bütün Azərbaycan bəstəkarlarının həm opera əsərlərinin, həm simfonik əsərlərinin işıq üzü görməsində, səslənməsində, xalqa çatdırılmasında Niyazi əvəzsiz rol oynamışdır. Bunların hamısı məlumdur. Ancaq bu gecənin mənası ondan ibarətdir ki, heç kəs bunları unutmasın. Bugünkü nəsillər də, gələcək nəsillər də bunları bilsin. Yəni biz bu gün səslənən sözləri yaşatmalıyıq.

Azərbaycanda simfonik orkestrin yaranması Üzeyir Hacıbəyovun fəaliyyəti ilə bağlıdır. Üzeyir Hacıbəyov, Müslüm Maqomayev o illərdə, ilk illərdə Azərbaycanda simfonik orkestrin inkişaf etməsi üçün çox işlər görmüşlər. Birincisi, simfonik orkestr üçün Azərbaycan musiqisi nümunələri yaratmışlar. İkincisi, ümumiyyətlə, dünya musiqisinin, dünyanın böyük bəstəkarlarının əsərlərinin Azərbaycan səhnəsində, Azərbaycan simfonik orkestrinin ifasında səslənməsində çox iş görmüşlər. Ancaq mən bunu tam qətiyyətlə deyirəm – əgər Niyazi olmasaydı, Azərbaycanın simfonik orkestri bu səviyyəyə çatmazdı. Niyazi olmasaydı, bizim Azərbaycanın görkəmli bəstəkarlarının yaratdıqları gözəl opera əsərləri, simfoniyalar bu qədər yüksək səviyyəyə çatmazdı. Bunların hamısında Niyazinin xidməti var, rolu var və təkcə musiqiçilər yox, bütün Azərbaycan xalqı ona minnətdar olmalıdır.

Şəxsi nöqteyi-nəzərdən Niyazi özünü çox sevdirən bir adam idi, məzəli insan idi. Burada dedilər, onun sərtliyi də var idi. Bəzən heç kəsi eşitmirdi. Mülayimliyi də var idi, hamısı var idi. Bu da, təbiidir, onun xarakteri idi. O, ömrü boyu öz xarakteri ilə yaşadı və böyük işlər gördü. Burada dedilər, yeganə Azərbaycan dirijorudur ki, öz ölkəsinin sərhədlərindən çıxıb, dünyanın böyük, yüksək musiqi sənətinə malik olan ölkələrində ən tanınmış simfonik orkestrlərə dirijorluq etmişdir. Bu,

Leninqradda da olubdur. Oranın Opera və Balet Teatrı dünyada ən məşhur teatrlardan biridir. Bu, Praqada da, Londonda da, Parisdə də, Türkiyədə də olubdur.

Niyazinin 1950-ci illərdə Türkiyəyə ilk səfərlərinin hamısı mənim xatirimdədir. O vaxt xaricə getmək çətin məsələ idi. Bütün Sovetlər İttifaqı dəmir pərdə ilə bağlanmışdı. Nadir hallarda ayrı-ayrı insanlar xarici ölkələrə səfərlər edirdilər. Niyazi, bəlkə də, bizim musiqiçilərimizdən Türkiyəyə və başqa ölkələrə ilk səfər edən sənətkardır. Doğrudur, sonrakı illərdə Rəşid Behbudov öz mahnıları ilə çox fəaliyyət göstərmişdir. Amma bunlar bir-birindən tamamilə fərqli musiqi janrlarıdır.

Niyazinin musiqi sahəsindəki gördüyü işlər, demək olar ki, ən çətin işlərdir. Burada hörmətli xanım Janna Dozortseva çıxış etdi, o illərdə  Niyazinin simfonik orkestrinin konsertləri haqqında söylədi.

Mən bir gün filarmoniyaya gəlmişdim, hansısa simfonik konsert var idi. Salon dolu idi, konsert çox yaxşı, böyük alqışlarla keçdi. Konsertdən sonra mən otağında onunla söhbət edirdim. O mənə söylədi ki, Siz buraya gəlmisiniz, yəqin bu münasibətlə salon doludur – yəni simfonik orkestrin konsertlərini nəzərdə tuturdu – ancaq başqa vaxtlarda bizim simfonik orkestrin konsertlərinə adamlar çox gəlmir. Bəzən də çox az gəlirlər. Dedim, nə üçün? Dedi, belədir, biz simfonik musiqini insanlara hələ lazımi səviyyədə çatdıra bilməmişik. Onda biz onunla belə bir plan cızdıq ki, Niyazi ayda bir dəfə filarmoniyada yüksək səviyyəli simfonik konsertlər verəcək və Azərbaycanın bütün rəhbər işçiləri öz ailə üzvləri ilə bu konsertə gələcəklər. Bunu təşkil etdik.

Həmin vaxt o mənə dedi ki, biz simfonik musiqi əsərini ifa edirik, amma bəziləri bunun dərin mənasını dərk edə bilmirlər.

Ona görə də bu musiqini qəbul edə bilmirlər. Təklif etdi ki, hər bir əsər haqqında əvvəlcə izahat verilsin, o əsərin məzmunu sadə dildə çatdırılsın, sonra isə əsər dinlənilsin. Çox yaxşı fikir idi. Mən də bəyəndim. Buna görə də o, hər ay Moskvadan Janna Dozortsevanı dəvət edirdi. Çox gözəl musiqişünasdır. O, əsərlərin məzmununu çox gözəl çatdırırdı. Mən hər dəfə, hər konsertdən konsertə görürdüm ki, bizim adamlar, yəni mənimlə konsertə gedənlər – təbiidir ki, o vaxt filarmoniyanın salonu tamamilə dolu olurdu – bu əsərləri məcburi yox, həvəslə, qəlbən dinləyirdilər.

Beləliklə, biz bir sistem yaratdıq. Buna da Moskvada, oradakı mətbuatda – qəzetlərdə, jurnallarda «Simfonik musiqini dinləmə universiteti» adı qoydular. Niyazi bu işləri elə həvəslə, elə ürəklə görürdü ki, mən görürdüm, ondan sonra o, mənəvi cəhətdən nə qədər ruhlanır, zövq alırdı ki, belə bir gözəl iş gördü.

Mən indi bu konsert salonunu seyr edirəm. Təbiidir ki, buradakıların əksəriyyəti niyazisevərlərdir, musiqisevərlərdir. Ancaq eyni zamanda, Azərbaycanın dövlət hakimiyyəti orqanlarında işləyən insanlar da dəvət olunublar. Amma mən burada həmin o illərin simfonik konsertlərinin hansısa bir ruhunu hiss edirəm. Gəlin razılaşaq, Niyaziyə həsr olunmuş bugünkü gecə, konsert indiyə qədərki başqa yubiley tədbirlərindən, konsertlərindən fərqlənir. Fərqlənir ona görə ki, birincisi, səhnədə simfonik orkestr – Niyazinin uzun illər rəhbərlik etdiyi və Niyazinin xidmətləri sayəsində bugünkü bu yüksək səviyyəyə çatmış orkestr var.

İkincisi, ona görə ki, burada Niyazinin əsərləri ifa olunur. Ona görə ki, Niyazi haqqında burada xatirələr deyildi. Ona görə ki, Niyazi həyatdan gedib, amma Azərbaycan xalqı üçün gözəl bir miras qoyubdur – simfonik musiqi, simfonik orkestr. Üzeyir

Hacıbəyovun yaratdığı və Niyazinin fəaliyyəti nəticəsində çox yüksəklərə qalxmış, indi Niyazini əvəz edən Rauf Abdullayev kimi dirijoru olan simfonik orkestr.

Mən çox sevinirəm ki, bu yubiley gecəsində Niyazi haqqında gözəl, xoş sözlər deyilir. Ancaq o illəri də xatırlayıram ki, bizim bəstəkarlar, musiqiçilər bir-biri ilə yola getmirdilər, bir-biri ilə ədavət edirdilər. Bunlar da var idi. Bunları gizlətmək lazım deyil, hamısı olubdur, hamısı bizimkidir.

Xatirlayıram, 1973-cü ildə, demək olar, 30 il bundan öncə, xüsusən bəstəkarlar arasındakı bu münasibət məni çox narahat etdiyinə görə, bazar günü bir qrup böyük bəstəkarı şəhərdən kənardakı, Zuğulbadakı dövlət bağ evinə dəvət etdim. Özü də erkən, səhər saat 11-də. Dedim ki, gəlin oturaq söhbət edək, çay içək, bütün günü bir yerdə olaq. İndi baxıram, həmin o görüşdə iştirak edənlərdən təkcə Arif Məlikov var. Təəssüflər olsun ki, illər ötür, insanlar dünyasını dəyişir. Mənim o vaxt görüşdüyüm insanların Arif Məlikovdan başqa, demək olar, hamısı artıq dünyasını dəyişibdir.

Orada gözəl bir gün keçirdik. Mən xüsusən çalışırdım ki, Qara Qarayevi, Fikrət Əmirovu, Niyazini – üçünü bir-biri ilə dost edim, bir-biri ilə barışdırım. Onlar dost idilər, bir gün dost olurdular, bir gün küsürdülər, bir gün bir-birindən inciyirdilər. Bu da bizim ümumi işimizə zərər verirdi. Mənə belə gəlir ki, günün axırında, bizim oradakı görüşümüzdə tamamilə yeni bir ab-hava yarandı. Sonra bizim bəstəkarlar bunu daim xatırlayırdılar və təşəkkür edirdilər ki, mən belə bir görüş keçirdim və onları bir-biri ilə daha da yaxınlaşdırdım. Yəni bunlar yaxın idilər, bir yerdə işləyirdilər.

İndi burada eşitdik, əgər Niyazi olmasaydı, Qara Qarayevin əsərləri o cür yüksək səviyyədə təqdim edilə bilməzdi. Eləcə də

Fikrət Əmirovun əsərləri. Onların hamısı bu simfonik orkestrdən və Niyazinin əlindən keçəndən sonra biz gördüyümüz səviyyəyə gəlib çatırdı. Bunda Niyazinin rolu böyükdür. Onlar da Niyazi ilə əməkdaşlıq edirdilər. Ancaq bəzən şəxsi münasibətlər dəyişirdi və bu da işlərimizi pozurdu.

Niyazi çox xeyirxah adam idi. Burada onun ev-muzeyi haqqında danışdılar. Bəli, o, 1984-cü ildə vəfat etmişdi. Mən onda burada yox idim, Moskvada işləyirdim. Ancaq mən 1993-cü ildə Bakıya yenidən dönəndən sonra maraqlandım. Ümumiyyətlə, ev-muzeylərinin yaradılması çox gözəl bir ənənədir. Məsələn, bizim yaratdığımız Üzeyir Hacıbəyovun ev-muzeyi, Səməd Vurğunun ev-muzeyi, Cəlil Məmmədquluzadənin ev-muzeyi, Cəfər Cabbarlının ev-muzeyi, Niyazinin ev-muzeyi – bunların hər biri böyük mədəniyyət mərkəzinə çevrilir və belə də var.

Məsələn, bir var, başqa yerdə yığışasan, bir də var, Niyazinin yaşadığı evdə, onun divarları arasında yığışasan. Bu tamamilə başqa bir əhval-ruhiyyədir. Onun o qədər də böyük mənzili yox idi, amma qapısı həmişə açıq idi. Gərək ki, burada Vasif Adıgözəlov da, Polad Bülbüloğlu da dedilər ki, onlar elə orada böyüyüblər. Doğrudan da belədir, qapısı açıq idi və gələn adam da orada mütləq yemək yeməli, çay içməli idi. Rəhmətlik Həcər xanım da səhərdən axşama kimi Niyazinin qonaqlarına qulluq etməli idi. Bax, Niyazi belə bir həyat keçirirdi. İstədiyi adam onun evinə gedə bilərdi və gedirdi də. O heç vaxt heç kəsdən uzaqlaşmırdı.

Çox yaxşı lətifələr də danışırdı. Azərbaycanın müxtəlif bölgələrindən olan, müxtəlif ləhcələrdə danışan adamları çox gözəl yamsılayırdı. Ona görə bəzən mən onu görəndə deyirdim, danış görüm, Şəki teatrında «Otello» nə cür gedir. Elə danışırdı ki,

daha ondan sonra nə konsert lazım idi, nə də teatr, heç bir şey lazım deyildi.

Həcər xanım daim Niyazi ilə bir yerdə idi. O, dünyada haraya gedibsə, Həcər xanım onunla bir yerdə olubdur. Mən bəzən zarafatla deyirdim ki, Niyazi, sənə bu mükafatları ki, veririk, gərək onların çox hissəsini Həcər xanıma verək. Əgər Həcər xanım olmasaydı, sən bu cür gözəl fəaliyyət göstərə bilməzdin. Çox gözəl insan idi. Mən onu çox sevirdim.

Yenə də deyirəm, mən bu gün burada, bir tərəfdən, qüssələnirəm ki, o yoxdur. İkinci tərəfdən də, millətimə, xalqıma görə fəxr edirəm ki, belə insanlar yaradıbdır. Biz xoşbəxtik ki, XX əsrdə Azərbaycan xalqı mədəniyyət sahəsində çox böyük simalar yetiribdir. Onlar bizim mədəniyyətimizi yüksəldib və bizə böyük miras qoyub gediblər.

Mən bu gün Niyazinin ruhu qarşısında baş əyirəm. İnanıram ki, Niyazi Azərbaycan xalqının qəlbində daim yaşayacaq, onun əsərləri gələcək nəsilləri də mənəvi yüksəkliyə qaldıracaq və xalqımız mədəniyyətə, incəsənətə daim sadiq olacaqdır.

* * *

*Konsertdən sonra Azərbaycan prezidenti Heydər Əliyev Respublika sarayının şərəf salonunda incəsənət ustaları – xalq artistləri Fidan və Xuraman Qasımovalar, Fərhad Bədəlbəyli, Sərvər Qəniyev, Rauf Abdullayev ilə, habelə musiqişünas Janna Dozortseva, İzmir simfonik orkestrinin Baş dirijoru Rengin Gökmenlə görüşüb səmimi söhbət etdi.*

**H e y d ə r  Ə l i y e v:** Siz hamınız dediniz ki, onun evinə gələnləri mütləq yeməyə qonaq edirdilər. Dəbdəbəli yaşamasalar da, bu evdə hamını gülərüzlə qarşılayırdılar. Qəribə adam idi!

İstəyirdi ki, evinə gəlsinlər və bu onu yormurdu, əksinə, görünür, onun üçün xoş idi, bundan həzz alırdı.

**Janna Dozortseva:** Niyazi elə belə şəraitdə də işləyirdi, məsələn, partituranı hazırlayırdı, halbuki bu vaxt onun evində qonaqlar olurdu.

**Sərvər Qəniyev:** Mən onunla 20 gün Monqolustanda oldum. Biz «Ulan-Bator» mehmanxanasında qalırdıq, Həcər xanım hər gün bizim üçün yemək hazırlayırdı.

**Heydər Əliyev:** Həyat yoldaşım Moskvaya gedərkən bir neçə dəfə təyyarədə onunla yan-yana olmuşdur. O danışırdı ki, Niyazi həmişə qabaqda gedərdi, Həcər xanım isə əlində onun frakı və başqa əşyalarla arxasınca gədərdi. Həmişə də belə olurdu.

**Janna Dozortseva:** Yadımdadır, Siz nə vaxtsa deyirdiniz ki, Həcər xanımı Niyazidən ayırmaq olmaz.

**Heydər Əliyev:** Mən bir neçə dəfə ona demişdim ki, mükafatların yarıdan çoxunu Həcər xanıma vermək lazımdır, çünki sən bu qadınsız yaşaya bilməzdin. Niyazi də bunun həqiqətən belə olduğunu təsdiqləyirdi.

**Polad Bülbüloğlu:** Siz yaxşı bilirsiniz ki, əgər bu qadın olmasaydı, yəqin ki, o, 10–15 il az yaşayardı. Həcər xanım ona öz uşağı kimi baxırdı.

**Sərvər Qəniyev:** Monqolustan səfərindən yadımdadır, Həcər xanım hər səhər bizə iki-üç cür yemək hazırlayırdı. Niyazi yemək məsələsində çox şıltaq idi, Həcər xanım bəzən onu uşaq kimi qaşıqla da yedizdirərdi, mən bütün bunları görmüşəm.

**Heydər Əliyev:** Mən bayaq demək istəmədim, Niyazi 1984-cü ildə vəfat edib, ev-muzeyi isə 1994-cü ildə, Əliyev buraya gələndən sonra yaradıldı. Bu sizin yadınızdadır. Mən bu

barədə də danışmaq istəmədim. Xalq Cəbhəsi deyirdi ki, bu simfonik musiqi nədir, bu bizim musiqi deyil.

Bu adamlar hakimiyyətdə cəmi bir il qaldılar. Tofiq Quliyev mənə danışırdı ki, o, Baş nazir Pənah Hüseynovun qəbuluna gedəndə ondan soruşub ki, sən kimsən? O deyib ki, mən bəstəkaram. Baş nazir isə deyib ki, mən Üzeyir Hacıbəyovdan başqa bəstəkar tanımıram. Bax, belə adamlar indi müxalifətdədir və yenidən hakimiyyətə gəlmək istəyirlər.

**S ə r v ə r  Q ə n i y e v:** Mən demək istəyirəm ki, Türkiyədə olduğum bu illər ərzində artıq 14 ildir ki, seçki komissiyasının sədriyəm – və deməliyəm ki, Siz həmişə başqa namizədlərdən böyük fərqlə irəlidə olmusunuz.

**J a n n a  D o z o r t s e v a:** Cənab Prezident, mən Allahdan arzu edirəm ki, Siz həmişə var olasınız, həmişə sağlam olasınız və onda hər şey yaxşı olacaq.

**R e n g i n  G ö k m ə n:** Cənab Prezident, bu gün mənim həyatımın ən şərəfli konsertlərindən biri oldu. Azərbaycanlı qardaşlarımızın bizi unutmaması, yubileyə bizi dəvət etmələri bütün türk sənətçilərinə böyük şərəf verdi.

**H e y d ə r  Ə l i y e v:** Sizin əsəriniz də çox gözəldir. Bizim orkestr də çox gözəl ifa etdi.

**R e n g i n  G ö k m ə n:** Mən tələbə olarkən müəllimim Niyazinin əsərlərini gətirib bizə dinlətdi. Niyazi Tağızadənin rəhbərliyi ilə Moskvanın simfonik orkestri çalırdı. Niyazi Tağızadənin ismini ilk dəfə orada eşitdim. Onda mən uşaq idim. Sonrakı illərdə Niyazi haqqında çox öyrəndim. Sizə təşəkkür edirəm ki, belə anları xalqınıza yaşadırsınız.

**H e y d ə r  Ə l i y e v:** Çox sağ ol. O, Türkiyədə çox böyük işlər gördü. Mənim xatirimdədir, 1950-ci illər idi, ilk dəfə Türkiyəyə o getdi. O vaxtadək heç kəs Türkiyədə olmamışdı. Tür-

kiyədə nə var, nə yox, simfonik orkestr var, opera və balet teatrı var – heç bir şey bilmirdik. O, üç ay orada yaşadı.

**R e n g i n  G ö k m ə n:** Adnan Sayqunun «Koroğlu» operasını da ilk dəfə Niyazi ifa etdi. Bu əsər o zamandan bəri bir dəfə də olsun səhnəyə qoyulmayıbdır. Onu təkcə Niyazi ifa etmişdir. Təəssüflər olsun ki, bu işdə bizim də nöqsanımız var, onu tamaşaya qoya bilməmişik. Niyazinin çox böyük xidmətləri olmuşdur.

**F i d a n  Q a s ı m o v a:** Janna, Siz Azərbaycan musiqisini təbliğ etdiyiniz vaxtlarda Niyazinin iştirakı ilə İttifaqlar evinin Sütunlu salonunda verilən konsertləri xatırlayırsınızmı? Bu həmin salonda sizin ilk konsertlərinizdən biri idi. Siz onu necə gözəl aparırdınız.

**J a n n a  D o z o r t s e v a:** Bu, Sütunlu salonda mənim ilk konsertim deyildi. Çünki mən orada 1966-cı ildən işləyirəm. Amma biz əvvəllər sizinlə tanış deyildik. Bu sizin iştirakınızla ilk konsert idi.

**H e y d ə r  Ə l i y e v:** Bilirsiniz, bugünkü konsert mənə çox güclü təsir bağışladı. Müxtəlif böyük adamlarımızın – yazıçıların, bəstəkarların yubileylərinə həsr edilmiş belə gecələr bizdə vaxtaşırı olur. Onların hamısı çox yaxşı keçir, yaxşı musiqi hissəsi olur. Ancaq bugünkü gecə əvvəlkilərdən onunla fərqlənir ki, burada yüngül musiqi yoxdu, rəqslər yoxdu, yalnız belə ciddi musiqi vardı. Hər bir əsər insanı məftun edirdi. Konsertdə «Rast» ifa olunduqda pultun arxasında dayanmış Rauf Abdullayev kimi, yəqin ki, mən də qəlbən həyəcan keçirirdim, ona görə ki, bu musiqinin təsiri son dərəcə güclü idi. Burada xoş hisslər, hansısa kədərli duyğular, kövrək hisslər keçirirsən. Konsert mənə çox yaxşı, çox güclü təsir bağışladı.

**S ə r v ə r  Q ə n i y e v:** Bəlkə filarmoniya bərpa olunandan sonra əvvəlki ənənələrə yenidən başlayaq?

**H e y d ə r  Ə l i y e v:** Filarmoniya indi bərpa edilir, apreldə tam hazır olacaqdır. Rostropoviç orada konsert verməyi vəd edir. Əlbəttə, biz orada işləri qaydaya salacağıq. Heyf ki, Niyazi yoxdur. Amma əvəzində, Rauf Abdullayev var. Odur ki, biz belə gecələri ayda bir dəfə keçirəcəyik. Bilirsiniz, açığını deyim ki, bu çox böyük zövq bəxş edir. Mən bugünkü konsertdən çox məmnunam.

**P o l a d  B ü l b ü l o ğ l u:** Cənab Prezident, Siz həmişə gözəl çıxış edirsiniz, amma bugünkü çıxışınızda Niyazi barəsində səmimiyyətiniz xüsusilə duyulurdu. Hiss edilirdi ki, Siz bu adamı sevirdiniz. Biz Sizin parlaq çıxışlarınızın neçə illərdir şahidiyik, ancaq bugünkü çıxışınız nə qədər səmimi, nə qədər ürəkdən gələn çıxış idi. Biz ev-muzeyin açılışındakı çıxışınızı xatırladıq, bu, proqram xarakterli çıxış idi. Aldığımız yeni gəmilərdən birinə Sizin məsləhətinizlə Niyazinin adı veriləndə biz hamımız kayuta toplaşdıq və Sizin muzeydəki çıxışınıza baxdıq. Biz videokasetə yazılan bu çıxışı gəminin kollektivinə bağışladıq.

**H e y d ə r  Ə l i y e v:** Gəlin badələrimizi cəmiyyətimizin, bütün bəşəriyyətin ən yaxşı hissəsi olan gözəl xanımların şərəfinə qaldıraq! Bəşəriyyət onlarsız yaşaya bilməz.

Bu gün biz belə gözəl qadınların arasındayıq, onlar zahirən gözəl olmaqla yanaşı, incəsənət xadimlərinə məxsus daxili aləmləri ilə də zəngindirlər. Sənət adamı isə xüsusi adamdır. Siz bilirsiniz, mən həmişə belə hesab etmişəm və indi də bu fikirdəyəm ki, sənət adamları tək-tək yetişir. İncəsənət çətin və mürəkkəb işdir, həyatını buna həsr etmiş insanlar həm cəmiyyətin və xalqın, həm də dövlətin qayğılarından kənarda

yaşaya bilməzlər. Mən həmişə mədəniyyətimizin, incəsənətimizin qayğısına qalmışam və başa düşürəm ki, xalq bunsuz yaşaya bilməz. Biz nə etsək də, iqtisadiyyatda nə qədər uğurlarımız olsa da, mən başa düşürəm ki, xalq incəsənətsiz yaşaya bilməz, axı o, xalqın simasıdır.

Tarixi keçmiş baxımından simfonik musiqi bizim xalqımız üçün səciyyəvi deyildir, biz onu Avropadan əxz etmişik, Azərbaycanda onun banisi Üzeyir Hacıbəyov olmuşdur, sonra isə burada inkişaf etmişdir.

**R a u f   A b d u l l a y e v:** Cənab Prezident, xarici ölkələrə qastrollar təşkil etmək mümkün olsaydı. Bizdə kiçik kollektivlər qastrola çıxırlar, onların maliyyə məsələlərini həll etmək asandır, bizim kollektivimiz isə çox böyükdür. Heç olmazsa, Türkiyəyə qastrola getmək mümkün olsaydı...

**P o l a d   B ü l b ü l o ğ l u:** Əgər 100 nəfər gedirsə, onda buna çox böyük vəsait lazımdır, bu da çətindir. Yadınızdadırmı, Fransaya Berlioz festivalına gedərkən, Siz təyyarə verdiniz. O zaman Fransada çıxan bütün qəzetlər yazırdı ki, prezident Azərbaycan simfonik orkestrinə təyyarə verdi və orkestr öz təyyarəsində gəldi.

**H e y d ə r   Ə l i y e v:** Siz razılığa gəlin, harada çıxış etmək sizin üçün münasib olarsa, bütün xərcləri biz öz üzərimizə götürərik, təki siz çıxış edin. Orada bilet satacaqsınız, ya yox, qazanacaqsınız, ya yox, o da sizin olsun.

**F a t m a   A b d u l l a z a d ə:** Bu gün Qalina Pavlovna zəng etmişdi, Sizə salam yetirdi və Samir Cəfərovu yanvar ayına dəvət etdi.

**F i d a n   Q a s ı m o v a:** Fatma xanım, o mənim şagirdim idi, Qazaxıstanda beynəlxalq müsabiqənin laureatı olubdur.

**H e y d ə r  Ə l i y e v:** O, Samirin sizin sinfinizdə oxuduğunu mənə deyibdir.

**F i d a n  Q a s ı m o v a:** Mən onunla məşğul oldum və Qazaxıstana, münsiflər heyətinin üzvü olduğum beynəlxalq müsabiqəyə apardım.

**X u r a m a n  Q a s ı m o v a:** İndi isə bizə Surxay Əsgərovu veriblər. Müslüm Maqomayev məndən xahiş edib ki, onunla məşğul olum.

**F i d a n  Q a s ı m o v a:** Cənab Prezident, Siz dekabrın 20-də bizim gecəmizə gələcəksinizmi? Həmin gün bizim yaradıcılıq fəaliyyətimizin 25 illiyidir. Bilmirik, o gecədə biz oxuyacağıq, yoxsa, Sizin haqqınızda, Sizin bizim həyatımız, yaradıcılığımızla bağlı fikirlərinizdən danışacağıq?

**H e y d ə r  Ə l i y e v:** Yox, mənim haqqımda danışmaq lazım deyil, onda bu, yığıncaq olar, oxumaq lazımdır. Mən sizi dinləməyə gələcəyəm. Yaxşı bir konsert hazırlayın, ayın 20-də mütləq gələcəyəm.

**S ə r v ə r  Q ə n i y e v:** Türkiyədə biz bir orkestr yaratmışıq, onun üzvlərinin əksəriyyəti azərbaycanlılardır. Biz hazırladığımız proqramı filarmoniyanın açılış mərasimində Sizə hədiyyə etmək istərdik.

**H e y d ə r  Ə l i y e v:** Yaxşı. Dekabrın 20-dəki konsertdə sən də iştirak et.

**S ə r v ə r  Q ə n i y e v:** Martın 25-də yubileyim keçiriləcək, həmin gün 65 yaşım və səhnə fəaliyyətimin 50 ili tamam olacaq. Yubileyi Doğramacı təşkil edəcəkdir.

**H e y d ə r  Ə l i y e v:** Yaxşı, qoy orada Doğramacı təşkil etsin, sonra da yubiley burada keçirilər.

**R e n g i n  G ö k m ə n:** Əminəm ki, Türkiyədə Azərbaycan Dövlət Simfonik Orkestrinin çıxışını dinləmək istəyənlər çoxdur.

İstərdik ki, bizim də orkestrlərimiz Azərbaycanda olsun. Mən qayıtdıqdan sonra bu məsələni müvafiq idarələr qarşısında qaldıracağam. İzmir Bakı ilə qardaşlaşmış şəhərdir və biz mədəniyyət sahəsində də yaxşı əlaqələr yaratmaq istəyirik.

**KENİYA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB DANİEL ARAP MOİYƏ**

Hörmətli cənab Prezident!

Keniya Respublikasının milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və xalqınızı səmimi-qəlbdən təbrik edirəm. Ümidvaram ki, ölkələrimizin dostluğu xalqlarımızın yaxınlaşması və əməkdaşlığı üçün geniş imkanlar açacaqdır. Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Keniya xalqına sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *7 dekabr 2002-ci il*

**NİGER RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB MAMADU TANCAYA**

Hörmətli cənab Prezident!

Niger Respublikasının milli bayramı – Respublika elan edilməsi günü münasibətilə Sizi və xalqınızı səmimi-qəlbdən təbrik edirəm.

Ümidvaram ki, ölkələrimizin dostluğunu möhkəmləndirmək sahəsində atdığımız addımlar xalqlarımızın rifahına töhfələr verəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Niger xalqına əmin-amanlıq və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *7 dekabr 2002-ci il*

**YAPONİYANIN İMPERATORU ƏLAHƏZRƏT AKİHİTOYA**

Əlahəzrət!

Yaponiyanın milli bayramı – İmperatorun təvəllüd günü münasibətilə Sizi və xalqınızı ürəkdən təbrik edirəm. Ölkələrimiz arasındakı dostluq və əməkdaşlıq münasibətləri bizim üçün çox əhəmiyyətlidir. Ümidvaram ki, əlaqələrimizi bütün sahələrdə inkişaf etdirmək məqsədi ilə bundan sonra da ardıcıl səylər göstərəcəyik.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Yaponiya xalqına sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *7 dekabr 2002-ci il*

**YAPONİYANIN BAŞ NAZİRİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB DZÜNİTİRO KOİDZUMİYƏ**

Hörmətli cənab Baş nazir!

Yaponiyanın milli bayramı – İmperatorun təvəllüd günü münasibətilə Sizi və xalqınızı səmimi-qəlbdən təbrik edirəm.

Ölkələrimiz arasında əməkdaşlığın əhatə dairəsinin gündən-günə genişlənməsindən məmnunam. Əminəm ki, birgə həyata keçirdiyimiz layihələrin, gördüyümüz işlərin xalqlarımız üçün böyük faydası olacaqdır.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Yaponiya xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *7 dekabr 2002-ci il*

**QAZAXISTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB NURSULTAN NAZARBAYEVƏ**

Hörmətli Nursultan Abışoviç!

Milli bayramınız – Respublika günü münasibətilə Sizi və bütün Qazaxıstan xalqını ürəkdən təbrik edirəm.

Fərəhli haldır ki, suveren Qazaxıstan müstəqillik illərində dövlətçiliyin möhkəmləndirilməsi, demokratik və sosial-iqtisadi islahatlar aparılması işində böyük uğurlar qazanmışdır.

Azərbaycanla Qazaxıstanı dostluq və mehriban qonşuluq ənənələri birləşdirir. Əminəm ki, ölkələrimiz arasında əməkdaşlığın genişləndirilməsi, irimiqyaslı transmilli layihələrin həyata keçirilməsindəki birgə səylər və qarşılıqlı dəstək xalqlarımızın rifahı naminə, regionda sülh, sabitlik və tərəqqi naminə bu gözəl ənənələrin daha da möhkəmlənməsinə kömək edəcəkdir.

Möhtərəm Nursultan Abışoviç, Sizə möhkəm cansağlığı, xoşbəxtlik və uğurlar, dost Qazaxıstan xalqına isə sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *7 dekabr 2002-ci il*

**BƏHREYNİN MƏLİKİ ƏLAHƏZRƏT
ŞEYX HƏMƏD BİN İSA ƏL-XƏLİFƏYƏ**

Əlahəzrət!

Bəhreyn məmləkətinin milli bayramı münasibətilə Sizi və xalqınızı səmimi-qəlbdən təbrik edirəm.

Əminəm ki, xalqlarımızın qarşılıqlı istəyindən və iradəsindən qaynaqlanan dostluq və əməkdaşlıq münasibətlərimiz daim inkişaf edəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Bəhreyn xalqına əmin-amanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *7 dekabr 2002-ci il*

## AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV ŞEKSPİRİN «HAMLET» FACİƏSİNİN YENİ QURULUŞDA İLK TAMAŞASINDA

*7 dekabr 2002-ci il*

*Azərbaycan prezidenti Heydər Əliyev Azərbaycan Akademik Milli Dram Teatrında məşhur ingilis dramaturqu Uilyam Şekspirin «Hamlet» faciəsinin yeni quruluşda ilk tamaşasına baxmaq üçün teatra gəldi. Tamaşaçılar dövlətimizin başçısını hərarətli alqışlarla qarşıladılar.*

*Dövlətimizin başçısı fasilə zamanı respublikamızın tanınmış ədəbiyyat, incəsənt, elm xadimləri ilə görüşüb söhbət etdi.*

**Heydər Əliyev**: Sizinlə yenidən görüşümdən çox məmnunam. Xeyli vaxt idi ki, teatra gəlmək ya mümkün deyildi, yaxud da ki, siz çağırmırdınız. Hər halda, mən sizin teatrı həmişə sevmişəm, tamaşalara gəlmişəm.

«Hamlet» tamaşasının göstəriləcəyini eşitdim, maraqlandım. Dedilər ki, tamaşa çox yaxşı hazırlanıbdır. Yaxşı quruluşu var, yaxşı ifa edirlər. Təbiidir ki, bu, Azərbaycanın teatr həyatında, mədəni həyatında böyük hadisədir. Çünki klassiklərin əsərləri həmişə yaşayır. Daim yaşayan əsərlər var. Əsərlər var ki, müəyyən dövrə həsr olunub, ancaq o dövrdə yaşayır, yaşaya bilir. Klassiklərin əsərləri isə həmişə yaşayır. Xüsusilə Şekspir yaradıcılığı, onun əsərləri...

İndi Azərbaycan teatrının 130 illik yubileyinə hazırlaşırıq. Azərbaycan teatrı vaxtilə, hələ çox onilliklər bundan öncə

Şekspirin əsərlərinə müraciət edibdir. «Hamlet» Azərbaycan səhnəsində otuzuncu illərdə çox uğurla göstərilibdir. Mənə belə gəlir ki, Abbas Mirzə Şərifzadə Hamlet rolunu ilk oynayan bizim görkəmli aktyorlarımızdan biri olubdur. Deyirlər ki, sonralar da bu əsər dəfələrlə göstərilibdir. Elçin Əfəndiyev buradadır, yoxsa yox? O, məlumat verdi ki, «Hamlet» Azərbaycan səhnəsində dördüncü dəfədir ki, qoyulur.

**E l ç i n  Ə f ə n d i y e v:** Bəli, dördüncü dəfədir...

**H e y d ə r  Ə l i y e v:** Təbiidir, ola bilər ki, bu azdır. «Hamlet» əsəri bizim səhnəmizdə çox göstərilsəydi, teatrımız üçün daha yaxşı olardı. Ancaq bunlar tarixdir, hər şey arxada qalıb, olanlar barədə heç nə demək olmaz. Əsas odur ki, indi siz Şekspir yaradıcılığına yenidən müraciət etmisiniz. Onun ən görkəmli əsərlərindən birini – «Hamlet» faciəsini səhnəyə qoymusunuz.

Otuzuncu illərdə «Hamlet»»» bizim sevimli pyeslərimizdən biri idi. Burada bizim nəsildən olan adamlar var, yəqin salonda da belələri vardı, Mən Hamleti Abbas Mirzə Şərifzadənin ifasında görmüşəm. Sonralar da «Hamlet» əsəri şəxsən məni həmişə maraqlandırıbdır. Bu pyesi Moskvada tamaşaya qoyublar, mən onu görmüşəm. Nəhayət, film vardı, məşhur aktyor Smoktunovski Hamlet rolunu  çox gözəl ifa edirdi. Biz bunların hamısını müəyyən qədər yada salarkən deyə bilərik ki, dünyada, ola bilər, yüzə qədər quruluşda «Hamlet» tamaşası olsun. Hər rejissor, hər aktyor onu özünün bildiyi kimi göstərir. Amma bunun əsası Şekspirin yaradıcılığıdır, onun fəlsəfəsidir. Bu, böyük bir fəlsəfədir. Şekspir həmişə ona görə yaşayır ki, onun hər bir əsəri özündə fəlsəfi fikirlər daşıyır. Ona görə də mən çox məmnunam ki, siz bu əsəri  səhnəyə qoymusunuz. Əgər siz gələcəkdə də belə əsərləri unutmasanız, yaxşı olar. Çünki

hansısa günə aid olan əsərlər gəldi-gedər əsərlərdir. Mən demirəm ki, siz onlardan imtina edəsiniz. Hər günün tələbini də ödəmək lazımdır. Ancaq teatr–teatrdır. Bilirsiniz, teatr gərək öz yüksək simasını həmişə saxlasın.

Biz Azərbaycan teatrı ilə fəxr edirik. Mən bunu dəfələrlə demişəm. Siz bilirsiniz ki, Azərbaycan teatrının 100 illik yubileyində mən Respublika sarayında məruzə ilə çıxış etmişəm. Sonra mənə dedilər ki, «Sən respublikanın rəhbərisən, teatrşünas deyilsən, nə üçün məruzə edirsən?». Dedim ki, məruzə etdim və hər halda, teatrşünaslardan pis etmədim. Bu, qəzetlərdə qalıbdır, arxivlərdən tapmaq olar. Mən bunu niyə deyirəm? Çünki bizim teatr həqiqətən klassik teatrdır. Əgər klassik teatr olmasaydı, bu qədər yaşaya bilməzdi. Teatrı belə yaşatmaq lazımdır.

İndi mən görürəm ki, siz bu addımları atırsınız. Mən bunu bəyənirəm. Bu barədə sizə yardımçı olmağa hazıram ki, bizim teatrımızın səviyyəsini  getdikcə yüksəldəsiniz.

Bugünkü tamaşa haqqında indi nə deyə bilərəm? Quruluşçu rejissora təşəkkür edirəm, əsərə çox yaxşı quruluş veribdir. Çox gözəl musiqi müşayiəti var. Səyavuş Kərimi çox qeyri-adi, müasir bəstəkardır.

Keçmişdə «Hamlet» tamaşasında dekorasiyalar vardı. Özü də zəngin dekorasiyalar, sarayların dekorasiyaları vardı, onları bilirsinizmi? Siz gəncsiniz, yəqin görməmisiniz. Amma mən bunu görmüşəm.

Ümumiyyətlə, bizim həmin teatrımızda – keçmişdə o, Musiqili Komediya Teatrının yerində idi – böyük-böyük dekorasiyalar vardı. Ona görə də – bayaq dedilər ki, tamaşa 4 saat davam edəcək – o vaxt 6 saat çəkirdi. 4-5 pərdə... Bir pərdə oldu, fasilə, gərək dekorasiyalar dəyişiləydi. Amma indi burada dəyişiklik var, dekorasiya yoxdur. Dekorasiyasız da pis deyil,

bəlkə daha da yaxşıdır. Ona görə də mən bu barədə rəssamların işini qeyd etmək istəyirəm. Çox yaxşı bədii tərtibat veriblər. Bunlar, deməli, tamaşanın təşkilatçılarıdır.

O ki qaldı tamaşanın ifaçılarına, hamınız çox yaxşı oynadınız. Özü də bu tamaşada məni sevindirən odur ki, – burada siz azsınız – səhnədə çoxlu adamlar vardı.

Çox gözəldir ki, belə kütləvi səhnələri olan bir tamaşa yaratmısınız. Ancaq bu tamaşanın bütün ağırlığı, təbiidir ki, Hamlet rolunun ifaçısının üzərinə düşübdür.

Fuad Poladovu mən 1970-ci illərdən yaxşı tanıyıram. Elə bu səhnədə çox gözəl rollar ifa edirdi. Çox məmnunam ki, yenə də bu səhnədədir və deyə bilərəm ki, bu rolu çox məharətlə oynadı. Fuad, mən səni təbrik edirəm. Çünki bu dörd saatın, demək olar ki, xeyli hissəsini Hamletin monoloqları, danışıqları təşkil edir. Şekspir əsəri belə yaradıb, başqa cür etmək olmaz. Ancaq kim bu rolu ifa etmək istəyirsə, bu ağırlıq onun üzərinə düşür. Kim bu ağırlığı necə daşıyırsa, o, başqa məsələdir, bu fərqlidir.

Mən hesab edirəm ki, bu gün Fuad Poladov Azərbaycan teatrında Hamlet rolunu çox məharətlə ifa etdi. Yenə də deyirəm, mən səni təbrik edirəm. Güman edirəm ki, gələcəkdə də klassik əsərlərdə belə rolları ifa etməkdə davam edəcəksən. Bu çox faydalıdır, cəmiyyət üçün faydalıdır. Hər bir rolu ifa etməyin çətinliyi var. Amma belə rolu ifa etmək, təbiidir ki, aktyordan böyük istedad, məharət, bilik tələb edir. Çünki ifa etdiyin surətin daxili aləmini dərk edə bilməsən, əsərin fəlsəfəsini duya bilməsən, əlbəttə ki, bu rolu oynamaq mümkün deyildir. Bunların hamısını biz bu gün gördük.

Bu pyes belədir ki, burada bir rol hamısından fərqlənir. Ona görə də başqa rolu Fuadın ifası ilə müqayisə etmək mümkün deyildir. Ancaq mən çox məmnunam ki, məsələn, Kraliça

rolunun ifaçısı da çox gözəl çıxış edirdi. Bu rolun ifaçısını mən əvvəllər görməmişdim, bu qızı birinci dəfədir ki, görürəm. Xülasə, çox yaxşı çıxış edirdi. Ofelya rolunun ifaçısı da çox gözəl çıxış edirdi. Bu qadın rollarını xüsusi qeyd edirəm. Bilirsiniz, bu rollar bizim Azərbaycan həyatının xüsusiyyətinə uyğun rollar deyildir. Çünki bu rolların hamısı Danimarkanın, İngiltərənin o dövrdəki həyatı ilə bağlıdır. Bunları məhz o cür göstərmək, yəni həmin surətləri «azərbaycanlaşdırmamaq» əsas şərtdir, məsələ bundadır. Əgər kimsə Şekspiri istəsə azərbaycanlaşdırsın, bu, əlbəttə ki, mənfi nəticə verəcəkdir.

Dünən maestro Niyazinin 90 illik yubileyi idi. Mən orada çıxış edib xatirələrimi danışarkən dedim ki, Niyazi bütün başqa istedadı ilə yanaşı, bizim Azərbaycan bölgələrinin ləhcələrini çox gözəl yamsılayırdı. O çox gözəl aktyor idi. Məsələn, Şəki ləhcəsini, yaxud da ki, Gəncə, Qarabağ ləhcəsini... Mənim yadımdadır – biz ailəvi dost olmuşduq – bir dəfə o danışırdı ki, Şəki teatrında tamaşaya qoyulmuş «Otello»da Şəki ləhcəsi ilə deyilirdi: «...Mənim ciyimin yaylığı necə oldu?» Rolu azərbaycanlaşdırmaq olmaz. Ona görə də Fuadın da, bu qızların da ifasında mən məhz o ölkənin, həmin xalqın xüsusiyyətlərini hiss etdim. Bu da bunların əsərə çox ciddi yanaşmasının nəticəsidir.

Sonra, əsərdə, əlbəttə ki, kral surəti var. Rafael, çoxdandır ki, səni səhnədə görmürdüm, sən harada idin, yox idin. Yayda səni bir dəfə çimərlikdə görmüşəm. Bazar günü mən çimərliyə getmişdim ki, görüm insanlar necə istirahət edirlər. Qəflətən getdim, heç kəs bilmirdi. Gəlmişdim çimərliyə, Buzovna çimərliyi idi, yoxsa..?

**Rafael Dadaşov:** Buzovna yox, Zuğulba çimərliyi idi.

**H e y d ə r Ə l i y e v:** Hə, Buzovna ilə Zuğulba arasındakı çimərlik idi. Oturdum, bir az çay içdim, su içdim, bir az söhbət etdim. Bir də gördüm ki, Rafael anası ilə gəlir. Rafaelin anası Sofiya Azərbaycanın Xalq artistidir. Onun anası da artist idi. Naxçıvanda 1930-cu illərdə teatr çox güclü idi.

Güclü artistlər vardı. Orada da baş rolları iki-üç aktrisa oynayırdı. Onların da biri Xədicə xanım Qazıyeva idi. Xədicə Qazıyeva da orada aktyorlardan hansınasa ərə getdi. Ondan da Rafaelin anası Sofiya doğuldu. Sofiyanı uşaqlıqdan tanıyıram. İndi görürsünüzmü, mən sizə hansı tarixi söyləyirəm.

Xədicə xanımın gözəl çıxışları olurdu. Orada yaxşı aktyorlar vardı, məsələn, İsa Musayev, ən gözəl aktyor Miribrahim Həmzəyev idi.

**R a f a e l D a d a ş o v:** Bəli, Miri müəllim...

**H e y d ə r Ə l i y e v:** Miribrahim Həmzəyev. Zəroş xanım – Miribrahim Həmzəyevin xanımı oynayırdı. Bəli, Rafaelin anası və nənəsi də teatr sənəti ilə bağlıdırlar. Səni orada gördüm, amma teatrda yox idin. Sonra eşitdim ki, «Hamlet»də oynayırsan, dedim çox yaxşı ki, buraya gəlmisən. Amma çox belə cüssəlisən... Yəqin ki, idmanla məşğul olmusan. Hə? Daş qaldırmısan, ya nədirsə...

**R a f a e l D a d a ş o v:** Yəqin ki, bu, ifa etdiyim rola uyğun olar.

**H e y d ə r Ə l i y e v:** Bəli, kral da... Doğrudan da, Şekspir bu faciəni necə yaradıbsa – mən bu əsəri birinci dəfə deyil ki, görürəm – hər dəfə adamda çox böyük təəssürat doğurur. Mənə dedilər ki, tamaşaya iki saat baxacaqsan. İki saat elə keçdi ki, heç xəbərim olmadı. İkinci pərdə qısa oldu. Mən burada nə qədər oldumsa, yorulduğumu hiss etmədim. Biz buraya yorulmağa gəlmirik. Əksinə, istirahət etməyə gəlirik. Mən tam istirahət

etmişəm. Çünki bu çox güclü əsərdir. Əsərə ki, alışırsan, onda, həqiqətən istirahət edirsən. Səni də təbrik edirəm, bu teatra gəlmisən. Güman edirəm ki, teatrdan ayrılmaq lazım deyildir.

Bu gün görürəm, qarşımda durublar, Səyavuş, Yaşar... Siz həmişə çox yaxşı oynayırsınız. Elə aktyorlarsınız ki, sizin haqqınızda nə qədər desək, yenə söz qurtarmayacaqdır. Amma bu dəfə xüsusi rollar oynayırsınız. Məsələn, Səyavuş elə həmişə adamı güldürür. Amma bu dəfə elə bir rol oynayırdın ki, onun da öz xüsusiyyəti var.

**Səyavuş Aslan:** Məni zorla oynatdılar...

**Heydər Əliyev:** Yox əşşi... Amma yaxşı oynayırdın. Qəbirqazan surətini də Yaşar yaxşı oynayırdı. Çox yaxşı oynayırdınız. Daha kimi deyim? Hamınız yaxşı oynayırdınız. Elədir, yoxsa yox?

Gənclər də, təbiidir ki, inkişaf edirlər. Mən bunu görürəm. Bu gün tamaşada mən çoxlu gənc ifaçı gördüm, gənclər gördüm. Demək, bu teatra gənc aktyorlar gəlib. Onlar çoxdurlar.

**Əliabbas Qədirov** (*teatrın bədii rəhbəri və direktoru, Xalq artisti*): Bəli. Teatra gənclər cəlb olunur.

**Heydər Əliyev:** Teatra gərək gənclər gəlsin. Gənclər gəlsin ki, onlar Səyavuşun, Yaşarın, o birilərin işlərini davam etdirsinlər. Fuad özü hələ cavandır. Doğrudan, mən səni çoxdandır ki, görmürəm, dəyişilməmisən. Özünü yaxşı saxlamısan. Çoxdandır, gör nə vaxt idi, mən səni 1970-ci illərdə səhnədə görmüşəm. 20 ildir, 20 ildən də çoxdur... Amma bu 20 ildə heç dəyişilməmisən. O vaxtkı kimisən.

**Səyavuş Aslan:** Heydər müəllim, Rus Dram Teatrında işləyir, buraya dəvətlə gəlibdir.

**Heydər Əliyev:** Burada işləmir?

**S ə y a v u ş  A s l a n:** Yox, burada işləmir. Amma arzumuzdur ki, bizimlə işləsin, ona yalvarırıq, deyirik, indi nə vaxt qayıdacağını bilmirik.

**H e y d ə r  Ə l i y e v:** Artistlərin bu işinə qarışmaq olmaz.

**Ə l i a b b a s  Q ə d i r o v:** Mən onu dəvət etmişəm.

**H e y d ə r  Ə l i y e v:** Mən bu məxluqu yaxşı tanıyıram. Çünki dəfələrlə demişəm, mən özüm teatr həvəskarı olmuşam, lap gənc vaxtımda, Naxçıvanda dram dərnəyində mən də çıxışlar etmişəm. Miribrahim Həmzəyev bizim dram dərnəyinin rəhbəri idi. Sonra burada, Bakida, Azərbaycan Sənaye İnstitutunda oxuyanda da bizim dram dərnəyimiz vardı. Mən orada da çıxış etmişəm. Hətta bir dəfə «Hamlet»dən bir pərdə hazırlamışdılar, mən də özüm bacardığım kimi çıxış etdim. Yəni bilirəm ki, bu artistlər xüsusi məxluqdur. Onların işinə qarışmaq olmaz. Onları gərək başlı-başına buraxasan. Nə edirlərsə, qoy etsinlər. Bu teatrdan çıxıb başqa teatra gedirlər. Bu sizin öz işinizdir. Keçmişdə bu teatrdan da gedən olubdur. Rəhmətlik Mehdi Məmmədov neçə dəfə buradan getmiş və neçə dəfə də buraya qayıtmışdı. Yadınızda deyilmi? O da Rus Dram Teatrına getmişdi. Elədirmi?

**Ə l i a b b a s  Q ə d i r o v:** Bəli, opera teatrına da getmişdi.

**H e y d ə r  Ə l i y e v:** Opera teatrına, Rus Dram Teatrına da getdi. Sonra mən onu 1970-ci illərdə buraya gətirdim, dedim gəl bu teatra. Gəldi, burada baş rejissor oldu. Özü də oynayırdı, yadımdadır, Xəyyamı çox oynadı.

**Ə l i a b b a s  Q ə d i r o v:** «Meşşanlar»da, «Canlı meyit»də...

**H e y d ə r  Ə l i y e v:** Bəli, «Canlı meyit»də... «Xəyyam» mənim xatirimdə çox yaxşı qalıbdır, «Xəyyam» pyesini qoydu, elədirmi?

**Ə l i a b b a s  Q ə d i r o v:** Elədir.

**E l ç i n  Ə f ə n d i y e v:** «İnsan»da da oynadı.

**Ə l i a b b a s  Q ə d i r o v:** 1969-cu ildə...

**H e y d ə r  Ə l i y e v:** Mən xahiş etdim, o, Səməd Vurğunun «İnsan» pyesini tamaşaya hazırladı.

İndi kim-kimə yalvarır, bu sizin öz işinizdir, mənim işim deyildir. Əgər Fuad Rus Dram Teatrındadırsa, bir gün gedəcəyəm, orada görəcəyəm. Bəlkə Səyavuş, sən də Rus Dram Teatrına gəldin. Sənin özün gah orada – Musiqili Komediya Teatrındasan, gah buradasan. Belədir də. Bu tamamilə təbii haldır. Bunu heç kəs heç kimə irad tutmasın. Hesab edirəm ki, bu, təbii haldır.

Bir sözlə, hamınız bu gün bu ağır tamaşanı göstərdiniz. Mən çox məmnunam ki, sizin bu teatrda da öz içərinizdən çıxan direktorunuz var. Sən həm teatrın bədii rəhbərisən, həm də direktorusan?

**Ə l i a b b a s  Q ə d i r o v:** Bəli.

**H e y d ə r  Ə l i y e v:** Daha bunu tərifləməyə ehtiyac yoxdur. Bilirsiniz də, bu da böyük rollar oynayıbdır, indi də teatra başçılıq edir və yaxşı başçılıq edir.

Son dəfə mən sizin maaşlarınızı da artırdım, bilirsiniz də.

**S ə y a v u ş  A s l a n:** Çox sağ olun. Sizin sağlığınız bizim teatr üçün hər şeydir. 22 nəfərə də Prezident mükafatı təyin etmisiniz.

**H e y d ə r  Ə l i y e v:** Özü də hərəyə 2 milyon manat... Hə?

**Ə l i a b b a s  Q ə d i r o v:** Bəli, 22 nəfərə iki milyon, milyon yarım, ən azı bir milyon manat Prezident mükafatı vermisiniz.

**H e y d ə r  Ə l i y e v:** İndi Azərbaycanda heç kim dövlətdən bu qədər pul almır. Başqa yerdən alanlar var.

**S ə y a v u ş A s l a n:** Heydər müəllim, 3-4 nəfər də yaxşı gənc aktyorlarımız var, işləyirlər. Onların fəxri adları yoxdur.

**H e y d ə r Ə l i y e v:** Sən bunu dedin, mən Fatma xanıma tapşıraram, nə dərdiniz varsa, deyin.

**Ə l i a b b a s Q ə d i r o v:** Cənab Prezident, çox sağ olun. Teatrımıza Sizin gəlişiniz bizi ruhlandırır. Sizin buraya gəlişiniz bizim üçün həmişə bayramdır. Hamı bilir ki, Sizin gəlişiniz burada necə təntənə ilə qarşılanır və bilirik ki, Siz bizə çox böyük qayğılar göstərmisiniz. Mən 1969-cu ildən bu teatrda işləyirəm. O vaxtdan bu günə qədər bizim teatra Sizin qayğınız həmişə olub. Biz Sizə çox təşəkkürümüzü bildiririk. Biz bir neçə ay Sizin buraya gəlişinizin təəssüratı ilə yaşayacağıq. Bilirik ki, Siz həmişə teatrın qayğısını çəkmisiniz. Bayaq da söhbətimiz oldu, düzdür, Səyavuş da deyir, Siz də dediniz ki, nə lazımdırsa, yəni gələcəkdə aktyorlarımıza fəxri ad verilməsi məsələləri, teatrımıza milli teatr statusu verilməsi...

**H e y d ə r Ə l i y e v:** Fatma xanım, bunların hamısını yaz, ver. Mənim incəsənətə,ələlxüsus teatra münasibətimi sübut etmək lazım deyil. Ona görə də nə lazımdırsa etmişəm və edəcəyəm.

**S ə y a v u ş A s l a n:** Özünüz də gördünüz, yaxşı gənclərimiz var.

**H e y d ə r Ə l i y e v:** Görürəm, siz veteranlar da yaxşısınız.

**S ə y a v u ş A s l a n:** Gəncləri də bizim siyahıya salsanız, yaxşı olardı.

**H e y d ə r Ə l i y e v:** Gəncləri də siyahıya salarıq. Sən narahat olma.

Səyavuş, yəqin sənin heç ağlına gəlməzdi ki, sənə birdən 2 milyon manat mükafat təyin edəcəyəm, hə?

**Səyavuş Aslan:** Heç indi də ağlıma gəlmir. İndi də çox sevinirəm. Qəflətən oldu.

**Heydər Əliyev:** İndi bir də görəcəksən ki, nə isə etdim, sənin heç ağlına gəlməz ki, bunu etmişəm.

Bir sözlə, çox sağ olun. Mən çox məmnunam, sizə yeni-yeni uğurlar arzulayıram.

## UŞAQLARIN BEYNƏLXALQ TELEVİZİYA VƏ RADİO GÜNÜNƏ HƏSR OLUNMUŞ BAYRAM ŞƏNLİYİNDƏ NİTQ

*Bakı,*
*Teleteatr*

*8 dekabr 2002-ci il*

*Uşaqların Beynəlxalq Televiziya və Radio günü münasibətilə keçirilən bayram şənliyini Azərbaycan Dövlət Teleradio Verilişləri Şirkəti YUNİSEF-in ölkəmizdəki nümayəndəliyi ilə birlikdə təşkil etmişdi.Ənənəvi bayram şənliyinin iştirakçıları Azərbaycan prezidenti Heydər Əliyevi mehribanlıqla, hərarətli alqışlarla, «Heydər baba» nidaları ilə qarşıladılar. Respublikamızın rəhbərinə gül dəstələri təqdim olundu.*

Əziz uşaqlar!
Əziz balalar!
Burada keçirdiyim bu dəqiqələr, saatlar – bilmirəm, nə qədər vaxt ötdü, heç hiss etmədim ki, burada çox vaxt keçirmişəm – mənə çox böyük təsir bağışladı. Mən belə görüşə birinci dəfə deyil ki, gəlirəm, ancaq hər dəfə siz öz istedadınızla, xoş sözlərinizlə, rəqslərinizlə, mahnılarınızla və öz görünüşünüzlə, gözəlliyinizlə məni sevindirirsiniz. Yəni təkcə məni yox, bütün Azərbaycan xalqını sevindirirsiniz. Valideynlərinizi

sevindirirsiniz, nənələrinizi, babalarınızı sevindirirsiniz – hamımızı sevindirirsiniz.

Biz, yaşlı adamlar yaxşı bilirik – siz hələ bunu dərk etmirsiniz, vaxt gələcək siz də dərk edəcəksiniz – hər bir insana ən çox sevinc, səadət və həyatda yaşamaq arzusu gətirən uşaqdır. Uşaq dünyaya gəlir, böyüyür, sizin kimi bu gözəl dövrü yaşayır. Sonra öz istedadına uyğun olaraq, öz bacarığına uyğun olaraq cəmiyyətdə özünə yer tutur. Ancaq hər bir kəsin yeganə arzusu ailə qurmaq və ailə sahibi olmaq, uşaq dünyaya gətirmək, uşaq atası, uşaq anası olmaqdır. Bundan böyük xoşbəxtlik yoxdur. Ona görə də insanların hamısının, deyə bilərəm ki, tam əksəriyyətinin uşaqlara sevgisi, məhəbbəti tamamilə təbiidir.

Doğrudur, insanların fərdi xüsusiyyətindən asılı olaraq, bəziləri bunu emosional qəbul edir, bəzilərinə bu çox təsir edir, bəzilərinə az təsir edir. Amma fərqi yoxdur, bu öz təsirini göstərir. Ona görə siz uşaqlar bizə xoşbəxtlik, səadət gətirirsiniz, sevinc gətirirsiniz, bizi yaşadırsınız.

İnsan müəyyən mərhələdən sonra daha da çox yaşamaq istəyir ki, uşaqlarını saxlasın, uşaqlarını böyütsün, oxutsun, müstəqil həyat yoluna çıxarsın. Onda o öz atalıq, analıq borcunu yerinə yetirmiş olur. Amma biz bunları yaşamışıq, bu gün də yaşayırıq. Siz bunları gələcəkdə görəcəksiniz. Ona görə mən sizə əvvəlcədən deyirəm ki, gələcək illər siz hansı hissiyyatları keçirəcəksiniz. Ancaq bu gün hələ uşaqsınız.

Uşaq aləmi xüsusi bir aləmdir. Bax, bu gün bu salonda uşaq aləmini biz hiss edirik. Təkcə biz yox, indi bütün bu veriliş televiziya ilə Azərbaycana yayılır. Güman edirəm ki, bizim televiziya tamaşaçılarının tam əksəriyyəti bu gün teleekranların qarşısındadır. Sizi görmək istəyirlər, sizə baxırlar, sizin mahnı-

larınızı dinləyirlər, rəqslərinizə baxırlar, sizin istedadınızdan həzz alırlar, sevinirlər, ilham alırlar.

Mən bura gəlməzdən əvvəl də, siz verilişə başlayan kimi, televiziyaya baxırdım. Təkcə bu salona girəndən yox, siz verilişə başlayandan artıq mən sizə qoşulmuşdum, sizə baxırdım. Mən bura elə dolğun hissiyyatla gəlmişdim ki, bunu heç ölçüyə gətirmək mümkün deyildir. Uşaqlar, sağ olun ki, bizim cəmiyyəti bu qədər gözəlləşdirirsiniz, şirinləşdirirsiniz, ona bu qədər bəzək verirsiniz.

Həyat o qədər də asan deyil. İndi biz Azərbaycanda müstəqillik dövrümüzün 11-ci ilini yaşadıq, 12-ci ilə keçmişik. Müstəqil dövlət qurmaq çox çətin işdir. Bizim respublikamızda 1990-cı illərin əvvəllərində yaranmış vəziyyətləri nəzərə alsaq, Azərbaycanda bu çox çətin idi. Amma biz ilbəil dövlətimizi, müstəqil ölkəmizi möhkəmləndirir, inkişaf etdiririk, iqtisadiyyatı inkişaf etdiririk. Əsas vəzifəmiz insanların həyat tərzini, rifah halını yaxşılaşdırmaqdır. Buna da nail oluruq. Hələ tam nail olmamışıq, amma ilbəil nail oluruq.

Mən təkcə sizi yox – ola bilər, deyərlər ki, uşaqlar bura bəzənib-düzənib gəliblər – şəhərdə gəzəndə, avtomobillə yol gedəndə də, məktəbdə olanda da, bütün başqa vaxtlarda bizim uşaqları görəndə baxıram ki, uşaqlarımız gözəldir, yaxşı geyimləri var, yaxşı görünüşləri var. Bəzən səhər işə gələndə görürəm ki, valideynlər uşaqları məktəbə aparırlar. Diqqət yetirirəm, uşaqlar nə cür geyinirlər, uşaqların çantası necədir, sifəti necədir. Maşallah, hamısı gözəldir, vallah gözəldir. Bax, bu bizi sevindirir.

Bu, eyni zamanda, bizim ölkəmizdə insanların yaşayış səviyyəsinin göstəricilərindən biridir. Yəni biz çalışırıq ki, insanların rifah halı yaxşılaşsın. Buna nail oluruq və ilbəil də nail olacağıq.

Bunda da yenə ön planda uşaqlardır, uşaqlardır, uşaqlardır. Çünki hər ata, hər ana xalq arasında deyildiyi kimi, boğazından kəsib uşaqlarına yedirdir, özündən kəsib uşaqları geyindirir. Amma indi bizdə belədir ki, çox hallarda heç kəsmək də lazım deyildir. Özü də yeyir, özü də geyinir, uşaqlarını da yedirdir, geyindirir. Düzdür, hamısı belə deyil, bizim qaçqın düşərgələrində, çadırlarda yaşayan ailələrimiz də var, uşaqlarımız da var. Güman edirəm, onlar da, hamısı olmasa da, çoxu bu gün televiziya ilə bu verilişə baxırlar, görürlər. Biz də onları buradan görürük. Onları unutmamışıq, heç vaxt da unutmayacağıq. Ancaq onların da həyatı, hətta çadırlarda da, günü-gündən yaxşılaşır. Bu, daha da yaxşılaşacaq və əmin ola bilərsiniz ki, çadırlarda doğulmuş uşaqlar gələcəkdə öz torpaqlarının sahibi olacaq, öz torpaqlarında böyüyəcəklər, öz elində-obasında yaşayacaqlar.

Uşaqlar, sizin bizə, cəmiyyətə bəxş etdiyiniz bu sevinc hədsizdir. Sizin bizə bəxş etdiyiniz bu xoşbəxtlik ən yüksək xoşbəxtlikdir. Ancaq bizim də sizə arzularımız var. Arzularımız odur ki, siz istedadınızdan səmərəli istifadə edəsiniz. Gərək yaxşı oxuyasınız, yaxşı təhsil alasınız.

Biz çalışırıq ki, Azərbaycan uşaqlarının hamısı təhsilli olsun. Heç kəs təhsildən kənarda qalmasın və siz də buna çalışın. Yəni mən bütün uşaqlara müraciət edirəm, çalışın ki, heç kəs təhsildən kənarda qalmasın, heç kəs məktəbdən kənarda qalmasın, heç kəs məktəbdən, təhsildən ayrılıb başqa, xoşagəlməz yollara getməsin.

Siz burada istedadınızı, əsasən, incəsənət, mədəniyyət sahəsində göstərirsiniz. Buna da baxanda düşünürük, mən şəxsən düşünürəm ki, doğrudan da bizim xalqımızda incəsənət, musiqi, mədəniyyət baxımından kütləvi istedad var. Yəni bu, ayrı-ayrı

adamların istedadı deyil, ümumiyyətlə, bizim xalqımızın çox yüksək istedada malik olmasıdır. Bu, gözəl haldır. Təbiidir ki, sizin hər biriniz gələcəkdə rəqqasə, yaxud rəqqas olmayacaqsınız. Hər biriniz müğənni olmayacaqsınız, hər biriniz söz ustası olmayacaqsınız. Amma içərinizdən gözəl sənətkarlarımız çıxacaqdır. Ancaq hərənizin öz yolu olacaqdır. Hərəniz öz yolunuzla gedəcəksiniz. Ya elmdə, ya təhsildə, ya biznesdə, ya da həyatın başqa sahələrində. Ancaq sizin bu istedadınız, yəni incəsənətə, mədəniyyətə bağlılığınız həmişə sizə yardım edəcəkdir. Çünki insan mədəniyyət, incəsənət sahəsində nə qədər istedadlı olsa, bütün başqa sahələrdə – yaşadığı, işlədiyi, çalışdığı sahələrdə bir o qədər müvəffəq ola bilər. Ona görə mən bu gün bütün bunları burada görəndə bax, sizin gələcəyiniz haqqında düşünürəm.

Siz burada yaxşı səhnələr –Azərbaycanın neft strategiyasına aid olan səhnələr göstərdiniz. Bakı–Tbilisi–Ceyhan neft kəmərini – bu, əsrin layihəsidir – göstərdiniz. Başqa belə şeylər də göstərdiniz. Çox gözəldir ki, siz Azərbaycanın həyatında olan ictimai-siyasi hadisələri qavrayırsınız, tutursunuz və öz istedadınızla nümayiş etdirirsiniz. Ancaq bilin, siz bu layihələrin gələcək iştirakçısı olacaqsınız. Onları həyata keçirənlər olacaqsınız. Biz bunları başlayırıq. Biz Azərbaycanın böyük gələcəyinin böyük layihələrini başlayırıq, onların əsasını, təməlini qoyuruq. İmkanımız dairəsində, mən özüm haqqında deyirəm, nə qədər ki, varıq, biz bunları edəcəyik, həyata keçirəcəyik.

Ancaq bunları edərkən, mən həmişə düşünürəm ki, bu layihələr gələcəkdə daha da yaxşı həyata keçiriləcəkdir. Çünki bizi əvəz edən nəsillərimiz var. Belə gənc nəslimiz, uşaqlarımız, istedadlarımız var. Siz bizim nəsildən də istedadlısınız. Ona

görə biz sizə inkişaf etmiş Azərbaycan vermək istəyirik. İstəyirik ki, bizim gördüyümüz çətinlikləri, davanı, böhranları, vuruşmaları, terroru – belə şeyləri siz görməyəsiniz.

Artıq biz ictimai-siyasi cəhətdən çox sabit bir Azərbaycan yaratmışıq. İnsanlar rahat yaşayırlar və biz bunu, sabitliyi daimi edəcəyik. İnsanların rahat yaşamasını daimi edəcəyik. Yəni, əmin olun, siz bizim rastlaşdığımız çətinliklərlə rastlaşmayacaqsınız. Ancaq bu sizə imkan verəcək ki, bizim başladığımız işləri daha da uğurla həyata keçirəsiniz.

Siz bizim ümidimizsiniz. Siz bizim gələcəyimizsiniz. İnsan ümidsiz yaşaya bilməz. Mən bütün həyatımı ümidlə yaşamışam. Bu gün də ümidlə yaşayıram. Ümidlə yaşamışam ona görə ki, gördüyüm işlərə inanmışam, inanıram və onların nəticəsini görmüşəm. Eyni zamanda, ümidlə yaşamışam və yaşayıram ona görə ki, bizim sizin kimi, Azərbaycan gəncliyi kimi gələcəyimiz var. Bizim işimizin davamçıları var. Siz burada Heydər Əliyev haqqında sözlər dediniz. Ümidvaram ki, siz Heydər Əliyev işinin gözəl, sədaqətli, etibarlı davamçıları olacaqsınız.

Mən YUNİSEF təşkilatının bu gözəl təşəbbüsünü yüksək qiymətləndirirəm. Səhv etmirəmsə, səkkizinci ildir ki, şəxsən mən YUNİSEF təşkilatının keçirdiyi Uşaqların Beynəlxalq Televiziya və Radio günündə sizinlə bərabər iştirak edirəm və hər dəfə də bunun nə qədər faydalı olduğunu görürəm. Bu gün də bunun bir daha şahidi oldum. Ona görə YUNİSEF təşkilatına təşəkkürümü bildirirəm və arzu edirəm ki, onlar bu xeyirxah işlərini gələcəkdə də davam etdirsinlər.

Siz burada idman nümunələri göstərdiniz. Mən o balaca pəhləvanları görəndə düşündüm ki, görün Azərbaycan xalqının gələcəkdə necə güclü insanları olacaqdır. İdman da gənclərə incəsənət, mədəniyyət qədər, mahnı kimi, musiqi, rəqs kimi,

bəlkə onlardan da artıq lazımdır. Gənclər idmansız biz istəyən səviyyədə böyüyüb ərsəyə gələ bilməzlər. İdman hər bir insanın sağlamlığıdır. Ona görə də biz idmana çox böyük yol açmışıq.

Azərbaycanın Milli Olimpiya Komitəsi, onun prezidenti İlham Əliyev bu sahədə çox geniş fəaliyyət göstərir. Biz bunu edirik, edəcəyik. Bu sahəni İlham Əliyev öz üzərinə götürübdür, ağırlığı bizdən uzaqlaşdırıbdır. Ağırlıq onun üzərindədir. Ancaq gənclərə müraciət edərək onu demək istəyirəm ki, idmanla daha çox məşğul olsunlar. İdman salonlarına daha da çox gedin. Çünki bizim xalqımızın gələcəyi gənclərdir. Gənclər isə gərək həm fiziki cəhətdən sağlam olsunlar, həm də yüksək şüura, yüksək biliyə, yüksək əxlaqa, yüksək tərbiyəyə, yüksək elmə malik olsunlar. Bunlar hamısı bir-birinə sıx bağlıdır. Mən sizə bundan sonra idmanla da məşğul olmağı tövsiyə edirəm.

Əziz balalar, məni bu gün çox sevindirdiniz. Bu gün istirahət günüdür, vallah, əgər mən evdə oturub istirahət etsəydim, bu qədər dincəlməzdim. Siz mənim üçün, təkcə mənim üçün yox, televiziya vasitəsilə sizi seyr edənlər üçün böyük bir bayram yaratdınız. Bizim bugünkü istirahətimiz üçün çox gözəl şərait yaratdınız. Mən sizə təşəkkür edirəm. Sizə, bütün Azərbaycan gənclərinə öz hədsiz məhəbbətimi, sevgimi bir daha bildirirəm. Sağ olun, sizə uğurlar olsun.

# İTALİYANIN ƏMƏK VƏ SOSİAL SİYASƏT NAZİRİ ROBERTO MARONİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*9 dekabr 2002-ci il*

*Azərbaycan prezidenti Heydər Əliyev qonaqları səmimiyyətlə salamlayaraq, İtaliyanın Əmək və Sosial Siyasət nazirinin Azərbaycana ilk səfərinə böyük əhəmiyyət verdiyini vurğuladı və dedi ki, güman edirəm, bu səfər təkcə həmin sahədə deyil, ümumiyyətlə, İtaliya–Azərbaycan əlaqələrinin inkişafına kömək edəcəkdir.*

*Mən dəfələrlə bəyan etmişəm ki, Azərbaycan İtaliya ilə bütün sahələrdə geniş əməkdaşlıq etmək arzusundadır, bunu istəyir və bunun üçün də ötən illərdə lazımi tədbirlər görülübdür. Doğrudur, mən bu tədbirləri tamamilə yetərli hesab etmirəm. Gərək biz bundan da çox səylər qoyaydıq. Ancaq qoyduğumuz səylər də az olmayıbdır. İtaliya da gərək öz tərəfindən Azərbaycanla əməkdaşlıq sahəsində səylərini artırsın.*

*Prezident Heydər Əliyev İtaliyanın «Eni» və «Acip» şirkətlərinin Xəzərin Azərbaycan sektorundakı neft yataqlarının işlənilməsində iştirak etməsi ilə əlaqədar sazişlər imzalanmasının böyük məmnuniyyətlə qarşılandığını bildirdi. Dövlətimizin başçısı 1997-ci ildə İtaliyaya rəsmi səfərini xatırladaraq dedi ki, o vaxt həm prezidentlə, həm də Baş nazirlə danışıqlar apardıq və bəzi müqa-*

*vilələr də imzaladıq. Təəssüf ki, o vaxt İtaliya–Azərbaycan əlaqələrində yaranmış canlanmanı saxlaya bilmədik. Amma biz bunu edə bilərik. Sizin keçmiş səfir bu barədə cəhdlər göstərirdi, indiki səfiriniz xanım Marqarita da çox çalışmaq istəyir. Bizim tərəfdən də çox çalışırıq. Ancaq bunlar hələ ki, istənilən nəticəni verməyibdir. Güman edirəm, sizin indiki səfəriniz bizim münasibətlərimizdə canlanmanı artıracaqdır.*

*Səmimi qəbula görə minnətdarlıq edən cənab Roberto Maroni Azərbaycan prezidenti ilə görüşməsindən böyük şərəf hissi duyduğunu vurğuladı və bildirdi ki, Bakıya səfər çərçivəsində Azərbaycan ilə İtaliya arasında əmək və sosial müdafiə sahəsində ikitərəfli əməkdaşlığa dair sənəd imzalanmışdır.*

*O, Azərbaycanın Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Əli Nağıyevlə Birləşmiş Millətlər Təşkilatının konfransı çərçivəsində görüşdüyünü, Azərbaycana səfəri barədə orada razılıq əldə edildiyini vurğuladı. Qonaq dedi ki, Avropa Birliyinin üzv ölkəsi olan İtaliya birinci dəfədir ki, Birliyin üzvü olmayan Azərbaycanla sosial sahədə əməkdaşlığa dair sənəd imzalayır. Biz də öz tərəfimizdən çalışırıq ki, səylərimizi artıraq və iki ölkə arasında olan münasibətlər daha da möhkəmlənsin, həm iqtisadi, həm ticarət, həm də mədəni sahələrdə inkişaf etsin.*

*Cənab Roberto Maroni gələn ilin ikinci yarısında İtaliyanın Avropa Birliyinə sədrlik edəcəyini söyləyərək dedi ki, istəyirəm ölkənizin naziri İtaliyaya gəlsin, AB-nın üzvü olan ölkələrin əmək nazirlərinin iyul ayında keçiriləcək iclasında iştirak etsin. Cənab Prezident, əmin ola bilərsiniz ki, mən ölkəmə qayıdanda Baş nazir cənab Berluskoniyə və İtaliya hökumətindəki həmkarlarıma Sizin ölkənizə səfərim haqqında məlumat verəcək və bildirəcəyəm ki, biz Azərbaycanla münasibətləri daha da genişləndirməliyik.*

## İRAN İSLAM RESPUBLİKASININ MƏDƏNİYYƏT VƏ İSLAMİ İRŞAD NAZİRİ ƏHMƏD MƏSCİD CAMEİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*10 dekabr 2002-ci il*

*Azərbaycan prezidenti Heydər Əliyev qonaqları səmimiyyətlə salamlayaraq hal-əhval tutdu, eyni zamanda son 15–20 ildə Bakıya belə qar yağmadığını, şəhər üçün çətinliklər yaratdığını vurğuladı.*

*Dövlətimizin başçısı may ayında İrana səfərini xatırladaraq, bunun İran–Azərbaycan əlaqələrinin inkişafı üçün əhəmiyyətli olduğunu, həmin səfərdən sonra əlaqələrimizin intensiv inkişaf etdiyini, prezident Xatəmi ilə əldə olunmuş razılıqların həyata keçirilməsinin təmin edildiyini vurğuladı.*

*Mədəniyyət sahəsində lazım olan işlərin görülməsini çox yaxşı hal hesab edən prezident Heydər Əliyev dedi ki, mədəniyyət əlaqələrimizin inkişafına bütün sahələrdən daha çox yardım edə bilər və indiyə qədər də edibdir. Bəzi sahələrdə hansısa çətinliklər olur, amma mədəniyyət sahəsində çətinliklər ola bilməz. Çünki bizim, iki xalqın, İran–Azərbaycan xalqlarının mədəniyyətlərinin bir kökü var. Bizim mənəvi dəyərlərimiz, adət-ənənələrimiz, musiqimiz və memarlıq abidələrimiz, bütün başqa abidələr – hamısı bir-birinə bənzərdir. Ona görə bu sahədə həm*

*əməkdaşlığı irəliyə aparmaq daha asandır, həm də imkanlar çoxdur. Gərək hamımız birlikdə bu imkanlardan daha da səmərəli istifadə edək.*

*Görüşdə iştirak edən Azərbaycanın Mədəniyyət naziri Polad Bülbüloğlu dedi ki, cənab Prezident, Sizin İrana rəsmi səfəriniz zamanı iki ölkə arasında anlaşma imzalanmışdır. Dünən biz işçi protokolunu imzaladıq. Abidələrin bərpası, müştərək film çəkilməsi, kollektivlərin qarşılıqlı qastrolları barədə danışmışıq. Sizin tarixi səfərinizdən sonra bütün sahələrdə olduğu kimi, mədəni əlaqələrdə də müəyyən canlanma var və bundan sonra da olacaqdır.*

*Səmimi qəbula görə təşəkkür edən cənab Əhməd Məscid Camei böyük müsəlman siyasi xadimi olan Heydər Əliyevlə görüşməkdən şərəf duyduğunu bildirdi, İran prezidenti Xatəminin salamını dövlətimizin başçısına çatdırdı.*

*O, Azərbaycan ilə İran arasında tarixi köklərin olması barədə deyilənlərlə tam razılaşdığını söylədi, Bakıda təşkil etdikləri sərgidə İranda Azərbaycan dilində çap olunmuş 200 kitabın nümayiş etdirilməsini bugünkü əlaqələrimizin nümunəsi kimi qiymətləndirdi. Nazir dedi ki, zati-aliləri, hazırda Azərbaycanın dörd musiqi qrupu İrandadır. Sizin bu ilin mayında İrana səfəriniz və prezident Xatəmi ilə apardığınız danışıqlar münasibətlərimizdə, əlaqələrimizdə köklü dönüş yaratmışdır. Biz həmin səfər zamanı mədəniyyətə aid sənəd imzaladıq. Orada nəzərdə tutulan məsələlərin həyata keçirilməsi üçün isə biz bu günlərdə icra sənədi imzalamışıq.*

*Qonaq elm, mədəniyyət, turizm sahəsində əlaqələrin daha geniş inkişaf etdirilməsinin mümkünlüyündən danışaraq dedi ki, Azərbaycan prezidentinin İrana rəsmi səfərindən sonra yaranmış münasib şəraitdən istifadə edib ümumən mədəni əməkdaşlığı*

*daha da genişləndirmək istəyirik. Bizim xalqımız Azərbaycanın müstəqilliyinə və inkişafına çox sevinir. Azərbaycanın qüdrətli olması ilə fəxr edirik. Çalışırıq ki, münasibətlərimiz ilk növbədə, Azərbaycanla olsun. Cənab Xatəmi də Azərbaycana səfər etməyə çox maraqlıdır. İnanıram ki, yaxın aylarda Bakıya gələcəkdir. Zati-aliləri, sözsüz ki, Sizin tövsiyə və tapşırıqlarınız bizim görəcəyimiz işləri daha da sürətləndirəcəkdir.*

*Prezident Xatəminin salamına görə təşəkkür edən dövlətimizin başçısı Heydər Əliyev özünün də dostluq salamını və ən xoş arzularını İran rəhbərinə çatdırmağı ondan xahiş etdi, cənab Xatəminin Azərbaycana rəsmi səfərini səbirsizliklə gözlədiyini bildirdi.*

*Prezident Heydər Əliyev vurğuladı ki, vaxtilə nazir olan ağayi Xatəmi, siz və Polad Bülbüloğlu mədəni əlaqələr qurulmasının təşkilatçısı olmusunuz. Yaxşı iş görmüsünüz, amma görünür, o himi möhkəm qoymamısınız. Çünki ondan sonra mədəni əlaqələr gərək çox sürətlə inkişaf edəydi. Təəssüf ki, belə olmayıbdır. Amma indi bu, geridə qalıbdır. Hesab edirəm, bu il Tehranda biz ağayi Xatəmi ilə çox möhkəm him qoyduq ki, onun üstündə möhkəm bir bina tikilsin. Biz bunu edirik və edəcəyik.*

*Mədəniyyətin hər bir xalqı başqa xalqlar arasında, ümumiyyətlə, dünyada tanıtmaq üçün ən əsas, ən yararlı vasitə olduğunu söyləyən dövlətimizin başçısı Heydər Əliyev bəzən bir mahnının böyük əsərdən, işdən çox təsirli olduğunu vurğulayaraq dedi ki, «Ayrılıq» mahnısı o illər həm İranda, həm də Azərbaycanda bütün insanların qəlbinə girmişdi. 1990-cı ildə mən Naxçıvana gəldim. Mən ayrılıqdan daha çox əziyyət çəkmiş adamam. Çünki bir var, Azərbaycan ilə İran arasındakı ayrılıq, bir də var, mən Moskvada yaşayırdım, daha da ayrı düşmüşdüm. «Ayrılıq» mahnısını burada eşitdim, qulaq asanda gözlərimdən*

*yaş gəldi. Sonra Allah mənə yaxşı qismət verdi. Gərək ki, 1992-ci ildə idi. Əli Səlimi buradan getmiş azərbaycanlıdır. Onları 1937-ci ildə buradan sürgün etmişlər. Gedib Təbrizdə yaşamışdı. Orada tar çalırdı və gözəl bir orkestri var idi. Mənə xəbər verdilər ki, o, Təbrizdən Bakıya getmək istəyir. Amma o vaxt yol yox idi, vəsaitləri də yox idi. Mən Təbrizdəki adamlarla əlaqəyə girdim, onları dəvət etdim, Naxçıvana gəldilər. Qış, şaxta, çox soyuq idi. Amma o şaxtada, soyuqda qızdırılmamış salonda – hamımız paltoda oturmuşduq – gözəl bir konsert verdilər. Demək olar, biz bir neçə gün onun təsiri altında qaldıq.*

*Onda Əli Səlimi öz tərcümeyi-halını danışdı ki, 1937-ci ildə gedəndən Azərbaycanı, Bakını görməyibdir. Hətta Bakıda hansı küçədə yaşaması, ailəsi barədə də danışdı. Mən iki gündən sonra onlara kömək etdim, təyyarə ilə Bakıya göndərdim. İndi deyirlər rəhmətə gedibdir. Çox gözəl bir insan idi, musiqiçi idi. Amma o, böyük təhsil almış bəstəkar deyildi. Ancaq elə bir mahnı yazmışdı ki, təhsil almış heç bir bəstəkar o cür mahnı yaza bilməz. Sözləri də çox gözəldir.*

*Mən Azərbaycanla İran arasında mədəni əlaqələri qurmağa sizdən əvvəl, Naxçıvanda başlamışam. Yəni demək istəyirəm ki, bir mahnı dünyanı bir-birinə birləşdirir. Ona görə mədəniyyətin imkanları böyükdür. Hesab edirəm, sizin bu səfərinizin böyük əhəmiyyəti var, protokol da imzalamısınız. İnanıram ki, bundan sonra tədbirlər həyata keçirəcəksiniz.*

*Məsələn, fikirləşin, bəlkə bizim simfonik orkestr 2-3 gün Tehranda konsert versin. Sizi inandırıram, orada böyük hadisə olar. Bəlkə orada simfonik musiqini hamı o qədər sevməsin, amma sevənlər də çoxdur. Avropada təhsil almış adamlar var, səfirlər var. Çox böyük bir iş olacaqdır. Yaxud, «Hamlet» tamaşasını göstərmək olar. Çox gözəl tamaşadır.*

*Əhməd Məscid Camei prezident Heydər Əliyevin dörd saat böyük hövsələ və maraqla «Hamlet» tamaşasına baxmasının şahidi olduğunu söylədi və bunu çox yüksək qiymətləndirdi.*

*Sonra nazir dövlətimizin başçısına xatirə olaraq Məhəmməd Şəhriyarin xalça üzərində toxunmuş portretini təqdim etdi.*

*Prezident Heydər Əliyev hədiyyəyə görə təşəkkür edərək dedi ki, bu çox gözəl, əziz hədiyyədir. Birincisi, ona görə ki, Şəhriyarın portretidir. İkincisi də, çox yüksək səviyyədə yaradılmış əsərdir. İnsanın portretini xalçada toxumaq, bu cür təsvir etmək boya ilə işləməkdən çox-çox çətindir. Mən bunu bilirəm. Bu çox qiymətli hədiyyədir. Çox təşəkkür edirəm.*

## DÖVLƏT MÜKAFATI LAUREATLARI, XALQ ARTİSTLƏRİ FİDAN VƏ XURAMAN QASIMOVA BACILARI İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Prezident sarayı*

*12 dekabr 2002-ci il*

**H e y d ə r   Ə l i y e v**: Siz mənimlə belə görüşü arzulayırdınız. Amma mən sizinlə tez-tez görüşürəm. Elədir, yoxsa yox?!

**F i d a n   Q a s ı m o v a:** Cənab Prezident, Siz bizə böyük şərəf verdiniz. Biz Sizinlə fəxr edirik.

**X u r a m a n   Q a s ı m o v a:** Möhtərəm Prezident, biz düşünürük ki, bu da azdır. Sizi hər zaman görəndə sevinirik.

**H e y d ə r   Ə l i y e v:** Amma siz istəyirdiniz ki, xüsusi bir görüş olsun. Mən də sizi dəvət etmişəm. Çox məmnunam ki, vaxt tapmışam. İş onda deyil ki, mən istəmirəm. Əksinə, məndən olsa, sizi daha da tez-tez dəvət edərəm. Ancaq vaxt olmur. Allaha şükür ki, indi vaxt tapmışam. Mən sizə o gün söz verdim. Dedim, bu günlərdə qəbul edəcəyəm. Demək, vədimi yerinə yetirmişəm.

**X u r a m a n   Q a s ı m o v a:** Cənab Prezident, Siz hər zaman söz verirsiniz və yerinə yetirirsiniz. Ona görə biz əmin idik ki, vaxt tapacaqsınız. Çox sağ olun ki, vaxt tapdınız.

**H e y d ə r  Ə l i y e v:** Maşallah, çox yaxşısınız. Görünüşünüz çox yaxşıdır. Gözəlliyiniz də, təbiidir, bunu deməyə ehtiyac yoxdur. İşləriniz də gedir. Elədirmi?

**F i d a n  Q a s ı m o v a:** Bəli, elədir.

**H e y d ə r  Ə l i y e v:** Ancaq bilirəm ki, sizin bir probleminiz var. Sizin yaradıcılıq fəaliyyətinizin 25 illik yubileyidir. Görün vaxt necə gəlib keçir. 25 il...

**X u r a m a n  Q a s ı m o v a:** Cənab Prezident, yaradıcılığımızın 25 illiyini keçirəcəyik. Bunu Sizin və xalqımızın qarşısında, sadəcə, bir hesabat kimi edəcəyik ki, nəyə nail olmuşuq, nə etmişik. Siz bizim sənətimizə hər zaman böyük qiymət vermisiniz.

**H e y d ə r  Ə l i y e v:** Çox şeyə nail olmusunuz. Siz Azərbaycan incəsənətində, musiqisində, xüsusən opera sənətində, ümumiyyətlə, mədəniyyətdə çox böyük fəaliyyət göstərmisiniz. Birincisi, ona görə ki, sizin çox nadir, fitri istedadınız var. Özü də hər ikinizin. Bunu Allah hamıya vermir.

**F i d a n  Q a s ı m o v a:** Möhtərəm Prezident, Sizin elə gözəl hafizəniz var ki, yadınıza salmaq istəmirəm. Yadınızdadırmı, 1975-ci ildə Siz teatrda «Koroğlu» operasının tamaşasında idiniz. İkinci pərdədən sonra foyeyə çıxdınız. Mən də atam və anamla bir küncdə dayanmışdım.

Mən o vaxtlar 2-3 müsabiqənin laureatı idim. Valideynlərimlə durmuşdum. Siz məni görəndə yaxınlaşdınız, atamla, anamla salamlaşdınız. Məndən soruşdunuz ki, Fidan, bəs səni Nigar rolunda nə zaman görəcəyik. O Sizin xatirinizdədirmi?

**H e y d ə r  Ə l i y e v:** Lap yaxşı xatirimdədir.

**F i d a n  Q a s ı m o v a:** İnanın, mən o günü unutmuram. Sizdən gələn o güc, məsuliyyət bu günə qədər də məni ruhlandırır. Sizin sözləriniz məndə o qədər hissiyyatlar yaratdı ki,

çox tezliklə Nigarın partiyasını öyrəndim və onu oxudum. Deyirdim ki, kaş Bülbüllə oxuyaydım, onda daha da gözəl tamaşa ola bilərdi. Amma mənim tərəfdaşım Lütfiyar İmanov idi. O da gözəl oxuyurdu. Amma deyirdim ki, bəlkə Bülbüllə oxusaydım, Üzeyir Hacıbəyovun ruhu şad olardı.

Siz mənə böyük güc verdiniz. Mən ondan sonra, o məsuliyyəti hiss edəndən sonra dedim ki, Xuraman, sən də mənim kimi, özünə qarşı tələbkar ol və çətin sənət yolunu layiqincə davam et. Onu asta-asta ürəkləndirdim və dedim ki, sən oxumalısan. Çünki mənə rəhbərimiz belə göstəriş veribdir.

Ata-anamız dünyalarını tez dəyişdilər. Təəssüf ki, onlar bizim yaradıcılığımızın 25 illiyini görməyəcəklər. Amma Siz bizə atalıq etdiniz. Çox xoşbəxtik ki, Sizin zamanınızda ucaldıq. Məncə, bu ucalmaq son deyildir. Biz indi elə bir formadayıq ki, istəyirik Sizin zamanınızda ucalaq. Hər dəfə bizə uzaqdan baxırsınız, bax, bu bizə güc, ruh verir.

**H e y d ə r  Ə l i y e v:** Niyə uzaqdan, indi yaxından baxıram.

**F i d a n  Q a s ı m o v a:** Mən Sizinlə Azərbaycan dilində sərbəst danışıram.

**H e y d ə r  Ə l i y e v:** O vaxt belə danışa bilmirdin.

**F i d a n  Q a s ı m o v a:** Danışa bilirəm, amma məktəbi rus dilində oxumuşam. Xuraman məndən də gözəl danışır. Çünki Xuraman çox danışandır, çox gözəl də tələffüzü var. Həm rus dilində, həm də Azərbaycan dilində yaxşı danışır. Mən onsuz yaşaya bilmirəm. O da Sizsiz yaşaya bilmir.

**H e y d ə r  Ə l i y e v:** O da sənsiz yaşaya bilmir. Sənin xatırladığın o görüş mənim yadımdadır, indiki kimi gözümün qabağındadır. Anan da gözümün qabağındadır, atan da. Doğru deyirsən, o vaxt «Koroğlu» operasına gəlmişdim. Fasilə vaxtı mən çıxıb otaqda oturmadım. O vaxt Bakıda yaxşı bir adət var

idi, teatra gələnlər həm tamaşadan əvvəl, həm də fasilə zamanı foyedə gəzişirdilər. Mən də gəzirdim, yanımda da adamlar var idi. Özü də giriş qapısına yaxın dayanmışdınız.

**F i d a n  Q a s ı m o v a:** Bəli, tamamilə doğru deyirsiniz.

**H e y d ə r  Ə l i y e v:** Təbiidir ki, insanlar məni görəndə bir az həyəcanlanırlar. Rəhmətlik anan da, atan da çox həyəcanlandılar, salam verdilər. Mən yanaşdım, atanla da, ananla da danışdım. Səninlə də, indi sən dediyin həmin söhbəti apardım.

**F i d a n  Q a s ı m o v a:** Düzdür.

**H e y d ə r  Ə l i y e v:** Mən elə bilirdim, sən bunu unutmusan.

**F i d a n  Q a s ı m o v a:** Heç bir zaman unutmaram.

**H e y d ə r  Ə l i y e v:** Xatirimdədir, ondan sonra sən cəsarətləndin, «Koroğlu»da çox yaxşı çıxış etdin. Nigar partiyası da, başqa çıxışların da çox gözəldir. Sənin Moskvada, Sütunlu salondakı çıxışların mənim xatirimdədir. Mən Moskvada işləyərkən orada bir neçə dəfə Azərbaycanın iştirakı ilə tədbirlər olmuşdu. Mən o tədbirlərə gəlmişdim, konsertlərdə də olmuşdum. Konsertlərdən sonra sizin hamınızla görüşmüşdüm. Bunların hamısı yadımdadır. Sonra da Allahın, taleyin işi imiş ki, mən Azərbaycana rəhbərliyə ikinci dəfə gəldim. Bilirsiniz ki, gələndən də, doqquz ildir sizə himayədarlıq edirəm.

**X u r a m a n  Q a s ı m o v a:** Biz bunu heç vaxt unutmuruq. Çox xoşbəxtik ki, bizim bütün 25 illik yaradıcılıq fəaliyyətimiz məhz Sizin respublikamıza rəhbərlik etdiyiniz dövrdə keçibdir. Siz bunu çox gözəl bilirsiniz.

**H e y d ə r  Ə l i y e v:** Bəli, mənim dövrümdə keçibdir.

Səndən sonra Xuraman da səhnəyə gəldi, oxudu. Deyəsən, Afinada böyük bir mükafat aldı. Biz onu çox alqışladıq. O da yadımdadır.

**F i d a n Q a s ı m o v a:** Cənab Prezident, mən İtaliyada birinci yeri tutdum, Xuraman isə Yunanıstanda. Görün hansı ölkədə, yəni operanın, belkantonun vətənində birinci yeri tutdum. Xuraman xanım Yunanıstanda Mariyya Kalos müsabiqəsində Qran-pri aldı. Ondan sonra Moskvada Çaykovski adına müsabiqədə ikinci yerə çıxdı. Əslində, o ikinci yer birinci yer idi.

**X u r a m a n Q a s ı m o v a:** O vaxt orada Azərbaycanın vokal məktəbini göstərmək çox çətin idi.

**H e y d ə r Ə l i y e v:** Elədir, elədir. Birinci yer, ikinci yer, fərqi yoxdur.

**X u r a m a n Q a s ı m o v a:** Hər halda, əliboş qayıtmadıq.

**H e y d ə r Ə l i y e v:** İş onda deyil. İş ondadır ki, siz sənətinizi inkişaf etdirmisiniz. Səsinizdən istifadə etmisiniz, böyük müğənni, böyük artist, böyük sənət ustası olmusunuz. Əsas budur. Bilirsiniz, hər adam belə ola bilməz. Bunun üçün istedad, səs, başqa keyfiyyətlər lazımdır. Allah da bunu sizə veribdir.

O vaxt sizin atanızla, ananızla bir az danışdım. Sonra mənə dedilər, deyəsən, onlar da musiqi ilə məşğul olmuşdular.

**F i d a n Q a s ı m o v a:** Atamın səsi var idi.

**H e y d ə r Ə l i y e v:** Bəli, eşitmişdim.

**F i d a n Q a s ı m o v a:** Hətta Üzeyir bəy rektor olanda Niyazi atamın əlindən tutub onun yanına aparmışdı.

**H e y d ə r Ə l i y e v:** Onlar da sizin bu istedadınızı görüb, sizi qorumuşdular və sizə yaxşı yol göstərmişdilər. İndi Allaha şükür, siz böyük sənətkarsınız və Azərbaycanın incəsənətini sizsiz təsəvvür etmək mümkün deyildir. Sizin 25 illik yubileyinizlə əlaqədar nə məsələlər varsa, həll edəcəyik.

**X u r a m a n Q a s ı m o v a:** Möhtərəm Prezident, Siz hər şeyi nəzarət altında saxlayırsınız. Müstəqil bir respublikaya rəhbərlik edirsiniz. Bizim işlərimizlə də məşğul olmağa vaxt

ayırırsınız. Hər şey öz qaydasında gedir. Biz əminik, madam ki, Siz özünüz maraqlanırsınız, demək, hər şey öz yerində olacaqdır. Təki Siz gələsiniz, iştirak edəsiniz  və həmin günü böyük bir bayrama çevirəsiniz.

**H e y d ə r   Ə l i y e v:** Mütləq gələcəyəm. Buna heç şübhəniz olmasın. Çünki mən sizə söz vermişdim ki, yubileyiniz keçiriləcəkdir. Bir halda ki, mən söz vermişdim, dekabrın 20-də gəlib özüm iştirak edəcəyəm. Bir şey qalmayıbdır, bu gün ayın 12-dir. Gərək siz yaxşı hazırlaşasınız, yorulmayasınız.

**F i d a n   Q a s ı m o v a:** Cənab Prezident, bizə bu gün də güc verirsiniz.

# AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ «McDonalds» ŞİRKƏTİNƏ MƏXSUS «McDrayv» RESTORANININ AÇILIŞ MƏRASİMİNDƏ NİTQ

*13 dekabr 2002-ci il*

*Bakının Nərimanov rayonu ərazisində, metronun «Gənclik» stansiyasının yaxınlığında Amerika Birləşmiş Ştatlarının «McDonalds» şirkətinə məxsus «McDrayv» restoranının açılışı olmuşdur.*

*Mərasimə toplaşanlar Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevi hərarətli alqışlarla qarşıladılar. Prezident Heydər Əliyev onları səmimiyyətlə salamladı, sonra isə restoranın açılışını bildirən lenti kəsdi.*

*Respublikamızın rəhbərinə məlumat verildi ki, dünyanın 120-dən çox ölkəsində fəaliyyət göstərən «McDonalds» şirkətinin bu yeni xidmət müəssisəsinə 1 milyon dollara yaxın vəsait xərclənmişdir. Restoran binasında 120 nəfərlik, yay bağında isə 100 nəfərlik yer olacaqdır. Onun infrastrukturuna pulsuz uşaq meydançası da daxil ediləcəkdir. Cənubi Qafqazda açılan bu ilk xidmət müəssisəsində 100 nəfər işlə təmin olunacaqdır. Burada istehsalat prosesinə və hazır məhsulun keyfiyyətinə nəzarət üçün ən yeni elektron avadanlıq quraşdırılmışdır.*

*Sonra «McDrayv» restoranının rəsmi açılış mərasimi oldu.*

*Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev mərasimdə nitq soylədi.*

**H e y d ə r  Ə l i y e v:** Hörmətli cənab səfir!

Hörmətli xanımlar və cənablar!

Hörmətli qonaqlar!

Bu gün burada çox əlamətdar, gözəl bir hadisə baş verir. Bakı şəhərinin ən gözəl guşələrindən birində, ən gözəl meydanlarının birində Amerika Birləşmiş Ştatlarının «McDonalds» şirkətinin yeni restoranı açılır. Mən bu münasibətlə birinci növbədə «McDonalds» şirkətini, Amerika Birləşmiş Ştatlarının Azərbaycandakı səfirliyini və bu restoranın bütün işçilərini, buranı tikənləri, yaradanları və bu gün bunu istismara verənlərin hamısını ürəkdən təbrik edirəm.

«McDonalds» dünyada çox məşhur şirkətlərdən biridir. O, artıq Azərbaycanda da özünə yer tapıbdır. Burada üç il müddətində fəaliyyət göstərərək uğurlar qazanıbdır. Ona görə də fəaliyyətini genişləndirir. Amerika Birləşmiş Ştatlarının böyük «McDonalds» şirkətinin Azərbaycanda uğurlu fəaliyyət göstərməsi üçün şərait, imkan var. Bu da Azərbaycanda sərbəst iqtisadiyyatın, bazar iqtisadiyyatının nümunələrindən biridir.

Mən qeyd etdim, Bakının gözəl bir yerində, gözəl bir meydanında «McDonalds» özünə yer tapıbdır. Bu da təsadüfi deyil, çünki burada açılan restoranın əsas vəzifəsi avtomobillə gedən sərnişinlərə xidmət göstərməkdir. Güman edirəm ki, bu işlər yaxşı gedəcəkdir. Çünki buradan avtomobillə olduqca çox sərnişin gedir.

Mən burada özlərinə iş yeri almış Azərbaycan vətəndaşlarını, ümumiyyətlə, bütün vətəndaşları bu münasibətlə təbrik edirəm. Əgər «McDonalds»ın Azərbaycanda öz şəbəkəsini genişləndirmək niyyəti varsa, təbii ki, burada imkanlar yaradılacaqdır. Hər halda, indiyə qədər «McDonalds»ın Azərbay-

canla əməkdaşlığı uğurlu olubdur. Ona görə də burada indi yeni bir restoran açılır.

«McDonalds» şirkətinə uğurlar arzulayıram. Arzu edirəm ki, bu gün burada açdığımız restoran Azərbaycan vətəndaşlarına, Bakı sakinlərinə yüksək xidmət göstərsin. Sizi bir daha təbrik edirəm. Azərbaycan vətəndaşlarını, Bakı sakinlərini təbrik edirəm, hamınıza uğurlar arzulayıram. Hamınızı qarşıdan gələn Yeni il bayramı münasibətilə təbrik edirəm.

# HİNDİSTANIN BAKIDAKI FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ DİNKAR XULLAR İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*18 dekabr 2002-ci il*

*Azərbaycan prezidenti Heydər Əliyev səfiri səmimiyyətlə salamlayaraq dedi ki, mən sizin nə vaxt gəldiyinizi heç hiss etmədim, indi də gedirsiniz.*

*Amma mənə elə gəlir ki, sanki siz cəmi bir-iki ay bundan əvvəl Bakıya gəlmisiniz.*

*Cənab Dinkar Xullar vurğuladı ki, cənab Prezident, mən özüm də, həqiqətən, bu hissləri keçirirəm. Həmkarlarıma da eyni sözləri dedim. Üç ildir ki, buradayam, amma elə bil cəmi bircə gündür Azərbaycandayam.*

*Mən Azərbaycandakı işimdən, həqiqətən, çox razıyam. Burada olduğum müddətdə işimdən də, şəraitdən də həzz aldım. Azərbaycan hökumətinə də, Azərbaycan xalqına da minnətdarlığımı bildirmək istəyirəm. Mənim ailəm də burada çoxlu azərbaycanlı tanışlar, dostlar qazandı. Biz burada olduğumuz müddətdə öyrəndik və ölkənizin təcrübəsindən bəhrələndik. Hamımız Azərbaycandakı qonaqpərvərliyi, xoş münasibəti hər zaman hiss edirdik.*

*Cənab Prezident, hər şeydən öncə isə Sizə minnətdarlığımı bildirmək istəyirəm ki, burada olduğumuz müddətdə bizə, səfirliyimizə yaxşı işləmək üçün şərait yaratmısınız.*

*Prezident Heydər Əliyev xoş sözlərə görə diplomata təşəkkür edərək dedi ki, Hindistan böyük ölkədir və Azərbaycan müstəqil dövlət olaraq onunla daha sıx əlaqələr yaratmaq istəyir. Biz bu barədə öz səylərimizi göstəririk. Azərbaycanda qədimdən Hindistana həmişə böyük maraq olmuşdur. Bilirsiniz ki, vaxtilə Azərbaycan səyyahları Hindistanda, ölkənizin səyyahları isə Azərbaycanda olmuşlar. Əgər bizim dövrümüzü, XX əsri götürsək, Hindistan Böyük Britaniyanın müstəmləkə sistemindən ayrılandan, müstəqillik əldə edəndən sonra keçmiş Sovet İttifaqında, o cümlədən Azərbaycanda da Hindistana çox böyük maraq və hörmət vardı. O vaxt biz müstəqil deyildik, Sovet İttifaqının tərkibində idik. Ancaq Sovet İttifaqı, onun hökuməti Hindistanla əlaqələrə Azərbaycanı, Orta Asiya ölkələrini daha çox cəlb etməyə çalışırdı.*

*Mərhum Cəvahirləl Nehru da SSRİ-yə gələndə Azərbaycanı ziyarət etmişdi. Hindistan parlamentinin sədri də ölkəmizə gəlmişdi. Sonralar Baş nazir Desai SSRİ-yə gələndə Azərbaycanı ziyarət etmişdi. Mən Moskvada işləyəndə Raciv Qandi ilə də münasibətlərim olmuşdur. O vaxt mən Hindistanla əlaqədar bəzi məsələlərlə məşğul olurdum.*

*Bizim böyük müğənnimiz Rəşid Behbudov Hindistanda çox məşhur idi. Burada isə Rac Kapurun filmləri ən sevimli filmlər idi. Rac Kapurun özü də Azərbaycanı ziyarət etmişdi. Bununla demək istəyirəm ki, bizim xalqda Hindistana, hind xalqına çox yaxşı münasibət var. Yəqin ki, bunu siz burada hiss etdiniz. İndi biz gərək dövlətlərarası münasibətlərimizi də daha yüksək səviyyəyə qaldıraq. Siz burada bu barədə müəyyən səylər göstər-*

*misiniz. Ona görə də Hindistan–Azərbaycan əlaqələrinin inkişafındakı xidmətlərinizə görə sizə təşəkkür edirəm. Güman edirəm ki, bizim bu siyasətimiz bundan sonra da davam edəcək, sizin tərəfinizdən də lazımi addımların atıldığını görəcəyik.*

*Səfir Dinkar Xullar dedi ki, mən Azərbaycanda ölkəmizin daimi nümayəndəliyini açan ilk şəxs olmuşam. Burada olduğum üç il müddətində çalışmışam ki, əməkdaşlığımızı daha da genişləndirim. Bütün bu işlərlə məşğul olarkən mən hökumətinizin dəstəyini hiss etmişəm. Keçmiş əlaqələrdən də istifadə etməyə səy göstərirdim. Çalışacağam ki, Hindistan Bakıdakı «Atəşgah» kompleksində bir monument ucaltsın. Azərbaycanın Mədəniyyət naziri ilə bu barədə söhbətlərimiz davam edir.*

*Diplomat bildirdi ki, əlaqələrimizi genişləndirmək üçün doğrudan da möhkəm bünövrə vardır. Hindistan hökuməti əlindən gələni edəcəkdir ki, münasibətlərimiz daha da yaxşılaşsın. Bundan sonrakı işimdə həmişə çalışacağam ki, Azərbaycanla münasibətlərə aid olan məsələlərdə fəallıq göstərim. Bakıda işləmiş digər səfirlər kimi, mən də Azərbaycanı heç zaman unutmayacağam. Cənab Prezident, icazə verin, bu imkandan istifadə edərək Sizə bütün sahələrdə uğur, cansağlığı və xoşbəxtlik arzu edim.*

*Azərbaycan prezidenti Heydər Əliyev diplomata gələcək işlərində uğurlar, ona və ailəsinə cansağlığı, səadət dilədi.*

# AZƏRBAYCANIN ENERJİ TƏCHİZATI PROBLEMLƏRİNƏ HƏSR OLUNMUŞ GENİŞ MÜŞAVİRƏDƏ GİRİŞ NİTQİ

*Prezident sarayı*

*19 dekabr 2002-ci il*

**H e y d ə r Ə l i y e v:** Son günlər Azərbaycanda qış, həqiqətən, öz qışlığını göstərir. Biz belə uzunmüddətli soyuq havalara alışmamışıq. Amma eyni zamanda, bu il verilən proqnozlar artıq onu göstərir ki, qış soyuq keçəcəkdir. Biz bunu indidən görürük. Neçə gündür havalar soyuyub?

**A r t u r R a s i z a d ə** (*Baş nazir)*: Cənab Prezident, dekabr ayının birindən.

**H e y d ə r Ə l i y e v:** Demək, hava bizim yaşayışımız baxımından soyuyub, əslində isə o qədər də soyumayıbdır. Çünki gərək həmişə qış qış olsun, yay yay olsun, yaz da yaz olsun. Təəssüf ki, bəzən Azərbaycanda qış lazımi qədər qar, yağış gətirmir. Bu da, ümumiyyətlə, bizim kənd təsərrüfatına, onun inkişafına zərər vurur.

İndiki halı o qədər də pis qiymətləndirmək olmaz. Ancaq eyni zamanda, bizim bu şəraitə öyrənişli olmamağımız, xüsusən, Bakıda müəyyən çətinliklər, problemlər yaradıbdır.

Məsələn, mənim xatirimdə deyil – hər halda, mən 60 illik dövr haqqında danışa bilərəm – uzun illər Bakıda belə qar, belə soyuq görməmişdim. Ancaq statistiklərin məlumatına görə,

Bakıda belə qış, belə soyuq hava 100 il bundan öncə olubdur. Eybi yoxdur, indi bu bizim də qismətimizə düşübdür. Bu da pis deyil, ona görə bundan şikayətlənmək olmaz. Amma eyni zamanda, mən qeyd etdim ki, bu, müəyyən problemlər yaratdı. Çünki, adətən, bizim təşkilatların qışa hazırlıq proqramları müəyyən bir çərçivəni əhatə edir. Baxmayaraq ki, ötən illərdə biz heç vaxt görməmişdik ki, bizim təşkilatların hamısı qışa hazırlıqlı gəlmiş olsunlar.

İndi isə belə bir vəziyyətə hazırlığı olmayan həm Bakı, həm də, ümumiyyətlə, respublika çətinliklər keçirir. Ancaq məlumdur ki, ötən illərə, o cümlədən keçən ilə nisbətən əhalini istiliklə təmin etmək üçün imkanlarımız daha çoxdur. Həm elektrik enerjisi, həm də qaz daha çoxdur. Amma buna baxmayaraq, görünür ki, bəzi yerlərdə işin yaxşı təşkil olunmaması nəticəsində, bəzi hallarda da energetika qurğularımızın belə ağır şəraitə tab gətirə bilməməsi nəticəsində, bir çox hallarda isə buraxılan səhvlər, yol verilən nöqsanlar, səhlənkarlıq nəticəsində problemlər yaranır.

Mən vəziyyətlə hər gün maraqlanıram. Mənə deyirlər ki, çətinliklər var, amma vəziyyət normaldır. Ancaq mən dünən axşam ANS televiziya kanalına baxırdım. Yəqin görmüsünüz, orada bir neçə kadr göstərdilər. Birincisi,  qaçqınların yaşadığı yerdə elektrik enerjisi olmadığına görə – Əli Həsənovu görmürəm, buradadır – onlar gəlib haradasa küçəni kəsmişdilər. Amma Əli Həsənovla mən vaxtaşırı danışıram. O deyir ki, hər şey qaydasındadır, hər şey yerindədir. Təbiidir ki, bu məsələlər barədə Baş nazirlə gündə bir neçə dəfə danışıram. O da çalışır ki, mənə vəziyyəti, ümumiyyətlə, müsbət xarakterizə etsin. Qaçqınlardan savayı, dünən televiziyada göstərilən Bakının

hansı rayonları idi, yığışmışdılar, çox şikayət edirdilər ki, uzun müddətdir elektrik enerjisi yoxdur, yaşaya bilmirik.

**Hacıbala Abutalıbov** (*Bakı Şəhəri İcra Hakimiyyətinin başçısı*): Cənab Prezident, Səbail rayonunun 20-ci yaşayış sahəsində, əsasən, qazdan şikayət edirdilər.

**Heydər Əliyev:** Biri ora idi. Deyəsən, başqa yerdən də kadr göstərdilər.

**Hacıbala Abutalıbov:** Bəli, orada da qaçqınlar yalnız işığın olmamasından narazılıq ediblər. 20-ci sahədə isə qəza olub, indi «Azəriqaz» Səhmdar Cəmiyyəti ilə birlikdə işləyirik.

**Heydər Əliyev:** İş də bundadır ki, belə vəziyyətdə, nədənsə, tez qəza olur. Mən nədənsə deyəndə, müəyyən qədər anlayıram ki, ekstremal vəziyyətdə ola bilər, bizim müəyyən borularımız, qurğularımız, elektrik xətlərimiz dözmürlər. Bu ola bilər. Amma təkcə bununla əlaqədar deyildir. Bir də deyirəm, hazırlığın lazımi səviyyədə olmaması ilə əlaqədardır, buraxılan səhvlərlə əlaqədardır. İndi mən bilmirəm, burada kimi günahlandırım. Günahlandırmağa gələndə, hamını günahlandırmaq lazımdır. Çünki bu işlərlə, demək olar ki, hamı məşğul olur və xüsusi məşğul olanlar var. Bu işlə birinci növbədə bizim Nazirlər Kabineti məşğul olur, müvafiq nazirliklər, təşkilatlar məşğul olurlar. Bakı şəhəri üzrə, təbiidir ki, bunlarla yanaşı, Bakı Şəhəri İcra Hakimiyyəti, hər rayonun icra hakimiyyətinin başçıları məşğul olurlar. Ona görə də burada məsuliyyət çoxlarının üzərinə düşür. Çoxlarının üzərinə düşəndə də, belə anlama var ki, o da günahkardır, mən də günahkaram. Neyləyək, vəziyyət belədir. Bu, düzgün deyildir. Biz konkret günahkarları da bilirik və onların da haqqında lazımi ölçü götürə bilərik.

Soyuq hava bundan sonra davam edəcək. Amma nə vaxta kimi davam edəcəkdir?

**A r t u r  R a s i z a d ə:** Proqnozlara görə, dekabr ayının 21-nə qədər davam edəcəkdir.

**H e y d ə r  Ə l i y e v:** Ondan sonra mülayimləşəcək?

**A r t u r  R a s i z a d ə:** Hələlik dəqiq məlumat yoxdur, amma, ümumiyyətlə, Siz dediyiniz kimi, bu qış soyuq keçəcək, qarlı, küləkli olacaqdır. Təkcə bizdə yox, ümumiyyətlə, hər yerdə belədir.

**H e y d ə r  Ə l i y e v:** Sən bununla nə demək istəyirsən?

**A r t u r  R a s i z a d ə:** Bu, təbiətin işidir.

**H e y d ə r  Ə l i y e v:** İş bundadır ki, biz Azərbaycanda gərək təbiətdən razı olaq. Son iki-üç ildə dünyanın müxtəlif yerlərində o qədər fövqəladə hallar olur, nə bilim, böyük-böyük şəhərləri su basır, qar yağır, qarın altında qalırlar, qasırğa, külək şəhərləri, yaşayış məntəqələrini vurub dağıdır, başqa şeylər. Bunları televiziya ilə dünyanın müxtəlif regionlarında görürük. Biz gərək Allahımıza şükür edək ki, indiyə qədər belə şeylərlə rastlaşmamışıq. İndi isə bizim vəziyyətimiz mürəkkəbləşəndə özümüzə təskinlik verək ki, bu, təkcə bizdə deyil, hər yerdə belədir? Hərənin öz işi, öz məsuliyyəti var.

Bax, buna görə də nəzərə alaraq ki, havaların belə soyuq keçməsi davam edəcək – ola bilər, bir az mülayimləşsin, yaxud ola bilər, bir az da kəskinləşsin – heç kəs arxayınlaşmasın ki, ayın 21-dək belə olacaq, birtəhər onu-bunu edim, ayın 21-i ötsün, sonra hava mənim üzümə güləcək. Belə fikirləşmək düzgün olmazdı. Bax, bunları nəzərə alaraq mən tapşırmışdım, Baş nazir srağagün müşavirə keçirdi. Onlar iki saatdan artıq müzakirə apardılar. Amma mən belə başa düşdüm ki, orada əsas Bakının

problemləri, qazanxanaların işi ilə məşğul olmusunuz. Mən tapşırmışdım ki, hər halda, lazımi tədbirlər görülsün.

İndi mən bu gün sizi dəvət etmişəm ki, birincisi, vəziyyəti təhlil edək, ikincisi, baxaq, hansı tədbirləri görmək lazımdır. Burada bir neçə adam məlumat verməlidir. Birinci növbədə, «Azərenerji»nin prezidenti Etibar Pirverdiyev, «Azəriqaz»ın prezidenti Əlixan Məlikov, sonra Dövlət Neft Şirkətinin prezidenti Natiq Əliyev məlumat verməlidirlər.

* * *

**E t i b a r  P i r v e r d i y e v:** Möhtərəm cənab Prezident!

Energetika sahəsinə Sizin göstərdiyiniz daimi diqqət və qayğı sayəsində Azərbaycan öz müstəqil energetika sistemini yaratmağa nail olmuşdur. Son illər energetika sahəsində həyata keçirilmiş bir neçə layihə haqqında qısaca olaraq məlumat vermək istəyirəm.

2000–2001-ci illərdə 1 nömrəli Bakı istilik elektrik mərkəzində hər birinin gücü 53 meqavat olan iki qaz-turbin qurğusu işə salınmışdır.

2000-ci ildə Yenikənd SES-də hər birinin gücü 37,5 meqavat olan 3 hidroturbin işə salınmışdır. Hazırda orada bu cür daha bir qurğu quraşdırılır. Bu qurğu işə salındıqdan sonra stansiyanın ümumi gücü 150 meqavat olacaqdır.

2002-ci ilin dekabr ayında «Şimal» DRES-də MDB məkanında oxşarı olmayan 400 meqavatlıq buxar-qaz qurğusu tikilib istifadəyə verilmişdir. Bu qurğunun tikintisi 1998-ci ilin fevral ayında Yaponiyaya səfəriniz zamanı bu ölkənin dövlət və hökumət başçıları ilə apardığınız uğurlu danışıqlar nəticəsində mümkün olmuşdur.

Bu layihələrin həyata keçirilməsi Sizin uğurlu daxili və xarici siyasətiniz sayəsində respublikamızda yaranmış siyasi və iqtisadi sabitliyin nəticəsində mümkün olmuşdur.

Hazırda Azərbaycanın enerji sistemində 6 istilik və 5 su elektrik stansiyası fəaliyyət göstərir. Onların ümumi istehsal gücü 5 min meqavat, o cümlədən istilik elektrik stansiyaları üzrə 4 min meqavat, su elektrik stansiyaları üzrə isə 1000 meqavat təşkil edir.

Möhtərəm Prezident!

Sizin rəhbərliyiniz altında energetika sahəsində aparılan məqsədyönlü siyasət nəticəsində Azərbaycan özünü elektrik enerjisi ilə tam şəkildə təmin etməyə qadirdir.

Müqayisə üçün bildirmək istəyirəm ki, qonşu Gürcüstan və Ermənistan birlikdə elektrik enerjisi üzrə 1700 meqavatdan az istehsal gücünə malik olduğu halda, Azərbaycanda bu sahənin faktiki istehsal gücü 4 min meqavatdan artıqdır.

İran İslam Respublikasına Sizin son səfəriniz zamanı iki ölkə arasında energetika sahəsində bir neçə mühüm razılıq, o cümlədən Astara–Astara xəttinin, İmişli–Parsabad xəttinin ikinci növbəsinin tikintisi, Naxçıvan Muxtar Respublikasına verilən elektrik enerjisinin həcminin artırılması haqqında razılıq əldə edilmişdi. «Azərenerji» Səhmdar Cəmiyyəti Sizin yüksək səviyyədə əldə etdiyiniz bu razılıqları həyata keçirərək, son aylarda Naxçıvan Muxtar Respublikasına ötürülən elektrik enerjisinin həcmini 30 meqavat artırmışdır.

Astara–Astara xəttinin tikintisinə yaxın günlərdə başlanacaqdır. 2003-cü ilin mart ayında bu xəttin istifadəyə verilməsi planlaşdırılır. Xəttin istismara verilməsi respublikanın cənub rayonlarını etibarlı elektrik enerjisi ilə təmin etməyə imkan verəcəkdir.

İmişli–Parsabad xəttinin tikintisinə 2003-cü ildə başlamaq haqqında niyyət protokolu imzalanmışdır. Bu xəttin tikintisi 2004-cü ildə başa çatdırılmalıdır.

Möhtərəm Prezident!

Cari ilin avqust ayında Azərbaycan energetikləri Sizin bu sahəyə qayğınızı bir daha hiss etdilər. Sizin göstərişinizlə energetika sistemində təmir-bərpa işləri aparmaq üçün vəsait ayrıldı. Bunun nəticəsində ölkənin energetika sistemində 600 meqavatlıqdan çox, o cümlədən təkcə «Azərbaycan» DRES-də 400 meqavatlıq güc qurğuları bərpa olunmuşdur. Bunun nəticəsidir ki, enerji sistemi sərt qış şəraitində artan tələbatı ödəyir.

2002-ci ilin 11 ayında respublikanın energetika kompleksində 17,66 milyard kilovat/saat elektrik enerjisi istehsal olunub istehlaka verilmişdir. Bu isə keçən ilin müvafiq dövründəkinə nisbətən 11 faiz çoxdur. Bu il dekabr ayının 15 günündə 20 faizə qədər artım olmuşdur.

Möhtərəm Prezident!

Hazırda 4 min meqavat istehsal gücünə malik olan «Azərenerji» respublikamızın istehlakçılarını elektrik enerjisi ilə tam şəkildə təmin etmək iqtidarındadır. Bununla yanaşı, energetika sahəsində yaxın gələcəkdə həll olunacaq bir necə problem də mövcuddur. Bunlar, birinci növbədə, bizim yüksək gərginlikli xətlər və yarımstansiyalara aiddir. Bu sahələr üzrə bir neçə mühüm layihə həyata keçirilərsə, həmin problemlər həll olunacaqdır. Mövcud xətlərin və yarımstansiyaların bəzilərinin hazırkı vəziyyəti müasir tələblərə cavab vermir. Məsələn, hazırda «Azərbaycan» DRES-də 2 min meqavatdan artıq enerji istehsal etmək imkanımız vardır. Ancaq bu gün mövcud xətlərimiz və yarımstansiyalarımız bu qədər enerjini ötürməyə

imkan vermir. Yəni biz cəmisi 1800 meqavatdan bir qədər artıq enerjini istehlakçılarımıza çatdırmaq iqtidarındayıq.

Bizim enerji sisteminin əsas problemlərindən biri də dispetçer sisteminin müasir tələblər səviyyəsində olmamasıdır. Ötən əsrin 70-ci illərində Azərbaycanda Sizin rəhbərliyiniz altında o zaman üçün ən müasir dispetçer mərkəzi yaradılmışdı. Lakin hazırda bu dispetçer mərkəzi müasir tələblərə cavab vermir. Sizin göstərişinizə əsasən «Azərenerji» Səhmdar Cəmiyyəti artıq xarici maliyyə təsisatları ilə danışıqlar aparır və Almaniyanın «KFW» Bankı ilə əldə olunmuş razılığa əsasən 2003-cü ildə yeni dispetçer mərkəzinin yaradılmasına başlayacağıq.

Cənab Prezident!

Dekabr ayında hava şəraitinin kəskin şəkildə dəyişməsi respublikamızın elektrik enerjisinə tələbatında müəyyən problemlər yaratmışdır. Buna baxmayaraq, biz energetiklər əlimizdən gələn hər şeyi edirik ki, bu problemlər vaxtında və qısa müddətdə aradan qaldırılsın.

Yüksək gərginlikli elektrik xətlərində enerjinin ötürülməsində açılmalar və qəzalar keçən ilin müvafiq dövrü ilə müqayisədə artmamışdır. Düzdür, paylayıcı elektrik şəbəkələrində müvafiq dövrə nisbətən açılmalar nisbətən çox olmuşdur. Bu, yarımstansiyaların, birinci növbədə, paylayıcı şəbəkələrdəki xətlərin ifrat dərəcədə yüklənməsi ilə bağlıdır.

2003–2004-cü illərdə energetika sahəsində nəzərdə tutulan bir neçə mühüm perspektiv layihə haqqında məlumat vermək istəyirəm. «Şimal» DRES-də 400 meqavatlıq ikinci buxar-qaz qurğusunun tikintisinə hazırda kredit ayrılması istiqamətində Yaponiya İnkişaf Bankı ilə danışıqlar aparılır.

1 nömrəli Sumqayit istilik-elektrik mərkəzinin ərazisində gücü 400–450 meqavat olan buxar-qaz tipli qurğunun tikintisi

layihəsi üzrə Almaniyanın «Alstom» və «Siemens», Avstriyanın «VATEX», Türkiyənin «ENKA» şirkətləri ilə danışıqlar aparılmaqdadır.

**H e y d ə r Ə l i y e v:** Danişiqlar aparılır, onun vəsaiti haradan əldə olunacaqdır? Yaponiya aydındır, onun hökuməti kredit ayırmaq niyyətindədir. İndi görək ayıracaqdır, yoxsa yox?

**A r t u r R a s i z a d ə:** Cənab Prezident, buna ümid vardır, əsaslı ümid vardır.

**H e y d ə r Ə l i y e v:** Amma o birisi, sən dediyin vəsaiti haradan alacaqdır?

**E t i b a r P i r v e r d i y e v:** Maliyyə təsisatları ilə danışıqlar aparılmalıdır. Vəsaitin mənbəyi hələ məlum deyildir.

**H e y d ə r Ə l i y e v:** Gərək bunu aydınlaşdırasınız. Əvvəlcə vəsaitin mənbəyi aydınlaşdırılmalıdır, ondan sonra... Təbiidir, eyni zamanda onu da, bunu da etmək olar. Ancaq vəsaitin mənbəyi əldə edilməsə, o danışıqların heç birinin əhəmiyyəti yoxdur. Ola bilər, o şirkətlər, hansıların ki, siz adlarını çəkirsiniz, onların özləri də bu işi aparmağa maraqlıdırlar. Ola bilər ki, onlar da bu vəsait mənbələrinin axtarılıb tapılmasına kömək etsinlər, bizimlə bir yerdə olsunlar. Amma bu iş kompleks şəkildə olmalıdır.

**E t i b a r P i r v e r d i y e v:** «Azərbaycan» DRES-də 1 və 8-ci blokların yenidən qurulması... Bu layihənin maliyyələşdirilməsində Avropa Yenidənqurma və İnkişaf Bankı ilə ilkin razılıqlar əldə edilmişdir.

Almaniyanın «KFW» bankı tərəfindən 15 milyon dollar məbləğində kreditin ayrılması 12 sistemtəşkiledici yarımstansiyada gücləndirmə işlərinin aparılmasına imkan verəcəkdir. Bu kredit hesabına milli dispetçer sisteminin yaradılmasının birinci mərhələsinin həyata keçirilməsi də nəzərdə tutulmuşdur.

**H e y d ə r  Ə l i y e v:** Kredit nə vaxt ayrılacaqdır?

**E t i b a r  P i r v e r d i y ev:** Belə düşünürük ki, 2003-cü ilin mart ayına qədər ayrılacaqdır.

**A r t u r  R a s i z a d ə:** Bu, faktiki olaraq həll edilibdir. Bu bizə təzə elektrik xətlərinin, yarımstansiyaların tikintisində böyük kömək olacaqdır. Onun icrasına gələn ildən başlanılmalıdır.

**E t i b a r  P i r v e r d i y e v:** Cənab Prezident, Sizi və müşavirə iştirakçılarını Azərbaycan energetikləri adından əmin etmək istəyirəm ki, «Azərenerji» Səhmdar Cəmiyyəti payız–qış mövsümünə zəruri hazırlıq tədbirlərini lazımi səviyyədə görmüşdür. Havaların kəskin surətdə dəyişməsinin energetiklər qarşısında müəyyən problemlər yaratmasına baxmayaraq, biz əminik ki, bu çətinliklərin öhdəsindən vaxtında gələcəyik. Eyni zamanda energetika sisteminin inkişafı üçün bizim qısa və uzunmüddətli proqramlarımız vardır. Əminik ki, bu proqrama daxil olan layihələr, bilavasitə Sizin rəhbərliyiniz altında yaxın gələcəkdə uğurla həyata keçiriləcəkdir.

**H e y d ə r  Ə l i y e v:** «Azərenerji»də, oradakı o bərbad vəziyyət ki vardı, hansına ki, biz, təəssüflər olsun, xeyli müddət dözdük. Səni oraya təyin edəndə belə fikir vardı ki, sən onların hamısını orada qaydaya salacaqsan. Orada indi apardığın işlər, hesab edirsən ki, bizim sənin qarşında qoyduğumuz vəzifələri təmin edib, yoxsa yox?

**E t i b a r  P i r v e r d i y e v:** Cənab Prezident, biz o problemlərin, demək olar ki, 80–90 faizinin öhdəsindən gəlmişik. Yəni, böyük struktur dəyişiklikləri, islahatlar aparılmış, maliyyə sahəsində müəyyən islahatlar həyata keçirilmişdir. Bu bizə imkan verəcəkdir ki, cari ilin payız–qış aylarının belə sərt keçməsinə baxmayaraq, mövsümdən ölkəmizi lazımi səviyyədə

çıxaraq, respublikanın istehlakçılarını enerji ilə tələb olunan qaydada təmin edək.

**H e y d ə r  Ə l i y e v:** Baxmaq lazımdır, bəlkə əvvəl Yaqub Eyyubov baxsın, oturub təhlil edin, o vaxtdan bu yana oradakı vəziyyətin kökündən dəyişdirilməsi üçün və təbiidir ki, nöqsanların aradan qaldırılması, çox çirkin işlərin aradan qaldırılması və sair barədə görülən işlər qaneedicidirmi, yoxsa yox? Sən bəlkə oturub hesabat yazasan, siz orada oturub bir təhlil edin, müzakirə edin. Lazım gəlsə, lap Baş nazir bu işlə məşğul olsun, sonra mənə deyin. Yoxsa ki, elə biz o vaxt bunun qarşısında vəzifəni qoyduq. İndi bu da deyir ki, onu etmişəm, bunu etmişəm. Amma nə edib, nə etməyib siz yaxşı bilirsiniz. Ancaq tamam hər şey edilibmi, yoxsa yox?

**Y a q u b  E y y u b o v:** Cənab Prezident, aydındır. Sizin tapşırığınızla biz bu məsələ ilə məşğul olmuşuq. Biz Sizə rəsmi qaydada məruzə edəcəyik.

**H e y d ə r  Ə l i y e v:** Mən bir də sənə tapşırıram. Bəli, məruzə hazırlayın, mənə rəsmi qaydada yazılı məlumat verin. Nə işlər görülüb, müsbət dəyişikliklər nədən ibarətdir və nə işlər görülməlidir?

**Y a q u b  E y y u b o v:** Baş üstə, bu yaxınlarda Sizə məruzə edəcəyik.

**H e y d ə r  Ə l i y e v:** Çünki bu təşkilat, bu sistem, indi görürsünüz, Azərbaycanın həyatının normal fəaliyyət göstərməsi üçün əsas təşkilatdır. Elektrik enerjisiz heç nə mümkün deyildir. Məşğul olun.

Yaxşi, sən deyirsən bu il, demək, keçən ildən artıq elektrik enerjisi istehsal edirik. Bizim elektrik stansiyalarının sayı da, onların gücü də artıbdır. Bəs onda niyə hər yeri elektrik enerjisi ilə lazımi qədər təmin edə bilmirik. Sən dedin ki, Azərbaycanda

bütün elektrik stansiyalarının 5 min meqavat gücü var. Elədirmi? 5 min meqavatdan istifadə olunmur, dediyinə görə, 4 min meqavatdan istifadə etmək olar. Elədirmi?

**E t i b a r   P i r v e r d i y e v:** Bəli, cənab Prezident.

**H e y d ə r   Ə l i y e v:** İndi sənin yazılı arayışından mən oxudum ki, bu il bu şaxtalı günlərdə siz 3820 meqavata qədər elektrik enerjisi istehsal etmisiniz. Amma bu 3820 meqavat elektrik enerjisini istehsal edib onu istehlakçılara çatdırmısınız, yoxsa yox? Bu rəqəmlər sizdə var? Yoxsa, siz həmişə deyirsiniz, bizim stansiyaların gücü bundan ibarətdir, biz bu qədər elektrik enerjisi istehsal edirik. Amma istehsal etdiyiniz o elektrik enerjisinin nə qədəri gedib istehlakçıya çatır? İtkiləriniz nədən ibarətdir? Onu çox az yada salırsınız. Bu itkilər nə üçündür? Siz də bilirsiniz, mən də bilirəm ki, əgər bu itkilər olmasaydı, bəlkə də indi o elektrik enerjisi gücləri ki, sizdə var, onunla Azərbaycanın tələbatını tamamilə təmin edə bilərdiniz. Düzdür, yoxsa yox?

**A r t u r   R a s i z a d ə:** Cənab Prezident, düzdür. Amma indiki vəziyyətdə, baxmayaraq ki, bu itkilər hələ bizdə çoxdur, bu da ayrı bir məsələdir, gərək onunla ciddi məşğul olaq. Bunu da etməyə başlayıblar. Son məlumatlara görə, 20 faiz elektrik enerjisi itkisi var. Sovetlər İttifaqı dövründə enerji itkisi 8 faizdən 9 faizə qalxanda aləm dağılırdı. Siz bunu yaxşı bilirsiniz.

**H e y d ə r   Ə l i y e v:** Bəli.

**A r t u r   R a s i z a d ə:** İndi itkini 20 faizə endirmişlər. Elədirmi?

**E t i b a r   P i r v e r d i y e v:** Bəli, elədir. 20 faizə qədər itkilərimiz vardır.

**H e y d ə r   Ə l i y e v:** Sovetlər vaxtında isə...

**A r t u r R a s i z a d ə:** 8, 9, maksimum 12 faiz idi. Cənab Prezident, Siz çox vacib məsələyə toxundunuz. O xətlər ki, tikiləcək, o paylayıcı şəbəkələr lazımi səviyyəyə qalxandan sonra o itkilər də aşağı düşəcəkdir. Amma indi istehsal olunan elektrik enerjisi, sözsüz ki, əhaliyə, sənayeyə və başqa sahələrə çatdırılır. Çünki enerji elə şeydir ki, onu nə gizlətmək, nə də başqa bir şey etmək olar.

**H e y d ə r Ə l i y e v:** Bizə çatdırırlar ki, məsələn, çox yerlərdə şikayət var ki, elektrik enerjisi almırlar. Rayonların bəzilərinə enerjini fasilələrlə verirsiniz. Nə bilim, axşam verirsiniz, gecə vermirsiniz. Bunun nəyi yaxşıdır?

**A r t u r R a s i z a d ə:** Cənab Prezident, xətlərin yüklənməsi artanda şəhərarası transformatorlarda gərginlik çoxalır və onlar dözmürlər.

**H e y d ə r Ə l i y e v:** Dayan, mən ondan soruşmaq istəyirdim, amma sən araya girdin, hamısına sən cavab verirsən.

**A r t u r R a s i z a d ə:** Siz məni qaldırdınız...

**H e y d ə r Ə l i y e v:** Yox, mən səndən sadəcə öyrənmək istədim, görüm sən nə fikirdəsən. Sən onun əvəzinə cavab verirsənsə, ver. Eybi yoxdur, onu səndən soruşacağam. Yəni, o transformatorlar o qədər artan gücü ötürə bilmir, gərək bizim elə transformatorlarımız olsun ki, elektrik enerjisinə tələbat artan vaxtlarda onlar bunu təmin edə bilsinlər. Düzdür, yoxsa yox?

**A r t u r R a s i z a d ə:** Tamamilə düzdür.

**H e y d ə r Ə l i y e v:** Amma bu yoxdur.

**A r t u r R a s i z a d ə:** Siz sadaladığınız səbəblərə görə yoxdur. Bir tərəfdən, imkan daxilində tədbirlər görülmür, amma o biri tərəfdən, bu, ekstremal yüklərdir, bu da vaxt və çox böyük əsaslı vəsait qoyuluşu tələb edir.

**H e y d ə r  Ə l i y e v:** Amma üçüncü tərəfdən, bizim, adətən, bu tikinti aparanlar, quraşdırıcılar heç vaxt ekstremal vəziyyəti nəzərə almırlar. Əksinə, onlar o layihədə olandan da bir az qırtırlar, kəsirlər, öz ciblərinin xeyrinə. Ona görə də layihədə olan imkan da reallıqda olmur.

**A r t u r  R a s i z a d ə:** Belə hallar da var.

**H e y d ə r  Ə l i y e v:** Belə hallar çoxdur.

**A r t u r  R a s i z a d ə:** Yeni inşa edilən binalar da bir problemdir. O dəfə bu məsələ mənim yanımda qaldırıldı. Allaha şükür, yaxşı haldır ki, təzə, hündür binalar inşa edilir. Göz dəyməsin. Bunu başqa yerlərlə müqayisə etmək olmaz. Amma eyni zamanda, yenə də həmin mövcud qurğulardan bu binalar enerji ilə təmin olunur. Texniki şərtlər hazırlanarkən gərək bu məsələlər də nəzərə alınsın.

**H e y d ə r  Ə l i y e v:** Bu çox düzgün məsələdir. Yeni binaların tikilməsi, bəlkə də bu, müzakirə edilən məsələyə aid deyildir, amma əlaqəsi vardır. Yeni binaların inşasının belə sürətlə getməsi – mən bir neçə dəfə demişəm, sən də deyirsən – təbiidir ki, çox müsbət haldır. Ancaq hər bir yeni bina əgər 20 mərtəbəlidirsə, bilmirəm neçə mənzillidirsə, əgər orada müasir tələblərə uyğun istilik sistemi, yaxud da ki, su təminatı yaranıbsa – hətta bəziləri deyirlər ki, mərkəzləşdirilmiş kondisioner sistemi yaradılırsa – demək, onlar köhnə binalardan da çox enerji istehlak edəcəklər. Ona görə də, yoldaş Hacıbala Abutalıbov, sən o layihələri ki, təsdiq edirsən – sənin müavinin möhürünü vurub ora verir – o layihələrin hamısı böyük ekspertizadan keçməlidir.

**H a c ı b a l a  A b u t a l ı b o v:** Möhtərəm Prezident, başa düşürəm. Amma elektrik enerjisinin, suyun, qazın da texniki şərtlərini bizə onların özləri verirlər. Biz deyirik verməyin, müəyyənləşdirin, əgər yoxunuzdursa, texniki şərtlərə qol çəkmə-

yin. Qol çəkməsələr, mən sərəncam verə bilmirəm. Amma təəssüf ki, gedirlər onların yanına, onlar da...

**H e y d ə r Ə l i y e v:** İndi sənə nə lazımdır versinlər, sən sərəncam verə biləsən, yoxsa verməsinlər?

**H a c ı b a l a A b u t a l ı b o v:** Mənə lazımdır ki, əgər qazı, elektrik enerjisi, suyu varsa versin, yoxdursa verməsin.

**H e y d ə r Ə l i y e v:** İndi sən bunu müəyyən edə bilmirsən?

**H a c ı b a l a A b u t a l ı b o v:** Onlarin özlərinin tələbatından asılıdır.

**H e y d ə r Ə l i y e v:** Necə yəni, onların özlərinin tələbatından asılıdır? Sən ekspertizadan keçirt. Yox, bu, düz deyir?

**A r t u r R a s i z a d ə:** Düz deyir.

**H e y d ə r Ə l i y e v:** İndi axı məni məcbur etməyin deyim ki, bu işlər hər yerdə belə asanlıqla keçmir axı. Ona rüşvət verir, buna rüşvət verir, gedib başqasına da rüşvət verirlər. Nəticədə, ev tikiləndə biz sevinirik. Amma sonra bu evlərin nə qədər əziyyətini siz çəkəcəksiniz. Eyni zamanda həmin o energetika sistemi, qaz sistemi çəkəcəkdir. O qaz sisteminin başında duranlar bilməlidirlər ki, əgər onların işçiləri müəyyən bir şəxsi mənafe əldə edərək, elə o sənədləri imzalayırlarsa, bu çox pis vəziyyətə gətirib çıxaracaqdır. Mən belə sözlərimlə istəmirəm ki, o sənəd imzalayanlara daha da imkan verəm ki, onlar desinlər, gördünüz, prezident nə dedi. İndi bu rüşvəti birqat yox, ikiqat verməlisiniz. Mən bundan da qorxuram. Dərd burasındadır ki, hansı tərəfə fırlanırsansa, qorxursan. O dəqiqə gördüm, mən hiss etdim ki, bunun hansı mənfi nəticəsi ola biləcəkdir. Amma onsuz da mümkün deyil. Deməк, sən gərək ona da, buna da yol verməyəsən.

**H a c ı b a l a A b u t a l ı b o v:** Baş üstə.

**Heydər Əliyev:** Pirverdiyev, sən – bunun təşkilatları verir – yoxsa onu kimlər verir?

**Hacıbala Abutalıbov:** Elə təşkilat var ki, onunku verir. Əsasən «Barmek» verir.

**Heydər Əliyev:** İndi «Barmek» verir?

**Hacıbala Abutalıbov:** Bəli, texniki şərtləri «Barmek» verir.

**Heydər Əliyev:** «Barmek» də verirsə...

**Artur Rasizadə:** Elektrik enerjisinin şərtlərini «Barmek», qazın şərtlərini «Azəriqaz»ın təşkilatları verir, suyu isə Abşeron Səhmdar Su Cəmiyyəti verir.

**Heydər Əliyev:** Yaxşi, qoy görək bu nə deyir.

**Etibar Pirverdiyev:** Cənab Prezident, 100 kilovata qədər olan texniki şərtlər əvvəllər Bakı Şəhər Elektrik Şəbəkəsi Səhmdar Cəmiyyəti tərəfindən verilirdi. Hazırda həmin texniki şərtlər «Barmek» şirkəti tərəfindən verilir. Ancaq 100 kilovatdan yuxarı olduqda, bu şərtlər «Azərenerji» Səhmdar Cəmiyəti tərəfindən verilir.

**Heydər Əliyev:** Siz verirsiniz, demək, siz məsuliyyət daşıyırsınız.

**Etibar Pirverdiyev:** Bəli, texniki şərtlərin verilməsinə görə biz məsuliyyət daşıyırıq.

**Heydər Əliyev:** Daha da yaxşıdır ki, siz verirsiniz. Çünki siz texniki şərtləri verərkən bilməlisiniz ki, elektrik enerjisi ilə bunları real təmin edə biləcəksiniz, yoxsa yox? Elədirmi?

**Etibar Pirverdiyev:** Cənab Prezident, elədir.

**Heydər Əliyev:** Onda məsuliyyət sizin üzərinizdədir.

**Etibar Pirverdiyev:** Ancaq qeyd etmək istərdim ki, yeni tikilən binaların əksəriyyətində təhlil göstərir ki, onlarda

ödənişlərin səviyyəsi 90 faizdən yuxarıdır. Yəni yeni tikilmiş binalarda ödənişlərin səviyyəsi olduqca yuxarıdır. Demək olar ki, onlar sərf etdikləri elektrik enerjisinin pulunu təxminən 100 faiz ödəyirlər. Onların hamısı ödəniş qabiliyyətli abonentlərdir.

**H e y d ə r Ə l i y e v:** Lap yaxşı. Ödəniş qabiliyyəti yaxşıdırsa, lap yaxşı. Amma sənin ora elektrik enerjisi vermək imkanın gərək sabah transformatorları partlatmasın. Başa düşürsənmi? Mən o barədə söhbət aparıram. O barədə yox ki, onlara elektrik enerjisi verilməsin. Verilsin. Amma o binalar tikiləndə yeni transformator şəbəkələri yaradasan ki, – onlar enerji pulunu ödəyirlərsə, demək, pulları da çoxdur, çoxlu da elektrik enerjisi istifadə edəcəklər – onlar bunu edəndə sənin transformatorların yenə partlamasın. Transformatorun partlayanda onların heç biri onu təmir etməyə, yaxud dəyişdirməyə gəlib pul verməyəcəkdir.

**A r t u r R a s i z a d ə:** Cənab Prezident, şirkətlər çalışırlar ki, tikilən binaların maya dəyəri az olsun. Bu, təkcə o binalara aid deyil, başqalarına da aiddir. Amma biz tələb etməliyik ki, su, qaz, elektrik enerjisi istəyirsənsə, yeni transformator quraşdırmalısan.

**H e y d ə r Ə l i y e v:** Bəli, quraşdır. Özü də mən görürəm, bəzi hallarda şirkətlər bir yerdə 3-4 bina tikirlər. Əgər bir yerdə 20 mərtəbəli, yaxud 15 mərtəbəli 3-4-5 bina tikirlərsə, demək, orada, təbiidir ki, yeni bir transformator quraşdırmaq lazımdır.

**A r t u r R a s i z a d ə:** Kanalizasiyadan başlamaq şərtilə transformator da olmalıdır.

**H e y d ə r Ə l i y e v:** Hamısı olmalıdır.

**H a c ı b a l a A b u t a l ı b o v:** Baş üstə.

**H e y d ə r Ə l i y e v:** Yaxşı. Sən bu ev məsələləri ilə əlaqədar araya girdin, məni əsas istiqamətdən çıxartdın, yaxşı biz nə

vaxt deyəcəyik ki, bizim 5 min meqavat elektrik enerjisinin hamısını demirəm, 4 min meqavat elektrik enerjisi istehsal etmək imkanımız var. 4 min meqavat da elektrik enerjisini yerlərə, bunun istehlakçılarına çatdırmaq imkanımız var. Biz buna nə vaxt nail olacağıq? Hə?

**E t i b a r P i r v e r d i y e v:** Cənab Prezident, bir neçə il öncə, əgər bir qədər geri dönsək, 1969-cu ilə qədər Azərbaycanın energetika sistemi özünün enerjiyə olan tələbatının 40 faizini idxal edirdi. 1969-cu ildən sonrakı dövrdə, demək olar ki, 10 il ərzində ölkəmizin enerji sistemi elə gücə malik oldu ki, özünü elektrik enerjisi ilə tam təmin edə bildi.

**H e y d ə r Ə l i y e v:** Bunlari düz deyirsən. Biz Mingəçevir DRES-i əgər tikməsəydik, o blokları inşa etməsəydik, başqa elektrik stansiyalarını yaratmasaydıq, indi heç belə söhbət də apara bilməzdik. Heç bir şeyimiz yox idi. Onları ki, biz ötən əsrin 70–80-ci illərində yaratdıq və beləliklə, biz burada çox güclü elektrik enerjisi potensialı yaratmışıq. İndi siz deyirsiniz ki, onların bəziləri köhnəlib, bəzilərini təmir etmək lazımdır, hər il də vəsait ayırırıq. Ondan əvvəlki il də vəsait ayrılmışdı. Bir dəfə 18 milyon dollar dediniz, götürdünüz.

**A r t u r R a s i z a d ə:** Keçən il 55 milyard manatdan artıq vəsait ayrılıbdır. Bu il də 35 milyard manat.

**H e y d ə r Ə l i y e v:** 35 milyard manat ayrılıbdır. Bu vəsaitdən istifadə edib energetika qurğularını təmir etmək lazımdır. Amma eyni zamanda, biz yeni elektrik stansiyaları tikirik. İndi məsələn, həmin o 1 nömrəli istilik-elektrik mərkəzi, onun gücü 100 meqavatdan çoxdur. Elədirmi?

**E t i b a r P i r v e r d i y e v:** 106 meqavatdır.

**H e y d ə r Ə l i y e v:** Gərək daim 100 meqavat elektrik enerjisi versin. Amma o tez-tez dayanır, normal işləmir. Düzdür,

deyirlər ki, yaxşı buxar verir və bunun hesabına Əhmədli yaşayış massivi istilik alır. Elədirmi, yoxsa yox?

**H a c ı b a l a A b u t a l ı b o v:** Bəli, Əhmədli qəsəbəsi, bütün o massiv istilik alır.

**Y a q u b E y y u b o v:** Cənab Prezident, mən də bayaqkı məsələyə aydınlıq gətirmək istəyirəm. Burada nəsə belə məlumat getdi, mən başa düşdüm ki, o qədər də aydın olmadı. Deyə bilmərəm, bu, Hacıbala müəllimin dövründə belə olub. Bu, həmişə belə olub. İndi mən bu məlumatı bilmirəm, amma texniki şərtləri almaq məsələsi necə olur. Əvvəlcə yeri alırlar, pul verirlər, tikirlər. Ondan sonra məlum olur ki, bina tikilib. Deyirlər ki, gəlin texniki şərtləri alaq. Kanalizasiyaya, suya, elektrik enerjisinə, qaz şəbəkəsinə qoşulaq. Oradakı avadanlıq, xətlər axı buna dözmür. Demək istəyirəm ki, əvvəlcədən şərtlər alınmır ki, sonra da bina tikilsin. Binanı tikirlər, sonra gəlib texniki şərtləri alırlar. Bu, keçmişdə olan məsələlərdir. Ona görə də mən aydınlıq gətirmək istəyirdim. Hacıbala müəllimin işlədiyi dövrü mən deyə bilmərəm. Bilirəm ki, Hacıbala müəllim belə məsələlərdə qətiyyətlidir. Ona görə də bu neqativ hallar məcburiyyətdən baş verir. Evi inşa edən şirkət məcburdur ki, pul verib onu istismara versin. Pul verir və texniki şərtləri alır və gəlir həmin məsələni həll edir. Bakıdakı 1 nömrəli istilik elektrik mərkəzini Siz çox düzgün dediniz. Orada çoxlu boşdayanmalar olur. Burada tikilmiş qurğu texniki nasazlığa və çatışmazlığa görə dayanır. Sizin tapşırığınızla biz onu araşdırırıq və bayaq dediyim kimi, Sizə məruzə edəcəyik.

**H e y d ə r Ə l i y e v:** Yaxşı, aydındır.

Pirverdiyev, sualım yadından çıxmayıbdır ki, cavab ver. Mənim yadımdan çıxmayıbdır.

**E t i b a r  P i r v e r d i y e v:** Cənab Prezident, yadımdan çıxmayıbdır. Elektrik enerjisinin istehsalından onun istehlakçılara çatdırılması arasında bir neçə mərhələ vardır. Yəni bu, birinci növbədə elektrik enerjisinin istehsalından, onun yüksək gərginlikli xətlərə verilməsindən...

**H e y d ə r  Ə l i y e v:** Bunlarin hamısı aydındır, bunlar gündəlik məsələlərdir.

**E t i b a r  P i r v e r d i y e v:** Bizim istehsal güclərimiz imkan verir ki, respublikamızda istehlakçılara lazım olan qədər elektrik enerjisi istehsal edək. Yüksək gərginlikli elektrik ötürücü xətlərimiz imkan verir ki, – burada xətlərin müəyyən enerji ötürmə hədləri var – həmin enerjini ötürək. Ancaq paylayıcı elektrik şəbəkələrində bu gün bizim müəyyən problemlərimiz vardır. Bu problemlərin yerlərdə səbəbləri çoxdur. Bunlar məhəllələrdə qoyulmuş transformatorlardan tutmuş, böyük yaşayış massivlərini əhatə edən transformatorlara qədər onların ifrat yüklənməsi ilə bağlıdır.

Cənab Prezident, bir də mən texniki itkilərlə bağlı Sizin əvvəlki sualınıza qayıtmaq istəyirəm. Keçmiş SSRİ dövründə Cənubi Qafqaz ölkələri üçün qoyulmuş texniki itki həddi, demək olar ki, ən yüksək normativ idi. Bizdə 13 faizə qədər texniki itki nəzərdə tutulurdu. Yəni, Azərbaycan ən çox texniki itki nəzərdə tutulmuş respublikalardan biri idi.

**H e y d ə r  Ə l i y e v:** Artur Rasizadə deyir ki, 8 faizdən yuxarı olanda...

**E t i b a r  P i r v e r d i y e v:** Başqa yerlərdə 7-8 faiz olurdu. Ancaq Cənubi Qafqaz respublikalarında 12-13 faizə bərabər idi. Hazırda paylayıcı elektrik şəbəkələrində bu rəqəm 17–20 faiz həddindədir. İtkilər birinci növbədə elektrik şəbəkələrinin köhnəlməsindən yaranır. Ən başlıcası isə belə hava şəraitində

transformatorların həddindən artıq az, yaxud həddindən artıq çox, ifrat dərəcədə yüklənməsi nəticəsində baş verir. İtkilərin əsas səbəbləri bunlardır. Yüksək gərginlikli elektrik xətlərində bizim itkilərimiz normativlər üzrə 3,5–4 faiz olmalıdır. Bizdə bu rəqəm 4,5 faizə bərabərdir. Əlbəttə ki, itkilər azalmalıdır. İtkilərə çox böyük istehsal xərcləri gedir.

**H e y d ə r Ə l i y e v:** Yaxşı, əyləş.

**A r t u r R a s i z a d ə:** Cənab Prezident, açılmalar olacaqdır. Siz yaxşı bilirsiniz ki, nə etsək də açılmalar yenə də olacaqdır. ABŞ-ın Florida kimi bir ştatı bu səbəbdən işıqsız qalmışdı. Bu həqiqətdir. Amma bu o demək deyildir ki, biz bu təcrübəni götürüb özümüzdə tətbiq edək. Söhbət bundan getmir. Real baxsaq, açılmalar olacaqdır. İndi o dərəcədə mürəkkəb proseslər gedir ki, Florida ştatı neçə gün işıqsız qalmışdı. Amma görülən və yerinə yetirilməsini nəzərdə tutduğumuz işlər bu məsələnin həllinə xeyli kömək edəcəkdir. Biz ildə ödənilməyən enerji haqqına görə 230 milyon ABŞ dolları itiririk. Biz bu problemi həll etsək nə qədər irəliləyiş olar.

**H e y d ə r Ə l i y e v:** Biz elektrik enerjisindən istifadə edənlərdən ildə 230 milyon dollar ala bilmirik?

**A r t u r R a s i z a d ə:** Bunun 165 milyonunu birbaşa əhali, yerdə qalanını isə müəssisələr ödəməlidir.

**H e y d ə r Ə l i y e v:** Əlbəttə ki, əgər bunların heç olmasa yarısı olsa, bu məsələlərin çoxunu qaydaya salmaq olar. Amma sən hər dəfə Floridadan danışırsan, bir az da keçsə Alyaskadan danışacaqsan.

**A r t u r R a s i z a d ə:** Florida çox mülayim iqlimi olan yerdir.

**H e y d ə r Ə l i y e v:** Aydındır, aydındır. Mən özüm Floridada olmuşam. Sən oradan, buradan danışırsan. Ancaq indi biz,

mənə elə gəlir ki, yeganə ölkəyik ki, elektrik enerjisini veririk, onun dəyərini ala bilmirik.

**A r t u r R a s i z a d ə:** Cənab Prezident, bəli, mən bunu təəssüflə qeyd edirəm.

**H e y d ə r Ə l i y e v:** Yeganə ölkəyik.

**A r t u r R a s i z a d ə:** Bəli, cənab Prezident. Əgər maraqlıdırsa, mən rəqəmlərə toxunum.

**H e y d ə r Ə l i y e v:** Yaxşı, bunları sonra deyərsən, məsələni qarışdırmayın.

## «Azəriqaz» Səhmdar Cəmiyyətinin Prezidenti Əlixan Məlikovun çıxışı

Möhtərəm cənab Prezident!

Hörmətli müşavirə iştirakçıları!

Yanacaq-enerji sektoru hər bir ölkənin iqtisadiyyatında xüsusi yer tutmaqla, əhalinin sosial vəziyyətinə və məişət şəraitinə böyük təsir göstərir. Bu baxımdan iqtisadiyyatın və əhalinin enerji daşıyıcıları və o cümlədən, təbii qazla təminatı mühüm əhəmiyyət kəsb edir. Ona görə də bu sahələr ölkə rəhbərinin daim gündəlik diqqət mərkəzindədir.

Bu diqqətin nəticəsidir ki, hələ 2000-ci ilin iyun ayında möhtərəm prezidentimiz cənab Heydər Əliyev tərəfindən «Əhalinin və iqtisadiyyatın enerji daşıyıcıları ilə təminatının yaxşılaşdırılması tədbirləri haqqında» fərman imzalamış və bu fərmanda «Azəriqaz» Səhmdar Cəmiyyətinə də konkret tapşırıqlar verilmişdir. Bu tapşırıqlardan əsasən idxal qazının elektrik stansiyalarına çatdırılması, qaz almayan rayon mərkəzlərinə qaz verilməsinin bərpa edilməsini qeyd etmək lazımdır.

Möhtərəm cənab Prezident!

Şəxsən Sizin göstərişinizə əsasən Nazirlər Kabinetinin müvafiq sərəncamları ilə bu məqsəd üçün vəsait ayrılmış və magistral qaz kəmərlərində əsaslı təmir işləri aparılması sayəsində bizdə texniki imkan yaranmışdır ki, idxal qazını istənilən həcmdə və təzyiqdə elektrik stansiyalarına çatdıraq. Bu günədək həmin stansiyalara 7 milyard 400 milyon kubmetr qaz çatdırılmışdır. Biz 2001-ci il üçün 4 milyard kubmetr qaz alınmasına dair müqavilə imzalamışdıq. İndi onu qəbul etməyə texniki imkan yaranıbdır. Hətta həmin rəqəmi ildə 6 milyard kubmetrə çatdırmaq imkanımız var.

Digər tərəfdən, qeyd etmək lazımdır ki, bu gün görülmüş əlavə təmir-bərpa işlərinin nəticəsində 32 rayon mərkəzinə qaz verilmişdir. Biz həmin fərman imzalanana qədər Bakı, Sumqayıt və respublikamızın 16 rayon mərkəzinə qaz verirdiksə, bu gün əlavə 32 rayonu qazla təmin etmişik. Bu rayonlara ümumilikdə verilən qazın illik həcmi 200–250 milyon kubmetr təşkil edir.

Bakının qaz təchizatı ilə bağlı qeyd etmək istəyirəm ki, 2001-ci ilin qış mövsümündə biz şəhərə hər gün maksimum 9,3 milyon kubmetr qaz vermişdiksə, bu ilin dekabr ayında paytaxtımıza 9,7 milyon kubmetr qaz veririk. Bu, keçən ilin müvafiq dövründəkindən 400 min kubmetr artıqdır.

Lakin demək lazımdır ki, Bakıda müəyyən problemlər var. Bu da əsasən Bakıya və digər rayonlara qaz verilməsi ilə bağlıdır. Biz müəyyən etdiyimiz limitə əsasən abonentlərə qazı çatdırırıq. İstixanalarla bağlı problem var ki, bu da qazla təminata böyük təsir göstərir.

**H e y d ə r Ə l i y e v:** İstixanalarda nə qədər qaz istifadə olunur? Axşam ANS televiziya kanalında göstərirdilər, mən baxdım. Ucu-bucağı olmayan istixanalar, borular uzanıbdır, hər yanda da qaz yanır.

**A r t u r  R a s i z a d ə:** Cənab Prezident, min dənə istixana var, sayı da artır. Bu istixanalarda sutkada təxminən 800 min kubmetr qaz işlədilir. Yəni Gəncə, Mingəçevir və Şamaxı bir yerdə bu qədər qaz işlədir.

**Ə l i x a n  M ə l i k o v:** Keçən il 2–2,5 min istixana fəaliyyət göstərirdi.

**H e y d ə r  Ə l i y e v:** Yaxşı, indi bunu nə edək?

**Y a q u b  E y y u b o v:** Cənab Prezident, qaz yansa da, binalara istilik getmir. Ona görə camaat elektrik avadanlığından istifadə etmək məcburiyyətində qalır.

**Ə l i x a n  M ə l i k o v:** Söhbət istixanalardan gedir.

**A r t u r  R a s i z a d ə:** Dərd ondadır ki, ödənişlər sıfır dərəcəsindədir.

**Ə l i x a n  M ə l i k o v:** Keçən mövsümdə istixanalardan yığım 2 faiz təşkil edirdi.

**H e y d ə r  Ə l i y e v:** Nə qədər olmalı idi?

**Ə l i x a n  M ə l i k o v:** Keçən il qeydiyyatda 2 min 842 istixana olubdur. Onların işlətdiyi qaz mövsüm ərzində 70 milyon kubmetr edir. 7 milyard 600 milyon manat əvəzinə, 164 milyon manat vəsait ödənilibdir. Cəmi 2 faiz.

**H e y d ə r  Ə l i y e v:** İş təkcə bunun dəyərində deyil, 7 milyard manat da çox puldur. Amma iş bunda deyil. İş ondadır ki, əgər o olmasa, sən deyirsən, Gəncə, Mingəçevir, Şamaxı təmin oluna bilir. İndi mən səndən soruşacağam, Abutalıbovdan da soruşacağam. Bakının çox yerində qaz yoxdur. Sən dediyin 20-ci sahənin camaatı qazdan şikayət edirdilər.

**A r t u r  R a s i z a d ə:** Bəli. Bəzi yerlərdə qaz yoxdur, amma istixanalarda var.

**Ə l i x a n  M ə l i k ov:** Cənab Prezident, istixanaları magistral qaz kəmərləri qəsəbəyə daxil olan yerin ətrafında quru-

rlar. İçərilərə doğru getdikcə qaz azalır, orada yaşayanların evində qaz yanmır.

**H e y d ə r  Ə l i y e v:** Yaxşı, indi qəsəbə bir icmadır. Bunlar müəyyən edə bilmirlər ki, qaz onların evinə gəlsin, yaxud istixanaya, Oturub qərar çıxara bilmirlərmi? Bizim icra hakimiyyətlərinin başçıları nə edirlər?

**Ə l i x a n  M ə l i k o v:** Biz yerli icra hakimiyyətlərinin başçıları ilə birlikdə dəfələrlə ağsaqqallarla görüş keçirmişik. Məsələ qoyuruq ki, tutaq ki, sutkada limit 100 min kubmetrdir. Biz bu 100 min kubmetri veririk. Ağsaqqallar desinlər ki, bu qaz ancaq evlərdə yanmalıdır, əgər istixanada yansa, onda qaz olmayacaqdır.

**H e y d ə r  Ə l i y e v:** Axı elə istixana sahiblərinin özünün də evində yanmır. Onlar qazı istixanada yandırırlar, amma evlərində yandırmırlar.

**Ə l i x a n  M ə l i k o v:** Bəli, tamamilə düzdür.

**H e y d ə r  Ə l i y e v:** Yəqin evinə başqa yerdən balonla qaz alıb gətirir. Nə oldu, onlar bu məsələni həll etdilərmi?

**Ə l i x a n  M ə l i k o v:** Yox. Edə bilmirlər. Çünki deyirlər ki, bizim dolanışıq yerimiz buradır. Biz bunu ləğv edə bilmərik. Digərləri, hansılar ki, evində qaz yandıra bilmirlər, tələb edirlər ki, yox, istixanada yanmamalıdır. Yəni bir qərara gələ bilmirlər.

**H e y d ə r  Ə l i y e v:** Özləri məsələni həll edə bilmirlər.

**Ə l i x a n  M ə l i k o v:** Bəli, həll edə bilmirlər. Ya qaz tam bağlanmalıdır, yaxud da həcmi artırılmalıdır. Buna da imkan yoxdur.

**H e y d ə r  Ə l i y e v:** Yaxşı, davam et.

**Ə l i x a n  M ə l i k o v:** Bakı şəhərinin qaz təminatı ilə bağlı müəyyən texniki nasazlıqlar da ortaya çıxır. Dünənki faktla bağlı deyim ki, Səbail rayonunun 20-ci sahəsində qazın olmaması

həqiqətən qəza hadisəsi ilə bağlı olmuşdur. Orada iş gedir və iki günə qaz veriləcəkdir.

Ümumiyyətlə, Bakı şəhərində qazla təminatı etibarlı etmək üçün magistral qaz kəmərlərində müəyyən qədər təmir işləri aparılıbdır. Yaponiyanın ayırdığı kredit hesabına hazırda magistral qaz kəməri çəkilir. Gələn ilin iyun ayında istifadəyə veriləcəkdir. O, Bakının fasiləsiz qazla təminatına zəmin yaradacaqdır.

**H e y d ə r Ə l i y e v:** İndi, havaların kəskin dəyişdiyi dövrdə Bakı şəhəri qazla tamam təmin olunur, yoxsa yox?

**Ə l i x a n M ə l i k o v:** Cənab Prezident, yox, olunmur.

**A r t u r R a s i z a d ə:** Bəli, olunmur.

**H e y d ə r Ə l i y e v:** Bəs əgər öz paytaxtımızı təmin edə bilmiriksə, nəyi yaxşıdır? Axı bizim bu qədər qazımız var. Özümüzün qazımız nə qədərdir?

**Ə l i x a n M ə l i k o v:** 4 milyard kubmetr.

**H e y d ə r Ə l i y e v:** 4 milyarddan çoxdur. İndi Natiq Əliyev deyəcəkdir. Rusiyadan nə qədər alırıq?

**A r t u r R a s i z a d ə:** Təxminən gündə 14 milyon 900 min kubmetr, amma 15 milyon olmalıdır. Dövlət Neft Şirkəti 12 milyon 100 min kubmetr verir.

**H e y d ə r Ə l i y e v:** Şəhərə?

**A r t u r R a s i z a d ə:** Ümumi respublikaya. Bir də yeraltı anbardan 4 milyon 500 min kubmetr götürülür. Bu bizim ehtiyatımızdır. Bu ehtiyat Bakıya, yeni qaz almış rayonlara, sənaye müəssisələrinə bölünür. Bakıya 9 milyon 700 min kubmetr qaz verilir. Amma havaların belə keçməsinə görə problem var. Elə öz işçilərimdən soruşuram, bəzilərinin evində qaz zəif yanır. Biz məcbur olduq ki, səmərəli işləməyən qazanxanaları bağladıq. Hacıbala müəllim bunu deyəcək. Bilirsiniz, qaz istifadə olunur,

amma nəticəsi yoxdur, batareyalar soyuqdur. Çünki suyun hərarəti 80–90 dərəcə olmalıdır. Ona görə fikirləşdik ki, onsuz da camaat elektrik enerjisindən istifadə edir, o qazanxanaları bağlayaq, qazı başqa yerlərə verək.

**H e y d ə r  Ə l i y e v:** Bunlar hamısı onu göstərir ki, biz lazımi qədər hazırlıqlı deyilik. İndi gərək, heç olmasa, paytaxt üçün, Bakı üçün etibarlı tədbirlər görək ki, hansı ekstremal vəziyyət yaranır-yaransın, paytaxt təmin olunsun. Axı belə olmaz!

**A r t u r  R a s i z a d ə:** Cənab Prezident, haqlısınız. Amma bir reallıq da ondan ibarətdir ki, ehtiyatımız bu qədərdir. Tələbat artdıqca, gərək nəyin hesabınasa qaz alaq. Bizim yataqlarda qazımız var. Onlar proqram tutublar.

**H e y d ə r  Ə l i y e v:** Var, sən o gün mənə deyirdin. İşləmək, çıxarmaq lazımdır. Bunlar gələcəyin işidir. Ancaq Bakıya nə qədər qaz verilir, bu qaz istehlakçıya nə qədər çatır, əgər bunları müqayisə etsən, görəcəksən ki, itki elektrik enerjisindən də çoxdur. Sən özün deyirsən ki, srağagün müzakirə aparmısan. Qazanxana işləyir, qızır, orada da beş-altı adam kürəyini verib qızdırır, bəzən oradan su da götürüb istifadə edir, amma evə qaz gəlmir. Deməк, itkidir. Elədirmi, yoxsa yox?

**A r t u r  R a s i z a d ə:** Bəli, elədir.

**H e y d ə r  Ə l i y e v:** Sən özün dünən mənə dedin ki, nə qədər qazanxananı bağlayırsınız.

**H a c ı b a l a  A b u t a l ı b o v:** Cənab Prezident, dünən 4 qazanxana bağlanıbdır. Çünki 20–30 dərəcədən yuxarı su vermir.

**H e y d ə r  Ə l i y e v:** Yaxşı, su vermir, onu bağla. Qazı birbaşa yaşayış evinə ver.

**Ə l i x a n  M ə l i k o v:** Cənab Prezident, biz 2003-cü ilin tələbatına uyğun balans hazırlamışıq. Düzdür, hələ ona baxılır.

Bizə əlavə 1,5 milyard kubmetr qaz tələb olunur ki, təminatı ödəyək.

**H e y d ə r  Ə l i y e v:** Əlavə qaz tələb olunur, amma əlavə pul da tələb olunur. İndi baxaq görək, mümkün olsa, əlavə alacağıq.

**A r t u r  R a s i z a d ə:** Qazın pulu respublika üzrə 50 faiz, Bakıda 38 faiz ödənir.

**H e y d ə r  Ə l i y e v:** Rayonlara verdiyin qazın pulunu 100 faiz ödəyirlər?

**A r t u r  R a s i z a d ə:** Bəli, 87–90 faiz ödənir.

**Ə l i x a n  M ə l i k o v:** Qaz yeni verilən 32 rayonda ödəniş 89–90 faiz təşkil edir. Əvvəldən qaz alan 16 rayonda ödəniş 48,6 faiz təşkil edir. Sumqayıt şəhəri 31 faizə, Bakı 42 faizə qalxıbdır. Ümumilikdə, bu ilin yekununa görə 48 faiz təşkil edir. 2001-ci ildə isə ümumi respublika üzrə 32,5 faiz təşkil edirdisə, indi 48 faizə çatıbdır.

**H e y d ə r  Ə l i y e v:** Qəribədir, insanlar dəyişilibdir, nədir?! Biz, Bakıda qədimdən yaşayan adamlar həmişə öyrənmişik ki, qazdan, sudan istifadə edirsənsə, bunun pulunu vermək lazımdır. İndi Bakıya kənardan gələnlər var, qaçqınlar, filanlar var, onlar bu sistemə öyrənməyiblər və bəlkə imkanları da yoxdur. Amma Bakıda əhalinin əksəriyyəti daimi, köklü yaşayan insanlardırlar. Nə təhər olur ki, qazdan, elektrik enerjisindən, sudan istifadə edir, pulunu vermirlər?

**A r t u r  R a s i z a d ə:** Cənab Prezident, biz qazın 1000 kubmetrini 54 dollara alırıq. Əhaliyə isə 7,9 dollara satırıq.

**H e y d ə r  Ə l i y e v:** Rusiyadan qazın 1000 kubmetrini 54 dollara alırıq, əhaliyə və bütün istehlakçılara 7,9 dollara satırıq. Elədir? Burada da bütün ağırlıq hökumətin üzərinə düşür.

**A r t u r  R a s i z a d ə:** Cənab Prezident, Sizinlə axırıncı dəfə Kişinyov sammitində olduğumuz zaman mən Moldovanın Baş naziri ilə görüşdüm. Bu məsələyə xüsusi diqqət yetirdim. Moldova Rusiyadan təxminən 2 milyard kubmetr qaz idxal edir. Bu qazın 1000 kubmetrinin qiyməti 52–54 dollardan 80 dollara qədərdir. Qazı əhaliyə həmin qiymətə satır və haqqını 100 faiz yığırlar.

**H e y d ə r  Ə l i y e v:** Orada əhalinin maddi vəziyyəti də Azərbaycandakından xeyli aşağıdır.

**V a h i d  A x u n d o v** (*iqtisadi siyasət üzrə dövlət müşaviri*): Cənab Prezident, Sizin yaxşı yadınızdadır, çörəklə də belə problem oldu. Nə qədər taxıl alırdıq, yenə də çörək qıtlığı vardı.

**H e y d ə r  Ə l i y e v:** Elədir.

**V a h i d  A x u n d o v:** İndi deyirlər ki, qaz azdır. Mən əminəm ki, nə qədər qaz idxal etsək, yenə də çatmayacaqdır. Çünki prinsipcə, qaz təchizatının idarə edilməsi düzgün qurulmayıbdır. Əsas bundan başlamaq lazımdır. Birincisi, sayğac olmayan yerdə nə qədər qaz versəniz də ona nəzarət etmək mümkün deyildir. İkincisi, ödəniş sistemi düzgün qurulmayıbdır. Nəzarətçilər qapı-qapı gəzib pul yığırlar. Bu pulun hansı hissəsi dövlətə catır, hansı hissəsi də ciblərdə qalır, məlum deyildir. Tezliklə ödəniş sistemində islahatlar aparmaq lazımdır. Onda əminəm ki, 8 milyard kubmetr qaz bəs edəcəkdir.

**H e y d ə r  Ə l i y e v:** Fərhad Əliyev, qaz sistemində islahatlar keçirmək nəzərdə tutulub, yoxsa yox?

**F ə r h a d  Ə l i y e v** (*Iqtisadi Inkişaf naziri*): Cənab Prezident, bəli, nəzərdə tutulubdur.

**H e y d ə r  Ə l i y e v:** Nə vaxt?

**F ə r h a d  Ə l i y e v:** Cənab Prezident, fərman verilməlidir.

**H e y d ə r  Ə l i y e v:** Fərman?

**F ə r h a d  Ə l i y e v:** Bəli, bu, fərman əsasında olmalıdır.

**H e y d ə r  Ə l i y e v:** Hazırlayın, fərman verərəm. Əgər biz buna hazırıqsa. Burada xeyli hazırlıq işləri görmək lazımdır. Fərman da hazırlayın, verək. Vahid Axundov doğru deyir. İndi pis-yaxşı, biz bəzi şəbəkələr yaratmışıq, elektrik üzrə onların nəticəsi əvvəlkilərə nisbətən müsbətdir, yoxsa yox?

**F ə r h a d  Ə l i y e v:** Cənab Prezident, keçən illə müqayisədə Bakı şəhəri üzrə elektrik enerjisi haqqının yığılması 50 faizdir. Bu rəqəm keçən il 28 faiz olubdur. Bu il isə yığım, yəni «Azərenerji» üzrə ödəniş 11 ay ərzində 50 faizdir. Rayonlar üzrə, bütün respublika üzrə götürsək, 30 faizdir.

**H e y d ə r  Ə l i y e v:** Bütün respublika üzrə?

**F ə r h a d  Ə l i y e v:** Bəli, 2002-ci ilin 11 ayı üzrə. 2001-ci ildə isə respublika üzrə cəmi 18 faiz olubdur. Yəni artım var.

**A r t u r  R a s i z a d ə:** Bakının özündə 18 faiz olubdur.

**F ə r h a d  Ə l i y e v:** Bakının özündə əhali qrupu üzrə 11 ayda hesablasaq, yığım 24 faizdir. Cənab Prezident, Siz bayaq Pirverdiyevə sual verdiniz ki, elektrik enerjisi ilə tam təminat olacaq, yoxsa yox. O, tam cavab vermədi. Mən Sizin qarşınızda məsuliyyətlə demək istəyirəm ki, bu pulun ödənişi qarşısında əhaliyə tam elektrik enerjisi vermək mümkün deyildir. Çünki transformatorlar elektrik enerjisindən, qızdırıcılardan istifadə olunması hesabına həddindən artıq yüklənir, qızır və ona görə də ayrılmalar olur. Həm kabellər, həm də transformatorlar yanır. Ona da 8–10 saat vaxt lazımdır ki, yenidən təmir olunsun. Təmirə başlayanda çıxırlar, yolu kəsirlər, başqa tədbirlərə əl atırlar ki, işıq söndü. Heç kəs demir ki, evdə hansı istilik qızdırıcıları tətbiq edir, hansıları qadağandır və həddindən artıq yüklənir. İcazə versəniz, bir-iki təklifim var, bir az sonra deyərəm.

**Ə l i x a n  M ə l i k o v:** Cənab Prezident, həmin məsələ ilə əlaqədar 2002-ci ilin yanvarından bank ödəmə sisteminə keçmişik. Bu gün Bakının bütün rayonlarında bank ödəmə sistemi təşkil olunubdur. Bunun nəticəsidir ki, indi Bakı şəhərində 2001-ci illə müqayisədə, əhali tərəfindən ödəmə 48 faizə çatıbdır.

Bakı şəhərində abonentlərdə sayğaclar 10 faiz təşkil edir. Dünya Bankının krediti ilə əlaqədar qənaət olunmuş məbləğ var idi, Nazirlər Kabinetinin razılığı ilə həmin məbləğə qaz sayğaclarının alınması üçün müsabiqə keçirildi və yaxın günlərdə 60 min sayğac alınıbdır. Onu da nəzərdə tutmuşuq ki, bunlar Bakıda, əsasən, sıx yaşayış massivlərində qoyulsun.

**H e y d ə r  Ə l i y e v:** Qurtardın?

**Ə l i x a n  M ə l i k o v:** Bəli.

**H e y d ə r  Ə l i y e v:** Əyləş.

## Azərbaycan Respublikasi Dövlət Neft şirkətinin Prezidenti Natiq Əliyevin çıxışı

Zati-aliləri, möhtərəm cənab Prezident!

Çıxışımın əvvəlində demək istəyirəm ki, qış mövsümünün belə tez gəlməsinə, havaların belə qarlı keçməsinə baxmayaraq, Dövlət Neft Şirkətinin idarə və müəssisələri ritmik işləyir. Neftçilərimiz onların üzərinə düşən məsuliyyəti dərindən dərk edərək, çətin hava şəraitində dənizdə və quruda öz vəzifə borclarını layiqincə yerinə yetirirlər və respublikamızın neftə, neft məhsullarına və təbii qaza olan tələbatını təmin etmək üçün bütün imkanlarını səfərbər etmişlər.

Bu qış günlərində neft təsərrüfatlarında və obyektlərində heç bir qəza olmamış, iş rejimi pozulmamışdır. Möhtərəm cənab Prezident, xüsusi qeyd etmək istəyirəm ki, bunlar hamısı Sizin neftçilərə diqqət və qayğınızın nəticəsidir.

Bu ilin 11 ayı ərzində neft və qazın hasilatı, təhvili, emalı, yataqların işlənilməsi və istismarı sahələrində böyük işlər görülmüşdür. Yeni quyular və istehsalat obyektləri istismara verilmişdir. Görülən işlərin nəticəsində xam neftin təhvili nəzərdə tutulandan 74,2 min ton artıq olmuşdur və hər iki neft və qazçıxarma istehsalat birlikləri tapşırıqları artıqlaması ilə yerinə yetirmişdir.

Neft hasilatının artmasının əsas səbəbi odur ki, cari ildə qazma işləri uğurla nəticələnmişdir və bu 11 ayda istismara 49 quyu daxil olmuşdur. Onlar ümumilikdə 163,5 min ton neft vermişdir. «Günəşli» yatağında 5 quyu qazılmışdır. Onlardan 109,3 min ton neft hasil edilmişdir. Hər quyunun gündəlik orta hasilatı 170,9 ton olmuşdur.

Bundan əlavə, cari ildə Neft Daşlarında 2 nömrəli kompressor stansiyasının genişləndirilməsi, «Günəşli» yatağında 14 nömrəli özülün tikilməsi onu 12 quyu üçün genişləndirməyə imkan verəcəkdir. Bu obyekt 2003-cü ilin birinci rübündə başa çatdırılacaqdır. Həmin yataqda 13 nömrəli özülün 2003-cü ilin sonuna qədər təhvil verilməsi orada 20 quyunun qazılmasına imkan yaradacaqdır. Neft Daşları–Bahar yeni qaz kəmərinin tikilməsi və başqa zəruri tədbirlər həyata keçirilir.

Qaz sahəsinə gəldikdə isə, 11 ayda «Azəriqaz» Səhmdar Cəmiyyətinə nəzərdə tutulmuş 4 milyard 35 milyon kubmetr əvəzinə 3 milyard 866 milyon kubmetr, yəni 169 milyon kubmetr az qaz verilmişdir.

**H e y d ə r  Ə l i y e v:** «Çıraq»dan nə qədər qaz almısınız?

**N a t i q  Ə l i y e v:** Cənab Prezident, «Çıraq»dan biz sutkada təxminən 2,7 milyon kubmetr qaz alırıq.

**H e y d ə r  Ə l i y e v:** İndi çıxan qazın hamısını götürürsünüz, yoxsa havaya gedir?

**N a t i q  Ə l i y e v:** Cənab Prezident, Siz bununla həmişə maraqlanırsınız. Siz bilirsiniz ki, biz bunun üzərində işləyirik. Fərman vermişdiniz. O, kompleks tədbirləri nəzərdə tutur. Onun əsasında biz orada böyük işlər gördük. Əsas məsələ o idi ki, Neft Daşlarındakı 2 nömrəli kompressor stansiyamızın gücü çatmırdı. Üç əlavə aqreqat qoymaqla stansiyanın gücünü artırdıq. Həm «Günəşli»dən, «Çıraq»dan, həm də Neft Daşlarından çıxan qaz bu kompressor stansiyası vasitəsilə sahilə gətirilir. «Pennzoyl» stansiyanı tikəndə onun layihə gücü – ötürmə qabiliyyəti təxminən sutkada 5 milyon kubmetr idi. Biz onu 7,3 milyon kubmetrə çatdırmışıq.

Mən açıq deməliyəm, «Çıraq–1»də hasil olunan qazın hamısını sahilə gətirə bilmirik. Ona görə ki, bu qaz iki həcmə bölünür. Biri aşağı təzyiqli qazdır, yəni onu biz heç cür gətirə bilmirik. O, sutkada təxminən 500–600 min kubmetrdir. Bir də ki, – Siz qabaqlar deyirdiniz ki, biz onu havaya buraxırdıq – yüksək təzyiqli qazdır. Onu biz öz gücümüzlə sahilə gətirə bilmirdik. Biz onun hamısını yığmışıq. Orada indi təxminən 800 min kubmetr yüksək təzyiqli qaz yığılır və sahilə gətirilir.

**A r t u r  R a s i z a d ə:** Qazın hamısını sahilə gətirmək üçün həm kompressor stansiyası yeniləşdirilməli, həm də Neft Daşlarından sahilə qədər 68 kilometr boru kəməri çəkilməlidir. Borular artıq alınıb. Qazın sahilə gətirilməsini gələn il üçün nəzərdə tutmuşuq, Sizə məruzə edəcəyik. Hələlik isə qurtarmayıbdır.

**H e y d ə r   Ə l i y e v:** Allah eləsin ki, qurtarsın, ancaq mənim bu sualımın mənası daha da genişdir. O mənada ki, biz «Çıraq» platformasını işə salandan sonra aydın oldu ki, səmt qazını tamamilə pulsuz olaraq alıb sahilə çatdıracağıq. Bu bizi sevindirdi. Bununla əlaqədar müqavilə də vardı. Amma məlum olanda ki, qazın çox hissəsini sahilə biz gətirə bilmirik, bu bizdə çox böyük narahatçılıq törətdi. İndi neçə il keçibdir, «Çıraq» yatağını istifadə edirik. Artıq 2002-ci il qurtarır. 5 il keçibdir. Amma yenə bu problemi həll edə bilmədik. İndi sən deyirsən onu həll edin. Ancaq mən nə barədə düşünürəm və xahiş edirəm. Deyirəm ki, qabaqcadan sizi xəbərdar edirəm. İndi «Azəri»də ki, yeni platforma qoyulacaq, orada quyuların sayı da «Çıraq»dakından 2 dəfə artıq olacaq, elədirmi?

**N a t i q   Ə l i y e v:** Bəli, 48 quyu olacaq.

**H e y d ə r   Ə l i y e v:** Mənə elə gəlir, orada hər quyudan daha çox neft gözlənilir. Burada səmt qazı gör nə qədər olacaq. Olacaq, olmayacaq?

**N a t i q   Ə l i y e v:** Olacaq, cənab Prezident.

**H e y d ə r   Ə l i y e v:** İndi gəlin danışaq. Biz həmin o layihəni ki, indi həyata keçiririk, burada bizim də, başqalarının da investisiyaları var. Biz «Azəri»ni istismara verəndə yenə də bu cür hadisələrlə üzləşəcəyik.

**N a t i q   Ə l i y e v:** Xeyr, cənab Prezident. Çünki müqavilənin özündə belə bir maddə var ki, səmt qazı sahilə gətirilməlidir.

**H e y d ə r   Ə l i y e v:** Bu, birinci müqavilədə də var idi. Amma mən soruşanda ki, niyə yerinə yetirilmir, sənin yadına salıram, mənə dedilər ki, oradan çəkilən boru həmin qazın hamısını götürə bilmir. Nə üçün? Çünki biz bilmirdik ki, bu qədər səmt qazı çıxacaq. Yadındadır, ya yox? Yadındadır. Mənim də yadımdadır. Yaxşı, o vaxt bilməmişik ki, səmt qazı

nəzərdə tutulandan artıq çıxacaq. Ona görə də indiyə qədər biz onun hamısını götürə bilmirik. İndi gəlin fikirləşək ki, birincisi, səmt qazı nə qədər çıxacaq? İkincisi, gözləniləndən nə qədər artıq ola bilər? Ona görə bunun üçün tədbir görək. Yoxsa, indidən tədbir görülməsə, o vaxt gəlib bu vəziyyətə düşəcəyik. Sən deyəcəksən mən dedim ki, boru çəkilib, o bundan ötrü deyildi, ondan ötrü idi. Düz deyirəm?

**N a t i q   Ə l i y e v:** Cənab Prezident, tamamilə düz deyirsiniz. Mənim də yadımdadır ki, Siz onda bizim səhvimizi göstərdiniz. Yəni layihə vaxtı bunlar nəzərdə tutulmamışdı. Ancaq keçən dəfə də biz onu müzakirə edəndə, Sizin yadınızdadır, biz belə nəzərdə tutmuşduq və belə planlaşdırırdıq ki, hər bir quyu sutkada 400–500 ton neft verəcəkdir. Siz də bilirsiniz ki, bunlar yeni üsullar tətbiq ediblər. Hər quyunun hasilatı 2 min tona qalxmışdır. Biz isə nəzərdə tutmuşduq ki, 500 ton olacaqdır.

**H e y d ə r   Ə l i y e v:** Natiq, bunlar aydındır. Bu oldu keçdi. Mən indi bunu deyirəm ki, ikinci dəfə belə səhvlər buraxma.

**N a t i q   Ə l i y e v:** Cənab Prezident, indi bu layihələrə tam baxmışıq. Hər şey nəzərdə tutulub. «Azəri» yatağından yeni bir qaz kəməri çəkiləcəkdir.

**H e y d ə r   Ə l i y e v:** O kəmərin tutumu nə qədər nəzərdə tutulub? Yaz, Əli Həsənov, sən yaz. Sənə də birbaşa tapşırıram. Bu məsələ ilə ciddi məşğul ol. Biz orada çox qaz hasil edəcəyik. «Azəri» platformasını işə salanda bunu əldə edə bilərik. Eyni zamanda, keçmiş hadisələrlə rastlaşsaq, itirə də bilərik.

**N a t i q   Ə l i y e v:** Demək istəyirəm ki, qaz sahəsi bizim zəif yerimizdir. Ümumilikdə, bu sahədə biz çox işlər görürük. Neft Daşlarında yığılan qazın sahilə gətirilməsinin gündəlik həcmini 300 min kubmetr artırmışıq. «Bahar»–Hövsan mövcud qaz xəttini yenidən təmir edərək, 1 nömrəli İEM-lə birləşdir-

mişik. İndi «Şimal» DRES-i həm «Azəriqaz»la, həm də «Azər-enerji» ilə birlikdə qazla təmin edirik və s. Ancaq mən yenə demək istəyirəm ki, bizim bu qaz sahəsində zəif yerlərimiz çoxdur. Burada Baş nazir də dedi, düz də dedi, Neft Daşlarındakı sıxıcı kompressor stansiyamızın gücü yenə də artırılmalıdır.

Gələn il də tədbir görəcəyik, onu yeni üç aqreqatla təmin edəcəyik. Əgər «Pennzoyl» gəlib ona 9 aqreqat qoymuşdusa, biz öz gücümüzlə onu müasir Avropa standartlarına uyğun və onlardan heç də pis olmayan səviyyəyə çatdırdıq. Mən onların hamısını dəvət edirəm, gedib baxsınlar – yeni bir stansiya tikmişik, heç kəs deyə bilməz ki, bunu «Pennzoyl», yoxsa Dövlət Neft Şirkəti tikibdir.

**H e y d ə r Ə l i y e v:** Bunu yaxşı öyrənmisiniz?

**N a t i q Ə l i y e v:** Bəli, öyrənmişik. İndi orada yenidən 3 aqreqat da qoyacağıq, gücünü artıracağıq. Bu məsələdə, Baş nazirin dediyi kimi, bizim bir zəif yerimiz də var. Cənab Prezident, həm «Günəşli»dən, həm də Neft Daşlarından sahilə bir qaz kəmərimiz var. Yəni, ehtiyat boru kəmərimiz yoxdur. Biz həmişə Allaha yalvarırıq ki, orada bir hadisə baş verməsin. Özü də bu bizə qazın həcmini artırmaqdan daha çox kəmərin təhlükəsizliyini təmin etmək üçün lazımdır.

Biz Baş nazirlə Nazirlər Kabinetində buna bir neçə dəfə baxmışıq. Sizin yadınızdadırsa, bizə tapşırıq vermişdiniz ki, bununla məşğul olaq. Biz həmin məsələ ilə məşğul olmuşuq. Borular indi Azərbaycandadır, onların örtük işlərini görmək lazımdır. Kəməri öz gücümüzlə çəkəcəyik. Deməli, bir boru-düzən gəmimiz var. Onu təmir etməli və daha da gücləndirməliyik ki, dərin sularda işləyə bilsin. Bunu da, Allah qoysa, martda qurtaracağıq. Hesab edirəm ki, 2003-cü ilin avqust–

sentyabrında o işləri tamam qurtarıb, payız–qış mövsümünə hazır olacağıq.

Bu bizim üçün əsas məsələdir. Ona görə ki, «Günəşli» yatağında biz çox işlər görürük. 14-cü platformanı indi yenidən qurmuşuq. Təzə ildən orada yeni quyular qazmağa başlayacağıq. 19-cu platformanı da öz gücümüzə tikmişik. Orada bir qaz quyusu qazmışıq. Çox keyfiyyətli quyudur.

**H e y d ə r  Ə l i y e v:** Siz öz gücünüzə, öz işinizə inanmalısınız. O şirkətlərlə müqavilələriniz var, o ayrı, amma «Günəşli»də hansısa iş görürsənsə, deyirsən ki, öz gücümüzə eləmişik. Belə də olmalıdır. Öz gücünüzə eləməlisiniz. Qazdan, Neft Daşları haqqında çox danışdın. Onu bilirəm. Bilirəm ki, «Pennzoyl» 3 dəfə buraya gəldi, sizinlə danışdı, bilmirəm hansı şərtlərlə danışdı, Allah bilir, nə cür olub. Bizdən çox da pul aldı. Mənim yadımdadır, kompressor stansiyasını tikdi, getdi. İndi əgər siz onun yanında, ona bərabər, ondan da fərqlənməyən stansiya tikmisinizsə, təbii, bu belə də olmalıdır. Çünki neçə ildir siz yan-yana işləyirsiniz. Buna görə Neft Şirkətinin əhatə etdiyi sahədə siz öz işlərinizi özünüz görməlisiniz.

**N a t i q  Ə l i y e v:** Bəli, cənab Prezident, indi hansı işləri görürüksə, çalışırıq ki, dədə-baba üsulu ilə yox, Avropa standartlarına uyğun yerinə yetirək.

Cənab Prezident, mən bir məsələyə toxunmaq və xatırlatmaq istəyirəm ki, 1999-cu ilin payız–qış mövsümündə əhalinin və iqtisadiyyatın elektrik enerjisi ilə təminatında böhran vəziyyəti yaranmışdı. Stansiyalarda mazuta olan tələbatın ildən-ilə kəskin surətdə artması bizi fövqəladə tədbirlər görməyə məcbur etmişdi. Yəni, Bakı–Novorossiysk xətti ilə xam neftin nəqli tam dayandırılmışdı. Bilirsiniz ki, bu bizim öhdəliyimiz idi, ancaq buna baxmayaraq, onu dayandırdıq. Hasil olunan xam neft

maksimum mazut emal etmək üçün bütün həcmdə emal zavodlarına verilmişdi. Neftayırma zavodları səmərəli texnoloji rejimdən məcburiyyət qarşısında «mazut rejiminə» keçmişdi. Azərbaycan ərazisindən tranzitlə nəql olunan mazutun hamısı respublikada saxlanılır və əlavə mazut da idxal edilirdi. Lakin bu tədbirlər də vəziyyəti yaxşılaşdıra bilməmişdi.

İndi vəziyyət tam dəyişib. Hamınızın xatirindədir, böhran vəziyyətindən çıxmaq üçün Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti, Milli Məclisin deputatı İlham Əliyev tərəfindən respublikaya təbii qazın idxalı və onun «Azərenerji»nin elektrik stansiyalarında istifadə olunması, bunun nəticəsində isə mazut istehlakının azaldılması və dünya bazarında təbii qazla müqayisədə daha qiymətli olan xam neft, neft məhsulları, o cümlədən mazut ixracının artırılması haqqında təşəbbüs və təkliflər irəli sürülmüşdür.

Bu məsələ 2000-ci il iyunun 3-də Azərbaycan Respublikasının Prezidenti tərəfindən keçirilmiş müşavirədə ətraflı müzakirə olunmuş, bəyənilmiş, prezidentin 29 iyun 2000-ci il tarixli fərmanında neft, qaz və enerji təsərrüfatının qaydaya salınması istiqamətində digər tədbirlərlə yanaşı, öz əksini tapmışdır. Bununla əlaqədar «Azərenerji»nin elektrik stansiyalarında mazut yandırılmasının azaldılması məqsədi ilə respublikaya təbii qazın idxalı Dövlət Neft Şirkətinə tapşırılmışdır.

Bu tədbirlər öz yüksək səmərəliliyini göstərib və göstərməkdədir. Cari ilin dekabrın 19-dək Rusiyadan 3 milyard 730 milyon kubmetr qaz idxal edilmiş və «Azəriqaz» sisteminə təhvil verilmişdir. Bütövlükdə «Azəriqaz» Səhmdar Cəmiyyətinə 11 ayda Dövlət Neft Şirkətinin hasil etdiyi qaz da nəzərə alınmaqla, 7 milyard 363 milyon kubmetr qaz təhvil verilmişdir. Rusiyadan

alınan qazın dəyəri – 188,5 milyon dollar Dövlət Neft Şirkəti tərəfindən ödənilmişdir. Görün, bu alınan qaz əhalimizə, neft sənayemizə necə baha başa gəlir, ancaq necə səmərə verir.

Bunun nəticəsində Bakı–Novorossiysk neft boru kəməri vasitəsilə 11 ayda biz 2 milyon 197 min ton neft ixrac etmişik. Cari ildə ilk dəfə olaraq, mazut idxal yox, ixrac olunmuşdur. 11 ay ərzində «Azərenerji» Səhmdar Cəmiyyətinə nəzərdə tutulmuş 1261 min ton əvəzinə, 1436 min ton mazut, yəni 174 min ton artıq mazut verilmişdir.

Dekabrın 19-dək isə 1303 min ton, yəni, 205,5 min ton artıq mazut verilmişdir. Bununla yanaşı, cari ildə görün nə qədər bizdə mazut qalmışdı ki, onu istifadə etdik və 924,4 min ton mazut ixrac etdik. Yəni, bunlar da bizə əlavə gəlir gətirdi və ona görə imkanımız oldu ki, aldığımız qazın pulunu verək. Sizin tapşırığınızla, çətinlikləri nəzərə alaraq, enerji sisteminə kömək məqsədi ilə Dövlət Neft Şirkəti müqavilə əsasında bu il Rusiyadan 992 milyon kilovat–saat elektrik enerjisi almışdır. Buna da 25,8 milyon ABŞ dolları ödənilmişdir.

Ümumiyyətlə, Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilin axırına qədər ölkənin energetika sisteminə 1 milyon 576 min ton mazut verilməsini təmin edəcək ki, bu da tapşırıqdan 243 min ton çoxdur. Beləliklə, ekvivalent nöqteyi-nəzərindən Dövlət Neft Şirkəti ilin axırına qədər vermədiyi 185 milyon kubmetr qazın əvəzinə, şərti yanacaq hesabı ilə tapşırıqdan 85 min ton artıq mazut təhvil verəcəkdir.

Təbii qazın idxalı neft emalı zavodlarının səmərəli işləməsi üçün imkanlar yaratmışdır və qurğuların «mazut rejimində» işləməsinin qarşısı tam alınmışdır. Bu da bizə imkan verir ki, maye qazın istehsalını artıraq, çünki bu da əhali tərəfindən istifadə olunan yanacaqdır. Maye qazın istehsalını 40 min ton

artırmışıq. Bundan bütün rayonlarımızda və şəhərimizdə istifadə olunur.

Bunu nə üçün deyirəm? Neft emalı qurğularının daha da dərin rejimdə işləməsi, yüksək dəyərli, açıq rəngli neft məhsullarının istehsalı artmışdır.

Qazın idxalı hesabına respublikada təbii qazın həcminin artması əhalinin də təminatını xeyli yaxşılaşdırmışdır.

Neft emalında «mazut rejimi»ndən imtina edilməsi və daha səmərəli texnoloji proseslərdən istifadə olunması maye qazın istehsalının artırılmasına, mazutun elektrik stansiyalarına daşınması xərclərinin azaldılmasına, elektrik stansiyalarının qazla işləməsi nəticəsində ətraf mühitə və istismar olunan avadanlıqlara vurulan ziyanın xeyli azaldılmasına gətirib çıxarmışdır. Yəni, biz bunun bilavasitə xeyrini görürük. Bu puldadır, əmtəədədir. Ancaq onun ətraf mühitə təsiri də olur. Tutaq ki, biz əvvəllər stansiyalara 3–4 milyon ton mazut göndərirdik. Onu stansiyalara çatdırmağın nə qədər xərcləri var idi. İndi biz 1 milyon 400 deyiriksə, deməli, daşınma xərcləri də azalmışdır.

Sizin tapşırığınızla biz Baş nazirin yanında bu məsələlərə baxmışıq. İndi də bəzi tədbirlər görürük, gələcəkdə də görəcəyik. Rusiya müqavilədəkindən təxminən 40 milyon kubmetr qaz az vermişdir. Mən Baş nazirin tapşırığı ilə bu məsələ ilə məşğul oldum, «İtera» şirkəti ilə danışıqlar apardım. Onlara məktub göndərdik ki, bu il dekabrın axırına kimi gündə 14,9 milyon kubmetr əvəzinə, 2 milyon kubmetr də artıq versinlər. Srağagün mən danışanda onlar bunu qəbul etmişdilər. Ancaq hələ dəyişiklik görmürük. Ona görə də yenidən bu işlə məşğul olacağıq ki, onlar bunu versinlər. Bu birincisi. İkincisi, belə gərgin vəziyyəti nəzərə alaraq, biz tapşırıq vermişik ki, zavodlar

hələ ki, mazutun ixracını dayandırsınlar və tam həcmdə enerji stansiyalarına versinlər. Təxminən 50 milyon ton mazut vermək niyyətindəyik.

Cənab Prezident, Siz də dediniz, biz 2003-cü ildə qaz hasilatının artırılması məsələsinə çox ciddi fikir veririk. Bunları dedim, təkrar etmək istəmirəm. İnşallah, nəzərdə tutduqlarımızı gələn il yerinə yetirsək, hesab edirəm ki, payız–qış mövsümünə daha hazırlıqlı olacağıq. Çox sağ olun.

* * *

**H e y d ə r  Ə l i y e v:** Bilirsiniz, çıxış edənlər çox vaxt aparırlar. Düzdür, bu məsələlərin hamısı vacibdir. Burada lazım olmayan artıq söz görmürəm. Amma eyni zamanda, vaxt daha gedib. İndi iki saat olacaqdır ki, biz oturub işləyirik.

Abşeron Regional Səhmdar Su Cəmiyyətinin sədri Oqtay Əsədova söz verilir.

Sənə nə qədər vaxt lazımdır?

**O q t a y  Ə s ə d o v:** Cənab Prezident, qışa hazırlıqla əlaqədar məlumat vermək üçün 10 dəqiqə vaxt lazımdır.

**H e y d ə r  Ə l i y e v:** Siz əhalini qış şəraitində su ilə necə təmin edirsiniz? Ümumiyyətlə, su təminatı necədir? Bax, bunun perspektiv məsələləri ilə məşğulsunuzmu?

**A r t u r  R a s i z a d ə:** Biz məşğuluq.

**H e y d ə r  Ə l i y e v:** Bunu burada müzakirə etməyə ehtiyac yoxdur.

**A r t u r  R a s i z a d ə:** Bəli.

**H e y d ə r  Ə l i y e v:** Sən bunları mənə ayrıca məruzə etmisən.

**A r t u r  R a s i z a d ə:** Bəli.

## Abşeron Regional Səhmdar Su Cəmiyyətinin sədri Oqtay Əsədovun çıxışı

Zati-aliləri, möhtərəm cənab Prezident!

Hörmətli müşavirə iştirakçıları!

Cənab Prezident, icazə verin, işinizin gərgin dövründə infrastrukturla bağlı həyati vacib məsələlərə qaygı göstərərək vaxt ayırdığınıza görə Sizə öz dərin minnətdarlığımı bildirim.

Bildiyiniz kimi, Abşeron Regional Səhmdar Su Cəmiyyəti Bakı, Sumqayıt şəhərlərini və Abşeron yarımadasındakı digər yaşayış məntəqələrini içməli su ilə təmin edir.

Cəmiyyət cari ilin 11 ayı ərzində regionun suya olan tələbatını ödəmək üçün 341,9 milyon kubmetr su istehsal etmişdir. Onun 73 faizi Bakı şəhərinə, 17,1 faizi Sumqayıt şəhərinə, qalanı isə digər yaşayış məntəqələrinə verilmişdir.

Payız–qış mövsümünə hazırlıqla əlaqədar istehlakçıları etibarlı və fasiləsiz su ilə təmin etmək üçün cəmiyyət tərəfindən tədbirlər planı işlənib hazırlanmışdır.

Regionumuzun infrastrukturunun vacib və əhəmiyyətli sahələri olan neft, neft emalı, qaz və energetika müəssisələrinin, o cümlədən rayon istilik qazanxanalarının payız–qış mövsümündə lazımi miqdarda su ilə fasiləsiz təminatı birmənalı olaraq həll edilir və daim diqqət mərkəzindədir.

Bakı şəhərinin müxtəlif rayonlarındakı istilik qazanxanalarını payız–qış mövsümündə su ilə təmin etməkdən ötrü su kəmərlərinin yoxlanılması və istismara tam yararlılığını müəyyənləşdirmək üçün yoxlamalar aparılmışdır.

Cari ildə qışa hazırlıqla əlaqədar magistral su xətlərinin 20 kilometrə yaxın hissəsində borular dəyişdirilmiş, 450-dək elekt-

rik mühərriki, 400-dək su nasos aqreqatı təmir edilmiş və yaxud yenisi ilə əvəz olunmuş, 4,7 kilometr uzunluğunda elektrik kabeli dəyişdirilmiş, 247,7 min kubmetr həcmində su anbarları yuyulub zərərzisləşdirilmişdir. İl ərzində 3700 ünvanda su axıntılarının qarşısı alınmışdır.

Qəza hadisələrinin yüksək texniki səviyyədə operativ ləğv edilməsi üçün çoxnövbəli təmir briqadaları yaradılmışdır. Hazırda Bakı şəhərinin bütün rayonlarında müasir texnika ilə təchiz olunmuş 15 briqada işləyir.

Bu ilin dekabr ayında havaların kəskin dəyişməsi ilə bağlı olaraq, təmir briqadaları tam səfərbər edilmişdir. Onlar öz işlərini əlaqədar təşkilatlarla, o cümlədən Bakı Şəhəri İcra Hakimiyyəti, «Azərenerji» Səhmdar Cəmiyyəti, Sumqayıt Şəhər İcra Hakimiyyəti ilə sıx əlaqədə qurmuşlar.

Möhtərəm Prezident, 2001-ci ilin birinci kvartalında Nazirlər Kabinetinin sərəncamı ilə Səhmdar Su Cəmiyyətinə 374 ədəd yeni nasos stansiyası verildi. Onlar ləğv olunmuş nazirliklərdə və təşkilatlardakı nasos stansiyaları idi. Çox pis vəziyyətdə idilər. Yəni, əhalinin haqlı narazılığı var idi. Onlara rəhbərlik edən yox idi. Həmin nasos stansiyaları bizim şirkətə veriləndən sonra, Sizin şəxsi nüfuzunuza görə, İsveçrə hökuməti, bankı tərəfindən Azərbaycana 5,4 milyon dollar dəyərində nasos və elektrik avadanlıqları verildi.

Hazırda onların 90 faizi quraşdırılıb istifadəyə verilmiş, 10 faizi isə bu ayın axırına qədər təhvil veriləcəkdir. Yəni, bu nasos stansiyalarının istismara verilməsi ilə əhalinin su təminatı daha da yaxşılaşacaqdır. Çünki əvvəlki nasos stansiyaları düzgün tikilməmiş, nasoslar düzgün qurulmamışdı. Yuxarı mərtəbələrə su çatmırdı. Bu nasos stansiyalarının işə salınması sayəsində 400 min nəfərə yaxın əhali su ilə normal təmin ediləcəkdir.

Möhtərəm Prezident, eyni vəziyyət Sumqayıt şəhərinə də aiddir. Sumqayıt şəhərinin icra hakimiyyətinin başçısı buradadır. Onunla mütəmadi əlaqə saxlayırıq. Belə ki, payız–qış mövsümünə hazırlıqla əlaqədar olaraq Sumqayıt şəhərində təkcə 2002-ci ildə 310 kilometrə qədər su xətlərində sazlama işləri aparılmışdır. İrili-xırdalı 4,7 kilometr su xətti yenidən qurulmuş, 71 suvuran nasos stansiyasının 17-si yeni avadanlıqla təmin olunmuşdur. 71 paqon kilometr kanalizasiya xəttində profilaktik təmizləmə və təmir işləri aparılmışdır.

Bununla bərabər, Sumqayıt şəhərində 15-ci, 41-ci, 42-ci, 47-ci məhəllələrdə, qaçqın və məcburi köçkünlərin yığcam yaşadığı yerlərdə icra hakimiyyəti və beynəlxalq təşkilatlarla birgə 3 nasosxana stansiyası tikilmiş, 800 metr su, 360 metr kanalizasiya xətti çəkilib istifadəyə verilmişdir.

Qışa hazırlıqla əlaqədar olaraq Sumqayıt şəhərində maşın və mexanizm bazası genişləndirilmiş, nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi və yerli icra hakimiyyəti ilə işin əlaqəli təşkili payız–qış mövsümündə Sumqayıt şəhərində fasiləsiz su təchizatının müstəqil işləməsini təmin edəcəkdir.

Möhtərəm Prezident, çıxışımın sonunda icazə verin həyati əhəmiyyətli bir məsələ olan su təchizatının inkişafına göstərdiyiniz daimi qayğı və diqqətə görə Sizə bir daha öz minnətdarlığımı bildirim.

Sizin rəhbərliyiniz və köməyiniz sayəsində bu sahədə yaradılmış müasir tələblərə cavab verən maddi-texniki bazamız, maşın-mexanizm və avadanlıqla təchizatımız ən mürəkkəb meteoroloji şəraitdə belə, işimizi günün tələbləri səviyyəsində qurmağa tam təminat verir.

**H e y d ə r  Ə l i y e v:** Yaxşı, bir ümumi sual vermək istəyirəm. İndi bu dəqiqə Bakı şəhərində, hər yerdə insanlar su ilə təmin olunurmu, yoxsa yox?

**O q t a y  Ə s ə d o v:** Bəli, möhtərəm Prezident, qəza olmayan yerlərin hamısında su təminatı vardır.

**H e y d ə r  Ə l i y e v:** Hər yerdə su var?

**H a c ı b a l a  A b u t a l ı b o v:** Bəli, cədvəl üzrə verilir.

**O q t a y  Ə s ə d o v:** 50 faiz cədvəl üzrə verilir.

**A r t u r  R a s i z a d ə:** Bəli, cədvəl üzrə verilir.

**H e y d ə r  Ə l i y e v:** Sumqayıtda necədir?

**O q t a y  Ə s ə d o v:** Möhtərəm Prezident, Sumqayıtda su təchizatı Bakı şəhərindən də yaxşıdır.

**H e y d ə r  Ə l i y e v:** Bizdən yaxşıdır?

**O q t a y  Ə s ə d o v:** Bəli.

**T ə v ə k k ü l  M ə m m ə d o v:** Möhtərəm Prezident, 35 faizi cədvəlsiz, 65 faizi cədvəl üzrə verilir. Demək olar ki, şəhərdə su problemi yoxdur.

**H e y d ə r  Ə l i y e v:** Yaxşı, əyləş. Biz o vaxt Bakıda su təsərrüfatını lazımi səviyyəyə çatdırmaq üçün Dünya Bankından və Avropa Bankından 90 milyon dollar kredit götürmüşük. Bu kredit qaytarılır, yoxsa yox?

**O q t a y  Ə s ə d o v:** Bəli, qaytarılır.

**H e y d ə r  Ə l i y e v:** Nə qədər qaytarılıbdır?

**O q t a y  Ə s ə d o v:** 14 milyon dollar qaytarılıb.

**H e y d ə r  Ə l i y e v:** Cədvəl əsasında?

**O q t a y  Ə s ə d o v:** Bəli, cədvəl əsasında.

**H e y d ə r  Ə l i y e v:** Bakının su təminatı bundan yaxşı olmalıdır. Vaxtilə Bakının su təminatı nədən ibarət idi? Rəhmətlik Hacı Zeynalabdin Tağıyevin çəkdirdiyi birinci su kəməri bizim Bakının neçə faizini təmin edir?

**O q t a y   Ə s ə d o v:** 15 faizini.

**H e y d ə r   Ə l i y e v:** Yaxşı, Kürdən götürdüyümüz su, əsas oradandır, bu neçə faizdir?

**O q t a y   Ə s ə d o v:** 40 faizdir.

**H e y d ə r   Ə l i y e v:** Bəs qalanı haradandır?

**O q t a y   Ə s ə d o v:** Ceyranbatan və İkinci Şollar xətti – Xaçmaz.

**H e y d ə r   Ə l i y e v:** İkinci Şollar xətti var?

**O q t a y   Ə s ə d o v:** Bəli, Xaçmaz xətti.

**H e y d ə r   Ə l i y e v:** Tikilibdir?

**A r t u r   R a s i z a d ə:** Bəli.

**H e y d ə r   Ə l i y e v:** Biz indi oradan su götürürük? Niyə demirik birinci, deyirik ikinci?

**O q t a y   Ə s ə d o v:** Birinci, Zeynalabdin Tağıyevin çəkdirdiyi xətdir. İkinci də Xaçmaz xəttidir – 2,75 kubluq.

**H e y d ə r   Ə l i y e v:** Amma bunlar azdır. Mənim xatirimdədir, biz ötən əsrin 70-ci illərində Bakıya yeni su kəməri çəkmək istəyirdik. İkinci Şollar xətti çəkmək istəyirdik. Onda Dağıstanda buna imkan vermədilər. Dedilər artıq olmaz. Vaxtilə akademik Həsən Əliyev təklif etmişdi, Qəbələ, Oğuz və oradakı dağlardan gələn bulaqlarda çox su var. Özü də çox təmiz sudur, dağ, bulaq suyudur. O, təklif etmişdir ki, onu oradan çəkək gətirək Bakıya. Xatirimdədir, onun təkliflərində suyun bir hissəsi öz axarı ilə gələcəkdi, çünki dağlardan üzü aşağıya gəlir. Oradan Şəkiyə gəlib çatana qədər, İsmayıllıdan da o tərəfə qədər enişdir. O vaxt həmin sulara baxmışdılar, çox dadlı sular idi. İstəyirdik həmin təklifə baxaq, ancaq ondan sonra mən buradan getdim. O layihə qaldı. Gülürsən, sənin yadındadır?

**A b i d   Ş ə r i f o v:** Qəzetlər də yazmışdılar. Ən yaxşı keyfiyyətli, dadlı sudur.

**H e y d ə r Ə l i y e v:** Şəkidən gətirməyəcəyik, çünki dişlərimizin hamısı tökülər. Dediyim suyu çəkirsən?

**A b i d Ş ə r i f o v:** Bəli, gələn il başlamaq istəyirik. O su saf sudur.

**H e y d ə r Ə l i y e v:** Orada su sağlamdır, dişləri tökməyəcək?

**A b i d Ş ə r i f o v:** Orada alman mütəxəssisləri işləyirlər.

**H e y d ə r Ə l i y e v:** Bəli, bunlar tamam başqa mənbələrdən gələn sudur.

**O q t a y Ə s ə d o v:** Möhtərəm Prezident, icazə versəydiniz, məlumat verərdim. Bizdə Su Problemləri İnstitutu var. Böyük Bakının su təchizatının perspektiv planı üzrə bu təklifləri hazırlayıb «McDonalds» şirkəti bizdə işləyəndə veriblər onlara. Onun üzərində işləyirlər. Xarici ekspertlər şirkəti, yəni «McDonalds» şirkəti. Yəni Bakı şəhərinin 2015-ci ilə qədər su təchizatının planıdır.

**H e y d ə r Ə l i y e v:** Sən bunu götür, tələb elə, bəli, həmin o Problemlər İnstitutunda var. Yaşayır həmin institut?

**O q t a y Ə s ə d o v:** Bəli, saxlamışıq.

**H e y d ə r Ə l i y e v:** Su Problemləri İnstitutu var. Bu layihələr orada olmalıdır. Sən onu götür, bax, mənə məruzə elə. Mən hesab edirəm, biz bunun üzərində işləməliyik. Çünki Bakıya biz gərək daha da çox su gətirək. Özü də təmiz bulaq suyu. Bunu biz edə bilərik. Buna kredit almaq mümkündür. Belə şeylərə kredit almaq asandır. Avropa Birliyindən, Yaponiyadan, Asiya Bankından da ala bilərik. Sən o sənədləri götür, bir bax. Sonra mənə məruzə elə. Onları özümüz ölçək-biçək. Bu təklif 1970-ci illərin axırında meydana gəlmişdi. Biz 70-ci illərin əvvəllərində suyu Kürdən gətirirdik. Birinci Kür xətti, sonra ikinci Kür xətti, üçüncü Kür xətti. Bunlarla məşğul olduq. Amma bu məsələ də

onda gündəliyə çıxdı. Mən bir neçə ildir bunun haqqında düşünürəm, indi də bu gün fürsət oldu, istədim bu tapşırığı verəm. Sən məşğul ol. Çox gözəl bir iş olacaqdır. Bakıya bol-bol təmiz su gətirəcəyik. Deyirlər, orada çox gözəl sular var.

Yaxşı, əyləş.

## Baki Şəhəri Icra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbovun çıxışı

Möhtərəm Prezident!

Bakı Şəhər İcra Hakimiyyəti payız–qış mövsümünə hazırlıqla bağlı may ayında rayonların icra hakimiyyəti başçıları, mənzil-kommunal təsərrüfatı, nəqliyyat, kanalizasiya, istilik idarələri rəhbərlərinin iştirakı ilə geniş müşavirə keçirmiş, 2002-ci il 13 may tarixli sərəncamla «2002–2003-cü illərin payız–qış mövsümünə hazırlıq haqqında» qərargah yaratmışdır. Ötən müddət ərzində şəhər təsərrüfatının bütün sahələrində əhalinin kommunal-məişət xidmətlərinə olan tələbatını ödəmək istiqamətində konkret tədbirlər həyata keçirilmiş, sentyabr ayının 1-ə qədər rayonların icra hakimiyyəti başçıları və şəhər icra hakimiyyətinə tabe olan strukturlar görülmüş işlər haqqında hesabat vermişlər.

Qeyd etmək istərdim ki, son 100 ildə Bakıda görünməmiş şaxtalar, qarlı günlər Bakı Şəhər İcra Hakimiyyətinin tabeçiliyində olan bütün qurumların qışa necə hazırlaşdığını bir daha hamıya nümayiş etdirdi. Hazırlıq işlərinin müvafiq qurumlar tərəfindən vaxtında təşkil edilməsi nəticəsində şəhər əhalisi bir sıra problemlərdən azad olmuşdur. Yay aylarında Füzuli, S.Vurğun, F.X.Xoyski küçələrində, Azadlıq prospektində kanalızasiya xətlərinin çəkilməsi sayəsində, ötən illərdən fərqli

olaraq, kanalizasiya və yağış suları xətləri bir-birindən təcrid edilmiş, beləliklə, gölməçələrin yaranmasının qarşısı tamamilə alınmışdır. Çovğunlu, şaxtalı günlərdə və çoxlu qar yağması zamanı nəqliyyat vasitələrinin normal hərəkəti təmin edilmiş, bunun üçün təxirəsalınmaz tədbirlər görülmüşdür. Məhz nəqliyyatın fasiləsiz hərəkəti nəticəsində əhalinin çörək və digər ərzaq məhsullarına olan ehtiyacı ödənilmiş, sosial təminatlı obyektlər tam qüvvəsi ilə işləmişdir. Mənzil-kommunal departamentinin qışa hazırlığı ilə əlaqədar bildirmək istərdim ki, onun öhdəsindəki bütün texnika tam işlək vəziyyətdə olmuşdur. Qarın təmizlənməsi işində bu departamentə Abşeron Regional Səhmdar Su Cəmiyyəti böyük yardım göstərmişdir. Eyni zamanda, son dərəcə çətin vəziyyətdə nəqliyyatın təhlükəsiz hərəkətini təmin etmək məqsədi ilə yol polisi idarəsi ilə birlikdə əməli işlər görülmüşdür.

Dekabrın 1-dək, başqa sözlə desək, soyuqlar başlamazdan əvvəl Bakı şəhərinin ətraf rayonlarında, ayrı-ayrı qəsəbələrində qazın təzyiqinin az olması və bəzi yerlərdə elektrik enerjisinin kəsilməsi halları az müşahidə edilirdisə, soyuqların düşməsi ilə əlaqədar, əsasən, şəhərətrafı rayonların ayrı-ayrı qəsəbələrində, o cümlədən Bilgəh, Buzovna, Binə, Maştağa, Sulutəpə, Hövsan qəsəbələrində, 20-ci sahədə, Binəqədidə, Keşlədə və digər ərazilərdə təbii yanacaq qıtlığı yaranmışdır. Bununla belə, keçən illərlə müqayisədə, «Azəriqaz» Səhmdar Cəmiyyətinin fəaliyyətində müəyyən irəliləyişlərin olduğunu xüsusilə vurğulamağı lazım bilirəm.

Təəssüflər olsun ki, bu sözləri şəhərin elektrik enerjisi ilə təminatına şamil etmək olmur.

Belə ki, keçən ilə nisbətən avadanlığın tez-tez sıradan çıxması və ya həddindən artıq yüklənməsi nəticəsində elektrik enerjisinin

kəsilməsi, fasilələrlə verilməsi daha çox müşahidə olunur. Statistikaya müraciət etdikdə görərik ki, ötən illə müqayisədə qaza nisbətən elektrik enerjisindən daha çox şikayətlər daxil olmaqdadır.

«Barmek–Azərbaycan» müştərək müəssisəsi tərəfindən hər hansı bir kömək və ya yardım üçün Bakı Şəhəri İcra Hakimiyyətinə və yaxud rayon icra hakimiyyətlərinə müraciət edilirsə, operativ qaydada həll olunur. Buna baxmayaraq, axırıncı 10–15 gündə bu problemlər daha da tez-tez yaranır.

«Barmek–Azərbaycan» müştərək müəssisəsi transformatorların yanmasını, qurğuların sıradan çıxmasını bunların həddən çox yüklənməsi ilə əlaqələndirir. Lakin bizə elə gəlir ki, əhalinin tələbatı, qışın sərt keçməsinin mümkünlüyü yay aylarında nəzərə alınmalı və qışa tam hazır olmaq lazım idi. Başqa sözlə, transformatorların yanması nəinki əhalinin enerji ilə təminatında problemlər yaradır, həmçinin «Barmek–Azərbaycan» müştərək müəssisəsinin özünə də ziyan vurur. Əgər o transformatorlar yayda daha güclüləri ilə dəyişdirilsəydi və yaxud ehtiyat transformatorlarla təmin olunsaydı, bu cür böyük fasilələrin qarşısı alına bilərdi.

İstilik sisteminin normal vəziyyətdə işləməsi üçün Bakı Şəhəri İcra Hakimiyyətinin daxili imkanları hesabına keçən ilə nisbətən 1227 bina, 79 min 580 mənzil hazır vəziyyətə gətirilmişdir. Halbuki, keçən il 1049 bina, 55 min 120 mənzil idi. Qazanxanalarda imkan daxilində bütün təmir işləri görülmüşdür. Evlərə istilik verilməsi üçün qazanxanaların işi normal vəziyyətə gətirilmişdir. Məhəllədaxili qazanxanalarda qazın təzyiqinin aşağı olması nəticəsində verilən suyun temperaturunu qaldırmaq mümkün olmur. Sizin göstərişinizlə yaradılmış qərargahın, Bakı Şəhəri İcra Hakimiyyətinin, «Bakqaz»ın, istilik idarəsinin və

«Barmek–Azərbaycan» müəssisəsinin ümumi rəyinə görə qazanxanalarda temperaturun 50 dərəcədən yuxarı qaldırılması mümkün olmadığı təqdirdə bunlar işlərini dayandırırlar. Elə bunun nəticəsidir ki, elektrik enerjisinin fasilələrlə verilməsi nəticəsində 4 qazanxana öz işini dayandırmışdır.

**H e y d ə r Ə l i y e v:** Qazanxanalara enerjini fasilələrlə vermək olmaz, axı. Bu, düzgün deyildir. Qazanxanalara elektrik enerjisini fasilələrlə vermək olmaz!

**H a c ı b a l a A b u t a l ı b o v:** Olmaz, amma verilir.

**H e y d ə r Ə l i y e v:** Verilir, onda, deməli, qazanxana işləmir.

**H a c ı b a l a A b u t a l ı b o v:** Ona görə də deyirəm ki, fasilələr yaranır, həm də bunların yenidən işlək vəziyyətə gətirilməsi üçün daha iki-üç gün əlavə vaxt lazım olur.

**H e y d ə r Ə l i y e v:** Deməli, nə etmək lazımdır?

**H a c ı b a l a A b u t a l ı b o v:** Enerjinin fasilələrlə verilməsinə son qoyulmalı, onlar üçün əlavə, müstəqil elektrik xətti çəkilməlidir.

**H e y d ə r Ə l i y e v:** Bu başqa məsələ, bunları edəydiniz. Bu gün çox müzakirə aparırıq. Mən sizin çıxışlarınız vaxtı öz fikirlərimi bildirirəm. Demək, bax, bugünkü müzakirədən Bakı Şəhəri İcra Hakimiyyəti üçün nə nəticə çıxarılmalıdır? Gərək Bakıda bütün şəhər evlərinin istiliklə təmin olunması məsələsi yoxlanılsın, vəziyyət müəyyən edilsin və buna müvafiq olaraq tədbirlər planı hazırlansın ki, yaz, yay, payız aylarında onlar həyata keçirilsin.

Bu tədbirlər planında siz gərək mütləq nəzərə alasınız ki, əgər istəyirsinizsə, qazanxana işləsin və evlərə istilik versin, demək, birinci, evlərə gedən sistem yaxşı olmalıdır. Bəzən qazanxana işləyir, mən özüm bunu görmüşəm, orada temperatur bəzən 100

dərəcəyə qalxır. Amma sənin evində heç 20 dərəcəyə də qalxmır. Niyə? Cünki xətlərdə müxtəlif qüsurlar var. Ona görə bunlar hər bir evdə yoxlanılmalıdır. Bu birincisi. Hər bir qazanxana yoxlanılmalıdır və hazır vəziyyətə gətirilməlidir. Bu ikincisi. Üçüncü də, müəyyən olunmalıdır, qış dövründə bu qazanxana qazla fasiləsiz təmin oluna biləcək, yoxsa yox? Elektrik enerjisi ilə təmin oluna biləcək, yoxsa yox? Bunların hamısını kompleks şəkildə aydın edəndən sonra siz müəyyən bir plan tutacaqsınız ki, bəli, bu məhəllədə evlərin həm daxili sistemi yoxlanılıbdır, normaldır, həm də qazanxanalar təmir olunub, hazırlanıb, normaldır, onların elektrik enerjisi və qazla fasiləsiz təmin olunacağına zəmanət verilir. Ondan sonra sən bu məhəlləni siyahıya salacaqsan ki, bəli, bu evlərə istilik verə biləcəksiniz. Yoxsa, birini orada təmir eləyəsən, birini burada, bunu edə bilməyəcəksən. Yəni burada çox iş var. Bizim şəhərin, ümumiyyətlə, Bakının vəziyyəti elədir ki, burada çox işlər görülməlidir.

Hələ sovetlər vaxtında mənim yaşadığım ev, bəziləriniz bilirsiniz, Azərbaycan prospekti ilə Bülbül prospektinin kəsişməsində idi. Vaxtılə sərhəd qoşunları tərəfindən tikilmiş yaxşı evdir. Onun özünün qazanxanası da var idi. Suyumuz da başqalarına nisbətən yaxşı gəlirdi. O vaxt da su hamıya yaxşı gəlmirdi. Elə götürək, məsələn, 1960-cı illəri, mən o evdə yaşayanda su hamıya gəlmirdi. O vaxt da belə idi, rejimlə idi. Amma bizim evin suyu həmişə gəlirdi. Bəzi evlər vardı, onlara həmişə su gəlirdi, istilik də verirdilər. Amma bir də görürdün ki, beşinci mərtəbədə – mən üçüncü mərtəbədə olurdum – hay-küy saldılar ki, bizim evdə radiatorlar soyuqdur. Aşağıda da qazanxana isti idi. Nə üçün, çünki lazımi tədbirlər görülməyib. Yəni bunlar hamısı öz həyatımda gördüyüm şeylərdir. Ona görə

də bunları mən belə müfəssəl bilirəm və deyirəm. Amma bunlar asan məsələ deyildir. Əgər o vaxt, sovet dövründə belə şeylər meydana çıxırdısa, heç kəs nə piket, nə mitinq keçirirdi, nə də bir şey edirdi, nə var idi, onunla qane olurduq. İstilik var idisə, yox idisə, su gəlirdisə, gəlmirdisə, qane olurduq. Düzdür, elektrik enerjisi daim olurdu. Amma su ilə, istilik ilə bağlı problemlər olurdu.

Buna görə sizin işiniz çoxdur. Bilirsən?

**H a c ı b a l a A b u t a l ı b o v:** Bəli. Möhtərəm Prezident, ona görə də Sizin göstərişinizlə Nazirlər Kabinetində keçirilən müşavirədə təklif olundu ki, qazanxanaların və istilik ötürücülərinin elektrik enerjisi ilə fasilələrlə yox, mütəmadi təmin olunması üçün onlara müstəqil elektrik xətləri çəkilsin.

Bakıda qaz qıtlığını yaradan səbəblərdən biri də şəhər ətrafında yerləşmiş çoxsaylı istixanaların mövcudluğudur. Belə ki, əvvəllər istixanaların hamısı neftlə qızdırılırdısa, indi qazla işlədirlər.

**H e y d ə r Ə l i y e v:** Niyə onunla qızdırılır?

**A r t u r R a s i z a d ə:** Cənab Prezident, bəzən indi də, indiki vəziyyətdə də ya solyarka ya da soba mazutu işlədirlər.

**H e y d ə r Ə l i y e v:** Bəs niyə hamısı bir cür eləmir?

**A r t u r R a s i z a d ə:** Cənab Prezident! Bir tərəfdən, qazın pulunu vermirlər, digər tərəfdən də qaz solyarkaya nisbətən ucuzdur. Amma məndə olan məlumata görə, bəzi istixanalar soba mazutu ilə işləyir.

**H a c ı b a l a A b u t a l ı b o v:** 30 ədəd.

**H e y d ə r Ə l i y e v:** Hamısını keçirmək olmazmı belə rejimə?

**A r t u r R a s i z a d ə:** Bu barədə düşünmək lazımdır.

**H e y d ə r Ə l i y e v:** Düşünün.

**A r t u r  R a s i z a d ə:** Özü də qazı başqa yerə istifadə etməyəcəyik ki, əhaliyə verəcəyik.

**H a c ı b a l a  A b u t a l ı b o v:** Hansı qəsəbənin ətrafında istixana mövcuddursa, orada qaz qıtlığı özünü daha çox büruzə verir.

**H e y d ə r  Ə l i y e v:** Burada Məlikov da danışdı ki, qazı istixanaya verirlər, evlərinə vermirlər. Qəribə insanlardır.

**H a c ı b a l a  A b u t a l ı b o v:** Elektrik enerjisi verilməsində fasilələr çox olan zaman həmin qəsəbələrdə yaşayan əhalidən qaz sarıdan şikayət azalır.

**H e y d ə r  Ə l i y e v:** Şikayət azalır?

**H a c ı b a l a  A b u t a l ı b o v:** Çünki əksəriyyəti həmin istixanalara qazı nasoslarla vurur. Buna görə də elektrik enerjisi kəsilən kimi, nasoslar dayanır, dayanan kimi də əhaliyə qaz verilməyə başlayır. Bu da faktdır.

**A r t u r  R a s i z a d ə:** Borulara kompressor qoyur və qazı sorurlar.

**H a c ı b a l a  A b u t a l ı b o v:** Şəhərdə elektrik enerjisinin fasilələrlə verilməsindən narazılıq bir də ondan irəli gəlir ki, mənzillərdə elektrik enerjisi olmadığı halda restoranlar, şadlıq evləri, ayrı-ayrı mağazalar həddindən artıq elektrik enerjisi işlədir.

**H e y d ə r  Ə l i y e v:** Bəs sən buna niyə yol verirsən?

**H a c ı b a l a  A b u t a l ı b o v:** Srağagün Sizin göstərişinizlə Nazirlər Kabinetində müşavirə olanda mən bütün rayonların icra hakimiyyəti başçılarına göstəriş vermişəm. Harada ki, toy yoxdursa, həmin şadlıq evlərinin işıqları kəsilsin. Heç olmasa. Başqa yol yoxdur.

**Heydər Əliyev:** Şadlıq evində təkcə toy eləmirlər ki, restorandır, orada yemək də yeyirlər. Elədir? Onlar saat neçəyə qədər işləyirlər?

**Hacıbala Abutalıbov:** Səhərə qədər.

**Heydər Əliyev:** Səhərə qədər adamlar çörək yeyir?

**Hacıbala Abutalıbov:** Bəli, işləyirlər.

**Heydər Əliyev:** Başa düşə bilmirəm, yeməyi gündüz yeyərlər, gecə yeməzlər ki. Yaxşı, sən bu işə əncam tapmalısan.

**Hacıbala Abutalıbov:** Baş üstə.

**Heydər Əliyev:** Vaxtilə bir dənə də şadlıq evi yox idi. İndi o qədər şadlıq evləri var ki. Allah eləsin ki, toylar, xeyir işlər çox olsun. Əhalimiz də artsın, camaat da yaxşı əhval-ruhiyyədə olsun. Amma toy olmayanda, şadlıq evlərinə bir rejim qoy.

**Hacıbala Abutalıbov:** Baş üstə.

**Heydər Əliyev:** Amma bax gör onda sən nə udacaqsan, nə uduzacaqsan. Sən orada rejim qoyub, bir balaca elektrik enerjisi qazanacaqsan, amma onlar alver eləyirlər, vergi verirlər. Vergi verirlər?

**Yerdən səslər:** Ən çox vergi verən onlardır.

**Heydər Əliyev:** Axı bizə bu da lazımdır. Gərək nə şiş yansın, nə kabab.

**Hacıbala Abutalıbov:** Təklif edərdim ki, istixanaların hamısında qazdan istifadəyə qadağa qoyulsun.

**Heydər Əliyev:** Bu barədə sən özün sərəncam verə bilərsənmi?

**Hacıbala Abutalıbov:** «Azəriqaz» mənə tabe deyil.

**Heydər Əliyev: S**ən şəhərin böyüyüsən. «Azəriqaz» qazı istehlakçılara çatdırır. Sən qazın istehlakçısısan. Əgər sən

hesab edirsən ki, onlara qadağan olunsun, bir sərəncam verə bilərsənsə, fikirləş. Yoxsa, istəyirsən ki, bunu başqa adam eləsin?

**H a c ı b a l a A b u t a l ı b o v:** Möhtərəm Prezident, əgər biz qazın gətirilməsini hətta iki dəfə artırsaq, yenə qaz çatmayacaq. Çünki istixanaların sayını üç dəfə artırıblar.

**H e y d ə r Ə l i y e v:** Çox artacaq hələ. Düz deyirsən.

**H a c ı b a l a A b u t a l ı b o v:** Təbliğat aparılmalıdır ki, istixanada yalnız və yalnız solyarka işlədilməlidir.

**H e y d ə r Ə l i y e v:** Yaxşı, fikirləşin. Sən şəhərin icra hakimiyyətinin başçısısan, lazımi tədbirləri hazırla, Baş nazirə məruzə elə. Fikirləşin, lazımi tədbirlər görün.

**H a c ı b a l a A b u t a l ı b o v:** Baş üstə. İkincisi, elektrik enerjisi təchizatında fasilələrə son qoyulması üçün elektrik qurğuları daha çox yüklənmə nəzərə alınmaqla hazırlansın. Üçüncüsü isə, mənzillərə normal istilik verilməsi üçün qazanxanalara verilən qazın təzyiqi daim nəzarətə götürülsün və elektrik enerjisinin fasiləsiz verilməsi təmin edilsin.

**H e y d ə r Ə l i y e v:** Bu işlərin böyük qismini siz görməlisiniz. Sən və rayon icra hakimiyyətləri.

**H e y d ə r Ə l i y e v:** Fərhad Əliyev, Sən danışmaq istəyirdin. Buyur.

**F ə r h a d Ə l i y e v:** Cənab Prezident, mən təkliflərimi yazılı şəkildə təqdim etmişəm.

## Baş nazirin müavini, Dövlətqaçqinkomun sədri Əli Həsənovun çıxışı

Möhtərəm cənab Prezident!

Havaların sərt keçməsi ilk növbədə çadır şəhərciklərində, yarımçıq binalarda yaşayan məcburi köçkünlərə öz təsirini

göstərdi. Lakin qarın ilk yağan günü – yəni dekabrın 1-də Sizin bilavasitə bu problemlə maraqlanmağınız və mənə xüsusi tapşırıqlar verməyiniz, sonra dəfələrlə hesabat tələb etməyiniz bizi vadar etdi ki, bu sahədə gördüyümüz işləri əsaslı surətdə dəyişək. Biz nə etdik? Növbətçilik əvvəllər də var idi, qərargah əvvəllər də var idi. Bunları əsaslı surətdə dəyişdik. Zəng vurub problemi həll etməyə imkanı olan səlahiyyətli şəxslər hər gecə komitədə növbətçilik edirlər. Çox ciddi, dəqiq və operativ informasiya yığımı və birgə fəaliyyət mexanizmi qurmuşuq. Prezident Aparatının ərazi idarəetmə orqanları ilə iş şöbəsinin müdiri Yusif Hümbətovdan tutmuş, rayon və şəhər icra hakimiyyətləri başçıları, «Azərenerji», «Barmek», Gəncə, Əli Bayramlı Elektrik Şəbəkə Səhmdar Cəmiyyətlərinin rəhbərləri ilə birgə fəaliyyət qurmuşuq. Yəni hər bir açılma faktı sadaladığım instansiyaların hamısı ilə operativ şəkildə müzakirə olunub və tədbirlər görülüb.

Baxmayaraq ki, 19 gündə respublika üzrə məcburi köçkünlərin məskunlaşdığı obyektlərdə 260 açılma halı olub. Ola bilər, ilk baxışda bu rəqəm böyük görünər. Ancaq bu, böyük deyil. Çünki bizim 1650 kütləvi məskunlaşma obyektimiz var. Bu obyektlərin bəzilərində gündə 7-8 dəfə açılma olur. Bu açılmalar ən çox Bakının Yasamal rayonunda olubdur. Onun da səbəbi transformatorun və qidalandırıcı dörd kabelin yanıb sıradan çıxması olmuşdur. Bu işi iki ay əvəzinə iki günə «Barmek», rayon icra hakimiyyəti və biz birgə gördük. Qalan yerlərdə fasilələr 2–8 saat olubdur.

Açılmalar Bakıda əsasən Yasamalda, Dərnəgüldə, Bilgəh qəsəbəsindəki sanatoriyalarda, Biləsuvarda, Şəkidə, Bərdədə, Gəncədə olubdur. Gəncədə bu gün ağır vəziyyət yaranıbdır. Mən buraya gəlməmişdən əvvəl Gəncə Şəhər İcra Hakimiyyətinin

başçısı zəng etdi ki, altı transformator bir gündə sıradan çıxıb. Mən tədbir gördüm. Sabah ora transformatorlar göndəriləcəkdir.

Məlumat üçün bildirirəm ki, qışa hazırlıq dövründə komitə tərəfindən respublikanın bütün rayonlarına 70 transformator, 80 min metr naqil, 51 artezian quyusu üçün nasos və 4 kilometr kabel verilibdir. Bu işlərin hamısı əvvəlcədən görülmüşdür. Əgər bunlar görülməsəydi, olmasaydı, elektrik şəbəkə sisteminin bu gün həddindən çox yüksəldiyi bir dövrdə çox ağır vəziyyət yarana bilərdi. Bunu çoxları şişirdib deyir ki, pis vəziyyət yaranıbdır. Mən demək istəmirəm ki, problem yoxdur. Problem var. Amma xeyli işlər də görülmüşdür və operativ tədbirlər nəticə vermişdir.

Yasamalda on minə qədər məcburi köçkün yaşayır. Onlar ona görə narazılıq etmədilər ki, özləri gördülər, işıq sönəndən 10 dəqiqə sonra rayon icra hakimiyyətinin, bizim komitənin, «Barmek»in nümayəndələri – hamısı oradadır. Bütün rayonlardan hər gün səhər saat 9-da informasiya toplanılır. Gün ərzində hər saatdan bir informasiyalar yığılır.

**H e y d ə r Ə l i y e v:** Onlar bu yaxınlarda gəlib yolu tutmuşdular.

**Ə l i H ə s ə n o v:** Cənab Prezident, onu indi deyəcəyəm. Baş nazirin tapşırığı ilə hər gün səhər və axşam ona məruzə edirəm. Yəni bu tədbirlər görülür və görülməkdə davam edir.

Siz bildirdiniz, dünən ANS telekanalında bir süjet göstərdilər. Bəli, o məsələni Nərimanov rayonunun Moskva prospektindəki texniki peşə məktəbində yaşayan 31 ailə edibdir. Orada saat yarım işıq olmayıbdır. Biz bu işə dərhal qoşulduq, ora Nərimanov Rayon İcra Hakimiyyətinin, bizim komitənin işçiləri getdilər. Dedim, araşdırın, ola bilməz, enerjidə belə kiçik fasiləyə görə onlar yola çıxa bilməzlər. Elə yerlər var aylarla

işıqları olmur. Araşdırdıq, tapdıq. Müsavat Partiyasının bir nəfər üzvü həmin ailələri yoldan çıxarıbdır. Onlar özləri dedilər ki, Allah şeytana lənət eləsin, bizi yoldan çıxartdılar. Biz bunu aşkarlamışıq. Bu hadisədən sonra biz bir az da dərinə getdik. Bəli, müxalifət partiyaları tərəfindən yerlərdə olan dayaqlarına tapşırıqlar veriblər ki, harada işıq kəsilir, insanları küçəyə çıxardın. Ancaq ona nail ola bilmirlər. Ağır şəraitdə yaşayan o insanların heç biri bu avantüraya getməyibdir. Məcburi köçkünlər bir daha göstərdilər ki, onlar Sizə və dövlətə sadiqdirlər. Onlar dözüm, səbr və təmkin nümayiş etdirdilər. Onlar görürlər ki, operativ tədbirlər görülür. Bu işlər görülməsə, onların qabağında durmaq olmazdı. Yasamal rayonunda məcburi köçkünlər özləri bizə qoşulub kömək etdilər. Bu tədbirlər görülür. Çox vaxtınızı almaq istəmirəm.

Siz bayaq yüksək peşəkarlıqla transformatorların yüklənməsi ilə bağlı problemləri qeyd etdiniz. Bu həqiqətdir. Məsələn, bu saat Bərdə rayonunda üç çadır şəhərciyində transformator 10 meqavatlıqdır. Oranın nominal cərəyan yükü 550 amperdir. Ancaq bu dəqiqə 850 amperlə işləyir. Yəni tədbirlər görülməsə, o transformatorlar da sıradan çıxacaqdır.

Xahiş edirəm, müraciət edirəm ki, əlavə 4 meqavatlıq transformator qoyulmasa, Bərdədəki çadır şəhərciklərinin hamısı işıqsız qalacaqdır. Bu cür vəziyyət İmişlidə də yaranıbdır. Bizim Biləsuvardakı üç çadır şəhərciyi İmişlidən, ikisi Biləsuvardan elektrik enerjisi alırdı. Həmişə 4-cü və 5-ci çadır şəhərciklərində işıq problemi, açılmalar olurdu. Ancaq son 10 gündə təəssüflər olsun ki, İmişli xəttində açılmaların sayı daha da artıbdır. Mən üç gün bundan əvvəl Yaqub Eyyubova da, Etibar Pirverdiyevə də dedim. Düzdür, o, göstəriş verdi, bir gecə saxladılar, söndürmədilər, amma bu gün o çadırlarda işıq üç dəfə sönübdür.

Səbəbi də odur ki, orada 25 meqavatlıq transformatorun qarşısında 330 amperlik qoruyucu var. Onu götürüb çıxarıblar, yerinə 110 amperlik qoruyucu qoyublar. Yük bir balaca artan kimi açılır. Ona görə xahiş edirəm, «Azərenerji» Səhmdar Cəmiyyəti bunu ya bərpa etsin, ya da hansısa texniki tədbirlər görsün ki, açılmaların qarşısı alınsın.

Üçüncü problem. Bu, Bakı şəhərində çox ciddi bir problemdir. İndiyədək bu problem qaldırılmırdı. Biz də onu qaldırmırdıq. Bütün məskunlaşma obyektləri yataqxanalar və yarımçıq binalardır. Yataqxanaların hamısı universitetlərin, yarımçıq binalar isə müəssisələrin balansındadır. Yataqxananın transformatoru yananda, mütəxəssis dəvət edirik, mübahisə başlayır ki, bu bizim balansımızda deyil. Son 10 günü birtəhər yola vermişik. Ancaq «Barmek», o da məsələni düz qoyur, deyir ki, onları bizə təhvil versinlər. Mən hesab edirəm ki, bu çox böyük məsələdir. Bu, 400-dən çox obyektdir. Yardımçı stansiyaların hamısı «Barmek»ə təhvil verilməlidir. Daxili elektrik şəbəkəsi sistemi ali məktəbin balansında qala bilər. Ancaq qidalandırıcı transformatorlar, yardımçı stansiyaların hamısı «Barmek»ə təhvil verilməlidir.

**H e y d ə r   Ə l i y e v:** Bəs niyə verilməyib?

**Ə l i   H ə s ə n o v:** İndiyədək ehtiyac olmurdu. Birtəhər keçinirdik. Hesab edirəm ki, bu məsələ də yoluna qoyulacaqdır. Nəhayət, cənab Prezident, onu da deyim ki, soyuqların düşməsi ilə əlaqədar digər tədbirlər də görmüşük. 2 milyon 800 min litr duru yanacaq hazırda 51 rayona paylanır. Bu iş ayın 25-dək başa çatacaq. 147 min 32 kiloqram ərzaq 51 rayona paylanır. Üç-dörd günə bu iş də başa çatacaqdır. Nazirlər Kabinetinin 1998-ci il tarixli qərarına əsasən yerlərə, nazirliklərə, komitələrə növbəti müraciətləri göndərmişik ki, bayramqabağı – həm Yeni il

bayramı, həm də Dünya azərbaycanlilarinin həmrəyliyi günü münasibətilə kömək etsinlər. Hesab edirəm ki, həmişəki kimi, nazirlik, komitə və şirkətlər bu sahədə özköməklərini əsirgəməyəcəklər. Mənim bir xahişim vardır. Əgər məsləhətdirsə, hava soyuqdur, şərait ağırdır, yardımı aparan nazirlər bu dəfə imkan tapsalar, Siz məsləhət bilsəniz, özləri getsələr çox əhəmiyyətli olar. Yardımı hər dəfə göndərirlər, mən bunu birmənalı deyirəm, çox diqqətlə yanaşırlar, bütün nazirlik və komitələr hər bayramda aparıb təhkim olunduqları yerə yardım paylayırlar. Müavinlər, idarə rəisləri gedirlər. Mən xahiş edərdim ki, bu dəfə nazirlərin özləri getsinlər.

**H e y d ə r Ə l i y e v:** Tamamilə düz deyirsən. Mən tapşıraram, həm burada iştirak edən və iştirak etməyən bütün nazirlərə, bütün hökumət orqanlarının başçılarına və məcburi köçkünlərə yardım aparan başqa təşkilatlara, bu dəfə Yeni il ərəfəsində hamısını özləri etsinlər.

**Ə l i H ə s ə n o v:** Çox sağ olun, cənab Prezident.

**H e y d ə r Ə l i y e v:** Şəxsən getsinlər, onların yaşayışını da görsünlər. Sən bunu təşkil elə, bir cədvəl hazırla, kim hara gedəcək. Burada məsələ təkcə ondan ibarət olmamalıdır ki, gətirdim, 10–15 adam yığışdı, onların bayramını təbrik elədim, bu yardımı verdim, televiziya da bunu çəkib göstərdi, bununla qurtardı. Yox. Əgər kim gedirsə, bir neçə saat vaxtını sərf etməlidir, gedib çadırlara girməlidir, vəziyyəti öyrənməlidir. Hər gedən adam o vəziyyət haqqında hansısa yeni, məlum olmayan bir şey meydana çıxara bilər. Yoxsa, gedib elə-belə bayram təbriki ilə qurtarmamalıdır. Gedib geniş şəkildə görüşmək, sonra təbiidir ki, bayram şəraiti təşkil edib, görüşüb hədiyyələri vermək olar. Təklif edirəm ki, nazirlər və yüksək vəzifəli şəxslər, bax, belə bir proqramla getsinlər. O cümlədən, pis olmazdı ki,

Nazirlər Kabinetinin rəhbərləri də – Artur Rasizadə, Abid Şərifov ömürlərində heç olmazsa bir dəfə oralara getsinlər, görsünlər. Abid Şərifov ancaq Avropa Şurasına gedir, ora gedir, bura gedir. Heç çadır şəhərciyi görmüsən? Bilirəm, sən orada bərpa işləri ilə məşğul olmusan. Yaqub, sən də get. Başa düşdün. Murtuz müəllim, sən də.

**M u r t u z  Ə l ə s g ə r o v:** Gedəcəyik.

**H e y d ə r  Ə l i y e v:** Amma yaxşı yerə get. Sən keçən dəfə Şamaxıya getmişdin.

Başqa yerlər də var, amma uzaqdadır. Əgər imkanın yoxdursa, Əli Həsənov sənə kömək edər. Başqa şeylər də tapın, verin aparsınlar. Xarici Işlər naziri də getsin. Müdafiə naziri, sən heç bu işlərlə məşğul olmamısan. Get, gir o cadırlara, otur, orada bir söhbət elə. Oranın bir ab-havasını gör. Bilirəm, Usubov gedir. Qalanların adını çəkmirəm. Hərə özü üçün nəticə çıxarsın.

**Ə l i  H ə s ə n o v:** Cənab Prezident, çox sağ olun. Çox vacib məsələ idi. Bir məsələni də Sizin nəzərinizə çatdırmağı vacib sayıram.

Cənab Prezident, havalar pisləşən kimi bir sıra beynəlxalq təşkilatlar bizə müraciət etdilər. Birinci BMT-nin Qaçqınların Ali Komissarlığının Bakı ofisi müraciət etdi və 1500 isti odeyal ayırıbdır. Rayonlar müəyyənləşdirilməyib, üç-dörd gün ərzində özləri aparıb paylayacaqlar.

Çin Xalq Respublikasının səfiri müraciət etdi, onlar 470 isti odeyal ayırıb. Yerini müəyyənləşdirmişik. Aparıb paylayacaqlar.

İlham Əliyevin tapşırığı ilə Cingiz adlı bir türk iş adamı gəlib bizimlə görüşdü. Mən bildirdim ki, hazırda bizə coxlu sayda cadır örtüyü lazımdır. 20 min cadır örtüyü sifariş vermişəm. Həmin iş adamı indi Türkiyədədir və söz verib ki, 3-4 günə

onları gətirəcək. Onunla söhbət edərkən maraqlı bir təklif verdi ki, qaçqınları çadırlardan köçürmək üçün 130 ailəlik qəsəbə də tikə bilərik. Mən onun təklifini hazırlayıram. O hazırda Türkiyədə bu təklifin maliyyə məsələlərini həll edir. Qayıdıb gələn kimi mənimlə görüşəcək. Bundan əlavə, Amerika Birləşmiş Ştatlarının Beynəlxalq İnkişaf Fondu 600 isti odeyal gətirib, hal-hazırda özləri paylayırlar. İş adamı Paolo Pərviz İrandan 2 min odeyal gətirdi. Onlar Saatlı çadır şəhərciyində paylanıb.

Türkiyənin səfiri bu yaxınlarda Ağcabədidə çadır şəhərciyində oldu və 3 çadır şəhərciyinin ərzaq təminatında iştirak etdi. Bildirmək istəyirəm ki, beynəlxalq təşkilatlar da havaların soyuması ilə əlaqədar Azərbaycanın qaçqın və köçkünlərini diqqətdən kənarda qoymayıblar.

Cənab Prezident, Sizi əmin edirəm ki, Azərbaycanın bir milyondan artıq qaçqın və məcburi köçkünü daim Sizə və dövlətə öz sadiqliyini göstərib və bu çətin zamanda bunu bir daha canlı surətdə nümayiş etdirdilər. Sağ olun.

**H e y d ə r   Ə l i y e v:** Yaxşı, əyləş. Sumqayıtın icra başçısı, gəl, danış görək Sumqayıtda nə var, nə yox?

## Sumqayıt Şəhər Icra Hakimiyyətinin başçısı Təvəkkül Məmmədovun çıxışı

Möhtərəm cənab Prezident!

Hörmətli müşavirə iştirakçıları!

Qışa hazırlıqla əlaqədar şəhər üzrə hazırlanmış tədbirlər icra aparatının daim diqqət mərkəzində olmuşdur. Yəni həftədə bir dəfə həmin tədbirlərin həyata keçirilməsi yoxlanılmışdır.

Cənab Prezident, bunun nəticəsində mən Sizə məlumat verə bilərəm ki, Səhiyyə və Təhsil nazirliklərinin köməyi və şəhərin daxili imkanları hesabına Sumqayıtdakı 48 məktəbin 80 faizinin dam örtüyü şiferlə əvəz olunmuş və bununla şagirdlərin təhsil almasına yaxşı şərait yaradılmışdır.

**H e y d ə r Ə l i y e v:** Bunu siz etmisiniz, yoxsa Təhsil Nazirliyi?

**T ə v ə k k ü l M ə m m ə d o v:** Cənab Prezident, deyə bilərəm ki, bunun 80 faizini şəhər öz imkanları hesabına edibdir. Səhiyyə obyektlərinin hamısının damı şiferlə örtülüb və onun da xeyri çox olubdur. Məktəblilərin mikrorayon və kvartalarası piyada yollarının hamısı təmir olunub, qışa hazırlanıb. Eləcə də səhiyyə obyektləri.

Möhtərəm cənab Prezident, onu da qeyd edim ki, səhiyyə obyektlərinin heç birində istilik sistemi yox idi. Bu iki il müddətində Səhiyyə Nazirliyinin və şəhərimizin daxili imkanları hesabına xəstəxanaların hamısı istiliklə təmin olunubdur.

**H e y d ə r Ə l i y e v:** Hamısı?

**T ə v ə k k ü l M ə m m ə d o v:** Bir xəstəxana istisna olmaqla, hamısı. O da kiçik bir xəstəxanadır. Əvvəldən istilik sistemi olmayıbdır.

**H e y d ə r Ə l i y e v:** O xəstəxana gərək fəaliyyətini dayandırsın.

**T ə v ə k k ü l M ə m m ə d o v:** Həmin xəstəxana elektrik qızdırıcılarının hesabına işləyir.

**H e y d ə r Ə l i y e v:** Hər otağa gətirib elektrik qızdırıcısı qoyurlar. Bəs dəhlizə çıxanda necə? Xəstələr gəlir ki, orada sağalsın. Belə şəraitdə gərək xəstəxana işləməsin.

**T ə v ə k k ü l M ə m m ə d o v:** Cənab Prezident, mən Sizin nəzərinizə çatdırım ki, Sumqayıt şəhərində istilik sistemi

birdəfəlik ləğv olunub. Mənzillərdə və eləcə də bütün obyektlərdə istilik sistemi işləmir.

**H e y d ə r  Ə l i y e v:** Niyə?

**T ə v ə k k ü l  M ə m m ə d o v:** Deməli, Sumqayıt şəhərinin istilik təminatı mərkəzləşdirilmiş qaydada 1 nömrəli İstilik-Elektrik Stansiyasından iki xətt üzrə verilirdi. Ümumi xəttin uzunluğu 100 kilometri keçmişdi. Səmimi desəm, istilik sistemi hələ 1986-cı ildən öz əhəmiyyətini itirmişdi. Ona görə də qərar qəbul olunmuşdu ki, şəhərin cənub hissəsində yeni qazanxana tikilsin. Həmin qazanxananın da tikintisi 1991-ci ildə dayandırıldı. Ona görə də mən Sizə məruzə etdim ki, xəstəxanalara və 4 məktəbə şəhərin daxili imkanları və nazirliklərin köməyi hesabına iki ildir ki, istilik verilir.

Amma şəhərin köhnə hissəsində 20 qazanxana var idi. Bu da şəhərin təqribən 15 faiz sakinini istiliklə təmin edirdi. O qazanxanalar 1992-ci ildən işləmir. 1995-ci ildən icra hakimiyyəti başçısının sərəncamı ilə qanuni şəkildə ləğv olunub. Mütəxəssislərin hərəsi bir yana dağılıb.

Cənab Prezident, havalar soyuyana qədər vəziyyətdən nisbətən çıxmaq olurdu, həm qaz, həm də enerji təminatı var idi. Onu da qeyd edim ki, 2001-ci ilin fevralına qədər Sumqayıt şəhəri həmişə enerji qıtlığından əziyyət çəkmişdir. 1986-cı ildən dayanmış sənaye qovşağı sizin köməyiniz və göstərişiniz əsasında işə salındı. Ondan sonra şəhərdə enerji qıtlığı aradan götürüldü. Havaların soyuduğu günə qədər Sumqayıt şəhərində enerji təminatından narazılıq yox idi. Şaxtalar düşən gündən şəhərimizdə enerji təminatı ilə bağlı problem yaranıb və buna da səbəb, bayaq Sizin də qeyd etdiyiniz kimi, ancaq tələbatın birdən-birə artmasıdır. Belə vaxtda  şəhərin enerji qurğuları 75 meqavata qədər gücə dözə bilirdi, 75 meqavatdan yuxarı

yüklənməmişdi. Amma şaxtalar düşəndən sonra müəyyən saatlarda yüklənmə 100 meqavatı ötür. Belə hallarda elektrik avadanlığı, kabellər sıradan çıxır. Ona görə də enerji təminatı ilə bağlı şəhərimizdə problem yaranıb.

Havaların soyuyacağı barədə Prezidentin İcra Aparatından, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin hidrometeorologiya xidmətindən məlumat alan kimi, şəhərimizdə qərargah gücləndirildi. Orada adamların sayı artırılıb. Hadisə yerlərinə hamı nəzarət edir, baxır və qərargahın apardığı işin nəticəsi olaraq, qarın çox yağmasına baxmayaraq, Sumqayıt–Bakı yolu bağlanmadı. Nəqliyyatın işi pozulmadı

Cənab Prezident, bir də onu qeyd edim ki, bu çətin günlərdə ağır yol-nəqliyyat hadisəsi və cinayət olmamışdır. Bu gün də həmin qərargah öz işini davam etdirir və yaranan problemləri aradan qaldırır. Şəhərin qazla təminatı, mən deyərdim ki, qənaətbəxşdir. Bununla bağlı Sumqayıt sakinlərindən şikayət yoxdur.

Ancaq, möhtərəm Prezident, qeyd edim ki, biz bağlar zonasına gedən qaz xəttini bağlamışıq. Bu gün Sumqayıtın Bağlar zonasında da 30 min nəfərə yaxın əhali vardır. Bağlar zonasının bir hissəsində – Əlvan Metallar zavodunun sanatoriyasında köçkünlər yaşadığına görə, oranın qaz xəttini bağlamamışıq – əksinə, gücləndirmişik. O xəttin üzərində bir şəhər xəstəxanası olduğuna görə, qaz təminatı pis deyildir. Amma bağların qalan zonalarında məcbur olub qazı bağlamışıq. Bu da şəhərin kənar rayonlarının və Corat qəsəbəsinin qazla təminatında bizə kömək edir.

Su təminatı yaxşıdır. Əlbəttə, enerji kəsilən vaxtlarda qrafik üzrə su verilən binaların yuxarı mərtəbələrində su qıtlığı yaranır. Düzdür, bunların qarşısı alınır. Amma, möhtərəm cənab

Prezident, dünən çox yüklənmədən bir mikrorayonda transformator yandı.

Əvvəllər belə idi ki, şəhərin özündə energetiklərin anbarı var idi. Oradan təminat yaxın idi, asanlıqla başa gəlirdi. Ancaq indi «Barmek»in əsas anbarı Bakıda olduğuna görə, buradan materialın aparılması çətindir.

**H e y d ə r  Ə l i y e v:** Sumqayıt da «Barmek»indir?

**T ə v ə k k ü l  M ə m m ə d o v:** Bəli, cənab Prezident. Bu transformatoru axşam saat 11-də ancaq çatdırdıq. Mən işə qarışandan sonra Bakıdan Sumqayıta gətizdirə bildik. Həmin rayonda bir sutkadan bir qədər az, bu gün saat 12-dək enerji olmadı.

**H e y d ə r  Ə l i y e v:** İndi var?

**T ə v ə k k ü l  M ə m m ə d o v:** Mən çıxanda dedilər işləri qurtarıblar, amma hələ işıq verməmişdilər. Transformator hazır idi.

Möhtərəm cənab Prezident, vaxtınızı çox almaq istəmirəm, şəhərin enerji təchizatından başqa problemi, demək olar ki, yoxdur. Sənaye zonasında da enerji problemi yoxdur. Çünki orada enerji təminatı dəyişmir. 55–60 meqavatdır, bu, dəyişməz qalır. Ona görə də sənaye zonasında heç vaxt enerji problemi yaranmır. Qaz problemi yoxdur. Əsas qaz etilen-propilen istehsalındadır. Oranın qazla təminatı daim nəzarətdədir. Bir qayda olaraq, 5 atmosfer təzyiqində təmin olunur. Buna görə də orada istehsal dayanmır.

**H e y d ə r  Ə l i y e v:** Əyləş. Sumqayıta gedib-gələn var, yoxsa yox?

**Ə l i  H ə s ə n o v:** Bəli.

**H e y d ə r  Ə l i y e v:** Sən orada yaşayırsan, oranın sakinisən. Soruşuram ki, rəhbər vəzifəli şəxslərdən Sumqayıta gedib-gələni var?!

**T ə v ə k k ü l  M ə m m ə d o v:** Möhtərəm Prezident, üzr istəyirəm, Iqtisadi Inkişaf naziri, Baş nazirin müavini Sumqayıta gəlirlər.

**H e y d ə r  Ə l i y e v:** Hansi müavini?

**T ə v ə k k ü l  M ə m m ə d o v:** Abid Şərifov.

**A r t u r  R a s i z a d ə:** Mən də bu il bir neçə dəfə Sumqayıtda olmuşam.

**T ə v ə k k ü l  M ə m m ə d o v:** Cənab Prezident, Sumqayıtda sənaye qovşağının 8 aya başa gəlməsinə əsas nəzarəti Nazirlər Kabinetinin rəhbərləri – həm Baş nazir, həm də Baş nazirin müavini Abid Şərifov üzərlərinə götürmüşdülər. Siz oraya 3 milyon dollar pul ayırmışdınız. Bunu Sumqayıtın bütün əhalisi bilir və Sizə minnətdarlıq edirlər.

**H e y d ə r  Ə l i y e v:** Mən istəyirdim bunları tənqid edəm. Sən də burada faktlar gətirdin ki, bəlkə mən onlara təşəkkür etməliyəm.

**T ə v ə k k ü l  M ə m m ə d o v:** Cənab Prezident, mən düzgün informasiya verirəm.

**A r t u r  R a s i z a d ə:** Biz orada daha çox olmalıyıq.

**H e y d ə r  Ə l i y e v:** Bilirsiniz, demək istəyirəm ki, Sumqayıt, necə deyərlər, bizim qulağımızın dibində olan şəhərdir. Xatirimdədir, 1970-ci illərdə sənin özün də burada Mərkəzi Komitədə şöbə müdiri işləyirdin. Onda Sumqayıta daha çox gedib-gəlirdin. Elədirmi?

**A r t u r  R a s i z a d ə:** Elədir.

**H e y d ə r  Ə l i y e v:** Onda Nazirlər Sovetinin sədri də, nazirlər də tez-tez gedib-gəlirdilər.

**A r t u r  R a s i z a d ə:** Mən birinci müavin işləyəndə də tez-tez gedib-gəlirdim.

**H e y d ə r  Ə l i y e v:** İndi vəzifən artıb, gediş-gəlişi azaltmısan.

**Ə l i  H ə s ə n o v:** Cənab Prezident, hər şənbə günü seçki qərargahına Mərkəzi Komitənin ya katibi, ya da Nazirlər Sovetinin sədr müavini gələrdi. Mən özüm o tədbirlərdə iştirak edirdim.

**H e y d ə r  Ə l i y e v:** O vaxt biz Sumqayıtı tikdik, başa çatdırdıq.

**T ə v ə k k ü l  M ə m m ə d o v:** Cənab Prezident, Sumqayıtda alüminium zavodunda 6 vanna işə düşür. Hazırda dördüncü korpusda 64 vanna hazırdır. Orada cəmi 86 vanna var. İlin sonunadək vannaların hamısı hazır olacaqdır.

**H e y d ə r  Ə l i y e v:** Onlar köhnə vannalar kimi olacaq, yaxud yeni olacaqdır?

**T ə v ə k k ü l  M ə m m ə d o v:** Hamısı yeni vanna olacaqdır.

**H e y d ə r  Ə l i y e v:** Çünki əgər köhnə vannalardırsa, mən bir dəfə o zavodda oldum, o vannaları gördüm, qorxdum. Dedim, mən nə vaxt buradan, bu vannaların içindən çıxacağam.

**T ə v ə k k ü l  M ə m m ə d o v:** Cənab Prezident, həmin vannaların hamısı sökülüb tullanıbdır. Onlardan əsər-əlamət də qalmayıbdır.

**H e y d ə r  Ə l i y e v:** Onlar yoxdur?

**T ə v ə k k ü l  M ə m m ə d o v:** Xeyr, Iqtisadi Inkişaf naziri bir neçə dəfə orada olubdur, özü görübdür.

**H e y d ə r  Ə l i y e v:** Yeni, müasir vannalardır?

**T ə v ə k k ü l  M ə m m ə d o v:** Bəli, müasir tələblərə uyğun vannalardır.

**H e y d ə r   Ə l i y e v:** O vannalar haradan gətirilibdir?

**F ə r h a d   Ə l i y e v:** Möhtərəm cənab Prezident, hissələri Rusiyadan, Ukraynadan, Çexiyadan, müxtəlif ölkələrdən gətirilir və orada quraşdırılır.

**H e y d ə r   Ə l i y e v:** Mən bunu deyirəm, aydındır ki, orada quraşdırılır.

Yaxşı, gəlin söhbəti bununla qurtaraq. Biz üç saatdır buradayıq. Amma hesab edirəm ki, bu çox əhəmiyyətlidir.

## AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN YEKUN NİTQİ

Hörmətli müşavirə iştirakçıları!

Mən müşavirə başlanarkən sizə onun məqsədini çatdırdım və bildirim ki, bu gün biz həm mövcud vəziyyəti təhlil edirik, həm də bundan sonra görüləsi işlər haqqında lazımi tədbirlər görürük və görmək istəyirik. Düzdür, vaxt çox getdi – üç saat. Bəzi natiqlər də həddindən artıq çox danışdılar. Ancaq mənə belə gəlir ki, burada olan söhbətin hamısı faydalıdır, əhəmiyyətlidir. Yəni mən heç kəsə imkan verməzdim ki, boş danışıq aparsın və boş danışıq da yoxdur.

Düşünürəm ki, biz Azərbaycanda ölkəmizin enerji ilə təmin olunması ilə əlaqədar indiyə qədər gördüyümüz tədbirlərin, bir tərəfdən, nəticələrini müşahidə edirik, ikinci tərəfdən də, bundan sonra hansı tədbirləri görməliyiksə, onları müəyyən edirik. Buradakı çıxışlardan, müzakirələrdən gördüm ki, onların artıq çoxları məlumdur.

Əgər Azərbaycanın elektrik enerjisi ilə təchizatı haqqında danışsaq – bu gün bu barədə çox deyildi – qısaca onu demək olar ki, bizim ölkəni elektrik enerjisi ilə fasiləsiz təmin etmək imkanımız var. Bunun üçün bizim lazımi qədər elektrik enerjisi istehsal edən müəssisələrimiz var. Bunların böyük bir qismi keçmişdən qalıbdır, 1970–1980-ci illərdə tikilibdir və indi də istifadə edilir, təmir olunur. Bir qismi isə son illərdə, yəni Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra tikilibdir.

Mən bunları deyə bilərəm: Yenikənd Su Elektrik Stansiyası, şəhərin Xətai rayonunda 100 meqavatlıq 1 nömrəli İEM. Yaponiyadan alınmış kreditlər əsasında «Şimal» DRES-də buxar-qaz qurğusunu tikib hazırlamışıq. Artıq o işləyir. Mənə deyilənə görə, təxminən 200–250 meqavat elektrik enerjisi verir. Elədirmi?

**A r t u r  R a s i z a d ə:** Bəli.

**H e y d ə r  Ə l i y e v:** 250 meqavat elektrik enerjisi az deyil, bu, böyük artımdır. Biz Yaponiyadan 90 milyon dollar kredit götürdük, Sumqayıtda da tikdik. Əgər səhv etmirəmsə, bütün elektrik stansiyalarının tikilməsi üçün təxminən 600 milyon dollara qədər kredit götürmüşük. Bu, az vəsait deyil. Bilirsiniz, dünyanın bu vaxtında bu qədər kredit götürmək, onun altına girmək və elektrik stansiyaları yaratmaq asan məsələ deyildir.

Mən iki gün bundan öncə baxırdım, Rusiyada ölkənin elektrik enerjisi ilə təmin edilməsi barədə Çubaysın danışığını «Vremya» proqramında bir balaca göstərdilər. Bilmirəm, sən gördün, yoxsa yox?

**A r t u r  R a s i z a d ə:** Bəli, gördüm.

**H e y d ə r  Ə l i y e v:** Mən belə anladım ki, bu illərdə Rusiyada yeni bir elektrik stansiyası tikilməyibdir. Düzdür, onlarda çox böyük elektrik stansiyaları var idi, hansılar ki, elektrik enerjisi istehsal edib, bütün SSRİ-yə verirdi. O cümlədən, oradan biz də çox alırdıq. Onlar var, təmir ediblər. Ancaq, hər halda, mən bunu eşidəndə fikirləşdim ki, demək, biz bu sahədə öz miqyasımıza görə az iş görməmişik.

Ancaq bunlar da yetərli deyil. Biz «Şimal» DRES-in ikinci növbəsini mütləq tikəcəyik və Yaponiyadan güzəştli kredit almaq imkanımız var. Mən o vaxt danışmışdım ki, indiki elektrik stansiyalarının bəzilərinin dayandırılması, bəzilərinin yenidən tikilməsi barədə proqram hazırlayın. Məsələn, Sumqayıtda yeni

elektrik stansiyasının tikilməsi haqqında təkliflər var idi. Deyəsən, Pirverdiyev deyirdi ki, 160 milyon dollar kredit almaq lazımdır. Sən onu deyirdin?

**E t i b a r  P i r v e r d i y e v** (*«Azərenerji» Səhmdar Cəmiyyətinin prezidenti*): Bəli.

**H e y d ə r  Ə l i y e v:** Əgər o realdırsa, bunu alıb tikmək lazımdır. Orada neçə meqavat güc olacaqdır?

**E t i b a r  P i r v e r d i y e v:** 400 meqavata qədər.

**H e y d ə r  Ə l i y e v:** Demək, onu da etmək lazımdır. Çünki bizim bəzi stansiyalar, məsələn, Sumqayıtdakı, Əli Bayramlıdakı stansiyalar artıq köhnəliblər. Acıq demək lazımdır ki, biz bunları böyük çətinliklə və böyük cəsarətlə işlədirik. O gün Əli Bayramlı elektrik stansiyasında elə bir hadisə baş verdi ki, mənə dedilər, bizim bütün elektrik şəbəkəsinə çox mənfi təsir etdi. Ona görə də bu sistem daim inkişaf etməlidir, daim təkmilləşdirilməlidir.

Ancaq mən bu gün müzakirələrdə sual verirdim. Bir var, bizim elektrik enerjisi istehsal etmək imkanlarımız, bir də var ki, bu elektrik enerjisini istehlakçılara catdırmaq və itkilərə yol verməmək. Əgər indi bu elektrik stansiyalarının tikilməsi ilə yanaşı, biz ötürücü xətləri də, transformatorları da, başqa qurğuları da təzələyə bilsək, yaxud bir çoxunu təmir edə bilsək, itkilərin qarşısını ala bilsək, heç olmasa itki keçmişdəki səviyyəyə, yəni 8 faizə düşsə, çox şey qazanarıq. Deyirsiniz ki, indi 20 faizə yaxındır, demək, istehsal olunan hər 100 meqavat enerjinin 20 meqavatı itkiyə gedir, halbuki, 20 meqavat elektrik enerjisi ilə böyük iş görmək olar. Ona görə bizim qarşımızda duran vəzifə bu məsələlərin hamısını kompleks həll etməkdir.

Bu müzakirələr bir də onu göstərdi ki, biz elektrik stansiyalarının tikilməsi barədə işlər görmüşük və perspektivdə də bu işlər var. Ancaq ötürücü xətlər, transformatorlar, şəbəkələr və

sair ikinci dərəcəli səviyyədə qalmamalıdır. Əgər onlar elə qalsa, nə qədər çox elektrik enerjisi istehsal etsək də, istədiyimizə nail ola bilməyəcəyik. Çünki o itkilərin qarşısını ala bilməyəcəyik, həmin bərbad vəziyyətdə qalan şəbəkələr, transformator təsərrüfatı daim – Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı danışdı ki, transformator yandı, bir mikrorayon bir sutka işıqsız qaldı – belə vəziyyətdə olacaqdır. Ona görə də bu məsələlər də paralel həll edilməlidir.

«Azərenerji» Səhmdar Cəmiyyətinin prezidentinin bu barədə təklifləri var. Amma mən sənə demişəm, bu tapşırığı bir də təkrar edirəm. Mən demirəm ki, indi bu, təcili bir işdir, amma yaxın gələcəyimiz üçün çox vacibdir. Sən bunların hamısını topla, geniş bir proqram tərtib edin. Elə olmasın ki, bu gün bunu etdik, sevindik ki, bunu etmişik. Sabah o birisini etdik, o da bizə sevinc gətirdi. Proqram hazırlayaq, görək onu nə qədər vaxta yerinə yetirə biləcəyik və həyata keçirək.

Ancaq indi istehsal olunan elektrik enerjisinin istifadə edilməsində, təbiidir ki, burada oturanların hamısının məsuliyyəti var. İndi nəyimiz var, odur. Yəni elektrik stansiyalarımız da budur, dediyim kimi, bunların yetərli gücləri var. Şəbəkələr də məlumdur, transformatorlar da məlumdur. İndi nizam-intizamı, qanun-qaydanı möhkəmləndirmək lazımdır. Hər şey idarə olunmalıdır və hər bir xırda hadisə dərhal nəzərə alınmalıdır, ölcü götürülməlidir. Hesab etmək olmaz ki, qışın soyuq dövrü keçibdir. Yox, keçməyibdir. Düzdür, iki gündür yağış yağır, qar əriyir. Amma hələ soyuqlar qarşıdadır. Bu birincisi. İkincisi, təkcə Bakıda öz evimizin ətrafını görərək, respublikanın vəziyyətini qiymətləndirə bilmərik ki?! Biz bütün respublikada, hər bir bölgədə olan vəziyyəti qiymətləndirməliyik və hər bir

bölgə üçün lazımi tədbirlər görməliyik. Burada Bakı şəhəri xüsusi yer tutur.

Bakı Şəhəri İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov bu vəzifəyə təyin olunandan xeyli işlər görübdür. Bunu qeyd etmək lazımdır. Elə bizim küçələrin asfalt örtüyünün təzələnməsi, təmizlənməsi, qaydaya salınması şəhərin görünüsünü nə qədər dəyişdiribdir. Təkcə görünüşü deyil, ümumiyyətlə, şəhər təsərrüfatının keyfiyyəti yüksəlibdir. O, kanalizasiyalar haqqında dedi.

Biz vaxtilə, 1970-ci illərdə Bakının kanalizasiya sistemi ilə bağlı böyük proqram tərtib etmişdik ki, onu həyata keçirək. Beləliklə də, oradan-buradan keçən kanalizasiya xətlərini ləğv edək və bunların hamısı Hövsana getsin. Orada da təmizləmə sistemi yaradılmalı idi ki, kanalizasiya suları təmizlənsin, sonra Xəzər dənizinə buraxılsın. Amma bu, yerinə yetirilmədi. Dünənə qədər mən bulvara gedirdim – indi ona Milli park adı vermişik – paraşüt qülləsindən bir az bu tərəfə gələndə üfunət başlayırdı. Çünki niyə? Camaatın istirahət etdiyi yerin, parkın kənarında üç yerdən dənizə şəhərin bütün kanalizasiyasının suyu tökülürdü. Mən bunu ilk dəfə deyildi ki, görmüşdüm. Mən onu üç il bundan qabaq da görmüşəm, beş il bundan əvvəl də görmüşəm. Ancaq mənim bu barədə verdiyim göstərişlər yerinə yetirilmirdi. Mən də gedib onu hər gün yoxlamayacağam ki. İldə bir dəfə düşəndə, Milli parka gedirsən. Gəlirsən, görürsən, narahat olursan, göstəriş verirsən. Bəli, yerinə yetirəcəyik. Zaman keçir, yerinə yetirilmir. Amma mən göstəriş verdim, o, başqa yerlərdən gələn kanalizasiya xətlərini qısa bir müddətdə buradan götürdü. Demək, bu, iki-üç ayın işi imiş. Elədirmi?

**Hacıbala Abutalıbov:** Bəli.

**H e y d ə r  Ə l i y e v:** Bu, Bakıya, əhaliyə, insanlara lazımdır. Kanalizasiya sahəsində görülən bu işlər təqdirəlayiqdir. Ancaq gərək sən Bakının kanalizasiya problemini köklü surətdə həll edəsən. Nə edirsən, et, təkliflərini ver, hansı yardım lazımdırsa, sənə edək. Bu kanalizasiya məsələsini köklü həll et ki, kanalizasiya o evin yanından keçdi, bunun altından keçdi, oradan keçdi – belə olmasın – bunun müəyyən böyük yolları olsun, hamısı dediyimiz yerə getsin və Bakıda bu problem biryolluq həll olunsun.

O ki qaldı küçələrin qaydaya salınması məsələsi, sən onu da edirsən. Güman edirəm, havalar düzələndən sonra davam etdirəcəksən. İndi küçələrdə avtomobillə gedəndə adam özünü daha da rahat hiss edir. Elədir, yoxsa yox?

**A r t u r  R a s i z a d ə:** Bəli, elədir.

**H e y d ə r  Ə l i y e v:** Buradan aeroporta gedirsən, heç hiss etmirsən ki, avtomobillə gedirsən. Axı, bu da çətin bir məsələ deyilmiş. Murtuz müəllim, elədir?

**M u r t u z  Ə l ə s g ə r o v** (*Milli Məclisin sədri*): Bəli.

**H e y d ə r  Ə l i y e v:** Düzdür, bunun parlamentə aidiyyatı yoxdur. Sadəcə, deyirəm, sən də aeroporta gedirdin, mən də aeroporta gedirdim, taq-tuq, taq-tuq idi. Amma indi maşın gedir, heç hiss etmirsən. Bunlar hamısı yaxşı hallardır. Mən bunları dəstəkləyirəm.

Biz metropolitenin 35 illiyini keçirdik. Orada lazımi tədbirlər görülür, bundan sonra da görün. Çünki qışın bu ağır vaxtında şəhər əhalisinin əksəriyyətini xilas edən metropoliten oldu. Onlar məlumat vermişdilər ki, guya metropolitenlə əhalinin 30 faizi gedib-gəlir. Amma mənə belə gəlir ki, metropolitendən insanlar daha çox istifadə edirlər.

**T a ğ ı  Ə h m ə d o v** (*Bakı Metropoliteninin rəisi)*: Cənab Prezident, son günlər hər gün 450 mindən çox adam gedib-gəlir.

**H e y d ə r  Ə l i y e v:** Bəli, orada qanun-qaydanı daha da düzəldin. Hər halda, şəhər təsərrüfatı inkişaf etməlidir, şəhərimiz gözəlləşməlidir.

Burada qaz haqqında danışıldı. İndi biz Neft Şirkətindən asılıyıq ki, onlar nə qədər qaz çıxarırlar. Onlar artıq söz verdilər. Artur Rasizadə, sən buna nəzarət edəcəksən, onlar yeni quyular qazsınlar ki, biz qaz hasilatını artıraq. Bir də Rusiyadan gələn qazı mümkün qədər artırmaq lazımdır ki, qazla təminat məsələsi həll olunsun.

Su təchizatı haqqında danışdıq. Bilirsiniz, gərək hər bir sakin, hər bir insan şəhər haqqında düşünsün, yaşadığı yer, küçə, ev haqqında düşünsün. Amma biz isə bütün respublika haqqında düşünürük və düşünməliyik.

Mən bir neçə gündür ki, şəhərdə elektrik enerjisi və qaz təchizatı məsələsindən çox narahat idim. Artur Rasizadəyə tapşırmışdım. O, srağagün bu işlə bir az məşğul oldu. Mən sizi bu gün burada topladım ki, vəziyyəti özüm bilim, siz də biləsiniz. Bir də ki, hamınız bu işə səfərbər olasınız. Biz – xalqımız, millətimiz Avropa dəyərlərini qəbul edib bu istiqamətdə inkişaf etmək istəyirik. Avropa dəyərləri çox böyük sahəni əhatə edir. Bunun ən böyük hissəsi insanların yaşayışıdır, ev şəraitidir və yaşadığı yerlərə göstərilən münasibətdir.

Məsələn, bizdə elektrik enerjisi çatmır, şikayət edirlər ki, şadlıq evlərində səhərə qədər işıq yanır. Elektrik enerjisi çatmır, bəzi yerlərdə isə bir lampa əvəzinə beşini yandırır, pulunu da vermirlər. Amma Avropada belə şey yoxdur. Elə bizim üçün daha yaxın olan – təbiidir, o da Avropa ölkəsidir, Avropa Birliyinə daxil olacaqdır – Türkiyəni götürün. Mən orada

dəfələrlə soruşmuşam. Əgər orada kimsə elektrik enerjisinin pulunu beş gün vermirsə, elektrik enerjisi kəsiləcək. O, şəhid atasıdır, şəhid anasıdır, müharibə əlilidir, yaxud köçkündür, qaçqındır – fərqi yoxdur. İstanbul şəhərində 12 milyon əhalinin xeylisi gecəqondularda yaşayır. Bilirsiniz də, gecəqondular nədir, biz «samostroyka» deyirik, kasıbdırlar, evləri yoxdur, orada yaşayırlar. Amma elektrik enerjisinin pulunu verməsə, kəsəcəklər. Baxmayaraq ki, o kasıbdır.

Amma biz buna nə qədər dözəcəyik? Metrodan camaat güzəştlə istifadə edir. Elektrik enerjisini güzəştlə veririk, o qədər güzəştdir ki, heç belə güzəşt ola bilməz. Qazı güzəştlə veririk. Elektrik enerjisindən istifadəyə görə yığılmayan pul 230 milyon dollar təşkil edir.

**A r t u r   R a s i z a d ə:** Cənab Prezident, elektrik enerjisinin pulunu yığmış olsaydıq, büdcədən maliyyələşdirilən təşkilatların işçilərinin əmək haqlarını 80 faiz, pensiyaları isə 2,6 dəfə birdəfəlik qaldırmaq olardı.

**H e y d ə r   Ə l i y e v:** Yaxşı, ay bizim vətəndaşlar, gəlin bu elektrik enerjisinin pulunu verin. Onsuz da bu heç yerə getməyəcək, bizim büdcəyə gələcəkdir. Büdcə də artanda bizə imkan verəcəkdir ki, insanların maaşını qaldıraq.

Məsələn, mən bəyan etmişəm, 2003-cü ilin büdcəsinə görə, demək olar ki, bütün sahələrdə maaşları qaldıracağıq. Ancaq əgər 230 milyon dollar bir ildə gəlsə... Hələ qazdan nə qədər gəlmir, sudan nə qədər gəlmir – bunları demirəm. Amma heç bir ölkədə belə bir şey yoxdur. Avropa dəyərləri bununla uzlaşmır. Avropa Birliyinə girən ölkələr bu cür yaşaya bilməzlər. Amma biz də Avropa Birliyinə girməyə hazırlaşmalıyıq. Biz Avropanın bir hissəsiyik. Avropada olmaq, nə bilim, elə seçkidən ibarət deyildir. Görürsünüz, nə qədər tələblər var. Onların hamısını

yerinə yetirmək lazımdır. Biz neçə ildir ki, bu güzəştləri vətəndaşlarımıza edirik. İndi də məcburuq ki, edək. Ancaq mən bu gün burada iştirak edənlərin hamısına və bütün bu işlərə məsul olan şəxslərə bir də tapşırıram ki, bu barədə səylərini artırsınlar və biz bu sahədə yavaş-yavaş Avropa dəyərlərinə yaxınlaşaq. Ona görə də elektrik enerjisinin, qazın qənaətlə işlədilməsi, onların haqqının verilməsi indi bizim üçün əsas məsələlərdən biridir.

Mən bu gün ancaq Hacıbala Abutalıbov ilə dialoq aparırdım. Ancaq burada bütün rayonların icra hakimiyyətlərinin başçıları iştirak edirlər. Bu təbiidir, onlar öz vəzifələrini bilirlər. Mən yeni bir şey deməyəcəyəm. Rayon icra hakimiyyətinin başçıları rayonun bütün məsələlərinə cavabdeh olsunlar. Təkcə Bakıda yox, bütün respublikada, hər bir rayonda, hər bir şəhərdə, hər bir qəsəbədə. Xüsusən ilin belə ağır dövründə bizim yerli icra hakimiyyəti orqanlarının başçıları gərək həddindən artıq səfərbər vəziyyətdə olsunlar. Gecə-gündüz işləmək lazımdır. Hər şeyə nəzarət etmək lazımdır. Hər şeyi bilmək və meydana çıxan çətinlikləri aradan qaldırmaq lazımdır.

Qış vaxtı soyuq hamıya təsir edir. Lap evində yaxşı istilik olan adama da eşiyə çıxanda təsir edir. Biz də burada isti yerdə oturmuşuq. Amma gəlin qaçqın düşərgələrindəki, çadırlardakı insanların vəziyyətini təsəvvür edək. Bilirsiniz, əgər insanın bir mənzili varsa, onun divarları var, döşəməsi, tavanı var, evdə əşyası var. Soyuqdur, istiliyi azdır, ya yoxdur, yaxud bir-iki saat elektrik enerjisi kəsilibdir – bəzisi buna dözmür. Ancaq bəs o qaçqın vəziyyətində yaşayan insanlar, çadırlarda olan insanlar bunlara necə dözürlər?! Mən həmişə, xüsusən bu soyuq günlərdə hər gün, hər dəqiqə o qaçqınlar haqqında, onların vəziyyəti haqqında düşünürəm.

Bizim hamımız bu cür ağır vəziyyətdə ötüşə bilərik. Evin soyuqdur, üstünə iki yorğan at. Belə şeyləri biz çox görmüşük. Yaxud yatanda corabını çıxarma. Məsləhətlər verirəm. Əli İnsanov təsdiq edər ki, mənim məsləhətlərim düzdür. Çünki evin var, döşəyin, yastığın var, hətta mebelin var, yemək bişirməyə imkanın da var. Amma o çadırda nə var? Ona görə biz o insanlara ömrümüz boyu minnətdar olmalıyıq ki, onlar belə vəziyyətə dözürlər. Bu gün bir daha bildirmək istəyirəm – mənim gecə-gündüz iş fəaliyyətimin əksər hissəsi ona yönəlibdir ki, münaqişə həll olunsun. İşğal olunmuş torpaqlarımız azad edilsin, o insanlar öz yerlərinə qayıtsınlar. Ondan sonra biz onların yeni həyatını quraq.

Məsələn, işğaldan azad edilmiş rayonlarda Avropa Birliyinin hesabına, Yaponiyanın qrantları hesabına, başqa hesablara nə qədər evlər, binalar tikildi! Xüsusən Füzuli, Ağdam rayonlarında. Çox yerdə tikildi! İndi onlar gedib orada rahat yaşayırlar. Yaxşı evlərdir, rahat yaşayırlar. Mənə deyirlər ki, Füzuli rayonunun azad edilmiş hissəsində rayon əhalisinin, demək olar, 40 faizi yaşayır. Elədir, yoxsa yox?

**Əli Həsənov** (*Baş nazirin müavini, Dövlətqaçqınkomun sədri*): Bəli, Horadiz qəsəbəsində vaxtilə 6 min əhali yaşayırdı, hazırda orada 4 minə qədər əhali yaşayır.

**Heydər Əliyev:** Demək, vəziyyət tamamilə dəyişir. Yeni qəsəbələr tikilir. Biz Ağcakənddə tikdik, mən gedib gördüm. İndi həm Ağdamda, həm Yevlaxda, Şəmkirdə, Biləsuvarda, başqa yerlərdə tikilir, gedib hamısına baxacağıq.

**Əli Həsənov:** Hazırda 32 rayonda tikinti gedir. Ağdamda tikdiyimiz üç qəsəbənin birinə camaatı köçürmüşük, ikisinə də yaxın günlərdə köçürəcəyik.

**H e y d ə r Ə l i y e v:** Biz indi nə mümkündürsə edirik. Amma hamısını edə bilmərik. Hamısını o vaxt edə biləcəyik ki, bizim torpaqlar azad olsun, gedib o evləri, binaları orada tikək. Buna da nail olacağıq. Mütləq nail olacağıq. Amma buna nail olana qədər biz əziyyətin içində yaşayırıq və yaşamağa məcburuq.

Bax, ölkədə belə bir vəziyyət olan halda, başqaları – öz evində, öz mənzilində yaşayan, hər şeyi olan insanlar gərək bu gün elektrik enerjisi yoxdur, sabah qaz gəlmir deyə narazılıq etməsinlər. Əlbəttə, camaat üçün bunların hamısı olmalıdır. Məhz buna görə də mən üç saat yarımdır burada vaxt itirirəm. Amma mən hamıya müraciət edirəm, gəlin müqayisə edək. Onların da vəziyyətinə baxaq, bütün qalanların da vəziyyətinə baxaq, həmin şadlıq evlərində gecə səhərə qədər oturanların da vəziyyətinə baxaq, restoranlarda oturanların da vəziyyətinə baxaq – hamısının vəziyyətinə baxaq.

Mən sözümü qurtararaq demək istəyirəm ki, burada danışılan bütün nöqsanlar, hamısı aradan qaldırılmalıdır. Danışdığımız tədbirlər həyata keçirilməlidir. Mən bütün bu işləri Baş nazirə həvalə edirəm. Rəhbərlik etsin, əlaqələndirsin. Vaxtı-vaxtında mənə məlumatlar versin. Həm bugünkü problemləri həll etməliyik, həm də perspektivdəki problemləri həll etməliyik və həll edəcəyik. Hamısını həll edəcəyik. İnşallah, bu ili çox yaxşı nəticələrlə sona catdıracağıq və yeni ili yaxşı əhval-ruhiyyə ilə başlayacağıq. Sağ olun.

## AZƏRBAYCAN MUSİQİ MƏDƏNİYYƏTİNİN GÖRKƏMLİ NÜMAYƏNDƏLƏRİ –

# FİDAN VƏ XURAMAN QASIMOVALARIN YARADICILIĞININ 25 İLLİYİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ MƏRASİMDƏ NİTQ

*«Respublika» sarayı*

*20 dekabr 2002-ci il*

Əziz Fidan xanım!
Əziz Xuraman xanım!

Mən sizi 25 yaşınız münasibətilə, səhnə yaradıcılığı fəaliyyətinizin 25 illiyi münasibətilə təbrik edirəm, sizə cansağlığı arzu edirəm. Daim belə gözəl olasınız!

Həmişə xoşbəxt olasınız və bu gözəl səsinizi də, gözəl istedadınızı da qoruyub saxlayasınız!

Mən səhv etmədim ki, dedim, 25 yaşınız münasibətilə təbrik edirəm. Ona görə ki, həqiqətən, siz bu gün səhnədə elə oxuyursunuz, mürəkkəb mahnıları elə gözəl ifa edirsiniz ki, siz 25 yaşlı bir gənc müğənni təsəvvürü yaradırsınız. Güman edirəm ki, hələ sizin gələcəkdə böyük uğurlarınız var.

25 il ərzində Fidan xanım və Xuraman xanım Azərbaycan musiqi sənətinin, opera musiqisinin, klassik musiqi sənətinin tarixinə böyük, gözəl qızıl səhifələr yazmışlar. Siz artıq Azərbaycan mədəniyyətinin, incəsənətinin, musiqisinin böyük tarixinə daxil olmusunuz və bu tarixdə ən görkəmli yerlərdən birini tutmusunuz.

Bilirsiniz, mən bu gün bu salonda böyük qürur hissi keçirirəm. Neçə vaxtdır burada oturmuşam, heç hiss etmirəm ki, vaxt keçibdir. Elə bil ki, hələ vaxt qarşıdadır. Dinləyirəm, baxıram və düşünürəm:

dünyada Azərbaycan xalqı var, qədim tarixə malik olan, özü də çox zəngin tarixə malik olan Azərbaycan xalqı var. Dünyada müstəqil Azərbaycan dövləti var. Bizim xalqımızın, dövlətimizin hər şeyi var. Ölkəmizin gözəl təbiəti, təbii sərvətləri var, yeraltı zəngin sərvətləri – neft və qaz yataqları var. Gözəl meşələri, çayları, bulaqları, dağları – hər şeyi var. Xalqımızın, dövlətimizin böyük iqtisadi potensialı var. Böyük intellektual potensialı var. Gözəl opera və balet teatrı var. Artıq bu gün dünya ölçüsündə yüksək səviyyəyə çatmış bu gözəl simfonik orkestrimiz var. Gözəl, zəngin mədəniyyətimiz var. Bizim müxtəlif janrlarda çox zəngin teatr tariximiz var. Azərbaycan xalqının 130 illik tarixi olan dünyəvi teatrı var. Çox şeylər var. Bunların hamısını bu sarayda oturub düşünürəm. Bu sarayın özünün də 30 yaşı var. 30 ildir ki, bu sarayda gözəl mərasimlər keçir.

Mən düşündüm ki, 30 ildir oturuRam. Çünki 1972-ci ildə bu sarayın tikilməsinin təşəbbüskarı mən oldum. 1972-ci ilin dekabr ayında bu sarayda ilk təntənəli mərasim oldu. Düzdür, o vaxtdan bəzi fasilələr olubdur, mən Moskvada işlədiyim zaman, yaxud, ümumiyyətlə, cəmiyyətdən təcrid edildiyim, Naxçıvanda yaşadığım zaman orada otura bilməmişəm. Ancaq ondan sonra orada yenə də oturuRam və hələ gələcəkdə də oturacağam. Bunları düşünərkən deyirəm, ilahi, biz nə xoşbəxtik. Ancaq bizim bu xoşbəxtliyimizi, bizim xalqın bu gözəl mədəniyyətini belə yüksəklərə qaldıran Azərbaycanın dəyərli insanları olubdur.

Böyük Üzeyir Hacıbəyov yüz il bundan öncə Azərbaycan opera sənətinin, klassik musiqi sənətinin əsasını, təməlini qoyubdur. Onun davamçıları, yaratdığı məktəbin nümayəndələri Qara Qarayev, Fikrət Əmirov, Tofiq Quliyev və digərləri böyük-böyük əsərlər yazıblar. Azərbaycanda yeni bir mədəniyyət, incəsənət, musiqi janrı – opera, klassik musiqi yaranıbdır. Əgər qonşu

müsəlman ölkələri ilə müqayisə etsək, Azərbaycan bu barədə həddindən artıq inkişaf etmiş bir ölkədir. Bunları yaradan insanlar da təbiidir ki, çox nadir fitri istedada malik insanlar olmuşlar. Bu sahədə hər adam müvəffəqiyyət qazana bilməz. Ancaq elələri buna müvəffəq olur ki, tale onlara böyük istedad bəxş edir və başqa imkanlar bəxş edir. Bunlardan, bizim mədəniyyətimizin ən dəyərli, ən görkəmli nümayəndələrindən də biri Fidan və Xuraman xanımdır.

25 il çox vaxt deyil, amma az da deyildir. Mən Fidan xanımı hələ səhnədə olmadan görmüşdüm, tanıyırdım. Biz bu yaxınlarda görüşüb söhbət edəndə mənim xatirimə saldı. Amma mənim hafizəm var. Mən onsuz da bunu Fidan xanıma deyəcəkdim, o məni qabaqladı. 1970-cı illərin əvvəlləri idi. Opera teatrına getmişdim. Orada «Koroğlu» operası gedirdi və fasilə zamanı mən teatrın foyesində gəzirdim. Bir də gördüm ki, kənarda Fidan xanımın atası, anası durublar, qız da onların yanında. Tanış idim, bunlara yanaşdım, salamlaşdım. Orada Fidan xanımı öpdüm, onda balaca idi. Düzdür, indi də öpməkdən çəkinmirəm. Fidan xanım öz sənətini inkişaf etdirməyə yeni-yeni başlamışdı. Mən dedim, Fidan, sən nə vaxt operada çıxış edəcəksən, Nigarın polunu oynayacaqsan? O, çox təvazökar şəkildə başını aşağı saldı. Amma mənim sözlərimdə məna var idi. Mən bilirdim, gün gələcək ki, bəli, Fidan xanım səhnədə bizim Azərbaycan operasının ən şah əsərinin – «Koroğlu» operasının ən gözəl rolu olan Nigarın partiyasını ifa edəcəkdir.

Biz bu gün burada ekranda Fidan xanımın «Koroğlu» operasında Nigar rolunda oxumağını gördük. Nə qədər gözəl, nə qədər məlahətlidir, nə qədər də, həqiqətən, Üzeyir Hacıbəyovun nəzərdə tutduğu Nigardır. Yəqin ki, çoxlarınız bilmir. Bəlkə siz də bilmirsiniz ki, Üzeyir Hacıbəyov «Koroğlu» operasını

yazanda, təbiidir, birinci növbədə, Koroğlu rolunda böyük sənətkarımız Bülbülü nəzərdə tutmuşdur. Ancaq Nigar roluna onun istədiyi namizədi yox idi.

Ümumiyyətlə, XX əsrdə bizim opera sənətimiz inkişaf edəndə, Üzeyir Hacıbəyov, Müslüm Maqomayev ilk dəfə bu işlərlə məşğul olanda bəzi tamaşalarda qadın rollarını kişilər oynayırdı. Çünki Azərbaycan qadınları gedib belə rollarda çıxış etmirdilər. Sonrakı dövrlərdə, məlumdur ki, bizim böyük aktrisamız Şövkət Məmmədova Azərbaycan operasının inkişafında böyük fəaliyyət göstəribdir. 1920–30-cu illərdə Azərbaycan operasında Fatma Muxtarova da oxuyubdur. Amma ondan sonra ara kəsilibdir.

1937-ci ildə «Koroğlu» əsəri səhnəyə qoyulanda Nigar rolunu ifa edən Azərbaycan millətindən deyildi. Siz bunu bilirsiniz. Yəni bu sənət o qədər çətin və o qədər də böyük iradə tələb edən sənətdir ki, o vaxt bizim Azərbaycanda belə müğənnilər tapılmırdı. Ondan xeyli müddət sonra bizim böyük aktrisamız Firəngiz Əhmədova bu rolu oynadı. Daha sonra növbə Fidan xanıma çatdı. Görürsünüz, tarix böyükdür, illər çoxdur. Amma ifaçılar bir, iki, üçdür, ona görə də beləlēri insanların ümumi sayına daxil ola bilməz. Onları həmişə ayrıca saymaq lazımdır. Bir nəfər, iki nəfər, üç nəfər, dörd nəfər, beş nəfər. Allah eləsin ki, çox olsun.

Mən ümidvaram ki, indi Fidanın da, Xuramanın da davamçıları olacaqdır. Azərbaycan səhnəsi boş qalmayacaqdır. Ancaq baxın, Azərbaycan səhnəsinin 25 ilində, əsasən, opera əsərlərində aparıcı rollarda Fidan xanım və Xuraman xanım çıxış ediblər.

Bilirsiniz, başqa janrlarda, başqa tamaşalarda müxtəlif rollarda çıxış etmək imkanı olan böyük sənətkarlarımız var. Amma opera sənəti, klassik musiqi həm xüsusi istedad tələb edir,

həm xüsusi səs tələb edir, həm də o səsin hazırlanmasını tələb edir. Bizim xalq mahnılarını bir az oxuya bilən adam ifa edir, bir aydan sonra səhnəyə çıxır və böyük alqışlar da alır. Ancaq bu qızlar – həm Fidan, həm də Xuraman bu yüksək, mürəkkəb opera ariyalarını oxumaq səviyyəsinə gəlmək üçün nə qədər təhsil alıblar, musiqi təhsili alıblar. Nə qədər vaxt sərf ediblər. Bu ariyaları mənimsəmək üçün özlərini nə qədər məcbur ediblər ki, bu səviyyəyə gəlib çatıblar. Bu onların fədakarlığıdır, zəhmətkeşliyidir.

Fidan xanım, Xuraman xanım indi Qərb klassik operalarının ən çətin, ən ağır partiyalarını məharətlə ifa edirlər. Biz bunu opera teatrımızda görmüşük. Bu gün göstərilən kino-lentlərində də gördük. Nəhayət, bunu canlı olaraq burada Fidan xanım və Xuraman xanım öz çıxışları ilə nümayiş etdirdilər.

Beləliklə, bizim zəngin mədəniyyətimizin ən dəyərli inciləri var. Bu incilər çox deyil və çox olsa, onlar heç vaxt qiymətli olmaz. Bax, onlardan ən dəyərliləri Fidan xanımdır, Xuraman xanımdır.

Keçmişdə bizdə dünyada ən qiymətli şeyi qızılla müqayisə edərdilər. Əgər keçmiş qanun-qayda ilə müqayisə etsək, onlar 999 əyarlı qızıldır. Əgər almaz, brilyant və digər qiymətli daş-qaşlar ilə ölçsək, mənə belə gəlir ki, bunlara bərabər nə almaz tapmaq olar, nə brilyant, nə də başqa qiymətli daş-qaş tapmaq olar. Bunlar onlardan da qiymətlidirlər.

Bunların xoşbəxtliyi nədir?! Birincisi, bunlara ilahidən çox fitri istedad verilibdir. İkincisi, gözəl ailə tərbiyəsi alıblar. Bunlar hamısı əsasdır. Ailə tərbiyəsi, yəni yüksək mədəniyyətə malik olan ailədə böyüyüblər. Atası, anası həm musiqiçi olublar, həm də bizim ziyalılardan olublar. Demək, ziyalı da ziyalıdan

fərqlidir. Onlar Azərbaycanın keçmiş, ən köklü ziyalılarından idilər. Deməк, belə bir ailədə böyüyüblər.

Allah bunlara həm gözəl səs verib, həm də çox zahiri gözəllik veribdir. Hamısı gözəldir. Bunlar hamısı birlikdə harmoniya təşkil edir və bu harmoniya da bax, bizim bu iki gözəl müğənnimizdir, gözəl mahnı oxuyanlarımızdır, gözəl sənət ustalarımızdır.

Mən çox şadam ki, bugünkü mərasim bu qədər gözəl əhval-ruhiyyədə keçir. Mən öz münasibətimi Fidan xanıma da, Xuraman xanıma da bildirirəm. Eyni zamanda, mən hamını bizim cəmiyyətdə belə insanlara xüsusi münasibət, qayğı göstərməyə, belə insanlara hörmət etməyə dəvət edirəm. Hesab edirəm ki, onlar ömürlərinin sonuna qədər Azərbaycan opera teatrının daimi solistləridirlər. Mən əmr verirəm, bunu opera teatrında yazın. Daim siyahının başında duran solistlərdirlər.

Fidan, Xuraman teatra gələndə, gərək teatrın qapıçısından ta direktoruna qədər bunlara baş əyib, qarşılasınlar. Çünki bunlar adi adam deyillər. Bunları adi adam kimi qəbul etmək olmaz. Mən bu sözləri göydən götürmürəm. Biz bunu filmlərdə görmüşük. Yüksək mədəniyyətli Avropa ölkələrində bu qədər yüksək ada malik olan sənətkarları hamı, doğrudan da, böyük hörmətlə qarşılayır. Bu bizdə də olmalıdır. Biz bu mədəniyyəti yaratmalıyıq. Mən bunu təkcə Fidan xanım, Xuraman xanım haqqında demirəm. Ümumiyyətlə, mədəniyyət xadimlərinə xüsusi diqqət göstərilməlidir. Həqiqətən, onlarla hesablaşmaq lazımdır.

Yenə də deyirəm, onlar çox deyillər. Onları barmaqla saymaq olar. Əgər biz bunları göz üstə saxlamasaq, belə insanları cəmiyyət – bizim 8 milyonluq əhalimiz var – göz üstə saxlamasa, mədəniyyətimizi inkişaf etdirə bilmərik. Bunları adi

adamlar sırasına salmaq olmaz. Təkcə bunlar haqqında demirəm. Bizim başqa da dəyərli mədəniyyət xadimlərimiz var, onların da haqqında deyirəm. Amma indi konkret olaraq Fidan və Xuraman xanımı deyirəm.

Eşitmişəm ki, opera və balet teatrının direktoru da konservatoriyani qurtarıbdır, musiqiçidir. Amma teatrın direktorudur. O, Fidan xanıma və Xuraman xanıma xüsusi münasibət göstərməlidir. Mədəniyyət naziri Polad Bülbüloğlu yaxşı bilir ki, böyük sənətkar olmaq nədir. Onun atası böyük Bülbülün qarşısında hamı baş əyirdi, hamı ona hörmət edirdi. Onun özü də həm bəstəkardır, həm də mahnı oxuyur, buna da diqqət yetirmək lazımdır. Amma bizim bu iki qız xüsusi yer tutur. Ona görə Mədəniyyət naziri də gərək bu qızlara xüsusi diqqət yetirsin, münasibət göstərsin.

Bir sözlə, bu bizim xalqın mədəniyyətinin nümunəsi olacaqdır. Biz istəyirik ki, xalqımızı Avropa dəyərlərinə daha da yaxınlaşdıraq. İndi biz  müstəqil Azərbaycanda Qərb ölkələri ilə, Avropa ölkələri ilə inteqrasiya haqqında danışırıq. İnteqrasiya deyəndə, daha çox iqtisadi məsələləri nəzərdə tuturlar. Amma bu belə deyildir. İnteqrasiya bütün sahəni əhatə edir. O cümlədən mədəniyyət, incəsənət, musiqi sahəsini əhatə edir. Biz bu barədə irəlidəyik.

Yenə də deyirəm, böyük Üzeyir Hacıbəyov hələ yüz il bundan qabaq bunun əsasını qoyubdur. Biz artıq on illərdir ki, öz musiqimizə, mədəniyyətimizə görə Avropa səviyyəsindəyik. Bəlkə iqtisadiyyatda onlardan geridəyik, amma mədəniyyətdə yox. Fidan da, Xuraman da Avropanın ən mötəbər opera səhnələrində müvəffəqiyyətlə çıxış edə bilərlər. Bunu bu gün də edə bilərlər. Çünki biz onlara da, özümüzünkülərə də baxırıq və müqayişə etmək imkanımız da var. Doğrudan da, təəssüf ki, biz

vaxtilə bu işlə yaxşı məşğul ola bilməmişik. Ancaq indi məşğul olmaq lazımdır. Bunu deyərək, mən, ümumiyyətlə, istedadı olan hər bir gəncə, hər bir insana xüsusi münasibət göstərilməsini istəyirəm. Çünki bu istedadlardan bizim gələcəyimizin mədəniyyət xadimləri yaranacaqdır və burada Fidan xanım və Xuraman xanım nümunədirlər.

Mənim əziz bacılarım, ikiniz də mənim bacılarımsınız. Yaşca qızıma da yaxınsınız. Bilirsiniz, mənim bir qızım, bir oğlum var. Mən çox şadam ki, bu gün bu mərasimi sizinlə birlikdə təşkil etdik və yaxşı keçiririk. Çox gözəl keçir. Sizin yanınızda yorulmaq olarmı?! Mən yorulmadım.

Mən sizi bir də təbrik edirəm. Sizə cansağlığı, yaradıcılıq uğurları arzu edirəm.

# DÜNYA VOKAL SƏNƏTİNİN MƏŞHUR İFAÇILARI, XALQ ARTİSTLƏRİ MÜSLÜM MAQOMAYEV VƏ TAMARA SİNYAVSKAYA İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*21 dekabr 2002-ci il*

*Azərbaycan prezidenti Heydər Əliyev dekabrın 21-də Prezident sarayında vokal sənətinin məşhur ustalarını – Azərbaycan mədəniyyətinin görkəmli nümayəndələri, xalq artistləri Fidan və Xuraman Qasımovaların yaradıcılığının 25 illiyinə həsr olunmuş təntənəli mərasimdə iştirak etmək üçün Bakıya gəlmiş SSRİ və Azərbaycanın xalq artistləri Müslüm Maqomayevi və onun xanımı Tamara Sinyavskayanı qəbul etmişdir.*

*Səmimi qəbul üçün minnətdarlıq edən sənətçilər Azərbaycan prezidenti Heydər Əliyevin təntənəli mərasimdəki parlaq və məzmunlu nitqindən aldıqları təəssüratlarını bölüşərək dedilər ki, həmin nitqdə prezidentin mədəniyyət və incəsənət xadimlərinə sonsuz diqqət və qayğısı bir daha öz ifadəsini tapmışdır.*

*Müslüm Maqomayev vurğuladı ki, çox yüksək səviyyədə olan təntənəli mərasimdə Azərbaycan opera sənətinin tarixi bir daha hamının gözü önündən keçdi.*

*Prezident Heydər Əliyev Azərbaycan opera sənətinin tarixini xatırlayaraq bildirdi ki, ölkəmizdə SSRİ Xalq artisti adına layiq görülmüş ilk azərbaycanlı opera müğənnisi Şövkət Məmmədova*

*olmuşdur. O, 1938-ci ildə, Moskvada ilk dəfə Azərbaycan mədəniyyəti ongünlüyü keçirildikdən sonra bu adı almışdı. Həmin vaxt dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəyov və mədəniyyətimizin digər nümayəndələri də bu yüksək ada layiq görülmüşdülər. Dövlətimizin başçısı onu da vurğuladı ki, Üzeyir Hacıbəyovun «Koroğlu» operasında Nigarın partiyasını ifa edən ilk azərbaycanlı müğənni SSRİ Xalq artisti, bu yaxınlarda prezident təqaüdünə layiq görülmüş Firəngiz Əhmədova olmuşdur. Ondan sonra isə Nigar rolunda Fidan Qasımova çıxış etmişdir.*

*Görüşün sonunda qonaqlar Azərbaycan prezidenti Heydər Əliyevlə xatirə şəkli çəkdirdilər.*

# YAPONİYANIN AZƏRBAYCAN RESPUBLİKASINDAKI SƏFİRİ TOSİYUKİ FİCİVARA İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*23 dekabr 2002-ci il*

**H e y d ə r Ə l i y e v:** Hörmətli səfir, sizi xoş gördük. Ölkənizin milli bayramı – Yaponiya imperatorunun doğum günü münasibətilə sizi səmimi-qəlbdən təbrik edir, sizə və dost Yaponiya xalqına sülh, əmin-amanlıq və rifah arzulayıram.

Mən çox məmnunam ki, Yaponiya ilə Azərbaycan arasında artıq bir neçə ildir çox yaxşı həm diplomatik əlaqələr, həm də iqtisadi əlaqələr, bütün başqa sahələrdə əməkdaşlıq yaranıbdır və inkişaf edir. Yaponiyanın səfirliyi artıq burada öz fəaliyyətini uğurla həyata keçirir.

**T o s i y u k i F i c i v a r a:** Cənab Prezident, səmimi qəbula görə minətdarlığımı bildirirəm. Sizin Xoş sözlərinizi Yaponiya imperatoruna çatdıracağam. Yaponiya və Azərbaycan arasındakı əlaqələr zati-alinizin Yaponiyaya səfərindən sonra çox inkişaf etmişdir. Bu illərdə Yaponiya ilə Azərbaycan arasındakı əməkdaşlıq genişlənmişdir. Mən üç məsələni xatırlatmaq istəyirəm. Birincisi, bu ilin sentyabrında Azərbaycan və Yaponiya arasında diplomatik münasibətlərin qurulmasının 10-cu ildönümünü qeyd etmişik.

İkincisi, zati-alinizin Yaponiyaya səfəri zamanı razılaşdırılmış sənədə əsasən, iki ölkə arasında dostluq əlaqələrinin rəmzi olan «Şimal» DRES-in tikintisinin başa çatdırılması və elektrik enerjisi hasil etməsidir. Düzdür, indiyədək onun açılış mərasimi olmamışdır. Amma inşallah, yaxınlarda bunun rəsmi açılışı olacağına əminəm. Üçüncüsü, Azərbaycan Respublikasının Yaponiyada səfirliyinin açılması haqqında zati-alinizin fərman imzalaması bizim üçün çox xoş bir hadisədir. İnşallah, Yaponiyanın Bakıdakı səfirliyinin və Tokioda açılacaq Azərbaycan səfirliyinin fəaliyyəti sayəsində bundan sonra ölkələrimiz arasında əlaqələrin daha da sıx hala gələcəyinə inanıram.

**H e y d ə r  Ə l i y e v:** Sizin dediklərinizlə razıyam, eyni zamanda qeyd edim ki, bizim əlaqələrimiz təkcə üç məsələ ilə bağlı deyil, daha genişdir. Yaponiya ilə iqtisadi əlaqələrimiz genişdir, Yaponiyanın Azərbaycana yardımı, müəyyən sahələrdə proqramların həyata keçirilməsi üçün ayrılan qrantlar və s. – bunlar başqa ölkələrə nisbətən çoxdur və mən buna görə təşəkkür edirəm.

«Şimal» DRES-in tikintisi qurtarıbdır və biz məsləhətləşmişdik ki, sizinlə bunun təntənəli açılışını edək. Çünki etmək lazımdır. Bu, böyük bir hadisədir. 400 meqavat elektrik enerjisi istehsal edən, müasir texnikaya, texnologiyaya malik olan bir stansiyadır. Ancaq işləri havalar korladı. Bu günlərdə yəqin ki, münasib vaxt müyyən edərlər. Mən bu barədə Baş nazirə tapşırıq vermişəm. Sizinlə də danışarlar ki, ölkənizin nümayəndələri də gəlsinlər, biz onun açılış mərasimini keçirək. Çünki bu lazımdır. Bu həm Yaponiya–Azərbaycan əlaqələrinin böyük bir rəmzidir, həm də stansiyanın Azərbaycan üçün böyük əhəmiyyəti var. Əlavə 400 meqavat elektrik enerjisi alacaqdır.

Ölkələrimiz arasında diplomatik əlaqələr qurulmasında səfirliklərin açılmasında gecikdik. Mən 1998-ci ildə Yaponiyada olarkən o vaxtkı Baş nazir cənab Haşimoto ilə danışanda çox təkidlə deyirdim ki, tezliklə Yaponiyanın Azərbaycanda səfirliyini açın. Mən istəyirdim ki, o, 1999-cu ildə açılsın. O mənə dedi ki, 1999-cu ildə büdcə imkan vermir. Dedim, əgər Yaponiya kimi bir zəngin ölkənin büdcəsi imkan vermirsə, görün, indi Azərbaycanın büdcəsi necədir?

Mən çox məmnunam ki, 2000-ci ildə səfirlik açıldı. Bizim də büdcə problemlərimiz var. Amma buna baxmayaraq, mən fərman vermişəm, səfirlik açırıq və oraya səfir təyin edəcəyəm. Təbiidir ki, bu da bizim əlaqələrimizin inkişafını genişləndirəcəkdir.

Sizin bəzi şirkətlər də burada çox uğurlu fəaliyyət göstərir. Xüsusən neft sənayesi sahəsində. Mən onların bir çoxunu yaxşı tanıyıram. İlk dəfə buraya «İtoçu» şirkəti gəldi, Yaponiyanın burada iqtisadi əlaqələrinin yolunu «İtoçu» şirkəti açdı. Onun buradakı nümayəndəliyi bir müddət sizin ölkənizin səfirliyinin də funksiyasını həyata keçirirdi. İndi başqa şirkətlər də var, onlar da işləyirlər.

Mən istərdim ki, Yaponiya şirkətləri Azərbaycanda daha geniş təmsil edilsinlər, çox olsunlar. Güman edirəm, bizim əməkdaşlığımızın nəticəsində bu da olacaqdır. Yaponiya–Azərbaycan müştərək iqtisadi komissiyası var. Bu komissiyaya bizdən Baş nazirin birinci müavini Abid Şərifov başçılıq edir. Sizdən də onun başçısı var. Mən bütün bu əlaqələrimizdən məmnunam və gərək çalışaq ki, bunu daha da inkişaf etdirək. Bu bayram günü də mən sizi bu əlaqələri inkişaf etdirmək üçün dəvət etmişəm ki, görüşək, söhbət edək.

**T o s i y u k i   F i c i v a r a:** Həqiqətən «İtoçu» Azərbaycan–Yaponiya əlaqələrinin yaranmasında mühüm rol oynamışdır.

İki gün öncə Yaponiyanın «İnpeks» neft şirkəti Rusiyanın «LUKoyl» şirkətinin «Azəri», «Cıraq», «Günəşli» layihəsindəki payının 10 faizini satın almışdır. Əminəm ki, digər yapon şirkətləri də buraya gəlib fəaliyyət göstərəcəklər.

İndiyə qədər Yaponiya ilə Azərbaycan arasındakı əlaqələr iqtisadi sahədə daha uğurlu olmuşdur. Gələn ildən etibarən yeni sahələr üzrə əməkdaşlığımızı davam etdirmək fikrindəyik. Bunun üçün Yaponiyadan bir heyət gəlmiş, burada bir çox görüşlər keçirmişdi. «Şimal» DRES-in ikinci hissəsinin tikilməsində də əməkdaşlıq etmək üçün danışıqlar aparırıq.

Kənd təsərrüfatı məhsullarının yığılması üçün lazım olan texnikanın – kombayn və digər mexanizmlərin Yaponiyadan Azərbaycana gətirilməsi üçün Kənd Təsərrüfatı Nazirliyi ilə əlaqə saxlayırıq.

Biz mədəniyyətə ayrılan qrantlar çərçivəsində Sizin də məzunu olduğunuz Bakı Dövlət Universitetində xarici dillərin yaxşı öyrənilməsi üçün laboratoriya yaradılması və onun 480 min dollar dəyərində avadanlıqla təchiz olunması barədə razılığa gələcəyik və gələn il bunu həll edəcəyik. Ümumi qrant çərçivəsində səhiyyə sahəsində, yəni xəstəxanaların lazımi avadanlıqla təmin olunmasında, təhsilə, yəni məktəb binalarının tikintisi və təmirində, eləcə də ekoloji sahələrdə əməkdaşlıq etmək fikrindəyik.

**H e y d ə r   Ə l i y e v:** «LUKoyl» şirkətinin Yaponiya şirkəti ilə alış-verişinə bizim etirazımız yoxdur. Ancaq «LUKoyl» şirkəti müqaviləyə qoşularkən bəzi şərtlər olubdur. İndi əgər konsorsiumdan çıxırsa və payını Yaponiya şirkətinə verirsə,

bizim etirazımız yoxdur. «LUKoyl» ilə bizim bəzi problemlərimiz var. Onları həll etməliyik. Amma «LUKoyl» buradan tam getmək və payını Yaponiya şirkətinə satmaq istəyirsə, o şirkət buraya gəlməlidir, bəzi şərtlər var, onları danışmalıyıq, bu şərtləri yerinə yetirməlidir.

**UKRAYNANIN PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB LEONİD KUÇMAYA**

Hörmətli Leonid Daniloviç!

Ukraynanın «Aeromost–Xarkov» aviasiya şirkətinə məxsus An-140 təyyarəsinin İsfahan şəhəri yaxınlığında qəzaya uğraması nəticəsində çoxsaylı insan tələfatı xəbəri məni ürəkdən kədərləndirdi.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına dərin hüznlə başsağlığı verirəm.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *24 dekabr 2002-ci il*

**KUBA RESPUBLİKASI DÖVLƏT ŞURASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB FİDEL KASTRO RUSA**

Hörmətli cənab sədr!

Kuba Respublikasının milli bayramı – Azadlıq günü münasibətilə Sizi və xalqınızı ürəkdən təbrik edirəm.

Əminəm ki, ölkələrimiz arasında artmaqda olan əlaqələr daim xalqlarımızın rifahına xidmət edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Kuba xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *24 dekabr 2002-ci il*

**SUDAN RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB ÖMƏR HƏSƏN ƏHMƏD ƏL-BƏŞİRƏ**

Hörmətli cənab Prezident!

Sudan Respublikasının milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və xalqınızı ürəkdən təbrik edirəm.

Ümidvaram ki, ikitərəfli münasibətlərimiz xalqlarımızın mənafeyinə uyğun olaraq daim inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Sudan xalqına sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *24 dekabr 2002-ci il*

# TÜRKİYƏNİN AZƏRBAYCAN RESPUBLİKASINDAKI SƏFİRİ ƏHMƏD ÜNAL ÇEVİKÖZ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*25 dekabr 2002-ci il*

**H e y d ə r Ə l i y e v:** Sizi səmimi-qəlbdən salamlayıram. Görürsünüz, bizə necə qış gəlib?!

**Ə h m ə d Ü n a l Ç e v i k ö z:** Hörmətli Cümhur başqanım, deyildiyinə görə 30 ildir Azərbaycanda belə soyuq hava olmamışdır.

**H e y d ə r Ə l i y e v:** Amma mənə dedilər ki, Türkiyədə də çox güclü qış var.

**Ə h m ə d Ü n a l Ç e v i k ö z:** Bəli, Türkiyədə də çox çətin qış keçir. İstanbulda, Ankarada və Şərqi Anadoluda xüsusilə sərtdir.

**H e y d ə r Ə l i y e v:** Hətta İstanbul–Ankara yolu bir vaxt bağlanmışdı. Sonra məlumat aldım ki, 7 min kənddə yollar bağlanıbdır.

**Ə h m ə d Ü n a l Ç e v i k ö z:** Son zamanlar bütün dünyada iqlimdə çox böyük dəyişikliklər vardır. Bu, Türkiyəyə və Azərbaycana da təsirini göstərir.

**H e y d ə r Ə l i y e v:** Bizdə qış olması lazımdır. Olmasaydı deyərdik, nə üçün bizdə yoxdur.

**Ə h m ə d Ü n a l Ç e v i k ö z:** Əlbəttə, bunun Azərbaycandakı əkinçilik üçün faydalı olduğunu söyləyirlər. O baxımdan, təbii ki, bu, sevindirici haldır.

**H e y d ə r Ə l i y e v:** Həm əkin üçün, həm təbiət üçün, həm də meşələr üçün – hər şey üçün faydalıdır. Bizdə yaşayış üçün müəyyən çətinliklər yaradır. Ancaq bunlar müvəqqətidir. Amma əsas məsələləri götürsək, bu, təkcə Azərbaycanın əkinçiliyi üçün deyil, bütün təbiəti üçündür. Çünki biz neçə illər idi Azərbaycanda normal qış görmürdük.

Keçmişdə Rusiyada böyük bir artist var idi – Arkadi Raykin, insanları orijinal komik səhnəciklərlə güldürürdü. O danışırdı ki, keçmişdə nə yaxşı idisə, indi yaxşı deyil. Deyirdi ki, keçmişdə qış qış idi, amma indi qış deyil. Başqa şeylər də deyirdi, amma bunu həmişə deyirdi. Azərbaycanda da belə olmuşdur.

Mən dünən Naxçıvan ilə telefonla danışırdım. Mən uşaqlığımı, gəncliyimi Naxçıvanda keçirmişəm. Orada çox sərt qış olardı, 30 dərəcəli şaxta 20–30 gün davam edərdi. Qarı küçələrdən iki aya təmizləmək mümkün olmurdu. Amma sonra orada da iqlim dəyişdi.

Mən orada gənc vaxtımda olmuşdum, sonra, bilirsiniz, bir müddət Naxçıvanda yaşamağa başladım. Təbii ki, buralara baxanda orada qar vardı, qış vardı. Başqa yerlər kimi deyildi. Amma mən gördüyüm qışı görmədim. İndi mənə deyirlər ki, gördüyün o qış var.

**Ə h m ə d Ü n a l Ç e v i k ö z:** Naxçıvan Şərqi Anadoluya yaxın olduğu üçün iqlimi də eynidir. Bu il çox çətin bir qış keçir.

**H e y d ə r Ə l i y e v:** Bu keçib gedəcək, amma xeyri çoxdur.

Kefiniz yaxşıdır. Türkiyədə də işlər yaxşı gedir. Yeni hökumət qurulubdur.

**Ə h m ə d Ü n a l Ç e v i k ö z:** Cənab Prezident, təşəkkür edirəm. Mən bunları Sizə ərz etmək üçün görüşmək istəyirdim. Vaxt ayırıb məni qəbul etdiyinizə görə minnətdaram. Bilirsiniz ki, bu il noyabrın 3-də keçirilən seçkilərdən sonra Türkiyədə yeni, təkpartiyalı hökumət quruldu, yeni parlament seçildi. Son illərdən fərqli olaraq, ilk dəfə bir partiya hökuməti qurdu. Bu hökumətin qurulması ölkəmizin sabitliyi, parlamentin bəzi qanunları daha yaxşı qəbul etməsi baxımından çox faydalı və mühüm hadisədir.

Bilirsiniz ki, hökumətimiz qurulan kimi, bəzi məsələlərlə qarşılaşdı və gündəmində bunlara əsas yer ayırdı. Daxili siyasət sahəsində Türkiyədə davam edən iqtisadi islahatlar amalına fayda verəcək bəzi addımlar atıldı. Dekabrın 13-də Avropa Birliyinin Kopenhagendə keçirilmiş zirvə toplantısının sonunda Türkiyənin Avropa Birliyinə üzv qəbul olunması haqqında danışıqlara başlanılması üçün 2004-cü ilin dekabr ayı müəyyən edildi. Təbii, Türkiyə istədiyi nəticəni ala bilmədiyi üçün bu qərardan məmnun deyildir. Ancaq bu qərarın verilməsi Türkiyənin Avropa Birliyinə üzv qəbul olunmasının və Avropa ilə əlaqələrinin qarşısının açıq olduğunu göstərdi.

Avropa Birliyi Türkiyə ilə bağlı bu qərarı qəbul edərkən, Cənubi Kipr ilə bağlı bir qərar da verdi. Biz bu qərarın yanlış olduğunu və problemin həlli üçün yetərli olmayacağını düşünürük. Türkiyə Kiprlə bağlı atacaq addımlarını əvvəldən açıq şəkildə dilə gətirmişdir. Türkiyə Cənubi Kiprin Avropa Birliyinə üzv qəbul edilməsini siyasi və hüquqi baxımdan tanımayacaqdır. Türkiyə bu qərarı tanımadığını və onun əhəmiyyətsiz olduğunu bütün dünyaya açıq şəkildə bəyan etmişdir. Ümid edirik ki,

önümüzdəki vaxtlarda Şimali Kipr Türk Cümhuriyyəti ilə Cənubi Kipr arasında müzakirələr davam edəcək və bu məsələnin həlli üçün mühüm addımlar atılacaqdır. Ancaq Avropa Birliyinin verdiyi qərar, Cənubi Kipr bu məsələnin həlli üçün iradə sahibi olmadığı üçün, onu bir az arxayınlaşdıracaqdır. Bunun isə problemin həllinə mühüm fayda verməyəcəyini düşünürük.

Mən yeni hökumətimizin fəaliyyəti, xarici siyasətlə bağlı gördüyü işlər və bəzi başqa məsələlər barədə Sizə məlumat vermək üçün görüşmək istəmişdim.

Cənab Prezident, hökumətimizin xarici siyasəti əvvəlki hökumətlərin həyata keçirdikləri proqramlara tam uyğun şəkildə davam edir. Xüsusilə Qafqazla bağlı siyasətimizin əsasını Siz bilirsiniz. Azərbaycanla, digər türkdilli cümhuriyyətlərlə əlaqələr daim diqqət mərkəzindədir. Azərbaycanın ərazi bütövlüyünün tanınması, işğal altındakı torpaqlarının tezliklə azad olunması, Dağlıq Qarabağ probleminin Azərbaycanın ərazi bütövlüyünə, beynəlxalq hüquqa hörmət göstərilərək həlli Türkiyənin 58-ci hökumətinin siyasətini təşkil edir. Hesab edirik, bu sahədə əlavə heç bir şərhə ehtiyac yoxdur. Bunları Sizə demək üçün buraya gəldim. Sizi Dünya azərbaycanlılarının həmrəylik günü və Yeni il münasibətilə də təbrik edirəm.

**H e y d ə r Ə l i y e v:** Sağ olun, təşəkkür edirəm.

Türkiyədə gedən proseslər bizi məmnun edir. İndi, siz buyurdunuz, Türkiyədə ilk dəfə bir partiya əsasında yeni hökumət qurulubdur. Bu təxminən indiki qışa bənzəyir, 40 ildir belə qış yox idi. İndi belə bir qış gəldi. Sizdə də bilmirəm, neçə illərdir bir partiya heç vaxt təkbaşına iqtidara gəlməmişdi, indi gəldi. Bu, hər halda, çox önəmli bir hadisədir. Çünki bir partiya

siyasətini düzgün quraraq, Türkiyənin problemlərini daha da uğurla həll edə bilər.

Sizdə illər boyu olan koalision hökumətlər həmişə işlərin müəyyən qədər əngəllənməsinin səbəbi olubdur. Bilirəm, Türkiyədə böyük siyasət adamlarının hamısı uzun illərdən bəri ilk dəfə bir partiyanın iqtidara gəlməsini çox müsbət qiymətləndirir. Azərbaycanın prezidenti olaraq, mən də bunu çox yüksək qiymətləndirirəm. Parlamentdə də bu hökumətin bir müxalifəti var. Yəni bu baxımdan da elə bir problem yoxdur. Həm iqtidarda bir partiya var, həm də müxalifətdə. Qalan partiyalar parlamentdən kənarda qalıblar. Birincisi, yeni hökumət ölkə iqtisadiyyatının inkişafını təmin edəcək, ikincisi, ümumiyyətlə, Türkiyənin bütün problemlərini həll edəcək, onun xarici və daxili siyasətində yeni bir mərhələ açacaqdır. Mən də bunu bəyənirəm və sevinirəm. Mən bu barədə ilk olaraq hörmətli Ərdoğanı təbrik etdim, ona uğurlar dilədim.

Türkiyənin Avropa Birliyinə qəbul olunması ilə əlaqədar gedən prosesi biz sizinlə bərabər izləmişik. Hesab edirdik və bu gün də hesab edirik ki, indiyə qədər gördüyü bütün işlərə görə Türkiyənin Avropa Birliyinə daxil olmağa 2004-cü ilin may ayında qəbul ediləcək 10 dövlətdən daha çox haqqı var. Ona görə də Kopenhagendə qəbul olunan bu qərar sizi məyus etdiyi kimi, bizi də məyus etdi. Həmin qərarın qəbul olunmasından öncə də biz o prosesləri hiss edirdik. Bəzi yerlərdə Türkiyənin əleyhinə bəyanatlar verirdilər. Bu da bizi narahat edirdi. Biz böyük diqqətlə bu prosesi izləyirdik və o mənada ki, sizin kimi, biz də istəyirdik Türkiyə bu dəfə Avropa Birliyinə ilk dövlətlər sırasında qəbul olunsun. Ancaq təəssüflər olsun ki, Kopenhagendə çox böyük ədalətsizlik etdilər. Mən bunu açıq deyirəm. Bəlkə siz bunu deməyə bir az çəkinirsiniz. Amma biz

çəkinmirik. Burada ikili standartlar tam açıq görünür. Çünki belə qərara heç bir əsas yoxdur. Üstəlik, qərara yunan Kiprini də salırlar ki, o da daxil olmalıdır.

Kipr problemi 28 ildir həll olunmur. Mən son 7-8 ildə Birləşmiş Millətlər Təşkilatının Kipr məsələsinin həlli üçün ciddi bir addım atmasını hiss etmədim. Ancaq indi Cənubi Kipri Avropa Birliyinə qəbul etmək üçün Birləşmiş Millətlər Təşkilatının Baş katibi təklif verdi ki, bu məsələni həll etsin. Demək, təklif verdi, ona görə yox ki, bu məsələ həll olunsun, xalqlar doğrudan da, rahatlıq əldə etsinlər. Ona görə ki, yunan Kiprinin Avropa Birliyinə daxil olmasına yol açılsın. Biz burada da ədalətsizlik, ikili standartlar görürük.

Məsələn, bir müddət bundan öncə, Jiskar d'Estyenin bəyanatı olmuşdur ki, Türkiyə Avropa ölkəsi deyil, Avropa Birliyinə başqaları daxil ola bilməz. Bu, dəhşətli bir şeydir. Bir tərəfdən, onlar böyük dövlətlər olaraq və dünyanın siyasətini apararaq, istəyirlər ki, dünyada millətlər, ölkələr arasında sülh, əmin-amanlıq olsun. Amma digər tərəfdən isə, bu cür bəyanatlar verirlər. İndi görün, onlar nə qədər qatı fikirdədirlər. Əgər belə fikrin varsa da, heç olmasa, bunu açıq demə. Amma o, açıq bəyan edir. Bu da bizi çox narahat etdi və ondan sonra gedən prosesləri gördük. Biz bu məsələdə Türkiyəyə qarşı ədalətsizlik olunduğunu görürük və buna öz etirazımızı bildiririk.

Biz həmişə Türkiyə ilə bir yerdəyik, bir yerdə də olacağıq. Təkcə ona görə yox ki, Türkiyə ilə biz qədim zamanlardan dostuq, qardaşıq. Həm də ona görə ki, son 40 ildə demokratiyanı, bazar iqtisadiyyatını inkişaf etdirən, NATO-nun üzvü olan, Avropada böyük yer tutan Türkiyə Avropa Birliyindən kənarda qalır. Bu qədər də ədalətsizlik olarmı?! Mən də bilirəm, sizin hökumətiniz və hamınız belə düşünürsünüz ki, bu ədalətsizliklər

var. Ancaq Türkiyə hökuməti də, dövləti də öz siyasətini davam etdirəcəkdir. Nəhayət, güman edirəm ki, nə qədər ədalətsiz yanaşsalar da, onlar Türkiyənin qarşısını ala bilməyəcəklər.

Biz Kipr barəsində Türkiyəni tamamilə dəstəkləyirik. Siz Kipr barəsində hansı qərarı qəbul etsəniz – bunu siz bizdən daha yaxşı bilirsiniz – ona yüz faiz tərəfdarıq, dəstəkləyirik və daim dəstəkləyəcəyik. Çünki birincisi, bilirik ki, Türkiyəyə, türk xalqına qarşı, o cümlədən Kipr adasında yaşayan türklərə qarşı ədalətsizlik olubdur. İkincisi də, indi təklif olunan plan məsələni, problemi həll etmir. Sadəcə, müvəqqəti, kosmetik bir şey yaratmağı nəzərdə tutur ki, Cənubi Kipri Avropa Birliyinə daxil etsinlər. Ondan sonra Şimali Kipri də, türklər də, çapalaya-çapalaya qalsınlar. Biz bunu belə anlayırıq, belə başa düşürük. Təbii ki, bu da yolverilməzdir. Türkiyə buna yol verməz. Biz bu məsələdə də Türkiyənin siyasətini yüz faiz dəstəkləyirik və bundan sonra da dəstəkləyəcəyik. Buna həmişə arxayın ola bilərsiniz.

Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması məsələsində Türkiyənin indiyə qədər gördüyü işləri biz qiymətləndiririk. Əminik ki, – bunu mənə dəfələrlə deyiblər və buna inanıram – Türkiyədə hansı partiyanın, hansı hökumətin hakimiyyətə gəlib-gəlməməsindən, Türkiyənin başında kimlərin durmasından asılı olmayaraq, Türkiyə Azərbaycana qarşı olan ədalətsizliklərə həmişə etiraz edibdir və bundan sonra da etiraz edəcəkdir. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin yalnız və yalnız beynəlxalq hüquq normaları əsasında, Azərbaycanın ərazi bütövlüyü prinsipləri əsasında həll edilməsinə tərəfdar olubdur, bundan sonra da tərəfdar olacaqdır.

Bəzən mətbuatda kimsə nəsə deyir. Bu yaxın zamanlarda bizim mətbuatda yazmışdılar ki, guya Türkiyədə Xarici İşlər

naziri nəsə deyibdir. Sonra dedilər, belə deməyib, təkzib edibdir. Düzü, mən bunları eşidəndə, bilin, prezident kimi, bunlara fikir vermirəm. Bizim bu adamlar dərhal hay-küy salmağa başlayırlar. Xüsusən, müxalifət qəzetləri bir tərəfdən, özlərini Türkiyənin ən yaxın dostu kimi göstərirlər, o biri tərəfdən də, araşdırmamış hay-küy salırlar. Mən bunlara fikir vermirəm. Çünki mən inanıram ki, belə şey ola bilməz. Hesab edirəm ki, mənim bu inamım heç vaxt itməyəcəkdir. Ona görə bu barədə sizinlə bir yerdəyik. Həmişə – indi də, sabah da sizin dəstəyinizlə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ probleminin həll olunmasında ən həlledici köməyi məhz Türkiyə etməlidir və Türkiyə də edəcəkdir. Mən buna inanıram.

**Ə h m ə d Ü n a l Ç e v i k ö z:** Hörmətli Cümhur başqanım, çox təşəkkür edirəm. Türkiyə ilə Azərbaycanın bir-birinə ən böyük dəstəkçi olmasını bilirik. Ancaq bunları Sizdən bir daha eşitmək, Türkiyənin qarşılaşdığı məsələlərdə Azərbaycanın daim onun yanında olduğunu Sizdən bir daha eşitmək bizi çox məmnun etdi. Sizin də vurğuladığınız kimi, Türkiyə də Azərbaycanın problemlərinin həllində də ən böyük dəstək verən ölkə olmuşdur. Bu günə qədər olduğu kimi, bundan sonra da bu şəkildə davam edəcəkdir.

Bəzi hökumət üzvlərimizin ifadələrinin müəyyən dairələr tərəfindən yanlış başa düşülməsi zehinləri bulandırmışdır. Ancaq bunların tamamilə yanlış olduğunu Sizin də dediyinizi məmnuniyyətlə görürəm.

Dağlıq Qarabağ münaqişəsi ədalətli həll edilməyincə, Ermənistanla əlaqələr barədə Türkiyənin siyasətində heç bir dəyişiklik yoxdur və olmayacaqdır.

Sizin bunları çox yaxşı şəkildə yaxından izləmiş olduğunuzu görmək məni bir daha məmnun etdi. Çox təşəkkür edirəm.

## DÜNYA AZƏRBAYCANLILARINA

Əziz azərbaycanlılar!

Hörmətli soydaşlarımız, həmvətənlərimiz!

31 dekabrın – Dünya azərbaycanlılarının həmrəylik gününün Azərbaycan Respublikası vətəndaşları və bütün dünya azərbaycanlıları tərəfindən hər il ümummilli bayram kimi qeyd edilməsi artıq xoş bir ənənə halını almışdır. Bu milli birlik və həmrəylik bayramı azərbaycanlıların tarixi köklərə bağlılığını, milli yüksəlişini, azadlıq mübarizəsinin qanunauyğun nəticəsi kimi meydana çıxmaqla yeni tarixi şəraitdə xalqımızın mənəvi dirçəlişini və tərəqqisini əks etdirir.

XX əsrin əvvəlində müsəlman Şərqində ilk demokratik respublika yaratmış Azərbaycan xalqı əsrin sonunda müstəqilliyini bərpa edərək, öz inkişafının keyfiyyətcə yeni mərhələsinə daxil oldu. Bu gün müstəqil Azərbaycan Dünya Birliyinin, beynəlxalq və regional təşkilatların tamhüquqlu üzvü və təmsilçisidir. Ölkəmizdə hüquqi dövlət, demokratik və azad vətəndaş cəmiyyəti qurulmuşdur. Respublikamız ictimai-siyasi birliyin, vətəndaş həmrəyliyinin və sabit iqtisadi tərəqqinin təmin edilməsində bir çox başqa ölkələrə nümunə ola biləcək nailiyyətlər qazanmışdır. Azərbaycanın yeni neft strategiyası artıq öz bəhrələrini verir, əsrin ən böyük layihələrindən biri olan Bakı–Tbilisi–Ceyhan neft kəməri reallığa çevrilir, Bakı–Tbilisi–Ərzurum qaz kəməri layihəsi həyata keçirilmək üzrədir. Ölkəmizin, regionun və bütün ətraf ölkələrin inkişafına müsbət

təsir göstərəcək bu nəhəng tikintilərin perspektivlərinə olan beynəlxalq maraq getdikcə artmaqdadır.

Xalqımız əsrlərin sınağından çıxmış mütərəqqi milli xüsusiyyətlərini qoruyaraq, eyni zamanda sivil bəşəri dəyərləri mənimsəyir, ölkəmiz dünya xalqları ailəsinə daxil olur, qlobal iqtisadi, hüquqi, siyasi məkana inteqrasiya olunur. Azərbaycan dövlətinin beynəlxalq nüfuzu, iqtisadi, siyasi və mənəvi potensialı sürətlə artmaqdadır. Lakin təəssüf hissi ilə qeyd olunmalıdır ki, keçən dövrdə xalqımızın müstəqil dövlət quruculuğu prosesi Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, ərazi bütövlüyümüzün pozulması, yüz minlərlə soydaşımızın qaçqın və məcburi köçkün vəziyyətinə salınması kimi ağır problemlərlə müşayiət olunmuşdur.

Müstəqil Azərbaycan Respublikası dünya azərbaycanlılarının həmrəyliyinin əsası və güclü dayağıdır. Bu həmrəyliyin qayəsini təşkil edən azərbaycançılıq və Azərbaycan dövlətçiliyi ideyaları məhz müstəqil dövlətimizin yaranması ilə inkişaf etmiş, şüurlarda özünə möhkəm yer tutmuş, soydaşlarımızı birləşdirən milli məfkurəyə çevrilmişdir.

Azərbaycan Respublikası indi dünya azərbaycanlılarının birliyi və həmrəyliyi ideyalarının əsas daşıyıcısıdır, müxtəlif vaxtlarda tarixi vətənimizdən uzaq düşmüş soydaşlarımızın milli şüurunun güclənməsinin başlıca mənbəyidir. Dövlətimiz bu gün xaricdə yaşayan azərbaycanlıların insan və vətəndaş hüquqlarının müdafiəçisi və qarantı rolunda çıxış edir.

2001-ci ilin noyabrında Dünya azərbaycanlılarının I qurultayının keçirilməsi, 2002-ci ilin iyulunda Xaricdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin yaradılması, soydaşlarımızın birliyinin və həmrəyliyinin güclənməsi istiqamətində atılan digər addımlar öz müsbət nəticələrini vermək-

dədir. Hazırda bütün azərbaycanlıların vahid amal və ideya ətrafında birləşdirilməsi, soydaşlarımızla əlaqələrin gücləndirilməsi dövlət siyasəti səviyyəsinə qaldırılmış, bütün rəsmi və qeyri-rəsmi strukturların diqqəti bu istiqamətə yönəldilmişdir. Məmnunluqla qeyd edirəm ki, soydaşlarımızla əlaqələrin genişləndirilməsi, onların arasında birlik və həmrəyliyin gücləndirilməsi intensiv və məqsədyönlü şəkildə gedir. Xaricdəki azərbaycanlı cəmiyyət və icmaların mövcud ölkələrin siyasi və mədəni həyatında iştirakı daha artıq hiss olunmaqdadır.

Düşünürəm ki, xaricdə yaşayan soydaşlarımız həmişə ümumbəşəri dəyərlərin və mütərəqqi milli ənənələrimizin, dilimizin, mədəniyyətimizin daşıyıcıları olacaq, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması, tarixi vətənlə yaşadıqları ölkələr arasında əlaqələrin möhkəmləndirilməsi işinə əhəmiyyətli dərəcədə kömək göstərəcəklər. Bunun üçün bütün soydaşlarımız ümummilli məsələlərdə vahid mövqedən çıxış etməli, Azərbaycanın mənafelərinin, siyasi və iqtisadi maraqlarının, mədəniyyətinin, mənəvi dəyərlərinin qorunmasında xüsusi fəallıq göstərməlidirlər. Xaricdəki Azərbaycan icmalarının, diasporumuzun potensialı, istifadə olunmamış imkanları xeyli böyükdür və bu sahə əsl vətənpərvər insanlarımız üçün geniş yaradıcılıq və fəaliyyət sahəsidir.

Bütün soydaşlarımızı və həmvətənlərimizi bu bayram münasibəti ilə bir daha təbrik edir, onların hər birinə firavanlıq, xoşbəxtlik arzulayıram.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *26 dekabr 2002-ci il*

## AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ BAKIDAKI SƏFİRİ ROSS UİLSON İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*27 dekabr 2002-ci il*

**H e y d ə r  Ə l i y e v:** Hörmətli səfir, sizi səmimiyyətlə salamlayıram və Milad bayramı münasibətilə təbrik edirəm. Necəsiniz?

**R o s s  U i l s o n:** Cənab Prezident, təşəkkürümü bildirirəm, qarşıdan gələn Yeni il münasibətilə Sizi təbrik edirəm. Bir neçə mövzu ətrafında Sizinlə danışmaq istəyirəm.

Elə bilirəm ki, 2002-ci ildə bizim gördüyümüz işləri iftixar hissi ilə xatırlamaq olar. Ümid edirəm ki, 2003-cü ildə də Sizinlə və başçılıq etdiyiniz hökumətlə vacib mövzular ətrafında fəaliyyətimizi uğurla davam etdirəcəyik.

Cənab Prezident, bayram münasibətilə mən bir neçə günlüyə Amerika Birləşmiş Ştatlarına gedəcəyəm. Eyni zamanda, orada cənab Pauellə, cənab Armitacla və hökumətin digər yüksək vəzifəli şəxsləri ilə söhbətlərim də olacaqdır. Onlar mənimlə görüşmək və öyrənmək istəyirlər ki, Azərbaycanda bizim gördüyümüz işlər nədən ibarətdir, başa çatmaqda olan 2002-ci ildə hansı işləri görmüşük və 2003-cü ildə hansı işləri görəcəyik.

Elə bilirəm ki, 2002-ci ildə gördüyümüz işləri onlara izah etmək üçün yaxşı əsaslar vardır. Enerji sahəsində əməkdaşlığımızı onlara xüsusi fərəh hissi ilə bildirəcəyəm. Məlum olduğu kimi, bu əməkdaşlığın ən yüksək nöqtəsi sentyabrda Bakı–Tbilisi–Ceyhan boru kəmərinin təməlini qoyduğumuz vaxt oldu. Bundan əlavə, biz bir sıra digər məsələləri də uğurla yerinə yetirdik.

Mən ABŞ-ın yüksək vəzifəli şəxslərinə buradakı biznes mühiti haqqında da məlumat verəcəyəm. Bunu da böyük məmnuniyyətlə edəcəyəm. Sizin və başçılıq etdiyiniz hökumətin biznes mühitinin yaxşılaşması üçün gördüyünüz işlərdən söhbət açacağam. Yazda Sizin biznesmenlərlə olan görüşünüz haqqında məlumat verəcəyəm, avqust və sentyabr aylarında bu məsələ ilə əlaqədar imzaladığınız fərmanları onların nəzərinə çatdıracağam.

ABŞ hökumətinə həm də Sizin hökumətlə birgə apardığımız işlər haqqında da məlumat verəcəyəm. Bu, geniş səpkidə olan mövzuları – seçki ilə əlaqədar keçirdiyimiz müzakirələri, bizim əməkdaşlığımız, dini azadlıq və mətbuat azadlığı üzrə apardığımız işləri əhatə edəcəkdir.

Əlbəttə ki, söhbətin əsas hissəsini başqa bir mövzu təşkil edəcəkdir. Bu sahədə biz bu yaxınlarda əməkdaşlığa başlamışıq. Mən terrorizmə qarşı mübarizə sahəsində əməkdaşlığımızı nəzərdə tuturam. Bu, ölkələrimizin möhkəm əməkdaşlığıdır. Elə bilirəm ki, 2003-cü ildə bu sahədə əməkdaşlığımız daha da möhkəmlənəcəkdir.

Vaşinqtonda müzakirə edəcəyim digər mövzu yardım məsələsidir. Bu məsələ ətrafında biz 2002-ci ildə kifayət qədər görüşlər keçirmiş, söhbətlər etmişik. Mən Azərbaycanın müxtəlif qurumlarına, ən əsası isə, Müdafiə Nazirliyinə ediləcək yardımı nəzərdə tuturam. Burada olan ehtiyaclar haqqında dövlət rəsmilərinə söhbət açacağam. Bu, sərhədlərin möhkəm-

ləndirilməsinə, cangüdənlərə daha çox təlimatlar keçirilməsinə və terrorizmə qarşı mübarizənin gücləndirilməsinə ediləcək yardımlardır.

Eyni zamanda, xəzinədarlıq rəsmiləri ilə də görüşlərim olacaqdır. Həmin görüşlər zamanı Azərbaycana lazım olan iqtisadi islahatların necə keçirilməsi barədə məsləhətlər alacağam.

Biz çox ümid edirik ki, 2003-cü ilin fevralında «Şahdəniz» layihəsinə sanksiya veriləcək və daha sonra imkanımız olacaq ki, bu yataqdan çıxarılacaq Azərbaycan qazını Avropanın bazarlarına çatdıraq. Bu məsələ ətrafında səfir Stiv Mənn ilə və iqtisadi məsələlərlə məşğul olan digər dövlət nümayəndələri ilə də söhbət edəcəyəm.

Cənab Armitacla və digər hökumət nümayəndələri ilə görüşlərimdə Amerika Birləşmiş Ştatlarının Azərbaycana demokratiya sahəsində nə cür yardım edəcəyi barədə müzakirələrim olacaqdır. Məlumdur ki, 2003-cü ildə demokratiya Azərbaycan üçün xüsusilə vacib məsələdir. Gələn ilin payızında Azərbaycanda prezident seçkiləri keçiriləcəkdir.

Heç şübhəsiz ki, cənab Perina ilə də görüşüm olacaqdır. Bu görüş zamanı biz çalışacağıq ki, Amerika Birləşmiş Ştatları ilə Azərbaycan arasında ikitərəfli münasibətləri və eləcə də Minsk qrupunun gələcək fəaliyyətini müzakirə edək, bu qrupun həmsədrlərini bir araya gətirək və möhkəm əsas yaradaq ki, ondan çıxış edərək, münaqişənin sülh yolu ilə həllinə nail olaq.

Cənab Prezident, gördüyünüz kimi, müzakirə ediləsi məsələlər bu dəfə də çoxdur. Həmişə olduğu kimi, Amerika Birləşmiş Ştatlarına yola düşməzdən əvvəl mən istədim ki, Sizinlə görüşüm. Çünki Sizin məsləhətlərinizə bizim ehtiyacımız vardır. Bu məsləhətlər həmişə mənə kömək edibdir.

**H e y d ə r Ə l i y e v:** Cənab səfir, təşəkkürümü bildirirəm və mənim salamlarımı, xoş arzularımı Kolin Pauellə, Riçard Armitaca və digər şəxslərə çatdırın. Əgər onlardan da yüksək vəzifəli şəxslərlə görüşsəniz, hamısına salamlarımı çatdırın. İmkanınız olsa, prezident Buşa da mənim salamlarımı yetirin.

Mən arzu edirəm ki, 2003-cü ildə Amerika Birləşmiş Ştatları qarşısında qoyduğu vəzifələri uğurla həyata keçirə bilsin.

Bu səfər zamanı sizin görəcəyiniz işlər haqqında və bizim 2002-ci ildə buradakı əməkdaşlığımız, Azərbaycanın əldə etdiyi nailiyyətlər barədə öz ölkənizdə, Vaşinqtonda verəcəyiniz məlumatlar bizim üçün çox maraqlıdır. Mən sizin proqramınızı dəstəkləyirəm və bu proqramınız çərçivəsində görəcəyiniz işlər, Azərbaycan haqqında verəcəyiniz məlumatları mənə çatdırdığınıza görə təşəkkür edirəm.

Həqiqətən, 2002-ci ildə bizim əməkdaşlığımız uğurlu olub. Siz bir neçə sahəyə toxundunuz. Mən çox məmnunam ki, o sahələrdə əldə etdiyimiz nailiyyətləri bizim kimi qiymətləndirirsiniz. Bu bizim üçün çox vacibdir. Çünki biz özümüz gördüyümüz işləri qiymətləndirə bilirik. Ancaq gördüyümüz işlər haqqında başqa ölkələr tərəfindən, xüsusilə Amerika Birləşmiş Ştatları tərəfindən, bu ölkənin Azərbaycandakı səfirliyi tərəfindən deyilən yüksək fikirlər, təbiidir ki, bizi sevindirir və ruhlandırır. Burada qeyri-adi bir şey yoxdur. Görülən işlər haqqında, sadəcə, obyektiv fikir söylənilir. Mən onları bir daha sadalamaq istəmirəm, siz dediniz. Sadəcə, onu demək istəyirəm ki, indi 2002-ci ilin son günlərini yaşayırıq. 2002-ci ildə Azərbaycan dövlətinin gördüyü işləri, xalqımızın keçdiyi yolu Azərbaycanın prezidenti kimi, mən müstəqilliyin möhkəmləndirilməsində, Azərbaycanın iqtisadiyyatının inkişafında

və xarici siyasətinin həyata keçirilməsində yeni böyük addım hesab edirəm.

Bütün əvvəlki illərdən fərqli olaraq, 2002-ci ildə yəqin ki, 907-ci düzəlişin qüvvəsi dayandırıldığına, yaxud da, ümumiyyətlə, münasibətlərimizdə daha da irəliyə getdiyimizə görə, əvvəlki illərə nisbətən Amerika Birləşmiş Ştatlarının Azərbaycana yardımı çox olmuşdur. Xüsusən, siz dediyiniz kimi, Sərhəd Qoşunlarına edilən yardımı, bütün sahələrdə göstərilən köməyi yüksək qiymətləndirirəm. Ancaq düşünürəm ki, 2003-cü ildə biz çox irəli getməliyik. Antiterror fəaliyyətində, yəni beynəlxalq terrorizmlə mübarizədə, demək olar ki, 2002-ci il sınaq dövrü oldu. Çünki 2001-ci il sentyabrın 11-də baş vermiş dəhşətli hadisə bizim hamımızdan beynəlxalq terrorizmlə mübarizəyə çox ciddi surətdə qoşulmağı tələb etdi. Biz bunu öz imkanlarımız çərçivəsində etdik. Hesab edirəm ki, bu, əməkdaşlığımızın əsas hissələrindən biri olubdur.

Siz doğru qeyd etdiniz, Bakı–Tbilisi–Ceyhan layihəsi artıq realdır və fevral ayında «Şahdəniz» yatağındakı qazın istifadə olunması haqqında, həqiqətən ciddi tədbirlər görüləcəkdir. Beləliklə, biz Xəzərin neft və qaz ehtiyatlarının Qərbə ixrac olunması ilə əlaqədar 1994-cü ildən başladığımız işlərin nəticəsini görürük.

Təəssüflər olsun ki, biz bir sahədə istədiyimizə nail olmamışıq. Bu da 2002-ci ildə Minsk qrupu başçılarının, yəni həmsədrlərin nümayəndələri ilə apardığımız danışıqlar, görüşlər, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll olunması sahəsində işlərdir. Mən çox məmnunam ki, siz cənab Perina ilə görüşüb söhbət edəcəksiniz. Cənab Perinanın son dəfə verdiyi bəyanat burada, Azərbaycanda müəyyən müsbət fikirlər də oyatdı. Ancaq müəyyən şübhələr də yaratdı.

Bilirəm ki, jurnalistlər bu barədə sizdən soruşublar, sizə suallar veriblər. Bununla bağlı sizin verdiyiniz açıqlamalardan mən razıyam. Onlar obyektiv xarakter daşıyır. Amma orada Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin digər münaqişələrdən fərqlənməsi, bunun həllində digər münaqişələrin həll edilməsi qədər münasibət göstərilməsi barədə fikrin olmaması bizdə bir qədər anlaşılmazlıq yaradıbdır. Mən bu məsələyə toxunmaq istəmirdim. Çünki bu məsələ ilə əlaqədar bizim Xarici İşlər naziri məktub hazırlayıbdır. Ancaq indi sizinlə söhbət edərkən, bütün bu məsələlər haqqında danışarkən buna toxunmasaydım, elə düşünülə bilərdi ki, guya mənim bu barədə fikrim yoxdur. Mən ona görə bunu sizə deyirəm. Amma istəmirəm bu məsələni biz müzakirə edək. Bu barədə biz öz fikrimizi bildirəcəyik.

Amma bir də deyirəm, Azərbaycan prezidenti olaraq şəxsən mən həm öz xalqıma görə, həm ölkəmə görə, respublikama görə, həm də ABŞ–Azərbaycan əlaqələrinə görə 2002-ci ili böyük məmnuniyyət hissi ilə yola salıram. Burada sizin bildirdiyiniz fikirlər məndə daha böyük ümid yaradır ki, 2003-cü ildə Amerika Birləşmiş Ştatları–Azərbaycan əlaqələri daha da sürətlə, daha da uğurla inkişaf edəcəkdir.

**R o s s  U i l s o n:** Söylədiyiniz fikirlərə görə Sizə təşəkkür edirəm, elə bilirəm, onların əksəriyyəti ilə hər ikimiz razıyıq.

Əlbəttə ki, sizin salamlarınızı həm cənab Pauellə, həm də cənab Armitaca yetirəcəyəm. Bu ilin yanvar ayında mən Amerika Birləşmiş Ştatlarında olarkən, xoşbəxtlikdən prezident Buşla görüşdüm. Əlbəttə, heç də həmişə belə olmur. Bilmirəm, bu dəfə onu görmək mümkün olacaq, ya yox. Hər halda, çalışacağam ki, onu görə biləm, Sizin salamlarınızı yetirim, görməsəm də, kiminsə vasitəsilə salamlarınızı ona çatdırım.

**H e y d ə r  Ə l i y e v:** Bu çox gözəl olar. Təşəkkür edirəm.

## NEPALIN KRALI ƏLAHƏZRƏT QYANENDRA BİR BİKRAM ŞAH DEVƏ

Əlahəzrət!

Nepalın milli bayramı – Kralın təvəllüd günü münasibətilə Sizi və xalqınızı ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan–Nepal əlaqələrinin inkişaf etdirilməsi həmişə xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Nepal xalqına əmin-amanlıq və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *27 dekabr 2002-ci il*

**RUSİYA FEDERASİYASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB VLADİMİR PUTİNƏ**

Hörmətli Vladimir Vladimiroviç!

Qroznı şəhərində törədilmiş terror aktı nəticəsində çoxsaylı insan tələfatı xəbəri məni ürəkdən kədərləndirdi.

Baş vermiş terror əməlini qətiyyətlə pisləyir, Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına dərin hüznlə başsağlığı verir, yaralananların və xəsarət alanların tezliklə sağalmasını arzulayıram.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *28 dekabr 2002-ci il*

# «İTERA» BEYNƏLXALQ ŞİRKƏTLƏR QRUPUNUN PREZİDENTİ İQOR MAKAROV BAŞDA OLMAQLA NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*28 dekabr 2002-ci il*

**H e y d ə r Ə l i y e v:** Hörmətli qonaqlar, sizi səmimi-qəlbdən salamlayıram. Bildirmək istəyirəm ki, «İtera» şirkəti Azərbaycana qaz göndərmək vədlərini ümumən yerinə yetirir, lakin cari ilin yekunlarına görə şirkətin ölkəmizə müəyyən miqdarda, təxminən 100 milyon kubmetr borcu var. Ümidvarıq ki, bu borc gələn ilin əvvəllərində ödəniləcəkdir.

**İ q o r M a k a r o v:** Cənab Prezident, yaranmış vəziyyətin səbəblərini açıqlamaq istəyirəm. Bu borcun ödənilməsi üçün bütün imkanlardan istifadə edəcəyik.

Azərbaycan 2003-cü ildə 4 milyard kubmetr həcmində qaz almaq barədə «İtera» ilə müqavilə bağlamışdır və bu həcmin artırılmasını arzu edir. Bununla əlaqədar şirkət həmin həcmi daha 1,5 milyard kubmetr artırmaq və bunun haqqı əvəzində Azərbaycanda neft-qaz avadanlığı almaq niyyətindədir. Həmin saziş Azərbaycan tərəfinə təqdim olunmuşdur.

«İtera»nın prezidenti olaraq qazın Özbəkistan ərazisi ilə nəqlinə dair bir sıra məsələlərin tənzimlənməsinə və bunun sayəsində mühüm müqavilə bağlamaq mümkün olduğuna görə Sizə təşəkkürümü bildirirəm.

**H e y d ə r  Ə l i y e v:** Bununla bağlı mənim Özbəkistan prezidenti İslam Kərimovla telefon söhbətim olmuşdur.

Ölkəmizə qaz göndərdiyinə görə «İtera» şirkətinə təşəkkür edirəm. Məlumatınız olsun ki, Azərbaycanda qaz hasilatının həcmi bir qədər azalmışdır. Şirkətin göndərdiyi qaz isə ölkənin bölgələrini mavi yanacaqla təmin etməyə, Yaponiya avadanlığı quraşdırılmış yeni elektrik stansiyasını tam gücü ilə işə salmağa imkan yaratmışdır.

**İ q o r  M a k a r o v:** Cənab Prezident, ölkəmizdə şirkətlər qrupunun fəaliyyətinə siyasi müdaxilə edilməsə, «İtera» Azərbaycana qaz göndərilməsinə dair öhdəliklərini uzunmüddətli əsasda yerinə yetirməyə hazırdır, bunun üçün bizim böyük ehtiyat mənbələrimiz vardır.

Cari ildə Rusiyada 30 milyard kubmetr qaz hasil olunmuşdur, 2003-cü ildə yeni yatağın istifadəyə veriləcəyi də gözlənilir.

**KENİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MVAİ KİBAKİYƏ**

Hörmətli cənab Prezident!

Keniya Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Ümidvaram ki, ölkələrimiz arasındakı dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın rifahı naminə daim genişlənəcək və inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, xalqınıza əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *30 dekabr 2002-ci il*

# DÜNYA AZƏRBAYCANLILARININ HƏMRƏYLİK GÜNÜ VƏ YENİ İL MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

Əziz həmvətənlər, Azərbaycan Respublikasının vətəndaşları! Sizi qarşıdan gələn 2003-cü il münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Biz 2002-ci ilin son dəqiqələrini yaşayırıq. İftixar hissi ilə deyə bilərik ki, 2002-ci il Azərbaycan xalqı üçün, ölkəmiz üçün uğurlu olmuşdur. Bu ildə Azərbaycanın dövlət müstəqilliyi möhkəmlənmiş, qurduğumuz, yaratdığımız hüquqi, demokratik, dünyəvi dövlət inkişaf etmiş, Azərbaycanda vətəndaş cəmiyyəti bərqərar olmuş, mətbuat azadlığı, insan haqlarının qorunması Azərbaycan dövlətinin siyasətinin əsas istiqamətlərindən biri olmuşdur. Azərbaycanda iqtisadiyyat ardıcıl surətdə inkişaf edir. İqtisadi islahatlar həyata keçirilir və bunların nəticəsində Azərbaycanda bazar iqtisadiyyatı artıq geniş yer almışdır. Sahibkarlıq fəaliyyəti bütün imkanları əldə etmişdir. Azərbaycan iqtisadiyyatının inkişafını sübut edən göstəricilər çoxdur. Mən bir neçəsini qeyd etmək istəyirəm.

Ümumi daxili məhsul 10,5 faiz artmış, kənd təsərrüfatı istehsalı 6 faiz artmışdır. Sənaye istehsalı 3,5 faiz artmışdır. Ən sevindirici göstərici odur ki, bir il müddətində Azərbaycana 2 milyard dollar həcmində investisiya qoyulmuşdur. Onun 1 milyard 700 milyon dolları xarici investisiya, 300 milyon dolları isə daxili investisiyadır. Bu, gələcəkdə iqtisadiyyatın inkişafı üçün böyük bir amildir. Bütün bunların nəticəsində xalqımızın

rifah halı yaxşılaşmışdır. Orta hesabla, işləyənlərin əmək haqqı 20 faiz, pensiyalar 20 faiz artmışdır.

Azərbaycanın ordusu daha da güclənmiş, Azərbaycan dövlətçiliyinin və xalqın, vətəndaşların hüquqlarının müdafiəsini təmin edən hüquq-mühafizə orqanlarının işi təkmilləşmişdir.

Beləliklə, ölkəmiz ötən ildə böyük nailiyyətlər əldə etmişdir. Azərbaycanda çox xoş əhval-ruhiyyə yaranmış və belə əhval-ruhiyyə ilə biz 2003-cü ili qarşılayırıq. 2003-cü il Azərbaycan üçün daha uğurlu olacaqdır. Çünki həm 2002-ci ildə, həm də əvvəlki illərdə görülən işlər, həyata keçirdiyimiz daxili və xarici siyasət Azərbaycanı ilbəil inkişaf etdirir.

Xarici siyasət sahəsində bizim nailiyyətlərimiz Azərbaycanın mövqelərini daha da möhkəmləndirməkdən ibarət olubdur. Azərbaycan bütün beynəlxalq təşkilatlarda təmsil olunub, beynəlxalq təşkilatların keçirdikləri müxtəlif toplantılarda Azərbaycan öz mövqelərini bəyan edib, onları müdafiə edib və onların tanınmasına nail olubdur.

2003-cü ildə Azərbaycanın sürətli inkişafını qarantı qəbul etdiyimiz dövlət büdcəsidir. Dövlət büdcəsi artıq elan olunub, onun icrası üçün lazımi fərmanlar imzalanıb və 2003-cü ilin əvvəlindən onun icrası təmin edilməlidir. İnanıram ki, dövlət büdcəsinin ardıcıl surətdə həyata keçirilməsi Azərbaycanda iqtisadiyyatı daha da inkişaf etdirəcək və əhalinin rifah halını daha da yaxşılaşdıracaqdır. Azərbaycanın 2003-cü il üçün dövlət büdcəsi 1 milyard 200 milyon dollar həcmindədir. Müqayisə üçün demək istəyirəm ki, 1994-cü ildən bəri Azərbaycanın dövlət büdcəsi 17 dəfə artmışdır. 1996-cı ildə Azərbaycanın büdcəsi 640 milyon dollar həcmində olmuşdur. İndi isə, gördüyünüz kimi, 1 milyard 200 milyon dollardır. Bu onu göstərir ki, ilbəil Azərbaycanda

iqtisadiyyat inkişaf edir və ölkənin gəlirləri artır. Bu da bizə qarşımızda duran vəzifələrin yerinə yetirilməsi üçün əsas yaradır.

Bizim problemlərimiz də çoxdur. Hər sahədə problemlər var, bu, təbii bir haldır. Bu gün həll olunan məsələ artıq sabah günün tələblərinə cavab vermir. Ona görə də daim hərəkətdəyik, daim inkişafdayıq. Ancaq bir problem, Azərbaycanın, demək olar ki, yarasıdır, bu da Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsidir və onun indiyə qədər həll olunmamasıdır. 2002-ci ildə bu sahədə çox işlər görülübdür. Birincisi, Minsk qrupunun həmsədrlərinin fəaliyyətini mən müsbət qiymətləndirirəm. Bundan başqa, Ermənistan və Azərbaycan prezidentləri arasında bilavasitə görüşlər keçirilir. Onu demək istəyirəm ki, Azərbaycan prezidenti hansı beynəlxalq təşkilatda olursa, hansı ölkəni ziyarət edirsə, ya Azərbaycanda, yaxud da digər ölkələrdə hansı dövlət başçısı ilə görüşürsə, danışıqların əsas hissəsini Ermənistan–Azərbaycan münaqişəsi, Dağlıq Qarabağ problemi təşkil edir. Deyə bilərəm ki, bu yaxınlarda Praqada NATO-nun toplantısında hər bir natiqə beş dəqiqə söz demək hüququ verilmişdi. Mən bu beş dəqiqədən bir az da artıq danışdım, ancaq bütün danışığımın hamısını məhz bu problemə, Azərbaycanın işğal olunmuş torpaqlarının azad edilməsinə, ərazi bütövlüyünün bərpa olunmasına, yerindən-yurdundan didərgin düşmüş soydaşlarımızın öz yerinə qayıtmasına həsr etdim.

Güman edirəm ki, 2003-cü ildə bu sahədə işlərimiz davam edəcək və biz bu məsələ ilə daha sürətlə, daha böyük səylə məşğul olacağıq və əminəm ki, məsələni sülh yolu ilə həll edəcəyik. Buna heç kəsin şübhəsi olmasın. Bəzən bizim cəmiyyətdə bu məsələni müharibə yolu ilə həll etmək fikirləri meydana çıxır. Bu yol heç vaxt inkar olunmur. Ancaq biz hələ çalışmalıyıq ki, sülh yolunun

imkanlarından sona qədər istifadə edək. Güman edirəm ki, biz bu yolla gedərək istədiyimizə nail ola biləcəyik.

Biz 2003-cü ilə böyük nikbinliklə baxırıq. Ölkəmizdə yaranmış ictimai-siyasi sabitlik davam edir. Biz insanlara rahat yaşamaq imkanı yaratmışıq və insanların həyat tərzinin ilbəil, aybaay yaxşılaşması üçün çalışırıq və bundan sonra da çalışacağıq. Ümidvaram ki, bizim hamımızın birlikdə göstərdiyimiz səylər 2003-cü ildə öz gözəl nəticələrini verəcəkdir.

Bu gün Dünya azərbaycanlılarının həmrəylik günüdür. Mən bu münasibətlə Azərbaycan xalqını, vətəndaşlarımızı və bütün dünyada yaşayan azərbaycanlıları təbrik edirəm və onları bir daha, bir daha birliyə, həmrəyliyə dəvət edirəm.

Əziz dostlar, Yeni iliniz mübarək olsun!

Sağ olun.

## BAKININ UŞAQ EVLƏRİNDƏ TƏRBİYƏ EDİLƏN UŞAQLAR ÜÇÜN BAKI ŞƏHƏRİ İCRA HAKİMİYYƏTİ TƏRƏFİNDƏN TƏŞKİL EDİLMİŞ YENİ İL ŞƏNLİYİNDƏ NİTQ

*Respublika sarayı*

*31 dekabr 2002-ci il*

Əziz balalar!

Əziz uşaqlar!

Sizi qarşıdan gələn Yeni il – 2003-cü il münasibətilə ürəkdən təbrik edirəm, sizə, Azərbaycanın bütün uşaqlarına, bütün gənclərinə sağlam həyat və xoşbəxt gələcək arzulayıram.

Mən çox məmnunam ki, ötən illərdə olduğu kimi, bu il də, 2002-ci ilin son günündə də bu saatları, bu dəqiqələri sizinlə bir yerdəyəm, sizin aranızdayam. Mən bu salonda sizinlə birlikdə şənlikdə iştirak edərkən təsəvvür edirəm ki, sanki bütün Azərbaycan uşaqları, bütün Azərbaycan gəncləri bizim ətrafımızdadırlar. Mən təsəvvür edirəm ki, sizi, bütün gəncləri qucaqlayıram, bağrıma basıram, öpürəm. Mən sizin hamınıza səadət arzulayıram.

Əziz balalar, bu gün burada nümayiş etdirdiyiniz gözəl bədii səhnəciklər, rəqslər, mahnılar, cürbəcür oyunlar bir daha göstərir ki, Azərbaycan uşaqları, Azərbaycanın yeniyetmə nəsli nə qədər istedadlıdır və əziz balalar, sizin nə qədər xoşbəxt gələcəyiniz var.

Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, bizim xalqımız, Azərbaycan xalqı, millətimiz, yəni hər bir Azərbaycan övladı bütün xarici və daxili aləmi ilə çox gözəldir. Mən bu gözəlliyi bu gün sizdə görürəm. Sizin hər biriniz özünəməxsus Azərbaycan gözəlliyinin nümunəsisiniz. Qızlar gözəl Azərbaycan qadını, gözəl Azərbaycan anası, gözəl Azərbaycan qızının nümunəsidir. Oğlanlar mərd, qoçaq, güclü, qüdrətli, cəsur Azərbaycan oğlanlarının nümunəsidir. Bunları görəndə vətənini sevən, xalqını sevən hər bir azərbaycanlı biganə qala bilməz. Onun yalnız və yalnız bir hissiyyatı, sevinc hissiyatı xalqına, millətinə, ölkəsinə məhəbbət hissiyyatı ola bilər. Bax, bu hissiyatları mən indi burada sizinlə keçirirəm.

Siz 2002-ci ildə mənim həyatımda baş verən bütün çətinliklərin, problemlərin ağrı-acısını və il boyu bu gərgin işdən olan yorğunluğumu bugünkü şən, gözəl tamaşanızla tamamilə çıxartdınız. Mən bu saatlarda sizinlə daha da gümrahlaşdım, özümdə daha çox qüvvə hiss edirəm və 2003-cü ili elə bu qüvvə ilə, bu hissiyyatlarla sizinlə bərabər, xalqımızla bərabər bir yerdə qarşılayıram.

Əziz balalar!

Siz müstəqil Azərbaycanın övladlarısınız. Siz müstəqil Azərbaycan vətənində doğulmusunuz, dünyaya gəlmisiniz və indi ilk addımlarınızı atırsınız. Bu, böyük bir xoşbəxtlikdir. Bizim nəsillər, bizdən əvvəlki nəsillər Azərbaycanın milli azadlığı, dövlət müstəqilliyi uğrunda çalışıblar, mübarizə aparıblar və nəhayət, 11 il bundan öncə Azərbaycan dövlət müstəqilliyini əldə edibdir. Biz bu dövlət müstəqilliyini əldə etdiyimizə görə və ən əsası, onu 11 il ərzində qoruyub saxlaya bildiyimizə görə, günü-gündən möhkəmləndirdiyimizə, inkişaf etdirdiyimizə görə fəxr edirik.

Əziz balalar, sizə isə daha böyük xoşbəxtlik nəsib olubdur. Çünki siz bu dövlət müstəqilliyi şəraitində dünyaya gəlmiş övladlarımızsınız, Azərbaycanın gələcək vətəndaşlarısınız. Azərbaycanın gələcəyi, bu müstəqilliyin əsrlər boyu yaşaması sizin, gənclərin üzərinə düşür. Sizi görərək, sizin bu ağıl, zəka potensialınızı hiss edərək, sizdə bu enerjini, xalqa, vətənə məhəbbəti görərək, Azərbaycanın prezidenti kimi, mən bu gün tam arxayınam. Biz Azərbaycanın sükanını sizin əllərinizə verəcəyik. Siz Azərbaycanı irəliyə aparacaqsınız. Amma bilin, biz Azərbaycanın dövlət müstəqilliyinin elə bir təməlini qoymuşuq ki, ötən illərdə də, qarşıdan gələn illərdə də elə bir Azərbaycan yaratmışıq və yaradacağıq ki, sizin üçün yaşamaq da, işləmək də qat-qat asan olacaqdır.

Bizim məqsədimiz xalqımıza firavan həyat yaratmaqdır. Bunu edirik, ancaq istədiyimizə nail ola bilmirik, çünki problemlər də var. Həlli çətin olan problemlər də var. Siz gənclər, uşaqlar bilməlisiniz ki, bizim torpaqlarımızın bir qismi Ermənistanın işğalı altındadır. O torpaqlardan zorla çıxarılmış soydaşlarımız çadırlarda yaşayırlar. Həmin çadırlarda 8–10 il bundan öncə doğulmuş, indi sizin yaşınıza gəlib çatmış övladlarımız var. Onların yaşayışı ağırdır. Biz çalışırıq ki, onların yaşayışını yüngülləşdirək. Biz ilbəil buna nail oluruq. Amma tam nail olmaq o vaxt mümkün olacaqdır ki, biz işğal altındakı torpaqları azad edək. Bunu mütləq edəcəyik və soydaşlarımız öz yerlərinə qayıdacaqlar, Azərbaycanın ərazi bütövlüyü təmin olunacaqdır. Biz bu çətinlikləri aradan qaldıracağıq və demək olar ki, böyük problemləri olmayan Azərbaycan yaradıb sizə təhvil verəcəyik. Siz isə gərək onu daha da məharətlə idarə edəsiniz, irəliyə aparasınız.

Son illər mənim sizinlə belə görüşlərim ənənəyə çevrilibdir. Bu görüşlərdə, sizin hazırladığınız bayram şənliklərində, mərasimlərində Bakıda yerləşən uşaq evlərindəki uşaqların əksəriyyəti iştirak edir. Təkcə burada əyləşənləri demirəm, onlar mənim kimi tamaşaçılardır.

Bu gün bu səhnədə uşaq evlərində yaşayan, təhsil alan uşaqlar da öz istedadlarını nümayiş etdirirlər. Bu çox sevindirici haldır.

Azərbaycanda kimsəsiz uşaq yoxdur. Uşaq onda kimsəsiz olur ki, valideynini itirib, yaxud hansısa səbəbdən valideyni ilə bir yerdə deyil, eyni zamanda dövlətin himayəsinə götürülməyibdir. Uşaq dövlətin himayəsinə götürüləndən sonra o, kimsəsiz deyil, o bizim uşaqdır, dövlətin uşağıdır, Azərbaycanın uşağıdır. Biz uşaq evlərinə məhz belə qayğı göstəririk və çalışırıq ki, uşaq evlərində olanlar heç vaxt hiss etməsinlər ki, kimsəsizdirlər. Artıq bu da görünür. Ona görə mən bu gün fürsətdən istifadə edib, uşaq evlərində tərbiyə alan uşaqları xüsusi təbrik edirəm və xüsusən, onların tərbiyəçilərinə, uşaq evlərinin başçılarının hamısına təşəkkür edirəm.

Sizinlə birlikdə biz hamımız buradan, bu salondan erməni işğalı nəticəsində yerindən-yurdundan didərgin düşmüş, çadırlarda ağır şəraitdə yaşayan vətəndaşlarımıza və xüsusən, onların uşaqlarına bayram salamımızı göndəririk. Onlara cansağlığı arzu edirik. Mən onları bir daha əmin edirəm, o gün gələcək ki, onlar bu ağır vəziyyətdən xilas olacaq, öz torpaqlarına dönəcəklər.

Əziz uşaqlar, vallah, mən sizin aranızda olanda o qədər rahat oluram ki, heç ayrılmaq istəmirəm. Siz bilirsiniz ki, mənim nəvələrim də var. Nəvələrimi çox sevirəm. Təəssüf ki, onların bəzisi bir az xəstədir, bu gün mənimlə bura gələ bilmədilər. Amma bilirsiniz ki, keçən illər gəlirdilər. Güman edirəm, indi televiziya ilə baxırlar, bizi görürlər və heyfsilənirlər ki, burada deyillər. Ancaq mənim üçün fərqi yoxdur, mən nəvələrimi, öz uşaqlarımı, öz övladlarımı sevdiyim kimi, sizi də sevirəm, bütün Azərbaycan uşaqlarını sevirəm.

Bu sevgi ilə, bu məhəbbətlə mən sizi bir daha təbrik edirəm. Hamınıza, bütün Azərbaycan uşaqlarına, Azərbaycan gənclərinə 2003-cü ildə daha da xoşbəxt həyat arzulayıram. Sağ olun.

# AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ PREZİDENTİ MAHMUD KƏRİMOV İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*31 dekabr 2002-ci il*

*Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev dekabrın 31-də Prezident sarayında Milli Elmlər Akademiyasının (MEA) prezidenti Mahmud Kərimovu qəbul etmişdir.*

*Akademik Mahmud Kərimov dövlətimizin başçısını Dünya azərbaycanlılarının həmrəylik günü və Yeni il bayramı münasibətilə ürəkdən təbrik etdi, MEA-nın illik fəaliyyətindən, mövcud problemlərdən danışdı.*

*Prezident Heydər Əliyev MEA-nın fəaliyyətini yüksək qiymətləndirdi, burada aparılan islahatların, keçirilən seçkilərin, kadr dəyişikliyinin müsbət nəticələr verdiyini vurğulayaraq dedi ki, Azərbaycan Milli Elmlər Akademiyası 2002-ci ildə yeni bir həyat yaşamışdır. Demək olar ki, uzun illərdən akademiyada yaranmış durğunluq və qeyri-müəyyənlik, başqa hallar onun lazımi səviyyədə fəaliyyət göstərməsinə imkan vermirdi. 2001-ci ildə keçirilmiş seçkilər sizə işləri yenidən təşkil etmək imkanı verdi. Çünki ona qədər akademiyada keçmişdən, deyə bilərəm ki, 1980-ci illərdən mövcud olan vəziyyət yenə davam edirdi. İndi akademiyada ab-hava dəyişibdir.*

*Dövlətimizin başçısı xatırlatdı ki, MEA-da seçkilərdən sonra akademiklərin, müxbir üzvlərin sayı artdı. Onların maaşları artırıldı. Bütün akademiya işçilərinin maaşlarını artırdıq. Bu heç vaxt olmamışdı. Bunların hamısı akademiyanın işinin canlanmasına yönəldilibdir.*

*Azərbaycan Milli Elmlər Akademiyası bizim milli sərvətimizdir. Onu qoruyub saxlamalıyıq. Ancaq tarixin müəyyən bir mərhələsində – 1945-ci ildə, İkinci dünya müharibəsi qurtaran zaman, ən çətin dövrdə yaranmış akademiyanı, təəssüflər olsun ki, 1980-ci illərin sonunda, 1990-cı illərin əvvəllərində dağıtmaq istədilər və əslində, o səviyyəyə gətirib çıxardılar. Biz bunun qarşısını aldıq, buna imkan vermədik və seçkilərlə, aparılan başqa tədbirlərlə, maaşların artırılması ilə akademiyaya yeni bir nəfəs verdik. İndi hər şey sizin əlinizdədir, sizdən asılıdır. Biz bunları edərək, təbiidir ki, sizdən akademiyanın işində yeni keyfiyyət gözləyirik.*

*Prezident Heydər Əliyev xüsusi vurğuladı ki, Milli Elmlər Akademiyası indi əvvəlki kimi işləyə bilməz. Vaxtilə SSRİ-də müttəfiq respublikalarda milli kadrların hazırlanmasını təmin etmək üçün və hər respublikanın elmi potensialından yerlərdə istifadə etmək üçün belə akademiyalar yaradılmışdı. Ancaq bu o vaxtın tələbi idi. O vaxt belə idi ki, istər kiçik olsun, istərsə də böyük olsun, müttəfiq respublikalardakı akademiyaların fəaliyyətində SSRİ Elmlər Akademiyasında olan istiqamətlərin hamısı əksini tapırdı və bütün sahələrdə elmi axtarışlar aparılırdı. Biz də buna öyrənmişdik, hesab edirik ki, əksinə, hələ bu azdır, niyə SSRİ Elmlər Akademiyasında filan institut var, Azərbaycanda yoxdur? Amma bəzən belə olurdu ki, əvvəla Azərbaycanda, başqa müttəfiq respublikada buna ehtiyac yox idi. İkincisi, bunun üçün elmi potensial yox idi. Üçüncüsü də, o elmi axtarışları aparmaq üçün, deyək ki, respublikanın coğrafi, iqlim və*

*ya torpaq, yaxud da başqa şəraitləri imkan vermirdi. Amma deyirdilər ki, yox, olmalıdır, ona görə də yarış gedirdi.*

*İndi müstəqil olan bu ölkələrin hər birinin öz milli akademiyası var. Hər bir ölkə özü müəyyən edir ki, ona akademiya lazımdır, yoxsa lazım deyildir. Əgər lazımdırsa, bu hansı strukturda lazımdır. Bu struktur da bu ölkənin tələbatına uyğun olmalıdır.*

*Təbiidir ki, ölkənin tələbatları çox dar çərçivədə ödənilmir. Birincisi, ölkənin özünün elmi potensialı, ikincisi, elmi bazası, maddi-texniki bazası olmalıdır. Üçüncüsü, Azərbaycanda elə elmlər var ki, daim inkişaf etməlidir. Məsələn, neft sahəsi. Bu, daim yaşayacaqdır çünki neft, qaz bizim zəngin sərvətlərimizdir. Bu sahədə elmi-tədqiqat işləri getməlidir. Yaxud təbiətə, torpağa, başqa şeylərə aid olan sahələrdə elmi işlər getməlidir. Ancaq elə sahələr də var ki, orada elmi iş aparmağa ehtiyac yoxdur. Əgər doğrudan da, hansısa bir alim meydana çıxarsa, belə bir sahə ilə bağlı böyük elmi fikirləri olarsa, əlbəttə, dünyanın akademiyalarında onlara yer tapa bilərik, orada işləyə bilər. Ona görə gərək bizim akademiyanın müstəqil Azərbaycanın tələblərinə uyğun strukturu olsun.*

*Mən güman edirəm ki, bunun üzərində işləmisiniz, müəyyən təklifləriniz də var. Siz bu təkliflərə birinci növbədə özünüz baxmalısınız. Amma eyni zamanda, biz də öz fikrimizi deməliyik. Çünki əgər elm xalqa, millətə, dövlətə lazımdırsa, dövlət də öz fikrini deməlidir. Biz ilin son günündə, son saatlarında görüşürük. Bu çox qiymətli bir vaxtdır. Çünki ilin son saatları olduqca qiymətli olur. Hər bir insan çalışır ki, il qurtarana qədər görmədiyi işləri görə bilsin. İkinci tərəfdən də, bir neçə saatdan sonra biz yeni ili qarşılayacağıq. Demək, yeni il ərəfəsində söhbət aparırıq. Ona görə də bu görüşün məhz bu gün keçirilməsinin xüsusi əhəmiyyəti var.*

## AZƏRBAYCANIN PRAVOSLAV İCMASINA

Əziz həmvətənlər!

Sizi – ölkəmizin bütün pravoslav xristianlarını müqəddəs Milad bayramı münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

İsa peyğəmbərin mövludu ilə əlamətdar olan Milad bayramı bütün dünyada xristianların əsas bayramlarından biri kimi həmişə təntənə ilə qeyd olunur. Xristianlığın yayıldığı ilk ölkələrdən olan Azərbaycan torpağında da Milad bayramı sülh, əmin-amanlıq, nikbinlik rəmzi kimi geniş şəkildə keçirilir. Xüsusi geosiyasi məkanda yerləşən ölkəmizdə dinlər və mədəniyyətlər arasında əsrlər boyu yaranmış dialoq və qarşılıqlı əlaqə xalqımızda dini dözümlülük və tolerantlıq kimi yüksək mənəvi keyfiyyətlər formalaşdırmışdır. Məhz bunun sayəsində də müxtəlif dinlərin nümayəndələri Azərbaycanda mehribanlıq, əmin-amanlıq, qarşılıqlı ehtiram şəraitində yaşayaraq milli-irqi ayrı-seçkilik, dini dözümsüzlük zəminində hər hansı qarşıdurma halları ilə üzləşməmişlər.

Öz tarixi ənənələrinə sadiq qalan müstəqil Azərbaycan Respublikasında vətəndaşların vicdan və dini etiqad azadlığı qanunvericiliklə təsbit edilərək təmin olunmuş, hər bir insanın öz dini ayin, mərasim və bayramlarını sərbəst keçirməsi üçün münasib şərait yaradılmışdır. Azərbaycanın digər dini icmalarının nümayəndələri kimi, pravoslav xristianları da Konstitusiyanın onlara verdiyi hüquqlardan geniş istifadə edərək ölkəmizin siyasi, ictimai, iqtisadi və mədəni həyatında fəal iştirak edir, Azərbaycanın inkişafı naminə böyük quruculuq işlərinin uğurla həyata keçirilməsində öz qüvvələrini əsirgəmirlər. Cəmiyyətimizin ayrılmaz hissəsini təşkil edən xristian

icmasının Azərbaycan Respublikasında gedən siyasi-ictimai proseslərin qiymətləndirilməsində, ölkəmizin taleyüklü məsələlərinin həlli yolunda nümayiş etdirdiyi əsl vətəndaşlıq mövqeyi təqdirəlayiqdir.

Əziz bayramınız – İsa peyğəmbərin mövludu münasibətilə hamınızı bir daha təbrik edir, hər birinizə cansağlığı və xoşbəxtlik, doğma Azərbaycanımızın çiçəklənməsi naminə gördüyünüz işlərdə böyük uğurlar, ailələrinizə əmin-amanlıq və firavanlıq arzulayıram.

Bayramınız mübarək olsun!

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *4 yanvar 2003-cü il*

## İSPANİYANIN KRALI ƏLAHƏZRƏT I XUAN KARLOSA

Əlahəzrət!

65 illik yubileyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan ilə İspaniya arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafında Sizin xidmətlərinizi yüksək qiymətləndirirəm. Əminəm ki, əlaqələrimizin daha da genişləndirilməsi və inkişaf etdirilməsi üçün bundan sonra da birgə səylər göstərəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost İspaniya xalqının rifahı naminə fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *5 yanvar 2003-cü il*

## TÜRKİYƏNİN ƏDALƏT VƏ İNKİŞAF PARTİYASININ SƏDRİ RƏCƏB TAYYİB ƏRDOĞAN İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*Prezident sarayı*

*7 yanvar 2003-cü il*

*Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin Türkiyənin Ədalət və İnkişaf Partiyasının sədri Rəcəb Tayyib Ərdoğan ilə təkbətək görüşü olmuşdur.*

*Hörmətli qonağı səmimiyyətlə salamlayan dövlətimizin başçısı Heydər Əliyev cənab Rəcəb Tayyib Ərdoğanın rəhbərlik etdiyi nümayəndə heyətinin Azərbaycana səfərini yüksək dəyərləndirdi.*

*Ədalət və İnkişaf Partiyasının hakimiyyətə gəlməsini, ümumiyyətlə, Türkiyədə baş verən müsbət dəyişiklikləri ürəkdən, qəlbdən izlədiyini nəzərə çatdıran prezident Heydər Əliyev qardaş ölkənin nümayəndə heyətinin ölkəmizə bu səfərini Azərbaycan–Türkiyə əlaqələrində xüsusi tarixi əhəmiyyətə malik bir hadisə hesab etdiyini vurğuladı.*

*Keçən ilin noyabrında Türkiyədə keçirilmiş parlament seçkilərində böyük qələbə qazanaraq təkbaşına hakimiyyətə gəlmiş Ədalət və İnkişaf Partiyasını və onun sədri Rəcəb Tayyib Ərdoğanı ürəkdən təbrik edən respublikamızın prezidenti Heydər*

Əliyev bunun Türkiyənin tarixində əlamətdar bir hadisə olduğunu bildirdi.

Demokratiya, bazar iqtisadiyyatı yolunda böyük ənənələrə malik, uzun illərdən bəri NATO-nun üzvü olan qardaş ölkənin yeni hökumətinin fəaliyyətə başladığı qısa müddətdə uğurlu addımlar atdığını nəzərə çatdıran dövlətimizin başçısı Heydər Əliyev əmin olduğunu bildirdi ki, cənab Rəcəb Tayyib Ərdoğan Baş nazir olandan sonra bu hökumət daha böyük nailiyyətlər əldə edəcəkdir.

Ölkəmiz üçün ən ağrılı problem olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ problemindən, Azərbaycanın ərazilərinin 20 faizinin Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilməsindən, yerindən-yurdundan zorla qovulmuş bir milyondan çox vətəndaşımızın on ildən bəri çadırlarda ağır vəziyyətdə yaşamasından bəhs edən prezident Heydər Əliyev bu münaqişənin aradan qaldırılması sahəsində aparılan danışıqlarından söhbət açaraq, Türkiyənin Azərbaycanın haqq işini daim dəstəkləməsini bir daha yüksək qiymətləndirdi.

Səmimi sözlərə və yüksək qonaqpərvərliyə görə minnətdarlığını bildirən cənab Rəcəb Tayyib Ərdoğan respublikamıza səfərindən və Azərbaycan prezidenti Heydər Əliyev ilə görüşündən böyük qürur duyduğunu nəzərə çatdırdı.

Prezident Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanın əldə etdiyi uğurları daim diqqətlə izlədiklərini vurğulayan hörmətli qonaq qardaş ölkələrimiz arasındakı tarixi dostluq əlaqələrinin bundan sonra da inkişaf edəcəyinə əmin olduğunu bildirdi.

Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi məsələsinə toxunan cənab Ərdoğan dedi ki, biz Azərbaycan və Ermənistan prezidentləri arasında davam edən görüşlərin Azərbaycan barəsində xeyirli bir nəticə ilə bitməsini istəyirik.

*Biz bu sahədə danışıqlar prosesini mühüm mexanizm kimi görürük. Amma bu danışıqların hələlik bir nəticə verməməsini təəssüflə qarşılayırıq. Türkiyə Respublikası indiyə qədər olduğu kimi, Azərbaycana dəstəyini bundan sonra da davam etdirəcək və hər zaman azərbaycanlı qardaşlarımızın yanında olacaqdır.*

*Görüşdə Bakı–Tbilisi–Ceyhan əsas ixrac neft boru kəməri və Bakı–Tbilisi–Ərzurum qaz kəməri layihələrinin reallaşdırılması, bölgədə vəziyyət və hər iki ölkəni maraqlandıran bir sıra digər məsələlər barədə də ətraflı fikir mübadiləsi aparıldı.*

*Prezident Heydər Əliyev cənab Rəcəb Tayyib Ərdoğanı Baş nazir vəzifəsini tutduqdan sonra yenidən Azərbaycana rəsmi səfərə dəvət etdi. Dəvət məmnunluqla qəbul olundu.*

## TÜRKİYƏNİN ƏDALƏT VƏ İNKİŞAF PARTİYASININ SƏDRİ RƏCƏB TAYYİB ƏRDOĞAN VƏ ONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*7 yanvar 2003-cü il*

**H e y d ə r  Ə l i y e v:** Hörmətli cənab Ərdoğan!

Hörmətli nazirlər!

Hörmətli qonaqlar!

Siz Azərbaycana xoş gəlmisiniz, səfa gətirmisiniz! Sizin bu səfəriniz bizim üçün çox əhəmiyyətli və qiymətlidir. Çünki Türkiyədə hökumət dəyişikliyi baş veribdir. Biz Türkiyədəki işlərin hamısını daim ürəkdən, qəlbdən, Türkiyəyə bağlı olaraq izləmişik. Ona görə də belə bir səfərin indi baş verməsini mən Türkiyə–Azərbaycan əlaqələrində xüsusi tarixi əhəmiyyətə malik olan bir hadisə hesab edirəm.

Cənab Ərdoğan, keçən il noyabr ayında Türkiyədə keçirilmiş seçkilərdə böyük qələbə qazandığınıza görə, Ədalət və İnkişaf Partiyası böyük qələbə qazandığına görə sizi ürəkdən təbrik edirəm. Bu qələbəniz sizə Böyük Millət Məclisində çoxsaylı

millət vəkillərinin olmasını təmin edib və beləliklə, Ədalət və İnkişaf Partiyası təkbaşına Türkiyədə hökumət təşkil etmək, iqtidarda olmaq imkanı əldə edibdir. Bu, Türkiyənin tarixində çox əlamətdar hadisədir. Biz indi sizinlə söhbət edəndə tarixə bir az nəzər saldıq. Keçmişdə belə hallar çox az olmuşdur. Amma hər dəfə hökumət təkbaşına iqtidarda olan qüvvələr tərəfindən idarə olunarkən Türkiyə yüksəlmiş, inkişaf etmişdir. Ona görə də mən düşünürəm ki, Türkiyə Cümhuriyyətinin vətəndaşları sizə çox səs verərək, sizi bu cür böyük uğurla seçərək, təbiidir ki, sizə böyük ümidlər bəsləyiblər. Güman edirəm ki, sizin partiya və yaratdığınız hökumət bu ümidləri doğruldacaqdır.

Cənab Ərdoğan, mən sizi xüsusi təbrik edirəm. Çünki sizin partiya sədri olmağınız və bu partiyaya böyük uğur qazandırmağınız da qeyri-adi hadisədir. İndi siz onun problemlərini hamıdan yaxşı bilirsiniz. Sizin hələ indiyə qədər millət vəkili olmaq imkanınız yoxdur, amma belə olan halda da sizin qurduğunuz, yaratdığınız, başçılıq etdiyiniz partiyanın xalq arasında bu cür hörmət qazanması, səs alması şəxsən sizin fəaliyyətinizin çox yüksək qiymətidir. Mən bu münasibətlə sizi təbrik edirəm. Şübhə yoxdur ki, siz millət vəkili olacaqsınız. Güman edirəm, siz Baş nazir də təyin olunacaq, hökumətə başçılıq edəcəksiniz. Ancaq bunlar hamısı qeyri-adi bir prosesdə getdiyinə görə mən buna xüsusi əhəmiyyət verirəm.

Cənab Ərdoğan, qələbə qazandıqdan sonra şəxsən sizin dinamik fəaliyyətinizi də biz Azərbaycanda çox böyük sevgi və məhəbbətlə izləyirik. Mən bunu alqışlayıram. Çünki Türkiyə Cümhuriyyəti dünyanın böyük ölkələrindən biridir. Türkiyə Cümhuriyyəti inkişaf etmiş bir dövlətdir, demokratik ölkədir, bazar iqtisadiyyatı yolu ilə gedən ölkədir. Uzun illər NATO-nun tərkibində olan bir ölkədir. Belə bir ölkənin hökuməti, təbiidir ki,

gərək dinamik olmağa qadir olsun. Sizin ilk addımlarınız, Türkiyənin Avropa Birliyinə daxil olması istiqamətindəki fəaliyyətiniz, Kipr məsələsi ilə əlaqədar fəaliyyətiniz – bunlar hamısı onu göstərir ki, sizin əlinizdə Baş nazir mandatı olanda bu işləri daha çox, daha asanlıqla görəcəksiniz. Mən bütün bunlara görə sizi təbrik edirəm. Bunlar hamısı sevindirici hallardır.

Sizin bu qələbənizi, Türkiyənin indi belə inkişaf yoluna düşməsini biz Azərbaycanda özümüzün belə bir səviyyəyə qalxmağımız kimi qəbul edirik. Çünki Türkiyə ilə Azərbaycan arasındakı əlaqələr, dostluq, qardaşlıq əlaqələri əvvəldən olubdur. Təbiidir, bizim dərin köklərimiz məlumdur. Ancaq Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra Türkiyə həmişə Azərbaycanın ən yaxın dostu, qardaşı olubdur. Bu gün də belədir. Artıq biz bir-birimiz ilə strateji əməkdaşlıq səviyyəsində əlaqələr həyata keçiririk. Elə bir sahə yoxdur ki, bizim orada əməkdaşlığımız olmasın.

Təbiidir ki, əsas sahələrdən biri də Türkiyə ilə Azərbaycanı bağlayan, Azərbaycanın böyük təbii sərvətlərinin, Xəzər dənizində olan sərvətlərin dünya bazarlarına çıxarılması üçün Bakı–Tbilisi–Ceyhan boru xəttinin məhz Türkiyənin ərazisindən keçirilməsi, Azərbaycanın böyük təbii qaz ehtiyatlarının yenə də Türkiyəyə və Türkiyədən Avropaya çıxarılması haqqında bizim birgə qərarlarımız və bir çox başqa işlərimizdir. Bunlar bizim hələ görəcəyimiz işlərin əsasıdır. Qarşıda çox böyük imkanlar, böyük perspektivlər var. Onlardan da biz birgə istifadə edəcəyik.

Mən sizi bir daha salamlayıram. Xoş gəlmisiniz! Sizin Azərbaycanda az müddətdə olmağınıza baxmayaraq, biz çalışacağıq sizə şərait yaradaq ki, maksimum çox iş görə biləsiniz. Buyurun.

**R ə c ə b  T a y y i b  Ə r d o ğ a n:** Hörmətli Cümhur başqanım!

Hörmətli nazirlər!

Çox təşəkkür edirəm. Biz, nümayəndə heyətinin bütün üzvləri qardaş Azərbaycanı ziyarət etməkdən və zati-aliləri ilə bir arada olmaqdan böyük məmnunluq və şərəf duyuruq. Təbii, biz bu gün yenə öz evimizdəyik. On il bundan öncə Azərbaycana gəlmişdim, o gündən bu günə baxanda Azərbaycanda zati-alilərinin rəhbərliyi altında əldə olunan nailiyyətləri, inkişafı, çox fərqli inkişafı görürəm. Doğrudan da Azərbaycan çox ciddi bir dəyişiklik yolunu keçmiş, çağdaşlaşma yolunda çox ciddi bir dəyişikliyi bacarmışdır. İnanıram ki, bu dəyişiklik dünyada da örnək bir yer alır.

Türkiyə ilə Azərbaycan arasında, əslində, anlatmağa ehtiyac olmayan çox ciddi qardaşlıq kökləri var. Biz hər şeydən əvvəl qardaşıq. Təbii, bu qardaşlıq kökləri bizim iş adamlarımızın Azərbaycanın daxilində gördüklərində, sizlərin onlara qucağınızı açmağınızda özünü göstərir. Amma könlümüz bunun daha çox olmasını istəyir. İnşallah, bu Sizin onlara göstərəcəyiniz himayə ilə daha da irəliyə gedəcəkdir. Mən buna inanıram. Bizim əl-ələ verərək həm siyasətdə, həm iqtisadiyyatda, həm də mədəni sahədə bunları yüksəlişlə irəliyə aparmaq və inkişaf etdirməyimiz əsas şərtdir. Hazırda bizim ən önəmli münasibətlərimizi daha da genişləndirmək üçün əsas sahələr onlar olduğu üçün biz bu gün buraya Xarici İşlər nazirimizi, Daxili İşlər nazirimizi, Enerji nazirimizi və Mədəniyyət nazirimizi də gətirmişik.

Təbiidir ki, noyabrın 3-də Türkiyə yeni bir dövrə qədəm qoydu. Xalqımız bizə parlamentdə yerlərin 66 faizi ilə təmsil olunmaq hüququ verdi. Bu, seçim sistemindən qaynaqlanan bir fərqlilikdir. Xalq bizə 34,4 faiz səs verdi və bizim partiya parlamentdə yerlərin

66 faizini qazandı. Təbiidir ki, bu bizim üzərimizdə çox böyük məsuliyyət qoyur. Biz də bu məsuliyyəti bilərək, Sizin də bir az əvvəl dediyiniz kimi, əvvəlcə Avropa Birliyi ilə bağlı münasibətlərdə yüksək bir dinamiklik göstərdik, 20 gündə Avropa Birliyinin üzvü olan 14 ölkəni ziyarət etdik. Arada Amerika Birləşmiş Ştatlarını ziyarət etdik. Sonra Rusiyaya bir ziyarətimiz oldu. Ondan sonra da dedik ki, indi artıq türk cümhuriyyətlərini ziyarətə başlamalıyıq və bunu Azərbaycandan başladıq.

Ramazan ayında yemək zamanı dəyərli böyük elçinizə söyləmişdim. Demişdim ki, inşallah, yaxın vaxtlarda türk cümhuriyyətlərini ziyarətə başlayacağıq və ilk səfər edəcəyimiz yer Azərbaycan olacaqdır. Bu gün ona söylədim ki, artıq bu səfəri həyata keçiririk. İndi buradan Türkmənistana, daha sonra da Qazaxıstana səfər edib ilk turu bitirəcəyik. Sonra isə inşallah, ikinci turu yerinə yetirəcəyik.

Bizim aramızda olan qardaşlıq telləri yalnız keçmişimizdən deyil, həm də gələcəyimizdən ilham alır. Çünki qardaşların arasındakı bağlar zaman baxımından sərhədsizdir. Arzumuz, diləyimiz bu həmrəyliyimizi, bu birliyimizi, bu bərabərliyimizi gələcəyə doğru daha şövqlə, sevgi və məhəbbətlə aparmaqdır. Çünki bizə bizdən fayda var. Bunu bacarmağımız lazımdır.

Az öncə sizə ifadə etdiyimiz kimi, inşallah, Bakı–Tbilisi–Ceyhan 2005-ci ildə yox, daha tez hazır olsun. Bizim Enerji naziri də buradadır. Böyük səylə, gecə-gündüz durmadan işləməklə bunu daha erkən bitirmək lazımdır. Çünki zamanla yarışmaq məcburiyyətindəyik.

**Heydər Əliyev:** Çox gözəl.

**Rəcəb Tayyib Ərdoğan:** Bəli, zamanla yarışacağıq və bu işi tezliklə bitirməyimiz lazımdır. Eyni şəkildə mədəniyyət sahəsində fəaliyyətimizi daha çox zənginləşdirməyimiz lazımdır.

Bizim ortaq mədəniyyətimiz var. Bunun zənginləşdirilməsi lazımdır. Çünki mədəniyyət mədəniyyətdir, əgər mədəniyyətimiz yoxdursa, deməк, mədəniyyət baxımından dünyada da yoxsan. Azərbaycanın bu sahədə çox dərin zənginliyi var. Mən bələdiyyə başqanı olduğum dövrdə Azərbaycan ilə çox sıx əlaqələrim var idi. Bunları hörmətli naziriniz də bilir. İnşallah, bundan sonra bunu daha da artıraraq davam etdirəcəyik. Hazırda bu çalışmalar davam edir və edəcəkdir.

Enerji sektorunda söylədiyimizdən əlavə, daxili işlərdə də – hörmətli Daxili İşlər nazirimiz də buradadır, onların keçmişə əsaslanan zəngin təcrübələri var – əlaqələrimizi davam etdirmək amalı ilə birlik, bərabərlik, bütünlük içində gələcəyə yönəldilmiş fəaliyyətimizi sürdürəcəyik.

Hörmətli Cümhur başqanım, çox qiymətli vaxtınızı nümayəndə heyətimizə ayırdığınıza görə Sizə təkrar təşəkkür edirəm. Bu görüşümüzün bundan sonra müştərək atacağımız addımlar üçün xeyirli olmasını diləyirəm. Təşəkkür edirəm.

**H e y d ə r Ə l i y e v:** Çox sağ olun, təşəkkür edirəm.

## Görüş başa çatdıqdan sonra Azərbaycan prezidenti Heydər Əliyevin və Türkiyənin Ədalət və İnkişaf Partiyasının sədri Rəcəb Tayyib Ərdoğanın birgə mətbuat konfransı və bəyanatlarla çıxışları

### Azərbaycan prezidenti Heydər Əliyevin bəyanatı

Hörmətli mətbuat nümayəndələri!

Sizin hamınızı salamlayıram və bildirmək istəyirəm ki, bu gün Türkiyə–Azərbaycan əlaqələrində əlamətdar hadisə baş verir.

Türkiyə Cümhuriyyətində keçən ilin noyabrında seçkilərdə uğur qazanmış Ədalət və İnkişaf Partiyası təkbaşına hakimiyyətə gəlib və hökumət qurubdur. Partiyanın sədri, bizim hörmətli dostumuz cənab Ərdoğan bir neçə çox mühüm xarici səfərdən sonra Qafqaza, Orta Asiya cümhuriyyətlərinə səfərlərinə Azərbaycandan başlayıbdır. Mən bu münasibətlə həm dostumuz cənab Ərdoğana, həm də onu müşayiət edən şəxslərin hamısına bir daha təşəkkürümü bildirirəm. Azərbaycana xoş gəlmisiniz! Bu da əlamətdar hadisədir ki, bu səfərlər yenə də Azərbaycandan başlayır. Amma eyni zamanda bu təbiidir, əgər başqa birisi olsaydı, ola bilər ki, onu anlamaq çətin olardı. Bunun səbəbini siz bilirsiniz. Türkiyə və Azərbaycan arasındakı dostluq, qardaşlıq, strateji əməkdaşlıq əlaqələri xüsusi xarakter daşıyır, həyatımızın bütün sahələrini əhatə edir və bu dostluq əlaqələrini Azərbaycanda həmişə yüksək qiymətləndiriblər, bu gün də biz yüksək qiymətləndiririk. Məhz bu dostluq, qardaşlıq əlaqələri Azərbaycan Respublikası öz dövlət müstəqilliyini əldə edəndən sonra onun inkişafında mühüm rol oynayıbdır. Mən həmişə demişəm, bu gün də deyirəm ki, Azərbaycan öz müstəqilliyini əldə edəndən Türkiyə həmişə Azərbaycanla bərabər olub, bir yerdə olub və Azərbaycanın bütün qayğılarını bölüşübdür. Dedim ki, bizim əlaqələrimiz çox yüksək səviyyədədir və həyatın bütün sahələrini əhatə edir. Ancaq hesab edirəm ki, indi Türkiyədə yeni hökumət yaranandan sonra bir partiyanın iqtidarda olması Türkiyə Cümhuriyyətinin sürətlə inkişaf etməsinə şərait yaradıb və belə halda, təbii ki, Türkiyə–Azərbaycan əlaqələri də gərək o sürətli inkişafla ayaqlaşsın. Yəni onunla bərabər getməyə qadir olsun.

Güman edirəm ki, biz buna da nail ola biləcəyik. Mən bir daha sizə deyirəm ki, xoş gəlmisiniz. Biz bu gün çox səmərəli danışıqlar apardıq. Cənab Ərdoğanla mən başbaşa, təkbətək

danışdıq. Doğrudur, biz reqlamenti pozduq və bir-iki dəfə protokol şöbəsindən gəlib bizə dedilər ki, vaxt keçdi. Amma elə bil ki, biz heç danışmamışdıq. Bizim danışmağımız üçün 1-2 saat azdır. Saatlar lazımdır. İnşallah, bu da olacaqdır. Güman edirəm ki, yaxın vaxtlarda cənab Ərdoğan Türkiyənin Baş naziri olacaq, ondan sonra mənim dəvətim var, dəvətimi qəbul edib yenə də ilk olaraq Azərbaycana səfər edəcəkdir. Proqramı biz onda daha geniş tutacağıq. Bizim daha çox söhbət etməyə, danışmağa, Azərbaycanda belə bir söz var, dərdləşməyə vaxtımız olacaqdır

Sağ olun, mən sizə öz hörmət və ehtiramımı bildirirəm. Sözü sizə verirəm.

## Rəcəb Tayyib Ərdoğanın bəyanatı

Möhtərəm mətbuat nümayəndələri!

Azərbaycanı ziyarət etməkdən və cənab prezident Heydər Əliyevlə bir arada olmaqdan böyük bir səadət və şərəf duymaqdayam. Cənab Heydər Əliyevin rəhbərliyi altında Azərbaycanın əldə etdiyi inkişaf və nailiyyətlər həmişə bizim diqqət mərkəzimizdədir. Bu gün cənab Heydər Əliyevlə son dərəcə faydalı danışıqlar apardıq. Türkiyə ilə Azərbaycan arasında dərin qardaşlıq və dostluq münasibətləri mövcuddur. Kifayət qədər yüksək səviyyədə olan ikitərəfli münasibətlərimizin daha da inkişaf etdirilməsinin ölkələrimizin mənafeyi üçün mühüm nəticələr doğuracağına inanırıq. Ürəkdən inanırıq ki, bu ziyarətimiz də əlaqələrimizin daha da inkişafına mühüm töhfə verəcəkdir. Türkiyə Azərbaycanla əlaqələrini və əməkdaşlığını daha da inkişaf etdirmək əzmindədir. Cənab Əliyevin iş başına gəlməsindən bəri Azərbaycanın da eyni əzm və qərarlılıq içində olduğuna şahidik.

Cənab prezidentə də dediyim kimi, biz qardaş və dost olmaqla yanaşı, ölkələrimiz arasında bütün sahələrdə strateji bir həmrəylik və ortaqlıq mövcuddur. Bu çərçivədə bəzi məsələləri aşkarlıq şəraitində müzakirə etməyimizin lazımlı və faydalı olduğunu düşünürəm.

Bu səfərə gələndə özümlə təxminən 150 türk iş adamını, ictimai təşkilatların rəhbərlərini, o cümlədən Türkiyə Ticarət Palatasının rəhbərlərini də buraya gətirdim. Onlarla bərabər 50-yə yaxın mətbuat işçisi də bu səfəri işıqlandırmaq üçün buraya gəlmişdir. Dörd nazirimiz, Ədalət və İnkişaf Partiyası sədrinin bəzi müavinləri, müşavirlərimiz mənimlə bərabərdirlər. Bu da Azərbaycana səfərimizə verdiyimiz böyük əhəmiyyətə bir sübutdur.

Hörmətli mətbuat nümayəndələri!

Bakı–Tbilisi–Ceyhan layihəsinin həyata keçirilməsində ölkələrimizin gərgin səyləri artıq öz bəhrəsini vermişdir. Marşrutun haradan keçməsi barədə Gürcüstanda yaşanan problemin aradan qaldırılması sevindirici bir hadisədir. Türkiyə bundan sonra belə problemlərin ortaya çıxmaması üçün məsələni ciddi şəkildə izləyəcəkdir.

Bir az əvvəl bu barədə möhtərəm prezidentimizə də fikrimi bildirdim. Bizim zənnimizcə, 2005-ci il çox uzaqdır. Biz zamana qarşı yarışmağa məcburuq. Bu işi nə qədər qısa müddət ərzində həll edə bilsək, o qədər çox uğur qazanacağıq.

Bundan sonrakı əsas işimiz isə Bakı–Ərzurum qaz kəmərinin tikintisini gercəkləşdirməkdir. Bu layihənin həyata keçirilməsi nəticəsində Azərbaycan qazı Türkiyə üzərindən Avropaya nəql ediləcəkdir. Sahab terminala gedərək bu işlərə nə qədər böyük əhəmiyyət verdiyimizi əyani şəkildə göstərəcəyik.

2000-ci ildə ölkələrimiz arasında olan 326 milyon dollarlıq ticarətin həcmi 2001-ci ildə 295 milyon dollara düşmüşdür. Bu da 11 faizlik bir azalma deməkdir. Təəssüf ki, bu meyl 2002-ci ildə də davam etmişdir. Digər tərəfdən, Azərbaycana qoyulan sərmayəmiz 2001-ci ildə 723 milyon dollar təşkil etmişdir. Biz Azərbaycanda aparılan iqtisadi islahatları dəstəkləyir və imkanımız daxilində ona kömək etməyə çalışırıq. Bununla bərabər, inanırıq ki, vergi, gömrük, maliyyə və nəqliyyat bölmələrində mövcud olan problemlər Azərbaycanın möhtərəm Baş nazirinin göstərişləri ilə aradan qaldırılacaqdır.

Biz ortaq bir mədəniyyətə mənsubuq. Bu mənada mədəniyyət sahəsində də atacağımız ciddi addımlar var. Ona görə də Mədəniyyət nazirimizi də özümlə gətirdim. Mədəni əlaqələr sahəsində aramızdakı münasibətləri daha da möhkəmləndirəcəyimizə inanıram.

Daxili işlər sahəsində də bəzi müştərək addımlar atmalıyıq. Daxili İşlər nazirimiz də mənimlə birlikdədir. Daxili İşlər nazirliklərimiz arasında əməkdaşlıq daha da qüvvətləndiriləcəkdir. Xarici İşlər nazirimiz də nümayəndə heyətinin tərkibindədir. Nazirimiz Azərbaycanda həmkarları ilə lazım olan məsələləri müzakirə edəcəkdir. Mən inanıram ki, sahab bütün bu sahələrdə geniş danışıqlar gedəcəkdir.

Öz dəyərli vaxtını bizimlə görüşə ayırdığı üçün sizin hüzurunuzda cənab prezident Heydər Əliyevə nümayəndə heyətimiz adından öz dərin minnətdarlığımı bildirirəm. Sağ olun.

* * *

*Daha sonra Azərbaycan prezidenti Heydər Əliyev və Rəcəb Tayyib Ərdoğan jurnalistlərin suallarına cavab verdilər.*

**S u a l: Cənab Ərdoğan, bu sualı buradakı bütün türk jurnalistləri adından verirəm. Biz Türkiyədən yola düşdükdən dərhal sonra Hakim Kanatoğlunun bir açıqlaması oldu. Onun sözlərindən belə çıxır ki, 3 noyabr seçkilərindən sonra Siirt vilayətində keçiriləcək təkrar seçkilərdə də siz namizəd ola bilməyəcəksiniz. Bunun üçün seçicilərin siyahılarının yenidən tərtib edilməsi kimi maneələr var. Bu barədə sizin fikriniz necədir?**

**R ə c ə b T a y y i b Ə r d o ğ a n:** Mən bu suala Türkiyəyə qayıtdıqdan sonra cavab vermək istərdim.

**S u a l: Cənab Ərdoğan, Azərbaycan–Türkiyə əlaqələrinin indiki səviyyəsini necə qiymətləndirirsiniz?**

**Rəhbərlik etdiyiniz partiya hakimiyyətə gəldikdən sonra bu əlaqələri necə inkişaf etdirəcək? Azərbaycanın hazırkı inkişafı və perspektivləri Türkiyədən necə görünür?**

**R ə c ə b T a y y i b Ə r d o ğ a n:** Bir az əvvəl də dediyim kimi, bu günə qədər olan münasibətləri kifayət qədər parlaq hesab etmirik. Həm siyasi, həm iqtisadi, həm də mədəni sahələrdə münasibətləri qüvvətləndirməliyik. Bir az əvvəl möhtərəm prezidentimiz Heydər Əliyevə də söylədim. Biz üzərimizə düşən hər şeyi etməyə hazırıq. Mən bu məsələ ilə bağlı hörmətli Baş nazirimiz Abdullah Gülün salamlarını və düşüncələrini də çatdırmaq istəyirəm. Mənimlə eyni təyyarədə gələn iş adamları və burada çalışan türk iş adamları Azərbaycanda daha çox sərmayə qoymağı arzulayırlar. Onlar möhtərəm prezident Heydər Əliyevə ümidvardırlar. Bundan başqa, ölkələrimiz arasında ticarətin həcmini də sürətlə artırmalıyıq.

**S u a l: Cənab Prezident, cənab Sədr, mən hər ikinizə eyni sualla müraciət etmək istəyirəm. Azərbaycan–Türkiyə münasibətlərində bir sıxıntı və ya problem olubmu, əgər olubsa, bu,**

**aradan qaldırıldımı? Möhtərəm Heydər Əliyev Türkiyə ilə əlaqələrində hər hansı problem ilə üzləşdimi, cənab Ərdoğan Azərbaycan–Türkiyə əlaqələrini kifayət qədər möhkəm hesab edirmi?**

**H e y d ə r Ə l i y e v:** Mən dedim ki, Türkiyə–Azərbaycan əlaqələri çox yüksək səviyyədədir. Bunu bir daha təkrar edirəm. Amma problem deyəndə, problemsiz həyat olmur. Problem olur və biz onu həll edirik. Türkiyə ilə Azərbaycan arasında həll edilə bilməyəcək problem yoxdur, olmayıbdır. Keçmişdə bir-iki xətalar baş vermişdir. Onlar da məlumdur. Onları yada salmaq istəmirəm. Ancaq bizim dövlətlər arasında, hökumətlər arasında həllini tapa bilməyən problem yoxdur. Problemləri biz birlikdə həll edirik.

**R ə c ə b T a y y i b Ə r d o ğ a n:** Mən də cənab prezidentin sözləri ilə razıyam. Onu da əlavə etmək istəyirəm ki, keçmişdə olmuş xətaları gələcəyə aparmaq siyasətin xarakterinə ziddir. Siyasət əsla kin qəbul etməz. Xüsusilə qardaşlar arasında bu əsla mükmün deyildir. Biz bunların hamısının üstündən keçib gedirik, tariximizdə yeni səhifələr açaraq, aramızdakı münasibətləri, ticarətin həcmini artıraraq həmrəylik içində gələcəyə addımlayırıq və addımlayacağıq.

**S u a l: Cənab Ərdoğan, 15 ilə yaxın davam edən Dağlıq Qarabağ münaqişəsində Türkiyə hər zaman Azərbaycanın ədalətli mövqeyini dəstəkləyibdir. Amma Avropa və Amerika Birləşmiş Ştatlarının bəzi siyasi və iqtisadi dairələri, bir sıra maliyyə qurumları Türkiyənin Ermənistanla diplomatik əlaqələr qurmaq, iqtisadi münasibətlər yaratması üçün təzyiqlər göstərirlər. Dağlıq Qarabağ problemi həll edilmədiyi təqdirdə, Ermənistanın Türkiyəyə ərazi iddiaları irəli sürdüyü bir halda Türkiyə bu addımı atacaqmı? Dağlıq Qarabağ münaqişəsində Azərbaycana dəstəyini davam etdirəcəkmi?**

**R ə c ə b  T a y y i b  Ə r d o ğ a n:** Bu məsələ ilə əlaqədar Türkiyənin bu günə qədər yürütdüyü siyasət məlumdur. Biz heç vaxt azəri qardaşlarımızı incidəcək bir addım atmadıq. Bu, mümkün də deyildir. Biz cənab Heydər Əliyev ilə Robert Köçəryan arasında davam edən danışıqların Azərbaycan üçün xeyirli bir nəticə ilə başa çatmasını diləyirik. Minsk prosesini müsbət bir mexanizm olaraq qəbul edirik, ancaq bir nəticə verməməsini də təəccüblə qarşılayırıq. Bu baxımdan Türkiyə bu günə qədər yürütdüyü siyasəti bundan sonra da davam etdirəcəkdir. Biz hər zaman azəri qardaşlarımızın yanında olacağıq.

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN ADINDAN TÜRKİYƏNİN ƏDALƏT VƏ İNKİŞAF PARTİYASININ SƏDRİ RƏCƏB TAYYİB ƏRDOĞANIN ŞƏRƏFİNƏ VERİLƏN ZİYAFƏTDƏ NİTQ

*«Ulduz» sarayı*

*7 yanvar 2003-cü il*

**H e y d ə r  Ə l i y e v:** Hörmətli cənab Ərdoğan!

Hörmətli nazirlər!

Hörmətli qonaqlar, dostlar!

Sizi Azərbaycanda bir daha səmimi-qəlbdən salamlayıram və Azərbaycana bu səfərinizdən böyük məmnunluq hissi duyuram.

Biz bu gün az vaxt içərisində çox işlər gördük. Birincisi, cənab Ərdoğanla şəxsən tanış olduq. Biz vaxtilə İstanbulda da görüşmüşdük, bir yerdə yemək də yemişdik. O başqa. Amma indi isə cənab Ərdoğan Türkiyə hökumətinin lideridir, seçkilərdə gözlənilməmiş böyük nailiyyət əldə etmiş Ədalət və İnkişaf Partiyasının sədridir. Təbiidir ki, indi bu görüşümüz tamamilə başqa xarakter dayışır.

Cənab Ərdoğan, mən sizinlə təkbətək danışıqdan, apardığımız fikir mübadiləsindən çox məmnunam. Bizim fikirlərimiz üst-üstə düşür və indiyə qədər olduğu kimi, bu gün də siz də, mən də Türkiyə–Azərbaycan əlaqələrini ən yüksəkdə tuturuq. Mən sizinlə apardığım danışıqlar nəticəsində belə anladım.

Bu səfərin qeyri-adi xarakteri ondan ibarətdir ki, cənab Ərdoğan partiyanın sədri olaraq, öz partiyasını hakimiyyətə gətirib, partiyasının üzvlərinə hakimiyyət vəzifələri verib, onları Böyük Millət Məclisində, hökumətdə əyləşdirib və özü də onlara daha yuxarıdan rəhbərlik edir. Bu tamamilə təbiidir. Çünki dediyim kimi, bu nailiyyət Türkiyənin tarixində keçmişdə nadir hallarda olubdur. Hər dəfə belə hal, yəni bir partiyanın təkbaşına iqtidar olması Türkiyəyə çox böyük uğurlar gətirib, Türkiyəni inkişaf etdirib və Türkiyəni yüksəldibdir.

Xalq indi də səsi Ədalət və İnkişaf Partiyasına verərkən, düşünürəm ki, bu ümidlərlə yaşayır və heç şübhə etmirəm ki, partiya xalqın bu ümidlərini doğruldacaqdır. Cənab Ərdoğan, belə bir şəraitdə sizin Azərbaycana səfəriniz, yenə də deyirəm, çox əhəmiyyətlidir. Demək, Türkiyə–Azərbaycan əlaqələri Türkiyə siyasətində yenə də prioritet xarakter daşıyır. Bizim siyasətimizdə xüsusi yer tutur və bu da bizi məmnun edir.

Qarşımızda böyük yol var. Azərbaycan gənc, müstəqil dövlətdir. Biz 11 ildir ki, müstəqillik dövründə yaşayırıq, prob-

lemlərimiz var. Ən böyük problem Ermənistan–Azərbaycan münaqişəsi, Azərbaycan torpaqlarının Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunması və işğal edilmiş torpaqlardan bir milyondan artıq Azərbaycan vətəndaşının zorla çıxarılması, onların çadırlarda yaşamasıdır. Bu problem bizim, Azərbaycan dövlətinin böyük yarasıdır. Biz bu problemi həll etməyə çalışırıq. Bu barədə Türkiyə ilə daim məsləhətləşirik, Türkiyənin dəstəyinə ümid bəsləyirik. Türkiyə bizimlə bərabərdir. Amma təəssüflər olsun, hələ ki, bunu həll edə bilməmişik. Ancaq inanıram ki, biz bunu həll edəcəyik.

Müstəqil Azərbaycanın, gənc dövlətin qarşısında başqa problemlər də var. İndi biz bazar iqtisadiyyatına keçmişik. Bazar iqtisadiyyatının xüsusiyyətləri Türkiyədə yaxşı məlumdur. Keçmiş zamanlarda Türkiyə bu dövrü yaşayıbdır. İndi biz də yaşayırıq. Ancaq əgər bizim torpaqlarımız işğal olunmasaydı, bir milyondan artıq vətəndaşımız öz yerindən-yurdundan çıxarılıb çadırlarda, işsiz vəziyyətdə olmasaydı, müstəqil dövlətimizin qarşısında olan digər problemləri daha da asanlıqla, uğurla həll edə bilərdik. Ancaq buna baxmayaraq, biz irəliləyirik.

Azərbaycanın iqtisadiyyatı 1996-cı ildən başlayaraq ilbəil inkişaf edir. Biz 2002-ci ildə də yeni nəticələr əldə etmişik. Bizim 2003-cü ilə böyük planlarımız var. Ancaq hələ ki, Azərbaycanda bazar iqtisadiyyatını tam bərqərar etmək, özəlləşdirməni sona çatdırmaq üçün, sahibkarlığı inkişaf etdirmək, hər bir sahibkarın səmərəli işləməsinə şərait yaratmaq üçün görüləsi işlərimiz çoxdur.

Biz öz inkişaf yolumuzun bir hissəsini xarici investisiyanın Azərbaycana cəlb olunmasında görürük. Bu barədə də çox işlər görmüşük, neft və qaz sektoruna böyük investisiyalar gəlibdir. 2002-ci ildə Azərbaycana 2 milyard dollar investisiya

qoyulubdur. Razı olun ki, kiçik bir ölkəyə, cəmi 8 milyon əhalisi olan ölkəyə bir ildə 2 milyard dollar investisiya qoyulması – bunun 1 milyard 700 milyon dolları xarici investisiyadır, 300 milyon dolları isə daxili investisiyadır – böyük işdir. Ancaq bu da bizi qane etmir. İnvestisiya qoyulmasında biz Türkiyəni, türk iş adamlarını Azərbaycana daha çox cəlb etmək istəyirik.

Türkiyənin iş adamları Azərbaycanda çox işlər görüblər. Onların işləri elə şəhərimizdə də görünür. Məsələn, bizim aeroportun binasının tikilməsində Türkiyənin şirkətləri gözəl işlər görüblər. İndi biz fəxr edirik ki, beynəlxalq hava limanımız vardır. Amma bir o deyil, başqa çox işlər də görüblər. Ancaq hələ bundan sonra da işlər görəcəklər. Ümidvaram ki, cənab Ərdoğanla bərabər gəlmiş iş adamları ilə sahab keçiriləcək görüş və orada aparılacaq fikir mübadiləsi yeni imkanlar açacaqdır.

Mən bir neçə ay bundan öncə Türkiyədə olarkən, İstanbulda Türkiyənin iş adamları ilə görüşdüm, onları Azərbaycana dəvət etdim. Ondan sonra Türkiyənin ən böyük iş adamı Sabançı Azərbaycana gəldi. Sonra Şarık Tara Azərbaycana gəldi, başqaları gəldi, böyük görüşlər keçirdik. İndi cənab Ərdoğan buraya 150 iş adamı gətiribdir. Heç olmasa, bunlardan 50-si burada yaxşı işləsə, bizim işlərimiz çox irəliyə gedəcəkdir.

Bizim ölkəmiz açıqdır, hər şey açıqdır. İstərdim ki, Türkiyə Azərbaycana daha çox sərmayə qoysun, gəlib burada iş gör-sünlər. Xüsusən, istehsal yaratsınlar. İstehsal yeni iş yerləri açır. Bizdə işsizlər çoxdur. İşsizlik bizim əsas problemlərimizdən biridir. Biz istehsal sahələri yaratmalıyıq. Özümüz də buna çalışırıq və çalışmalıyıq. Xarici investorlar da özlərini məhz istehsal sahəsində daha çox göstərməlidirlər.

Kommersiya, ticarət, alış-veriş sahələri çox mühüm sahə-lərdir. Bunları da irəliyə aparmalıyıq. Cənab Ərdoğan doğru

buyurdu ki, 300 milyon dollarlıq ticarət dövriyyəsi Türkiyə və Azərbaycan üçün o qədər də yararlı bir şey deyildir. Biz bunu artırmalıyıq. Amma eyni zamanda, gərək xarici investorlar Azərbaycanda istehsal sahələri yaratsınlar. Bizdə olan işsizlərə iş vermək lazımdır. Onlara iş verəndə, istehsal yarananda iş adamları qoydurları sərmayələrdən bəhrə götürəcək, bizim adamlar da işlə təmin olunacaqlar. Güman edirəm, bu sahədə imkan çoxdur və biz bu imkanlardan da istifadə edəcəyik.

Mən bunu xüsusi qeyd etmək istəyirəm, bizi sevindirən odur ki, Türkiyənin həyatında yeni bir dövr açılır, yeni bir mərhələ açılır. Ədalət və İnkişaf Partiyası təkbaşına iqtidarda olaraq böyük işlər görə bilər. Mən bu gün cənab Ərdoğanın dediklərindən belə anladım ki, artıq bu işlərin planları var, onlar həyata keçiriləcək, Türkiyənin iqtisadiyyatı inkişaf edəcəkdir. Türkiyənin iqtisadiyyatı nə qədər çox inkişaf etsə, bunun Azərbaycana da bir o qədər müsbət təsiri olacaqdır. Biz bunu arzu edirik.

Başqa məsələlərdə, beynəlxalq təşkilatlarda, hər yerdə Türkiyə ilə Azərbaycan bir yerdədir və bir yerdə də olacağıq. Erməni lobbisinə qarşı bir yerdə mübarizə aparmışıq, bir yerdə də aparacağıq. Ermənilərin guya türklərin onlara qarşı soyqırım etmələri haqqında fikirlərinin biz həmişə əleyhinə çıxmışıq. Bizim Milli Məclis bu barədə Fransa parlamentinə etiraz göndərib, başqa bəyanatlar vermişik və bundan sonra da verəcəyik. Ermənilər Azərbaycanda azərbaycanlıları qırıblar, Türkiyədə türkləri qırıblar. İndi deyirlər ki, guya türklər erməniləri qırıb, soyqırım ediblər. Bu, doğru deyildir, yalandır.

Siz sabah Şəhidlər xiyabanında olacaqsınız. Güman edirəm, orada türk əsgərlərinin xatirəsinə ucaldılmış abidəni də görəcəksiniz. O abidə nədir? Qafqaz türk ordusu 1918-ci ildə

Azərbaycana gəldi. Əgər o, Azərbaycana gəlməsəydi, azərbaycanlıları ermənilərin qırğınından xilas etməsəydi, ermənilər burada daha çox azərbaycanlı qıracaq və hakimiyyətlərini möhkəmləndirəcəkdilər. Ona görə Azərbaycan xalqı minnətdarlıq əlaməti olaraq, bir neçə il bundan öncə orada o abidəni ucaldıbdır. Mənim dostum, 9-cu cümhur başqanı Süleyman Dəmirəl ilə birlikdə o abidənin açılışını etmişik. İndi o bizim Şəhidlər xiyabanı kimi, bütün azərbaycanlılar üçün eyni dərəcədə ziyarətgah yeridir. Biz həmişə bir olmuşuq, bir olacağıq və birlikdə də hər yerdə mübarizəmizi aparacağıq.

Atatürkün yaratdığı Türkiyə Cümhuriyyəti 1923-cü ildən indiyə qədər böyük yol keçibdir. Bu yol çox şərəfli yoldur. İndi Türkiyədə demokratik, hüquqi, dünyəvi dövlət var. Bu çox böyük işdir. Bu işi türk xalqı, Türkiyənin siyasətçiləri aparıb, bu gün də aparır, gələcəkdə də aparacaqlar.

Mən istəyirəm badələri Türkiyə Cümhuriyyətinin şərəfinə, türk xalqının şərəfinə, Türkiyə–Azərbaycan dostluğunun, qardaşlığının şərəfinə qaldıraq. Sağ olun.

**R ə c ə b  T a y y i b  Ə r d o ğ a n:** Hörmətli Cümhur başqanı!

Hörmətli dəvətlilər!

Əvvəlcə, hörmətli Heydər Əliyevə bizim şərəfimizə açdığı bu qardaşlıq və məhəbbət süfrəsinə görə bütün heyətim adından dərin təşəkkürümü bildirirəm.

Bildiyimiz kimi, noyabrın 3-də keçirilmiş seçkidən sonra, noyabrın 28-də Türkiyənin 58-ci hökuməti iş başına keçdi. Bu fəaliyyəti dövründə qardaş ölkələrlə münasibətlərimizi inkişaf etdirməyi məqsəd götürübdür. Biz buna çox böyük önəm veririk. İstər siyasi sahədə, istər iqtisadi sahədə, istərsə də sosial sahədə münasibətlərimizi sürətlə genişləndirməyimiz və

möhkəmləndirməyimiz vacibdir. Müasir mədəniyyətlər səviyyəsinə birlikdə qalxmaq istəyirik. Bilirik ki, mehriban qardaşlar kimi, əl-ələ verməliyik. Əlbəttə, birlik, bərabərlik, bütünlük içərisində olmağımız vacibdir. Bunu bacardığımız təqdirdə, dünyada görə biləcəyimiz çox şeylər vardır. Bərabər görməli çox işlərimiz vardır.

Türkiyənin əhalisinin 60 faizini 40 yaşadək insanlar təşkil edir. Bu əslində iqtisadiyyat üçün çox böyük zənginlikdir. Bu dinamik gücə sahib olan Türkiyə gələcək üçün ümidlər vəd edir. Təbii ki, indi hakimiyyətdə olan 58-ci hökumət bu ümidi məhv edə bilməz. Başda Azərbaycan olmaqla, qardaş ölkələrimizlə, Orta Asiya ölkələri ilə birlikdə bütün münasibətlərimizi sülh, əmin-amanlıq, qardaşlıq, sevgi hissi ilə inkişaf etdirməyimiz gərəkdir. Bunu xüsusi gücləndirməyimiz lazımdır. Söylənilən rəqəmlər çox kiçik rəqəmlərdir, bəsit rəqəmlərdir. Bu rəqəmləri artırmağımız gərəkdir.

Biz keçən ay Rusiyada idik. Həqiqətən, «Mavi axın» layihəsi ilə Türkiyəyə gələcək təbii qazla və Rusiyadan alınan başqa məhsullarla birlikdə xarici ticarət həcminə baxdıqda, Türkiyənin əleyhinə çox böyük bir rəqəm yaranır. Amma qardaş Azərbaycanla ticarətdəki rəqəm isə onunla müqayisə edilməz dərəcədə azdır.

İndi Türkiyənin Odalar və Birjalar Birliyinin sədri, digər biznes qurumları və birliklərinin rəhbərləri və 150-dən çox dəyərli iş adamı, eyni zamanda hazırda Azərbaycanda fəaliyyət göstərən, sərmayə qoyan şirkətlərin nümayəndələri yanımızdadırlar. Onlar hər biri ilə təyyarədə görüşərkən mənə söylədikləri bir fikri sizə çatdırmaq istəyirlər: Biz Azərbaycanda daha çox işlər görmək istəyirik, daha çox sərmayə qoymaq istəyirik. Onlar mənə dedilər ki, bizim sizdən bir ricamız var. Dedim,

ricanız nədir? Dedilər ki, hörmətli cümhur başqanı Heydər Əliyev bizə qucağını daha çox açsın, biz buraya daha rahat gələk.

**H e y d ə r Ə l i y e v:** Mən qucağımı tamamilə açmışam.

**R ə c ə b T a y y i b Ə r d o ğ a n:** Çox sağ olun. İnanıram ki, inşallah, biz bunları gerçəkləşdirəcəyik, gediş-gəlişlərimiz daha da artacaqdır.

Mənim hər zaman bir sözüm var. 15 il futbol oynadım. Məlumdur ki, İlham da idmana çox böyük diqqət və qayğı ilə yanaşır. Dedim ki, futbolda meydançanın orta hissəsində topa sahib olmaq iş deyil, qol vurmaq işdir. Qol vurmalısan ki, qalib gələsən. Qol vurmadan topa istədiyin qədər sahib olsan, faydası yoxdur.

**H e y d ə r Ə l i y e v:** Bəli, orada nə qədər oynasan da bir şey çıxmaz.

**R ə c ə b T a y y i b Ə r d o ğ a n:** Heç bir mənası yoxdur.

**H e y d ə r Ə l i y e v:** Elədir…

**R ə c ə b T a y y i b Ə r d o ğ a n:** Qol vurduğun zaman iş bitir, qalib gəlirsən. İndi inşallah, biz birlikdə, bərabər qol vurmaq istəyirik. İnşallah, qardaşlar olaraq bunu edəcəyik.

Bizə bu gözəl məhəbbət süfrəsini hazırladığınız üçün bütün nümayəndə heyəti adından Sizə dərin təşəkkürümü bildirirəm. Bu, Türkiyə ilə Azərbaycan arasındakı yüksək inkişafı göstərən, onun şərəfini artıran bir məhəbbət süfrəsidir. Mən hamınıza təkrarən dərin hörmət və ehtiramımı, sevgimi bildirirəm. Sağ olun.

**VƏLİ AXUNDOV ADINA ELMİ-TƏDQİQAT TİBBİ PROFİLAKTİKA İNSTİTUTUNA**

Hörmətli institut əməkdaşları!

Sizi – Vəli Axundov adına Elmi-Tədqiqat Tibbi Profilaktika İnstitutunun işçilərini institutunuzun yaradılmasının 80 illiyi münasibətilə səmim

i-qəlbdən təbrik edirəm.

Azərbaycanda profilaktik təbabətin aktual problemlərinin həlli ilə məşğul olan institutunuzun ölkəmizdə səhiyyə işinin elmi əsaslarla qurulmasında və inkişaf etdirilməsində böyük xidmətləri vardır. İnstitut diaqnostik-müalicəvi və elmi-metodik fəaliyyəti ilə ölkəmizdə yoluxucu xəstəliklərə qarşı mübarizədə yaxından iştirak edərək insanların sağlamlığının qorunması işinə

öz sanballı töhfəsini vermiş və bu sahədə zəngin təcrübə toplamışdır.

Elmi-Tədqiqat Tibbi Profilaktika İnstitutunun əsasını qoymuş və inkişafına təkan vermiş görkəmli tibb alimlərinin əməyini yüksək qiymətləndirərək bu yubiley günündə onların xatirəsini böyük ehtiram hissi ilə yad edirəm.

Əminəm ki, siz xalqımızın sağlamlığının qorunması yolunda əllərindən gələni əsirgəməmiş həmin nəsillərin ənənələrini ləyaqətlə davam etdirəcək və ölkəmizdə səhiyyə işinin daha da inkişaf etdirilməsi üçün var qüvvənizi sərf edəcəksiniz.

Bu əlamətdar günlərdə sizə – institutun əməkdaşlarına, ölkəmizin bütün səhiyyə işçilərinə insanların sağlamlığının qorunmasına yönəldilmiş nəcib fəaliyyətinizdə böyük uğurlar diləyir, hər birinizə cansağlığı və xoşbəxtlik arzulayıram.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *7 yanvar 2003-cü il*

**LİTVA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB ROLANDAS PAKSASA**

Hörmətli cənab Prezident!

Litva Respublikasının prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Azərbaycan ilə Litva arasındakı ənənəvi dostluq və əməkdaşlıq münasibətlərinin inkişafından məmnunam. Əminəm ki, əlaqələrimizin bütün sahələrdə genişlənməsi daim xalqlarımızın mənafeyinə xidmət edəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Litva xalqının rifahı naminə fəaliyyətinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *9 yanvar 2003-cü il*

**TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ƏHMƏD NECDƏT SEZƏRƏ**

Hörmətli cənab Prezident!

«Türk Hava Yolları» aviasiya şirkətinə məxsus sərnişin təyyarəsinin Diyarbəkirdə qəzaya uğraması nəticəsində çoxsaylı insan tələfatı xəbəri məni ürəkdən kədərləndirdi.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına dərin hüznlə başsağlığı verirəm.

*Allah rəhmət eləsin!*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *9 yanvar 2003-cü il*

**AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB CORC BUŞA**

Hörmətli cənab Prezident!

Şarlott şəhərinin beynəlxalq hava limanında baş vermiş təyyarə qəzası nəticəsində insan tələfatı xəbəri məni ürəkdən kədərləndirdi.

Baş vermiş faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına dərin hüznlə başsağlığı verirəm.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *10 yanvar 2003-cü il*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVƏ ANS ŞİRKƏTLƏR QRUPUNUN VƏ ÇİNGİZ MUSTAFAYEV ADINA FONDUN TƏSİS ETDİYİ «2002-ci İLİN ADAMI» MÜKAFATININ VƏ DİPLOMUNUN TƏQDİM OLUNMASI MƏRASİMİ*

*«Hyatt Recensi–Naxçıvan» oteli*

*11 yanvar 2003-cü il*

*Mərasimdə Azərbaycan prezidenti Heydər Əliyev Milli Qəhrəman Çingiz Mustafayevin ailə üzvləri, onun adını daşıyan fondun və ANS şirkətlər qrupunun rəhbərliyi, xarici ölkələrin ölkəmizdəki səfirləri ilə səmimiyyətlə görüşdü.*

*Mərasimdə Milli Qəhrəman Çingiz Mustafayevin qardaşı, ANS şirkətlər qrupunun prezidenti Vahid Mustafayev çıxış etdi.*

**V a h i d M u s t a f a y e v:** Hörmətli Prezident!

Hörmətli xanımlar və cənablar!

Əgər siz Azərbaycanın müstəqil olduğu 11 il ərzində ölkəmizdə dərc olunan mətbuatı və televiziyaların xəbərlər buraxılışını bir daha nəzərdən keçirsəniz, müzakirə olunan ən

---

* Мярасими АНС ширкятляр групунун витсе-президенти Миршащин Аьайев ачды.

mühüm problemləri altı qrupa bölə bilərsiniz. Mən mümkün qədər qısa şəkildə onları sizə bir daha xatırlatmaq istəyirəm ki, 2002-ci ilin xalqımız və dövlətimiz üçün nə qədər əhəmiyyətli olduğunu aydın və müqayisəli təsvir edə bilim.

Birincisi, Azərbaycan müstəqil olanda Rusiya ilə münasibətlərdə xüsusi gərginlik müşahidə olunurdu və bu gərginlik Azərbaycan üçün ciddi problemlər yaradırdı.

İkincisi, İran formal olaraq Azərbaycanın müstəqilliyini tanısa da, de-fakto iki dövlət arasında münasibətlər son dərəcə gərgin olaraq qalmaqda idi.

Üçüncüsü, Azərbaycan uzun illər idi ki, Bakı–Tbilisi–Ceyhan əsas ixrac neft kəməri layihəsini reallaşdıra bilmirdi.

Dördüncüsü, 1992-ci ildən başlayaraq Rusiya və İran Xəzərin statusuna dair məsələlərdə Azərbaycanla ciddi fikir ayrılığı vəziyyətində idi.

Beşincisi, 1991-ci ildən başlayaraq Azərbaycan SSRİ-nin və Rusiyanın formalaşdırdığı təhlükəsizlik sistemindən imtina etsə də, başqa heç bir regional təhlükəsizlik sisteminə daxil deyildi.

Nəhayət, altıncısı və bizim üçün ən ağrılısı – artıq 15 ildir ki, Azərbaycan Qarabağ münaqişəsinə cəlb edilib və bu problem hələ də həll olunmamış qalır.

Bütün bu sadaladıqlarım Azərbaycanın müstəqilliyi ilə yaşıd problemlərdir. Bu altı problem ayrıca götürülmüş siyasi partiyaların maraqları olmayıb, milli miqyaslıdır və milli əhəmiyyət kəsb edir. Bu «altılıq» həm də elə fundamental problemlər toplusudur ki, yerdə qalan bütün daxili və beynəlxalq əhəmiyyətli məsələlərin həllinə yol aça və sonrakı inkişaf üçün möhkəm baza rolunu oynaya bilər. Nəhayət, qürur hissi ilə bildirmək istəyirəm ki, bu altı problemdən beşi məhz 2002-ci ildə tam və qismən öz həllini tapdı. Belə ki:

– Rusiya ilə münasibətlərdə xeyli gərginliyə səbəb olan Qəbələ RLS-in statusu, demək olar ki, bütün tərəfləri qane edən formada həll edildi.

– Azərbaycan üçün mühüm əhəmiyyət kəsb edən İranla 10 ildən sonra «Dostluq və əməkdaşlıq haqqında saziş» imzalandı ki, bu da İranın Azərbaycanı ikinci dəfə, bu dəfə artıq de-fakto tanımasına bərabər hadisə kimi qiymətləndirilir.

– Çoxsaylı siyasi ziddiyyətlərdən sonra Bakı–Tbilisi–Ceyhan neft kəmərinin özülü qoyuldu və regionun iqtisadi-strateji xətti birmənalı olaraq müəyyənləşdi.

– Xəzərin dibinin bölünməsi məsələsi mühüm sahilyanı dövlətlər olan Rusiya və Qazaxıstanla razılaşdırıldı. İndi mühüm üçtərəfli sazişin imzalanacağı gözlənilir. Artıq heç bir maraqlı tərəf bu bölgünün prinsiplərinə qarşı real olaraq müqavimət göstərmək iqtidarında deyildir.

– Nəhayət, Azərbaycan 1991-ci ildən başlayaraq on bir il bütün təhlükəsizlik sistemlərindən kənarda qaldıqdan sonra məhz 2002-ci ildə Türkiyə və Gürcüstanla təhlükəsizlik sazişi imzaladı. Bu birgə saziş ayrılıqda Azərbaycan–Türkiyə, Azərbaycan–Gürcüstan, Azərbaycan–ABŞ hərbi əməkdaşlığının qurulması və Azərbaycanın NATO Parlament Assambleyasına assosiativ üzv olması ilə möhkəmləndirildi.

Hörmətli xanımlar və cənablar!

İndi isə icazənizlə, Milli Qəhrəman Çingiz Mustafayev adına fond və ANS şirkətlər qrupu tərəfindən seçilmiş «2002-ci ilin adamı»nı elan edirəm.

Ötən il Azərbaycan üçün 5 mühüm siyasi-iqtisadi məsələnin həllinə – Bakı–Tbilisi–Ceyhan boru kəmərinin təməl daşının qoyulması, Azərbaycan–Gürcüstan–Türkiyə təhlükəsizlik sisteminin yaradılması, İranla dostluq və əməkdaşlıq müqaviləsinin

imzalanması, Azərbaycan və Rusiya arasında Xəzərin dibinin bölünməsi və Qəbələ RLS-in statusunun müəyyənləşdirilməsinə nail olduğuna görə Azərbaycan Respublikasının prezidenti cənab Heydər Əlirza oğlu Əliyev «2002-ci ilin adamı» elan edilir.

Hörmətli xanımlar və cənablar!

ANS televiziyasının dili ilə desək, min dəfə eşitməkdənsə, bir dəfə görmək yaxşıdır. Odur ki, bir qədər sonra Azərbaycan üçün çox mühüm olan həmin anları videokadrlar vasitəsi ilə birlikdə müşahidə edəcəyik.

İndi isə Azərbaycan Respublikasının prezidenti cənab Heydər Əliyevə «2002-ci ilin adamı» mükafatını təqdim edirik.

* * *

*ANS telekanalının prezidenti **Vahid Mustafayev** Azərbaycan prezidenti Heydər Əliyevə mükafatı, diplomu və hədiyyəni təqdim edərək dedi:*

Çingiz Mustafayev adına fond və ANS şirkətlər qrupu Azərbaycan prezidenti Heydər Əliyevə «2002-ci ilin adamı» xüsusi diplomunu və 20 milyon manat məbləğində mükafat təqdim edir. Bu pul mükafatının 20 milyon manat dəyərində olmasına baxmayaraq, 3 milyon 296 min manatını biz cənab prezidentdən vergi kimi tuturuq və dövlətimizin başçısına 16 milyon 704 min manat pul veririk. Cənab Prezident, ona görə xahiş edirik, buraya imza atasınız.

**Heydər Əliyev** (*imza atdıqdan sonra*)**:** Dayan, mən məsələni aydınlaşdırmalıyam. Deməк, bu sizin mənə verdiyiniz pul mükafatıdır.

**Vahid Mustafayev:** Bəli, 20 milyon manatdır.

**Heydər Əliyev:** Amma sən üstündən çıxdın?!

**V a h i d  M u s t a f a y e v:** Bəli, ordan 3 milyon 296 min manat vegilər üçün çıxdıq. Sizə isə 16 milyon 704 min manat çatır.

**H e y d ə r  Ə l i y e v:** Bu, 16 milyon manatdır?!

**V a h i d  M u s t a f a y e v:** 16 milyon 704 min manatdır.

**H e y d ə r  Ə l i y e v:** Mən bu 16 milyon 704 min manatı ANS-ə bağışlayıram.

**V a h i d  M u s t a f a y e v:** Çox sağ olun.

Hörmətli xanımlar və cənablar!

Ənənəmizə sadiq qalaraq, biz «İlin adamı»nı həm də qızıl saatla mükafatlandırırıq. Bu dəfə «İlin adamı» adi adam yox, dövlətimizin başçısı cənab Heydər Əliyev olduğuna görə, təqdim etdiyimiz saat da onun adına layiq seçilibdir. Bu, dünyada dörd əsrdir ki, ən dəqiq və məşhur saat sayılan, fabrik tərəfindən şəxsən, cənab Prezident, Sizin üçün hazırlanmış 2-080 nömrəli «Breqe» saatıdır.

**H e y d ə r  Ə l i y e v:** Çox sağ ol, təşəkkür edirəm.

**V a h i d  M u s t a f a y e v:** Hadisənin əhəmiyyətini nəzərə alaraq, İsveçrənin «Breqe» şirkətinin rəhbərliyi mərasimdə şəxsən iştirak etməyi arzulayıb və cənab Mirko Bertoluçi bir neçə kəlmə ilə Sizi təbrik etmək istəyir.

**M i r k o  B e r t o l u ç i** *«Breqe» şirkətinin nümayəndəsi):*

Zati-aliləri cənab Prezident!

Hörmətli xanımlar və cənablar!

İcazə verin, «Breqe» şirkətinin rəhbərliyi adından Sizi «2002-ci ilin adamı» elan olunmağınız münasibətilə təbrik edim və bu çətin, məsuliyyətli işinizdə Sizə müvəffəqiyyətlər arzulayım.

1999-cu ildən ANS şirkətlər qrupu ilə əməkdaşlığa başlayandan sonra biz Azərbaycan haqqında daha dolğun informasiyalara malik olduq. Bu, «Breqe»nin ilk daşıyıcılarından biri olan Puşkinin təsvir etdiyi kimi, heç də yalnız təbii mənzərələri ilə seçilən bir ölkə deyil. Bu, getdikcə daha sürətlə vahid Avropa ailəsinə daxil olan bir dövlətdir. Biz bunu dünyanın ən qədim «saat evi» kimi, tarixi prosesləri öz dəqiq mexanizmləri ilə müşayiət edən «Breqe» şirkəti kimi deyirik.

XVIII əsrdən başlayaraq Avropa ölkələrinin bütün hökmdarları – Napoleon, Osmanlı imperiyasının sultanı III Səlim, daha sonralar Rusiya imperiyasının bütün çarları, ser Uinston Çörçill, Misir kralı Fərrux tarixi məhz bizim saatlarla yaradıblar. Adı çəkilən tarixi şəxsiyyətlər, habelə müasir dövrümüzün bir çox dövlət başçısı «Breqe» ümumdünya muzeyinin fəxri üzvləridir.

Cənab Prezident, fəxrlə deyə bilərik ki, «Breqe» rəhbərliyinin qərarı ilə bu gündən etibarən Siz də bu tarixi siyahıya daxil edilirsiniz. Sizin saatınızın məxsusi nömrəsi beynəlxalq fəxri reestrə rəsmən əlavə edilibdir.

Çıxışımın sonunda ANS şirkətlər qrupu və Çingiz Mustafayev adına fondun «2002-ci ilin adamı» üçün məhz «Breqe» saatını, məhz Sizi seçməsindən qürur hissi keçirirəm. İcazənizlə, mən xatirə olaraq «Breqe»nin tarixini əks etdirən bu kitabı Sizə təqdim edirəm. Biz bu gündən bir-birimizin tarixinə həkk olunuruq. Sizi təbrik edirəm. Sağ olun.

* * *

*Sonra Azərbaycan prezidenti Heydər Əliyevin Azərbaycan üçün ən mühüm siyasi-iqtisadi məsələlərin həlli istiqamətində gördüyü işlər – Bakı–Tbilisi–Ceyhan boru kəmərinin təməl daşı-*

*nın qoyulması, Azərbaycan–Gürcüstan–Türkiyə təhlükəsizlik sisteminin yaranması, İranla dostluq və əməkdaşlıq müqaviləsinin imzalanması, Azərbaycan və Rusiya arasında Xəzərin dibinin bölünməsi və Qəbələ RLS-in statusunun müəyyənləşdirilməsi ilə bağlı keçirdiyi görüşləri və imzalanma mərasimlərini əks etdirən videokadrlar nümayiş etdirildi.*

*Azərbaycan prezidenti Heydər Əliyev mərasimdə geniş nitq söylədi.*

**H e y d ə r  Ə l i y e v:** Hörmətli xanımlar və cənablar!

Mən sizi bu gün bu mərasimdə səmimi-qəlbdən salamlayıram və belə bir qeyri-adi görüşdə hamımızın bir yerdə olmağından çox məmnunam.

Azərbaycan prezidenti kimi, mən Azərbaycanda mükafatlar verirəm, insanları təltif edirəm – hamısını mən edirəm. Amma indi Azərbaycanda ilk dəfədir ki, məni təltif ediblər və mənə mükafat veriblər. Ona görə bu, həqiqətən çox əlamətdar hadisədir və bu münasibətlə mən Çingiz Mustafayev fonduna, ANS şirkətlər qrupuna öz təşəkkürümü, minnətdarlığımı bildirmək istəyirəm.

Bu hədiyyə mənim üçün çox qiymətlidir. Ən birincisi, onun adına görə. Çingiz Mustafayevin adını daşıyan fond Azərbaycanda uzun illərdir fəaliyyət göstərir. Bu fond Milli Qəhrəmanın, Azərbaycanın istedadlı jurnalistlərindən birinin xatirəsinə yaranmış fonddur. Çingiz Mustafayevin qısa müddətli həyatı, Ermənistanın Azərbaycana təcavüz etdiyi ilk illərdə bir jurnalist kimi çox cəsarətli və məharətli fəaliyyəti nümunə olmuşdur, böyük örnək olmuşdur. Hesab edirəm ki, bu, həqiqətən, Azərbaycanın bütün jurnalistləri üçün böyük nümunə olmalıdır.

Vətən yolunda şəhid olan hər bir insan qəlbimizdə, xalqımızın qəlbində yaşayır və yaşamalıdır. Ancaq beləlӕrinin, müharibənin qızğın dövründə qorxmadan özünü odun-alovun içinə ataraq, həqiqətləri xalqa və dünyaya çatdırmaq arzusu ilə yaşayan Çingiz Mustafayev kimi insanın xatirəsi bizim üçün daha da əzizdir. Ona görə də bu hədiyyə mənim üçün böyük əhəmiyyət kəsb edir.

ANS Azərbaycanda ilk müstəqil televiziya kanalıdır. ANS-in yaranma tarixi məlumdur. O, müxtəlif formalarda hələ 1990-cı illərin əvvəllərindən fəaliyyət göstərməyə başlamışdı. Bu da məhz Çingiz Mustafayevin qardaşı Vahid Mustafayevin və digərlərinin səyləri nəticəsində mümkün olmuşdu. Bilirəm, onların qarşısı alınmışdı, verilişləri bir neçə dəfə bağlanmışdı, qadağan edilmişdi, ancaq onlar öz tutduqları yoldan çəkilməmişdilər. Deməк, onlar da Çingiz Mustafayevin xüsusiyyətlərinə sadiq olaraq, öz yolları ilə inadla getmişlər və Azərbaycanda özəl televiziya şirkətlərinin yaranmasının əsasını qoymuşlar.

Təbiidir ki,  özəl teleşirkətlər heç də hamının xoşuna gəlmir. Bəzən elə burada olanları da narahat edir, bəzi verilişləri mənim özümün də xoşuma gəlmir. Mən bunu açıq etiraf etməliyəm. Ancaq nə etmək lazımdır? Dözmək lazımdır. Çünki bizim demokratiyanın, söz azadlığının, mətbuat azadlığının, insan azadlığının yollarından biri də budur. Biz bu yola düşmüşük, Azərbaycanda dövlət müstəqilliyini əldə edəndən sonra bunu bəyan etmişik. Mən bunu Azərbaycanın prezidenti kimi deyirəm, bəyan etmişik ki, bizim yolumuz demokratiya yoludur, siyasi plüralizm yoludur, insan haqlarına hörmət yoludur, bazar iqtisadiyyatı, sərbəst iqtisadiyyat yoludur. Qurduğumuz, yaratdığımız hüquqi, demokratik, dünyəvi dövləti ancaq bu yolla

inkişaf etdirmək olar. Biz bu yolda çox işlər görmüşük. Ancaq bu yol heç vaxt, heç vaxt hamar olmayıdır. Əgər biz bu yolla gedərək, kənardan tənqidləri eşitməsək, buraxılan səhvlər haqqında deyilən haqq sözləri eşidib, qavrayıb, onlardan nəticə çıxarmasaq, ancaq öz bildiyimiz kimi etsək, onda təbii ki, çox səhvlər buraxarıq. Elə indiyə qədər də səhvlər buraxılıbdır. Mən etiraf edirəm ki, bizim getdiyimiz bu yolda səhvlərimiz də olubdur, qüsurlarımız, nöqsanlarımız bu gün də var, hamısı var. Amma hakimiyyətdə olanlar, icra orqanlarında işləyənlər bunları bəzən ya görə bilmirlər, görsələr də əhəmiyyət vermirlər. Ancaq bizə azad mətbuat, o cümlədən, xüsusən müstəqil telekanallar vaxtlı-vaxtında müəyyən məsələləri xatırlatmasa, tənqid etməsə, yenə də deyirəm, səhvlər daha da çox olar.

Məsələn, mən dünən axşam ANS-ə baxırdım. Bayılda sürüşmə ilə əlaqədar bir süjet göstərdilər ki, oradan insanları çıxarmaq istəyirlər, onlar müqavimət göstərib, hay-küy salıblar, polis gəlibdir. Sonra onun dalınca ikinci bir süjet getdi. Biz Mingəçevirdə qaçqınlar üçün yer ayırmışıq ki, evlər tikilsin və onlar orada indi qaldıqları dövlət binalarından, məktəblərdən çıxsınlar. Xüsusən də orada avarçəkmə üzrə çox əhəmiyyətli idman bazamız var. O, beynəlxalq xarakter daşıyan bir idman bazasıdır. Onları vaxtilə orda yerləşdiriblər. Həm də onların yaşadığı yerlər münasib deyildir. Amma indi onlar üçün tikilən evləri televiziyada bəzən göstərirlər. Onlar həmin evlərə köçməlidirlər. Orada da narazılıq var ki, guya o yer düz seçilməyibdir, şoranlıqdır, filandır. Mən bu iki süjeti axşam gördüm. Fikirləşdim ki, sabah soruşacağam ki, bu məsələ nədir. Ancaq heç sabaha qoymadım, bir saatdan sonra Baş nazir Rasizadəni evindən telefonla narahat etdim. Dedim ki, mən televiziyaya baxırdım, ANS kanalına baxırdım. Belə şeyləri

gördüm. O dedi ki, mən də gördüm. Mənə izahat verdi ki, insanlar anlaşılmaz hərəkətlər edirlər. Mən onun dediyini deyirəm. Bayılda zona var, sürüşmə gedir. Orada bir-iki dəfə böyük sürüşmədən faciələr oldu. İndi orada aparılan müşahidələr göstərir ki, sürüşmə yenə ola bilər. İnsanlar da sürüşmə ehtimalı olan yerlərdə yaşayırlar. Onları başqa yerlərə köçürmək istəyirlər, hamını köçürmək üçün yer planlaşdırılmışdır, amma oradakılar istəmirlər. Yerli icra orqanları təbiidir ki, nəzarət etməyiblər, pis işləyiblər və insanlar oradan çıxmaq əvəzinə, yeni qanunsuz evlər tikiblər. Orada tikilənlərin hamısı qanunsuzdur. Rasizadə deyir ki, oranın nə kanalizasiyası var, nə su xətti var, nə də başqa şeyləri var. Amma oradan köçmək də istəmirlər.

Mən televiziyadan belə başa düşdüm. Orada qışqıran deyir ki, mənim pulumu ver, köçüm. Çünki onlara pul vermək lazımdır ki, gedib başqa yerlərdə ev alsınlar. Bu, problem deyil, verilən o pula gedib ev ala bilərlər. Ancaq indi bilmirəm, orada vəziyyət neçədir, bunu demək istəmirəm. Mən bunları Rasizadəyə dedim. Əlbəttə, Rasizadə bunu görmüşdü. Amma dedi ki, yaxşı, biz bunu edirik, daha televiziyada vermək nəyə lazımdır. Mən dedim, sən indi belə deyirsən, ancaq onlar bunu verməsəydilər, biz də görməzdik. Sənə gəlib deyirlər ki, edirik. Sən də mənə deyirsən ki, edirik. Biz də rahatlanırıq. Amma bunlar göstərəndən sonra məcburuq bu işə qarışaq və aydınlaşdıraq ki, həqiqət nə yerdədir. Əgər doğrudan da həqiqət icra orqanlarının tərəfindədirsə, onda bilərdik ki, belədir. Yox, elə deyilsə, belə deyək. Yəni mən dünənki hadisəni deyirəm. Axşam Rasizadə də istirahət edir, mən də istirahət edirəm. Ancaq ANS-ə baxıram və bunu görürəm, Baş nazirə telefon edirəm və ona bu barədə gös-

tərişlər verirəm. Deməkk, bu fakt özü-özlüyündə özəl televiziya kanalının – sizin, yaxud o birisinin, o birisinin – bizə köməyidir.

Ona görə də mən bu faktla bir də təsdiq etmək istəyirəm ki, sərbəst, azad mətbuat və o cümlədən özəl televiziya kanalları demokratik ölkədə geniş yayılmalıdır, inkişaf etməlidir və bizim hamımızın ümummilli mənafelərimizi təmin etmək üçün birlikdə çalışmalıdır. Amma bu sahədə qüsurlar da var. Xüsusən bəzi qəzetlər müəyyən məsələlərdə ifratçılığa yol verirlər. Jurnalistika etikası tamamilə pozulur. Beləliklə, bəlkə də bəzi hallarda və bir çox hallarda ədalətli tənqidləri də qəbul olunmur. Amma mən buna böyük bir proses kimi baxıram.

Mən dedim, ANS televiziya kanalı bir gündə inkişaf etməyibdir, 13 ildir yaranıbdır. Amma görün, birinci ildən indiyə qədər bu televiziya kanalı nə qədər dəyişibdir. O cümlədən ondan sonra yaranmış «Space», «Lider», «Azad Azərbaycan» kanalları. Demək, görürsünüz, siz bu cığırı açmısınız. Sizin dalınızca da gedirlər. Mənə deyirlər, rayonlarda da belə kanallar var. Bölgələrə, rayonlara xidmət edirlər.

Ona görə mən sizin telekanal haqqında öz fikrimi deyirəm, hörmət və ehtiramımı bildirirəm, müsbət işlərinizi qiymətləndirirəm. Amma məsləhət görürəm ki, nöqsanlarınızı da aradan qaldırın. Bəzən jurnalistlərə belə gəlir ki, onlar nöqsansızdır. Onda mənim yadıma Məşədi İbad düşür. Bilirsiniz də, Məşədi İbad deyir ki, mənim eyibim nədir? Fikirləşir, fikirləşir və deyir ki, mənim eyibim eyibsizlikdir. İndi əgər siz də özünüzü tamamilə eyibsiz hesab etsəniz, onda Məşədi İbad olacaqsınız. Mən istəmirəm ki, siz Məşədi İbad olasınız.

Mən bəlkə də sizin vaxtınızı çox alıram. Ancaq mənə belə gəlir ki, bu sözlər burada deyiləsi sözlərdir və mən bunları deməli idim.

O məsələləri ki, siz yüksək qiymətləndirmisiniz və bununla əlaqədar məni «İlin adamı» elan etmisiniz, siz burada da məsələləri düzgün tutmusunuz. Yəni mən görürəm ki, siz məsələlərin hansının Azərbaycana nə qədər, hansı səviyyədə faydalı olduğunu müəyyən etmək qabiliyyətinə maliksiniz. Həqiqətən, siz qeyd etdiyiniz məsələlər Azərbaycan üçün çox əhəmiyyətli məsələlərdir.

Məsələn, Xəzərin statusu ilə əlaqədar. Siz təsəvvür edin, biz Azərbaycanın neft strategiyasını həyata keçirərək, 1994-cü ildə ilk böyük müqavilə imzaladıq və bunu «Əsrin müqaviləsi» adlandırdılar. Bu, dünyada bir bomba kimi partladı və təbiidir ki, bunun ətrafında müzakirələr aparmağa başladılar. O vaxta qədər Xəzərdə nə qədər neft var, nə qədər neft çıxarmaq olar, nə etmək olar – bunları heç kəs yadına salmırdı. O cümlədən Xəzəryanı dövlətlər – Rusiya da və başqa dövlətlər də.

Amma bilin, biz bu müqaviləni imzalayanda orada yazılmışdı ki, buradan hasil olan neft gələcəkdə Bakı–Tbilisi–Ceyhan neft kəməri vasitəsilə ixrac ediləcəkdir. Əgər biz onu müqavilədə yazmasaydıq, bu müqavilə heç bir perspektivə malik olmazdı. Hansısa bir yerdə böyük neft ehtiyatının, qaz ehtiyatının olması, təbiidir ki, o yerin zənginliyidir. Amma onun istifadə edilməsi və dünya bazarına çıxarılması imkanları olmasa, onun üstündə oturacaqsan, elə ac qalacaqsan. Biz də bundan istifadə etmək imkanlarını tapdıq, dünyanın böyük neft şirkətlərini cəlb etdik və neftin ixrac olunması yolunu da müəyyən etdik. Ona görə də bu, böyük narazılıqlar meydana çıxartdı.

Biz indi Rusiya ilə çox yaxşı bir sənəd imzaladıq. Ancaq 1994-cü ildə müqavilə imzalanandan 4-5 ay sonra Rusiya bizə nota vermişdi. Nəinki bizə, İngiltərəyə, *bp*-yə də nota vermişdi

ki, siz qanunsuz iş görmüsünüz, Xəzərin statusu müəyyən olunmamış müqavilə imzalamısınız.

Mənim xatirimdədir, onun üstündən 6 ay keçmişdi, mən İstanbulda Böyük Britaniyanın o vaxtkı Xarici İşlər naziri ilə görüşdüm. Gördüm ki, o mənimlə pərişan bir vəziyyətdə danışır. Deyir ki, nə edəcəyik? Dedim, nə barədə? Deyir ki, bəs Rusiya belə bir nota veribdir, biz necə işləyəcəyik. Mən dedim ki, siz narahat olmayın, biz işləyəcəyik. Amma ondan sonra nə qədər belə danışıqlar gedibdir, nə qədər müzakirələr gedibdir. Nəhayət, açıq deyim, Vladimir Putin Rusiyaya prezident seçiləndən sonra, 2001-ci ilin əvvəlində onun Azərbaycana ilk səfərindən sonra biz Rusiya ilə bu danışıqları sürətləndirə bildik. Yəni konstruktiv bir məcraya gətirə bildik. Nəhayət, sənəd imzaladıq. Qazaxıstanla da imzaladıq. İndi üç dövlət eyni fikirdədir.

Güman edirəm ki, biz bu danışıqları İranla da, Türkmənistanla da davam etdirəcəyik. Ümumiyyətlə, bununla qurtarmır. Xəzəryanı beş dövlət vaxtaşırı görüşüb danışmalıdır. Ayın 13-də Bakıya İranın Xarici İşlər nazirinin nümayəndəsi Səfəri ilə heyət gəlir. Biz burada danışıqlar aparacağıq. Sonra Azərbaycanda Xəzəryanı dövlətlərin ekspertlərinin görüşünü keçirmək nəzərdə tutulubdur. Bunu da edəcəyik. Beləliklə, güman edirəm, bu problemi həll edəcəyik. Ancaq siz qeyd etdiyiniz müqavilənin imzalanması həqiqətən tarixi bir hadisədir.

Mən o birilərini sadalamaq istəmirəm. Hər birinin böyük əhəmiyyəti var. Məsələn, Qəbələ RLS-i barədə. Bəziləri indi də deyirlər ki, düz etməyiblər, nə etməyiblər. Yaxşı, biz etmişik, nə olubdur? On ildi elə-belə qalmışdı, nə o tərəfə keçə bilirdik, nə də bu tərəfə. Amma indi ildə 7 milyon dollar icarə haqqı alırıq, suyun pulunu verirlər, elektrik enerjisinin pulunu verirlər – hər bir şeyi verirlər və orada öz işlərini görürlər. O işlərin

görülməsinin də zərəri yoxdur. Nə bizim təbiətə zərəri var, nə ətraf mühitə zərəri var. Əksinə, əgər ümumi, qlobal nöqteyi-nəzərdən, təhlükəsizlik nöqteyi-nəzərindən baxsanız, o təkcə Rusiya üçün yox, Qərb dövlətləri üçün də çox əhəmiyyətlidir.

Bakı–Tbilisi–Ceyhan, bəli, bu da çox böyük düyünə düşmüş bir məsələ idi. Ancaq biz bunu addım-addım irəliyə apardıq. Görün, nə qədər vaxt keçibdir. 1998-ci ildə biz – Türkiyə, Qazaxıstan, Gürcüstan, Azərbaycan Ankarada birinci anlaşmanı imzaladıq, hətta Özbəkistanı da ona cəlb etdik. Orada Amerika Birləşmiş Ştatları çox fəal iştirak edirdi. Çünki onu imzalamaq çox çətin idi. Amerika Birləşmiş Ştatlarının o vaxtkı Energetika naziri görüşlər keçirirdi, iştirak edirdi və orada o da imzasını qoydu.

1999-cu ildə İstanbulda ATƏT-in zirvə görüşündə biz – Türkiyə, Azərbaycan, Gürcüstan saziş imzaladıq. Sonra bəyannamə də imzaladıq. Ona görə Qazaxıstan da qoşuldu. Bunların hamısına Amerika Birləşmiş Ştatlarının prezidenti Bill Klinton da imzasını qoydu. Amma görün, ondan neçə il keçdi. Biz layihənin həyata keçirilməsi üçün bu işləri addımbaaddım, ilbəil, ardıcıl surətdə görmüşük. Bunun nəticəsi də gəlib çatdı. Biz keçən ilin sentyabrında boru kəmərinin təməlini qoyduq. Birbaşa tikinti işləri mart ayında başlayıb, 2005-ci ildə qurtaracaq və neft Bakı–Tbilisi–Ceyhan kəməri ilə Ceyhan limanına axacaqdır. Bu həm iqtisadi nöqteyi-nəzərdən, həm də siyasi nöqteyi-nəzərdən tarixi bir hadisədir. Biz bunları etmişik və çox sağ olun ki, siz də bunları qiymətləndirmisiniz.

Qalan məsələlər haqqında vaxtınızı daha almaq istəmirəm. Bir də deyirəm, görünür ki, siz bu məsələlərin ümummilli əhəmiyyətə malik olmasını düzgün tuta bilirsiniz və indi də düzgün tutmusunuz, obyektiv olmusunuz. Bəzi hallarda obyektiv

olmursunuz, amma bunda obyektiv olmusunuz. Bəlkə də mənim bir mükafatım olsaydı, obyektivliyinizə görə burada sizə bir mükafat da verərdim.

Vahid, mən sənin ailəni burada görməkdən çox məmnunam. Çingiz Mustafayevin anası, atası, qardaşı, əmisi Arif Mustafayev, o, keçmişdə Mərkəzi Komitədə 13 il mənim köməkçim işləyibdir, buradakılar onu tanıyırlar – hamısı buradadır, mən sizi bir də salamlayıram və çox şadam ki, sizin ailədən belə böyük işlər meydana çıxıbdır. Təşəkkür edirəm. Çox sağ olun.

**V a h i d M u s t a f a y e v:** Cənab Prezident, beləliklə, mərasimimizin rəsmi hissəsi başa çatır.

Cənab Prezident, mən Sizi «2002-ci ilin adamı» seçilməyiniz münasibətilə bir daha təbrik edirəm. Sizə fəaliyyətinizdə yaradıcılıq uğurları arzulayıram. Ona görə ki, dövlət yaradıcılığı ən çətin yaradıcılıqdır. Arzu edirəm ki, hər şey ürəyinizcə olsun, istədiklərinizə nail olasınız.

Mən bütün azərbaycanlıları, bizim xalqımızı təbrik edirəm ki, biz hamımız çox dövlətliyik. Ona görə ki, bizim Azərbaycan kimi dövlətimiz var.

* * *

*Azərbaycan prezidenti Heydər Əliyev ANS şirkətlər QRUpunun və Çingiz Mustafayev adına fondun əməkdaşları, Milli Qəhrəmanın ailə üzvləri ilə bir daha səmimi görüşdü, onlara təşəkkürünü bildirdi.*

## AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ MÜLKİ TƏDQİQATLAR VƏ İNKİŞAF FONDUNUN PREZİDENTİ GERSON ŞER İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*14 yanvar 2003-cü il*

**H e y d ə r  Ə l i y e v:** Hörmətli Gerson Şer, sizi səmimi-qəlbdən salamlayıram. Bakıya xoş gəlmisiniz. Azərbaycan Milli Elmlər Akademiyası ilə əməkdaşlığınız haqqında çox xoş məlumatlar almışam. Çox məmnunam və ümidvaram ki, bu əməkdaşlıq bundan sonra daha da genişlənəcəkdir. İndi Azərbaycan Milli Elmlər Akademiyası çox böyük status alıbdır. Mən bu yaxınlarda lazımi fərmanlar vermişəm. Artıq akademiya bir dövlət orqanı olaraq, Azərbaycanda elmin inkişafına həm cavabdehdir, həm də onu bütün sahələrdə təmin etməlidir. Güman edirəm, bu barədə sizə məlumatlar veriblər.

Cənubi Qafqaz ölkələri haqqında sizin xüsusi bir proqramınız var, onu həyata keçirmək istəyirsiniz. İndi mən sizi dinləmək istəyirəm ki, Azərbaycan bu proqramda nə kimi yer tutur.

**G e r s o n  Ş e r:** Cənab Prezident, minnətdarlığımı bildirirəm, Sizinlə görüşmək mənim üçün böyük şərəfdir və çox xoşdur. Mən akademik Mahmud Kərimovdan məlumat aldım ki, Siz Azərbaycanda elmin inkişafına bu qədər böyük diqqət yetirirsiniz. Bizim fond keçmiş SSRİ ölkələri ilə əməkdaşlıq edir və bu əməkdaşlıq çərçivəsində çalışırıq alimlərə imkan verək ki,

onlar öz ölkələrində mülki tədqiqatlar üzrə araşdırmaları inkişaf etdirsinlər. İstəyirik ki, Amerika Birləşmiş Ştatlarından olan alimlərlə birlikdə həmkarlıq çərçivəsində işləsinlər. Eyni zamanda, iş zamanı Amerika idarəçilik üsulundan istifadə olunsun, iş rəqabətə, yarışa əsaslansın. Alimlərin ən yaxşısı seçilsin və sonra onlara müvafiq qrantlar ayrılsın.

Biz bilirik ki, son on il sizin ölkə üçün çox çətin olmuşdur. Elmlə əlaqədar qərarlar qəbul edilərkən çoxlu çətinliklər olmuşdur. Bu həm maliyyə, həm də idarəçilik məsələlərinə aiddir.

Bizim elmi əməkdaşlığımız ona əsaslanır ki, bu əməkdaşlıq çərçivəsində müstəqil milli elmi fondlar olacaqdır. Çalışacağıq ki, sizin alimlərə əlimizdən gələn köməyi edək. Lakin son qərarı onlar özləri verəcəkdir.

Cənab Prezident, xüsusilə də Sizin elmlə bağlı olan son qərarınız məni çox ruhlandırdı. Siz Cənubi Qafqazla bağlı təşəbbüsümüzlə maraqlandınız. Ümumi fikir bundan ibarətdir ki, biz Cənubi Qafqazda yerləşən universitetlərə xüsusi fikir verəcəyik və xüsusi dəstək göstərəcəyik. Biz anlayırıq ki, universitetlərdə elmi tədqiqatlar aparmaq olduqca çətindir. Çünki burada avadanlıq artıq köhnəlmişdir, müasir tələblərə cavab vermir. Lakin məhz universitetlər yeni ümidverici alimlərin yetişdirildiyi yerdir.

Əlbəttə, əgər Sizin dəstəyiniz olsa və Amerika Birləşmiş Ştatlarından maliyyə yardımı alsaq, istəyirik üç Qafqaz ölkəsi üçün bir mərkəz yaradaq və idarəetməni buradan aparaq. Biz anlayırıq ki, bu işə, bu idarəetməyə olduqca ehtiyatla yanaşmaq lazımdır. Çünki ölkələr müxtəlifdir və elə etmək lazımdır ki, proqramlar məhz həmin ölkələrin tələblərinə cavab versin. Bu ölkələrdə elmin və universitetlərin üzləşdiyi problemlər də oxşardır. İndi bizim üçün əsas məsələ hazırda vəsait tapmaqdır.

Lakin əvvəlcə istəyirik ki, bu məsələdə Sizin və regionda olan digər rəhbərlərin də dəstəyini alaq.

**H e y d ə r Ə l i y e v:** Təşəkkür edirəm. Bizim Milli Elmlər Akademiyasına və universitetlərimizə göstərdiyiniz diqqəti və əməkdaşlığınızı müsbət qiymətləndirirəm. Arzu edirəm ki, bu, davam etsin. Siz bu barədə, planlarınız haqqında danışdınız.

Bizim elmi müəssisələrin və universitetlərin indiki vəziyyəti haqqında dediklərinizlə mən tamamilə razıyam. Yəni biz gənc müstəqil dövlət olaraq və böyük bir prosesdən keçəndən sonra, əlbəttə, elmi, universitetləri müasir texnika, texnologiya ilə, müasir avadanlıqla təmin etmək imkanlarımız məhduddur. Bu baxımdan sizin tərəfinizdən hər bir təşəbbüs məmnuniyyətlə qəbul olunacaqdır. Güman edirəm ki, bundan sonra təşəbbüsləriniz daha da çox olacaq və qrantlarınız daha da artırılacaqdır. Söhbətimizin əvvəlində gördüm ki, siz mənim verdiyim fərmanlarla tanışsınız və bunları bəyənirsiniz. Demək, belə düşünmək olar ki, bu bizim Milli Elmlər Akademiyasının sizinlə əməkdaşlığına daha da çox kömək edəcəkdir.

Cənubi Qafqaz universitetləri haqqında sizin fikriniz də müsbət xarakter daşıyır. Ancaq güman edirəm, bu məsələni bir az dərindən öyrənməlisiniz. Siz dediyiniz kimi, bir mərkəz yaradıb hər bir ölkədə lazımi inkişafı təmin etmək çətin olacaqdır.

Bilirsiniz ki, Ermənistanla Azərbaycan arasında indi münaqişə mövcuddur. Demək, Azərbaycan Ermənistanla indiki dövrdə heç bir əməkdaşlıq edə bilməz. O cümlədən, sizin göstərdiyiniz proqram əsasında. Ona görə də mən sizə məsləhət görərdim ki, hər bir respublikaya müstəqil münasibət göstərəsiniz. Daha da yaxşı olar ki, hər bir ölkədə müstəqil olaraq öz işinizi görəsiniz. Onda sizin hər ölkəyə göstərdiyiniz yardımın hamısı göz

qabağında olacaqdır. Amma bir mərkəz yaratsanız – o mərkəzdən hansı ölkəyə daha çox yardım göstərdiniz, hansına az göstərdiniz – rəqabət gedəcək və bu da çox xoşagəlməz hadisələr meydana çıxaracaqdır. Ona görə mənim məsləhətim belədir.

**G e r s o n Ş e r:** Cənab Prezident, biz hər bir ölkənin müstəqilliyinə və özünəməxsus xüsusiyyətlərinə çox diqqətlə yanaşırıq. Hər bir ölkədə ayrıca mərkəz yaradılacaq, yəni üç mərkəz olacaqdır. Lakin onların idarəçiliyi üçün bir əlaqələndirmə mərkəzi lazım olacaqdır.

**H e y d ə r Ə l i y e v:** Bu mümkündür, eyni zamanda bildirirəm ki, ancaq hər ölkənin müstəqil işi olmalıdır.

# AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV TEKFEN QARA DƏNİZ FİLARMONİK ORKESTRİNİN KONSERTİNDƏ

*14 yanvar 2003-cü il*

*Azərbaycanın Dövlət Opera və Balet Teatrında Türkiyənin tanınmış musiqi kollektivinin – TEKFEN Qara dəniz filarmonik orkestrinin konserti olmuşdur. Orkestrin müsiqiçiləri Mərkəzi Asiya, Qafqaz, Qara dəniz və Aralıq dənizi hövzəsi ölkələrinin nümayəndələrindən ibarətdir.*

*Azərbaycan prezidenti Heydər Əliyev teatra gəldi. Salona toplaşanlar dövlətimizin başçısını hərarətli alqışlarla qarşıladılar.*

*Türkiyənin Bakıdakı səfiri Əhməd Ünal Çeviköz konsertin başlanmasından əvvəl çıxış edərək* bildirdi ki, orkestrin bugünkü konserti *qardaş ölkələrimizin tarixində əlamətdar hadisəyə – Azərbaycan ilə Türkiyə arasında* diplomatik *əlaqələr* qurulmasının 11-ci *ildönümünə həsr* olunmuşdur.

*O, konsertin təşkilatçıları* olan *TEKFEN şirkətlər* qrupuna *və respublikamızın Mədəniyyət Nazirliyinə təşəkkürünü* bildirdi. Diplomat *xatırlatdı ki, müxtəlif ölkələrdən* olan *musiqiçilər bəzi əsərlərin ifası zamanı öz milli alətlərindən istifadə edirlər. Bu da həmin* orkestrin *özünəməxsus cəhətidir.*

*Səfir dedi ki, 2003-cü il Azərbaycan və Türkiyə üçün əlamətdardır. Bu il Türkiyə Cümhuriyyətinin yaranmasının və Azərbaycan prezidenti Heydər Əliyevin anadan olmasının 80 illiyi tamam olur və bugünkü konsert müəyyən mənada* orkestrin *rəmzi hədiyyəsidir.*

Türkiyə diplomatı onu da bildirdi ki, konsertin birinci nömrəsi orkestrin solisti, Azərbaycanın əməkdar artisti, həyatdan vaxtsız getmiş Ədalət Vəzirovun xatirəsinə həsr olunmuşdur.

Konsertin birinci hissəsində Azərbaycan və Türkiyə bəstəkarlarının – Qara Qarayevin, Musa Mirzəyevin, İlyas Mirzəyevin, Nevit Kodallının əsərləri səsləndi.

Azərbaycan prezidenti Heydər Əliyev fasilə zamanı TEKFEN şirkətlər qrupunun prezidenti Nihat Gökyigit və orkestrin dirijoru Saim Akçıl ilə görüşüb söhbət etdi.

İkinci hissədə P.İ.Çaykovskinin simli alətlər üçün konserti, məşhur türk və ispan melodiyalarının oranjemanları ifa olundu.

Azərbaycan prezidenti Heydər Əliyev konsertdən sonra orkestrin yüksək ifasına görə Nihat Gökyigitə və professor Saim Akçıla təşəkkürünü bildirdi. Dövlətimizin başçısı dedi ki, musiqiçilər çox yaxşı ifa etdilər, İstanbuldakından da yaxşı idi. Çünki orada onların çıxış etdikləri yer simfonik orkestr üçün uyğun deyildi. Amma bizim teatrımızın gözəl akustikası var. Bir daha təşəkkürümü bildirirəm. Çox yaxşı ifa etdiniz. Mən buraya gələndə yorğun idim, amma indi dincəldim.

# MDB İCRAİYYƏ KOMİTƏSİNİN SƏDRİ – İCRAÇI KATİBİ YURİ YAROVUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*16 yanvar 2003-cü il*

*Prezident Heydər Əliyev qonaqları salamlayaraq, onları Yeni il münasibəti ilə təbrik etdi və ümidvar olduğunu bildirdi ki, əvvəlki illərdəki kimi, bu il də MDB İcraiyyə Komitəsinin və bütün Birliyin fəaliyyəti yüksək səviyyədə olacaqdır.*

*Səmimi qəbula görə təşəkkürünü bildirən Yuri Yarov da Azərbaycan prezidenti Heydər Əliyevi və bütün xalqımızı Yeni il münasibətilə təbrik etdi, əmin-amanlıq və tərəqqi arzuladı. O dedi: «Əminəm ki, Birlik ölkələri prezidentlərinin siyasi iradəsi və müdrikliyi sayəsində MDB-nin fəaliyyəti irəliləyəcəkdir».*

*MDB ölkələri dövlət başçılarının Kişinyov zirvə görüşündə Azərbaycan prezidentinin təşəbbüsü və bütün dövlət başçılarının tapşırığı ilə Rusiya Federasiyasının prezidenti Vladimir Putinin Müstəqil Dövlətlər Birliyinin Fəxri nişanı ilə təltif edilməsi haqqında təklif irəli sürülmüş və bu barədə qərar qəbul olunmuşdu. Yuri Yarov bu nişanın vəsiqəsini imzalamaq üçün dövlətimizin başçısına təqdim etdi. Azərbaycan prezidenti Heydər Əliyev Rusiya dövləti başçısının təltifi barədə vəsiqəni imzaladı və bunu böyük məmnuniyyətlə etdiyini vurğuladı.*

*Sonra MDB-nin icraçı katibi dövlət başçılarının yanvarın axırlarında Ukraynanın İvano-Frankovsk şəhərində keçiriləcək qeyri-rəsmi görüşünün gündəliyi barədə məlumat verdi. Yuri Yarov dedi ki, bu görüşü keçirmək təşəbbüsünü Ukrayna prezidenti Leonid Kuçma irəli sürmüşdür. Görüşdə MDB ölkələrinin iqtisadi inteqrasiyasını sürətləndirmək, azad ticarət zonaları yaratmaq məsələlərini müzakirə etmək nəzərdə tutulur. O həmçinin bildirdi ki, yanvarın 27–28-də Moskvada Dövlət Başçıları Şurasının qərarlarında əksini tapmış həmin məsələlərə dair elmi-praktiki konfrans keçiriləcəkdir.*

## QIRĞIZISTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ƏSGƏR AKAYEVƏ

Hörmətli Əsgər Akayeviç!

Azərbaycan Respublikası ilə Qırğızıstan Respublikası arasında diplomatik əlaqələr yaradılmasının 10 illiyi münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Müstəqillik əldə etdikdən sonra xalqlarımız arasında tarixən mövcud olmuş dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı üçün geniş imkanlar açılmışdır.

Bu gün ölkələrimizin ikitərəfli qaydada, beynəlxalq təşkilatlar çərçivəsində fəal əməkdaşlığı, qarşılıqlı dəstəyi böyük məmnunluq doğurur.

Əminəm ki, əlaqələrimizi bütün sahələrdə genişləndirmək üçün göstərdiyimiz qarşılıqlı səylər bundan sonra da xalqlarımızın rifahına, ölkələrimizin tərəqqisinə, regionda sülhün və sabitliyin bərqərar olmasına xidmət edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Qırğızıstan xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *16 yanvar 2003-cü il*

## AZƏRBAYCAN PEZİDENTİ HEYDƏR ƏLİYEV 20 YANVAR FACİƏSİNİN 13-CÜ İLDÖNÜMÜNƏ HƏSR OLUNMUŞ MƏRASİMDƏ

*Respublika sarayı*

*18 yanvar 2003-cü il*

*Azərbaycan prezidenti Heydər Əliyev sovet imperiyası rəhbərlərinin və onun Azərbaycandakı nökərlərinin əli ilə xalqımıza qarşı törədilmiş qanlı 20 Yanvar faciəsinin on üçüncü ildönümünə həsr olunmuş mərasimdə iştirak etmək üçün saraya gəldi.*

*Mərasim iştirakçıları dövlətimizin başçısını böyük ehtiramla qarşıladılar.*

*Salona çökmüş qəmli sükutu dahi bəstəkarımız Qara Qarayevin «Matəm musiqisi»nin həzin melodiyası pozdu.*

*Sonra «20 Yanvar faciəsinin on üçüncü ildönümünün keçirilməsi haqqında» Azərbaycan Respublikasının prezidenti* ***Heydər Əliyevin*** *2002-ci il 28 dekabr tarixli sərəncamının mətni oxundu:*

«Azərbaycan xalqının tarixinə Qanlı Yanvar faciəsi kimi daxil olmuş 1990-cı il 20 Yanvar hadisələrindən on üç il keçir.

Keçmiş sovet dövlətinin hərb maşınının həmin gün Azərbaycan xalqına qarşı həyata keçirdiyi vəhşi terror aktı insanlığa qarşı törədilmiş ən ağır cinayətlərdən biri kimi, bəşər tarixində əbədi olaraq qalacaqdır. Öz qanuni Konstitusiya hüquqlarının təmin edilməsi tələbləri ilə ayağa qalxmış dinc əhaliyə divan tutulması, kütləvi terror nəticəsində yüzlərlə günahsız insanın qətlə yetirilməsi və yaralanması

totalitar sovet rejiminin süqutu ərəfəsində onun cinayətkar mahiyyətini bütün dünyaya bir daha nümayiş etdirdi.

Azərbaycan xalqına qarşı törədilmiş bu qanlı faciə onun milli qürurunu və iradəsini sarsıda bilmədi. Qəhrəman Azərbaycan övladları xalqımızın böyük mənəvi gücünü ifadə edərək, şəhidlik zirvəsinə qədər yüksəldilər və milli müstəqillik duyğularını daha da gücləndirdilər. Müstəqil Azərbaycan Respublikası 1994-cü ildə 20 Yanvar faciəsinin hərbi təcavüz və cinayət kimi tam siyasi-hüquqi qiymətini verdi, bu hadisələrin təşkilatçıları və bilavasitə icraçıları olan Mixail Qorbaçov, Əbdürrəhman Vəzirov, Ayaz Mütəllibov və başqalarının cəzalandırılmasını tələb etdi. Təəssüf ki, 20 Yanvar faciəsinin baş verməsindən on üç il keçməsinə baxmayaraq, bu cinayətin səbəbkarları hələ də öz cəzalarını almamışlar.

Azərbaycan xalqı öz qəhrəman övladlarının fədakarlığını yüksək qiymətləndirərək, hər il 20 yanvarda onların əziz xatirəsini dərin ehtiramla yad edir. 20 yanvar gününün Azərbaycan tarixində ölkəmizin azadlığı, müstəqilliyi və ərazi bütövlüyü uğrunda qəhrəmanlıq rəmzi kimi müstəsna əhəmiyyətini nəzərə alaraq qərara alıram:

1. Azərbaycan Respublikasının bütün şəhər, rayon və kəndlərində 20 Yanvar faciəsinin on üçüncü ildönümünə həsr olunmuş tədbirlər keçirilsin…»

*Xalq artisti, dirijor Rauf Abdullayevin idarəsi ilə Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Simfonik Orkestrinin, habelə Dövlət Xor Kapellasının ifasında Firkət Əmirovun, Cüzeppe Verdinin, Motsartın, Cövdət Hacıyevin əsərlərindən parçalar, Milli Dram Teatrı aktyorlarının ifasında Süleyman Rüstəmin, Bəxtiyar Vahabzadənin, Məmməd Arazın, Şəhriyarın şeirləri səsləndi, 1990-cı ilin dəhşətli yanvar günlərini, Vətənimizin azadlığı yolunda həyatını qurban*

*vermiş şəhidlərimizin əzəmətli dəfn mərasimini əks etdirən kinokadrlar nümayiş etdirildi.*

## AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV QANLI YANVAR FACİƏSİNİN 13-cü İLDÖNÜMÜ İLƏ ƏLAQƏDAR ŞƏHİDLƏR XİYABANINI ZİYARƏT ETMİŞDİR

*20 yanvar 2003-cü il*

*Azərbaycan xalqının qan yaddaşında əbədi yaşayacaq 1990-cı il 20 Yanvar faciəsini respublikamız hər il ümumxalq hüzn günü kimi geniş qeyd edir.*

*Yanvarın 20-də səhər Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev Qanlı Yanvar faciəsində həlak olanların əziz xatirəsini yad etmək üçün Şəhidlər xiyabanına gəldi.*

*Şəhidlərin ruhuna dua oxundu.*

*Prezident Heydər Əliyev matəm musiqisinin sədaları altında müqəddəs ziyarətgahda ucaldılmış «Əbədi məşəl» abidəsi önünə əklil qoydu. Əklilin üzərindəki lentdə bu sözlər yazılmışdı: «Azərbaycan Respublikasının Prezidentindən 20 Yanvar şəhidlərinə».*

*Azərbaycanın dövlət himni ifa olundu.*

*Dövlətimizin başçısı Heydər Əliyev şəhidlərin xatirəsini yad etməyə gəlmiş xarici ölkələrin Bakıdakı səfirləri, beynəlxalq təşkilatların nümayəndələri ilə görüşdü. Onlar Azərbaycan pre-*

*zidentinə dərin hüznlə başsağlığı verdilər, xalqımızın kədərinə şərik olduqlarını söylədilər.*

*Prezident Heydər Əliyev diplomatik korpusun rəhbərlərinə, xarici qonaqlara təşəkkürünü bildirdi.*

*Dövlət təşkilatlarının rəhbər işçiləri, respublikamızda fəaliyyət göstərən dini icmaların başçıları da şəhidlərin xatirəsini yad etməyə gəlmişdilər.*

*Azərbaycan prezidenti Heydər Əliyev ilə birlikdə Milli Məclisin sədri Murtuz Ələsgərov, Baş nazir Artur Rasizadə, Prezidentin İcra Aparatının rəhbəri Ramiz Mehdiyev, parlament sədrinin və Baş nazirin müavinləri, digər rəsmi şəxslər də Şəhidlər xiyabanını ziyarət etdilər.*

**ŞRİ-LANKA DEMOKRATİK SOSİALİST RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ XANIM ÇANDRİKA KUMARATUNQAYA**

Hörmətli xanım Prezident!

Şri-Lanka Demokratik Sosialist Respublikasının milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və xalqınızı ürəkdən təbrik edirəm.

Ümidvaram ki, ölkələrimiz arasındakı əlaqələr xalqlarımızın rihafı naminə daim inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Şri-Lanka xalqına sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *21 yanvar 2003-cü il*

**HİNDİSTAN RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB ƏBDÜL KALAMA**

Hörmətli cənab Prezident!

Hindistan Respublikasının milli bayramı – Respublika günü münasibətilə Sizi və xalqınızı ürəkdən təbrik edirəm.

Ölkələrimiz arasında münasibətlərə böyük əhəmiyyət verirəm. Əminəm ki, xalqlarımızın qarşılıqlı rəğbətindən doğan Azərbaycan–Hindistan dostluğu daim yaşayacaqdır.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Hindistan xalqına sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *21 yanvar 2003-cü il*

**HİNDİSTAN RESPUBLİKASININ BAŞ NAZİRİ
ZATİ-ALİLƏRİ
CƏNAB ATAL BİHARİ VAÇPAİYƏ**

Hörmətli cənab Baş nazir!

Hindistan Respublikasının milli bayramı – Respublika günü münasibətilə Sizi və xalqınızı ürəkdən təbrik edirəm.

Ümidvaram ki, xalqlarımız arasında tarixi ənənələri olan əməkdaşlığın bütün sahələrdə genişləndirilməsi üçün bundan sonra da birgə səylər göstərəcəyik.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, ölkənizə əmin-amanlıq və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *21 yanvar 2003-cü il*

**AVSTRALİYANIN BAŞ NAZİRİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB CON UİNSTON HOVARDA**

Hörmətli cənab Baş nazir!

Ölkənizin milli bayramı – Avstraliya günü münasibətilə Sizi və xalqınızı ürəkdən təbrik edirəm.

Ümidvaram ki, ölkələrimiz arasında təşəkkül tapan dostluq münasibətləri qarşılıqlı surətdə faydalı əməkdaşlığımız üçün imkanlar açacaqdır.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Avstraliya xalqına sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *21 yanvar 2003-cü il*

**YENİ ZELANDİYANIN BAŞ NAZİRİ**
**ZATİ-ALİLƏRİ**
**XANIM HELEN KLARKA**

Hörmətli xanım Baş nazir!

Yeni Zelandiyanın milli bayramı – Vaytanqa günü münasibətilə Sizi və xalqınızı səmimi-qəlbdən təbrik edirəm.

Ümidvaram ki, xalqlarımız arasında dostluq və əməkdaşlıq münasibətlərini genişləndirmək naminə bundan sonra da birgə səylər göstərəcəyik.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Yeni Zelandiya xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *21 yanvar 2003-cü il*

**GÜRCÜSTANIN PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB EDUARD ŞEVARDNADZEYƏ**

Əziz Eduard Amvrosiyeviç!

Sizi, görkəmli dövlət xadimini əlamətdar yubileyiniz – anadan olmağınızın 75 illiyi münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Siz tarixin ən keşməkeşli dövründə Gürcüstana başçılıq edərək, ardıcıl və uzaqgörən siyasətinizlə ölkənizi dövlət müstəqilliyinin möhkəmləndirilməsi, demokratik dəyişikliklərin həyata keçirilməsi, Dünya Birliyinə inteqrasiya yolu ilə inamla irəli aparırsınız.

Siz yenilməz siyasi iradənizlə, qərarların qəbul edilməsində və həyata keçirilməsində əməkdaşlığınız və qətiyyətinizlə böyük nüfuz və hörmət qazanmısınız.

Tarixən dostluq və mehriban qonşuluq şəraitində yaşamış ölkələrimizin əməkdaşlığı son dərəcə böyük əhəmiyyət daşıyır, regionumuzda sülhün və sabitliyin bərqərar olmasına səmərəli təsir göstərir. Bu gün müstəqil Azərbaycan ilə Gürcüstan arasında dövlətlərarası münasibətlər keyfiyyətcə yeni xarakter almışdır. Qarşılıqlı münasibətlərimizin inkişaf etdirilməsində və möhkəmləndirilməsində Sizin xidmətləriniz böyükdür.

Ölkələrimiz və xalqlarımız, bütün Qafqaz regionu üçün taleyüklü əhəmiyyəti olan Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəmərinin, Bakı–Tbilisi–Ərzurum qaz kəmərinin tikintisi, tarixi

Böyük İpək Yolunun bərpası kimi transmilli layihələrin gerçəkləşməsində rolunuz mühümdür.

Əziz Eduard Amvrosiyeviç!

Uzun illər boyu bizi dostluq və sıx əməkdaşlıq birləşdirmişdir. Qarşılıqlı hörmətə, etimada və səmimiyyətə əsaslanan şəxsi münasibətlərimizi uca tuturam.

Sizə möhkəm cansağlığı, qardaş Gürcüstanın çiçəklənməsi naminə dövləti fəaliyyətinizdə uğurlar diləyir, ailənizə xoşbəxtlik və səadət arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *22 yanvar 2003-cü il*

## YUNESKO-nun BAŞ DİREKTORUNUN MÜAVİNİ MUNİR BUŞENAKİ VƏ BAŞ DİREKTORUN BAŞ MÜŞAVİRİ XORST QODİKE İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*23 yanvar 2003-cü il*

**H e y d ə r  Ə l i y e v:** Hörmətli qonaqlar, sizi salamlayıram, Azərbaycana xoş gəlmisiniz. Sizin bu səfəriniz Azərbaycan ilə YUNESKO arasındakı əlaqələrin və əməkdaşlığın inkişafı üçün faydalı olacaqdır. Biz YUNESKO kimi mötəbər təşkilata çox böyük hörmət və ehtiramla yanaşırıq. İndiyə qədər Azərbaycan YUNESKO ilə uğurlu əməkdaşlıq edibdir. Ancaq hələ çox məsələlər var ki, bunlar YUNESKO–Azərbaycan əməkdaşlığının bu günü və gələcəyi üçün müzakirə mövzularıdır və mövzuları ola bilər.

Mən sizin səfər proqramınıza baxdım. Məmnunam ki, bizim bəzi tarixi-mədəniyyət abidələrimizlə tanış olmaq istəyirsiniz. Bunlar hamısı müəyyən şəkildə YUNESKO-ya məlumdur. Ancaq sizin şəxsi tanış olmağınız, təbiidir ki, bu təəssüratları tamamilə yaxşılaşdıra bilər.

**M u n i r  B u ş e n a k i:** Cənab Prezident, səmimi qəbula görə təşəkkür edirik. İcazə verin təmsil etdiyimiz təşkilatın rəhbərinin salamını və xoş arzularını Sizə çatdırım. Cənab Prezident, düzdür, biz Azərbaycana qısamüddətli səfər edirik, lakin

proqramımız çox zəngindir. İki gün ərzində təəssüratlarım çox böyükdür, ölkənizin çox gözəl tarixi yerlərini görmüşəm. Ən böyük təəssürat isə, əlbəttə, Şəhidlər xiyabanını ziyarət edərkən yarandı. Mən orada çox mütəəssir oldum. Fikir verdim ki, canlarını fəda vermiş insanların çoxu mənim uşaqlarımla həmyaşıddır. Mənim bu ölkə haqqında ilk təəssüratlarım belə yarandı. Təəssüf ki, ölkəniz indi də təcavüzə məruz qalmaqdadır.

YUNESKO-da mədəniyyətə cavabdeh bir şəxs kimi, məmnuniyyətlə demək istəyirəm ki, Azərbaycanda görkəmli tarixi yerlər var. Onlardan biri də İçərişəhərdir. Dünən Şirvanşahlar sarayına da getdim və Dünya Bankının maliyyə dəstəyi ilə görülən bərpa işlərini müşahidə etdim. Mənə Qız qalasına da çıxmaq müyəssər oldu. Keçmişdə arxeoloq olmuşam. Ona görə də istədim ki, bu tarixi yerləri görüb hiss edə bilim. Qız qalasına qalxdıqdan sonra şəhərin bütün topoqrafiyasını müşahidə etdim.

Bu gün səhər Qobustana getmək də bizə nəsib oldu, oranı gördük. Bu, Yer kürəsinin ən ilk insan məskənlərindən biridir. Ora bizim çox xoşumuza gəldi. Cənab Prezident, bilirəm ki, Azərbaycanın görkəmli yerləri daha çoxdur. Siyahıdakı sonrakı yerlər Naxçıvanda olan türbələr və Suraxanıdakı Atəşgahdır.

Biz Mədəniyyət Nazirliyi ilə və YUNESKO üzrə Azərbaycan Milli Komissiyası ilə birlikdə digər məsələlər üzərində də işləyirik. Mən ilk növbədə muğamı nəzərdə tuturam. Biz Konvensiya hazırlayırıq və o, hiss oluna bilməyən, qeyri-maddi, habelə şifahi mədəniyyət irsinin qorunmasını nəzərdə tutur.

Keçən il buraya bizim bir missiya gəlmiş və bərpa işlərinə dair dərslər keçmişdir. Həmin missiyanın işinin davamı kimi, biz bu ilin sonuna qədər Seyid Yəhya Bakuvi türbəsinin bərpasını başa çatdıracağıq.

Cənab Prezident, icazənizlə YUNESKO ilə Azərbaycan arasında əməkdaşlığın rəmzi olaraq, təşkilatın Baş direktorunun imzaladığı sertifikatı Sizə təqdim edim və bildirim ki, bu sertifikata əsasən Bakıdakı Şirvanşahlar sarayı və Qız qalası daxil olmaqla İçərişəhər YUNESKO-nun dünya irs siyahısına daxil edilmişdir.

**H e y d ə r Ə l i y e v:** Hörmətli qonaqlar, minnətdarlığımı bildirirəm. İçərişəhəri dünya irs siyahısına daxil etdiyinizə görə YUNESKO-ya, onun Baş direktoruna və sizə təşəkkürümü bildirirəm.

Düşünürəm ki, bu çoxdan olmalı idi. Çünki bu tarixi abidələr bütün dünyaya çoxdan məlumdur. Ancaq indiyə qədər olmayıbsa, indi bunu edirsinizsə, mən sizə bir də təşəkkür edirəm. Güman edirəm ki, bu iş sadəcə, siyahıya salınmaqla bitməyəcəkdir. Yəqin ki, bu barədə geniş təbliğat işləri aparılacaq və bizim bu tarixi abidələrimiz dünyada daha geniş təbliğ olunacaqdır. Bu isə bizim üzərimizə daha da çox həm vəzifə, həm də məsuliyyət qoyur.

Etiraf etməliyəm ki, biz özümüz də yaxın keçmişdə bu abidələrə, Azərbaycan xalqının bu qədər zəngin, qiymətli, milli mədəniyyətini nümayiş etdirən abidələrə fikir verməmişik. Çünki sovet dövründə bunların hamısı feodalizmin, kapitalizmin qalıqları hesab olunurdu. Hər halda, sovet hakimiyyətinin ilk dövrlərində belə əhval-ruhiyyə olmuşdu. Ona görə də bir çox belə abidələr yer üzərindən tamamilə silinmişdi, dağılmışdı. Ancaq XX əsrin ikinci yarısından, yəni İkinci dünya müharibəsindən sonra xalqımız bu işlərlə ciddi məşğul olmağa başladı. Bu abidələr haqqında məlumatlar bir günün içərisində, yaxud son on ildə meydana çıxmayıbdır. Bizim fədakar alimlərimiz, tədqiqatçılarımız bu işlə daim məşğul olublar. Baxmayaraq ki,

vaxtilə hökumətin bu məsələlərə münasibəti o qədər də müsbət deyildi.

İndi isə müstəqil dövlət olaraq Azərbaycan, təbii ki, həm bu sərvətlərlə fəxr edir, həm də onların qorunub saxlanmasını və dünyada təbliğ olunmasını özünün əsas vəzifələrindən biri hesab edir. Bu baxımdan biz indi belə bir sertifikat alaraq daha da ruhlanırıq və sizinlə əməkdaşlığımızı davam etdirəcəyik.

Mən YUNESKO təşkilatına böyük minnətdarlığımı bildirmək istəyirəm. YUNESKO-nun Baş direktoru Azərbaycana gələrkən biz onunla tanış olduq, söhbət etdik. Çox yaxşı münasibətlər yarandı. Arzu edərdim ki, siz ona mənim salamlarımı, ən xoş arzularımı çatdırasınız. Ümumiyyətlə, biləsiniz ki, biz sizinlə əməkdaşlığı daha da genişləndirmək və dərinləşdirmək istəyirik. Düşünürəm ki, burada görmədiyiniz bəzi yerləri də görəcək, yaxşı təəssüratlarla Parisə qayıdacaqsınız.

## ƏMƏKDAR İNCƏSƏNƏT XADİMİ MUSA MİRZƏYEVƏ

Hörmətli Musa Mirzəyev!

Sizi – Azərbaycan bəstəkarlıq məktəbinin tanınmış nümayəndəsini anadan olmağınızın 70 illik yubileyi münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Siz Azərbaycan musiqi mədəniyyətinin, xüsusilə milli simfonik musiqinin inkişafına öz layiqli töhfəsini vermiş sənətkarlardansınız. Siz zəmanəmizin böyük bəstəkarı Qara Qarayevin sinfini bitirdikdən sonra keçən yarıməsrlik müddət ərzində dahi müəlliminizin sənət məktəbinin ənənələrini ləyaqətlə davam etdirmək yolunda yorulmadan çalışmısınız. Yaradıcılığınızın əsas hissəsini təşkil edən simfonik əsərləriniz sizin milli musiqi irsimizin tükənməz imkanlarından məharətlə istifadə etmək bacarığınızi nümayiş etdirir. Vokal-simfonik və kamera-instrumental janrlarında bəstələdiyiniz musiqi nümunələri dərin poetik lirizmi, zərifliyi, musiqi dilinin zənginliyi ilə seçilir. Məhz elə buna görə də siz xarici ölkələrdə əsərləri tez-tez ifa olunan Azərbaycan bəstəkarlarından birisiniz.

Bakı Musiqi Akademiyasının professoru kimi, pedaqoji fəaliyyətiniz təqdirəlayiqdir. Əsərlərinizin müxtəlif tədris proqramlarına daxil edilməsi də Azərbaycanda gənc musiqiçilər nəslinin yetişdirilməsi işinə xidmət edir. Ölkəmizin görkəmli musiqi xadimlərinin iri həcmli əsərlərinin yenidən hazırlanaraq tamaşaya qoyulması sahəsində apardığınız işlər sizin musiqi xəzinəmizin nümunələrinə göstərdiyiniz dərin ehtiram, diqqət və

qayğının təzahürüdür. İnanıram ki, simfonik və kamera musiqimizin inkişaf etdirilməsi üçün bundan sonra da əlinizdən gələni əsirgəməyəcək, zəngin təcrübə və yüksək peşəkarlığınızdan istifadə edərək musiqi həvəskarlarını yeni əsərlərlə sevindirəcəksiniz.

Sizə cansağlığı, xoşbəxtlik və yeni yaradıcılıq uğurları arzulayıram.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *25 yanvar 2003-cü il*

## AZƏRBAYCAN YAZIÇILAR BİRLİYİNİN «AZƏRBAYCAN» JURNALINA

Hörmətli jurnal əməkdaşları!

Sizi, habelə bütün Azərbaycan yazıçılarını və jurnalın oxucularını «Azərbaycan» ədəbi-bədii məcmuəsinin 80 illik yubileyi münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

«Azərbaycan» jurnalı ölkəmizdə ədəbiyyatın və ədəbi-bədii fikrin inkişafında mühüm rol oynamışdır. 1923-cü ilin yanvarında «Maarif və mədəniyyət» adı ilə fəaliyyətə başlayan, sonralar isə müxtəlif adlar altında belə bir mətbu orqanın nəşri o vaxt təkcə respublikamızda deyil, eləcə də bütün bölgədə bənzəri olmayan mədəniyyət hadisəsi idi. Azərbaycanın mütərəqqi mətbuatının ənənələrini davam etdirən jurnal ötən səksən il ərzində söz sənətimizin daha da zənginləşməsi işinə xidmət etmiş, oxucuların bədii-estetik zövqünün inkişaf etdirilməsi vəzifəsini şərəflə yerinə yetirmişdir. Azərbaycan yazıçılarının, istedadlı ədəbi gəncliyin yaratdıqları diqqətəlayiq əsərlərin çoxu ilk dəfə məhz bu jurnalda işıq üzü görmüşdür.

Müasir və klassik Azərbaycan ədəbiyyatına əsas yer verən jurnal, eyni zamanda, Azərbaycan oxucusunu dünya ədəbiyyatının qiymətli nümunələri ilə müntəzəm olaraq tanış etmişdir. Onun səhifələrində ədəbi prosesi əks etdirən tənqidi yazılar, elmi araşdırmalar, publisistika və incəsənətə dair materiallar da geniş yer tutmuşdur. Bütün bunlar «Azərbaycan» jurnalını yarandığı gündən ədəbiyyatımızın güzgüsünə çevirmişdir.

«Azərbaycan» jurnalının nəşrə başlamasından on il sonra rus dilində çıxan «Literaturnı Azerbaydjan» juranlı isə uzun illərdir ki, Azərbaycan ədəbiyyatının nailiyyətlərini rus dili vasitəsilə təbliğ etmək vəzifəsinin öhdəsindən ləyaqətlə gəlir.

Jurnalın nəşrə başlaması, ərsəyə gəlməsi və inkişafında rolu olmuş bütün qələm sahiblərinin əziz xatirəsini bu yubiley günlərində dərin hörmət və ehtiramla yad edərək, onların xidmətlərini yüksək qiymətləndirirəm.

Ümidvaram ki, jurnalın yaradıcı kollektivi ədəbiyyata yüksək borcuna və amalına bundan sonra da sədaqətlə xidmət edəcək, müstəqillik dövrünün ədəbi salnaməsinə yeni parlaq səhifələr yazılması, gənc nəslin milli-mənəvi dəyərlərə, Azərbaycan ədəbiyyatı və dilinə sevgi, məhəbbət və sıx bağlılıq ruhunda tərbiyə olunması işinə öz töhfəsini verəcəkdir.

Sizi ədəbiyyat tariximiz üçün mühüm hadisə olan yubiley münasibətilə bir daha ürəkdən təbrik edir, hər birinizə cansağlığı, xoşbəxtlik və yeni yaradıcılıq uğurları diləyirəm.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *25 yanvar 2003-cü il*

## ÖZBƏKİSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İSLAM KƏRİMOVA

Hörmətli İslam Əbdüqəniyeviç!

Sizi yubileyiniz – anadan olmağınızın 65 illiyi münasibətilə təbrik edirəm.

Özbəkistanın dövlət müstəqilliyinin təşəkkülü və möhkəmlənməsi Sizin adınızla bağlıdır.

Siz mürəkkəb və məsuliyyətli dövrdə xalqınıza başçılıq edərək, hər cür çətinlikləri və maneələri inad və qətiyyətlə dəf edir, ölkənizi demokratik dəyişikliklər və Dünya Birliyinə inteqrasiya yolu ilə inamla irəli aparırsınız.

Azərbaycan və Özbəkistan xalqlarını çoxəsrlik dostluq telləri birləşdirir. Əminəm ki, əməkdaşlığımızın bütün sahələrində qarşılıqlı surətdə faydalı birgə fəaliyyətimiz münasibətlərimizi daha da möhkəmləndirərək, bundan sonra da xalqlarımızın rifahına, regionda sülhə, sabitliyə və tərəqqiyə xidmət edəcəkdir.

Əziz İslam Əbdüqəniyeviç!

Şəxsi münasibətlərimizi, görüş və söhbətlərimizdəki səmimiyyəti, aramızdakı qarşılıqlı anlaşma və etimadı yüksək qiymətləndirirəm.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dövləti fəaliyyətinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *25 yanvar 2003-cü il*

## MDB-nin ÜZVÜ OLAN ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARININ QEYRİ-RƏSMİ ZİRVƏ GÖRÜŞÜNDƏ İŞTİRAK ETMƏK ÜÇÜN KİYEV ŞƏHƏRİNƏ YOLA DÜŞMƏZDƏN ƏVVƏL BİNƏ BEYNƏLXALQ HAVA LİMANINDA JURNALİSTLƏRƏ VERDİYİ MÜSAHİBƏ

*28 yanvar 2003-cü il*

**H e y d ə r  Ə l i y e v:** Kiyevə mənim səfərim haqqında artıq yetərli məlumatınız var, əlavə məlumata ehtiyac yoxdur. Rusiyanın və Ukraynanın prezidentləri cənab Putin və cənab Kuçma təklif etdilər ki, dövlət başçılarının belə növbədənkənar qeyri-rəsmi bir görüşü keçirilsin. Mən də buna etiraz etməmişəm, bu görüşə gedirəm. Görüşdə əsasən iqtisadi məsələlər, o cümlədən azad iqtisadi zona yaradılması haqqında məsələ müzakirə ediləcəkdir. Ola bilər, başqa məsələlər də müzakirə olunsun. Sabah günün ikinci yarısında qayıdacağam. O qədər çox işimiz yoxdur.

**S u a l: Cənab Prezident, dünən xoş bir xəbər aldıq. Biz Sizi bu münasibətlə təbrik edirik. Əlbəttə, Azərbaycanın Avropa Şurasında təmsil olunduğu qısa vaxt ərzində MDB ölkələrindən elə bir nümayəndə yoxdur ki, İlham Əliyev kimi orada iş görsün. Onun AŞ PA sədrinin müavini və büro üzvü seçilməsi bizim hamımızı sevindirdi. Bu, Azərbaycan dövlətinin adını yüksəldir. Bu barədə Sizin fikrinizi bilmək**

**olarmı? İlham Əliyevin bu yüksək vəzifəyə seçilməsindən Azərbaycan nə gözləyir?**

**H e y d ə r Ə l i y e v:** Sən hamısını dedin. Bilirsiniz, gəlin bu məsələni indi müzakirə etməyək. Mən özüm də heç bilmirdim ki, o bu vəzifəyə seçiləcəkdir. Onu seçiblər, etimad göstəriblər. Təbii ki, bu, müəyyən qədər qeyri-adi haldır. Çünki iki il bundan qabaq bizi Avropa Şurasına qəbul etmək istəmirdilər. Bilirsiniz ki, bir neçə il idi Avropa Şurasına həqiqi üzv olmağa çalışırdıq, çünki biz dörd il namizəd vəziyyətində idik. Ancaq bizə bəzi şərtlər qoyurdular. Onların bəzilərini biz yerinə yetirdik, bəzilərini yox. Bizim daxilimizdə olan müxalifət qüvvələri də çox çalışırdılar ki, bizi oraya qəbul etməsinlər. Ancaq qəbul etdilər.

Biz əməkdaşlıq edirik, orada da bizim nümayəndə heyətinə İlham Əliyev rəhbərlik edir. Digər deputatların fəaliyyətinə də mən diqqət yetirirəm. Həqiqətən, çox fəaldırlar. İş təkcə Assambleyanın iclasları ilə bitmir, müxtəlif komitələrdə görüşlər keçirilir. Bizim deputatlar hər yerə gedirlər və Azərbaycanın mənafelərini müdafiə edirlər. Bizim üçün çox əhəmiyyətli haldır ki, Avropa Şurasında Ermənistan–Azərbaycan münaqişəsi haqqında məsələ qaldırılıbdır. Biz neçə illərdir ki, ATƏT çərçivəsində danışıqlar aparırıq. Bu il də aparacağıq. Çünki bu məsələnin həlli Birləşmiş Millətlər Təşkilatı tərəfindən ATƏT-ə həvalə olunubdur. Amma Avropa Şurasının da böyük imkanları var.

Ermənistanın Azərbaycana təcavüz etməsi, torpaqlarımızın işğal edilməsi, vətəndaşlarımızın zorla yurdlarından çıxarılması, onların 10 ildir ki, çadırlarda yaşaması. Bilirsiniz ki, bu vəziyyəti dünyaya çatdırmaq üçün mən özüm də nə qədər çalışıram, başqaları da çalışır. İndiyə qədər hələ çox yerlərdə biz bunu

olduğu kimi çatdıra bilməmişik. Avropa Şurasının tribunası bu barədə bizim üçün çox mühüm bir yerdir. Bizim deputatlar da bundan istifadə ediblər.

Amma bir bu deyil. Mən bunu ona görə deyirəm, çünki bu bizim əsas məsələmizdir. Əgər bu problemimiz olmasa, biz başqa məsələlərdə işlərimizi çox uğurla aparardıq və heç bir narahatçılığımız da olmazdı. Amma bu əsas məsələni Avropa Şurasının – orada Avropa ölkələrindən 600 deputat iştirak edir – qarşısına çıxarmaq, həmin deputatlara çatdırmaq, yaxud da ayrı-ayrı görüşlərdə, qeyri-rəsmi görüşlərdə onlara bildirmək – bu çox böyük imkandır. Mən yenə də deyirəm, İlham Əliyev və onun rəhbərliyi altında bizim bütün nümayəndə heyəti uğurla işləyirlər. Mən onların işini müsbət qiymətləndirirəm. Bu bizim öz işimizdir. Ancaq indi belə bir imkanın yaranması, İlham Əliyevin sədrin müavini və büro üzvü seçilməsi yəqin ki, bizim imkanlarımızı daha da artırır.

**S u a l: Cənab Prezident, İlham Əliyev Avropa Şurasının tribunasından azərbaycanlı hərbi əsir Elməddin Abıyevlə bağlı məsələ qaldırdı. Siz Qafqaz dördlüyü ilə görüşəndə bu məsələni qaldıracaqsınızmı?**

**H e y d ə r Ə l i y e v:** Baxacağam, əgər lazım olsa, qaldıracağam.

**S u a l: Cənab Prezident, Kiyevdə Robert Köçəryanla görüşünüz ola bilərmi? İkitərəfli görüşün keçirilməsi mümkündürmü?**

**H e y d ə r Ə l i y e v:** Bilmirəm, bəlkə oldu, bəlkə yox.

**S u a l: Avropa Şurasında Azərbaycanı təmsil edəcək hakim məsələsi gündəliyə gəlibdir…**

**H e y d ə r Ə l i y e v:** Ay qızım, axı cəmisi üç-dörd gündür ki, ora namizədlər verilibdir. Özləri də deyirlər ki, üç nəfərin

namizədliyini verin, üçündən birini özümüz seçəcəyik. Mən gedib ondan yapışım ki, de görüm, kimi seçəcəksən? Oraya hakim seçilməyin öz prosedurası var. Onlar sizin kimi deyillər. Kağızlar orada 10–15 gün, 20–30 gün yatır, sonra götürüb bir də baxırlar. Amma bu onların öz işidir. Mən hesab etmirəm ki, bu bizim üçün bir nömrəli məsələdir və bundan ötrü çalışmalıyıq. İndiyə qədər bizim hakimimiz olmayıbdır. Bundan sonra nə vaxt olar, olar.

**S u a l: Cənab Prezident, yanvar faciəsi ilə əlaqədar Mixail Qorbaçovun Beynəlxalq məhkəməyə verilməsi məsələsi qaldırıldı. Vaqif Mustafayevin çəkdiyi filmdə də Qorbaçovun müəyyən etirafları var. Bu məsələnin reallaşması mümkündürmü?**

**H e y d ə r Ə l i y e v:** Bilirsiniz, hər bir məsələnin reallığı onun həyata keçirilməsi imkanlarından asılıdır. Bu məsələni bizim ictimaiyyət, müxtəlif təşkilatlar qaldırıblar, hesab edirəm ki, düz qaldırıblar və onlar bunu axıra çatdıra bilərlər.

**S u a l: Cənab Prezident, ABŞ prezidenti yaxın vaxtlarda İraqda hərbi əməliyyatların başlanmasına hazır olduqlarını bildirdi. Azərbaycanın bu məsələ ilə bağlı mövqeyi necədir?**

**H e y d ə r Ə l i y e v:** Mən hələ cənab Buşun məruzəsini eşitməmişəm. O gərək ki, bu gecə Konqresdə çıxış etməli idi. Sağ olun.

## AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV KİYEV ŞƏHƏRİNDƏ

*28 yanvar 2003-cü il*

*Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev MDB-nin üzvü olan ölkələrin dövlət başçılarının Ukraynanın paytaxtında keçirilən qeyri-rəsmi zirvə görüşündə iştirak etmək üçün Kiyevə gəlmişdir.*

*Respublikamızın, Ukraynanın, habelə MDB-nin üzvü olan digər ölkələrin dövlət bayraqları ilə bəzədilmiş Borispol beynəlxalq hava limanında Azərbaycan prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Dövlətimizin başçısı Ukrayna milli adətincə duz-çörəklə qarşılandı.*

*Milli geyimli azərbaycanlı qızlar prezidentə gül dəstəsi təqdim etdilər.*

*Azərbaycan prezidenti Heydər Əliyev təyyarənin pilləkəni yanında Ukrayna Prezidenti Aparatının rəhbəri Viktor Medvedçuk, Xarici İşlər Nazirliyinin dövlət katibi Yuri Sergeyev, Kiyev şəhərinin meri Aleksandr Omelçenko, Azərbaycanın Ukrayna,*

*Moldova və Belarusdakı Fövqəladə və Səlahiyyətli səfiri Tələt Əliyev və digər rəsmi şəxslər səmimiyyətlə qarşıladılar.*

*Prezident Heydər Əliyev fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*Dövlətimizin başçısı hava limanından onun üçün ayrılmış iqamətgaha gəldi.*

### ***Azərbaycan prezidenti Heydər Əliyevin ATƏT-in Minsk qrupunun həmsədrləri ilə görüşü***

*MDB-nin üzvü olan ölkələrin dövlət başçılarının Kiyevdə keçirilən Zirvə görüşündə iştirak edən Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev yanvarın 28-də onun üçün ayrılmış iqamətgahda ATƏT-in Minsk qrupunun həmsədrləri Rudolf Perinanı (ABŞ), Nikolay Qribkovu (Rusiya) və Anri Jakoləni (Fransa), habelə Fransadan olan keçmiş həmsədr Üq Perneni qəbul etmişdir.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə aradan qaldırılması məsələləri barədə söhbət aparıldı.*

*Tam sülh əldə edilənədək atəşkəs rejiminə əməl olunmasının vacibliyini bir daha nəzərə çatdıran prezident Heydər Əliyev nizamasalma prosesində ATƏT-in Minsk qrupu çərçivəsində səylərin daha da artırılması lüzumunu qeyd etdi.*

*Söhbət zamanı münaqişənin aradan qaldırılması sahəsində Azərbaycan və Ermənistan prezidentlərinin birbaşa görüşlərinin zəruri olduğu və bunların davam etdirilməsinin vacibliyi vurğulandı.*

*ATƏT-in Minsk qrupunun həmsədrləri görüş üçün vaxt ayırdığına görə Azərbaycan prezidenti Heydər Əliyevə minnətdarlıqlarını bildirdilər.*

* * *

***Azərbaycan prezidenti Heydər Əliyevin, Rusiya Federasiyasının prezidenti Vladimir Putinin, Gürcüstan prezidenti Eduard Şevardnadzenin və Ermənistan prezidenti Robert Köçəryanın birgə görüşü***

*MDB-nin üzvü olan ölkələrin dövlət başçılarının Kiyev şəhərində keçirilən Zirvə görüşündə iştirak edən Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin, Rusiya Federasiyasının prezidenti Vladimir Putinin, Gürcüstan prezidenti Eduard Şevardnadzenin və Ermənistan Respublikasının prezidenti Robert Köçəryanın yanvarın 28-də «Qafqaz dördlüyü» çərçivəsində görüşü olmuşdur.*

*Görüşdə Qafqazda təhlükəsizliyin və əməkdaşlığın aktual problemləri müzakirə edildi.*

*Münaqişələrin sülh yolu ilə nizama salınmasının vacibliyini vurğulayan dövlət başçıları bildirdilər ki, bu, region ölkələrinin hərtərəfli əməkdaşlığına maneələrin aradan qaldırılmasına xidmət edərdi.*

*Fikir mübadiləsi zamanı prezidentlər vurğuladılar ki, Qafqazdakı münaqişələrin tezliklə nizama salınması, regionda sabitliyin bərqərar olunması üçün ikitərəfli və çoxtərəfli öhdəliklərə əməl edilməlidir.*

*Prezidentlər regionda sülh və sabitlik üçün, onun gələcək inkişafı üçün təhlükə yaradan hər cür ekstremizm və terrorizm hallarına qarşı mübarizədə səylərin birləşdirilməsinin vacibliyini nəzərə çatdırdılar.*

*Dövlət başçıları Qafqazda təhlükəsizliyin təmin edilməsində, sülh və sabitliyin əldə edilməsində region ölkələri rəhbərlərinin yüksək səviyyədə mütəmadi görüşlərinin böyük əhəmiyyəti olduğunu vurğuladılar.*

*Prezidentlər Qafqaz ölkələri nümayəndələrinin müxtəlif strukturlar səviyyəsində görüşlərini və təmaslarını müsbət hal kimi qiymətləndirdilər.*

*Görüşdə bir sıra digər məsələlər barəsində də fikir mübadiləsi aparıldı.*

* * *

## *Azərbaycan prezidenti Heydər Əliyevin Ukrayna prezidenti Leonid Kuçma ilə görüşü*

*MBD-nin üzvü olan ölkələrin dövlət başçılarının Kiyev şəhərində keçirilən Zirvə görüşündə iştirak edən Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin yanvarın 28-də Ukraynanın prezidenti Leonid Kuçma ilə görüşü olmuşdur.*

*Azərbaycan prezidenti Heydər Əliyevi səmimiyyətlə salamlayan Leonid Kuçma ölkəmizin başçısı ilə Ukrayna paytaxtında görüşməkdən məmnun olduğunu bildirdi.*

*President Heydər Əliyev göstərilən qonaqpərvərliyə və diqqətə görə prezident Leonid Kuçmaya minnətdarlığını bildirdi.*

*Ölkələrimiz arasında təşəkkül tapmış dostluq, qarşılıqlı surətdə faydalı əməkdaşlıq və strateji tərəfdaşlıq münasibətlərindən söhbət açan prezidentlər ikitərəfli əlaqələrin daha da genişləndirilməsinin vacibliyini, beynəlxalq və regional təşkilatlar çərçivəsində birgə fəaliyyətin zəruriliyini vurğuladılar.*

*Neft və qaz sahəsində əməkdaşlığın perspektivlərinə toxunan dövlət başçıları transmilli layihələrin regionun iqtisadi inkişafı, tərəqqisi üçün əhəmiyyətli olduğunu bildirdilər.*

*Ənənəvi mehribanlıq və səmimilik şəraitində keçən görüş zamanı hər iki ölkəni maraqlandıran bir sıra digər məsələlər də nəzərdən keçirildi.*

* * *

## *Azərbaycan prezidenti Heydər Əliyevin Gürcüstan prezidenti Eduard Şevardnadze ilə görüşü*

*MDB-nin üzvü olan ölkələrin dövlət başçılarının Ukrayna paytaxtında keçirilən zirvə görüşündə iştirak edən Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin yanvarın 28-də Gürcüstanın prezideti Eduard Şevardnadze ilə görüşü olmuşdur.*

*Prezidentlər Heydər Əliyev və Eduard Şevardnadze bir-birini səmimiyyətlə salamlayaraq, ənənəvi xarakter almış görüşlərindən məmnun olduqlarını bildirdilər.*

*Görüş zamanı ölkələrimiz arasında ikitərəfli əlaqələrin daha da genişləndirilməsi və inkişaf etdirilməsi məsələləri barədə fikir mübadiləsi aparıldı.*

*Prezidentlər Xəzərin zəngin karbohidrogen yataqlarının işlənilməsi və enerji ehtiyatlarının dünya bazarlarına nəqli, o cümlədən Bakı–Tbilisi–Ceyhan əsas ixrac neft kəmərinin inşası ilə bağlı məsələləri nəzərdən keçirdilər. Dövlət başçıları bu layihə ilə əlaqədar qarşıya çıxan çətinliklərin aradan qaldırılması üçün bundan sonra da birgə səylər göstərilməsinin zəruriliyini bildirdilər.*

*Azərbaycan və Gürcüstan prezidentləri Cənubi Qafqazda və ümumən Qafqazda təhlükəsizliyin və sabitliyin bərqərar olmasının regionun inkişafı və tərəqqisi üçün vacibliyini vurğuladılar, mövcud münaqişələrin – Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ, gürcü–abxaz, gürcü–osetin münaqişələrinin həlli yolları barədə fikir mübadiləsi apardılar.*

*Ənənəvi dostluq və mehribanlıq şəraitində keçən görüşdə tərəflər hər iki ölkəni maraqlandıran bir sıra digər məsələlər üzərində də dayandılar.*

* * *

*Yanvarın 28-də axşam Ukrayna prezidenti Leonid Kuçmanın adından Zirvə görüşü iştirakçılarının şərəfinə şam yeməyi verildi. Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev şam yeməyində iştirak edirdi.*

## AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV MDB-nin ÜZVÜ OLAN ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARININ QEYRİ-RƏSMİ ZİRVƏ GÖRÜŞÜNDƏ

*29 yanvar 2003-cü il*

*Yanvarın 29-da Kiyevin Mariinsk sarayında Müstəqil Dövlətlər Birliyinin üzvü olan ölkələrin dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşü keçirildi.*

*Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev, Rusiya Federasiyasının prezidenti Vladimir Putin, Ukrayna prezidenti Leonid Kuçma, Gürcüstan prezidenti Eduard Şevardnadze, Tacikistan prezidenti İmaməli Rəhmonov, Moldova prezidenti Vladimir Voronin, Ermənistan prezidenti Robert Köçəryan, Belarus prezidenti Aleksandr Lukaşenko, Özbəkistanın Baş naziri Utkir Sultanov, Qırğızıstanın Baş naziri Nikolay Tanayev, Qazaxıstanın Xarici İşlər naziri Qasımcomərd Tokayev, Türkmənistanın Prezident Aparatının rəhbəri – MDB ölkələri üzrə əlaqələndirici Rəcəb Saparov görüşdə iştirak edirdilər.*

*İqtisadi məsələlərin, əsasən, azad ticarət zonası yaradılması barədə məsələlərin müzakirə olunduğu qeyri-rəsmi Zirvə görüşünü Ukrayna prezidenti Leonid Kuçma açdı, sammitdə iştirak edən dövlət başçılarını və digər rəsmi şəxsləri səmimiyyətlə salamladı və onlara dərin təşəkkürünü bildirdi. O, gündəlikdə duran məsələlər barədə məlumat verdi və dedi ki, görüşdə MDB üzvü olan dövlətlərin iqtisadi sahədə qarşılıqlı fəaliyyətinin in-*

*kişafı haqqında, aktual beynəlxalq və regional problemlər, o cümlədən İraq və Şimali Koreya ətrafında vəziyyət, beynəlxalq terrorizmlə mübarizə və Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin başçılarının Qırğızıstanda Konstitusiya islahatlarının dəstəklənməsi barədə bəyanatı haqqında məsələlər müzakirəyə çıxarılmışdır.*

*Ukrayna prezidenti Leonid Kuçma görüş iştirakçıları adından Gürcüstan prezidenti Eduard Şevardnadzeni anadan olmasının 75 illiyi münasibətilə təbrik etdi.*

*Gündəlikdəki məsələlər ətrafında aparılan müzakirələrdə Azərbaycan prezidenti Heydər Əliyev, Rusiya prezidenti Vladimir Putin, Ukrayna prezidenti Leonid Kuçma, Gürcüstan prezidenti Eduard Şevardnadze, Tacikistan prezidenti İmaməli Rəhmonov, Moldova prezidenti Vladimir Voronin, Ermənistan prezidenti Robert Köçəryan, Belarus prezidenti Aleksandr Lukaşenko və Qazaxıstan, Qırğızıstan nümayəndə heyətlərinin rəhbərləri çıxış etdilər, öz fikir və tövsiyələrini bildirdilər.*

*Kişinyov Zirvə görüşündə qaldırılmış iqtisadi məsələlərin üstün yer tutduğu müzakirələrdə azad ticarət zonası yaradılması barədə geniş fikir mübadiləsi oldu. Birliyin üzvü olan ölkələrin hökumətlərinə, MDB-nin İqtisadi Şurasına və İcraiyyə Komitəsinə tapşırıldı ki, azad ticarət zonasının formalaşdırılmasını başa çatdırmaq üçün lazımi normativ-hüquqi sənədləri növbəti Zirvə görüşünədək hazırlasınlar. Belə bir fikir səsləndi ki, yanacaq-energetika kompleksi və nəqliyyat Birlik dövlətlərinin iqtisadi əməkdaşlığında üstün istiqamətlər olmalıdır.*

*Rusiya Federasiyasının prezidenti Vladimir Putin görüş iştirakçılarına beynəlxalq terrorizmlə mübarizə, İraq və Şimali Koreya ətrafında yaranmış vəziyyət barədə məlumat verdi, BMT*

Təhlükəsizlik Şurasının daimi üzvü kimi, Rusiyanın bu məsələlərə münasibətdə mövqeyini açıqladı.

Dövlət başçıları Qırğızıstanda Konstitusiya islahatlarının dəstəklənməsinə dair bəyanat da qəbul etdilər. Sənəddə bildirilir ki, MDB-nin üzvü olan ölkələrin dövlət başçıları Qırğızıstan Respublikasının demokratiya prinsiplərinə sadiqliyini vurğulayır, cəmiyyətin bütün ictimai-siyasi qüvvələrinin birgə razılığı əsasında demokratik proseslərin dərinləşdirilməsi sahəsində respublika rəhbərliyinin göstərdiyi səyləri dəstəkləyirlər.

Rusiya Federasiyasının prezidenti Vladimir Putinin təklifi ilə Ukrayna prezidenti Leonid Kuçma yekdilliklə MDB-nin üzvü olan ölkələrin Dövlət Başçıları Şurasının sədri seçildi.

Dövlət başçılarının növbəti Zirvə görüşünü 2003-cü ilin sentyabrında Ukraynanın Yalta şəhərində keçirmək qərara alındı.

Kiyev Zirvə görüşünün iştirakçıları sammitin yekunlarına dair bəyanat qəbul etdilər. Bəyanatda deyilir ki, dövlət başçıları MDB ölkələrinin bütövlükdə yüksək iqtisadi potensiala malik olduğunu və milli iqtisadiyyatların möhkəmləndirilməsinə istiqamətləndirilmiş qarşılıqlı surətdə faydalı əlaqələrin mümkünlüyünü vurğulayaraq, üzv ölkələrin və onların müvafiq orqanlarının səylərinin azad ticarət zonasının yaradılmasının başa çatdırılmasına, yanacaq-energetika və nəqliyyat kompleksləri kimi üstün sahələrdə əməkdaşlığın inkişafına yönəldilməsini zəruri sayırlar. Müvafiq orqanlara tapşırılır ki, bütün bu istiqamətlərdə əməkdaşlığın inkişafını təmin etmək üçün lazımi sənədləri hazırlasınlar.

* * *

Yanvarın 29-da Mariinsk sarayında Ukrayna prezidenti Leonid Kuçmanın adından Müstəqil Dövlətlər Birliyinin üzvü

*olan ölkələrin dövlət başçılarının şərəfinə rəsmi ziyafət verildi. Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev ziyafətdə iştirak edirdi.*

* * *

## Səfər başa çatdı

*Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin Ukrayna paytaxtına işgüzar səfəri başa çatdı.*

*Prezident Heydər Əliyev Azərbaycanın, Ukraynanın, habelə MDB-nin üzvü olan digər ölkələrin dövlət bayraqları ilə bəzədilmiş Borispol beynəlxalq hava limanına gəldi.*

*Milli geyimli azərbaycanlı qızlar dövlətimizin başçısına gül dəstəsi təqdim etdilər.*

*Azərbaycanın prezidenti Heydər Əliyevi təyyarənin pilləkəni yanında Ukrayna Prezidenti Aparatının rəhbəri Viktor Medvedçuk, Xarici İşlər Nazirliyinin dövlət katibi Yuri Sergeyev, Kiyev şəhərinin meri Aleksandr Omelçenko, Azərbaycanın Ukrayna, Moldova və Belarusdakı Fövqəladə və Səlahiyyətli səfiri Tələt Əliyev və digər rəsmi şəxslər səmimiyyətlə yola saldılar.*

# KİYEVDƏN BAKIYA QAYIDARKƏN BİNƏ BEYNƏLXALQ HAVA LİMANINDA JURNALİSTLƏRƏ VERDİYİ MÜSAHİBƏ

*29 yanvar 2003-cü il*

**H e y d ə r Ə l i y e v:** Axşamınız xeyir olsun!

Mənim Kiyevə qısamüddətli səfərim haqqında yəqin ki, televiziyadan və digər informasiya orqanlarından məlumatınız var. Ona görə sizə elə bir məlumat verməyə ehtiyac yoxdur.

Biz orada əsasən azad iqtisadi zona yaradılması haqqında müzakirə apardıq. Bu barədə yenə də hərə öz fikrini dedi. Tapşırdıq ki, bir az da işləsinlər, Müstəqil Dövlətlər Birliyi ölkələri başçılarının sentyabr ayında toplantısı olacaq, orada bu məsələyə baxarıq.

İlk dəfə olaraq Müstəqil Dövlətlər Birliyində sədr dəyişildi. İndi Rusiyanın deyil, Ukraynanın prezidentini sədr seçdik. Bu da yaxşı bir hadisədir. Çünki, ümumiyyətlə, əvvəlcədən bu təşkilatda rotasiya sistemi var. Ancaq Yeltsin zamanı onu müəyyən qədər dəstəkləmək üçün hər dəfə belə qərarlar qəbul edirdik ki, o, sədr qalsın. Amma indi prezident Putin məsələni özü qoyubdur. O bunu oktyabr ayında Kişinyovdakı sammitdə də qaldırmışdı. Biz bunu orada da müzakirə etdik, ancaq həll edə bilmədik. Amma burada müzakirə etdik və həll etdik. Artıq indi Ukraynanın prezidenti Leonid Kuçma Müstəqil Dövlətlər Birliyinin Dövlət Başçıları Şurasının sədridir. Sentyabr ayında

olacaq sammitin yeri də əvvəlcədən müəyyən olundu – Yaltada keçiriləcəkdir. Başqa elə bir məsələ yoxdur.

Prezident Putin görüşdə beynəlxalq məsələlər haqqında müəyyən məlumat verdi. Çünki onun böyük əlaqələri var. Xüsusən İraqla və bir də Şimali Koreya ilə əlaqədar olan məsələlər haqqında bizə məlumatlar verdi. Biz bu məlumatların bir hissəsini bilirik, bir hissəsini də nəzərə aldıq. Başqa elə bir şey yoxdur.

**S u a l: Cənab Prezident, Rusiya prezidenti sammitdən sonra mətbuat konfransında bəyan etdi ki, İraqla bağlı MDB dövlət başçılarının hamısı eyni mövqedən çıxış edibdir. Buna münasibətinizi öyrənmək istərdik, Azərbaycanın mövqeyi necədir?**

**C a v a b:** Biz oradan çıxıb getdik. Mətbuat konfransını cənab Putinlə cənab Kuçma bir yerdə keçirdilər. Buna görə nə deyibsə, onun cavabıdır.

**S u a l: Cənab Prezident, orada «Qafqaz dördlüyü»nün görüşü keçirildi, nəticələri barədə nə deyə bilərsiniz?**

**C a v a b:** Bəli, keçirildi, növbəti dəfə söhbət etdik. Rusiya, Gürcüstan, Ermənistan və Azərbaycan prezidentləri regiondakı vəziyyət, təhlükəsizliyin təmin olunması, iqtisadi əməkdaşlıq məsələləri barədə danışdıq. Bu, sadəcə, fikir mübadiləsidir, başqa bir şey yoxdur.

**S u a l: Cənab Prezident, «Qafqaz dördlüyü» çərçivəsində əsir düşmüş Elməddin Abıyevin məsələsini qaldırdınızmı?**

**C a v a b:** Mən bunu ondan soruşdum. Siz bunu artıq o qədər şişirtməyin. Hər dəfə televiziyada, deyəsən, ANS kanalıdır, o əsgəri göstərirlər. Hadisə olubdur, minaya düşübdür. Bunu onlar deyir. Bəlkə də atəş açıblar. O yaralanıb və özü də ağır yaralanıbdır. Onlar da onun üzərində cərrahiyyə əməliyyatı

aparıblar. Əvvəl də bizə demişdilər, indi Köçəryan da mənə dedi ki, – Putinin yanında söhbətimiz oldu, Şevardnadze də orada idi – biz gözləyirik ki, səhhətinə zərər dəymədən onu qaytarmaq mümkün olsun.

Axı hər gün televizoru açırıq, o əsgəri göstərirsiniz, bilmirəm, onu göstərənlər kimdir, yəqin buradadır. Əsgər yaralanar da, itkin də düşər. Siz bunu başa düşməlisiniz ki, 6-7 il müharibə aparmış, bir-birini öldürmüş, bir-birini qırmış iki xalq, erməni və Azərbaycan xalqı 1994-cü ildən indiyə qədər hər iki dövlətin iradəsinə görə, kənardan heç bir sülhməramlı qüvvənin iştirakı olmadan atəşkəsi saxlayır. Elə həmin o əsgər haqqında da söhbət edəndə Köçəryan özü dedi, mən də dedim ki, bəli, biz atəşkəsi saxlayırıq və saxlayacağıq. Ancaq bu hadisə də olubdur. Belə hadisələr ola bilər.

**S u a l: Cənab Prezident, azad iqtisadi zonanın yaradılması barədə nə kimi irəliləyişlər əldə olundu?**

**C a v a b:** Mən sizə dedim ki, yenə də müzakirə etdik və tapşırdıq ki, gələn sammitə qədər tam qərar hazırlasınlar.

**S u a l: Cənab Prezident, «Qafqaz dördlüyü»nün görüşündən sonra Vladimir Putin bəyan etdi ki, bu ölkələrin güc strukturlarının əməkdaşlığı zəruridir. Buna münasibətinizi bilmək olarmı?**

**C a v a b:** Bilirsiniz, güc strukturları əməkdaşlıq etmirlər. Onlar görüşürlər və bəzi məsələlər haqqında müzakirələr aparırlar. Ancaq bu o demək deyil ki, biz Ermənistanla əməkdaşlıq edirik. Eləcə də, məsələn, belə təkliflər irəliyə sürülübdür ki, dörd ölkənin parlament sədrləri görüşsünlər. Onlar bu yaxınlarda Kislovodskda görüşəcəklər. Bəli, daxili işlər nazirləri, başqa güc strukturlarının rəhbərləri görüşürlər.

**S u a l: Cənab Prezident, Rusiyanın kütləvi informasiya vasitələri belə bir məlumat yayıb ki, yazda Ermənistan və Azərbaycan prezidentləri Sankt-Peterburqda görüşəcəklər. Bu doğrudurmu?**

**C a v a b:** Yaxşı, bunları bilirsinizsə, məndən niyə soruşursunuz?! Bəli, mayın 30-da Sankt–Peterburqun 300 illiyi olacaqdır. Biz də dəvət olunmuşuq. Özü də bir çox dövlət başçıları, bütün Avropanın dövlət başçıları dəvət edilibdir. Bizim orada görüşümüz olacaqdır. Sağ olun.

# UKRAYNANIN MÜDAFİƏ NAZİRİ, ORDU GENERALI VLADİMİR ŞKİDÇENKO İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*30 yanvar 2003-cü il*

**H e y d ə r  Ə l i y e v:** Mən sizi səmimi-qəlbdən salamlayıram. Azərbaycana xoş gəlmisiniz, Ukrayna Müdafiə nazirinin rəsmi səfəri ölkələrimiz arasında dostluq münasibətlərinin genişləndiyinə sübutdur. Ukrayna ilə Azərbaycan arasındakı dostluq möhkəmdir, əməkdaşlıq çox səmərəli, səmimi və etibarlıdır. Mən prezident Leonid Kuçma ilə yaranmış mehriban dostluq münasibətlərini yüksək qiymətləndirirəm. Sizi – Ukraynanın Müdafiə nazirini əlamətdar hadisə – prezident Leonid Kuçmanın MDB-nin üzvü olan ölkələrin Dövlət Başçıları Şurasının sədri seçilməsi münasibətilə təbrik edirəm. Onu da bildirim ki, sədr vəzifəsinin bu cür rotasiya prinsipi Birliyin bütün tarixi ərzində ilk dəfə qəbul olunub və bu prinsipi dövlət başçılarının əvvəlki, 2002-ci ildə Kişinyovda keçirilmiş zirvə toplantısında Rusiya prezidenti Vladimir Putin təklif etmişdi.

**V l a d i m i r  Ş k i d ç e n k o:** Cənab Prezident, səmimi qəbula görə təşəkkürümü bildirirəm. Səfərin gedişində apardığım danışıqlar barədə məlumat vermək istəyirəm. Bakıya səfər ərəfəsində prezident Leonid Kuçma nümayəndə heyəti qarşısında ölkələrimiz arasında hərbi əməkdaşlığın səviyyəsinin daha da

yüksəldilməsi vəzifəsini qoymuşdur. Səfər zamanı Müdafiə nazirinizlə danışıqlar aparmış, 2003-cü ildə ikitərəfli əməkdaşlıq haqqında saziş imzalanmışdır. İki ölkə arasında hərbi təhsil sahəsində, hərbi-texniki sahədə yaxşı əməkdaşlıq yaranmışdır. NATO ilə əlaqələrin möhkəmləndirilməsi yolları barədə də fikir mübadiləsi aparılmışdır. Mənim fikrimcə, belə fikir mübadiləsinin zəruriliyi hər iki ölkənin strateji məqsədlərinin oxşarlığından irəli gəlir.

Mən Ali Hərbi Məktəbdə və təlim mərkəzində də oldum. Azərbaycanda hərbi təhsil sahəsində həyata keçirilən islahatı yüksək qiymətləndirirəm. Azərbaycanda gördüyüm bir sıra müsbət yenilikləri Ukrayna Silahlı Qüvvələrində tətbiq etmək niyyətindəyəm. Onu da vurğulayım ki, Sizin rəhbərliyiniz ilə son illər Azərbaycanda böyük nailiyyətlər əldə olunmuşdur.

**Heydər Əliyev:** Bəli, son vaxtlar Azərbaycanda hərbi təhsilin təkmilləşdirilməsi üçün böyük iş görülmüşdür. Azərbaycan müstəqillik əldə etdikdən sonra ölkəmizdə hərbi quruculuq Ermənistanla müharibə şəraitində getmişdir. O illərdə müəyyən şəxslər guya müdafiə məqsədləri ilə silahlı dəstələr yaradırdılar, əslində isə, həmin dəstələr bu adamların hakimiyyət uğrunda mübarizəsi ilə bağlı şəxsi məqsədlərinə xidmət edirdi. Ukraynanın isə milli ordu yatarmaq məsələlərində daha böyük üstünlükləri var idi, çünki Sovet Ordusunda ukraynalılar bir çox rəhbər vəzifələrində təmsil olunmuşdular və sıravi heyətin xeyli hissəsini təşkil edirdilər.

Azərbaycan zabitləri Ukraynanın ali hərbi məktəblərində təhsil alırlar. Odur ki, hərbçilərimiz bu ölkənin təcrübəsindən hər vasitə ilə bəhrələnməlidirlər. Ukrayna nümayəndə heyətinin səfəri, Bakıda aparılmış danışıqlar ikitərəfli əməkdaşlığın inkişa-

fı üçün mühüm hadisədir. Hərbi sahədə daha sıx əməkdaşlığı inkişaf etdirməyə xüsusi zərurət var.

**V l a d i m i r Ş k i d ç e n k o:** Cənab Prezident, azərbaycanlı həmkarımın MDB ölkələrinin müdafiə nazirləri arasında yüksək nüfuzu olduğunu söyləmək istəyirəm və mən onu Ukraynaya səfərə dəvət etmişəm.

**AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB CORC BUŞA**

Hörmətli cənab Prezident!

Şattl «Kolambiya» kosmik gəmisinin qəzaya uğraması və ekipaj üzvlərinin tələfatı xəbəri məni ürəkdən kədərləndirdi.

Bu faciəli hadisə ilə əlaqədar dərdinizə şərik çıxıram, Sizə, həlak olanların ailələrinə və bütün Amerika xalqına dərin hüznlə başsağlığı verirəm.

**HEYDƏR ƏLİYEV**

**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *1 fevral 2003-cü il*

# STALİNQRAD VURUŞMASINDA QƏLƏBƏNİN 60 İLLİYİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ YIĞINCAĞIN İŞTİRAKÇILARINA

Hörmətli yığıncaq iştirakçıları!

Böyük Vətən müharibəsində əsaslı dönüşün başlanğıcını qoymuş Stalinqrad vuruşmasında qələbənin 60 illiyi münasibətilə sizi ürəkdən təbrik edirəm.

Stalinqrad vuruşması bəşəriyyəti faşizm zülmündən xilas etmək amalı ilə birləşmiş xalqlarımızın şanlı döyüş salnaməsinə qızıl hərflərlə yazılmışdır. Stalinqradın mərd və mətin müdafiəçiləri bu döyüşlərdə əsl qəhrəmanlıq və mərdlik nümunəsi göstərərək, faşist ordusunun məğlubedilməzliyi mifini darmadağın etmişlər.

Stalinqrad döyüşlərində digər xalqların nümayəndələri ilə çiyin-çiyinə vuruşaraq canından keçmiş Azərbaycanın minlərlə qəhrəman övladı böyük hərbi, siyasi və strateji əhəmiyyəti olan tarixi qələbəyə öz layiqli töhfəsini vermişdir.

Əminəm ki, bu gün ölkələrimiz arasında dostluq və əməkdaşlıq münasibətlərini möhkəmləndirməklə biz faşizmə qarşı mübarizədə xalqlarımızın nümayiş etdirdiyi sarsılmaz birliyi əbədi yaşadacağıq.

Bu əlamətdar gündə Stalinqrad vuruşmasında həlak olanların xatirəsini dərin minnətdarlıq hissi ilə yad edir, bu döyüşlərin iştirakçılarına, bütün müharibə veteranlarına böyük ehtiramımı bildirirəm.

Sizi bir daha təbrik edir, sizin hər birinizə möhkəm cansağlığı, uzun ömür və uğurlar arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *1 fevral 2003-cü il*

**HİNDİSTAN RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB ƏBDÜL KALAMA**

Hörmətli cənab Prezident!

Şattl «Kolambiya» kosmik gəmisinin qəzaya uğraması və ekipaj üzvlərinin tələfatı xəbəri məni ürəkdən kədərləndirdi.

Baş vermiş faciə nəticəsində həmvətəniniz Kalpana Çaulanın həlak olması ilə əlaqədar Sizə, mərhumun ailəsinə və bütün Hindistan xalqına dərin hüznlə başsağlığı verirəm.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *3 fevral 2003-cü il*

**İSRAİL DÖVLƏTİNİN BAŞ NAZİRİ
ZATİ-ALİLƏRİ
CƏNAB ARİEL ŞARONA**

Hörmətli Baş nazir!

Şattl «Kolambiya» kosmik gəmisinin qəzaya uğraması və ekipaj üzvlərinin tələfatı xəbəri məni ürəkdən kədərləndirdi.

Baş vermiş faciə nəticəsində ölkənizin ilk astronavtı Lian Ramonun həlak olması ilə əlaqədar Sizə, mərhumun ailəsinə və bütün İsrail xalqına dərin hüznlə başsağlığı verirəm.

**HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *3 fevral 2003-cü il*

## AZƏRBAYCAN HƏMKARLAR İTTİFAQLARI KONFEDERASİYASININ II QURULTAYINA

Hörmətli qurultay nümayəndələri!

Sizi Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının II qurultayının öz işinə başlaması münasibətilə salamlayır və səmimi-qəlbdən təbrik edirəm.

Hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu prosesini yaşayan müstəqil Azərbaycan Respublikasında keçən illərdə insan haqları və azadlıqlarının bərqərar olması, vətəndaşların əmək və sosial hüquqlarının təmin olunması sahəsində ardıcıl addımlar atılmışdır. Beynəlxalq standartlara əsaslanan zəruri qanunvericilik bazasının yaradılması və dövlət idarəçilik sisteminin bazar iqtisadiyyatının prinsiplərinə uyğun təkmilləşdirilməsi dövlətin sosial-iqtisadi siyasətinin səmərəli şəkildə həyata keçirilməsinə daha əlverişli şərait yaratmışdır. Yeni ictimai-siyasi və iqtisadi sistemin təşəkkül tapdığı dövrdə vətəndaşların sosial və iqtisadi mənafelərinin qorunması yalnız dövlət orqanlarının deyil, həmçinin həmkarlar ittifaqının da əsas işinə çevrilir və mühüm əhəmiyyət kəsb edir.

Bu gün respublikamızın iqtisadi potensialından daha səmərəli istifadə edilməsi və vətəndaşlarımızın maddi rifah halının yaxşılaşdırılması məqsədi ilə həyata keçirilən iqtisadi islahatlar öz bəhrəsini verməkdədir. Ölkəmizdə yeni iqtisadi sistem, yeni mülkiyyət formaları və təsərrüfat mexanizmləri formalaşmış, iqtisadiyyatımız ardıcıl inkişaf yoluna qədəm qoymuşdur. Xüsusi mülkiyyətə əsaslanan təsərrüfat sübyektlərinin fəaliyyəti üçün

yaradılan şərait insanların fərdi təşəbbüskarlığının reallaşmasına geniş meydan açmışdır.

Sahibkarlığın inkişafı ölkə iqtisadiyyatında özəl bölmənin aparıcı mövqe qazanmasına təkan vermişdir. Yeni şəraitdə həmkarlar ittifaqlarının cəmiyyətdəki rolu daha da artmışdır. 1994-cü ildə qəbul olunmuş «Həmkarlar İttifaqları haqqında» Azərbaycan Respublikasının qanunu bu qurumun cəmiyyətimizdəki fəaliyyətinin yeni prinsiplər əsasında tənzimlənməsi və vətəndaşlarımızın sosial-iqtisadi mənafelərinin qorunmasında fəal iştirakı üçün hüquqi baza yaradır. Həmkarlar ittifaqı hazırkı dövrdə əmək prosesinə cəlb olunmuş Azərbaycan vətəndaşlarının hüquqlarının müdafiəçisi kimi, ölkəmizdə fəaliyyət göstərən bütün müəssisələrdə, o cümlədən xarici sərmayə ilə işləyən təşkilatlarda, transmilli kampaniyalarda iş şəraitinin müasir standartlara uyğunlaşdırılması, sosial problemlərin həlli və əmək hüquqlarının təmin olunması sahəsində yeni metod və vasitələrdən istifadə edərək daha ardıcıl və məqsədyönlü fəaliyyət göstərməlidirlər. Vətəndaşlarımızın ən böyük ictimai təşkilatı olan həmkarlar ittifaqları yeni cəmiyyət quruculuğunda yaxından iştirak etməli, sosial siyasətin həyata keçirilməsində önəmli rol oynamalıdırlar.

Azərbaycan Respublikasının müstəqil dövlət kimi beynəlxalq aləmə sıx inteqrasiya olunması həmkarlar ittifaqları qarşısında da geniş perspektivlər açır və mühüm vəzifələr qoyur. Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının 2001-ci ildə dünyanın ən nüfuzlu həmkarlar təşkilatına – Beynəlxalq Azad Həmkarlar İttifaqları Konfederasiyasına üzv qəbul edilməsi respublikamızın dünyada nüfuzuna, ölkəmizdəki vətəndaş cəmiyyəti quruculuğuna, demokratik təsisatların roluna verilən qiymətin təzahürüdür. Bu, eyni zamanda Azərbaycan Həmkarlar İttifaqı

Konfederasiyasına əməyin təşkili və sosial problemlərin həlli sahəsində dünya ölkələrinin təcrübəsini dərindən öyrənmək, müvafiq qurumlarla qarşılıqlı faydalı əməkdaşlıq münasibətləri yaratmaq və dövlətimizin sosial-iqtisadi siyasətinin həyata keçirilməsində yaxından iştirak etmək imkanı verir.

Əminəm ki, həmkarlar ittifaqları dövrün tələblərinə uyğun olaraq öz fəaliyyətini yenidən təşkil edəcək, Azərbaycan Respublikasında demokratik, azad cəmiyyətin, insanların firavan həyatının bərqərar olması yolunda gələcəkdə də ön sıralarda addımlayacaqdır. Hesab edirəm ki, ikinci qurultay həmkarlar ittifaqlarının fəaliyyətinin daha səmərəli təşkilinə və cəmiyyətdəki mövqeyinin daha da möhkəmlənməsinə təkan verəcəkdir.

Qurultayın işinə uğurlar və qəbul edəcəyiniz qərarların həyata keçirilməsində sizə böyük muvəffəqiyyətlər arzulayıram.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *3 fevral 2003-cü il*

# MDB-nin ÜZVÜ OLAN ÖLKƏLƏRİN MƏDƏNİ ƏMƏKDAŞLIQ ŞURASININ BAKIDA KEÇİRİLMİŞ 18-ci İCLASININ İŞTİRAKÇILARI İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*4 fevral 2003-cü il*

**H e y d ə r  Ə l i y e v:** Hörmətli qonaqlar, sizi səmimi-qəlbdən salamlayıram, MDB-nin üzvü olan ölkələrin Mədəni Əməkdaşlıq Şurasının 18-ci iclasının Azərbaycanda keçirilməsindən məmnun olduğumu bildirirəm. Biz, ümumən, MDB-nin fəaliyyətində mədəniyyət sahəsinə böyük əhəmiyyət veririk.

MDB dövlət başçılarının, demək olar, hamısı belə bir fikirdədir ki, Birlik ölkələri arasında münasibətlərin daha da inkişafının, iqtisadi əməkdaşlığın genişləndirilməsinin təmin olunmasında mədəniyyət sahəsi çox böyük rol oynayır. Bu, həqiqətən, belədir. Biz hansı ölkəyə və nə qədər mal satır, ondan nə qədər alırıq – bunu çox az adam bilir.

Məsələn, əgər indi soruşsaq ki, MDB ölkələrindən hər biri ilə digərləri arasında, yaxud Azərbaycanla Rusiya arasında mal dövriyyəsi nə qədərdir, hesab edirəm ki, bu suala cavab vermək çətin olacaqdır. Mən bunu mədəniyyətin, incəsənətin əhalinin geniş dairələrinə nə qədər bəlli olduğunu və qarşılıqlı münasibətlərə necə güclü təsir göstərdiyini – bunu heç nə ilə ölçmək olmaz – vurğulamaq üçün deyirəm.

İndi MDB-də müvafiq idarələrin müxtəlif təşkilatları çoxdur. Amma mən hesab edirəm ki, onların arasında mədəniyyət daha mühüm rol oynayır. Yeri gəlmişkən deyim ki, bu təkcə mənim fikrim deyildir. Bu bizim – MDB ölkələri dövlət başçılarının görüşlərində həmişə səslənən ümumi fikirdir. Ona görə də mən şadam ki, siz görüşürsünüz, məsələləri müzakirə edirsiniz, bir-birinizə kömək göstərir və ölkələrimiz, müstəqil dövlətlərimiz arasında mədəni mübadiləni təmin edirsiniz.

Dövlətlər və xalqlar, ayrı-ayrı insanlar arasında dostluğun möhkəmlənməsinə mədəniyyət qədər güclü heç nə təsir göstərə bilməz.

Dövlət başçısı hər hansı ölkədə səfərdə olarkən və orada çıxış edərkən iki ölkə arasındakı əlaqələrdən – iqtisadi-ticarət əlaqələrindən ümumi şəkildə bəhs edir. Ancaq hansısa şairin, yazıçının, bəstəkarın, rəssamın hələ hansısa əsrdə filan-filan əsərlərdə xalqlarımızın dostluğunu tərənnüm etməsi barədə isə daha ifadəli və inandırıcı şəkildə danışır.

Biz görkəmli Azərbaycan bəstəkarı Qara Qarayevin anadan olmasının 85 illiyi münasibətilə təntənəli yubiley mərasimi keçirməyə hazırlaşırıq. Onun «Yeddi gözəl» kimi çox məşhur baleti var. Onun parlaq musiqisi, bəstəkarlıq sənətinin ən yüksək səviyyədə olması, bu baletin XX əsr dünya mədəniyyəti inciləri sırasına düşməyə layiq olması – bütün bunlar öz yerində. Ancaq bəstəkarın Xll əsrdə yaşamış və slavyan gözəlini, Çin gözəlini və başqalarını tərənnüm etmiş Nizami Gəncəvinin poemasından istifadə etməsi xüsusi təsir bağışlayır. Deməli, Nizami hələ 800 il əvvəl bu reallığı görmüş və özünün ölməz poemasında təsvir etmişdir. Bizim müasirimiz Qara Qarayev isə bu süjetdən istifadə edərək, tamamilə başqa formada, amma eyni məzmunda əsər yaratmışdır.

Nizaminin poemasını oxuyursan və orada həmin gözəllərlə bağlı sözləri axtarıb tapırsan, baletə tamaşa edəndə isə hansı gözəlin hansı ölkədən olduğunu bilmək çətin olmur ki, bu, Çin, bu isə slavyan gözəlidir, çünki rejissor işi də, musiqi də son dərəcə mükəmməldir. Mən bunu ona görə deyirəm ki, mədəniyyətin həmişə, təkcə indi yox, qədim dövrlərdən indiyədək xalqlar arasında, dövlətlər arasında, ölkələr arasında qarşılıqlı münasibətlərin inkişafında necə mühüm rol oynadığını daha inandırıcı şəkildə ifadə edim. İndi MDB-də, əlbəttə, hər ölkə öz xüsusiyyətlərini, öz dövlət müstəqilliyini qoruyub saxlamaqla, öz mənafelərini müdafiə etməklə daha geniş surətdə əməkdaşlığa yönəldilmiş ardıcıl tədbirlər görülür. Eyni zamanda, bütün hallarda bizə köməyi dəyən mədəniyyət kimi bir vasitədən istifadə edirik.

Siz mədəniyyət xadimlərisiniz və öz ölkələrinizdə mədəniyyət nazirliklərinə başçılıq edirsiniz. Budur, siz Azərbaycanda toplaşmısınız, mənim qeyd etdiyim məsələləri müzakirə etmisiniz. Mən orada sizin nə etdiyinizi bilmirdim, əlimin altında heç bir kağız, heç bir arayış yoxdur. Mən bunu bilmirəm. Amma mən bütün həyatım boyu, həmişə və hər yerdə, həyatımın bütün mərhələlərində, cəmiyyətin inkişafının bütün dövrlərində mədəniyyətə böyük əhəmiyyət vermişəm. Buna görə də mən sizi təbrik edirəm və əminəm ki, siz, sadəcə olaraq, görüşmək, söhbət etmək, bir-birinizə xoş sözlər demək üçün toplaşmamısınız. Hər bir görüşdə, mən isə istərdim ki, xüsusən bu görüşdə siz özünüz bildiyiniz və mənim dediyim məsələnin həlli üçün daha bir ciddi addım atasınız.

**Y u r i  Y a r o v** *(MDB-nin icra katibi*): Cənab Prezident, səmimi qəbula və Bakıda toplaşmaq imkanı yaratdığınıza görə Sizə minnətdarlığımı bildirərək qeyd edim ki, prezident Heydər

Əliyev Müstəqil Dövlətlər Birliyinin fəaliyyətində mədəniyyət sahəsinə daim diqqət yetirən bir insandır. Şuranın üzvlərinin bu gün məhz burada toplaşması məhz Sizin xidmətinizdir, sizin dövlətinizin xidmətidir.

Şuranın əvvəlki iclasında Azərbaycanın Mədəniyyət naziri Şuranın sədri seçildi və bundan sonra Bakıda keçirilmiş ilk iclas axırıncı 8 il ərzində ən mötəbər iclas oldu. Bunu da əlavə edim ki, bu, yaxşı ənənədir, bugünkü iclasdan başlayaraq estafet davam etdiriləcəkdir. Biz minnətdarıq ki, bu gün işgüzar söhbət oldu. Ümid edirik ki, Azərbaycanın sədrliyi ilə və əgər Siz bizim təklifimizi müdafiə etsəniz, Bakıda MDB ölkələri musiqi kollektivlərinin beynəlxalq festivalını keçirərdik.

**Heydər Əliyev:** Bu ideyanı dəstəkləyirəm. Ancaq bu tədbir dövlət başçılarının Zirvə toplantısı ilə eyni vaxta təsadüf etməməlidir.

**Yuri Yarov**: Bu festival MDB-nin üzvü olan ölkələrin dövlət başçılarının mədəni əməkdaşlığı genişləndirmək sahəsində qarşıya qoyduqları vəzifələrin yerinə yetirilməsinə dair tədbirlərdən biri olacaqdır.

**Mixail Şvidkov** (*Rusiya Federasiyasının Mədəniyyət naziri*): Səmimi qəbula görə minnətdarlıq edərək bildirim ki, bunu, adətən, Şuranın sədri edir. Ancaq indiki sədr həm də Azərbaycanın Mədəniyyət naziri olduğu üçün bu mühüm vəzifəni yerinə yetirmək mənə tapşırılmışdır. Mən bunun öhdəsindən yaxşı gələ bilməyəcəyəm, çünki mən nisbətən təzə nazirəm. Cənab Prezident, bu görüşə görə, bizi mehribanlıqla qarşıladığınıza görə Sizə minnətdarıq. Bu görüş bizim üçün çox mühümdür, çünki Ukrayna tərəfinin təşəbbüsü ilə Polad Bülbüloğlunun Şura sədri seçildiyi Moskvadakı yığıncaqdan

sonra biz ilk dəfə toplaşaraq, 2005-ciilədək əməkdaşlığımızla bağlı mövzuda 14 məsələni artıq müzakirə etmişik.

2005-ci il Birliyin bütün ölkələri üçün çox mühüm bir dövrdür. Bizim birgə fəaliyyətimizdə, əlbəttə, faşizm üzərində qələbənin 60 illiyi ilə bağlı tədbirlər əsas yer tutacaqdır. Bu tarix MDB xalqları üçün öz əhəmiyyətini indi də saxlamışdır və srağagün Volqoqradda keçmiş Sovet İttifaqının, əslində, burada vuruşmuş bütün xalqların nümayəndələri iştirak etmişdir. Siz bilirsiniz ki, o torpaqda bir çox azərbaycanlı qəhrəmanlar canlarını qurban vermiş və çoxları da Berlinə qədər gedib çıxaraq, vətənə qayıtmışlar. Bu bizim atalarımızın bayramıdır və o hamımızı birləşdirir.

Bu gün MDB-də mədəniyyətlə bağlı dialoqlar və proseslər, bütövlükdə, dünyada baş verən proseslərlə yanaşı gedir. Bunu başa düşmək bizim üçün çox vacibdir. Avropa inteqrasiyası var, Asiya inteqrasiyası prosesləri var, türk dünyası var və bütün bunlar tamamilə yeni proseslərdir. Bu gün biz iclasımızda dedik ki, ötən illər üçün yas saxlamamalıyıq, çünki bunun mənası yoxdur, gələcəyimizi düşünməliyik.

Biz başqa, yeni dünyada yaşayırıq, indi başqa qanunlar, başqa mexanizmlər qüvvədədir və biz MDB çərçivəsində dövlətlərimizin cəlb olunduğu bütün coğrafi-siyasi amilləri nəzərə almalıyıq. Buna görə də mədəniyyət sahəsində hamı ilə əməkdaşlıq etmək, əlbəttə, vacibdir. Bu əməkdaşlıq ümumi xarakterli bütün proseslərə – iqtisadi, siyasi proseslərə təsir göstərir. Bu bizim hamımızı özünə cəlb edir. Odur ki, kitabxanalararası mübadilə, rəssamlıq təhsili sahəsində mübadilə problemlərini müzakirə edərkən, qanunvericilik bazasına da diqqət yetirməliyik, çünki biz mədəniyyət sahəsində müxtəlif qanunvericiliyə malik dövlətlərlə əməkdaşlıq edirik. Bu qanunvericilik

eyniləşdirilə bilməz, lakin burada hansı kommunikasiyaların olduğunu başa düşmək lazımdır. Bir sözlə, mən bütün həmkarlarımın fikrini ifadə edirəm, bu işdə Şura sədrinin fəaliyyəti ona görə çox vacibdir ki, Şura ölkələrimizin mədəniyyətinin yeni minilliyin çağırışlarına hazır olmasında mühüm rol oynasın. Hər şeydən göründüyü kimi, bu bir o qədər asan məsələ deyildir. Lakin mədəniyyət insanlara rahatlıq gətirmək, onların həyatını mənalı etmək üçündür. Biz müxtəlif konfessiyalara mənsub, müxtəlif dillərdə danışan adamlarıq. Ona görə də bizim üçün çox vacibdir ki, Yer kürəsinin bu hissəsində insanların qəlbində dinclik olsun. Mən qonaqpərvərliyə görə bir daha öz minnətdarlığımı bildirmək istəyirəm. Bu gün, həqiqətən günəşli oldu, çünki Siz havanı da dəyişmisiniz. Avropanın 16 dərəcə şaxta olan slavyan hissəsindən gələnlər üçün bu, ayrıca bayramdır, lakin günəş həm də bizim qəlbimizdə idi, çünki biz Azərbaycanda mədəniyyətə yüksək münasibəti hiss etdik.

*(Rusiyanın Mədəniyyət naziri iclas iştirakçıları adından Azərbaycan prezidenti Heydər Əliyevə yaraşıqlı vaza təqdim etdi).*

**Heydər Əliyev:** Bakı görüşündə MDB ölkələrinin bütün mədəniyyət nazirləri iştirak edir?

**Polad Bülbüloğlu:** Cənab Prezident, Ermənistanın, Özbəkistanın və Türkmənistanın mədəniyyət nazirləri bu görüşə gəlməmişlər. Onlar Şuranın üzvləri olsalar da, Özbəkistanın və Türkmənistanın nümayəndələri Moskva görüşündə də iştirak etməmiş, Ermənistan isə səfirlə təmsil olunmuşdu.

**Heydər Əliyev:** Bu, əlbəttə, hər ölkənin öz işidir, biz müstəqil dövlətlərik, bu işə müdaxilə edə bilmərik. Mənə Ermənistanın burada iştirak edib-etməməsi maraqlı idi, qalan ölkələrin iştirak etmədiklərini heç bilmirdim də. Siz Polad Bülbüloğlunu Şuranın sədri seçmisiniz. Əlbəttə, sizdə də rotasiya

prinsipi olacaq. Biz MDB-də rotasiyanı artıq tətbiq etməyə başlamışıq. Kiyevdə axırıncı iclasda bunu Vladimir Vladimiroviç özü təklif etdi, ondan əvvəl Kişinyovda da rotasiya prinsipinə keçməyi təklif etmişdi və elə bu prinsiplə də biz Leonid Daniloviç Kuçmanı seçdik. Hesab edirəm ki, bu, düzgün qərardır və siz də bunu yaddan çıxarmamalısınız. Əlbəttə, siz hələ təzə-təzə möhkəmlənirsiniz. Mən MDB-nin iclasında dedim ki, Vladimir Vladimiroviç MDB-ni möhkəmlətdi, birləşdirdi və buna görə də indi başqası rəhbərlik edə bilər. Burada da məsələyə təxminən belə yanaşmaq lazımdır. Görünür, siz onu çoxdankı nazir kimi seçmisiniz. Lakin bununla belə, rotasiya prinsipində əlifba sırası əsas götürülür. Elə əlifbaya görə də Azərbaycan birinci yerdədir. Deməli, siz prinsipi pozmamısınız. Əlbəttə, mən özüm MDB-yə başçılıq etmək iddiasında deyiləm və əgər sabah hətta əlifba prinsipi ilə mənə MDB-nin sədri olmaq təklif edilsə, bunun lazım olub-olmadığını fikirləşəcəyəm. Belə məsuliyyəti öz üzərinə götürmək çox ciddi işdir. Bu məsələdə sizə «afərin» demək olar. Siz əlifbaya riayət edirsiniz, ona görə də sizə irad tutmaq olmaz. Əlifbanın növbəti hərfini tətbiq etmək daha çətin olacaqdır.

**Muxtar Gül-Məhəmməd** (*Qazaxıstanın Mədəniyyət, Informasiya və Ictimai Həmrəylik naziri*): Cənab Prezident, məlumat verərək bildirim ki, fevralın 5-də daha bir tədbir nəzərdə tutulmuşdur: bu görüşdə türkdilli ölkələrin, o cümlədən 6 müstəqil dövlətin və Rusiya Federasiyasının subyekti olan 6 türkdilli ölkənin mədəniyyət nazirləri iştirak edəcəklər. Orada da bizim liderimiz Azərbaycanın Mədəniyyət naziri olacaqdır. Həqiqətən, TÜRKSOY-un yaradılması təşəbbüsü Polad Bülbüloğluna məxsusdur. Bu gün biz fikir mübadiləsi apardıq. Türkdilli xalqlar 200 milyon nəfərə çatır, Rusiyada türk

mədəniyyətinin, türkdilli sivilizasiyanın əhəmiyyəti böyükdür. Rusiya Federasiyasının bu barədə ayrıca planları vardır və biz də onların həyata keçirilməsində fəal iştirak edəcəyik. Buna görə də təkcə mədəniyyətin inkişafına deyil, həm də bütün sosial sahənin inkişafına daim diqqət yetirdiyinizə görə Sizə ürəkdən təşəkkür edirik. Bu gün biz bunu öz gözlərimizlə gördük – filarmoniya bərpa olunur, muzeylər, teatrların hamısı fəaliyyət göstərir. Biz yaxşı bilirik ki, Birliyin bəzi ölkələrində teatrlar bağlanmışdı, incəsənətin tam bir sıra növləri sönmüşdü. Azərbaycanda isə yeni şəraitdə mədəniyyət də, təhsil də, bütün sosial sahələr çiçəklənir və dinamik inkişaf edir. Mən bu qayğıya və qonaqpərvərliyə görə, bizimlə görüşmək üçün vaxt tapdığınıza görə, həmkarlarım adından bir daha minnətdarlığımı bildirmək istəyirəm. Çox sağ olun, Sizə cansağlığı və xoş diləklər arzulayırıq. Qazaxıstanda Sizi çox sevirlər, Qazaxıstana hər gəlişinizi, Qazaxıstan dövlətinin başçısı Nursultan Nazarbayevin Sizə səmimi və dostcasına münasibətini yaxşı xatırlayırıq. Sizə uzun ömür, cansağlığı arzulayırıq.

**H e y d ə r  Ə l i y e v:** Maraqlıdır, Rusiya Federasiyasının iri türkdilli respublikaları olan Tatarıstan və Başqırdıstan TÜRKSOY-da iştirak edirlər?

**P o l a d  B ü l b ü l o ğ l u:** Bəli, bu respublikalar TÜRKSOY-da iştirak edirlər.

**H e y d ə r  Ə l i y e v**: Fevralın 6-da Opera və Balet Teatrında Qara Qarayevin xatirəsinə həsr edilmiş konsert olacaqdır, sizi bu konsertə dəvət edirəm. Bu, yaxşı simfonik konsert olacaqdır. Bilirəm ki, onu Rauf Abdullayev hazırlayır. Bu yaxınlarda mən Qara Qarayevin oğlunu qəbul etdim və mənə demişdilər ki, onun mənzili yoxdur. Mən sərəncam verdim ki, ona dərhal üçotaqlı mənzil ayrılsın. İndi o burada deyildir, Amerika Birləşmiş

Ştatlarına getmişdir. O mənə məlumat verdi ki, Rauf Abdullayev Qara Qarayevin tələbələrinin əsərlərindən ibarət bir neçə simfonik konsert hazırlayır. Bunu da həyata keçirmək lazımdır. Bu, silsilə konsertlər olmalıdır. Çünki bir var Qara Qarayevin özü, bir də var onun məktəbi, tələbələri. Onların sayı isə az deyildir. Müasir musiqiçilər nəsli nümayəndələrinin hamısı Qara Qarayevin tələbələridir. Söhbət simfonik musiqidən gedir. İndi konsertlər verin, filarmoniyada bərpa işləri qurtardıqdan sonra isə orada davam etdirərsiniz.

Hazırda filarmoniya yenidən qurulur. Bu, gözəl və qədim bina 100 il öncə tikilmişdir. Vaxt ötdükcə yararsız hala düşmüşdü. Əvvəl onu bərpa etməyə imkanımız yox idi, lakin mən vəsait axtarıb tapdım. Kimlərsə bizə hansısa faizlərlə kreditlər təklif edirdilər. Nə üçün? Biz bunun üçün öz büdcəmizdən vəsait ayırdıq. Düşünürəm ki, ilk konserti Mstislav Rostropoviç verəcəkdir. O bizim həmyerlimizdir. Hər dəfə buraya gələndə təəssüflənirdi ki, filarmoniya yoxdur. Vaxtilə o bu filarmoniyada konsertlər vermişdir və bizə irad tuturdu ki, nə üçün onu bərpa etmirik. O, filarmoniyanın bərpa olunduğundan xəbər tutanda sevindi və gəlməyi vəd etdi. Rostropoviçin idarəsi ilə simfonik konsert dünya miqyaslı hadisədir.

Sizlərdən mənim salamımı öz ölkələrinizin rəhbərlərinə yetirməyi xahiş edirəm.Sağ olun.

## TÜRKSOY TƏŞKİLATININ ÜZVÜ OLAN ÖLKƏLƏRİN MƏDƏNİYYƏT NAZİRLƏRİ DAİMİ ŞURASININ XIX TOPLANTISININ İŞTİRAKÇILARI İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*6 fevral 2003-cü il*

**H e y d ə r  Ə l i y e v:** Mən TÜRKSOY təşkilatinin yeni toplantısının iştirakçılarını salamlayıram və burada – Azərbaycanda hamınıza uğurlu fəaliyyət arzulayıram. Türkdilli dövlətlər birliyi əmələ gələndən sonra bizim təşkilatlar içərisində ən irəli getmiş qurumlardan biri TÜRKSOY-dur. TÜRKSOY hamını birləşdirir. Amma hansısa başqa bir təşkilatda hərə bir tərəfə çəkir. Ona görə biz sizin təşkilata çox diqqət yetirir, əhəmiyyət veririk. Biz dövlət başçıları olaraq, türkdilli dövlət başçılarının toplantılarında birinci növbədə mədəni əlaqələri inkişaf etdirmək məsələsini qoyuruq. Təbiidir, iqtisadi əməkdaşlığın, insani əlaqələrin inkişaf etdirilməsi məsələləri də vardır. Bunların hamısı vardır. Ancaq bunların hamısının kökündə mədəniyyət, dil, bizim adət-ənənələrimiz durur.

Bizi bir-birimizə bağlayan nədir? Dilimizin kökü. Düzdür, bəziləri bir-birini başa düşmür. Amma biz dilimizə görə eyni kökdən gəlmiş xalqlarıq.

İkincisi, bizim müştərək mədəniyyətimiz, ənənələrimiz, müştərək mənəvi dəyərlərimizdir. Bunlar əsrlər boyu türkdilli

xalqları bir-biri ilə bağlayıb, birləşdirib, yaxınlaşdırıbdır. Sonra rus imperatorluğu, ondan sonra isə sovet imperatorluğu dövründə biz bunları itirmədik, ancaq bir-birimizdən bir qədər aralandıq. Doğrudur, tamam aralanmadıq, biz Türkmənistan nümayəndələri ilə hər il burada görüşürdük, yarış keçirirdik. Türkmənistan pambıqçıları Azərbaycana gəlirdilər, bizim pambıqçılar isə Türkmənistana gedirdilər. Yəni bunlar var idi. Amma oturub danışmırdıq ki, axı bizim dilimizin bir kökü vardır. Bizim yaxın adət-ənənələrimiz vardır.

Bu barədə danışmırdıq, çünki onda sovet ideologiyası, bir də ümumi sovet xalqı vardı. Get-gedə millətlər əriyib gedirdi, olacaqdı ümumi sovet xalqı. Sovet xalqı. Bunlar da hamısı – Elçin, Polad, Fatma xanım... sovet xalqının adamlarıdır. O qədər «sovet xalqı» olublar ki, bəzən öz dillərini də yaddan çıxarıblar.

Amma imperatorluq dağıldı, biz müstəqil olduq. Onda anladıq ki, bizim hələ ulu babalarımız vaxtilə həmişə bir yerdə olublar, bir kökdən gəliblər, bir yerdə vuruşublar. Bunların eyni adət-ənənələri, mahnıları, rəqsləri var. Polad yaxşı bilir, bunlar hamısı eyni şeydir. Ona görə də Türkiyə Cümhuriyyətinin təşəbbüsü ilə, xüsusən mərhum Turqut Özalın və doqquzuncu prezident Süleyman Dəmirəlin təşəbbüsü ilə Türkdilli dövlətlər birliyi yarandı. Son dövrdə hər il müxtəlif ölkələrdə Türkdilli dövlətlər birliyinə daxil olan dövlət başçılarının görüşünü keçiririk. Çalışırıq, iqtisadiyyatımızı irəli aparırıq. Amma mədəniyyət sahəsində sizin işləriniz bizimkindən də yaxşı gedir. Ona görə də mən sizi təbrik edirəm. Çox məmnunam ki, buraya toplaşmısınız. İndi Türkiyə, Qazaxıstan, Türkmənistan, Qırğızıstan, Qaqauziya, Tatarıstan, Başqırdıstan nümayəndələri buradadırlar. Mən çox maraqlanırdım ki, bu toplantıya Başqırdıstanın, Tatarıstanın nümayəndələri gələcək, ya yox.

Çünki bunlar böyük respublikalardır. İndi günah onlarda deyil ki, bu respublikalar müstəqil ola bilməyiblər. Onların günahı yoxdur. Öz əhalisinin sayına görə – məsələn, Tatarıstanda deyəsən 4 milyon əhali var – böyük respublikalardır.

Özü də güclü iqtisadiyyatı, hər şeyi var. Bu respublika müstəqil ola bilər. Eləcə də Başqırdıstan, elədirmi? Amma, o ki, qaldı Tıva, Xakasiya, Saxa (Yakutiya), Altay... Gəlin açıq danışaq. Heç kim – o cümlədən bəlkə mən də – bilmirdi ki, tıvalar türk kökündən gələn bir xalqdır. Düzdür, cənab Elçin? O bizim böyük yazıçılarımızdan biridir. Bunu bilmirdik. Çünki «sovet xalqı» fikri beynimizə girmişdi, bunu bilmirdik.

Mən Moskvada Siyasi Büroda çalışanda, – SSRİ Nazirlər Soveti sədrinin birinci müavini idim – tıvalar mənim yanıma çox gələrdilər. Bir-iki dəfə söhbət etdik, dedik, axı bizim kökümüz birdir. Ona görə də bunlar daha çox mənim yanıma gəlirdilər. Bunlara Krasnoyarskdan dəmir yolu çəkmək lazım idi. O vaxt Tıvanın rəhbərləri mənim yanımda tez-tez olurdular.

Orada avtomobil yolları çəkmək çətin idi. Dəmir yolu istəyirdilər. Mən onlara kömək edir və qərarlar qəbul edirdim. Amma kimlərsə o tərəfdən, bu tərəfdən mane olurdu.

Mən Altayda oldum. Orada məni Rusiya Federasiyası Ali Sovetinin deputatı seçmişdilər. SSRİ Ali Sovetinin Azərbaycandan deputatı seçilmişdim. Altay bizim babalarımızın qədim məskənidir. Mən ora getdim. O vaxt Dağlıq Altay adı altında tanınan ərazi indi Altay Respublikası adlanır.

Mən o vaxt orada olarkən onlara deyirdim ki, siz türksünüz, onlar deyirdilər ki, biz dağlıq altaylılarıq. Amma onların mənə olan münasibətini görürdüm. Onlar isə mənimlə «qohum» olduqlarını boyunlarına almırdılar. Amma indi qohum olmuşuq. Mən istədim ki, sizin bu görüşünüz bir qədər şux keçsin. İndi

görün nə qədər türkdilli diyar var. Xakasiya, Tıva, Altay, Saxa... Saxadan da tez-tez mənim yanıma gələnlər olurdu. Orada yaşayanların qəribə familiyaları var. Məsələn, Nikolay...

Onların ad-familiyaları ruslarda olduğu kimidir. Rəhbərləri vardı, adı Nikolay idi, mənim yanıma gəlirdi. Onun da problemləri vardı. Berkatitdən dəmir yolu çəkdirmək istəyirdi. Biz də bunu istəyirdik. Çünki orada çoxlu daş-kömür və dəmir filizi yataqları vardı. Lakin dəmir yolu çəkmək üçün vəsait yox idi. Amma mənim yanıma gəlib-gedirdilər. İndi onlardan kimin həyatda olub-olmadığını bilmirəm.

Mən hələ 1948–1950-ci illərdə Leninqradda oxumuşam. Xakasiyadan bir nəfər mənimlə oxuyurdu. Mən o vaxt Xa- kasiyanı tanımırdım. Ondan soruşdum ki, Xakasiyada yaşayanlar kimlərdir, hansı millətdəndir, müsəlmandırlarmı? Türkdürlərmi? O özü bunu izah edə bilmirdi.

**E l ç i n  Ə f ə n d i y e v:** Onlar şamandırlar.

**H e y d ə r  Ə l i y e v:** Şaman olsalar da, türkdürlər. Türklər də şamandır.

Mən sizin təşkilatın işindən çox razıyam. Təəssüf edirəm ki, bəzi cümhuriyyətlərdən gələn yoxdur. Təkcə Türkmənistan nümayəndəsinin gəlməsi böyük bayramdır. Yaxşı bilirəm ki, Türkmənistan nümayəndələri çox yerə getmirlər. Amma əgər Türkmənistan nümayəndəsi Azərbaycana gəlibsə, bu mənim dostum, qardaşım, Türkmənbaşı Saparmurad Niyazovun Azərbaycan–Türkmənistan dostluğuna olan sədaqətidir. Doğrudurmu? Xahiş edirəm mənim salamımı, hörmətimi ona çatdırın. Deyin ki, orada baş vermiş hadisələrdən mən çox sıxıldım. Ancaq yaxşı ki, o bu vəziyyətdən çıxa bildi. Onun gücü var. Oradakı bəzi adamlar başa düşmürlər ki, belə bir insanı hakimiyyətdən devirmək olmaz. Bizim dostumuz Türkmənbaşı

həmişə sayıqdır, ikincisi də, öz rəqiblərindən daha böyük qüvvəyə malikdir. Bütün xalq arxasındadır. Arxasında xalq duranda, ona heç nə etmək olmaz.

Məsələn, 1994-cü ildə burada məni hakimiyyətdən salmaq istədilər. Özü də cəmi bir il idi ki, mən hakimiyyətə gəlmişdim. 1993-cü ildə burada Elçibəy hökumətini yıxırdılar. Elçibəy hökuməti məni Naxçıvandan buraya dəvət etdi ki, gəlib onları xilas edim. Mən buraya gəldim, onlar qorxub hamısı qaçıb getdilər. Sonra Gəncədən Surət Hüseynov adlı bir polkovnik bura hücum etdi. Onun hücumunu dayandırdıq. Bakıya gəldi, dedim ki, nə istəyirsən? Dedi ki, prezident olacağam. Dedim ki, sən prezident ola bilməzsən. Mənə dedi ki, yox, olacağam. Dedim ki, xalq kimi seçsə, o da olsun. Xalq məni seçdi. Amma bir ildən sonra Surət Hüseynov yenə də dözmədi, burada çevriliş etməyə çalışdı. Mənim də silahım yox idi, ordu onun əlində idi. Mən bu otaqdan gecə saat 10-da xalqa müraciət etdim. İki saatdan sonra bu meydana 500 min insan toplaşdı. Onların içərisində qadınlar da, uşaqlar da, cavanlar, yaşlılar da vardı. Bunun, xalqın qarşısında heç kəs dura bilməzdi. Mən heç nə etmədim. Xalq onun cəzasını verdi.

İndi Türkmənbaşının da arxasında xalq dayanır. Ona görə də kimin ki, arxasında xalq var, ona heç nə etmək olmaz. Mən çox məmnunam ki, sən Türkmənistandan bura gəlmisən. Tatarıstan prezidenti Mintimer Şaymiyev, Başqırdıstan prezidenti Murtaza Rəhimov da mənim dostumdur.

Şaymiyev Bakıda olub. Amma Rəhimov olmayıbdır. Mən bir neçə dəfə dəvət etmişəm ki, gəlsin, görüşək. Mintimer Şaymiyev bütün dünyada məşhur adamdır.

**Polad Bülbüloğlu** (*Azərbaycanın Mədəniyyət naziri, TÜRKSOY-un Baş direktoru*): Hörmətli Prezidentimiz, mən bütün

həmkarlarım adından Sizə dərin təşəkkürümüzü bildirmək istəyirəm. Biz öz danışıqlarımızda dəfələrlə demişik ki, türkdilli ölkələrin başçıları arasında TÜRKSOY-a Sizin xüsusi qayğınız vardır. Siz yeganə ölkə rəhbərisiniz ki, TÜRKSOY-un Bakıda keçirilmiş toplantısında çıxış etdiniz. Sizin nitqiniz proqram mahiyyətli idi və TÜRKSOY-un bütün sənədlərində bizim üçün proqram xarakterini indiyədək saxlayır.

Keçən il TÜRKSOY-un 10 illik yubileyində Siz bizə təbrik məktubu göndərmisiniz. Həmin məktubda da bizim fəaliyyətimizi çox yüksək dəyərləndirmisiniz. Biz buna görə də Sizə dərin təşəkkürümüzü bildiririk.

Mən Sizə məlumat vermək istəyirəm ki, biz bu gün Bakıda keçirdiyimiz XIX toplantıda Altay və Saxa (Yakutiya) respublikalarını TÜRKSOY-a üzv qəbul etmişik. Yəni bizim təşkilatımız bir qədər də genişlənibdir. İndi 14 ölkəni əhatə edir. Bu gün Sizin qəbulunuzda 12 ölkənin mədəniyyət nazirləri və Qırğızıstandan nazir müavini var. Yəni Özbəkistandan savayı, hamı burada iştirak edir. Onlar daha çox Sizinlə görüşmək üçün buraya gəliblər. Mən Sizə dərin təşəkkürümü bildirirəm ki, vaxtınızın çox məhdud olmasına baxmayaraq, bizi qəbul etmisiniz.

Mən Sizə dərin təşəkkürümü bildirirəm və Siz dediyiniz kimi, Türkiyə bu qurumun yaradılmasının təşəbbüsçüsü və depozitar ölkə olduğuna görə, xahiş edərdim ki, bu ölkənin Mədəniyyət naziri Hüseyn Çelik də öz fikirlərini söyləsin.

**Hüseyn Çelik** (*Türkiyənin Mədəniyyət naziri*): Möhtərəm Cümhur başqanımız, öncə Sizə ən dərin hörmətim və ehtiramımı bildirirəm. Mən Türkiyədən buraya gələrkən hörmətli Baş nazirimizlə və Rəcəb Tayyib Ərdoğanla görüşdüm. Hörmətli Baş nazirimiz Abdullah Gül və partiyamızın sədri Rəcəb Tayyib

Ərdoğan Sizə onların ən dərin salamlarını və ehtiramlarını yetirməyi xahiş etdilər.

TÜRKSOY-un X1X toplantısının keçirilməsi ilə əlaqədar biz Bakıdayıq. Bu mənim Bakıya ikinci səfərimdir. Bildiyiniz kimi, bundan əvvəl mən hörmətli Ərdoğanla birlikdə buraya gəlmişdim. Mədəniyyət naziri təyin olunduqdan sonra Bakıya ilk rəsmi səfərimi Azərbaycana, Bakıya etmişəm.

Bu səfərimdən fövqəladə dərəcədə məmnun olduğumu Zati-alinizə bildirmək istəyirəm.

Səfər zamanı mən Bakıdakı türk məktəblərində olmaq fürsəti əldə etdim. Qafqaz Universitetində, Anadolu liseyində görüşlərim oldu. Bu təhsil ocaqlarındakı təmsilçilərimizin, müəllimlərimizin Zati-alinizə böyük minnətdarlığı var. Siz burada onlara qucağınızı açmısınız, onları himayə etmisiniz. Mən onların adından da Zati-alinizə təşəkkür edirəm. «Hyatt Recensi–Naxçıvan» otelində 200-dək türk iş adamı ilə birlikdə şam etdik, onların da adından Sizə təşəkkür etmək istəyirəm. Siz onlara burada həqiqətən qol-qanad vermisiniz. Əminəm ki, ölkələrimiz arasındakı həm iqtisadi, həm də mədəni əlaqələr Sizin himayənizlə və bizim səyimizlə daha da inkişaf edəcəkdir. Bu sahədə bizim üzərimizə düşən vəzifələri yerinə yetirməyə hazırıq. Bizi burada qəbul etdiniz. Baş nazirin müavini Elçin Əfəndiyev, Mədəniyyət naziri Polad Bülbüloğlu başda olmaqla, burada bizə çox böyük qonaqpərvərlik göstərdilər. Bununla bağlı öz minnətdarlığımızı bildirmək istəyirəm.

**Muxtar Gül-Məhəmməd** (*Qazaxıstan Respublikasının Mədəniyyət, Informasiya və Ictimai Həmrəylik naziri*): Hörmətli Heydər Əlirza oğlu, mən həmkarlarım adından Sizə təşəkkür etmək istəyirəm. Azərbaycanın prezidenti və türk dünyasının böyük şəxsiyyəti olaraq Siz TÜRKSOY yarandığı ilk

gündən ona böyük kömək göstərmiş, türkdilli ölkələrin mədəni əlaqələrinin inkişafı sahəsində çox böyük işlər görmüsünüz. Yer üzündə türkdilli xalqların sayı 200 milyon nəfərə yaxındır. Sizin İstanbul sammitində dediyiniz sözlər mənim yaxşı yadımdadır: vaxtilə SSRİ-nin tərkibində 5 türkdilli respublika olmuşdur, indi isə 6 müstəqil dövlətik. Bizim ulu babalarımız Orxon-Yenisey ərazilərindən tutmuş Xəzərə, Qaqauziyaya qədər ərazidə yaşamışlar.

Biz bu gün Tatarıstanın Mədəniyyət naziri ilə birlikdə Bakı Dövlət Universitetində olduq. Oradakı muzeydə çox gözəl eksponatlar toplanmışdı.

Orada bir qəribə eksponat da vardı. Bu Sizin orta məktəbdə oxuyarkən aldığınız attestat idi. Attestatdakı bütün qiymətlər «əla»dır. Sözümün sonunda dostunuz, qardaşınız, Qazaxıstan prezidenti Nursultan Nazarbayevin Sizə səmimi salamlarını çatdırıram. O Sizin haqqınızda çox dəyərli sözlər söyləyir. Deyir ki, Azərbaycan xalqı xoşbəxtdir ki, onun Heydər Əliyev kimi prezidenti var.

**H e y d ə r  Ə l i y e v:** Çox sağ olun. Nursultan Nazarbayev mənim çox köhnə dostumdur. 30 ildir, gənc vaxtlarından mən onu tanıyıram. Onu çox sevirəm. Bizim münasibətlərimiz çox yaxşıdır. Xəzər dənizində də biz birgə çox işlər görürük. Sən bunu yaxşı bilirsən. Mənim ona salamımı yetir, ən xoş arzularımı çatdır.

**X ə l ə f  I ş m u r a t o v** (*Başqırdıstan Respublikasının Mədəniyyət və Milli Siyasət naziri*): Hörmətli Heydər Əlirza oğlu, Başqırdıstan prezidenti Murtaza Rəhimov səmimi salamlarını Sizə yetirməyi tapşırmışdır. Başqırdıstan neftçiləri ölkəmizdəki neft yataqlarının mənimsənilməsində Azərbaycan neftçilərinin vaxtilə onlara göstərdikləri köməyi yüksək dəyərləndirirlər. İl

yarım bundan əvvəl burada Başqırdıstan mədəniyyət və incəsənət günlərini keçirərkən biz çox mehribanlıqla qarşılandıq. İndi, il yarım ötəndən sonra Bakının yaxşı mənada çox dəyişdiyini görürük. Azərbaycanın nailiyyətləri bizi ürəkdən sevindirir. TÜRKSOY beynəlxalq təşkilatı Rusiyanın türkdilli xalqlarının həyatında çox böyük rol oynayır. TÜRKSOY-un fəaliyyətini dəstəklədiyinizə görə biz Sizə çox minnətdarıq. Bizi mehribanlıqla qarşıladığınıza görə öz həmkarlarım adından Sizə çox sağ olun demək istəyirəm. Hər dəfə Azərbaycana gələrkən biz özümüzü burada öz evimizdə olduğu kimi hiss edirik.

**H e y d ə r Ə l i y e v:** Sağ olun. Mən sizin həmyerliniz Ziya Nuriyeviçlə bir yerdə işləmişəm. O indi necədir?

**X ə l ə f I ş m u r a t o v:** O indi Moskvada yaşayır.

**H e y d ə r Ə l i y e v:** Başqırdıstana gəlib-gedir?

**X ə l ə f I ş m u r a t o v:** Bəli.

**H e y d ə r Ə l i y e v:** Özünü necə hiss edir? İmkan düşəndə, mənim salamımı yetirin.

**X ə l ə f I ş m u r a t o v:** Baş üstə. Mən qayıdanda Sizin dəvətinizi Başqırdıstan prezidenti Murtaza Rəhimova çatdıracağam.

**I l d u s T a r x a n o v** (*Tatarıstan Respublikasının Mədəniyyət naziri):* Möhtərəm Heydər Əlirza oğlu, mən Tatarıstan prezidenti Mintimer Şaymiyevin Sizə çoxlu salamlarını gətirmişəm. Türk dünyasında, türkdilli xalqlar arasında birlik və əməkdaşlığın möhkəmləndirilməsi işində Azərbaycan Respublikasının dövlət başçısı kimi, biz Sizin xidmətlərinizi yüksək dəyərləndiririk və Sizə təşəkkürümüzü bildiririk. Mən Tuqan ölkəsindən, tatar xalqından böyük Azərbaycan xalqına çoxlu salamlar gətirmişəm.

**H e y d ə r   Ə l i y e v:** Sağ olun. Mən Tatarıstanda da olmuşam. Moskvada işləyərkən oraya gəlmişdim. O vaxt mənə çox yerlərə getməyi məsləhət görürdülər. Amma mən elə yerlərə gedirdim ki, görüm oralarda nə var, nəyi öyrənəcəyəm. Tatarıstana gəlmişdim, orada oldum. Mintimer Şaymiyevlə, başqaları ilə də çoxlu görüşlər keçirdim. Məndən salamlar söyləyin.

**I l d u s   T a r x a n o v:** Türk dünyasının, türk xalqlarının böyüklüyü ondadır ki, bizim müştərək mədəniyyətimiz, tariximiz, dilimiz var. Ona görə də biz birlikdə daha güclü olacağıq.

**H e y d ə r   Ə l i y e v:** Düz deyirsiniz. Siz bunu yaxşı bilirsiniz. Ancaq mən bu fürsətdən istifadə edərək bir də demək istəyirəm ki, milləti yaşatmaq və millətin indiyə qədər olduğu kimi əzilməsi imkanlarının qarşısını gələcəkdə almaq üçün dilimizi qorumalıyıq. İndi türkdilli millətlərin dillərində bir qədər fərq var. Amma bu dillərin kökü birdir. Mən belə düşünmürəm ki, biz gərək dilimizi tatar dilinə oxşadaq. Yaxud da ki, qırğızlar dillərini bizim dilə oxşatsınlar. Yox.

Əsrlər boyu dillərimiz belə yaranıbdır. Amma eyni zamanda dilin işlənməsi mümkün olmadığına görə, bizim dillərimiz lazımi qədər inkişaf edə bilməyibdir. Ona görə də mən Azərbaycan dili haqqında Fərman verdim. Azərbaycanda latın əlifbasına keçmək barədə Fərman verdim və onun yerinə yetirilməsini təmin etdim. Azərbaycan dilinin bundan sonra da inkişaf etməsi mənim həyatımın ən birinci vəzifəsidir. Çünki millətin dilini əlindən alsan, onu öz dilindən məhrum etsən, o millət çox şey itirər. Amma millətin öz doğma dili, ana dili olanda, onu heç nə dəyişdirə bilməz.

Allaha şükürlər olsun, bizim Azərbaycan dili çox mükəmməlləşib, çox genişlənibdir. Dilimizin çox böyük lüğət ehtiyatı

var. Bizim Azərbaycan dili şeir dilidir. Yadımdadır, mən bir-iki dəfə ya burada, ya da Türkiyədə toplantılarda nitq söyləyəndən sonra dostum Süleyman Dəmirəl mənə deyirdi ki, sən şeir oxudun. Deyirdim ki, yox, mən nitq söylədim. O deyirdi ki, bilirəm, amma Azərbaycan dili o qədər şeir dilidir ki, bəzən fərqinə varmaq olmur ki, nitq söyləyirsən, yaxud şeir deyirsən.

Eləcə də Anadolu türk dili. Anadolu türk dili də vaxtilə çox əzablar çəkibdir. Osmanlı imperatorluğunda, sarayda fars dili, ərəb dili işlənirdi. Türkiyədə türk dilinin inkişaf etdirilməsi böyük Atatürkün adı ilə bağlıdır. Bugünkü türk dilinin yaranması böyük Atatürkün xidmətləridir. Bilmirəm siz bunu demisiniz, yoxsa yox, mən Azərbaycanda Atatürk Mərkəzi yaratmışam. Çünki Atatürk təkcə Anadolu türklərinin deyil, o bizim hamımızındır. Mən Anadolu türk dilinin nə qədər ağır vəziyyətdə olduğunu bilirdim. Əgər Atatürk dil haqqında qərarlar qəbul etməsəydi, bu gün belə gözəl Anadolu türkcəsi olmazdı. Ona görə də dil, dil, bir də dil... Dili inkişaf etdirməliyik. Mən demişəm və bu gün də deyirəm. Bizim gənclərə deyirəm ki, rus dilini yaxşı bilin, ingilis, fars, ərəb, fransız dillərini də yaxşı bilin. Amma bunların hamısından yaxşı öz Azərbaycan dilimizi öyrənin. Əgər bunu bilməsən, sən tam azərbaycanlı olmursan. Elədir, yoxsa yox? Mən bunu sizə ona görə deyirəm ki, dili inkişaf etdirmək TÜRKSOY-un əsas vəzifələrindən biridir. Dilimizi bir-birinə bağlamaq, yaxud da ki, bənzətmək lazım deyildir. Məsələn, türkmənlərin danışığının bir qismini mən başa düşürəm. Amma bir qismini başa düşmürəm. Eləcə də siz. Elədirmi? Türkmən və Azərbaycan dilləri bir-birinə daha da yaxındır. Türk dili və Azərbaycan dili eyni şeydir.

**Hüseyn Çelik:** Sizin danışdıqlarınızdan başa düşmədiyim bir şey yoxdur.

**H e y d ə r   Ə l i y e v:** Burada fərq yoxdur. Hətta əgər Türkiyədə bir qədər yaşlı adamları götürsəniz, onlar məni daha yaxşı anlayarlar. Mən bunu havadan götürməmişəm, Türkiyədə görmüşəm. Çünki onlar əsl türk dilində danışırlar. İndi İstanbul ləhcəsinə bir qədər fransız sözləri salıblar, bir az da sözü əyirlər...

**H ü s e y n   Ç e l i k:** Bir az da uydururlar...

**H e y d ə r   Ə l i ye v:** Uydururlar, doğru deyirsən. Yaxşı ki, Türkiyənin belə Mədəniyyət naziri var.

**P o l a d   B ü l b ü l o ğ l u**: Türkiyənin Mədəniyyət naziri dil və ədəbiyyat müəllimidir.

**H e y d ə r   Ə l i y e v:** Mənim dostumdur ki. Görürsən, mən elə bu mövzudan danışıram. Mən dil müəllimi deyiləm. Ədəbiyyat müəllimi də deyiləm. Mən siyasət adamıyam. Ancaq dilsiz, ədəbiyyatsız, şeirsiz insan yaşaya bilməz.

İndi Avropada şeir, ədəbiyyat yoxdur. Vaxtilə böyük Şekspir, başqaları olublar. Biz onları oxuyurduq, heyran qalırdıq. İndi də biz burada Şekspirin əsərlərini tamaşaya qoyuruq. Bu yaxınlarda bizim Azərbaycan teatrında «Hamlet» pyesini tamaşaya qoymuşdular. Mən getmişdim. Yaxınlarda, deyəsən, bir başqasını hazırlayacaqlar. Elədirmi? Bunlar klassik ədəbiyyatdır. Amma indi Avropada belə ədəbiyyat yoxdur. Bizim keçmişdə də zəngin ədəbiyyatımız olubdur. Amma bu gün də, sabah da olmalıdır. İndi çoxları başını iqtisadiyyata qatır, fikirləşir ki, burada və ya orada nə qədər pul qazanacağam. Vallah, məni həyatda para heç vaxt maraqlandırmayıbdır. Amma hər bir kitab, ya bizim Azərbaycan şairinin, yazıçılarının kitabları, yaxud da rus ədiblərinin kitabları həmişə maraqlandırıbdır. Mən rus ədəbiyyatını da yaxşı bilirəm. Yaxud Avropa ədəbiyyatı... Bunları da yaxşı bilirəm. Yaxud fars ədəbiyyatı... Mən

Firdovsinin «Şahnamə»sini gənc vaxtımda oxumuşam. «Şahnamə»ni bilirsiniz də. Məşhəddə Əbdülqasım Firdovsinin qəbrini də ziyarət etmişəm. Mən bunların hamısını bilirəm. Amma özümüzünküləri hamısından daha çox bilirəm. Ona görə də bu işdə çalışın. Bu mənim sizə tövsiyələrimdir. Özünüz bilərsiniz.

**H ü s e y n  Ç e l i k:** Cənab Prezident, Sizə çox təşəkkür edirik, minnətdarıq.

**P o l a d  B ü l b ü l o ğ l u:** Cənab Prezident, TÜRKSOY-un ənənəsi var. Biz hamımızın adından Sizə hədiyyə etmək istəyirik. Üzərində də yazılıb, tarixi də göstərilib, bu, əl işidir.

**H e y d ə r  Ə l i y e v:** Bunun adı nədir?

**P o l a d  B ü l b ü l o ğ l u:** Kuzədir. Üzərində də Osmanlı gerbi həkk olunubdur. Cənab Prezident, bir də biz Azərbaycan qaçqınları ilə bağlı kitab hazırlamışıq, müəllifi türk foto-rəssamı Yavuz Alatandır. TÜRKSOY bunu çap edibdir. Ötən dəfə o, Azərbaycana gələrkən Sabirabad, Saatlı bölgəsində olmuşdur. Kitab türk və rus dillərində buraxılıbdır. İndi də ingilis və alman dillərində çapı hazırlanır. Kitabı Axundov adına Dövlət Kitabxanasına təqdim etmişik.

Bir də məlumat üçün bildirmək istəyirəm ki, Ankaradakı səfirliyimizin yaxınlığında bizə yer ayırmaq istəyirlər. Binanın layihəsinin müəllifi Azərbaycan memarı Cəfər Qiyasidir. Türkiyənin hörmətli Mədəniyyət naziri ilə də danışmışıq. İki ildən sonra Ankarada TÜRKSOY-un binası ucaldılacaqdır.

**H e y d ə r  Ə l i y e v:** Bu işi Türkiyə görəcəkdir?

**P o l a d  B ü l b ü l o ğ l u:** Maliyyə imkanlarımız yoxdur, Türkiyə bizə kömək edəcəkdir. Layihəsini hazırlayıb bu vəziyyətə gətirmişik.

# AZƏRBAYCAN HƏMKARLAR İTTİFAQLARI KONFEDERASİYASININ II QURULTAYINDA İŞTİRAK EDƏN XARİCİ HƏMKARLAR İTTİFAQI TƏŞKİLATLARININ NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*6 fevral 2003-cü il*

**H e y d ə r   Ə l i y e v:** Hörmətli qonaqlar, Sizi səmimi-qəlbdən salamlayıram. Azərbaycanın ictimai-siyasi həyatında həmkarlar ittifaqları böyük gücə malikdir, ölkəmizin bir milyon yarım vətəndaşı bu təşkilatda birləşmişdir. Bu da təbiidir. Həmkarlar ittifaqları elə bir təşkilatdır ki, o, bütün formasiyalarda – kapitalizm formasiyasında da, sosializm formasiyasında da, digər formasiyalarda da mövcud olmuşdur. Doğrudur, onlar müxtəlif ölkələrdə, hər halda, müxtəlif imkanlara və hüquqlara malik idi. Məsələn, keçmiş Sovetlər İttifaqında həmkarlar ittifaqları güclü təşkilat idi, Kommunist Partiyasından sonra onun böyük səlahiyyəti vardı. Lakin bəzi kapitalist ölkələrində də onlar elə güclü idilər ki, bunu istənilən hökumətə nümayiş etdirirdilər. Biz həmkarlar ittifaqı hərəkatının bütün inkişaf mərhələlərini keçmişik. Məsələn, mən çox şey görmüşəm. İndi bu təşkilatlar, demək olar, bütün ölkələrdə mövcuddur, eyni prinsiplər əsasında fəaliyyət göstərirlər, bunlar sizə yaxşı məlumdur. Mən onları sizə izah etməyəcəyəm, əksinə,

bu barədə, xüsusən də, son illər baş verən hadisələr barədə siz məni məlumatlandıra bilərsiniz. Deyə bilərəm ki, Azərbaycanda həmkarlar ittifaqı hərəkatı, həmkarlar ittifaqı təşkilatları və Həmkarlar İttifaqı Konfederasiyası böyük nüfuza və dəstəyə, geniş şəbəkəyə malikdir. Ona görə də indi heç kim həmkarlar ittifaqları kimi belə geniş miqyaslı qurultay keçirə bilməz.

Kommunist Partiyası daha yoxdur, ölkədə isə 40–50 partiya mövcuddur, lakin onların üzvlərinin sayı azdır, buna görə də onlar öz qurultaylarının kəmiyyəti və miqyası baxımından həmkarlar ittifaqları ilə müqayisə edilə bilməzlər. Nəhayət, əmək adamının mənafelərinin qorunması baxımından dünyada həmkarlar ittifaqlarının eyni prinsipləri və vəzifələri təşəkkül tapmışdır və bütün bunlar onlara böyük qüc verir. Bununla yanaşı, müxtəlif ölkələrdə bu təşkilatların təcrübəsi bir-birindən fərqlənir. Odur ki, istər konfranslarda, istərsə də qurultaylarda olsun, fərqi yoxdur, bir çox ölkələrin həmkarlar ittifaqı hərəkatı nümayəndələrinin görüşməsi faydalıdır. Mən bunu alqışlayıram. Hesab edirəm ki, Azərbaycan həmkarlar ittifaqlarının qurultayı bizim üçün, yəni ictimaiyyətimiz üçün  böyük hadisədir.

Mən qurultay çərçivəsində görülmüş işi yüksək qiymətləndirirəm və ümidvaram ki, qonaqların hər biri özü ilə xoş təəssürat aparacaqdır. Mən əmək fəaliyyətimə başladığım vaxtdan həmkarlar ittifaqının üzvü idim, doğrudur, bu çox çəkmədi. Ona görə ki, sonralar uzun müddət hərbi xidmətdə oldum, orada isə həmkarlar ittifaqı yoxdur. Sonra mən partiya, dövlət işinə keçirildim və o vaxtdan bəri həmkarlar ittifaqının səliqəli üzvüyəm, üzvlük haqqını ödəyirəm, borcum yoxdur.

**J o z e   O l i v e y r a** (*Beynəlxalq Azad Həmkarlar İttifaqları Konfederasiyası Baş katibinin müavini*): Cənab Prezident, dünya həmkarlar ittifaqı hərəkatında Azərbaycanın rolunu

vurğulamaq istəyirəm. Bu qurultayda iştirak etmək mənim üçün böyük şərəf və böyük sevincdir. Burada mən dünyanın müxtəlif ölkələrini təmsil edən dostlarımın və qardaşlarımın arasındayam. Biz öz təşkilatımızda Azərbaycanda həmkarlar ittifaqı hərəkatına çox böyük əhəmiyyət veririk və buraya da məhz buna görə gəlmişik. Nümayəndələri qurultaya gələn həmkarlar ittifaqı təşkilatlarının 25-i Şərqi Avropaya aiddir. Azərbaycanda həmkarlar ittifaqlarına öz işini bilən bir insan – Səttar Mehbalıyev başçılıq edir. Deməliyəm ki, qloballaşma dövründə həmkarlar ittifaqlarının rolu xüsusilə artır, çünki sosial dialoq indi bizim üçün çox vacibdir. Sosial dialoq bu region üçün də tərəqqi və sülh qədər vacibdir. Buna nail olmaq üçün isə sosial dialoq gərəkdir. Şadıq ki, bu məsələlərlə yenidən konfederasiyanın sədri, həmkarlar ittifaqı hərəkatının lideri seçilən Səttar Mehbalıyev məşğul olacaqdır. Biz ona etimad edirik, inanırıq. Düşünürəm ki, ölkənizin müdrik rəhbəri kimi, Siz də sosial dialoqun rolunu yüksək qiymətləndirirsiniz.

**M i x a i l   Ş m a k o v** (*Rusiya Azad Həmkarlar İttifaqları Federasiyasının prezidenti*): Cənab Prezident, mən Rusiyanın həmkarlar ittifaqları adından Sizi böyük hörmət və ehtiramla salamlayıram. Qurultayda Səttar Mehbalıyevin yekdilliklə Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri seçilməsi Azərbaycanda çox möhkəm həmkarlar ittifaqı təşkilatı olduğunu göstərir. Biz bunu böyük məmnunluqla qeyd etdik və sözün yaxşı mənasında həsəd aparırıq ki, burada həmkarlar ittifaqı hərəkatında ziddiyyətlər regionumuzun digər ölkələrindəkinə nisbətən çox azdır.

Bu gün daha bir əlamətdar hadisə baş verdi. Beynəlxalq Azad Həmkarlar İttifaqları Konfederasiyasına daxil olan həmkarlar ittifaqları və həmkarlar ittifaqı birlikləri özünün bugünkü

müşavirəsində MDB və Mərkəzi Avropa ölkələri həmkarlar ittifaqlarının informasiya-məşvərət şəbəkəsini yaratmağı qərara aldılar və Səttar Mehbalıyevi onun ilk sədri seçdilər. Bu da beynəlxalq həmkarlar ittifaqı hərəkatı çərçivəsində AHİK-in fəaliyyətinin böyük rol oynadığını göstərir.

Azərbaycan prezidenti Heydər Əliyevə və Azərbaycan həmkarlar ittifaqlarının rəhbərinə uğurlu birgə iş arzulayıram. Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası ilə Sizin, ölkə prezidentinin arasında qarşılıqlı münasibətlərin bu cür qurulduğuna sözün yaxşı mənasında həsəd aparırıq.

Sizin rəhbərliyinizlə respublikanın ildən-ilə necə inkişaf etdiyini, iqtisadiyyatının möhkəmləndiyini bilir və görürük. Biz bunu istəyirik və arzu edirik ki, bütün bunlar daha dinamik və səmərəli olsun. Heydər Əliyeviç, icazə verin, respublikanın yüksəlişdə olması münasibətilə Sizi və Səttar Mehbalıyevi bir daha təbrik edim. Allah eləsin, həmişə belə olsun.

**I r a k l i  T u q u ş i** (*Gürcüstan Həmkarlar İttifaqları Birliyinin sədri*): Cənab Prezident, mən də Sizi ölkəmizin həmkarlar ittifaqları adından salamlayıram, Azərbaycan həmkarlar ittifaqlarının dünyada rolunun artdığını nəzərə çatdırmaq istəyirəm, Bakı haqqında, Azərbaycanın iqtisadi və ictimai-siyasi həyatında gedən dinamik prosesləri çox yüksək qiymətləndirirəm. Bir neçə il əvvəl mən Sizin qəbulunuzda olmuşdum, onda biz sayca çox az idik. İndiki qurultayda qonaqlar daha çoxdur, bir çox beynəlxalq təşkilatların nümayəndələri iştirak edirlər. Əlbəttə, bu, həmkarlar ittifaqlarının və sosial xidmət qurumlarının beynəlxalq rolunun artdığına sübutdur.

Əgər 5-6 il əvvəl burada gördüklərimi indi ilə müqayisə etsək, ötən dövr ərzində insanların həyatında nə qədər böyük müsbət dəyişikliklər baş verdiyini görərik. Həmkarlar ittifaqı

təşkilatlarımız arasında, həqiqətən, gözəl münasibətlər var, müxtəlif beynəlxalq konfranslarda, forumlarda tez-tez görüşərək ünsiyyətdə oluruq, bir-birimizlə məsləhətləşirik.

Mən Sizə, Azərbaycan prezidentinə uzun ömür, xalqınıza tərəqqi və Azərbaycan–Gürcüstan qardaşlıq münasibətlərinin daha da genişlənməsini arzulayıram.

**Yusif Engin** (*Türkiyənin «Haqq-İş» Həmkarlar İttifaqları Konfederasiyası Baş katibinin müavini*): Hörmətli Cümhur başqanım! Bizi qəbul etdiyinizə görə Sizə çox təşəkkür edirəm. Sözümün əvvəlində Sizə uzun ömür, cansağlığı diləyirəm. Çünki Azərbaycanın inkişaf etməsində, dünyada daha böyük nüfuza sahib olmasında Sizin gördüyünüz və görəcəyiniz işlərin çox böyük önəmi vardır.

İcazənizlə, Türkiyəni təmsil edən nümayəndələri Sizə təqdim edərdim. Mən Yusif Engin Türkiyə «Haqq-İş» Həmkarlar İttifaqları Konfederasiyası Baş katibinin müaviniyəm. Həmkarım Tebrul Kablak Türkiyə Metal İşçiləri Həmkarlar İttifaqları Federasiyasının Baş katibidir, Yücel Top isə Türkiyə Həmkarlar İttifaqlarının Beynəlxalq Azad Həmkarlar İttifaqları Konfederasiyasındakı nümayəndəsidir və Brüsseldə çalışır.

Biz iki gündür ki, Bakıdayıq. Buraya Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının qurultayında iştirak etmək üçün gəlmişik. Doğrusu, biz Azərbaycanı öz ölkəmizdən ayırmırıq. Sadəcə, rəsmi bir ayrılıq var, amma qəlbimiz birdir. Bu, davam edir və edəcəkdir. Azərbaycanın inkişaf etməsində, sosial, siyasi və iqtisadi sahələrdə güclənməsində zati-alinizin çox böyük əməyini, çalışmalarınızı bilirik və bunu yüksək qiymətləndiririk.

Sizin Konfederasiyanın dünyaya açılmasından, BAHİK-in üzvü olmasından, bölgə ölkələrindəki dialoq və işbirliyi çərçivəsində Azərbaycanın çox böyük rolu olmasından məlumatımız

var. Xüsusilə, Azərbaycanın sosial, siyasi və iqtisadi inkişafında Səttar Mehbalıyevin rəhbərlik etdiyi Həmkarlar İttifaqları Konfederasiyasının böyük əməyini, qazandığı uğurları məmnuniyyətlə izləyirik.

Bilirəm və ümid edirəm ki, sivilizasiyaya, insan azadlıqlarına və əməyinə yüksək qiymət verən AHİK önümüzdəki illərdə qazanacağı imkanlar, demokratiya sayəsində əldə edəcəyi uğurlara birlikdə sevinəcəyik. Bu günə qədər olan planlarınız bunu bizə sübut edir. Biz dialoqun daha da artırılmasını və davam etdirilməsini, işbirliyinin daha sıxlaşdırılmasını arzu edirik.

Təbii, sözümü çox uzada bilmirəm. Sizinlə birlikdə olmaq bizim üçün böyük bir məmnunluq və şərəfdir. Sözümü tamamlayaraq, həmkarlarım adından, konfederasiyalarımız adından qardaşlıq duyğusu ilə Sizi bir daha hörmətlə salamlayıram. Sizə sağlam ömür diləyir, Azərbaycanın güclənmiş, sabit, əmin-amanlıq içində olmasını və inkişafını arzulayır, hörmət və ehtiramımı bildirirəm.

**Vanço Muratovski** (*Makedoniya Həmkarlar İttifaqları Federasiyasının prezidenti*): Hörmətli Heydər Əliyeviç, Makedoniya kiçik, keçmiş Yuqoslaviyanın ərazisində olan bir ölkədir. Həmkarlar ittifaqlarını təmsil edənlər, adətən, çox uzun danışmağa meyllidirlər. Mən isə çalışacağam qısa danışım. Mən birinci dəfədir burada, Sizin ölkənizdəyəm. Ölkəniz olduqca xoşuma gəlir, çox gözəl bir ölkədir. Buraya gəlməmişdən əvvəl ölkəniz haqqında çox eşitmişdim və hamısı da müsbət idi. Buraya gəldikdən sonra bunların hamısının reallıq olduğuna əmin ola bildim. Sizin ölkənizin nə dərəcədə inkişaf etdiyini, tərəqqi əldə etdiyini öz gözlərimlə görə bildim. Mənim yeganə istəyim odur ki, Sizin səhhətiniz möhkəm olsun. Sizə arzu

edirəm, imkanınız olsun ki, bu ölkəni uzun illər tərəqqi yolu ilə irəli aparasınız.

**H e y d ə r   Ə l i y e v:** Çox sağ olun. Sizin keçmiş prezident Qliqorov ilə mənim dostluğum var idi. Çox illərdən, İosif Titonun vaxtından. İndi bunların hamısı dağıldı. Ona görə sizin ölkəni yaxşı tanıyıram.

**Y u r i   L e b e d e v** (*Həmkarlar İttifaqları Ümumi Konfederasiyası sədrinin müavini*): Həmkarlar ittifaqı hərəkatına göstərdiyiniz diqqətə, səmimi qəbula görə Sizə, cənab Prezident, səmimi minnətdarlığımı bildirirəm. Biz, Həmkarlar İttifaqları Ümumi Konfederasiyasında işləyərək, Azərbaycanda Sizin rəhbərliyinizlə qazanılmış uğurlar barədə çox eşitmişdik. Mən 5 ildir burada olmamışam, bu illər ərzində nə qədər yeni binalar tikildiyini öz gözlərimlə gördükdə, buna heyran qaldım. Əlbəttə, biz Azərbaycan həmkarlar ittifaqlarının əla keçirilmiş qurultayının təsiri altındayıq. Biz buraya gəlməli olan nümayəndə heyətinin tərkibini təsdiq edərkən, oraya əslən bir bakılını da daxil etdik.

**Y u r i   K o r i t i n** (*Mənzil-Kommunal Təsərrüfatı, Yerli Sənaye və Xidmət Sahələri İşçiləri Həmkarlar İttifaqları Beynəlxalq Birliyi sədrinin müavini*): Cənab Prezident, vaxtilə məni yüksək vəzifəyə Siz irəli çəkmişdiniz. Siz məni, frezerçi fəhləni, Azərbaycan Ali Sovetinin deputatı Yuri Vladimiroviç Koritini Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin Aparatına – tikinti və şəhər təsərrüfatı şöbəsinə işə qəbul etdiniz. Bu, 1975-ci ilin mayında olmuşdur, mən MK-nın təlimatçısı, sonra Ramiz Ənvəroviç Mehdiyevin yanında ikinci katib, Oktyabr Rayon İcraiyyə Komitəsinin sədri olmuşam. Siz Bakıdan Moskvaya gedərkən Nazirlər Sovetində bizimlə sağollaşdınız. Sonra, Sovetlər İttifaqının mövcudluğu dövründə

məni Azərbaycandan ÜİHİMŞ-ə seçdilər. İndi mən Mənzil-Kommunal Təsərrüfatı, Yerli Sənaye və Xidmət Sahələri İşçiləri Həmkarlar İttifaqları Beynəlxalq Birliyinin rəhbərlərindən biriyəm.

**H e y d ə r Ə l i y e v:** O vaxt ÜİHİMŞ-in sədri kim idi?

**Y u r i K o r i t i n:** Şalayev idi. İndi o pensiyadadır.

**H e y d ə r Ə l i y e v:** Görürsünüz, artıq 28 il keçmişdir. O bizim kadrdır.

**Y u r i K o r i t i n:** Heydər Əliyeviç, mən Sizə çox minnətdaram.

**H e y d ə r Ə l i y e v:** Deməli, mən səni düzgün olaraq irəli çəkmişdim, yanılmamışdım. Hərçənd, mən də səhv edirdim.

**L e v Y a k o v l e v** (*Avtomobil Nəqliyyatı və Yol Təsərrüfatı İşçiləri Həmkarlar İttifaqları Beynəlxalq Birliyinin sədri*): Mən də bir vaxtlar prezident Heydər Əliyev ilə işləmişdim. Sovet dövründə mən Nəqliyyat İşçiləri Həmkarlar İttifaqları Mərkəzi Komitəsinin sədri işləyirdim, Siz isə Nazirlər Soveti sədrinin birinci müavini idiniz. Sizin apardığınız heç bir müşavirə bizim iştirakımız olmadan keçmirdi. Siz həmkarlar ittifaqlarına həmişə böyük diqqət yetirirdiniz. Biz buraya gələrkən keçmiş əməkdaşlarınız – Sizin köməkçiniz və Nazirlər Sovetində şöbə müdiri olmuş Yevgeni Zarbayev və Nəqliyyat Tikintisi Nazirliyinə başçılıq etmiş Vladimir Arkadyeviç Brejnev Sizə salam yetirməyi xahiş etdilər. Mən Sizin keçirdiyiniz ilk kollegiya iclasını xatırlayıram. O vaxt çoxları narahat idi, düşünürdülər, görəsən, bu təzə adam bizi haraya aparıb çıxaracaqdır. Əslində isə, hər şey yüksək səviyyədə oldu. Siz böyük təhlil apararaq, qarşımızda duran vəzifələri dəqiq şəkildə, təmkinlə və düzgün izah etdiniz. Sağ olun, xoşbəxt olun.

**H e y d ə r Ə l i y e v:** Mənim adımdan onlara böyük salam yetirin. O vaxt Nazirlər Sovetində sədrin birinci müavini və Siyasi Büronun üzvü kimi, mənim vəzifəm bir çox sahələrə kuratorluq etməkdən ibarət idi. Ancaq nəqliyyat – həm dəmir yol, həm dəniz, həm çay, həm avtomobil nəqliyyatı, həm də nəqliyyat tikintisi mənə daha yaxın idi. Brejnevi də bu vəzifəyə mən təyin etmişdim.

**L e v Y a k o v l e v:** O vaxtlar, 12-ci beşillik dövründə sahədə yüksəliş müşahidə olunurdu, ancaq biz Sizə beşilliyin zərbəçisi adını təqdim etməyə macal tapmadıq.

**H e y d ə r Ə l i y e v:** Mən Brejnevi tövsiyə etdim, o, Sosnovun birinci müavini idi və MK-da biz onun həmin vəzifəyə təyin olunması haqqında qərar qəbul etdik. Sonra mən onu kollegiyada təqdim etdim. Biz onunla çox fəal işlədik, o çox işgüzar adamdır.

**L e v Y a k o v l e v:** İndi o, korporasiyaya başçılıq edir. Bir sözlə, Sizin yetirməniz doğru yoldadır.

**H e y d ə r Ə l i y e v:** Çox yaxşı. Bunları xatırlamaq mənim üçün xoş oldu. Burada Azərbaycanın, xalqımızın, dövlətimizin ünvanına və mənim ünvanıma söylədiyiniz xoş sözlərə görə sizin hamınıza bir daha təşəkkür edirəm. Mən bu görüşə şadam. Görüşün əvvəlində mən həmkarlar ittifaqlarına münasibətimdən danışdım, indi onlara diqqətim daha da gücləndi. Mehbalıyevi ona bir daha etimad göstərilməsi və sədr seçilməsi, habelə yeni bir vəzifəyə seçilməsi münasibətilə təbrik edirəm. Zənnimcə, nümayəndələr səhv etmədilər, düz iş gördülər. Onun işi barədə mənim də rəyim belədir, nümayəndələrin rəyi ilə üst-üstə düşür.

# Q E Y D L Ə R

**1. Yeni Azərbaycan Partiyası** (YAP) – Azərbaycanda ən kütləvi siyasi partiya. YAP 1992-ci il noyabrın 21-də Naxçıvan şəhərində təsis edilib. 81 rayon və 5 minə yaxın ilk partiya təşkilatı var. Partiyada Gənclər Birliyi və Qadın Şurası fəaliyyət göstərir. Parlamentdə 73 deputatla təmsil olunur. YAP Azərbaycanın dövlət müstəqilliyinin daha da möhkəmləndirilməsində, ölkəmizdə demokratik, hüquqi və dünyəvi dövlət qurulmasında və iqtisadi-siyasi islahatların həyata keçirilməsində fəal iştirak edir. YAP ölkəmizin ictimai-siyasi həyatında aparıcı qüvvədir. YAP-ın təsis konfransında (1992) mərhum prezidentimiz Heydər Əliyev yekdilliklə partiyanın sədri seçilmişdi. 2005-ci il mart ayından isə YAP-ın sədri prezident İlham Əliyevdir. – 5–24.

**2. Sirus Təbrizli,** T ə b r i z l i S i r u s X u d a d a t o ğ l u (d.1942) – Azərbaycan yazıçısı və publisist. Birinci (1995) və ikinci (2000) çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Yeni Azərbaycan Partiyasının sədr müavini, 1996–2001-ci illərdə Respublika Mətbuat və İnformasiya naziri olmuşdur. – 6,7,25.

**3. Naxçıvan** – Azərbaycan Respublikasında şəhər. Naxçıvan Muxtar Respublikasının paytaxtı. Sahəsi 0,013 min $km^2$, əhalisi 70 min nəfərdən çoxdur. Naxçıvan Azərbaycanın ən qədim şəhərlərindəndir. Müasir Naxçıvan qədim, antik və orta əsr şəhər yerinin xarabalıqları üzərində yerləşmişdir.

Naxçıvan e.ə. IX–VI əsrlərdə qədim Manna və Midiyanın, eramızın əvvəllərində Albaniyanın, IV əsrdən isə Sasanilərin tərkibində olmuşdur. 654-cü ildə Naxçıvanı ərəblər işğal edirlər. Naxçıvan Azərbaycan Atabəylər dövlətinin (1136–1225) paytaxtı olmuşdur. 1828-ci il Türkmənçay müqaviləsinə qədər Naxçıvan müxtəlif dövlətlərin nüfuz dairəsində olub. Məhz bu ildən Naxçıvan Rusiya imperiyasına birləşdirildi və qəza mərkəzinə çevrildi. 1924-cü il fevralın 9-da Naxçıvan MSSR təşkil ediləndən muxtar respublikanın paytaxtı oldu. – 6,9,11,20,23,90,107,108,205,223,322,371.

**4. «Səs»** – ictimai-siyasi qəzet. «Əlincə» Xeyriyyə Cəmiyyətinin orqanı. 1991-ci ildən nəşr edilir. – 6,12.

**5. Ağabəy Əsgərov,** A ğ a b ə y  M ə m m ə d  o ğ l u (d.1956) – şərqşünas. Filologiya elmləri namizədi. 1995–2000-ci illərdə Milli Məclisin deputatı və «Səs» qəzetinin redaktoru olmuşdur. Hazırda «Azərbaycan» nəşriyyatının direktorudur. – 11.

**6. «Yeni Azərbaycan»** – ictimai-siyasi qəzet. Təsisçi Yeni Azərbaycan Partiyasıdır. – 12.

**7. Şəki** (*1968-ci ilədək Nuxa rayonu*) – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. 1963-cü ildə ləğv edilərək ərazisi Oğuz rayonuna verilmiş, 1965-ci ildə yenidən mustəqil rayon olmuşdur. Sahəsi 2,43 min $km^2$, əhalisi 175 min nəfərdir. – 15,71,89,168, 169,180.

**8. İsmayıllı** – Azərbaycan Respublikasında inzibati rayon. 1931-ci ildə təşkil edilmişdir. Sahəsi 2074 km, əhalisi 75 min nəfərdir. – 15.

**9. Qəbələ** (1930–91-ci illərdə Q u t q a ş e n) – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil olunmuşdur. Sahəsi 1,55 $km^2$, əhalisi 95,6 min nəfərdir. – 15,168.

**10. Gəncə –** Azərbaycan Respublikasında şəhər. Sahəsi 107 $km^2$, əhalisinin sayına görə Bakıdan sonra ikinci şəhərdir. Azərbaycanın qədim şəhərlərindəndir. 2500 illik tarixə malikdir. – 18,89,145,146,179,180, 371.

**11. Sumqayıt** – Azərbaycanda şəhər. Bakıdan 35 km şimal–qərbdə, Xəzər dənizinin qərb sahilində yerləşir. Sahəsi 83 $km^2$, əhalisi 231,1 min nəfərdir. Əvvəllər kiçik yaşayış məntəqəsi olan Sumqayıt 1938-ci ildə Bakı neft sənayesini elektrik enerjisi ilə təmin edəcək İstilik Elektrik Stansiyasının tikintisi ilə şəhər tipli qəsəbəyə çevrildi və get-gedə Bakıdan sonra ölkəmizin ikinci sənaye şəhərinə çevrildi. Sənayesində kimya və metallurgiya sahələri əsas yet tutur. – 18,30,164,166,186–192,195,196.

**12. Mingəçevir** – Azərbaycanda şəhər. «Mingəçevir» sözünün etimologiyası barədə müxtəlif mülahizələr var. Akademik Z.Bünyadov Mingəçevirin adını 839-cu ildə Azərbaycanda Xilafətə qarşı çıxmış Minkiçəvr əl-Fərqaninin adı ilə əlaqələndirir. XVII əsr türk səyyahı Evliya Çələbi «Səyahətnamə» əsərində Kür çayının sağ sahilində ipək parça emalatxanaları, məscidi və hamamı olan Mingəçevir adlı yaşayış məntəqəsi barədə məlumat verir. Mingəçevir II dünya müharibəsindən sonrakı illərdə yaradılmış iri sənaye mərkəzlərindəndir. İndiki Mingəçevir hidrotexniki kompleksin tikintisi ilə əlaqədar salınmışdır. – 18,139,145, 146,294.

**13. Naxçıvan Muxtar Respublikası** (1920–23-cü illərdə Naxçıvan Sovet Sosialist Respublikası, 1923–24-cü illərdə Naxçıvan Muxtar Diyarı, 1924–90-cı illərdə Naxçıvan Muxtar Sovet Sosialist Respublikası, 1990-cı ildən Naxçıvan Muxtar Respublikası) – Azərbaycan Respublikasının tərkibində muxtar dövlət.

Muxtar respublika ərazisinin sahəsi 5,5 min km$^2$, əhalisi 372,9 min nəfərdir. Hazırda 7 inzibati rayona (Babək, Culfa, Ordubad, Sədərək, Şahbuz, Şərur, Kəngərli) bölünmüşdür; 4 şəhəri (Naxçıvan, Ordubad, Culfa, Şərur), 9 qəsəbəsi, 160 kənd inzibati ərazi dairəsi var. – 18,127.

**14. Dövlət Neft Fondu –** 1999-cu ildə yaradılmışdır. Əsas fəaliyyəti Azərbaycanın neft strategiyasından əldə edilən gəlirlərin idarə edilməsidir. – 18.

**15. Bakı–Tbilisi–Ceyhan** – 1998-ci il oktyabrın 29-da Azərbaycan, Türkiyə, Gürcüstan, Qazaxıstan, Özbəkistan prezidentləri və ABŞ-ın Energetika naziri Bakı–Tbilisi–Ceyhan marşrutunu müdafiə edən «Ankara bəyannaməsini» imzalamışlar. Uzunluğu 1695 km olan Bakı–Tbilisi–Ceyhan neft kəməri 2006-cı ildə istifadəyə verilmişdir. – 22,56,100,230,234,237,260,263, 287,288,291,297,299,338.

**16. 1993-cü il iyun hadisələri –** Azərbaycanı vətəndaş müharibəsi həddinə gətirmiş Gəncə hadisələri, Bakıda Ali Sovetin binası qarşısında keçirilən çoxsaylı mitinqlə, xalqın tələbilə Heydər Əliyevin Naxçıvandan Bakıya gəlməsi, Ali Sovetin sədri seçilməsi, o zamankı respublika prezidenti Ə.Əliyevin (Elçibəyin) Kələki kəndinə getməsi, Ali Sovetin sədri Heydər Əliyevin respublika prezidentinin vəzifəsini icra etməyə başlaması nəzərdə tutulur. – 23.

**17. 1994-cü il oktyabr hadisələri** –oktyabrın 3-də Gəncə və Qazaxda, həmçinin Bakıda Azərbaycanın dövlətçiliyinə, müstəqilliyinə düşmən olan qüvvələr tərəfindən dövlət çevrilişi cəhdi nəzərdə tutulur. Həmin gün Bakıda fövqəladə vəziyyət elan edilmiş və Azərbaycan prezidenti Heydər Əliyev televiziya və radio ilə xalqa müraciət etmişdi. Gecə olmasına baxmayaraq Bakı və ona yaxın yerlərdən yüz minlərlə insan Prezident sarayı qarşısına toplaşaraq milli və vətəndaşlıq həmrəyliyi nümayiş etdirərək Heydər Əliyevin siyasətini dəstəkləmişlər. – 23,24.

**18. 1995-ci il mart hadisələri** – martın 12–13-də Qazax və Ağstafa, martın 16–17-də isə Bakının 8-ci kilometr qəsəbəsində Xüsusi Təyinatlı Polis Dəstəsinin bir qrup üzvünün silahlı çıxışı nəzərdə tutulur. Respublika rəhbərliyinin qəti tədbirləri nəticəsində çevriliş cəhdinin qarşısı alındı və silahlı dəstə tərksilah olundu. – 23.

**19. Zeynəb Xanlarova,** Zeynəb Yəhya qızı (d.1936) – müğənni, xanəndə. Azərbaycan və SSRİ Xalq artisti. Xanlarovanın repertuarında muğam, təsnif, Azərbaycan xalq mahnıları və Azərbaycan bəstəkarlarının mahnıları əsas yer tutur. Xalq musiqisinin, eləcə də Azərbaycan bəstəkarlarının mahnılarının populyarlaşmasında xidməti böyükdür. Azərbaycan Respublikası Milli Məclisinin (1995-ci ildən) üzvüdür. Azərbaycan Respublikasının «Şöhrət» və «İstiqlal» ordenləri ilə təltif olunmuşdur. – 25.

**20. Fatma Abdullazadə,** Fatma Hüseyn qızı (d.1948) – fizika–riyaziyyat elmləri doktoru, professor. Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Humanitar siyasət məsələləri şöbəsinin müdiri. 1995–2000-ci illərdə Milli Məclisin deputatı olmuşdur. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 26,76, 77,94.

**21. Xan Şuşinski**, İsfəndiyar Aslan oğlu Cavanşirovun təxəllüsü (1901–1979) – Azərbaycan xanəndəsi. Azərbaycan Respublikasının Xalq artisti. Xan Şuşinski müstəsna istedadı, geniş diapazonlu, gur səsilə xalqın rəğbətini qazanmışdı. Azərbaycan klassik xanəndələri ənənələrinin layiqli davamçılarından biri olan X.Şuşinski oxuduğu

muğamlarda gəzişmə və zəngülələrdən məharətlə istifadə etmişdir. X.Şuşinski Azərbaycan xanəndəlik sənəti tarixində özünəməxsus məktəb yaratmışdır. – 27,34.

**22. İlham Əliyev**, İ l h a m  H e y d ə r  o ğ l u (d.1961) – görkəmli ictimai-siyasi və dövlət xadimi, diplomat, siyasi elmlər doktoru, professor. 2003-cü ildən Azərbaycan Respublikasının prezidenti. Xalqımızın ümummilli lideri Heydər Əliyevin oğlu. 1994-cü ildən Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti, 1997–2003-cü illər birinci vitse-prezidenti. Azərbaycan Respublikasının neft strategiyasının həyata keçirilməsində mühüm xidmətləri vardır.

2003-cü ildə Azərbaycan Respublikasının Baş naziri olmuşdur. Siyasi və dövlət xadimi kimi, İlham Əliyev beynəlxalq aləmdə böyük hörmət və nüfuz qazanmış, bir neçə ölkənin yüksək mükafatlarına layiq görülmüşdür.

Azərbaycan idmançılarının beynəlxalq yarışlarda uğurlar əldə etməsində də AMOK-un prezidenti kimi, İlham Əliyevin böyük xidmətləri vardır. Onun şəxsi təşəbbüsü ilə Bakıda, Naxçıvanda, Gəncədə, Şəkidə və respublikanın əksər rayonlarında dünya standartlarına cavab verən böyük olimpiya kompleksləri tikilib istifadəyə verilmiş, güclü maddi-texniki baza yaradılmışdır.

İlham Əliyevin doğma Azərbaycanımızın inkişafında müstəsna xidmətləri vardır. Onun dövründə ölkə iqtisadiyyatı, qeyri-neft sektoru sürətlə inkişaf etmiş, eyni zamanda ölkəyə qoyulan xarici investisiyalar xeyli artmışdır.

İlham Əliyev tərəfindən irəli sürülmüş «Regionların sosial-iqtisadi inkişafı haqqında dövlət proqramı»na əsasən respublikanın şəhər və rayonlarında onlarla sənaye müəssisəsi açılmış, yüz minlərlə iş yerləri yaradılmış və böyük abadlıq işləri görülür.

Ölkədə demokratik islahatlar aparılmasında, hüquqi dövlət quruculuğunda, Azərbaycan Respublikasının dövlət müstəqilliyinin möhkəmlənməsində uğurlu xidmətlər göstərən İlham Əliyev Yeni Azərbaycan Partiyasının I qurultayında partiya sədrinin müavini, II qurultayında sədrin birinci müavini seçilmişdir. 2005-ci ilin martından isə Yeni Azərbaycan Partiyasının sədridir. 1995-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin (1–2-ci çağırış) deputatı, Avropa Şurası Parlament Assambleyasında Azərbaycan Parlamenti daimi nümayəndə heyətinin başçısı olmuşdur. Azərbaycan haqqında, xüsusilə Ermənistanın ölkəmizə hərbi təcavüzü və onun nəticələri,

erməni terrorizmi barədə həqiqətlərin ən mötəbər beynəlxalq təşkilatlar vasitəsilə dünya ictimaiyyətinə çatdırılmasında müstəsna xidmətləri vardır. «Heydər Əliyev» və Fransanın «Fəxri legionun böyük xaç komandoru» ordenləri ilə təltif olunmuş, bir neçə ölkənin və beynəlxalq təşkilatların fəxri ad və mükafatlarına layiq görülmüşdür. Bir neçə xarici akademiyaların və universitetlərin fəxri üzvüdür. – 27,39,160, 185,279,330,332.

**23 Türkiyə Cümhuriyyəti** – Qərbi Asiyada və Avropanın cənub–şərq kənarında dövlət. Sahəsi 780,6 min km$^2$, əhalisi 78 mln. nəfərdir. İnzibati cəhətdən 67 ilə (vilayətə) bölünür. Paytaxtı Ankara şəhəridir. Dövlət başçısı prezident, Ali qanunvericilik orqanı Türkiyə Böyük Millət Məclisidir. – 29–31,42,55,67,74,78,130,185,200,222–229,258–280,284,305–306,367–380.

**24 «ENKA»** – Türkiyə şirkəti. 1957-ci ildə yaradılmışdır. Türkiyə və Rusiya tikinti bazarının liderlərindən biri. Mənzil-qərargahı İstanbuldadır. Şirkətin tikinti bölməsi Türkiyədə sənaye obyektləri, körpülər, ticarət mərkəzləri, aeroportlar, boru kəmərlərinin çəkilişində fəal iştirak edir. – 29-31,130.

**25. Şarik Tara**(d.1930) – Enka şirkətlər qrupunun fəxri prezidenti və inşaat üzrə Baş mühəndisi. – 29–31,276.

**26. P u t i n V l a d i m i r V l a d i m i r o v i ç** (d.1952) – 2000–2008-ci illərdə Rusiya Federasiyasının prezidenti. 1975–97-ci illərdə bir sıra məsul vəzifələrdə çalışmışdır. 1998-ci ildə Rusiya Federasiyası Prezidenti Administrasiyasının rəhbəri, 1998–99-cu illərdə FTX-nın direktoru, 1999-cu ilin avqustundan Rusiya hökumətinin başçısı, 2008-ci ilin mayında Rusiya Federasiyasının Baş naziri təyin edilmişdir. 2012-ci ilin mart ayında Rusiya Federasiyasının Prezidenti seçilmişdir. – 29,240,298,330,335–336,339–341, 343,344,347,364.

**27. Lujkov Yuri Mixayloviç** (d.1936) – Rusiyanın ictimai və dövlət xadimi. 1992–2010-cu illərdə Moskva şəhərinin meri olmuşdur. – 29.

**28. Rusiya,** R u s i y a F e d e r a s i y a s ı – Avropanın şərqində, Asiyanın şimalında dövlət. Ərazisi 17075,4 min km$^2$, əhalisi 146,3 milyon nəfərdir.

Rusiya Federasiyasına 21 respublika, 6 diyar, 49 vilayət, federal əhəmiyyətli Moskva və Sankt-Peterburq şəhərləri, 10 muxtar vilayət və mahal daxildir.

Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı Dövlət Duması və Federasiya Şurasıdır. Paytaxtı Moskva şəhəridir. – 30,31,41–43,150,160, 162,192,194,223,240,241–242,279,287,288,291,292,297,298335,339–341,343, 344,347,361,363,365,369,389.

**29. Azərbaycan Dövlət Filarmoniyası** – respublikanın ən böyük musiqi müəssisəsi. Azərbaycanda filarmoniya 1936-cı ildə təşkil olunmuşdur (həmin ildən də M.Maqomayevin adını daşıyır). Filarmoniyanın nəzdində Simfonik orkestr, Mahnı və rəqs ansamblı, Rəqs ansamblı, Xor kapellası, Simli kvartet fəaliyyət göstərir. – 32–37.

**30. Şuşa** – Azərbaycan Respublikasında şəhər. Elmi ədəbiyyatda Şuşanın əsasının 1750-ci illərin əvvəllərində Qarabağ xanı Pənahəli xan Cavanşir tərəfindən qoyulması göstərilsə də, tədqiqatlar Şuşanın qədim yaşayış məntəqəsi olduğunu qeyd edirlər. Qarabağ xanlığının mərkəzi olan Şuşa bir müddət Pənahəli xanın adı ilə Pənahabad adlanmışdır.

Şuşa 1813-cü il Gülüstan müqaviləsinə əsasən Qarabağ xanlığı tərkibində Rusiyaya birləşdirildi. 1920-ci ilin martında erməni daşnaklarının Qarabağda törətdikləri qırğın nəticəsində Şuşanın bir hissəsi tamamilə yandırıldı və minlərlə günahsız insan qətlə yetirildi. Lakin iyun ayının əvvəlində müsavatçılar və türk generalı Nuru Paşa Şuşanı erməni qəsbkarlarından xilas etdi. 1923-cü il Azərbaycan MİK-nin dekretinə əsasən Dağlıq Qarabağ Muxtar Vilayəti təşkil olunduqda Şuşa muxtar vilayətin tərkibinə daxil edildi.

1992-ci ildə erməni işğalçıları Şuşanı zəbt etdilər. Hazırda Şuşa yadellilərin tapdağı altındadır. – 32.

**31. Hacı Zeynalabdin Tağıyev** (1838–1924) – məşhur messenat, maarifpərvər. Bakı milyonçusu. Əvvəllər bənna işləmiş Hacı 1872-ci ildən neftçıxarma işinə kapital qoymuş və sahibkarlıq fəaliyyətinə başlamışdır. Bakıda «Tağıyev H.Z. lifli maddələrin emalı üzrə Qafqaz səhmdar cəmiyyəti»ni, toxuculuq fabrikini, «Xəzər manufaktura cəmiyyəti»ni, «Tağıyev balıq sənayesi səhmdar cəmiyyəti»ni, yerli sahibkarlarla birlikdə Bakı ticarət bankını yaratmış və Bank Şurasının sədri seçilmişdi.

Savadı olmayan Hacı savadsızlığın acısını duymuş və buna görə də Vətən övladlarının, xüsusilə, kasıb oğlan və qızların təhsil almasına böyük qayğı göstərmişdi. O öz vəsaiti ilə Yaxın Şərqdə – Bakıda ilk qız gimnaziyası, qadınları işlə təmin etmək üçün toxuculuq fabriki, Mərdəkanda sənət məktəbi, teatr binası tikdirir. Qiraətxanalar üçün qəzet və jurnalların pulunu ödəyir, öz xərcinə Azərbaycan şair və alimlərinin əsərlərini, həmçinin Azərbaycan dilinə tərcümələri çap etdirir. 1905–11-ci illər İran məşrutə hərəkatına silah və pulla yardım edir. İranda onlarla məktəbin açılmasına, məktəb ləvazimatı və zəruri kitablarla təmin edilməsinə, daxildə və xaricdə oxuyan və maddi təminata ehtiyacı olanlara daim yardım edirdi. «Kaspi», «Həyat», «Füyuzat» kimi qəzet və jurnalların nəşri üçün vəsait ayırmışdı.

Hacı Bakıya «Şollar suyu» kəmərini çəkdirmiş, Mərdəkanda dən üyüdən elektrik dəyirmanı tikdirmiş və qəsəbənin əhalisini ilk dəfə elektrik işığı ilə təmin etmişdir. – 32,167,168.

**32. Cabbar Qaryağdı,** Cabbar Məşədi İsmayıl oğlu (1861–1944) – Azərbaycan xanəndəsi, musiqi xadimi. Azərbaycan xanəndəlik sənətinin ən görkəmli nümayəndələrindən biri. Azərbaycan Respublikasının Xalq artisti. Cabbar Qaryağdı fitri istedada, zil və olduqca güclü, gözəl tembrli, geniş diapazonlu səsə, qeyri-adi musiqi hafizəsinə malik sənətkar idi. – 32.

**33. Keçəçi Məhəmməd** (Məhəmməd Məşədi oğlunun təxəllüsü (1864–1940) – Azərbaycan xanəndəsi. Geniş diapazonlu, güclü və gözəl səsə malik idi. Keçəçi Məhəmməd Bayatı – qacar muğamını xüsusi ustalıqla oxumuşdur. Onun ifasında bir sıra muğam, təsnif və xalq mahnıları 1912-ci ildə «Sport– rekord» (Varşava), 1914-cü ildə isə «Ekstrafen» (Kiyev) şirkətləri tərəfindən qrammofon valına yazılmışdır. – 32.

**34. Əbdürrəhimbəy Haqverdiyev,** Əbdürrəhimbəy Əsəd oğlu (1870–1933) – Azərbaycan yazıçısı, dramaturq, ictimai xadim, Əməkdar incəsənət xadimi. Üzeyir Hacıbəyovun «Leyli və Məcnun» operasının ilk tamaşasının dirijoru Ə.Haqverdiyev olmuşdur. Haqverdiyevin dramaturgiyası Azərbaycan teatrının inkişafında mühüm rol oynamışdır. Ədibin məzmunca zəngin, forma və bədii sənətkarlıq cəhətdən kamil hekayələri Azərbaycan nəşrinin inkişafına güclü təsir göstərmişdir. – 32.

**35. Çaykovski, P y o t r  İ l i ç** (1840–1893) – böyük rus bəstəkarı. Çaykovski musiqili dramaturgiyada zərif psixoloq, ustad simfoniyaçıdır. O, musiqidə insanın daxili aləmini açmış, operada, baletdə, simfoniyada məşhur obrazlar yaratmışdır. Çaykovskinin «Füsunkar qadın», «Yevgeni Onegin», «Mazepa» «İolanta» operaları, «Yatmış gözəl», «Qu gölü», «Şelkunçik» baletləri və bir sıra simfoniyaları onu dünyada məşhurlaşdırmışdır. – 33,306.

**36. Raxmaninov Sergey Vasilyeviç** (1873–1943) – rus bəstəkarı, pianoçu və dirijor. XIX əsrin sonu – XX əsrin əvvəllərinin görkəmli musiqiçilərindən olan Raxmaninovun sənəti üçün həyatilik, emosional qolğunluq səciyyəvidir. Raxmaninov həm də zəmanəsinin görkəmli pianoçu və dirijorlarındandır. – 33.

**37. Şalyapin Fyodor Alekseyeviç** (1873–1938) – rus müğənnisi, rus vokal məktəbinin görkəmli nümayəndələrindən biri. Şalyapinin yaradıcılığı dünya opera sənətinin inkişafına böyük təsir göstərmişdir. Şalyapin həmçinin kamera müğənnisi, rus xalq mahnılarının mahir ifaçısı olmuş, opera rejissoru və kinoaktyoru kimi də çıxış etmişdir. – 33.

**38. Musa Nağıyev** (1842–1919) – Bakıda iri neft sahibkarlarından biri, milyonçu. 1893-cü ildə «Musa Nağıyev» neftçıxarma müəssisəsi yaratmışdı. Firmanın 10 milyon manatdan artıq kapitalı var idi; idarəsi Bakıda yerləşirdi. Nağıyevin Sabunçu, Suraxanı və Ramanada 65 neft buruğu, Bakıda neftayırma zavodu, mexaniki emalatxanası vardı. – 33.

**39. Müslüm (Əbdülmüslüm) Maqomayev (**1885–1937) – görkəmli Azərbaycan bəstəkarı. 1912-ci ildən ömrünün axırınadək opera tamaşalarına dirijorluq etmişdir. M.Maqomayevin «Şah İsmayıl» operası Azərbaycan opera sənətinin inkişafı tarixində əhəmiyyətli yer tutur. – 34,66,207.

**40. Üzeyir bəy Hacıbəyov,** Ü z e y i r  Ə b d ü l h ü s e y n  o ğ l u (1885–1948) – dahi Azərbaycan bəstəkarı, musiqişünas alim, publisist, dramaturq, pedaqoq və ictimai xadim. Müasir Azərbaycan professional musiqi sənətinin və milli operasının banisi, SSRİ Xalq artisti, SSRİ Dövlət mükafatı laureatı. – 34,66,69,70,76,112,164,206,207,213,374,275.

**41. Bülbül,** Murtuza Məşədi Rza oğlu Məmmədov (1897–1961) – Azərbaycan klassik vokal məktəbinin banisi, musiqi folkloru tədqiqatçısı. Bülbülün yaradıcılığı müasir Azərbaycan musiqili teatrı tarixində mühüm bir mərhələ təşkil edir. Bülbül Azərbaycan xalq mahnılarını, təsnifləri böyük sənətkarlıqla ifa etmişdir. SSRİ Xalq artisti və SSRİ Dövlət mükafatı laureatı. – 34,112,114,207.

**42. Cahangir Cahangirov,** Cahangirov Cahangir Şirgəşt oğlu (1921–1992) – Azərbaycan bəstəkarı. Azərbaycan Respublikasının Xalq artisti. SSRİ Dövlət mükafatı laureatı. – 34.

**43. Niyazi,** Tağızadə–Hacıbəyov Niyazi Zülfüqar oğ-lu (1912–1984) – görkəmli Azərbaycan dirijoru, bəstəkar. Azərbaycan milli dirijorluq məktəbinin formalaşması, inkişafı Niyazinin adı ilə bağlıdır. SSRİ Xalq artisti, Sosialist Əməyi Qəhrəmanı, iki dəfə SSRİ Dövlət mükafatı laureatı olmuşdur. – 34,64–78,114.

**44. Qəmər Almaszadə,** Qəmər Hacağa qızı (1915–2006) – Azərbaycan balet artisti, baletmeyster və pedaqoq, ilk azərbaycanlı balerina. Azərbaycan və SSRİ Xalq artisti. SSRİ Dövlət mükafatı laureatı. Azərbaycan balet məktəbinin yaradıcılarından olan Almaszadənin sənətkarlığı klassik xoreoqrafiya ənənələri ilə xalq rəqs yaradıcılığı xüsusiyyətlərinin vəhdətinə əsaslanmışdır. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 34.

**45. Qara Qarayev,** Qara Əbülfəs oğlu (1918–1982) – dahi Azərbaycan bəstəkarı. Musiqisi ümumdünya şöhrəti qazanmış, baletləri respublikamızın və bir sıra dünya teatrlarının səhnəsində tamaşaya qoyulmuşdur. Q.Qarayevin musiqi dili sahəsinə gətirdiyi yeniliklər Azərbaycan və dünya musiqisinin inkişafında mühüm rol oynamışdır. SSRİ Xalq artisti, Sosialist Əməyi Qəhrəmanı, SSRİ Dövlət və Lenin mükafatları laureatıdır. – 34,65,66,69,70,206,306,310,325,359,365,366.

**46. Fikrət Əmirov,** Fikrət Cəmil oğlu (1922–1984) – görkəmli Azərbaycan bəstəkarı. Simfonik muğam janrının yaradıcısı. Fikrət Əmirov instrumental konsert janrında yaradan ilk Azərbaycan bəstəkarlarındandır.

Əsərləri, xüsusilə simfonik muğamları Niyazi, Rojdestvenski (Rusiya), L.Stokovski (ABŞ), Ş.Münş (Fransa), Ç.Abendrot (Almaniya) kimi məşhur dirijorların repertuarında səslənmişdir. SSRİ Xalq artisti, Sosialist Əməyi Qəhrəmanı, SSRİ və Azərbaycan Dövlət mükafatları laureatı idi. – 34,69,70,206,311.

**47. Rəşid Behbudov**, R ə ş i d M ə c i d o ğ l u (1915–1989) – görkəmli Azərbaycan müğənnisi. Azərbaycan və SSRİ Xalq artisti. Müstəsna gözəl səsə malik olan Rəşid Behbudov Azərbaycan vokal məktəbinin görkəmli nümayəndələrindəndir. Dünyanın bir çox ölkələrində uğurla keçən qastrol səfərlərində olmuşdur. SSRİ Dövlət mükafatı laureatı və Sosialist Əməyi Qəhrəmanıdır. – 34,120.

**48. Şövkət Ələkbərova,** Ş ö v k ə t F e y z u l l a q ı z ı (1922–1993) – Azərbaycan müğənnisi. Azərbaycan Respublikasının Xalq artisti. Məlahətli, yumşaq tembrli səsə malik Şövkət xanımın ifaçılığı üçün yüksək vokal mədəniyyəti, dərin emosionallıq və lirizm səciyyəvi idi. Məharətli gəzişmələr, improvizasiya ustalığı onun muğam yaradıcılığının əsas məziyyətlərindəndir. – 34.

**49. Dmitri Şostakoviç** (1906–1975) – böyük rus bəstəkarı, sənətşünaslıq elmləri doktoru – XX əsr dünya müsiqi sənətinin klassiki. Şostakoviçin yaradıcılığında simfonik musiqi başlıca yer tutur. Ən kamil əsərlərindən sayılan 7,11,12,14,15-ci simfoniyalarında həyat və ölüm mövzusu böyük emosionallıqla ifadə olunmuşdur. Bir çox dünya ölkələrinin milli, elm, incəsənət akademiyalarının fəxri üzvü olmuşdur. – 34.

**50. Tixon Xrennikov** (1913–2007) **–** rus bəstəkarı, ictimai xadim. SSRİ Xalq artisti, Sosialist Əməyi Qəhrəmanı, Lenin və SSRİ Dövlət mükafatları laureatı. – 34.

**51. Svyatoslav Pixter** (1915–1997) – rus pianoçusu. SSRİ Xalq artisti, Sosialist Əməyi Qəhrəmanı, Dövlət və Lenin mükafatları laureatı. Rixter XX əsrin ən görkəmli pianoçularından biri olmuşdur. – 34.

**52. Van Klibern** (d.1934) – Amerika pianoçusu, romantik fortepiano məktəbinin nümayəndəsi. XX əsrin əvvəllərində rus musiqisinin interpretasiyaçısi. Bir çox beynəlxalq musiqi musabiqələrinin qalibi olmuşdur. – 34.

**53. Rostropoviç Mstislav** (1927–2007) – Bakıda doğulmuş görkəmli musiqiçi, violonçelist, dirijor. Lenin mükafatı laureatı, SSRİ Xalq artisti. Bakı Musiqi Akademiyasının fəxri professoru. Azərbaycan Respublikasının «İstiqlal» və «Heydər Əliyev» ordenləri ilə təltif olunmuşdur. – 34,75,366.

**54. David Oystrax** (1908–1974) – rus skripkaçısı və pedaqoqu. SSRİ Xalq artisti. Dövlət və Lenin mükafatları laureatı. – 34.

**55. Lev Oborin** (1907–1974) – rus pianoçusu, pedaqoq və rus musiqisinin interpretasiyaçısı. SSRİ Xalq artisti. – 34.

**56. Pakistan,** P a k i s t a n İ s l a m R e s p u b l i k a s ı – Cənubi Asiyada dövlət. Sahəsi 796 min km$^2$, əhalisi 133,5 milyon nəfərdir. Paytaxtı İslamabad şəhəridir. İnzibati cəhətdən 4 əyalətə və federal paytaxt ərazisinə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. – 38.

**57. Ağdaş** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1048 km$^2$, əhalisi 91,7 min nəfərdir. – 39–40.

**58. Məqsud Şeyxzadə,** M ə q s u d M ə s i m o ğ l u (1908–1967) – Azərbaycan əsilli özbək yazıçısı, alim və pedaqoq. Özbəkistan Əməkdar incəsənət xadimi. Özbək xalqının monqol istilakçılarına qarşı mübarizəsinə həsr edilmiş «Cəlaləddin» pyesi, Uluqbəyə həsr edilmiş «Mirzə Uluqbəy» faciəsi, Azərbaycan mövzusunda əsərləri və Azərbaycan ədəbiyyatından tərcümələri ona Özbəkistanda şöhrət qazandırmışdır. – 39.

**59. Moskva Dövlət Universiteti**, M.V.Lomonosov adına Moskva Dövlət Universiteti – dünya elminin ən böyük mərkəzlərindən biri. 1755-ci ildə M.V.Lomonosovun təşəbbüsü ilə yaradılmışdır. Universitetdə 200-dən çox kafedra, 430 elmi-tədqiqat laboratoriyası, 4 elmi-tədqiqat institutu, 4 rəsədxana, 12 elmi-tədqiqat stansiyası, 3 muzey, Botanika bağı, elmi kitabxana,

nəşriyyat var. Universitetdə 28 mindən çox tələbə təhsil alır. 2009-cu ildə Bakıda filialı açılmışdır. – 39.

**60. Bürhan Kərimov** (d.1922) – Moskva Dövlət Universitetinin professoru, fizika-riyaziyyat elmləri doktoru. Atom fizikası kafedrasının müdiri. Dünyada atom fizikasının tanınmış nümayəndəsi. Atom fiziikasına aid çoxlu elmi əsərlərin müəllifidir. – 39.

**61. Bəkir Nəbiyev,** B ə k i r Ə h m ə d o ğ l u (1930–2012) – filoloq. Filologiya elmləri doktoru, professor, Azərbaycan MEA-nın akademiki. Dövlət mükafatı laureatı və Əməkdar elm xadimidir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmışdur. – 39.

**62. İran,** İ r a n İ s l a m R e s p u b l i k a s ı – Cənub–Qərbi Asiyada dövlət. Sahəsi 1,65 milyon km$^2$, əhalisi 68,2 mln. nəfərdir. Paytaxtı Tehran şəhəridir. İnzibati cəhətdən 24 ostana bölünür. Ali qanunverici hakimiyyət orqanı 4 il müddətinə seçilən Xalq Şurası Məclisidir. Hökuməti Baş nazir təşkil, prezident isə təsdiq edir. – 42,105–109,127, 185,287,288,292,298.

**63. Bakı–Novorossiysk neft kəməri –** 1994-cü ilin sentyabrında Azərbaycan Respublikası hökumətinin xarici neft şirkətləri ilə imzaladığı «Əsrin müqaviləsi»nin həyata keçirilməsinin mühüm bir hissəsi Bakı–Novorossiysk neft kəməridir. Bu kəmər 1997-ci ilin noyabrında istifadəyə verilmişdir. – 41,43,159,161.

**64. Birləşmiş Ərəb Əmirlikləri** – Cənubi Asiyada dövlət. Sahəsi 83,6 min km$^2$, əhalisi 2,5 milyon nəfərdir. BƏƏ-nin tərkibinə 7 əmirlik daxildir. Ali orqanı – Federal Milli Şuradır ki, prezidenti 5 il müddətinə seçir. Paytaxtı Əbu-Dabi şəhəridir. – 43,44.

**65. Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (ARDNŞ)** – respublikada neft və qazın kəşfiyyatına, çıxarılmasına və emal edilməsinə rəhbərlik edən qurum. 1991-ci ildə təşkil edilmişdir. Şirkət neft və qaz quyularının qazılması və istifadəyə verilməsi, nəql edilməsi və s. məqsədilə dünyanın bir sıra ölkələrinin iri neft şirkətləri ilə sazişlər, müqavilələr bağlamışdır. – 43, 126,153–163,199.

**66. «LUKoyl»** – neft şirkəti. 1993-cü ildə Rusiya Federasiyası hökumətinin qərarı ilə yaradılmışdır. Nəhəng sənaye-maliyyə kompleksinə malik olan «LUKoyl» şirkəti Rusiya, MDB və dünyanın bir çox ölkələrində neft məhsullarının kəşfiyyatı, hasilatı, emalı və satışı ilə məşğul olur. Şirkət 1993-cü ildən Azərbaycanda fəaliyyət göstərir. – 43,218.

**67. Türkmənistan,** T ü r k m ə n i s t a n  R e s p u b l i k a s ı – Orta Asiyanın cənub–qərbində dövlət. Sahəsi 488,1 min $km^2$, əhalisi 4574 min nəfərdir. İnzibati ərazisi 5 vilayətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı Məclisdir. Paytaxtı Aşqabaddır. – 43,298,339–341,363, 368,370.

**68. Qazaxıstan,** Q a z a x ı s t a n  R e s p u b l i k a s ı – Avroasiyanın mərkəzi hissəsində dövlət. Sahəsi 2724,9 min $km^2$, əhalisi 16 679 min nəfərdir. Paytaxtı Astana şəhəridir. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı Ali Sovetdir. – 43,53–56,77,83,298,299,339–341,364,365, 368,374.

**69. Zaid Bin Sultan əl-Nəhəyyan** (1949–2004) – Əbu-Dabi Əmirliyində 250 il hökmranlıq etmiş əl-Nəhəyyan sülaləsinin 14-cü hakimi olmuşdur. –44.

**70. Rumıniya** – Cənubi Avropada, Dunayın aşağı hövzəsində dövlət. Sahəsi 237,5 min $km^2$, əhalisi 22,7 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunvericilik orqanı ikipalatalı parlamentdir. Paytaxtı Buxarest şəhəridir. – 45.

**71. İon İliyesku** (d.1930) – Rumıniyanın siyasi və dövlət xadimi. 1989-cu ildə N.Çauşesku rejimi devrildikdən sonra ölkənin və dövlətin bütün məsuliyyətini öz üzərinə götürən Milli Dirçəliş Cəbhə Şurasına başçılıq edib. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif edilmişdir. 1992–96-cı və 2000–04-cü illərdə Rumıniyanın prezidenti olmuşdur. – 45.

**72. LAOS,** L a o s  X a l q  D e m o k r a t i k  R e s p u b l i k a s ı – Cənub–Şərqi Asiyada dövlət. Sahəsi 236,8 min $km^2$, əhalisi 5 milyon nəfərdir. Dövlət başçısı prezident, ali qanunverici orqanı birpalatalı Ali Xalq Məclisi, paytaxtı Vyentyan şəhəridir. – 46.

**73. Khamtay Siphandon** (d.1924) – general, Laosda inqilabi hərəkat xadimi. 1998–2006-cı illərdə Laosun prezidenti olmuşdur. – 46.

**74. Sloveniya,** S l o v e n i y a R e s p u b l i k a s ı – Mərkəzi Cənubi Avropada dövlət. Sahəsi 20,3 min km$^2$, əhalisi 1,96 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı (Dövlət Şurası və Dövlət Məclisi) parlamentdir. Paytaxtı Lyublyandır. – 50.

**75. Yanez Dmovşek** (1950–2008) – Yuqoslaviya və Sloveniya siyasətçisi. 1992–2000, 2000–2002-ci illərdə Baş nazir, 1989–1990-cı illərdə Yuqoslaviya Ali Məclisinin sədri, 2002–2007-ci illərdə Sloveniya prezidenti olmuşdur. – 50.

**76. Tailand,** T a i l a n d K r a l l ı ğ ı – Cənub–Şərqi Asiyada dövlət. Sahəsi 514 min km$^2$, əhalisi 60 milyon nəfərdir. Dövlət başçısı kraldır. Qanunverici orqanı ikipalatalı Milli Assambleyadır. İnzibati cəhətdən 73 çanqvata (əyalətə) bölünür. Paytaxtı Banqkok şəhəridir. – 51.

**77. Pumipon Abdulyadet** (d.1946) – 2003-cü ildən Tailandın 9-cu kralı. Milyarder Pumipon (35 milyard Amerika dolları) varidatının çox hissəsini inkişaf layihələrinin maliyyələşdirilməsinə sərf etmişdir. – 51.

**78. Finlandiya,** F i n l a n d i y a R e s p u b l i k a s ı – Şimali Avropada dövlət. Sahəsi 397 min km$^2$, əhalisi 5,13 milyon nəfərdir. İnzibati ərazisi 11 lyaniyə (əyalətə) bölünür. Aland adaları isə muxtar ərazidir. Dövlət başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Helsinki şəhəridir. – 52.

**79. Tarya Halonen** (d.1943) – Finlandiyanın ictimai və siyasi xadimi. Müxtəlif illərdə Ədliyyə, Sosial Müdafiə və Xarici İşlər nazirliklərinə başçılıq etmişdir. 2000-ci ildən Finlandiya Respublikasının prezidentidir. – 52.

**80. Nursultan Nazarbayev,** N u r s u l t a n A b i ş o ğ l u (d.1940) – Qazaxıstanın dövlət və siyasi xadimi. 1979-cu ildə Qazaxıstan MK-nın katibi, 1984-cü ildə Qazaxıstan Ali Sovetinin sədri, Nazirlər Sovetinin sədri, 1989–91-ci illərdə Qazaxıstan KP MK-nın Birinci katibi. 1990-cı ildə həm də Ali

Sovetin sədri, 1991-ci ildə Qazaxıstan SSR-in prezidenti və 1991-ci ilin dekabrından Qazaxıstan Respublikasının prezidentidir. – 53,54, 83,365,374.

**81**. **Amerika Birləşmiş Ştatları** (ABŞ) – Şimali Amerikada dövlət. Şimaldan Kanada, cənubdan Meksika, şərqdən Atlantik okeanı və qərbdən Sakit okeanla əhatə olunur. Ərazisi 9,14 milyon km$^2$, əhalisi 280 milyon nəfərə yaxındır. İnzibati cəhətdən 50 ştata bölünür. Ali qanunvericilik orqanı ikipalatalı (Nümayəndələr palatası və Senat) ABŞ Konqresidir. Dövlət başçısı prezidentdir. Paytaxtı Vaşinqton şəhəridir. – 55,116–118,142,185,233–238, 285,288,299,301–304,333,335,350,366.

**82. Gürcüstan,** G ü r c ü s t a n R e s p u b l i k a s ı – Cənubi Qafqazın mərkəzi və qərb hissəsində dövlət. Sahəsi 69,7 min km$^2$, əhalisi 5493 min nəfərdir. Dövlətin başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Tbilisi şəhəridir. – 55,127,288,299,319–320,335,339–341, 384.

**83. Devid Vudvord** (d.1946) – neftçi-mühəndis, 1999–2007-ci illər «*bp*–Azərbaycan» şirkətinin prezidenti. Bir çox ölkələrdə – Birləşmiş Ərəb Əmirliklərində, Norveç, Rusiya və ABŞ-da *bp* şirkətinin nümayəndəsi vəzifələrində işləmişdir. İngiltərənin «Müqəddəs Mixail» və «Müqəddəs Çeorgi», Gürcüstanın «Şərəf», Azərbaycan Respublikasının «Şöhrət» ordenləri ilə təltif olunmuşdur. –55,56.

**84. Şevardnadze,** E d u a r d A m v r o s i y e v i ç (d.1928) – Gürcüstanın və SSRİ-nin siyasi və dövlət xadimi. 1972–85-ci illərdə Gürcüstan KP MK-nın Birinci katibi, 1985–90-cı illərdə SSRİ Xarici İşlər naziri, 1994–2003-cü illərdə Gürcüstanın prezidenti olmuşdur. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. – 55,319–320,335–336,337–338,339–341.

**85. Əkrəm Əylisli,** N a i b o v Ə k r ə m N ə c ə f o ğ l u (d.1937) – Xalq yazıçısı. Azərbaycan komsomolu və M.F.Axundov adına mükafatları laureatı, 2005-2010-cu illərdə Milli Məclisin deputatı olmuşdur. Ə.Əylisli Azərbaycan Respublikasının «Şöhrət» və «İstiqlal» ordenləri ilə təltif edilmişdir. – 57.

**86. Ramazan bayramı –** müsəlman aləmində oruclug bitəndən sonra keçirilən bayram. Qurani–Kərim oruc tutmağı islamın vacib əməllərindən biri hesab etmiş və insanlarda yol verilmiş xataların oruc tutmaqla bağışlanmasını təsbit edir. Bu bayram bir də ona görə əzizdir ki, məhz Qurani-Kərim müqəddəs ramazan ayında nazil olmuşdur. Bu bayram bir fərdin deyil, bütün cəmiyyətin mənəvi sevinci, bu həyəcanın hamıya çatması, bütün müsəlmanları qəlbən qardaş sanmasıdır. – 58–63.

**87. Qurani–Kərim,** ə l - Q u r a n – müsəlmanların müqəddəs kitabı. Quranı Allah Cəbrayıl vasitəsilə Məhəmməd əleyhüssəlama göndərib. Quan qafiyəli nəsrlə yazılmış 114 surə və 6200-dən çox ayədən ibarətdir. «Məkkə surələrinə» (610–622, Məkkə, 90 surə) və «Mədinə surələrinə» (622–632, Mədinə, 24 surə) bölünür. – 58,62.

**88. Janna Dozortseva** (d.1935) – Rusiya Federasiyasının Əməkdar incəsənət xadimi, aparıcı musiqişünaslardan biri. – 68,72,73,74.

**89. Arif Məlikov,** A r i f C a h a n g i r o ğ l u (d.1933) – bəstəkar. Azərbaycan Respublikası və SSRİ Xalq artisti. 1961-ci ildə yazdığı «Məhəbbət əfsanəsi» baleti ona xüsusi şöhrət qazandırmışdır. Bu balet dünya ölkələrinin bir çox teatrlarında tamaşaya qoyulmuşdur. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. – 69.

**90. Rauf Abdullayev,** R a u f C a n b a x ı ş o ğ l u (d. 1937) – dirijor, Azərbaycan Respublikasının Xalq artisti. Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Simfonik Orkestrinin bədii rəhbəri və Baş dirijorudur. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 69,71,76,311,366.

**91. Səməd Vurğun,** S ə m ə d Y u s i f o ğ l u V ə k i l o v (1906–1956) – böyük Azərbaycan şairi, ictimai xadim. Azərbaycanın Xalq şairi. S.Vurğunun yaradıcılığı XX əsr Azərbaycan şeirinin inkişafında mühüm rol oynamışdır. S.Vurğun Azərbaycan Yazıçılar İttifaqının məsul katibi, sədri, Azərbaycanın Xarici Ölkələrlə Mədəni Əlaqələr Cəmiyyətinin sədri, Azərbaycan MEA-nın vitse prezidenti olmuşdur, iki dəfə SSRİ Dövlət mükafatı laureatı adına layiq görülmüşdür. – 70,93.

**92. Cəlil Məmmədquluzadə,** M i r z ə C ə l i l H ü s e y n q u l u o ğ l u (ədəbi təxəllüsü Molla Nəsrəddin; 1866–1932) – dahi Azərbaycan yazıçısı, jurnalist, ictimai xadim. Mirzə Cəlilin ictimai-ədəbi fəaliyyəti XIX əsrin 80-ci illərinin axırından XX əsrin 30-cu illərinə qədərki böyük tarixi dövrü əhatə edir. 40 illik yaradıcılığı boyu müxtəlif janrlarda yazdığı əsərləri ilə Mirzə Cəlil Azərbaycan realist ədəbiyyatının yüksək pilləyə qalxmasında müstəsna rol oynamışdır. 1906-cı il aprelin 7-də çıxan «Molla Nəsrəddin» jurnalının nəşrinə başlamaqla Mirzə Cəlil Azərbaycanda, eləcə də Yaxın Şərqdə satirik jurnalistikanın əsasını qoymuşdur. Bu zamandan Mirzə Cəlil Molla Nəsrəddin adı ilə məşhur oldu. – 70.

**93. Cəfər Cabbarlı,** C ə f ə r Q a f a r o ğ l u (1899–1934) – böyük Azərbaycan yazıçısı, dramaturq. Cabbarlı yaradıcılığı Azərbaycan ədəbiyyatının inkişafına böyük təsir göstərmiş, istedadlı dramaturqlar nəslinin yetişməsində mühüm rol oynamışdır. Cabbarlının zəngin irsi Azərbaycan ədəbiyyatı tarixində layiqli yer tutur. – 70.

**94. Vasif Adıgözəlov,** V a s i f Z ü l f ü o ğ l u (1936–2006) – bəstəkar. Azərbaycan Respublikasının Xalq artisti. Üzeyir Hacıbəyov adına Bakı Musiqi Akademiyasının professoru. Azərbaycan Bəstəkarlar İttifaqı İdarə Heyətinin 1-ci katibi olmuşdur. Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi, Azərbaycan Respublikası Dövlət mükafatı laureatıdır. O bir çox musiqi əsərinin, 1 operanın, 5 musiqili komediyanın, 3 oratoriyanın, vokal-simfonik əsərlərin müəllifidir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 70.

**95. Polad Bülbüloğlu** (d.1945) – bəstəkar, müğənni, dövlət xadimi. Azərbaycan Respublikasının Xalq artisti. 1988–2005-ci illər Azərbaycan Respublikasının Mədəniyyət naziri olmuşdur. Hazırda Azərbaycan Respublikasının Rusiya Federasiyasında Fövqəladə və Səlahiyyətli səfiridir. I çağırış Azərbaycan Respublikasının Milli Məclisinin deputatı olmuşdur. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif edilmişdir. – 70,72,75,76,106–107,358–366,372,373,378.

**96. Fidan Qasımova,** F i d a n Ə k r ə m q ı z ı (1947) – Azərbaycan müğənnisi. SSRİ və Azərbaycan Respublikasının Xalq artisti. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 71,74,77, 110–115,204–211,212.

**97. Xuraman Qasımova,** X u r a m a n Ə k r ə m q ı z ı (d.1951) – Azərbaycanın Xalq artisti. Azərbaycan Dövlət mükafatı laureatı. 1976–2006-cı illərdə Azərbaycan Dövlət Opera və Balet Teatrının solisti olmuşdur. Bir sıra kinofilmlərə çəkilmişdir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 71,77,110–115,204–211,212.

**98. Fərhad Bədəlbəyli** Ş ə m s i o ğ l u (d.1947) – Azərbaycan pianoçusu və musiqi xadimi. Ü.Hacıbəyov adına Bakı Musiqi Akademiyasının (1991) rektoru, professor. Azərbaycan Dövlət mükafatı laureatı. Azərbaycan və SSRİ Xalq artisti. B.Smetana və J.Viania da Motta adına beynəlxalq müsabiqələr laureatıdır. Azərbaycan piano məktəbini ləyaqətlə təmsil edən çoxlu sayda pianoçu yetişdirmiş istedadlı pedaqoqdur. Azərbaycan Respublikası Musiqi Xadimləri İttifaqının sədridir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 71.

**99. Sərvər Qəniyev,** Ş ə r v ə r S o l t a n o ğ l u (1937–2010) – skripkaçı, pedaqoq, professor. Azərbaycan Respublikasının Xalq artisti. 1991-ci ildən ömrünün sonunadək Bilkənd Universitetinin professoru, kamera və simfonik orkestrinin bədii rəhbəri və dirijoru olmuş, Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 71,72,73, 75,77.

**100. Azərbaycan Xalq Cəbhəsi** (AXC) – ictimai-siyasi təşkilat. 1989-cu ildə təsis konfransı keçirilmiş, Proqram və Nizamnaməsi qəbul olunmuşdur. 1999-cu il iyulun 25-də keçirilmiş qurultayının qərarı ilə Azərbaycan Xalq Cəbhəsi Partiyası adlandırılmışdır. – 73.

**101. Tofiq Quliyev,** T o f i q Ə l ə k b ə r o ğ l u (1917–2000) – görkəmli Azərbaycan bəstəkarı. Azərbaycan Respublikasının Xalq artisti. Tofiq Quliyev Azərbaycan estrada musiqisinin yaradıcılarındandır. Onun lirik mahnıları sadə, aydın və milli koloritlidir. 1973-cü ildən ömrünün axırınadək Azərbaycan Bəstəkarlar İttifaqı İdarə Heyətinin sədri olmuşdur. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif edilmişdir. – 73,206.

**102. Pənah Hüseynov,** P ə n a h Ç o d a r o ğ l u (d.1957) – Azərbaycan Respublikası Milli Məclisinin (2005–2010) üzvü. Milli Məclisin Təhlükəsizlik və Müdafiə məsələləri komitəsinin üzvü olmuşdur. 1993-cü ildə Azərbaycan Respublikasının Baş naziri vəzifəsində çalışmışdır. – 73.

**103. Qalina Pavlovna Vişnevskaya** (1926–2012) – görkəmli rus müğənnisi, SSRİ Xalq artisti. M.Rostropoviçin arvadı. 1952–74-cü illərdə Böyük Teatrın aparıcı solistlərindən biri olmuşdur. – 76.

**104. Müslüm Maqomayev,** M ü s l ü m M ə h ə m m ə d o ğ l u (1942–2008) – görkəmli müğənni, bəstəkar. Azərbaycan və SSRİ Xalq artisti. Bəstəkar Müslüm Maqomayevin nəvəsi. Keçmiş SSRİ məkanında və bir çox xarici ölkələrdə müvəffəqiyyətlə çıxış etmişdir. Azərbaycan Respublikasının «Şöhrət» və «İstiqlal» ordenləri ilə təltif edilmişdir. – 77,212–213.

**105. İhsan Doğramacı** (1915–2010) – türkdilli ölkələrin Milli Pediatriya Cəmiyyətləri Birliyinin fəxri prezidenti, elmlər doktoru, professor. 1963–65-ci illərdə Ankarada Uşaq Sağlamlığı İnstitutunun direktoru, 1977–93-cü illərdə institutun icraçı direktoru, 1992-ci ildən isə fəxri prezidenti, 1968–73-cü illərdə Pediatorların Tibb Assosiasiyasının prezidentidir. 1959-cu ildən YUNİSEF-in İcraiyyə Komitəsinin üzvü, iki dəfə Bilkənd Universitetinin sədri və rektoru olmuş, 1975-ci ildən isə universitetin fəxri rektoru. İ.Doğramacı Azərbaycan MEA-nın fəxri üzvü, Azərbaycan Dövlət Tibb Universitetinin fəxri doktoru olmuşdur. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. – 77.

**106. Keniya,** K e n i y a R e s p u b l i k a s ı – Şərqi Afrikada dövlət . Sahəsi 582,6 min $km^2$, əhalisi 29,1 milyon nəfərdir. İnzibati ərazisi 7 əyalətə və paytaxt mahalına bölünür. Millətlər Birliyinə daxildir. Dövlət və hökumət başçısı prezident, qanunverici orqanı birpalatalı Milli Məclisdir. Paytaxtı Nayrobi şəhəridir. – 79,243.

**107. Daniel Arap Moi** (d.1924) – Keniya siyasi və dövlət xadimi. 1978–2002-ci illərdə Keniya prezidenti olmuşdur. – 79.

**108. Niger,** N i g e r  F e d e r a t i v  R e s p u b l i k a s ı – Qərbi Afrikada dövlət. Sahəsi 924 min km$^2$, əhalisi 103,9 milyon nəfərdir. Millətlər Birliyinə daxildir. İnzibati ərazisi 30 ştata və bir mahala bölünür. Dövlət və hökumət başçısı prezidentdir. Paytaxtı Abusadır. – 80.

**109. Yaponiya** – Sakit okeanın Şərqi Asiya sahilləri yaxınlığındakı adalarda dövlət. Sahəsi 372 min km$^2$, əhalisi 126 milyon nəfərdir. İnzibati cəhətdən 47 prefekturaya bölünür. Yaponiya konstitusiyalı monarxiyadır. Paytaxtı Tokio şəhəridir**.** – 81,82,129,130,147,169,194,202,214–218.

**110. Akihito** (d.1933) – 1989-cu ildən Yaponiya imperatoru. İmperator Hirohitonun oğlu. – 81.

**111. Dzünitiro Koidzumı** (d.1942) – 2001–2006-cı illərdə Yaponiyanın Baş naziri olmuşdur. – 82.

**112. Bəhreyn,** B ə h r e y n  d ö v l ə t i – Cənub–Qərbi Asiyada dövlət (əmirlik). Sahəsi 0,69 min km$^2$, əhalisi 598 min nəfərdir. Bəhreyn konstitusiyalı monarxiyadır. Dövlət başçısı əmirdir. Paytaxtı Manamadır. – 84.

**113. Şeyx Həməd bin İsa əl-Xəlifə** (d.1950) – 1999-cu ildən Bəhreynin əmiri, 2001-ci ildən isə özünü kral elan etmişdir. Kral Bəhreyndə bir sıra siyasi islahatlar aparmış, eyni zamanda siyasi amnistiya və qadınlara seçkilərdə iştirak etmək hüququ vermişdir. – 84.

**114. Şekspir,** V i l y a m (1564–1616) – dahi ingilis dramaturqu və şairi. Şekspir 37 pyesin – komediyaların, tarixi dramların, faciələrin, poemaların, çoxlu sonetlərin müəllifidir. Dünya dramaturgiyasında faciənəvisliyin inkişafında Şekspirin əsərləri yeni mərhələdir. «Hamlet», «Otello», «Makbet», «Kral Lir», «Antoni və Kleopatra» faciələri dünya mədəniyyəti xəzinəsinə daxil olmuş, bütün xalqların sərvətinə çevrilmiş, müxtəlif dillərə tərcümə olunmuş, milli səhnələrdə təkrar-təkrar tamaşaya qoyulmuş, ekranlaşdırılmışdır. – 85–95,378.

**115. Əliabbas Qədirov,** Ə l i a b b a s  Q u l u  o ğ l u (1946–2006) – Azərbaycan Respublikasının Xalq artisti. Azərbaycan Dövlət mükafatı

laureatı. Əliabbas Qədirov Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında biri-birindən gözəl obrazlar yaratmışdır. Ona Əli Əmirlinin «Messenat» pyesindəki Hacı Zeynalabdin Tağıyevin obrazı daha çox şöhrət qazandırmışdır. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 85–95.

**116. Elçin Əfəndiyev,** E l ç i n  İ l y a s  o ğ l u (1943) – Azərbaycan yazıçısı, ictimai və dövlət xadimi. Xalq yazıçısı. Yazıçı İlyas Əfəndiyevin oğlu. Azərbaycan Yazıçılar Birliyinin katibi, Xaricdə Yaşayan Həmvətənlərlə Mədəni Əlaqələr – «Vətən» cəmiyyətinin sədri vəzifəsində işləmişdir. 1993-cü ildən Azərbaycan Respublikası Baş nazirinin müavinidir. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif edilmişdir. – 85–95,373.

**117. Fuad Poladov,** F u a d  A ğ a r ə h i m  o ğ l u (d.1948) – aktyor, fəlsəfi-dramatik və faciə rollarının gözəl ifaçısı. Azərbaycan Respublikasının Xalq artisti. 1969–89-cu ilə qədər Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında işləmişdir. 1989-cu ildən Səməd Vurğun adına Azərbaycan Dövlət Rus Dram Teatrının aktyorudur. Fuad Poladovun səhnədə yaratdığı bütün obrazların taleyi ifa baxımından uğurlu olmuşdur. – 85–95.

**118. Rafael Dadaşov,** R a f a e l  M ə l i k  o ğ l u (d.1946) – 1976-cı ildən Azərbaycan Milli Dram Teatrının artisti. Azərbaycan Respublikasının Xalq artisti. – 85–95.

**119. Səyavuş Aslan,** A s l a n o v  S ə y a v u ş  M ə m m ə d a ğ a  o ğ l u (d.1935) – aktyor. Azərbaycan Respublikasının Xalq artisti. Müxtəlif illərdə Şıxəli Qurbanov adına Azərbaycan Dövlət Musiqili Komediya Teatrının, hazırda isə Azərbaycan Milli Dram Teatrının artistidir. Səyavuş Aslanın aktyor sənəti üçün zəngin mimika və obrazı ən xırda incəliklərinədək açmaq bacarığı, milli kolorit səciyyəvidir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 85–95.

**120. Abbas Mirzə Şərifzadə,** A b b a s m i r z ə  M i r z ə  Ə b d ü l r ə s u l  o ğ l u (1893–1938) – Azərbaycan aktyoru, rejissor, teatr xadimi. Şərifzadə 30 illik səhnə fəaliyyəti ərzində milli, eləcə də dünya klassiklərinin

əsərlərində müxtəlif rollar oynamış, zəngin obrazlar qalereyası yaratmışdır. V.Şekspirin qəhrəmanları Şərifzadənin aktyorluq istedadının zirvəsidir. O, Hamlet, Otello və Makbet rollarının mahir ifaçılarından biri kimi tanınmışdır. Azərbaycan Respublikasının Xalq artisti. Azərbaycan xalqının ən dəyərli milli, ziyalı nümayəndələrini məhv edən sovet totalitar rejiminin qurbanlarındandır. – 86.

**121. Smoktunovski İnnokenti** (1925–1994) – rus teatr və kino aktyoru, SSRİ Xalq artisti. «Hamlet» filmindəki Hamlet rolu ona geniş şöhrət qazandırmışdır. Sosialist Əməyi Qəhrəmanı, Lenin mükafatı laureatı. – 86.

**122. Səyavuş Kərimi,** S ə y a v u ş Ə ş r ə f o ğ l u (d.1954) – tarzən, bəstəkar, ictimai xadim, professor. Azərbaycan Respublikasının Xalq artisti. 2001-ci ildən Azərbaycan Milli Konservatoriyasının rektorudur. – 87.

**123. Azərbaycan Dövlət Musiqili Komediya Teatrı,** Ş.Qurbanov adına Azərbaycan Dövlət Musiqili Komediya Teatrı–respublikanın ən böyük müsiqili teatrlarından biri. 1938-ci ilə qədər musiqili komediyalar Azərbaycan Opera və Balet Teatrında oynanılırdı. 1938-ci ildə müstəqil musiqili komediya teatrı yaradıldı. – 87.

**124. Miribrahim Həmzəyev,** İ b r a h i m T a ğ ı o ğ l u (1908–1982) – aktyor və rejissor. Azərbaycan Respublikasının Xalq artisti. 1937-ci ildən C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının aktyoru olmuşdur. 1940-cı ildən rejissor kimi də fəaliyyət göstərmişdir. – 90,92.

**125. Yaşar Nuriyev,** N u r i y e v Y a ş a r M ə m m ə d S a d i q o ğ l u (1951–2012) – Azərbaycan Respublikasının Xalq artisti. Professor. Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının aparıcı aktyorlarından biri olmuşdur. Kino və televiziya filmlərində də çəkilmişdir. İki dəfə Azərbaycan Dövlət mükafatı laureatı. – 91.

**126. Mehdi Məmmədov,** M e h d i Ə s ə d u l l a o ğ l u (1918–1987) – rejissor, aktyor, pedaqoq. SSRİ Xalq artisti. O, müxtəlif illərdə Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının, Azərbaycan Dövlət Rus Dram

Teatrının Baş rejissoru olmuşdur. Məmmədovun rejissorluq üslubu əsərin fəlsəfi mənasının qabarıq verilməsi ilə səciyyələnir. – 92.

**127. YUNİSEF,** BMT–nin U ş a q F o n d u – 1946-cı ildə təsis edilmişdir (1953-cü ildən indiki adı ilə adlanır). BMT-nin müəssisəsi olub uşaqlar üçün proqramlar üzrə fəaliyyəti əlaqələndirir, başlıca olaraq inkişaf etməkdə olan ölkələrə yardım göstərir. Maliyyə təsisatlarının mənbələrini hökumətlərin könüllü üzvlük haqları, ictimai təşkilatların, xüsusi şəxslərin və başqalarının ianələri təşkil edir. Fondun rəhbər orqanında – İdarə Heyətində 41 dövlət təmsil olunur. Katibliyi Nyu-Yorkda, şöbələri Avropa üzrə Cenevrədə, regionlar üzrə bir sıra inkişaf etməkdə olan ölkələrdə yerləşir. Nobel sülh mükafatı laureatıdır. – 96–102.

**128. İtaliya,** İ t a l i y a R e s p u b l i k a s ı – Avropanın cənubunda dövlət. Ərazisinə Alp dağlarının qərb yamacları, Radan düzənliyi, Apennin yarımadası, Siciliya və Sardiniya adaları daxildir. Sahəsi 301 min km$^2$, əhalisi 57,5 milyon nəfərdir. İnzibati cəhətdən 20 vilayətə bölünür. Paytaxtı Roma şəhəridir. – 103–104.

**129. «Eni»** – İtaliya neft və qaz kompaniyası. Mənzil-qərargahı Romadadır. 1953-cü ildə İtaliya dövləti tərəfindən yaradılmışdır. XX əsrin 90-cı illərində, XXI əsrin əvvəllərində bir hissəsi özəlləşdirilmişdir. «Eni» dünyanın 90 ölkəsində fəaliyyət göstərir. – 103.

**130. «Acip»** – dünyanın ən iri neft şirkətlərindən biri. İtaliyanın «Acip» şirkəti 1926-cı ildə yaradılmışdır. «Acip» 1995-ci ildən Azərbaycanın neft layihələrində fəal iştirak edir. Neftin kəşfiyyatı, çıxarılması və emalı ilə məşğul olur. – 103.

**131. Əli Nağıyev,** Ə l i T e y m u r o ğ l u (d.1954) – 1996–2006-cı illərdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi naziri olmuşdur. 2006-cı ildən Azərbaycan Respublikasının Belarus Respublikasında Fövqəladə və Səlahiyyətli səfiri. I çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur. – 104.

**132. Birləşmiş Millətlər Təşkilatı** (BMT) – müasir dünyanın ən nüfuzlu beynəlxalq təşkilatı. Qərargahı Nyu-York şəhərindədir. Əsas vəzifəsi beynəlxalq sülhü və təhlükəsizliyi qorumaq və möhkəmlətmək, dövlətlər arasında əməkdaşlığı inkişaf etdirməkdir. BMT-nin Nizamnaməsi 1945-ci il iyulun 26-da San-Fransisko konfransında 50 dövlətin nümayəndəsi tərəfindən imzalandı və 1945-ci il oktyabrın 24-də qüvvəyə mindi. Hazırda BMT-yə 198 dövlət daxildir.

BMT-nin əsas orqanları Baş Məclis, Təhlükəsizlik Şurası, İqtisadi və İctimai Şura, Qəyyumluq Şurası, Beynəlxalq Məhkəmə və Katiblikdir.

Azərbaycan Respublikası 1992-ci ildən BMT-nin üzvüdür.

Dövlətimizin apardığı uğurlu xarici siyasət nəticəsində Azərbaycan 2011-ci ilin oktyabr ayında BMT Təhlükəsizlik Surasına qeyri-daimi üzv qəbul olunmuşdur. – 104,184,127.

**133. Avropa Birliyi** (AB) – 1951–57-ci illərdə yaranmış üç Qərbi Avropa inteqrasiya təşkilatının ümumi adı (Avropa İqtisadi Birliyi – AİB, Avropa Kömür və Polad Birliyi – AKPB, Avropa Atom Enerjisi Birliyi – AAEB. AB ümumi prinsiplərin müəyyən edilməsindən birgə fəaliyyətə qədər (Avropa İnvestisiya Bankının, Avropa Regional İnkişaf Fondunun vahid valyuta qəbul etməsi – AVRO) bir neçə mərhələ keçmişdir. Mühüm mərhələ Vahid Avropa Aktının (1986-cı ildən qüvvəyə minmişdir) qəbul edilməsi olmuşdur. 1967-ci ildə rəhbər orqanların birləşməsindən sonra – AİB, AKPB və AAEB – Avropa Birliyi, 1993-cü ildə isə Avropa Şurası yarandı. – 104,169,224,225,226,262.

**134. Xatəmi,** Seyid Məhəmməd Xatəmi (d.1943) – İranın siyasi, ictimai və dövlət xadimi. 1989–92-ci illərdə İranın Mədəniyyət və İslam Oriyentasiyası naziri, 1997–2005-ci illərdə İran İslam Respublikasının prezidenti olmuşdur. – 105,106,107.

**135. Əli Səlimi** (1923–1992) – görkəmli Azərbaycan bəstəkarı, sənətşünaslıq elmləri doktoru. 1930-cu illərdə ailəsi ilə birlikdə Bakıdan İrana getmişdir. 1952-ci ildə Tehranda, 1978-ci ildə isə Təbrizdə ilk Azərbaycan xalq çalğı alətləri orkestrini yaratmışdır. 1972-ci ildə YUNESKO-da görkəmli Azərbaycan bəstəkarı adına xüsusi stend açılmışdır. Bəstəkarın 100-ə qədər mahnısı var. Onların içərisində «Ayrılıq» mahnısı xüsusi yer tutur. – 108.

**136. Təbriz** – İranda şəhər. Cənubi Azərbaycanın ən böyük şəhəri, iqtisadi və mədəniyyət mərkəzi, Şərqi Azərbaycan ostanının inzibati mərkəzi. Əhalisi 1,1 milyon nəfərdir.

Təbriz Azərbaycanın ən qədim şəhərlərindəndir. Şəhərin salınma tarixi haqqında müxtəlif fikirlər mövcuddur. Təbriz Rəvvadilər dövlətinin (852), Eldəgəzlər dövlətinin (1174), Ağqoyunlular dövlətinin (1468), Səfəvilər dövlətinin (1501) paytaxtı olmuşdur. XV–XVII əsrlərdə Təbriz Yaxın Şərqin mühüm sənətkarlıq və ticarət mərkəzlərindən idi. Təbrizi «Şərqin paytaxtı» da adlandırırdılar.

1826–28-ci illər Rusiya–İran müharibəsi nəticəsində Türkmənçay müqaviləsinə (1828) görə Təbriz İranın hakimiyyəti altında qaldı. – 108.

**137. Şəhriyar,** Məhəmmədhüseyn Hacı Mirağa oğlu (1906–1988) – görkəmli Azərbaycan şairi, XX əsr Cənubi Azərbaycan və İran poeziyasının ən böyük nümayəndələrindən biri. Azərbaycan və fars dillərində yazmışdır. Şairin «Heydərbabaya salam» poeması təkcə onun yaradıcılığında deyil, eləcə də bütün müasir Cənubi Azərbaycan poeziyasında yeni mərhələdir. Burada Cənubi Azərbaycan təbiətinin gözəllikləri, xalqın adət və ənənələri, ana yurduna tükənməz oğul məhəbbəti əlvan poetik boyalarla, canlı xalq dilində tərənnüm edilir. Poemada doğma yurdu Azərbaycanın ikiyə bölünməsini böyük ürək ağrısı ilə nəql edir. Poemanın ən böyük məziyyəti onun xəlqiliyindədir. Poema Cənubi Azərbaycanda anadilli poeziyaya geniş yol açmışdır. Şəhriyarın yaradıcılığı bütün türk dünyasında böyük şöhrət qazanmışdır. – 109.

**138. Lütfiyar İmanov,** Lütfiyar Müslüm oğlu (1928–2008) – Azərbaycan müğənnisi. Azərbaycan və SSRİ Xalq artisti. 1959-cu ildən ömrünün sonuna qədər M.F.Axundov adına Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının solisti olmuşdur. L.İmanov gözəl, məlahətli və geniş diapozonlu səsə malikdir. Onun repertuarında Azərbaycan xalq mahnıları, romanslar mühüm yer tutur. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 112.

**139. Hindistan,** Hindistan Respublikası – Cənubi Asiyada dövlət. Millətlər Birliyinin tərkibindədir. Ərazisi 3,3 milyon km$^2$, əhalisi 953 milyon nəfərdir. Hindistan inzibati cəhətdən 22 ştata və 7 müttəfiq əraziyə

bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Dehli şəhəridir. – 119–121,315,316,353.

**140. Cəvahirləl Hehru** (1889–1964) – Hindistan dövlət xadimi, milli azadlıq hərəkatı rəhbərlərindən biri. Siyasi və dövlət xadimi. Motiləl Hehrunun oğlu və Qandinin ən yaxın silahdaşı. 1947-ci ildə dominion Hindistanın Baş naziri, 1947–64-cü illərdə Hindistanın Baş naziri və Xarici İşlər naziri olmuşdur. Nehru bloklara qoşulmamaq hərəkatının siyasi rəhbərlərindən biri olmuşdur. Nehru tarixə «Yeni Hindistanın qurucusu» kimi düşmüşdür. – 120.

**141. Raciv Qandi** (1944–1991) – Hindistan dövlət xadimi. 1984–89-cu illərdə Hindistanın Baş naziri olmuşdur. Terrorçu tərəfindən öldürülmüşdür. – 120.

**142. «Atəşgah», Suraxanı atəşgədəsi** – Suraxanı qəsəbəsində atəşpərəst məbəd. Beşguşəli daxili həyəti əhatə edən hücrələrdən və həyətin ortasında tikilmiş üstü günbəzlə örtülən dördbucaqlı «od məbədindən» ibarətdir. Atəşgahın əsası, şübhəsiz ki, qədim zamanlarda qoyulmuşdur. Lakin indiki binanı XVIII əsrdə Hindistanın Multan vilayətindən gələn atəşpərəst tacir və zəvvarlar tikdirmişlər. Hücrələrin üzərindəki hind dilində yazılmış kitabələrdə atəşgədənin 1713-cü ildə tikildiyi göstərilir. – 121,322.

**143. Artur Rasizadə,** A r t u r   T a h i r   o ğ l u (d.1935) – Azərbaycanın dövlət xadimi. SSRİ Dövlət mükafatı laureatı. 1986–92-ci illərdə Azərbaycan Respublikası Baş nazirinin birinci müavini vəzifəsində işləyib. 1996-cı ildən Azərbaycan Respublikasının Baş naziridir. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. – 122–203,294,295.

**144. Oqtay Əsədov,** O q t a y   S a b i r   o ğ l u (d.1955) – ictimai xadim, mühəndis. 1996–2004-cü illərdə Abşeron Regional Səhmdar Su Cəmiyyətinin, 2004–2005-ci illərdə «Azərsu» Səhmdar Cəmiyyətinin prezidenti olmuşdur.

İkinci və üçüncü çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı, 2005-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin sədridir.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvüdür. – 122–203.

**145. Əli Həsənov,** Ə l i  Ş a m i l  o ğ l u (d.1948) – mühəndis-mexanik. 1998-ci ildən Azərbaycan Respublikası Baş nazirinin müavini, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədridir. 1995–2000-ci illərdə Milli Məclisin üzvü olmuşdur. – 122–203.

**146. Natiq Əliyev,** N a t i q  A g a ə l i  o ğ l u (d.1947) – 1993–2006-cı illərdə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti olmuşdur. Hazırda Azərbaycan Respublikası Sənaye və Energetika naziridir. Birinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 122–203.

**147. Hacıbala Abutalıbov,** H a c ı b a l a  İ b r a h i m  o ğ l u (d.1944) – Bakı Şəhəri İcra Hakimiyyətinin başçısı. Fizika-riyaziyyat elmləri doktorudur. – 122–203.

**148. «ANS» televiziyası** – Azərbaycanda 1991-ci ildən fəaliyyət göstərən müstəqil televiziya kanallarından biri. – 123,145,181,286–300,344.

**149. «Azəriqaz» – İstehsalat Birliyi** – ARDNŞ-in hasil etdiyi təbii qazın Rusiya, İran və Gürcüstana ixrac edilən nəqli ilə məşğuldur. «Azəriqaz» İstehsalat Birliyinin əsas vəzifəsi respublikanın istehlakçılarını fasiləsiz, keyfiyyətli və təhlükəsiz təbii qazla təmin etmək, abonentlərə yüksək səviyyəli xidmət göstərmək, qaz şəbəkəsini beynəlxalq standartlara uyğun yenidən qurmaqdan ibarətdir. – 124,137,144,154,157,160,171.

**150. «Azərenerji»** – Dövlət şirkəti. Elektrik sistemləri avadanlıqlarının texniki istismarı, elektrik enerjisi ötürülməsi, bölüşdürülməsi, generasiya güclərinin və şəbəkələrinin planlaşdırılması və inkişaf məsələlərini həll edir. – 126,127,129,131,179,182,196.

**151. Müstəqil Dövlətlər Birliyi** (MDB) – 1991-ci il dekabrın 8-də Belorusiya, Rusiya və Ukrayna dövlət başçılarının imzaladıqları saziş əsasında SSRİ dağıldıqdan sonra yeni dövlətlərarası birlik kimi yaradılmışdır. Azərbaycan 1993-cü ilin sentyabrında MDB-yə daxil olmuşdur. Tərkibinə keçmiş SSRİ-nin 12 müttəfiq respublikası – Azərbaycan, Belarus, Ermənistan, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Moldova, Özbəkistan, Rusiya, Tacikistan, Türkmənistan, Ukrayna daxildir. MDB-nin 1993-cü ildə qəbul edilmiş nizamnaməsində aşağı-

dakı birgə fəaliyyət sahələri nəzərdə tutulur: insan hüquq və azadlıqlarının təmin edilməsi; xarici siyasi fəaliyyətin əlaqələndirilməsi; ümumi iqtisadi məkanın formalaşdırılmasında, nəqliyyat sisteminin və rabitənin inkişafında əməkdaşlıq; əhalinin sağlamlığının və ətraf mühitin mühafizəsi; sosial və mühacirət məsələləri, mütəşəkkil cinayətkarlıqla mübarizə; müdafiə siyasətində və sərhədlərin qorunmasında əməkdaşlıq.

MDB-nin orqanları aşağıdakılardır: Dövlət başçıları Şurası; Hökumət başçıları Şurası; Xarici İşlər nazirləri Şurası; Dövlətlərarası iqtisadi Şura; Mərkəzi Sankt-Peterburq şəhərində olan Parlamentlərarası Assambleya və s. MDB-nin daimi fəaliyyət göstərən orqanı Minsk şəhərində yerləşən Əlaqələndirmə Məsləhət Komitəsidir. – 126,307–308,330–342,347–349,358–366,384.

**152. «Siemens»** – alman şirkəti. 1847-ci ildə yaradılmışdır. Bakıda numayəndəliyi 1998-ci ildə açılıb. Şirkət elektrik məhsulları və elektroavadanlıqların hazırlanması və tətbiqi sahəsində dünya liderlərindən biridir. İllik dövriyyəsi – 118 milyard dollardır. Bütün dünyada işçilərinin sayı 140 min nəfərdir. – 130.

**153. Avropa Yenidənqurma və İnkişaf Bankı –** Qərbi və Şərqi Avropa, MDB ölkələrini uzunmüddətli kreditlə təchiz edən regional dövlətlərarası bank. 1990-cı ildə yaradılmışdır. Londonda yerləşir. Bankın 57 üzvü var, həmçinin Avropa İnvestisiya Bankı və Avropa Birliyi ora daxildir. – 130.

**154. Florida** – ABŞ-ın cənubunda ştat. Sahəsi 152 min km$^2$, əhalisi 9,7 milyon nəfərdir. İnzibati-mərkəzi Tallahassi şəhəridir. Qış kuroqtudur. Kanaveral burnunda raket texnikası sınağı poliqonu və kosmodrom var. – 142,143.

**155. Alyaska** – ABŞ-da ştat. Sahəsi 1523 min km$^2$, əhalisi 607 min nəfərdir. XVII–XVIII əsrlərdə rus səyyahları tərəfindən kəşf edilmişdir. Burada bir sıra yaşayış məskənləri salınmış, Alyaskada Rusiya–Amerika şirkəti təsis edilmişdi. 1867-ci ildə Rusiya Alyaskanı ABŞ-a satmışdır. – 142,143.

**156. Şamaxı** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil olunmuşdur. Sahəsi 3848 km$^2$, əhalisi 83,1 min nəfərdir. – 145,146.

**157. Vahid Axundov** (d.1942) – iqtisadçı, elmlər doktoru, professor. 1993–2005-ci illərdə Azərbaycan Respublikası İqtisadi siyasət üzrə Dövlət müşaviri olmuşdur. – 150,151.

**158. Dünya Bankı** – BMT-nin hökumətlərarası ixtisaslaşdırılmış idarəsi. 1945-ci ildə ABŞ-da Bretton–Vuds çərçivəsi sistemində yaradılmışdır. İdarə heyəti Vaşinqtondadır. Məqsədi inkişaf etməkdə olan ölkələrin iqtisadi və sosial dirçəlişinə kömək etməkdir. Səhmdar cəmiyyəti formasındadır və iştirakçıları yalnız Beynəlxalq Valyuta Fondunun üzvləridir. Banka 130-dan artıq dövlət daxildir. 1992-ci ildən Azərbaycan Respublikası Dünya Bankının üzvüdür. – 152,167,322.

**159. «Pennzoyl» –** neft və təbii qaz ehtiyatlarının kəşfiyyatı, istismarı, sürtkü yağlarının istehsalı və satışı ilə məşğul olan şirkət. 1989-cu ildə yaradılmışdır. Mənzil-qərargahı ABŞ-ın Hyüston şəhərindədir. 10 min işçisi var.

«Pennzoyl» şirkəti Azərbaycanda 1992-ci ilin əvvəllərindən fəaliyyət göstərir. – 155,158.

**160. «İtera»** – Rusiya qaz şirkəti, Mənzil-qərargahı Moskvadadır. Qrup Şurasının sədri İqor Makarovdur. Kompaniya öz fəaliyyətinə ABŞ-da ticarət şirkəti kimi başlamışdır. 1994-cü ildə Türkmənistana şəkər satışından sonra türkmən təbii qazı ilə şəkər sazişi ödənildi. Bundan sonra «İtera» türkmən qazını Ukraynaya satmaqla, bütün keçmiş SSRİ məkanında qaz nəqlini genişləndirdi. «İtera» MDB-də qaz satışına görə ikinci yeri tutur. – 162,241–242.

**161. Həsən Əliyev,** H ə s ə n Ə l i r z a o ğ l u (1907–1993) – torpaqşünas, ümumi əkinçilik və təbiəti mühafizə sahəsində alim, ictimai-siyasi xadim. Elmlər doktoru, professor. Azərbaycan Milli EA-nın akademiki, Azərbaycan Dövlət mükafatı laureatı. Ayrı-ayrı illərdə Azərbaycan Milli EA Botanika İnstitutunun direktoru, Azərbaycan Kənd Təsərrüfatı nazirinin birinci müavini və Azərbaycan KP MK-nın katibi, Azərbaycan Milli EA-nın akademik katibi, Azərbaycan Milli EA Coğrafiya İnstitutunun direktoru vəzifələrində çalışmışdır. Azərbaycan SSR Ali Sovetinin (10–11-ci çağırış) deputatı olmuşdur. – 168.

**162. Oğuz** – Azərbaycan Respublikasında inzibati rayon. Şəki rayonunun ərazisi 1963–65-ci illərdə Oğuz rayonunun tərkibində olmuşdur. Şimalda Dağıstanla həmsərhəddir. Sahəsi 1077 km$^2$, əhalisi 37,7 min nəfərdir. – 168.

**163. Abid Şərifov,** A b i d Q o c a o ğ l u (d.1940) – inşaatçı. 1995-ci ildən Azərbaycan Respublikası Baş nazirinin müavinidir. – 169,190,216.

**164. Asiya Bankı,** A s i y a İ n k i ş a f B a n k ı – Asiya və Sakit okean hövzəsi ölkələrində inkişaf layihələrinə uzunmüddətli kredit verən beynəlxalq regional bank. Əsası 1966-cı ildə qoyulmuşdur. Asiya İnkişaf Bankına 50-yə yaxın ölkə daxildir. Əsas auksionerləri Yaponiya, ABŞ və Çindir. Mənzil-qərargahı Maniladadır (Filippin). – 169.

**165. Bərdə** – Azərbaycan Respublikasında rayon.1930-cu ildə təşkil edilmişdir. Sahəsi 957 km$^2$, əhalisi 132,9 min nəfərdir. – 180,181.

**166. Biləsuvar** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. 1938-ci ilədək Biləsuvar rayonu, 1938-ci ildən Puşkin rayonu adlanmışdır. 1963-cü ildə ləğv edilərək ərazisi Cəlilabad rayonu ilə birləşdirilmiş, 1964-cü ildə yenidən müstəqil rayon olmuşdur. SSRİ-nin süqutundan sonra – 1991-ci ildə rayona öz tarixi adı qaytarılmışdır. Sahəsi 1393 km$^2$, əhalisi 78,0 min nəfərdir. – 180,203.

**167. Avropa Şurası** (AŞ) – Avropada hökumətlərarası təşkilat. 1949-cu ildə yaradılmışdır. Qərargahı Fransanın Strasburq şəhərində yerləşir. AŞ-nın əsas məqsədi Avropada sülhü və təhlükəsizliyi qorumaq, seçki sistemində çoxpartiyalılığa riayət etmək, demokratiyanı və insan hüquqlarını müdafiə etmək, möhkəmləndirmək, Avropa ölkələrinin mədəniyyətlərinin yaxınlaşmasına çalışmaq və s. ibarətdir. AŞ-nın ali orqanları Nazirlər Komitəsi, Məsləhət Assambleyası, Sahə Nazirliklərinin Müşavirəsi və Katiblikdir. Azərbaycan 2001-ci ildən AŞ-nın üzvüdür. – 184,330, 331,332.

**168. Murtuz Ələsgərov,** M u r t u z N ə c ə f o ğ l u (1928–2012) – Azərbaycanın dövlət xadimi, hüquq elmləri doktoru, professor. Respublikanın Əməkdar hüquqşünası. Yeni Azərbaycan Partiyasının sədr müavini və parti-

yanın Siyasi Şurasının üzvü, 1996–2005-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin sədri olmuşdur. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. – 122–203,313.

**169. Ukrayna,** U k r a y n a R e s p u b l i k a s ı – Cənub–Şərqi Avropada dövlət. Ərazisi 603,7 min km$^2$, əhalisi 45,6 milyon nəfərdir. Ukraynanın tərkibinə 24 vilayət və Krım Respublikası daxildir. Dövlət başçısı prezident, qanunverici orqanı – Ali Radadır. Paytaxtı Kiyev şəhəridir. – 192,219,308,330–342,343,347–349.

**170. Ağdam** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1094 km$^2$, əhalisi 101,6 min nəfər. 1993-cü ildə Ağdam şəhəri və əksər kəndləri erməni qəsbkarları tərəfindən işğal edilmişdir. – 202,203.

**171. Yevlax** – Azərbaycan Respublikasında inzibati rayon. 1935-ci ildə təşkil edilmişdir. 1963-cü ildə ləğv ediləcək ərazisi Ağdaş, Bərdə, Goranboy rayonlarına verilmiş, 1965-ci ildə yenidən müstəqil rayon olmuşdur. Sahəsi 1555 km$^2$, əhalisi 110,0 min nəfərdir. – 203.

**172. Şəmkir rayonu** (1930–91-ci illərdə Şamxor rayonu) – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Kiçik Qafqazın şimal–şərq yamacında, Gəncə–Qazax düzənliyində və Acınohur öndağlığında yerləşir. Sahəsi 1656,8 km$^2$, əhalisi 183,5 min nəfərdir. – 203.

**173. Şövkət Məmmədova,** Ş ö v k ə t H ə s ə n q ı z ı (1897–1981) – Azərbaycan müğənnisi, pedaqoq, musiqi xadimi, ilk azərbaycanlı professional qadın müğənni. SSRİ Xalq artisti. İki dəfə Milanda (1911,1927–29) məşhur Qərb müğənnilərindən dərs almışdır. Güclü musiqi duyumu və yüksək vokal mədəniyyətinə, məlahətli, axıcı səsə malik olan Ş.Məmmədovanın ifası, həmçinin aktyorluq məharəti ilə fərqlənmişdir. O, Azərbaycan opera səhnəsində rus və dünya vokal sənətinin ən yaxşı ənənələrini milli musiqi xüsusiyyətləri ilə əlaqələndirmişdir. – 207,212.

**174. Fatma Muxtarova,** F a t m a S ə t t a r q ı z ı (1893–1972) – Azərbaycan müğənnisi. Respublikanın Xalq artisti. Fitri istedada, güclü və gözəl səsə, yüksək aktyorluq məharətinə, coşğun temperamentə malik Muxtarovanın ifası təbiiliyi, müstəsna emosionallığı ilə fərqlənmişdir. Onun yaratdığı Karmen obrazı opera ifaçılığı sənətində əhəmiyyətli yer tutur. – 207.

**175. Tamara Sinyavskaya** (d.1943) – məşhur rus müğənnisi. Moskva Böyük Teatrının solisti. Azərbaycan və SSRİ Xalq artisti. – 212–213.

**176. Firəngiz Əhmədova,** F i r ə n g i z Y u s i f q ı z ı (1928–2011) – Azərbaycan müğənnisi, SSRİ Xalq artisti. F.Əhmədova Azərbaycan, rus və Qərbi Avropa bəstəkarlarının operalarında müvəffəqiyyətlə çıxış edib. O, kamera-vokal əsərlər ifaçısı kimi də məşhurdur. – 213.

**177. Haşimoto Ryutaro** (1937–2006) – yapon siyasi xadimi. 1996–98-ci illərdə Yaponiyanın Baş naziri olmuşdur. – 216.

**178. Bakı Dövlət Universiteti** (BDU) – Azərbaycanda elmi-pedaqoji kadrlar hazırlayan ən böyük ali təhsil ocağı, elmi-tədqiqat müəssisəsi. 1919-cu ildə yaradılmışdır. İlk vaxtlar tibb və tarix–filologiya fakültələri fəaliyyət göstərmişdir. Hazırda BDU-nun 17 fakültəsi, onlarla kafedrası, elmi-tədqiqat laboratoriyası və s. var. Universitetdə 55 ixtisas üzrə 18 minə yaxın tələbə təhsil alır. – 217.

**179. Leonid Daniloviç Kuçma** (d.1938) – Ukraynanın siyasi və dövlət xadimi. 1994–2005-ci illərdə Ukrayna Respublikasının prezidenti olmuşdur. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. – 219,308,330,337,338,339–341,343,344,347,364.

**180. Fidel Kastro,** K a s t r o R u s (d.1926) – 1960–2008-ci illərdə Kuba Respublikası Dövlət Şurası və Nazirlər Sovetinin sədri, 1965-ci ildən Kuba KP MK-nın Birinci katibi və Kuba Silahlı Qüvvələrinin Baş komandanı. 1953-cü ildə Batista diktaturasına qarşı silahlı üsyana başçılıq etmişdir. – 220.

**181. Sudan,** S u d a n  R e s p u b l i k a s ı – Şimal–Şərqi Afrikada dövlət. Sahəsi 2,5 milyon km$^2$, əhalisi 31 milyon nəfərdir. İnzibati ərazisi 9 ştata bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı (parlament) Ali Milli Şuradır. Paytaxtı Xartumdur. –221.

**182**. **Ömər Həsən əl-Bəşir** (d.1944) – Sudan hərbi və dövlət xadimi, prezident. 1989-cu ildə hərbi çevrilişdən sonra hakimiyyətə gəlmişdir. – 221.

**183. Ankara** – Türkiyənin paytaxtı. Kiçik Asiyanın ən qədim şəhərlərindəndir. VII əsrdə Frigiya padşahı Midas tərəfindən salınmışdır. XIV əsrin 1-ci yarısından Osmanlı imperiyasında paşalıq, sancaq və vilayət mərkəzi olmuşdur. 1923-cü ildən Türkiyə Respublikasının paytaxtıdır. – 222,299,380.

**184. Raykin Arkadi İsaakoviç** (1911–1987) – rus estrada artisti. SSRİ Xalq artisti, Sosialist Əməyi Qəhrəmanı, Lenin mükafatı laureatı. 1939-cu ildən Leninqrad Miniatür Teatrının əvvəlcə artisti, sonradan bədii rəhbəri və quruluşçu rejissoru olmuşdur. – 223.

**185. Şimali Kipr Türk Cümhuriyyəti** – 1974-cü ildə Yunanıstanda hakimiyyətə gəlmiş hərbi xunta Kiprin yunan irticaçıları ilə birlikdə Kipri Yunanıstana birləşdirmək məqsədilə ölkədə hərbi çevriliş etdilər və prezident Makariosu hakimiyyətdən uzaqlaşdırdılar. Bundan narahat olan Türkiyə Respublikası Kiprin türk icmasını müdafiə etmək məqsədilə oraya hərbi qüvvələr yeritdi və türk icması yaşayan ərazini yunan irticaçılarından təmizlədi. 1975-ci ildə Türkiyə–Kipr administrasıyası bu ərazidə federativ türk dövləti – Kipr Respublikasını elan etdilər. 1983-cü ildə bu dövlətin qanunverici orqanı Şimali Kipr Türk Respublikası (ŞKTR) – Kıbrıs elan etdi. – 224,228,262.

**186. Dağlıq Qarabağ Muxtar Vilayəti** – Azərbaycan Respublikası ərazisində muxtar vilayət. 1923-cü il iyulun 7-də təşkil edilmişdir. Dağlıq Qarabağda 1988-ci ilə qədər 170 min əhali yaşayırdı. Ərazisi 4 min km$^2$-dir. Mərkəzi Xankəndidir.

1988-ci ildə muxtar vilayətin erməni separatçıları və millətçiləri Ermənistan silahlı qüvvələri ilə birlikdə bu ərazidə yaşayan azərbaycanlıları doğma torpaqlarından çıxararaq Dağlıq Qarabağı işğal etdilər. BMT-nin 822, 853, 874, 884

saylı qətnamələrinə görə, erməni işğalçıları Azərbaycan torpaqlarını qeyd-şərtsiz tərk etməlidirlər. Ancaq Azərbaycan torpaqları hələ də erməni tapdağı altındadır. – 225,228,229,231,237,246,259,272,273,287,335,338.

**187. Ərdoğan Rəcəb Tayyib** (d.1954) – Türkiyə siyasi və dövlət xadimi. R.T.Ərdoğan 1980-ci ildən siyasi fəaliyyətə qoşulmuşdur. 1994-cü ilin martında İstanbul Böyük Şəhər Bələdiyyəsinin sədri, Ədalət və İnkişaf Partiyasının lideri.

2002-ci ildə keçirilən növbədənkənar seçkilər nəticəsində Ədalət və İnkişaf Partiyası təkbaşına hakimiyyətə gəlmək imkanı əldə etdi və Ərdoğan TBMM-də Türkiyənin Baş naziri seçildi. – 226,258–280,373.

**188. NATO** (Şimali Atlantika Müqaviləsi Təşkilatı) – hərbi-siyasi ittifaq. 1949-cu il aprelin 4-də Vaşinqtonda ABŞ, Böyük Britaniya, Fransa, Belçika, Niderland, Lüksemburq, Kanada, İtaliya, Portuqaliya, Norveç, Danimarka, İslandiyanın imzaladıqları Şimali Atlantika müqaviləsi əsasında yaradılmışdır. 1952-ci ildə Yunanıstan və Türkiyə, 1955-ci ildə Almaniya Federativ Respublikası, 1982-ci ildə İspaniya NATO-ya qoşulmuşlar. Varşava Müqaviləsi Təşkilatı dağıldıqdan (1990) sonra əvvəllər sosialist ölkələri düşərgəsinə daxil olmuş ölkələrin bir qismi NATO-ya üzvlüyə qəbul edilmiş, digər qismi isə ilkin mərhələ kimi, NATO-nun «Sülh naminə tərəfdaşlıq» proqramına qoşulmuşlar. Ali orqanı NATO Şurasının sessiyasıdır. Mənzil-qərargahı Brüsseldədir. – 227,259,262,348.

**189. Bakı–Tbilisi–Ərzurum** – Cənubi Qafqaz qaz kəməri. Rəsmən 2007-ci ildə açılmışdır. Kəmərin diametri 420 mm, uzunluğu 970 km-dir (442 km Azərbaycandan, 248 km Gürcüstandan, 280 km isə Gürcüstan–Türkiyə sərhədindən Ərzuruma qədərdir). Kəmərə qaz «Şahdəniz»dən ötürülür. – 230,260,269.

**190. Milad bayramı** – İsa peyğəmbərin anadan olması şərəfinə keçirilən xristian bayramı. Dekabrın 25-də qeyd edilir. Milad bayramının ilkin mənbəyi hər il qış günəş duruşu zamanı (21–25 dekabr) xilaskar Allahın «doğulması» ilə əlaqədar keçirilən qədim bütpərəst mərasim bayramı olmuşdur. Milad bayramını ilk dəfə Roma xristian icmaları keçirmişdir. Milad bayramı 431-ci ildə Efes kilsə yığıncağında qanuniləşdirilmişdir. – 233,255.

**191. Ross Uilson** (d.1955) **–** 2000–2003-cü illərdə Amerika Birləşmiş Ştatlarının Azərbaycanda Fövqəladə və Səlahiyyətli səfiri olmuşdur. Hazırda Ross Uilson Türkiyədə ABŞ-ın səfiri vəzifəsində çalışır. – 233–238.

**192. Kolin Pauell** (d.1937) – Amerika generalı. Prezident Corc Buş (ata) zamanında (1980–89,1989–92) Dövlət katibi olmuşdur. –

**193. Riçard Armitac** – R.Reyqanın prezidentliyi dövründə (1980–1988) Müdafiə nazirinin beynəlxalq təhlükəsizlik üzrə müşaviri olmuşdur. Corc Buşun (ata) prezidentliyi dövründə (1988–1992) xüsusi tapşırıqlar üzrə səfir işləyərkən yeni müstəqil dövlətlərə yardım göstərmək proqramının müəlliflərindən biri olmuşdur. Həmin vaxtdan 907-ci düzəlişin əleyhinə çıxır. Amerika–Azərbaycan Ticarət Palatası Direktorlar Şurasının üzvüdür. «Armitac Assoşieyts El Si» şirkətinin sahiblərindən biridir. – 233,235,238.

**194. ATƏT-in Minsk qrupu** – 1992-ci il martın 24-də yaradılmışdır. 1997-ci ildə Minsk qrupunun tərkibinə aşağıdakı dövlətlər daxil olmuşdur: Azərbaycan, Ermənistan, Belarus, Almaniya, İtaliya, Rusiya, ABŞ, Fransa, Türkiyə, Danimarka və İsveç. 1994-cü ilin dekabrından Minsk qrupuna iki sədr – Rusiya və İtaliya rəhbərlik edirdi. 1996-cı ilin dekabrından onun üç – Rusiya, ABŞ və fransalı həmsədrləri var. Qrupun əsas vəzifəsi Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasına və Dağlıq Qarabağ probleminin dinc vasitələrlə həll edilməsinə bilavasitə kömək etməkdir. – 235,237,272,273,335.

**195. «Şahdəniz» –** Azərbaycanın Xəzər dənizi sektorunda ən böyük və ən zəngin qaz yataqlarından biri. – 237.

**196. Corc Buş** (d.1946) – ABŞ-ın 43-cü prezidenti (2000–2008-ci illər). ABŞ-ın 41-ci prezidenti Corc Herbert Buşun oğludur. 1968-ci ildə Yel universitetini (incəsənət, tarix bakalavrı), 1975-ci ildə isə Harvard universitetini (incəsənət magistri) bitirmişdir. «Speaktrum-7 Enerci Korporeyşn» firmasının yaradıcısıdır. 1994-cü ildən Texas ştatının qubernatoru olmuşdur. – 238,285,350.

**197. Nepal,** N e p a l K r a l l ı ğ ı – Cənubi Asiyada dövlət. Sahəsi 140,8 min km$^2$, əhalisi 15 milyondan çoxdur. İnzibati cəhətdən 14 zonaya bölünür. Nepal konstitusiyalı monarxiyadır. Dövlət başçısı kral, qanunverici orqan Milli Pançayatdır. Paytaxtı Katmandudur. – 239.

**198. Qvanendra Bir Bikram Şah Dev** (d.1947) – Nepal kralı. 2006-cı ildə ölkədə olan bir sıra etiraz tətillərinə görə Nepal kralı ölkənin bir çox vəzifələrindən məhrum edilmişdir. – 239.

**199. Özbəkistan,** Ö z b ə k i s t a n R e s p u b l i k a s ı – Orta Asiyanın mərkəzində dövlət. Sahəsi 447,4 min km$^2$, əhalisi 23 206 min nəfərdir. Özbəkistanın tərkibinə Qarakalpak Muxtar Respublikası və 12 vilayət daxildir. Dövlətin başçısı – prezident, qanunverici orqanı – Məclisdir. Paytaxtı Daşkənd səhəridir. – 242,299,329,363.

**200. İslam Kərimov,** İ s l a m Ə b d u q ə n i o ğ l u (d.1938) – Özbəkistanın siyasi və dövlət xadimi. 1989–90-cı illərdə Özbəkistan KP MK-nın Birinci katibi olmuşdur. 1990-cı ildən Özbəkistan Respublikasının prezidentidir. – 242,329.

**201. Azərbaycan Milli Elmlər Akademiyası** – Azərbaycan Respublikasında elmin inkişafını təşkil və təmin edən, dövlətin elmi və elmi-texniki siyasətini həyata keçirən ali dövlət elmi təşkilatı. 1945-ci ildə Bakıda təsis edilmişdir. 2001-ci ilin may ayından Azərbaycan Milli Elmlər Akademiyası adlanır. Azərbaycan Milli EA-nın aşağıdakı bölmələri var: fizika; texnika və riyaziyyat elmləri; kimya elmləri; yer elmləri; biologiya elmləri; aqrar elmləri; humanitar və ictimai elmlər. Burada elmin müxtəlif sahələrinə dair aktual problemlər üzərində tədqiqat işləri aparılır. Hər il onlarla elmi işin nəticəsi istehsalatda tətbiq olunur. – 252–254,301,303.

**202. Mahmud Kərimov,** M a h m u d K ə r i m o ğ l u (d.1948) – fizik, fizika–riyaziyyat elmləri doktoru, professor. Azərbaycan Milli Elmlər Akademiyasının akademiki və prezidenti. İlk dəfə olaraq yüksək molekullu sistemlərdə güclü elektrik və maqnit sahəsinin təsiri ilə baş verən elementar elektrik və molekulyar prosesləri, elektrik və fotoelektrik keçiricilərinin maqnit spin effektlərini tədqiq etmişdir. Bir sıra

ixtisaslaşdırılmış elmi şuraların üzvüdür. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 252–254,301.

**203. İkinci dünya müharibəsi** (1939–45) – Almaniya, İtaliya və Yaponiya tərəfindən başlanmış böyük müharibə. İkinci dünya müharibəsi 1939-cu il sentyabrın 1-də Almaniyanın Polşaya girməsi ilə başlandı. Sentyabrın 3-də Böyük Britaniya və Fransa Almaniyaya müharibə elan etdi. 1940-cı ilin ortalarından alman qoşunları Danimarka, Norveç, Belçika, Niderland, Lüksemburq, sonra isə Fransanı işğal etdi.

1941-ci il iyunun 22-də Almaniya SSRİ-yə qarşı müharibə elan etdi. 1942–43-cü illərdə sovet ordusunun Stalinqrad və Kursk vuruşmalarında qələbəsi Almaniyanı qəti surətdə sarsıtdı.

1945-ci il mayın 2-də sovet ordusu Berlini aldı. Mayın 8-də Karlsxorstda (Berlin yaxınlığında) Almaniyanın danışıqsız təslim olması haqqında akt imzalandı.

Yaponiyanın təslim olması haqqında sənəd isə sentyabrın 2-də imzalandı. Bununla İkinci dünya müharibəsi qurtardı. İkinci dünya müharibəsində 72 ölkə iştirak etmişdir. Müharibədə iştirak edən ölkələrin silahlı qüvvələrinə 110 milyon adam çağırılmışdı. Müharibədə 62 milyon adam həlak olmuş, minlərlə şəhər, qəsəbə və kənd dağılmışdı. – 253.

**204. İspaniya** – Cənub–Qərbi Avropada dövlət. Sahəsi 504,8 min km$^2$, əhalisi 39,3 milyon nəfərdir. İnzibati ərazisi 17 muxtar vilayətə daxil olan 50 əyalətə bölünür. İspaniya konstitusiyalı monarxiyadır. Dövlət başçısı kral, qanunverici orqanı korteslərdir (ikipalatalı parlament). Afrikanın şimal sahilindəki Seuta və Melilya şəhər rayonları da İspaniyanın mülküdür. Paytaxtı Madriddir. – 257.

**205. I Xuan Karlos** (d.1938) – İspaniya kralı. 1975-ci ildə diktator Frankonun ölümündən sonra kral elan edilmişdir. –257.

**206. Türkiyə Ədalət və İnkişaf Partiyası** (Adelet və Kalkınma Partisi) – hal-hazırda Türkiyədə hakimiyyətdə olan partiya. 2002-ci ildə Rəcəb Tayyib Ərdoğan və Abdullah Gül tərəfindən yaradılmışdır. – 258–280.

**207. Şəhidlər xiyabanı.** Azərbaycanın azadlığı, müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olmuş mərd oğul və qızların uyuduğu müqəddəs ziyarətgah. 1990-cı il yanvarın 20-də sovet ordusunun hücumu zamanı həlak olmuş onlarla adam «Dağüstü park»ın qərb hissəsində dəfn edilmişdir. Bura o vaxtdan «Şəhidlər xiyabanı» adlanır. Xiyabanda eyni zamanda Ermənistan işğalçılarına qarşı Azərbaycan torpaqlarının müdafiəsi uğrunda qəhrəmancasına həlak olanlar da dəfn edilmişdir. 1998-ci ildə burada hündürlüyü 22 metr olan əbədi məşəl – abidə qoyulmuşdur. – 277,312–313,322.

**208. Litva,** L i t v a  R e s p u b l i k a s ı – Şərqi Avropada – Pribaltikada dövlət. Sahəsi 65,2 min $km^2$, əhalisi 3797 min nəfərdir. İnzibati ərazisi 44 rayona bölünür və respublika tabeçiliyinə 11 şəhər daxildir. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı Seymdir. Paytaxtı Vilnüsdür. – 283.

**209. Rolandas Paksas** (d.1956) – Litva siyasi xadimi. 2003–2004-cü illərdə Litva prezidenti. Avropa ölkəsinin ilk rəhbəridir ki, impiçmentlə əlaqədar vəzifəsindən uzaqlaşdırılıb. – 283.

**210. Əhməd Necdət Sezər** (d.1941) – 2000–2007-ci illərdə Türkiyə prezidenti. 1962–83-cü illərdə bir sıra məsul vəzifələrdə çalışmış, 1998–2000-ci illərdə Türkiyə Konstitusiya Məhkəməsinin sədri olmuşdur. – 284.

**211. Çingiz Mustafayev,** Ç i n g i z  F u a d  o ğ l u (1960–1992) telejurnalist. Azərbaycan Respublikasının Milli Qəhrəmanı. – 286–300.

**212. Qəbələ RLS,** Q ə b ə l ə  r a d i o l o k a s i y a  s t a n s i y a s ı – Rusiyanın raketdən müdafiə «daryal» tipli radiolokasiya stansiyası. Azərbaycanda Qəbələ şəhəri yaxınlığındadır. Azərbaycan müstəqil olandan sonra Rusiya RLS-i icarəyə götürmüşdür. – 288,289,292,298.

**213. I Napoleon,** N a p o l e o n  B o n a p a r t (1769–1821) – 1804–14 və 1815-ci illərdə Fransa inperatoru. Napoleon istedadlı sərkərdə kimi, Fransa tarixində özünə layiqli yer tutmuşdur. Napoleon fitri istedada, müstəsna işgüzarlığa, dərin zəkaya və yenilməz iradəyə malik bir şəxsiyyət idi. – 291.

**214. Osmanlı imperiyası,** O s m a n l ı  i m p e r a t o r l u ğ u – Sultan Türkiyəsinin rəsmi adı (Osmanlılar sülaləsinin əsasını qoymuş I Osmanın adındandır). XV əsrin 2-ci yarısından Osmanlı dövləti imperiyaya çevrilməyə başlamış, XV–XVI əsrlərdə bəzi Asiya, Avropa və Afrika ölkələrini fəth edib dünyanın ən böyük dövlətlərindən biri olmuşdur. 1918-ci ildə Birinci dünya müharibəsindəki məğlubiyyətdən sonra tamamilə dağıldı, 1922-ci ildə Türkiyə sultanlığına da son qoyuldu. – 291.

**215. III Səlim** (1761–1808) – Osmanlı hökmdarı (1789–1807). Osmanlı imperiyasını böhrandan xilas etmək məqsədilə islahatlar keçirməyə təşəbbüs göstərmişdir. Onun göstərişilə mülki və dini xadimlərin bir qrupu «Nizami-cədid» «Yeni qaydalar» adlanan mütərəqqi islahatlar hazırlayıb həyata keçirməyə başladı. Bu islahatlar irticaçı feodalların etirazına səbəb oldu; yeniçərilər arasında həyəcan başlandı. Qətiyyətsizlik göstərən III Səlim 1807-ci il mayın 29-da taxtdan salındı və bir ildən sonra öldürüldü. – 291.

**216. Çörçill,** U i n s t o n  L e o n a r d  S p e n s e r (1874–1965) – Böyük Britaniyanın görkəmli dövlət, siyasi və hərbi xadimi, 1940–45, 1951–55-ci illərdə Böyük Britaniyanın Baş naziri. Çörçill İkinci dünya müharibəsi zamanı Britaniya xalqının «mətanət» rəmzi, ABŞ və SSRİ ilə antihitler koalisiyasının təşəbbüsçülərindən biri olmuşdur.

Görçill bir sıra publisistik əsərlərin və memuarların müəllifidir. Ədəbiyyat üzrə Nobel mükafatı laureatıdır. – 291.

**217. «Space»** – Azərbaycanda müstəqil teleşirkət. 1997-ci ildə yaradılmışdır. Dünyanın bir sıra – MSM, Fashion TV, CNN, NTV telekanalları, İHLAS agentliyi ilə əməkdaşlıq edir. – 296.

**218.** «**Lider»–** Azərbaycanda televiziya kanalı. 2000-ci ildən fəaliyyətə başlamışdır. «Lider Tv-Radio– Azərbaycan» MMC-nin nəzdində fəaliyyət göstərən telekanalın əsas meyarı özəl, professional və rəngarəng proqramların hazırlanmasıdır. 2001-ci ildən «Lider» televiziyası dünya teleməkanına daxil olaraq, dünyaya yayımlanmağa başlamışdır. – 296.

**219**. **ATƏT-in İstanbul Zirvə görüşü** – 1999-cu il noyabrın 18–20-də Türkiyənin İstanbul şəhərində ATƏT-in üzvü olan ölkələrin dövlət və

hökumət başçılarının iştirakı ilə keçirildi. Bu, ATƏT-in son toplantısı idi. İstanbul sammitində 3 sənəd qəbul olundu. Birincisi – İstanbul xartiyası – dünyada sülhün və təhlükəsizliyin təmin olunması, ölkələrin ərazi bütövlüyünün qorunması, baş vermiş münaqişələrin sülh yolu ilə həll olunması və s. İkinci sənəd Avropada adi silahlar haqqında idi. Üçüncü sənəd isə siyasi bəyannamə idi. – 299.

**220. Klinton Bill,** U i l y a m C e f e r s o n B l a y d (d.1946) – ABŞ-ın görkəmli siyasi və dövlət xadimi. ABŞ-ın 42-ci prezidenti (1992–2000). Klinton xarici siyasətində SSRİ dağıldıqdan sonra müstəqillik qazanmış dövlətlərlə, o cümlədən Azərbaycan Respublikası ilə münasibətlərin yaxşılaşdırılmasına mühüm əhəmiyyət vermişdir. – 299.

**221. Musa Mirzəyev,** M u s a A b d u l l a o ğ l u (d.1933) – bəstəkar, professor. Əməkdar İncəsənət xadimi. Azərbaycan Respublikasının Xalq artisti. – 306,325–326.

**222. Yuri Yarov** (d.1942) – 1999–2008-ci illərdə Müstəqil Dövlətlər Birliyinin İcraiyyə Komitəsinin sədri olmuşdur. – 307–308,358–366.

**223. Qırğızıstan,** Q ı r ğ ı z ı s t a n R e s p u b l i k a s ı – Şimal–Şərqi Orta Asiyada dövlət. Sahəsi 198,5 min km$^2$, əhalisi 4526 min nəfərdir. İnzibati ərazisi 6 vilayətə, 40 rayona bölünür. Dövlət başçısı prezident, ali qanunverici orqanı parlamentdir. Paytaxtı Bişkekdir. – 309,339–341,368.

**224. Əsgər Akayev** (d.1944) – 1989–1990-cı illərdə Qırğızıstan EA-nın prezidenti, 1990–2005-ci illərdə Qırğızıstan Respublikasının prezidenti olmuşdur. – 309.

**225. Cuzeppe Verdi –** (1813–1901) – italyan bəstəkarı. Realist bəstəkar olan C.Verdi musiqi tarixinə opera sənətinin islahatçısı kimi daxil olmuşdur. Qahirə teatrının sifarişi ilə dünya opera sənətinin incilərindən olan «Aida» operasını yaratmışdır. Verdinin «Otello» operası psixoloji musiqili dramın yüksək nümunələrindəndir. – 311.

**226. Motsart Volfqand Amadey** (1756–1791) – dahi Avstriya bəstəkarı. Motsart görkəmli musiqi sənətkarları içərisində çox erkən inkişaf edən hərtərəfli istedadı, qeyri-adi taleyi, musiqinin bütün janrlarını əhatə edən yaradıcılığı ilə fərqlənir.

Vyana klassik məktəbinin nümayəndəsi olan Motsartın yaradıcılığı XVIII əsr musiqisinin zirvəsi, Maarifçilik dövrünün yetirməsi idi. Onun operalarında keçmiş musiqi janrları və formaları sintezləşdirilmiş, yeniləşdirilmişdir. Motsartın son üç simfoniyası XVIII əsr simfonizminin ən görkəmli nümunələrindəndir. – 311.

**227. Süleyman Rüstəm,** Süleyman Əliabbas oğlu Rüstəm-zadə (1906–1989) – görkəmli Azərbaycan şairi, dramaturq, ictimai xadim. Sosialist Əməyi Qəhrəmanı, Azərbaycanın Xalq şairi, SSRİ və Azərbaycan Dövlət mükafatları laureatı. Müharibə dövrü (1941–1945) yaradıcılığında Cənubi Azərbaycanda xalqın milli-azadlıq uğrunda mübarizəsinə həsr olunmuş şeirləri xüsusi yer tutur. – 311.

**228. Bəxtiyar Vahabzadə,** Bəxtiyar Mahmud oğlu (1925–2009) – Azərbaycanın Xalq şairi, dramaturq, ədəbiyyatşünas. Azərbaycan Dövlət mükafatı laureatı, 1991–2005-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Azərbaycan Milli EA-nın akademiki olmuşdur. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. – 311.

**229. Məmməd Araz,** Məmməd İnfil oğlu İbrahimov (1933–2004) – Azərbaycanın Xalq şairi. Azərbaycan Respublikası Dövlət mükafatı laureatı. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. Adına «Məmməd Araz» ədəbi mükafatı təsis edilmişdir. – 311.

**230. Ramiz Mehdiyev,** Ramiz Ənvər oğlu (d.1938) – Azərbaycanın görkəmli siyasi və dövlət xadimi, fəlsəfə elmləri doktoru, professor. Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü. 1978–80-ci illərdə Rayon Partiya Komitəsinin 1-ci katibi, 1980–81-ci illərdə Azərbaycan KP MK-da elm və təhsil şöbəsinin müdiri, 1981–83-cü illərdə Azərbaycan KP MK-da partiya-təşkilat işi şöbəsinin müdiri, 1983–88-ci illərdə Azərbaycan KP MK-da katib, 1988–94-cü illərdə Azərbaycan EA-nın İctimai-Siyasi Tədqiqatlar və İnformasiya İnstitutunda şöbə müdiri, 1994-cü ildə Azərbaycan Respublikası

Prezidentinin İcra Aparatının şöbə müdiri, 1995-ci ildən Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəridir. 1995–2000-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur. Müasir siyasi problemlərə, dövlət quruculuğuna aid bir çox kitab və monoqrafiyaların müəllifidir. Azərbaycan Respublikasının «İstiqlal», Rusiya Federasiyasının «Dostluq» ordenləri ilə təltif edilmişdir. Beynəlxalq Nyu-York Akademiyasının və Türk Dünyası Araşdırmalar Uluslararası Elmlər Akademiyasının üzvüdür. – 313,388.

**231. Şri-Lanka,** Şri-Lanka Sosialist Demokratik Respublikası – Cənubi Asiyada dövlət. Millətlər Birliyinə daxildir. Sahəsi 65,6 min km$^2$, əhalisi 18,3 milyon nəfərdir. İnzibati ərazisi 25 əyalətə bölünür. Dövlət və hökumət başçısı prezident, qanunverici orqan parlamentdir. Paytaxtı rəsmi olaraq Cayavar Denapurakotte, faktiki isə Kolombodur. – 314.

**232. Çandrika Kumaratunqa** (d.1945) – 1994-cü ildə Şri-Lankanın Baş naziri, 1994–2005-ci illərdə isə Şri-Lankanın prezidenti olmuşdur. Onun atası və anası (1956–1959) Şri-Lankanın Baş nazirləri olmuşlar. – 314.

**233. YUNESKO –** BMT-nin maarif, elm və mədəniyyət işlərinə baxan hökumətlərarası təşkilatı. 1945-ci ilin noyabrında yaradılmış, 1946-cı ildən fəaliyyətə başlamışdır. Ali orqanı iki ildən bir çağırılan konfransdır. Katibliyi Parisdədir. Azərbaycan 1992-ci ildən YUNESKO-nun üzvüdür. – 321–324.

**234. Əbdül Kalam** (d.1931) – 2002–2007-ci illərdə Hindistan Respublikasının prezidenti. Əbdül Kalam Hindistanda raket və yerətrafı peyk proqramının yaradıcılarındandır. 1980-ci ildə onun başçılığı ilə birinci hind SLV–3 yerətrafı süni peyki kosmosa göndərilmişdir. – 315,353.

**235. Atal Bihari Vaçpai** (d.1924) – XX əsrin sonlarında ən görkəmli hind siyasətçisi. 1996–2004-cü illərdə Hindistanın Baş naziri olmuşdur. Vacpai zamanı Hindistan ilk nüvə silahını sınaqdan keçirmişdir. – 316.

**236. Avstraliya,** Avstraliya İttifaqı – Avstraliya qitəsində dövlət. Millətlər Birliyinin tərkibindədir. Ərazisi 7,7 milyon km$^2$, əhalisi 18,3 milyon

nəfərdir. Avstraliya İttifaqı inzibati cəhətdən 6 ştata və iki əraziyə bölünür. Dövlət başçısı Böyük Britaniya kraliçasıdır. Ölkədə kraliçanı general-qubernator təmsil edir. Qanunverici orqanı ikipalatalı (Senat və Nümayəndələr palatası) parlamentdir. Paytaxtı Kanberra şəhəridir. – 317.

**237. Con Hovard** (d.1939) – 1996-cı ildən Avstraliyanın Baş naziri. Avstraliya Liberal partiyasının lideri. – 317.

**238. Yeni Zelandiya** – Sakit okeanın cənub–qərbində dövlət. Sahəsi 270,5 min km$^2$, əhalisi 3,62 milyon nəfərdir. Millətlər Birliyinə daxildir. Dövlət başçısı Böyük Britaniya kraliçasıdır. Onu ölkədə general-qubernator təmsil edir. Qanunverici orqan parlamentdir. Paytaxtı Vellinqtondur. – 318.

**239. Helen Klark** (d.1950) **–** Yeni Zelandiyanın Baş naziri (1999–2008). Yeni Zelandiya Liberal Partiyasının lideri. 2003-cü ildə Helen Klark Amerika ordusunun İraqa girməsini bərk tənqid etmiş və həmin ildə Yeni Zelandiyanın Respublikaya çevrilməsini «qaçılmaz» hesab etmişdir. Hal-hazırda rəsmi olaraq Böyük Britaniya kraliçası kimi, ölkənin başçısıdır. – 318.

**240. Şirvanşahlar sarayı –** Azərbaycan memarlıq kompleksi, Şirvan – Abşeron memarlıq məktəbinin görkəmli abidəsi. Bakının İçərişəhər hissəsindədir. Bakının XV əsrdə Şirvanşahlar dövlətinin paytaxtına çevrilməsilə əlaqədar tikilmişdir. 1420–60-cı illər arasında salınmış Şirvanşahlar sarayı ansamblının binaları yerin relyefinə uyğun olaraq inşa edilmişdir. Ərazisinin ən hündür yerində olan Yuxarı həyətdə saray binası (1420-ci illər) və ona bitişik Divanxana (1450-ci illər), aşağı həyətdə türbə (1435) və minarəli Şah məscidi (1442), yuxarı həyətin yaxınlığında Seyid Yəhya Cəlaləddin Bakuvinin türbəsi (1450-ci illər) və ona bitişik kiçik məscid yerləşir. Türbə olan həyətin giriş baştağı Şimal darvazası (1585) tikilmişdir. Şirvanşahlar sarayı ansamblının yaxınlığında hamam, «Şah kəhrizi»nin qurtaracağında 500 min litr su tutan ovdan qalmışdır. – 322,323.

**241. Qız qalası** – Azərbaycanda tarixi-memarlıq abidəsi. Bakıdadır (İçərişəhərdə). Tədqiqatçıların çoxu tərəfindən müdafiə məqsədilə XII əsrdə tikildiyi qəbul olunmuşdur. Qalanın daş kitabəsində kufi xətti ilə Məsud Davud oğlunun

(«Qübbə Məsud bin Davud») adı həkk edilmişdir. Qız qalası memarlıq formasına görə Şərqdə yeganə abidədir. Abidənin hündürlüyü 32 m, diametri 16–16,5 m-dir. Divarlarının qalınlığı aşağıda 5 m, yuxarıda 4 m olan Qız qalası silindrik əsas hissədən və ona bitişik bütöv çıxıntıdan ibarət orijinal quruluşa malikdir. Silindrik hissə daxildə səkkizmərtəbəlidir. Bu mərtəbələrdə 250-dək adam yerləşə bilər. Abidənin Qız qalası adlanması haqqında xalq arasında müxtəlif əfsanələr mövcuddur. – 322,323.

**242. Qobustan** – Azərbaycanın şərqində alçaq dağlıq sahə, uzunluğu 100 km, eni 80 km-ə yaxındır. Qobustan yaxınlığında, Qobustan qoruğu ərazisində zəngin qayaüstü təsvirlərlə yanaşı, Daş dövründən başlamış orta əsrlərədək çoxlu ibtidai insan düşərgəsi, qədim yaşayış məskəni, kurqanlar və s. arxeoloji abidələr vardır. Onların beşində Mezolit dördündə Neolit, yeddisində Tunc, birində antik və beşində orta əsrlər dövründə yaşayış olduğunu göstərən mədəni təbəqə və maddi qalıqlar aşkar edilmişdir. – 322.

**243. «Azərbaycan» jurnalı** – aylıq ədəbi-bədii və ictimai-siyasi jurnal. 1923-cü ildən Bakıda nəşr olunur. Azərbaycan Yazıçılar Birliyinin orqanıdır. Müxtəlif vaxtlarda «Maarif və mədəniyyət», «İnqilab və mədəniyyət», «Revolyusiya və kultura», «Vətən uğrunda» adı ilə nəşr edilmişdir. 1953-cü ildən «Azərbaycan» adı ilə çıxır. Azərbaycan yazıçılarının yeni əsərlərinin çoxu ilk dəfə bu jurnalda dərc olunub. Jurnal oxucularını klassik Azərbaycan və dünya ədəbiyyatının görkəmli nümunələri ilə müntəzəm tanış edir. Azərbaycan ədəbiyyatının, ədəbi-tənqid və ədəbiyyatşünaslığının inkişafında «Azərbaycan»ın xüsusi xidməti var. – 327–328.

**244. «Literaturnı Azerbaydjan» jurnalı** – rus dilində ədəbi-bədii jurnal. Azərbaycan Yazıçılar Birliyinin orqanı. 1931-ci ildən Bakıda nəşr edilir. 1931–33-cü illərdə «Temp», «Udarnik» adlanmışdır; 1934-cü ildən indiki adı ilə çıxır (1941–53-cü illərdə nəşr olunmamışdır). Jurnalda Azərbaycan əbədiyyatının ən yaxşı nümunələri ilə bərabər, rus və digər xarici ölkə xalqları ədəbiyyatından yazılar dərc edilir. – 327.

**245. Kiyev** – Ukrayna Respublikasının paytaxtı. VI əsrdə salınmışdır. IX–XII əsrlərdə Kiyev Rus dövlətinin mərkəzi idi. 1654-cü ildə Ukrayna Rusiya ilə yenidən birləşdikdən sonra Kiyev Ukraynanın iqtisadi və mədəni

mərkəzi kimi inkişaf etmişdir. 1934-cü ildə Ukraynanın paytaxtı Xarkovdan Kiyevə köçürüldü. Kiyev Ukraynanın ən iri sənaye, mədəniyyət və elmi mərkəzidir. – 339–342,343,364.

**246. Avropa Şurasının Parlament Assambleyası** (AŞPA) – 2004-cü ildə təşkil olunmuşdur. AŞPA-da 25 Avropa ölkəsinin 732 deputatı fəaliyyət göstərir. – 330.

**247. ATƏT –** Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı. Əsası 1975-ci il iyulun 3–9-da Helsinkidə qoyulmuşdur. Burada Avropanın 33 dövlətinin, ABŞ və Kanadanın dövlət və hökumət rəhbərləri iştirak edirdi. ATƏT «soyuq müharibə»nin qurtarmasından sonra ümumavropa təhlükəsizlik sistemini formalaşdıran, yeni Avropanın siyasi və iqtisadi həyatının sivil birgəyaşayış qaydalarını müəyyən edən, dövlətlərarası münasibətləri rəqiblik və münaqişə yolundan əməkdaşlıq və qarşılıqlı mənafe istiqamətlərinə yönəldən bir təşkilat funksiyasını icra edir.

Azərbaycan 1992-ci ildən ATƏT-in üzvüdür və 1993-cü ilin ikinci yarısından ATƏT-in zirvə görüşlərində Azərbaycan nümayəndə heyəti fəal iştirak edir. – 331.

**248. Vaqif Mustafayev,** V a q i f B e h d u d o ğ l u (d.1953) – kinorejissor. Azərbaycan Respublikasının Xalq artisti. Bir çox filmlərin, o cümlədən prezident Heydər Əliyev haqqında filmin rejissorudur. «Space» müstəqil teleradio şirkətinin prezidentidir. Azərbaycan Respublikası Dövlət mükafatı laureatıdır. – 333.

**249. Belarus,** B e l a r u s R e s p u b l i k a s ı – Avropada dövlət. Sahəsi 207,6 min $km^2$, əhalisi 10442 min nəfərdir. İnzibati ərazisi 6 vilayətə, 117 rayona bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Minskdir. – 334,339–341.

**250. Tacikistan,** T a c i k i s t a n R e s p u b l i k a s ı – Orta Asiyanın cənub–şərqində dövlət. Sahəsi 143,1 min $km^2$, əhalisi 5705 min nəfərdir. İnzibati ərazisi Bədaxşən Muxtar Vilayətinə, 2 vilayətə və 45 rayona bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı Məclisdir. Paytaxtı Düşənbədir. – 339–341.

**251. İmaməli Rəhmonov,** İmaməli Şərif oğlu (d.1952) – Tacikistanın siyasi və dövlət xadimi. 1992-ci ildə Tacikistan Ali Sovetinin sədri olmuşdur. 1992-ci ilin noyabrından Tacikistan Respublikasının prezidentidir. – 339–341.

**252. Lukaşenko Aleksandr Qriqoryeviç** (d.1954) – Belarus dövlət xadimi. 1994-cü ildən Belarus Respublikasının prezidentidir. – 339–341.

**253. Qasımcomərd Tokayev** (d.1953) – Qazaxıstan dövlət xadimi, diplomat. Siyasi elmlər doktoru. 1990–2002-ci illərdə Qazaxıstanın Baş naziri, 2002–2007-ci illərdə Xarici İşlər naziri, 2007–2011-ci illərdə Qazaxıstan Senatının spikeri, 2011-ci ildən BMT Baş katibinin müavini və BMT-nin Cenevrə şöbəsinin Baş direktorudur. – 339–341.

**254. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası** (BMTTŞ) – BMT-nin daimi fəaliyyət göstərən mühüm orqanı. BMT-nin Nizamnaməsinə görə, beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasında əsas məsuliyyət daşıyır. 15 üzvü var: 5-i daimi (Çin, Fransa, Rusiya, Böyük Britaniya, ABŞ), 10 üzvü isə 2 il müddətinə seçilir. Şuranın hər bir üzvü bir səsə malikdir. Prosedura məsələlərinə dair qərarlar Şuranın 9 üzvü səs verdikdə qəbul olunmuş sayılır. – 340.

**255. Stalinqrad vuruşması** (1942–1943) – Böyük Vətən müharibəsində sovet qoşunlarının Stalinqrad ətrafında alman-faşist qoşunlarını darmadağın etmək üçün müdafiə və hücum əməliyyatları. Sovet qoşunları müdafiə dövründə düşmənin əsas qüvvələrini məhv etmiş və hücuma keçərək alman qoşunlarını mühasirəyə almışdı. Nəticədə general- feldmarşal F.Paulyus başda olmaqla 6-cı alman ordusu (91 min nəfər) əsir düşdü. Stalinqrad vuruşmasındakı qələbənin böyük strateji, siyasi və beynəlxalq əhəmiyyəti oldu. – 351–352.

**256. İsrail –** Yaxın Şərqdə dövlət. Sahəsi 20,8 min km$^2$, əhalisi 5,5 milyon nəfərdir (1948–49-cu illərdə işğal edilmiş ərazi daxil olmaqla). İsrail dövləti BMT-nin Baş Məclisinin 1947-ci il 29 noyabr tarixli qərarına əsasən yaradılmışdır. İsrail inzibati cəhətdən 6 mahala bölünür. Dövlət başçısı pre-

zidentdir, onu birpalatalı parlament (Knesset) seçir. Hökumətə geniş səlahiyyəti olan Baş nazir başçılıq edir. – 354.

**257. Nizami Gəncəvi,** İ l y a s Y u s i f o ğ l u (1141–1209) – dahi Azərbaycan şairi və mütəfəkkiri. Dünya ədəbiyyatı tarixinə məsnəvi formasında yazdığı beş epik poemadan ibarət «Xəmsə» müəllifi kimi daxil olmuşdur. Nizami Gəncəvinin ilkin Şərq Renessansının zirvəsi olan yaradıcılığında dövrünün ən humanist, ümumbəşəri ictimai-siyasi, sosial və mənəvi-əxlaqi idealları parlaq bədii əksini tapmışdır. Nizami Gəncəvi Yaxın Şərq ədəbiyyatında mənzum roman janrının əsasını qoymuş, yeni ədəbi məktəb yaratmışdır. Nizami Gəncəvi həm də dövrünün görkəmli mütəfəkkiri olmuşdur. Onun bütün əsərlərində insanın mənəvi azadlığı tərənnüm olunur. – 359,360.

**258. Turqut Özal,** Ö z a l T u r q u t (1927–1993) –Türkiyənin görkəmli dövlət və siyasi xadimi. 1980–82-ci illərdə Dövlət naziri, 1983–1989-cu illərdə Türkiyənin Baş naziri, 1989–93-cü illərdə Türkiyənin prezidenti olmuşdur. – 368.

**259. Saparmurad Niyazov,** S a p a r m u r a d A t a o ğ l u (1940–2007) – Türkmənistanın siyasi və dövlət xadimi. 1985-ci ilin dekabrından 1990-cı ilə qədər Türkmənistan KP MK-nın birinci katibi, 1990-cı ildən 2007-ci ilədək Türkmənistan Respublikasının prezidenti olmuşdur. – 370,371.

**260. Elçibəy**, Ə l i y e v Ə b ü l f ə z Q ə d i r q u l u o ğ l u (1938–2000) – 1989-cu ildə yaradılan AXC-nin, sonralar AXCP-nin sədri. 1992- 1993-cü illərdə Azərbaycan Respublikasının prezidenti olmuşdur. – 371.

**261. Surət Hüseynov,** S u r ə t D a v u d o ğ l u (d.1959) – 1993–1994-cü illərdə Azərbaycan Respublikasının Baş naziri olmuşdur. 1994-cü ilin oktyabrında Azərbaycanın müstəqilliyinə, suverenliyinə qarşı yönəlmiş çevriliş cəhdinə rəhbərlik etmişdir. – 371.

**262. Qafqaz Universiteti –** Türkiyədə elmi-tədqiqat universiteti. Universitetin mərkəzi Qars şəhərindədir. 1992-ci ildə yaradılmışdır. Universitetin 7 fakültəsi, 7 peşə məktəbi, 1 dövlət konservatoriyası, 6 araşdırma mərkəzi olmaqla, 26 elmi müəssisəsi, 468 professor və müəllim heyəti və 12 min tələbəsi var. – 373.

**263. Firdovsi,** F i r d o v s i Ə b ü l q a s i m (təqr. 934–1020, yaxud 1030) – böyük fars və tacik şairi. Farsdilli ədəbiyyatın monumental eposu, dünya ədəbiyyatının möhtəşəm abidələrindən olan «Şahnamə»nin müəllifidir. – 379.

## Şəxsi adlar göstəriciləri


**Abdullayev Rauf** – 69,71,76,311,366
**Abdullazadə Fatma** – 26,76,77,94
**Abdulyadet Pumipon** – 51
**Abiyev Elməddin** – 332,344
**Abutalıbov Hacıbala** – 122–203
**Adıgözəlov Vasif** – 70
**Ağayev Faiq** – 27
**Axundov Vahid** – 150,151
**Akayev Əsgər** – 309
**Akçıl Şaim** – 306
**Akihito** – 81
**Alatan Yavuz** – 379
**Almaszadə Qəmər** – 34
**Armitac Riçard** – 233,235,238
**Bayramova Aygün** – 27
**Behbudov Rəşid** – 34,120
**Berluskoni** – 104
**Bertoluçi Mirko** – 104
**Bədəlbəyli Fərhad** – 71
**Brejnev Vladimir** – 389
**Buş Corc** – 238,285,350
**Bülbül** – 34,112,114,207
**Cabbarlı Cəfər** – 70
**Cahangirov Cahangir** – 34
**Camei Əhməd** – 105–109
**Cəfərov Samir** – 26,76
**Cəmali Mir Zəfərullah xan** – 38
**Çaykovski Pyotr** – 33,306
**Çelik Hüseyn** – 372,373–374,378
**Çeviköz Əhməd** – 222–229,305

**Çörçill Ulnston** – 291
**D-Estyen Jiskar** – 227
**Dadaşov Rafael** – 85–95
**Dəmirəl Süleyman** – 277,368
**Dmovşek Yanez** – 50
**Doğramacı İhsan** – 77
**Dostəliyeva Nazpəri** – 27
**Dozortseva Janna** – 68,72,73,74
**Elçibəy Əbülfəz** – 371
**Engin Yusif** – 381–390
**Eyyubov Yaqub** – 182
**Əbdürrəhmanov Əbduqafur** – 61–63
**Əfəndiyev Elçin** – 85–95,373
**Əhmədova Firəngiz** – 213
**Əl-Bəşir Ömər** – 221
**Əl-Xəlifə Həməd** – 84
**Əl-Nəhəyyan Zaid** – 44
**Ələkbərova Şövkət** – 34
**Ələsgərov Murtuz** – 122–203,313
**Ələçsgərov Oqtay** – 122–203
**Əlixan Məlikov** – 122–203
**Əliyev Fərhad** – 122–203
**Əliyev Habil** – 39,160,185,279
**Əliyev Həsən** – 431
**Əliyev İlham** – 27,39,160,185,279,330,332
**Əliyev Natiq** – 122–203
**Əliyev Tələt** – 334,342
**Əmirov Fikrət** – 34,69,70,206,311
**Ərdoğan Rəcəb Tayyib** – 226,258–280,373
**Əsədov Oqtay** – 122–203
**Əsədova Məleykə** – 28
**Əsgərov Ağabəy** – 11
**Əsgərov Surxay** – 77
**Əyisli Əkrəm** – 57
**Fərrux** (*Misir kralı*) – 291
**Ficivara Tosiyuki** – 214–218

**Firdovsi Əbülqasim** – 379
**Gəncəvi Nizami** – 359,360
**Gökmən Rengin** – 78
**Gökyigit Nihat** – 306
**Gül Abdullah** – 271,373
**Gül-Məhəmməd Muxtar** – 357–366
**Hacıbəyov Üzeyir** – 34,66,69,70,76,112,114,206,207,213, 374–375
**Hacıyev Cövdət** – 34,311
**Haqverdiyev Əbdürrəhimbəy** – 32
**Halonen Tarya** – 52
**Haşimoto** – 216
**Həcər xanım** – 70,71
**Həmzəyev Miribrahim** – 90,92
**Həsənov Əli** – 122–203
**Həsənoğlu Alqış** – 12
**Hovard Con** – 317
**Hümbətov Yusif** – 179
**Hüseynov Pənah** – 73
**Hüseynov Surət** – 371
**Xanlarova Zeynəb** – 25
**Xasıyeva Könül** – 27
**Xatəmi Məhəmməd** – 105,106,107
**Xullar Dinkar** – 119–121
**Xrennikov Tixon** – 34
**İliyesku İon** – 45
**İmanov Lütfiyar** – 112
**İppolitov – İvanov Mixail** – 33
**İsa** (*peyğəmbər)* – 256
**İşmuratov Xələf** – 375
**Jakolən Anri** – 335
**Kalam Əbdül** – 315,353
**Kapur Rac** – 120
**I Karlos Xuan** – 257
**Kastro Fidel** – 220
**Keçəçioğlu Məhəmməd** – 32

**Kərimi Səyavuş** – 87
**Kərimov Bürhan** – 39
**Kərimov İslam** – 242,329
**Kərimov Mahmud** – 252–254,301
**Kibaki Mvai** – 243
**Klark Helen** – 318
**Klibern Van** – 34
**Klinton Bill** – 299
**Koidzumi Dzünitiro** – 82
**Koritin Yuri** – 381–390
**Köçəryan Robert** – 272,273,332,335–336,339–341,344
**Küçma Leonid** – 219, 308, 330, 337, 338, 339–341, 343,344, 347,364
**Kumaratunqa Çandrika** – 314
**Qandi Raciv** – 120
**Qarayev Qara** – 34,65,66,69,70,206,306,310,325,359,365, 366
**Qaryağdı Cabbar** – 32
**Qasımov Elmar** – 8,15
**Qasımova Fidan** – 71,74,77,110–115,204–211,212
**Qasımova Xuraman** – 71,77,110–115,204–211,212
**Qayıbov Süleyman** – 39
**Qazıyeva Xədicə** – 90
**Qədimov Vəli** – 25
**Qədirov Əliabbas** – 85–95
**Qəniyev Sərvər** – 71,72,73,75,77
**Qiyasi Cəfər** – 380
**Qodike Xorst** – 321–324
**Qorbaçov Mixail** – 311,333
**Qribkov Nikolay** – 335
**Quliyev Tofiq** – 73,206
**Lebedev Yuri** – 381–390
**Lujkov Yuri** – 29
**Lukaşenko Aleksandr** – 339–341
**Makarov İqor** – 241– 242
**Maqomayev Müslüm** *(baba)* – 34,66

**Maqomayev Müslüm** – 77,212– 213
**Marqarita** – 104
**Maroni Roberto** – 103–104
**Medvedçuk Viktor** – 334,342
**Mehbalıyev Səttar** – 383,384,390
**Mehdiyev Ramiz** – 313,388
**Məlikov Arif** – 69
**Məlikov Əlixan** – 122–203
**Məmməd Araz** – 311
**Məmmədquluzadə Cəlil** – 70
**Məmmədov Mehdi** – 92
**Məmmədova Şövkət** – 207,212
**Məmmədov Təvəkkül** – 122–203
**Mənn Stiv** – 235
**Mixaylovna Bela** – 26
**Mirzəyev İlyas** – 306
**Mirzəyev Musa** – 306,325–326
**Moi Daniel** – 79
**Motsart** – 311
**Muxtarova Fatma** – 207
**Muratovski Vanço** – 381–390
**Musayev İsa** – 90
**Musayev Niyaməddin** – 28
**Mustafayev Çingiz** – 286-300
**Mustafayev Vaqif** – 333
**Mustafayev Vahid** – 286–300
**Mütəllibov Ayaz** – 311
**Nağıyev Musa** – 33
**Napoleon** – 291
**Nazarbayev Nursultan** – 53,54,83,365,374
**Nehru Cəvahirləl** – 120
**Nəbiyev Bəkir** – 39
**Niyazi** – 34,64–78,114
**Niyazov Saparmurad** – 370,371
**Nuriyev Yaşar** – 91
**Oborin Lev** – 34

**Oliveyra Joze** – 382–390
**Omelçenko Aleksandr** – 334,342
**Oystrax David** – 34
**Özal Turqut** – 368
**Paksas Rolandas** – 283
**Pauell Kolin** – 233,235,238
**Perina Rudolf** – 235,237,335
**Pərviz Paolo** – 185
**Pirverdiyev Etibar** – 122–203
**Polad Bülbüloğlu** – 70,72,75,76,106,107,358–366,372, 373,378
**Poladov Fuad** – 85–95
**Putin Vladimir** – 29,240,298,330,335–336,339–341, 343,344,347,364
**Raxmaninov Sergey** – 33
**Raykin Arkadi** – 223
**Rasizadə Artur** – 122–203,294,295,313
**Rəhimov Murtaza** – 371,372,375
**Rəhimzadə Vüqar** – 11
**Rəhmonov İmaməli** – 339–341
**Rixter Svyatoslav** – 34
**Rostropoviç Mstislav** – 34,75,366
**Haşimoto Ryutaro** – 216
**Sabançı** – 276
**Saparov Rəcəb** – 339–341
**Sayqu Adnan** – 74
**Sergeyev Yuri** – 334.342
**Sezər Əhməd Necdət** – 284
**Səlimi Əli** – 108
**Səlim** (*türk sultanı)* – 291
**Səməd Vurğun** – 70,93
**Səyavuş Aslan** – 85–95
**Sinyavskaya Tamara** – 212–213
**Siphandon Khamtay** – 46
**Smoktunovski İnnokenti** – 86
**Sofiya** – 90

**Sultanov Utkir** – 339–341
**Süleyman Rüstəm** – 311
**Şah Dev Qvanendra** – 239
**Şalyarin Fyodor** – 33
**Şəkili Ələsgər** – 32
**Şaron Ariel** – 354
**Şaymiyev Mintimer** – 371,372,376
**Şekspir** – 85–95,378
**Şer Gerson** – 301–304
**Şevardnadze Eduard** – 55,319–320,335–336,337–338,339–341
**Şeyxzadə Maqsud** – 39
**Şəhriyar Məhəmməd** – 109
**Şərifov Abid** – 169,190,216
**Şərifzadə Abbas Mirzə** – 86
**Şkidçenko Vladimir** – 347–349
**Şmakov Mixail** – 381–390
**Şostakoviç Dmitrii** – 34
**Şukrutov Andar** – 27,34
**Şişinski Xan** – 53–56
**Şvidkov Mixail** – 358–366
**Tağıyev Hacı Zeynalabdin oğlu**– 32,167,168
**Tanayev Nikolay** – 339–341
**Tanca Mamadu** – 80
**Tara Şarik** – 29–31,276
**Tarxanov İldus** – 376
**Təbrizli Sirus** – 6,7,25
**Tokayev Qasımcomərd** – 339–341
**Tuquşi İrakli** – 381– 390
**Uilson Ross** – 233–238
**Vahabzadə Bəxtiyar** – 311
**Verdi Cüzeppe** – 311
**Verdiyev Fikrət** – 27
**Vəzirov Əbdürrəhman** – 311
**Vəzirov Ədalət** – 306
**Vişnevskaya Qalina** – 76
**Voronin Vladimir** – 339–341

**Vudvord Devid** – 55,56
**Yakovlev Lev** – 381–390
**Yarov Yuri** – 307–308,358–366
**Yeltsin Boris** – 343
**Yusufov İqor** – 41–43
**Zarbayev Yevgeni** – 388
**Zəroş** – 90

## Coğrafi adlar göstəriciləri

**Afina** – 114
**Ağcabədi** – 185
**Ağcakənd** – 202
**Ağdam** – 202,203
**Ağdaş** – 39–40
**Almaniya** – 129,130
**Altay** – 369,370
**Alyaska** – 143
**Amerika Birləşmiş Ştatları** – 55,116–118,142,185,233–238,285,288,299, 301–304,333,335,350,366
**Ankara** – 222,299,380
**Aralıq dənizi** – 305
**Asiya** – 56,362
**Avropa** – 29,30,33,76,158,159,199,200,201,211,227, 263,291,332,362,363,378,379
**Avstraliya** – 317
**Avstriya** – 33
**Bakı** – 18,23,25,29,32,33,37,38,39,44,45,46,50, 51,52,56,57,59,70,78,79,80,81,82,83,84, 104,106,108,109,113,116,117,118,119, 121,122,123,124,145,146,147,148,150, 164,165,167,168,169,170,171,173,179, 184,189,201,215,219,220,221,232,239, 240,257,282,283,284,285,298,305,309, 312,314,316,317,318,320,323,326,328, 343, 347,350,352,353,354,357,358,361, 371,372,373,375,388
**Başqırdıstan** – 368,369,371,375
**Belarus** – 334,339–341
**Bəhreyn** – 84
**Bərdə** – 180,181

**Biləsuvar** – 180,203
**Bilgəh** – 171,180
**Binə** – 171
**Binəqədi** – 171
**Birləşmiş Ərəb Əmirlikləri** – 43,44
**Böyük Britaniya** – 120,297
**Buzovna** – 171
**Ceyranbatan** – 168
**Cənubi Kipr** – 224,225,227,228
**Cənubi Qafqaz** – 116,141,142,302,303,338
**Çexiya** – 192
**Çin** – 185,359
**Dağıstan** – 168
**Dağlıq Qarabağ** – 225,228,229,231,237,246,259,272,273, 287,335,338
**Dərbənd** – 42
**Dərnəgül** – 180
**Diyarbəkir** – 284
**Əli Bayramlı** – 18,179,195
**Fars körfəzi** – 43
**Finlandiya** – 52
**Florida** (*ABŞ-da ştat*) – 142,143
**Fransa** – 76,335
**Füzuli** – 202
**Gəncə** – 18,89,145,146,179,180,371
**Gürcüstan** – 55,127,288,299,319–320,335,339–341,384
**Hindistan** – 119–121,315,316,353
**Horadiz** – 202
**Hövsan** – 171
**Xaçmaz** – 168
**Xakasiya** – 369,370
**Xəzər dənizi** – 42,43,54,55,56,103,197,237,263,288,297, 298,338,374
**İraq** – 42,340,344
**İran** – 42,105–109,127,185,287,288,292,298
**İsfahan** – 219

**İsmayıllı** – 15
**İspaniya** – 257
**İsrail** – 354
**İstanbul** – 200,220,299,206
**İtaliya** –103–104
**İsveçrə** – 290
**İvano-Frankovsk** – 308
**İzmir** – 78
**Keniya** – 79,243
**Keşlə** – 171
**Kişinyov** – 150,307,343,364
**Kiyev** – 339–342,343,364
**Kopenhagen** – 224,226
**Krasnoyarsk** – 369
**Kuba** – 220
**Kür çayı** – 168,170
**Qafqaz** – 225,266,302,305,336,344
**Qaqauziya** – 368,374
**Qara dəniz** – 305
**Qazaxıstan** – 43,53–56,77,83,298,299,339–341,364,365, 368,374
**Qəbələ** – 15,168
**Qırğızıstan** – 309,339–341,368
**Qroznı** – 240
**Laos** – 46
**Litva** – 283
**London** – 67
**Makedoniya** – 386
**Maştağa** – 171
**Mərkəzi Asiya** – 305
**Mərkəzi Avropa** – 384
**Mingəçevir** – 18,139,145,146,294
**Misir** – 291
**Moldova** – 150,334,339–341
**Monqolustan** – 72
**Moskva** – 20,26,29,30,31,68,70,86,107,113,114,120,

205,213,308,363,376,388
**Naxçıvan** – 6,9,11,20,23,90,107,108,205,223,322,371
**Naxçıvan MR** – 18,127
**Nepal** – 239
**Niger** – 80
**Oğuz** – 168
**Orta Asiya** – 29,120,266,279
**Özbəkistan** – 242,299,329,363
**Pakistan** – 38
**Paris** – 67
**Praqa** – 67
**Rumıniya** – 45
**Rusiya** – 16,30,31,41–43,150,160,162,192,194,223, 240,241–242,279,287,288,291,292,297, 298,335,339–341,343,344,347,361,363, 365,369,383
**Saatlı** – 185
**Saxa** (*Yakutiya)* – 369
**Sankt-Peterburq** – 67
**Sloveniya** – 50
**Stalinqrad** – 351– 352
**Sudan** – 221
**Sulutəpə** – 171
**Sumqayıt** – 18,30,164,166,186–192,195,196
**Şamaşı** – 145,146
**Şarlott** – 285
**Şəki** – 15,71,89,168,169,180
**Şəmkir** – 203
**Şərqi Anadolu** – 222,223
**Şərqi Avropa** – 383
**Şimali Kipr** – 224,228,262
**Şimali Koreya** – 340,344
**Şri-Lanka** – 314
**Şuşa** – 32
**Tacikistan** – 339–341
**Tailand** – 51

**Tatarıstan** – 368,369,371,374,376
**Tıva** – 369
**Tehran** – 107,108
**Təbriz** – 108
**Tokio** – 215
**Türkiyə** – 29–31,42,55,67,74,78,130,185,200,222–229,258–280,284,305–306,367–380
**Türkmənistan** – 43,298,339–341,363,368,370
**Ukrayna** – 192,308,330–342,343,347–349
**Volqoqrad** – 362
**Yaxın Şərq** – 29
**Yalta** – 341
**Yaponiya** – 81,82,129,130,147,169,194,202,214–218
**Yasamal** – 180
**Yeni Zelandiya** – 318
**Yevlax** – 203
**Yunanıstan** – 114
**Zaqatala** – 69

## KİTABIN İÇİNDƏKİLƏR

YENİ AZƏRBAYCAN PARTİYASININ ON İLLİYİNƏ
HƏSR OLUNMUŞ YUBİLEY MƏRASİMİNDƏ NİTQ

*26 noyabr 2002-ci il*............................................................................................ *5*

TÜRKİYƏNİN «ENKA» ŞİRKƏTİNİN FƏXRİ PREZİDENTİ
ŞARIK TARANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ
HEYƏTİ İLƏ GÖRÜŞ

*28 noyabr 2002-ci il*............................................................................................ *29*

MÜSLÜM MAQOMAYEV ADINA AZƏRBAYCAN DÖVLƏT
FİLARMONİYASI BİNASININ BƏRPASI VƏ YENİDƏN
QURULMASI HAQQINDA

*29 noyabr 2002-ci il*............................................................................................ *32*

PAKİSTAN İSLAM RESPUBLİKASININ BAŞ NAZİRİ
ZATİ-ALİLƏRİ CƏNAB MİR ZƏFƏRULLAH XAN CƏMALİYƏ

*29 noyabr 2002-ci il*............................................................................................ *38*

AĞDAŞ RAYONUNDAKI 3 NÖMRƏLİ ORTA MƏKTƏBƏ

*29 noyabr 2002-ci il*............................................................................................ *40*

RUSİYANIN ENERGETİKA NAZİRİ İQOR YUSUFOV
İLƏ GÖRÜŞ

*29 noyabr 2002-ci il*............................................................................................ *41*

BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN PREZİDENTİ
ƏLAHƏZRƏT ŞEYX ZAİD BİN SULTAN ƏL NƏHƏYYANA

*29 noyabr 2002-ci il*............................................................................................ *44*
RUMINİYANIN PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB İON İLİYESKUYA

*29 noyabr 2002-ci il*............................................................................................ *45*

LAOS XALQ DEMOKRATİK RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB KHAMTAY SİPHANDONA

*29 noyabr 2002-ci il*............................................................................................ *46*

AZƏRBAYCAN RESPUBLİKASINDA ARXİV İŞİNİN
TƏKMİLLƏŞDİRİLMƏSİ HAQQINDA

*2 dekabr 2002-ci il*............................................................................................... *47*

SLOVENİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB YANEZ DMOVŞEKƏ

*3 dekabr 2002-ci il*............................................................................................... *50*

TAİLANDIN KRALI ƏLAHƏZRƏT
PUMİPON ABDULYADETƏ

*3 dekabr 2002-ci il* ............................................................................................. *51*

FİNLANDİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ XANIM TARYA HALONENƏ

*3 dekabr 2002-ci il* ............................................................................................. *52*

QAZAXISTAN RESPUBLİKASININ ÖLKƏMİZDƏ
YENİ TƏYİN OLUNMUŞ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ
SƏFİRİ ANDAR ŞUKPUTOVUN ETİMADNAMƏSİNİ
QƏBULETMƏ MƏRASİMİ

*3 dekabr 2002-ci il*............................................................................................... *53*

XALQ YAZIÇISI ƏKRƏM ƏYLİSLİYƏ

*4 dekabr 2002-ci il* ........................................................................................ *57*
RAMAZAN BAYRAMI MÜNASİBƏTİLƏ
AZƏRBAYCAN XALQINA TƏBRİK

*4 dekabr 2002-ci il* ........................................................................................ *58*

RAMAZAN BAYRAMI MÜNASİBƏTİLƏ MÜSƏLMAN
ÖLKƏLƏRİNİN ÖLKƏMİZDƏKİ SƏFİRLƏRİ
İLƏ GÖRÜŞ

*4 dekabr 2002-ci il*........................................................................................ *60*

DÜNYA ŞÖHRƏTLİ DİRİJOR VƏ GÖRKƏMLİ BƏSTƏKAR
NİYAZİNİN ANADAN OLMASININ 90 İLLİYİNƏ HƏSR
OLUNMUŞ YUBİLEY GECƏSİNDƏ NİTQ

*6 dekabr 2002-ci il*........................................................................................ *64*

KENİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB DANİEL ARAP MOİYƏ

*7 dekabr 2002-ci il* ........................................................................................ *79*

NİGER RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB MAMADU TANCAYA

*7 dekabr 2002-ci il*........................................................................................ *80*

YAPONİYANIN İMPERATORU ƏLAHƏZRƏT AKİHİTOYA

*7 dekabr 2002-ci il*........................................................................................ *81*

YAPONİYANIN BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ
CƏNAB DZÜNİTİRO KOİDZUMİYƏ

*7 dekabr 2002-ci il*........................................................................................ *82*

QAZAXISTAN RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB NURSULTAN NAZARBAYEVƏ

*7 dekabr 2002-ci il* ........................................................................................ *83*

BƏHREYNİN MƏLİKİ ƏLAHƏZRƏT
ŞEYX HƏMƏD BİN İSA ƏL-XƏLİFƏYƏ

*7 dekabr 2002-ci il* ........................................................................................ *84*

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV
ŞEKSPİRİN «HAMLET» FACİƏSİNİN YENİ QURULUŞDA
İLK TAMAŞASINDA

*7 dekabr 2002-ci il* ........................................................................................ *85*

UŞAQLARIN BEYNƏLXALQ TELEVİZİYA VƏ RADİO
GÜNÜNƏ HƏSR OLUNMUŞ BAYRAM
ŞƏNLİYİNDƏ NİTQ

*8 dekabr 2002-ci il* ........................................................................................ *96*

İTALİYANIN ƏMƏK VƏ SOSİAL SİYASƏT NAZİRİ
ROBERTO MARONİNİN BAŞÇILIQ ETDİYİ
NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*9 dekabr 2002-ci il* ........................................................................................ *103*

İRAN İSLAM RESPUBLİKASININ MƏDƏNİYYƏT VƏ
İSLAMİ İRŞAD NAZİRİ ƏHMƏD MƏSCİD CAMEİNİN
BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*10 dekabr 2002-ci il* ...................................................................................... *105*

DÖVLƏT MÜKAFATI LAUREATLARI, XALQ ARTİSTLƏRİ
FİDAN VƏ XURAMAN QASIMOVA BACILARI İLƏ
GÖRÜŞDƏ SÖHBƏT

*12 dekabr 2002-ci il* ...................................................................................... *110*

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ «McDonalds» ŞİRKƏTİNƏ
MƏXSUS «McDrayv» RESTORANININ
AÇILIŞ MƏRASİMİNDƏ NİTQ

*13 dekabr 2002-ci il* ........................................................................................ *116*

HİNDİSTANIN BAKIDAKI FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ
SƏFİRİ DİNKAR XULLAR İLƏ GÖRÜŞ

*18 dekabr 2002-ci il* ........................................................................................ *119*

AZƏRBAYCANIN ENERJİ TƏCHİZATI PROBLEMLƏRİNƏ HƏSR
OLUNMUŞ GENİŞ MÜŞAVİRƏDƏ GİRİŞ NİTQİ

*19 dekabr 2002-ci il* ........................................................................................ *122*

«Azəriqaz» Səhmdar Cəmiyyətinin Prezidenti Əlixan Məlikovun
çıxışı ........................................................................................................ *143*

Azərbaycan Respublikasi Dövlət Neft şirkətinin Prezidenti Natiq Əliyevin çıxışı *153*

Abşeron Regional Səhmdar Su Cəmiyyətinin sədri Oqtay Əsədovun
çıxışı ........................................................................................................ *164*

Baki şəhəri Icra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbovun çıxışı ................ *170*

Baş nazirin müavini, Dövlətqaçqinkomun sədri Əli Həsənovun çıxışı ................ *179*

Sumqayıt Şəhər Icra Hakimiyyətinin başçısı Təvəkkül Məmmədovun
çıxışı ........................................................................................................ *186*

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN
YEKUN NİTQİ ......................................................................................... *193*

AZƏRBAYCAN MUSİQİ MƏDƏNİYYƏTİNİN
GÖRKƏMLİ NÜMAYƏNDƏLƏRİ – FİDAN VƏ XURAMAN
QASIMOVALARIN YARADICILIĞININ 25 İLLİYİNƏ HƏSR OLUNMUŞ
TƏNTƏNƏLİ MƏRASİMDƏ NİTQ

*20 dekabr 2002-ci il* ........................................................................................ *204*

DÜNYA VOKAL SƏNƏTİNİN MƏŞHUR İFAÇILARI,
XALQ ARTİSTLƏRİ MÜSLÜM MAQOMAYEV VƏ

TAMARA SİNYAVSKAYA İLƏ GÖRÜŞ

*21 dekabr 2002-ci il* ........................................................................................ *212*

YAPONİYANIN AZƏRBAYCAN RESPUBLİKASINDAKI SƏFİRİ TOSİYUKİ FİCİVARA İLƏ GÖRÜŞ

*23 dekabr 2002-ci il* ........................................................................................ *214*

UKRAYNANIN PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB LEONİD KUÇMAYA

*24 dekabr 2002-ci il* ........................................................................................ *219*

KUBA RESPUBLİKASI DÖVLƏT ŞURASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB FİDEL KASTRO RUSA

*24 dekabr 2002-ci il* ........................................................................................ *220*

SUDAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ÖMƏR HƏSƏN ƏHMƏD ƏL-BƏŞİRƏ

*24 dekabr 2002-ci il* ........................................................................................ *221*

TÜRKİYƏNİN AZƏRBAYCAN RESPUBLİKASINDAKI SƏFİRİ ƏHMƏD ÜNAL ÇEVİKÖZ İLƏ GÖRÜŞ

*25 dekabr 2002-ci il* ........................................................................................ 222

DÜNYA AZƏRBAYCANLILARINA

*26 dekabr 2002-ci il* ........................................................................................ *230*

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ BAKIDAKI SƏFİRİ ROSS UİLSON İLƏ GÖRÜŞ

*27 dekabr 2002-ci il* ........................................................................ *233*

NEPALIN KRALI ƏLAHƏZRƏT QYANENDRA
BİR BİKRAM ŞAH DEVƏ

*27 dekabr 2002-ci il* ........................................................................ *239*

RUSİYA FEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB VLADİMİR PUTİNƏ

*28 dekabr 2002-ci il* ........................................................................ *240*

«İTERA» BEYNƏLXALQ ŞİRKƏTLƏR QRUPUNUN
PREZİDENTİ İQOR MAKAROV BAŞDA OLMAQLA
NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*28 dekabr 2002-ci il* ........................................................................ *241*

KENİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB MVAİ KİBAKİYƏ

*30 dekabr 2002-ci il*........................................................................ *243*

DÜNYA AZƏRBAYCANLILARININ HƏMRƏYLİK GÜNÜ VƏ
YENİ İL MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

*31 dekabr 2002-ci il*........................................................................ *244*

BAKININ UŞAQ EVLƏRİNDƏ TƏRBİYƏ EDİLƏN UŞAQLAR ÜÇÜN BAKI
ŞƏHƏRİ İCRA HAKİMİYYƏTİ TƏRƏFİNDƏN TƏŞKİL
EDİLMİŞ YENİ İL ŞƏNLİYİNDƏ NİTQ

*31 dekabr 2002-ci il 248*

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ PREZİDENTİ
MAHMUD KƏRİMOV İLƏ GÖRÜŞ

*31 dekabr 2002-ci il 252*

AZƏRBAYCANIN PRAVOSLAV İCMASINA

*4 yanvar 2003-cü il* ........................................................................................ *255*
İSPANİYANIN KRALI ƏLAHƏZRƏT I XUAN KARLOSA

*5 yanvar 2003-cü il* ........................................................................................ *257*

TÜRKİYƏNİN ƏDALƏT VƏ İNKİŞAF PARTİYASININ SƏDRİ RƏCƏB TAYYİB ƏRDOĞAN İLƏ
TƏKBƏTƏK GÖRÜŞ

*7 yanvar 2003-cü il* ........................................................................................ *258*

TÜRKİYƏNİN ƏDALƏT VƏ İNKİŞAF PARTİYASININ SƏDRİ RƏCƏB TAYYİB ƏRDOĞAN VƏ ONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*7 yanvar 2003-cü il* ........................................................................................ *261*

Azərbaycan prezidenti Heydər Əliyevin bəyanatı ........................................ *266*

Rəcəb Tayyib Ərdoğanın bəyanatı ........................................................... *268*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN ADINDAN TÜRKİYƏNİN ƏDALƏT VƏ İNKİŞAF PARTİYASININ SƏDRİ RƏCƏB TAYYİB ƏRDOĞANIN
ŞƏRƏFİNƏ VERİLƏN ZİYAFƏTDƏ NİTQ

*7 yanvar 2003-cü il* ........................................................................................ *273*

VƏLİ AXUNDOV ADINA ELMİ-TƏDQİQAT TİBBİ PROFİLAKTİKA İNSTİTUTUNA

*7 yanvar 2003-cü il* ........................................................................................ *281*

LİTVA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ROLANDAS PAKSASA

*9 yanvar 2003-cü il 283*

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB ƏHMƏD NECDƏT SEZƏRƏ

*9 yanvar 2003-cü il* ........................................ *284*

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB CORC BUŞA

*10 yanvar 2003-cü il* ........................................ *285*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
HEYDƏR ƏLİYEVƏ ANS ŞİRKƏTLƏR QRUPUNUN VƏ
ÇİNGİZ MUSTAFAYEV ADINA FONDUN TƏSİS ETDİYİ
«2002-ci İLİN ADAMI» MÜKAFATININ VƏ DİPLOMUNUN
TƏQDİM OLUNMASI MƏRASİMİ

*11 yanvar 2003-cü il* ........................................ *286*

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ MÜLKİ TƏDQİQATLAR VƏ
İNKİŞAF FONDUNUN PREZİDENTİ GERSON ŞER İLƏ GÖRÜŞ

*14 yanvar 2003-cü il* ........................................ *301*

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV
TEKFEN QARA DƏNİZ FİLARMONİK ORKESTRİNİN KONSERTİNDƏ

*14 yanvar 2003-cü il* ........................................ *305*

MDB İCRAİYYƏ KOMİTƏSİNİN SƏDRİ – İCRAÇI KATİBİ YURİ YAROVUN
BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ
GÖRÜŞ

*16 yanvar 2003-cü il* ........................................ *307*

QIRĞIZISTAN RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB ƏSGƏR AKAYEVƏ

*16 yanvar 2003-cü il* ........................................ *309*

AZƏRBAYCAN PEZİDENTİ HEYDƏR ƏLİYEV 20 YANVAR FACİƏSİNİN 13-cü İLDÖNÜMÜNƏ HƏSR OLUNMUŞ MƏRASİMDƏ

*18 yanvar 2003-cü il* ........................................................................... *310*

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV QANLI YANVAR FACİƏSİNİN 13-cü İLDÖNÜMÜ İLƏ ƏLAQƏDAR ŞƏHİDLƏR XİYABANINI ZİYARƏT ETMİŞDİR

*20 yanvar 2003-cü il* ........................................................................... *312*

ŞRİ-LANKA DEMOKRATİK SOSİALİST RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ XANIM ÇANDRİKA KUMARATUNQAYA

*21 yanvar 2003-cü il* ........................................................................... *314*

HİNDİSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ƏBDÜL KALAMA

*21 yanvar 2003-cü il* ........................................................................... *315*

HİNDİSTAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB ATAL BİHARİ VAÇPAİYƏ

*21 yanvar 2003-cü il* ........................................................................... *316*

AVSTRALİYANIN BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB CON UİNSTON HOVARDA

*21 yanvar 2003-cü il* ........................................................................... *317*

YENİ ZELANDİYANIN BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ XANIM HELEN KLARKA

*21 yanvar 2003-cü il* ........................................................................... *318*

GÜRCÜSTANIN PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB EDUARD ŞEVARDNADZEYƏ

*22 yanvar 2003-cü il* ........................................................................... *319*

YUNESKO-nun BAŞ DİREKTORUNUN MÜAVİNİ MUNİR BUŞENAKİ VƏ BAŞ DİREKTORUN BAŞ MÜŞAVİRİ XORST QODİKE İLƏ GÖRÜŞ

*23 yanvar 2003-cü il* ........................................ *321*

ƏMƏKDAR İNCƏSƏNƏT XADİMİ MUSA MİRZƏYEVƏ

*25 yanvar 2003-cü il* ........................................ *325*

AZƏRBAYCAN YAZIÇILAR BİRLİYİNİN «AZƏRBAYCAN» JURNALINA

*25 yanvar 2003-cü il* ........................................ *327*

ÖZBƏKİSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İSLAM KƏRİMOVA

*25 yanvar 2003-cü il* ........................................ *329*

MDB-nin ÜZVÜ OLAN ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARININ QEYRİ-RƏSMİ ZİRVƏ GÖRÜŞÜNDƏ İŞTİRAK ETMƏK ÜÇÜN KİYEV ŞƏHƏRİNƏ YOLA DÜŞMƏZDƏN ƏVVƏL BİNƏ BEYNƏLXALQ HAVA LİMANINDA JURNALİSTLƏRƏ VERDİYİ MÜSAHİBƏ

*28 yanvar 2003-cü il* ........................................ *330*

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV KİYEV ŞƏHƏRİNDƏ

*28 yanvar 2003-cü il* ........................................ *334*

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV MDB-nin ÜZVÜ OLAN ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARININ QEYRİ-RƏSMİ ZİRVƏ GÖRÜŞÜNDƏ

*29 yanvar 2003-cü il* ........................................ *339*

KİYEVDƏN BAKIYA QAYIDARKƏN BİNƏ BEYNƏLXALQ HAVA LİMANINDA JURNALİSTLƏRƏ VERDİYİ MÜSAHİBƏ

*29 yanvar 2003-cü il* ........................................ *343*

UKRAYNANIN MÜDAFİƏ NAZİRİ, ORDU GENERALI
VLADİMİR ŞKİDÇENKO İLƏ GÖRÜŞ

*30 yanvar 2003-cü il* ........................................................................................ *347*
AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB CORC BUŞA

*1 fevral 2003-cü il*........................................................................................... *350*

STALİNQRAD VURUŞMASINDA QƏLƏBƏNİN 60 İLLİYİNƏ
HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ YIĞINCAĞIN
İŞTİRAKÇILARINA

*1 fevral 2003-cü il*........................................................................................... *351*

HİNDİSTAN RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB ƏBDÜL KALAMA

*3 fevral 2003-cü il*........................................................................................... *353*

İSRAİL DÖVLƏTİNİN BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ
CƏNAB ARİEL ŞARONA

*3 fevral 2003-cü il*..............................................................................................*354*

AZƏRBAYCAN HƏMKARLAR İTTİFAQLARI KONFEDERASİYASININ II
QURULTAYINA

*3 fevral 2003-cü il* ......................................................................................... *355*

MDB-nin ÜZVÜ OLAN ÖLKƏLƏRİN MƏDƏNİ ƏMƏKDAŞLIQ
ŞURASININ BAKIDA KEÇİRİLMİŞ 18-ci İCLASININ İŞTİRAKÇILARI
İLƏ GÖRÜŞ

*4 fevral 2003-cü il* .......................................................................................... *358*

TÜRKSOY TƏŞKİLATININ ÜZVÜ OLAN ÖLKƏLƏRİN
MƏDƏNİYYƏT NAZİRLƏRİ DAİMİ ŞURASININ
XIX TOPLANTISININ İŞTİRAKÇILARI İLƏ GÖRÜŞ

*6 fevral 2003-cü il* ........................................................................................ *367*

AZƏRBAYCAN HƏMKARLAR İTTİFAQLARI
KONFEDERASİYASININ II QURULTAYINDA İŞTİRAK EDƏN

XARİCİ HƏMKARLAR İTTİFAQI TƏŞKİLATLARININ
NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*6 fevral 2003-cü il* ........................................................................................ *381*

*Q E Y D L Ə R* ........................................................................................ *391*

*Şəxsi adlar göstəricisi* ........................................................................................ *439*

*Coğrafi adlar göstəricisi* ........................................................................................ *446*

**Kitabı çapa hazırlayan** ***Tofiq Babayev***

**Rəssamı** ***Fuad Fərəcov***
**Texniki redaktoru** ***Zoya Nəcəfova***
**Yığım üzrə operator** ***İlhamə Kərimova***
**Kompüter tərtibatı** ***Məhəbbət Orucov***

Cildin hazırlanmasında AzərTAc-ın materiallarından istifadə olunmuşdur.

«Tayms» qarnitur. Formatı 60x90 1/16. Ofset kağızı 1. Şərti çap vərəqi 29,0.
Uçot vərəqi 29,5. Tirajı 5000. Müqavilə qiyməti ilə.

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi
Azərbaycan Dövlət Nəşriyyatı. Bakı – Mehdi Hüseyn küç. 61. dalan 2, ev 3.
«Qismət» Nəşriyyat, Poliqrafiya və Ticarət LTD tərəfindən çap olunmuşdur.